ZİYA BÜNYADOV



# QIRMIZI TERROR

*Bu da tarixin daha bir ibrət dərsidir.*
*Gənclərimiz gərək bu dərsi də unutmasınlar.*

**Ziya Bünyadov**

# QIRMIZI TERROR

108664

Azərbaycan Milli
Kitabxanası

**Ziya Bünyadov. QIRMIZI TERROR**
Bakı, QANUN nəşriyyatı, 2017, 304 səhifə, 500 tiraj

Korrektor: Elsevər Muradov

© QANUN nəşriyyatı, 2017
© Azərnəşr, 1993

ISBN 978-9952-36-325-8

QANUN nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

# ÖN SÖZ

Oxucum! İndiyədək buna oxşar kitab görüb-oxumamısan. Burada ölkədə hökm sürmüş diktator rejiminin biləəkdən məhv etdiyi həmvətənlərimizin kədərli bioqrafiyaları toplanmışdır. Sən günahsız güllələnmiş, Sibirə və müxtəlif həbs düşərgələrinə göndərilmiş yurddaşlarımızın həyatlarının son günlərini və saatlarını ancaq fikrən təsəvvürə gətirə bilərsən.

«Sosializm» illərində saysız-hesabsız azərbaycanlıların həyatlarını buğda dəni kimi üyütmüş dövlət cəza dəyirmanının necə işlədiyini isə ancaq həmin dövrün dəhşətlərini görüb, acısını çəkmiş nənə və babalarımız xatırlaya bilərlər. Təəccüblü deyil ki, 1920-ci il aprelin 28-də Azərbaycan Demokratik Respublikasının əvəzinə hökumət başına gələn Sovet hakimiyyəti Leninin «Yaşasın müstəqil Azərbaycan!» teleqramına əsasən Demokratik hökumət tərəfindən əsası qoyulmuş Azərbaycan xalqının tərəqqisinə və çiçəklənməsinə kömək vəd etdiyi halda, hökmranlığının elə ikinci günündən – 1920-ci il aprelin 29-dan Azərbaycanın çiçəklənməsi naminə işləyə biləcək kəslərin hamısını aradan götürmək xəttini həyata keçirməyə başladı.

Sözün hərfi mənasında XI Qızıl Ordunun İnqilabi Hərbi Şurası və Azərbaycanın yeni Sovet hökuməti öz fəaliyyətinin ikinci günündən «Müsavat» və «İttihad» partiyalarının rəhbərləri, sovet hakimiyyəti ilə əməkdaşlıq ruhunda bu partiyaların sonradan da fəaliyyət göstərəcəkləri barədə rəsmi müqavilə bağladı. Lakin bu müqavilələr tezliklə Azərbaycan xalqının qəddar düşməni Pankratovun rəhbərlik etdiyi XI Ordunun Xüsusi Şöbəsi tərəfindən pozuldu. Bu xüsusi şöbə, onun ardınca isə ÇEKA kütləvi həbslər aparmağa başladı, Lenin və Trotski tərəfindən yaradılan həbs düşərgələri az vaxtda Azərbaycan ziyalı nümayəndələri hesabına dolduruldu. Bu, qanunsuz cəza tədbirlərinə məruz qalan həmvətənlərimizin birinci axını idi.

Repressiyanın ikinci, daha güclü dalğası isə iyirminci illərə düşür və bu dalğa minlərlə azərbaycanlı kəndlisinin həyatını aparmışdır.

Məlumdur ki, bolşeviklər Oktyabr silahlı üsyanını qardaş qırğınına qoşulan kəndli kütləsi sayəsində həyata keçirə bilmişdilər. Çünki onlar kəndlilərə torpaq vəd etmişdilər. Buna görə də əvvəlcə torpağı kəndlilərə payladılar. Sonra isə onları tezliklə cürbəcür vergi və "ərzaq saplağı" ilə boğmağa başladılar. Kəndlilərin müqaviməti əvvəlcə çoxlu kəndli ailələrinin antisovet elementlər kimi Sibirə və Uzaq Şimala – orada hamısı ,əlbəttə ki, məhv oldular – sürgün etməklə qırılırdı. Sonradan 20-ci illərin sonları, 30-cu illərin əvvəllərində bədnam «kollektivləşmə» və ortabab kəndlilərin bir sinif kimi (qolçomaq adı ilə) ləğv edilməsinə başlanıldı. Sovet cəza orqanları tərəfindən onların bütün mülkiyyətinin əlindən alınması, daha doğrusu, mülkiyyətlərinin həyasızcasına mənimsənilməsi kəndlilərin kütləvi çıxışlarına səbəb oldu. Kənd sakinlərinin öz hüquqları uğrunda bu çıxışları siyasi orqanlar tərəfindən banditizm adlandırıldı və nəticədə orqanlar bu narazılıq və çıxışları silahla yatırmağa başladılar, özü də ən müasir silah və hərbi texnika tətbiq etməklə. Orqanların yaratdığı fövqəladə Üçlüklər Naxçıvan, Qarabağ, Şəki, Zaqatala, Quba, Lənkəran, Abşeron və başqa yerlərin minlərlə sakinini güllələnməyə məhkum edir, sürgünə göndərirdilər. Üçlüklər isə əsasən ermənilərdən ibarət idi.

Azərbaycan xalqının həqiqi faciəsi isə 1936-cı ildən başlandı. Xalq əleyhinə, xüsusilə ziyalılar əleyhinə cəza tədbirləri 1937-1938-ci illərdə daha da amansızlaşmışdı, hakimiyyətdə oturmuş dövlət quldur dəstəsi görünməmiş vəhşiliklə Sumbatovun, Borşovun, Gerasimovun, Sinmanın, Şerin, Qriqoryanın, Markaryanın, Qalstyanın, Ohanesyanın, Avanesyanın və onların Atakişiyev kimi nökərlərinin və qeyrilərinin əlilə təxminən 70-80 min Azərbaycan ziyalı nümayəndəsi – alim, yazıçı, artist, müəllim, gənc, din xadimi, Sovet və partiya idarəsi əməkdaşı, hərbçi – bir sözlə, bütün düşünən beyinlər, qeyri-adi təfəkkür sahibləri bir ucdan məhv edildilər. Tək bircə xarici dil bilən şəxsləri də qırırdılar. Ölüm və cəza maşını dayanacaqsız və fasiləsiz işləyirdi. Hər bir «xalq düşməni»nə «məhkəmə» zamanı ancaq 15 dəqiqə vaxt ayrılırdı (tək-tək hallarda 20 dəq.). İndi qoy oxucu özü 1936-1937-ci illərdə bir saatda nə qədər adamın güllələnməyə məhkum edildiyini, nə qədər zəka sahiblərinin – azərbaycanlıların güllələndiyini özü hesablasın. Bir gündə 24 saat (96 nəfər), ayda 30 gün (2880 nəfər), 2 il yarımda isə 80 mindən çox. Bakıda bütün bu quldur tribunal iclaslarını Vı-

şinskinin müavini, bəşər övladının qatili Matuleviç, öz əlaltıları Zaryanov və Jiqurla birgə aparırdı. Biz ancaq Bakıdan danışırıq! Kim deyə bilər ki, Azərbaycanın kənd rayonlarında bu fövqəladə Üçlüklərin Xüsusi iclaslarının qərarları ilə neçə min günahsız məhv edilmişdir? Xüsusi düşərgələrə sürgün edilmiş «xalq düşmənləri»nin ailə üzvlərinin təxmini sayını kim deyə bilər?

Oxucum, lakin unutma ki, xalqımıza qarşı repressiya 40-50-ci illərdə də davam etmişdir. Bizim Sovet Azərbaycanına başçılıq edənlər tərəfindən neçə yüz min şəxsin həyatının məhv edildiyini hesablamaq çətin və bəlkə də qeyri-mümkündür. İbrətamizdir ki, öz həmvətənlərinə qarşı «qırmızı terror» düşünüb həyata keçirənlərin özləri də cilovsuz qan çanağının qurbanları oldular. Çünki külək yaradanlar mütləq tufana düşməli idilər. Qoy bu kitabda cəlladların əlilə qətlə yetirilmiş qohumlarının adlarını tapa bilməyənlər məni bağışlasınlar; axı hamı haqqında danışmaq mümkün deyil. Onların hamısını bununla təskinlik tapmağa çağırıram ki, əzizlərinin taleyi də burda adı çəkilənlərinkinə oxşar olmuşdur. Dərd bir də ondadır ki, günahsız qurbanların bu gün yaşayan övladları öz ata-babalarının cənazələrinin harada olduğunu bilmirlər. Allah onların hamısına rəhmət eləsin!

Oxucum! Bu kitab İradə xanım Əliyevanın böyük zəhməti sayəsində çıxdığına görə ona təşəkkürümü bildirirəm. Bütün materialları isə makinada Gülarə Əmirova yazmışdır. Gəlin ona da sağ ol deyək.

# ƏSL QIRIM ƏRƏFƏSİNDƏ

## «İttihad» partiyasının son günləri

Bir neçə gündür ki, 1920-ci ildə «İttihad» partiyasının əleyhinə XI Ordunun Xüsusi Şöbəsinin qaldırdığı 20201 nömrəli cinayət işini oxuyub tədqiq edirəm. Bu nəhəng iş (900 vərəq – 1800 səhifə) sözsüz ki, ətraflı öyrənməyi tələb edir. Partiyanın öncülləri doktor Qarabəy Qarabəyov, doktor Cəmil Ləmbəranski, Əlibəy Aşurbəyov, Məmməd Həsən Həsənov və partiyanın bir çox üzvlərinin (iş üzrə 155 nəfərin mühakimə olunduğu göstərilir) ifadələri tədqiqatçı üçün zəngin material verir.

«İttihad» partiyasının işi ilə bir neçə ay XI Ordunun Xüsusi Şöbəsi və onun rəisi, Azərbaycan xalqının cəlladlarından sayılan Pankratov məşğul olmuşdur.

Məlum olduğu kimi Azərbaycanda Sovet hakimiyyəti qurulduğu ilk gündən hökumət orqanlarının rəhbərləri indiki Bakı Sovetinin binasında hələ Sovet dövründən xeyli qabaq Azərbaycanda mövcud olan və fəaliyyət göstərən bütün partiyalarla centlmen (əməkdaşlıq) müqaviləsi bağlanmışdır. Lakin yeni hakimiyyətin cəza orqanları (XI Ordunun Xüsusi Şöbəsi, FK, DSİ) öz vədlərini pozaraq bütün partiyalara qarşı qırmızı terror elan etdilər və tezliklə ucdantutma həbslər və repressiyalar başlandı.

Mən artıq «Müsavat» partiyası üzvlərinin taleyi haqqında (bax: «Sovet həbs düşərgəsinin ilk məhbusları») yazmışam. «İttihad» partiyası üzvlərinin taleyi də məhz belə oldu. "Sonradan heç bir amnistiya hüququ verilmədən" onlar müxtəlif həbs düşərgələrinə göndərildilər, bu isə həmin

adamların məhvə məhkum edilməsi demək idi. XI Ordunun Xüsusi Şöbəsinin «İttihad» partiyasının ləğvinə yönəldilmiş agentura və istintaq işi metodlarını izləmək oxucular üçün, sözsüz ki, maraqlı olar.

XI Ordunun Xüsusi Şöbəsinin istintaq qrupunun 1920-ci il dekabrın 14-də qəbul etdiyi qərarını (işin 273-275-ci səhifələri), Paris konfransında Azərbaycan nümayəndə heyətinin üzvü Mir Yaqub Mehdinin doktor Q.Qarabəyova məktubunu (işin 276-cı səh.), AKP MK Siyasi Bürosunun 1921-ci il yanvarın 23-də keçirilən bağlı iclasının protokolundan çıxarışı (işin 277-ci səh.) və XI Ordunun Xüsusi Şöbəsi üçlüyünün 1921-ci il yanvarın 23-dəki qərarını (işin 278-279-cu səh.) diqqətinizə çatdırıram.

Oxucu görür ki, sənədlər hələ «təzə ikən», yəni Xüsusi Şöbənin işçiləri hələ Azərbaycan xalqı ilə «tanış» olmamış, öz ağalıqlarının iki ayından sonra vədlərinə xilaf çıxaraq heç bir davranış normaları ilə hesablaşmadan siyasi qanqster kimi hərəkət etmiş, Azərbaycan xalqının ən qabaqcıl hissəsini aradan götürmüşlər.

Azərbaycan xalqının müxtəlif səviyyəli cəlladlarının fəaliyyətinə ayıq və doğru qiymət vermək vaxtı artıq gəlib çatmışdır. Hələlik ələ verilməyən çoxlu sənədlərə yenidən baxmaq (aşkar edilib məhv edilməli olan), azərbaycanlıların qara siyahısını tapıb çap etdirmək lazımdır. Bu siyahılar haradasa var, lakin onları tapmaq çox çətin olacaq. Fəqət axtarmaq, axtarmaq lazımdır. Çünki bunu kirovlar, mirzoyanlar, serebrovskilər, pankratovlar, sumbatovlar və başqa qaniçənlər tərəfindən məhv edilmiş həmvətənlərimizin ruhları tələb edir.

Sənədlər qeydsiz verilir. Qoy oxucu özü onları qiymətləndirsin. Familiyaların və adların yazılışı olduğu kimi saxlanıb.

## QƏRAR

1920-ci il dekabrın 14-də biz, XI Ordunun hərbi müstəntiqləri – Babayev, Flyaqolts, Koribut və fəal hissənin katibi Petrosyan Azərbaycanda Sovet hakimiyyətinin silahlı üsyan yolu ilə devrilməsində ittiham olunan «İttihad" partiyasının 151 üzvünün və tərəfdarlarının istintaq işini icraatımızdan keçirib müəyyən etdik ki, 1917-ci ildən «Rusiyada müsəlmanlıq» adı ilə mövcud olmuş «İttihad» (Birlik) partiyası 1920-ci ilin aprel ayında Qırmızı Qoşunların Azərbaycana gəlməsilə bağlı fəaliyyətini dayan-

dırmışdır. Səbəb guya onların Sovet hakimiyyətilə elə bir prinsipial fikir ayrılıqlarının olmaması idi. Partiyanın buraxılması haqqındakı aktda iddia olunurdu: burjua «Azadlığı» çərçivəsində müsavatla açıq mübarizə aparan «İttihad» hesab edir ki, Qırmızı Sovet hissələrinin Azərbaycana gəlməsi müsavatçılarla mübarizədə müsbət həllini tapır. Və öz məqsədinə çatmış «İttihad» səhnədən gedir; hər hansı bir ciddi, müəyyən siniflərin içərisində kök salmış siyasi partiya mövqelərini döyüşsüz vermir, eləcə də «İttihad». Orta və xırda burjuaziyanın ümidlərinin ifadəçisi olaraq əlbəttə, o özünü buraxma aktı ilə demək istəmirdi ki, «İttihad» ölüb və daha həyata qayıtmayacaq: göstərilən aktla partiyanın bütün üzvlərinə və ona rəğbət bəsləyən burjuaziyaya «cəbhəni döndərmək», Azərbaycan üfüqlərində yeni təhlükəli bolşevik gücünü nəzərə almaq və başı kəsilmiş rus burjuaziyasının, fəhlə sinfi tərəfindən məhv edilmiş eserlərin və menşeviklərin son metodları ilə mübarizəyə hazırlaşmaq siqnalı verilirdi. İş öz dibsiz ciblərinin mənafeyinə çatanda vəziyyəti gözəl başa düşən burjuaziya şəraiti nəzərə alaraq bütün Yaxın Şərqdə tanınan avantürist doktor Qarabəy Qarabəyovun rəhbərliyilə fəhlə sinfinin nailiyyətlərini boğmağa, öz itirilmiş hüquqlarını bərpa etməyə yönəldilmiş fəaliyyətinə başladı. Qarabəyova təqdim olunmuş ittihamı sübut edən faktiki material Paris konfransına Azərbaycan nümayəndəliyinin üzvü Mir Yaqub Mehdinin məktubudur. Göstərilən sənəddə deyilir ki, Qırmızı Ordunun Azərbaycana girməsilə onlar – «İttihad»çılar ondan rəhbər göstərişlər gözləyirlər və Azərbaycanın milli dirçəliş ümidləri onun adı ilə bağlıdır. Öz nüfuzundan istifadə edərək o, üzərinə düşən borcu yerinə yetirəcəkdir. Qarabəyov Mir Yaqubdan məktub aldığını inkar etsə də, bu, ona verilən ittihamla sübut olunur. Mübarizə metodu kimi rus burjuaziyasının və onun nökərlərinin bədnam üsullarından: təbliğatdan, fitnəkarlıqdan, Bakı proletariatını və onun nailiyyətlərini qan içərisində boğmalı olan silahlı üsyandan istifadə edilməli idi.

1920-ci ilin iyul ayında fəaliyyətə başlayan, nə vaxtsa «vahid» olmuş «İttihad» üç müstəqil qrupa bölünür: «Vətən və ya ölüm», «Mərkəzi İttihad», «Quranın əmin-amanlığı». Göstərilən qruplar ideya və təşkilat cəhətdən müstəqil işləyirdilər, amma hamı sınanmış Qarabəyovun rəhbərliyi altında «Məhv olsun sovet hakimiyyəti!», «Bolşevizmə ölüm!», «Başda milli hökumətlər olmaqla Şərqdə müsəlmanlığa eşq olsun!" şüarları ətrafında birləşirdilər. Əvvəlcədən düşünülmüş niyyətlərin həyata keçirilməsində müsəlman kəndlisinin son həddə çatmış fanatik cəhalətinə, xırda

və orta burjuaziyanın Sovet hakimiyyətinə olan barışmaz nifrətinə, mənfur MÜSAVATIN devrilməsindən sonra hələ soyumamış dar-millətçi ovqatlara bel bağlanırdı. «İttihad»ın hər üç nöqtəsi Sovet hakimiyyətinə nifrət bəsləyir və onu yıxmaq təşəbbüsündə idi. Qarabəyov bu qruplar içərisində əsas diqqəti sayının çoxluğu ilə seçilən və maddi cəhətdən təminatlı olan «Vətən və ya ölüm» qrupuna yetirirdi. Möhtərəm Qarabəyovun xüsusi diqqətində olan «Vətən və ya ölüm» qrupu avqust, sentyabr, oktyabr aylarında sürətlə artmağa başlayır. Geniş dalğa ilə qrupa tacirlər, mülk sahibləri, orta neft sənayeçiləri, türk zabitləri və müsavat tör-töküntüsü axışıb gəlirdi. Qəsbkarlara alovlu nifrət bəsləyən, fəhlə hakimiyyəti tərəfindən həbs olunmuş başçılarını itirən partiyalar və öz millətçi niyyətlərini həyata keçirmək üçün təkcə Dağıstanla deyil (birləşməklə Dağıstana şirnikləndirici vədlər verirdilər), həm də Türküstan və İran təbəələri ilə Lənkəran vasitəsilə əlaqələr yaradırlar.

Sentyabr ayında Azərbaycanın ucqarlarında yeni qüvvə ilə alışan üsyan və millətçilik ideyalarına yad olmayan Kamal paşanın qoşunlarının Azərbaycan sərhədlərinə yaxınlaşması partiyanı ruhlandırırdı. O, oktyabr ayı ərəfəsində silahlı üsyana hazırlığı var gücü ilə inkişaf etdirirdi. Bu işi daha da gücləndirən rəhbərlər hesab edirdilər ki, silahlı üsyanlar yalnız Dağıstanda razılaşdırılmış çıxışlarla birgə mümkündür. Oktyabr ayında «Vətən və ya ölüm» qrupu təbliğat və təşviqat aparatını xeyli dərəcədə qaydaya sala bildi, tərəfdarlar cəlb etdi; Sovet idarələrinin, hərbiçilərin həyatı və fəaliyyəti barədə məlumat topladı, silah təminatını və rabitəni nizama saldı. İşdə olan agentura və istintaq məlumatlarında təşkilatın oktyabr ayındakı fəaliyyətinin aşağıdakı mənzərəsi məlum olur.

Partiyanın fəaliyyət rayonu: Dağıstanla rabitə yaratmaq üçün Azərbaycan Hərbi Məktəbinin rota komandiri Aslan Aslanov oraya daimi işə ezam edilir. Canlı rabitə ləzgi «Məmməd» vasitəsilə həyata keçirilir. Türküstanla əlaqə üçün oradan iki qırmızı kursant gəlir. Türküstanla daimi əlaqələri nə istintaq, nə də agentura yolu ilə aydınlaşdırmaq mümkün olmuşdur. İran ilə rabitə Həsənov vasitəsilə, XI Ordunun ərzaq şöbəsinin İranla ticarət əlaqələri saxlayan nümayəndəsi vasitəsilə həyata keçirilirdi. Azərbaycanda Şuşa, Gəncə və Göyçayla təşkilat əlaqələri yaradılırdı – göstərilən şəhərlərdə təşkilatları aşkar etmək mümkün olmadı.

## TƏBLİĞAT VƏ TƏŞVİQAT APARATI

Təbliğat-təşviqat işləri əyalətlərə nisbətən Abşeron yarımadasının kəndlərində daha yaxşı təşkil olunmuşdur. Məmməd Həsənovda tutulmuş plandan və agentura məlumatlarından görünür ki, Abşeron kəndlərinə təbliğatçılar müntəzəm olaraq gəlirdilər. Planda bu və ya digər yaşayış məntəqəsinin etibarlı olub-olmaması barədə qeydlər var. Balaxanı, Suraxanı fəhlə rayonları etibarsız sayılırdı (qarşısında mənfi işarəsi vardır). «İttihad»ın apardığı təbliğat Qurana əsaslanırdı. Cahil müsəlmanları ayağa qaldırmaq üçün adi təxribatçı vasitələrdən, məsələn, belə təbliğatdan istifadə edirdilər: «Bolşeviklər sizin arvadlarınızı yığacaq, onların əvəzində sizə Kazandan arvad göndərəcəklər», «Bolşeviklər Quranı ayaq altına salıb murdarladılar», "Bolşeviklər sizi ermənilərlə bir kazarmaya salacaqlar, arvadlarınız da ermənilərlə şərik olacaq» və s. və i. a. Kəndlərə təbliğatçılar göndərmək işinə Məmməd Həsən Həsənov və Məmməd Rəsul İsmayılov rəhbərlik edirdilər, hesabatları dinləyir və gələcək üçün göstərişlər verirdilər. Onlara həvalə olunmuş iş «agentura və istintaq məlumatları ilə təsdiq olunur».

## CƏLBETMƏ APARATI

Cəlbetmə aparatı Məmməd Rəsul İsmayılovun və Məmməd Həsən Həsənovun əlində idi. Cəlb edilənlərin görüş yeri İsmayılovun Sisiyanov küçəsindəki zirzəmisində idi. Cəlbetmə Bakının rayonları və kəndləri üzrə rayon təşkilatçıları tərəfindən həyata keçirilirdi. Bunun üçün Bakı və Abşeron aşağıdakı mərkəzlərə bölünmüşdü: Bakı – Məmməd Rəsul İsmayılov, Lenin adına fabrik – Balaxan Bakıxanov, Əhmədli və Zığ rayonu kəndləri – Məmməd Əsgər (məşhur qoçu), Suraxanı rayonu – Əliheydər Haqverdi oğlu (yerli qoçu), Balaxanı rayonu – Teymur Əli oğlu. Bütün rayon təşkilatlarını birləşdirən və onlara rəhbərlik edən Həsən Həsənovdur. Bu, onda tapılan planla təsdiq olunur. Mövcud olduğu vaxtdan «Vətən və ya ölüm » qrupu bir neçə yüz tərəfdar cəlb etmişdir. Cəlb edilənlərin əsas faizi Abşerona aiddir. Onların siyahıları tutulurdu, lakin bu siyahıları tapmaq mümkün olmadı və ona görə də bircə Qala kəndindən başqa cəlb olunanlar adbaad məlum deyil. Qiyamın başçıları öz «qiymətli» canlarını qorumaq üçün təşkilata qəbulu bir sıra andlar və şərtlərlə bağlayırdılar.

Partiyaya girməzdən əvvəl hər bir cəlb edilən hamama gedib pak olmalı, sonra Qurana əl basıb, «İttihad»a sadiq olduğuna, təşkilatın sirlərini verməməyə and içməli idilər. Qurana əl basmaq qəsd üzrə həbs olunanların hamısını susmağa məcbur edirdi və bu da «İttihad» partiyasının bütün cinayət işini təfərrüatı ilə, açıq şəkildə üzə çıxarmağa imkan vermədi.

## MƏLUMATÇILAR ŞƏBƏKƏSİ

Düşünülmüş üsyanı uğurla həyata keçirmək və Sovet hakimiyyəti orqanlarının fəaliyyəti barədə məxfi məlumat toplamaq məqsədilə partiya hər idarə üzrə öz məlumatçılar şəbəkəsini təşkil etmişdir. Azərbaycan SSR-in Hərbi Dəniz Xalq Komissarlığında: Hərbi Dəniz Xalq Komissarının katibi Əliyev, dəftərxana rəisi Tahirov və kiçik mövqeli digər əməkdaşlar. Fövqəladə komissiyada ibtidai istintaq üzrə müvəkkil Ələkbərov, xüsusi tapşırıqlar üzrə casus, zabit, avantürist Şərifov və mülki istintaq orqanlarında bir neçə görkəmli əməkdaş: Bakı üzrə V istintaq komissiyasının üzvü Seyidov, Dəmir yolunda dəmiryol müfəttişi Səlimov, dəmiryol milisində, Bakı şəhər milisində – bütün rayonlarda milis nəfərləri, ehtiyat Azərbaycan batareyasında zabit Vəliməmmədov, Azərbaycan artilleriya idarəsində Talışinski, Azərbaycan Hərbi Dəniz Məktəbində Əsgər Aslanov. Respublikanın bütün əsas orqanlarında agentləri olan təşkilat üsyan başlayacağı halda hərbi donanmadan ümidsiz idi. Çünki burada partiya agentlik yarada bilməmiş, cəlbetmə işini həyata keçirməmişdir. Buna XI Ordunun Xüsusi Şöbəsi mane olmuşdur.

## SİLAH VƏ MALİYYƏ VƏSAİTİ İLƏ TƏCHİZAT

Silahları: tüfəngləri, pulemyotları, tapançaları partiya müxtəlif mənbələrdən toplayırdı. Abşeron kəndlərində əhalidə Sovet orqanlarına təhvil verilməmiş çoxlu silah qalırdı. Silah və patron alınması faktları sentyabr ayında silah alveri üzrə aparılmış çoxlu həbslər nəticəsində aşkar olunmuşdur.

Dəmir yolunda və Bakıda milis nəfərlərinin cəlb edilməsi partiyaya silahlı üzvlər verirdi. Lenin adına fabrikin yaxınlığındakı vaqonda olan si-

lahların ələ keçirilməsi nəzərdə tutulurdu. Artilleriya idarəsində və Cənubi Azərbaycan batareyasında işləyən sabiq adamların köməyilə Zığa 4 top gətirmək qərara alınmışdır. Təşkilatın Əlində imzalı vərəqələrlə burjua nümayəndələrindən və tacirlərdən toplanmış böyük pul vəsaitləri var idi. Bu, Kərbəlayi Musadan tutulmuş imzalı vərəqələr və ələ keçirilib işə tikilmiş üzvlük haqları kitabları ilə təsdiq olunur. Pul məbləğini isə ələ keçirmək mümkün olmadı.

## ÜSYANA HAZIRLIQ

Üsyana hazırlıq iki istiqamətdə gedirdi: Birincisi, Lənkəran qəzasındakı və Dağıstanda fəaliyyət göstərən quldur dəstələri ilə daha sıx əlaqə yaratmaq üçün tədbirlər görülürdü. Bunu 1920-ci ilin oktyabrında ləzgi «Məmməd»in məktublarla birlikdə Dağıstana səfəri təsdiq edir. İşin ilhamçısı Qarabəy Qarabəyov Sovet İranına getmək üçün bütün üsullara əl atırdı. O, rus Astarasından quldur dəstələri ilə birləşmək, təhlükəsiz şəraitdə ümumi üsyana tam qüvvə ilə hazırlaşmaq niyyətində idi. Yuxarıda deyilənlər Qarabəyovun Xüsusi Şöbənin rəisinə İrana keçmək üçün icazə kağızı verilməsi barədə yazılı ərizələri və şəxsi xərcləri ilə təsdiq olunur. Göstərilən faktlar agentlərin məlumatları ilə düz gəlir. İrana getmək baş tutmadıqda Qarabəyov bir vaxtlar Nuru paşa ilə birlikdə səfər etdiyi Zaqatala dairəsinə üz tutur, buradan İrana keçmək, sonra Dağıstan «Müqəddəsləri», İmam Qotsinski və Əlixanovla əlaqəyə girmək fikrinə düşür. Bunun üçün Qarabəyov hərbi hissələrdən birinin komandiri Engelmana onunla birlikdə Zaqatalaya gedib xidmət etməyə razılıq verir və Sovet hakimiyyətinə qarşı üsyan qaldırmaqda və Gürcüstana keçməkdə köməklik göstərəcəyini vəd edir. Deyilənlər Qarabəyovun şəxsi ifadəsi ilə təsdiq olunur, lakin bu yerdə Qarabəyov ustalıqla fənd işlədərək bəyan edir ki, Zaqatalaya getməyə razılıq verəndə o, Az. FK-nın agenti kimi hərəkət etmişdir. Qarabəyov Zaqatalaya keçə bilmədi. Bu zaman Xüsusi Şöbə tərəfindən həbs edildi.

«VƏTƏN VƏ YA ÖLÜM» qrupu oktyabrın axırları üçün Dağıstan və Azərbaycanın ucqarları ilə əlaqə yaradılmasına müvazi olaraq öz işinin hazırlıq mərhələsinin tamamlanmasına gəlib çatırdı. Təşkilatın görüş yeri – İsmayılovun Sisiyanov küçəsindəki zirzəmisi qaynar fəaliyyət ocağına çevrilmişdi. Oktyabrın əvvəllərində ümumi iclas keçirilir. Sonuncu ümumi

iclasda rayon təşkilatçılarına rayonlar üzrə qüvvələri hesaba almaq, silahlı və silahsız üzvlərin sayını müəyyənləşdirmək təklif olunur. Silahı olmayanları Bakıda satın alınmış silahlarla silahlandırmaq nəzərdə tutulurdu. Sovet hakimiyyəti tərəfindən aşkar olunmaq qorxusundan partiya silah anbarları düzəltmirdi. Alınan silah təşkilatın üzvləri arasında yayılırdı. Bu, Süleyman Məlik oğlu, İbad Qədirov, Qasım İsmayıl oğlu, Yusif İsmayıl oğlu və Süleyman Rəşidovun birləşərək Əliyusif Bağırovu təşkilata məxsus olan silahı gizlətməkdən imtina etdiyinə görə döyməkləri faktı ilə təsdiq olunur. Oktyabr ayı ərzində hər gün təşkilata yeni cəlb olunan 15-20, nəfər habelə rayonlardan buraya yerinə yetirilən tapşırıq barədə hesabat verməyə xeyli adam gələrdi. Zirzəmiyə gəlib-gedən şəxslərin «İttihad»a məxsusluğu faktı aşağıdakılarla təsdiqlənir: güdükçülər zirzəmidə ancaq uzun müddət olan və heç bir şey almadan çıxan şəxsləri nəzarətdə saxlayırdılar. Partiya Ərəbbaloğlan kəndi yaxınlığında cəlbetmə və fərari əsgərlərdən ibarət kiçik dəstələr yaradıb, ştab təşkil edir. Azərbaycan artilleriyası idarəsindəki şəxslərin köməyilə 4 topun Zığa gətirilməsi üçün tədbirlər görülür. Hərbi Donanmanın qorxusundan və Həştərxandan gələn dəniz xəbərləri nəticəsində topların ələ keçirilməsi gecikdirilir.

## ÜSYANIN PLANI

Əsas niyyət öz fəaliyyətlərini Lənkəran qəzasındakı quldur dəstələri və İmam Qotsinski və Əlixanov tərəfindən başçılıq edilən Dağıstan qiyamçıları ilə əlaqələndirmək, habelə Zəngəzurda qalxmış üsyanı nəzərdə tutub bizim hərbi qüvvələrimizin diqqətini oraya yayındırmaqdan istifadə etmək idi. Həştərxanla su rabitəsinin kəsilməsi ilə «İttihad» Bakıda silahlı üsyan qaldırmaq qərarına gəlir. Qarşıya XI Ordunu təchizat bazasından məhrum etmək məqsədi qoyulur. Dağıstan üsyançıları Vladiqafqaz dəmiryolunu kəsirlər. Həştərxanla rabitə isə təbii şəkildə kəsilir – Volqa donur. Bakıdan verilən siqnalla Abşeron kəndlərində üsyan qalxır. Abşeron üsyançılarının bir hissəsi Zığa yaxınlaşır, onlar ora çatınca dörd top yerində qurulur (Zığda 1918-ci ildə türklər tərəfindən atılmışdı), beşinci top təmir olunur. Abşeron üsyançılarının o biri hissəsi Bakı ətrafındakı dəmiryol məntəqələrini tutur ki, bu da Həsənovda tapılmış planla təsdiq olunur. Ərəbbaloğlanda təşkil olunmuş fərari dəstələri Hacıqabul istiqamətindən

Bakıya irəliləyir. Təşkilatın Bakıda qalmış üzvləri gecə şəhərdə nizamsız atəş açır, Bakı qarnizonunda çaxnaşma yaratmaq məqsədinə nail olurlar və qarnizon hissələrinin diqqətini Zığdan yayındırırlar. Üsyana bir qrup türk zabiti rəhbərlik edir: Xəlil Əfəndi – Lenin adına fabrikin bütün fəhlələrinin tanıdığı avara, dələduz, Şükri Rəfi oğlu, Əhməd Əfəndi, Məmməd Rəsul İsmayılov – məşhur qoçu Məşədi Əsgər ilə birlikdə. Hərəkata «İttihad"ın Mərkəzi Komitəsinin sədri Qarabəyov rəhbərlik edir. Zülfüqar Mirzəli oğlunun, Həbib Ələkbərovun və başqalarının şahid kimi verdikləri ifadələrə, işdəki agentura məlumatlarına görə müəyyən edilmişdir ki, Azərbaycanda silahlı üsyana hazırlıqla bağlı «İttihad» partiyasının işində aşağıdakı şəxslərin iştirakı sözsüzdür:

A) Şəxsən etiraf etdiklərinə və axtarış zamanı özlərindən tapılan əşyayi-dəlillərə görə iştirakı təsdiq olunan şəxslər:

1. Xurşid Rəşidov
2. Həbib Ələkbərov
3. Rəsul Nəcəfqulu
4. Hüseynbala Məmmədbaği
5. Kərbəlayi Musa Mirzəməmməd oğlu
6. Əbdüləli Mirəli oğlu
7. Mirmurtuza Mirmövsümzadə
8. Əliheyər Şahverdi oğlu Rəhimov
9. Cavad Şahverdi oğlu Rəhimov
10. Balaaslan Abdi oğlu Balayev

B) Agentura məlumatı və şahidlərin verdikləri ifadələrə görə iştirakı təsdiq olunan şəxslər:

Qarabəy Qarabəyov, Məmməd Həsən Həsənov, Əsgər Aslanov, Babacan Yusifzadə, Dadaş Nağı oğlu, Ələsgər Əliyev, Məmmədcamal Süleyman, Əjdər Ələkbərov (Azərbaycan FK-nın müstəntiqi), Mirnağı Həsənov (Azərbaycan FK-nın əməkdaşı), Məmmədmehdi İsmayıl oğlu Rəsulov (zirzəminin sahibinin qardaşı), Rəsul Süleyman İsmayılov, Ziyad Rəhimzadə, Əsədulla İbrahim oğlu, Ağabala Bağırov, Əlövsət Məcid oğlu Məcidov, Şükri Rəib oğlu, Mirabdulla Əziz Seyidov, Ağarza Cəlilov, Məşədiyusif Salayev, Ağabəy Yusifov, Sadıq Məşədi Abbasqulu Nəcəfov, Süleyman



Məlik Rəşidov, Əlihəsən Əliheydər, Əlisa Kərimov, Mehdi Qulam Mirzə oğlu Qulamov, Ağasəlim Şərifov (o, həm də Səlim İzzət Səftər oğlu Şərifzadədir), Sədulla Məlikməmmədli Əliyev, Hacı Seyid oğlu Tağıyev, Abdulla Zeynalov.

C) Agentura vasitəsilə aşkar edilən şəxslər: Məşədi İbrahim oğlu Həsənov, Kərim Süleyman Kələntərov, Məmməd Nağı Rəsulov, Mirzə İmamqulu oğlu, Qəmbər Məmməd Mirzə, Şah Ağa oğlu Əliyev, Ağa Salih Kələntər oğlu, Yusif Paşa, Əmir Həmzə, Mirqasım Mirabdulla oğlu, Səttarbəy Yusifbəyov, Qəzənfər Əbülfəz oğlu, Balaxan Bakıxanov, Allahbaxış Xəlil oğlu, Cəfər Cəfərov, Atakişi Məmməd Yusif oğlu Vəliməmmədov, Mustafayev Hacı Əbdül Baği, Salman Səbzəliyev, Ağababa Mirzəli oğlu, Mirzə Heydər bəy Ağa Kərim oğlu, Fərzulla Zərbəli oğlu Məlikov, Ağahüseyn Abbasquliyev, Abbas Həsən oğlu, Məmmədqulu Ağamirzə oğlu, Səmədağa Bala oğlu Allahverdiyev, Əli Tağıyev, Abbas Nağı oğlu, Zülfüqar Ağa oğlu, Xasbulat Əzizzadə, Həsən Harun, Cavad Qafarov, Ağahüseyn Məmmədov, Hüseyn bağır oğlu Vəzirov, Əlinağı Hüseynov, Xəlil Muxtar oğlu, Dadaş Həsənbəyov, Teymur Mənsur oğlu, Ağabala Abdullayev, Məcid Rəsul oğlu, Əli Əsgərov, Əlihüseyn Qəniyev, Heydər Əliyev, Hüseynbəy Seyidbəyov, Abbasqulu Bayramov, Mirzə Əliyev, Ələsgər Ələkbərov, Əlibəy Aşurbəyov, Abdulla Axundov, Rəcəbəli Cabbar, Ağa Dadaşmirzə oğlu Ağayev, Məşədi Məhərrəm Verdi (o, həm də Mövlan Azər Fərzalı oğludur), Hacı Əli Yusif oğlu, Mirələsgər Mirabbas oğlu Həsənov.

Ç) İştirakı nə istintaq, nə də agentura vasitəsilə təsdiq olunmayan şəxslər:

Abuzər Qulamov, Nəcəf Quliyev, Sabir İbadullayev, Ələsgər Əlimərdan oğlu Hüseynov, Şirməmməd Abasmirzə oğlu Həsənov, Almazan Rəhman oğlu, Məmməd Əsgərəli oğlu Tağıyev, Əjdər Mirzəli oğlu, Cəbrayıl Cəbrayılov, Əlibəy Qulubəy oğlu, Mikayıl Hüseynov, Mirzəbaba İsgəndərov, Ramazan Mirzəmməd oğlu, Ağababa Məmmədrəsul oğlu, Şükür Fərman oğlu, İsrafil Gülhüseyn oğlu, Nurverdi Mustafa oğlu, Abdulla Qurban oğlu, Əflatun Hənifə oğlu, Dadaş Yunis oğlu, Əliabbas Seyid oğlu, Əli Məşədi Mirzə Əli oğlu, Məmmədəli Mustafayev, Ələkbər Babayev, Hüseyn Cəfər, Məmmədcabbar Mehdiyev, Məmmədhüseyn Fərzullayev, Mirmehdi Miriyev, Anna Əmirxasova, Məmmədov Mirəli oğlu, Ələkbər Əliyev, Miraləm Mirəhməd oğlu, Nağı Tağıyev, Cabbar Süleyman Hacı İsgəndər, Teymur



108664
Azərbaycan Milli Kitabxanası

Əmir oğlu, Məşədi Həsən Səftər oğlu, Kərbəlayi Salman Hacıbaba oğlu, Əligül Ağabaxış oğlu, Əlikərəm Əhəd oğlu, Abbasqulu Səfqulu oğlu, Məlik Ağambaxış oğlu, Hacıbala Kumut oğlu, Zülfüqar Mirzə oğlu, Xudatbəy Məlikaslanov, Əli Heydər Seyfulla oğlu Abbasov, Süleyman Xəlil oğlu Abdullayev, İsmayıl Məmməd oğlu İbrahimov.

D) İştirakı istintaq və agentura faktları ilə təsdiq olunan, öz sosial vəziyyətinə və keçmiş fəaliyyətinə görə həbs düşərgələrinə salınmalı şəxslər:

1. Arsen Babayev
2. Məmməd Mirzə oğlu Həsənov
3. Vladimir Skripko
4. Mirzəli İbrahimov
5. Moqnos Tarasoviç Doqanadze

E) «İTTİHAD» partiyası Mərkəzi Komitəsinin üzvləri Cəmil bəy Ləmbəranski və Bəşirbəy Aşurbəyovun işinə fəhlə və kəndlilərin nailiyyətlərinə qəsd etmiş «İTTİHAD» partiyasının tam ləğvi məsələsilə birlikdə baxılmalıdır.

**Qərara alındı:** İş baxılmaq üçün XI Ordunun Xüsusi Şöbəsi üçlüyünün sərəncamına verilsin. Hərbi müstəntiqlər: Babayev, Flyaqolts, Petrosyan, Koribut.

Əsli ilə düzdür: Qeydiyyat şöbəsinin rəisi –
Nikolayev.

## Mir Yaqub Mehdinin doktor Qarabəyova Məktubu

*«Əziz yoldaşlar! Bakıda çevriliş (1920-ci il aprelin 28-də gecə hakimiyyətin bolşeviklərə verilməsini nəzərdə tutur. – Z.B.) həm mənim, həm də yoldaşlarım üçün gözlənilməz hadisə, əsl sürpriz olmuşdur. İndiyədək bizim üçün bu hadisələrin xarakteri kimi nəticələri də tamamilə anlaşılmaz qalmışdır.*

*Müxtəlif millətlərin mətbuat orqanları müxtəlif siyasi düzəlişlərlə bu hadisələri müxtəlif cür və çox vaxt da bir-birinə zidd şəkildə şərh edir. Baş verən hadisələr haqqında dəqiq və düzgün məlumatlar almaq üçün*

*Məhərrəmovu (Paris konfransında Azərbaycan nümayəndə heyətinin üzvü) Qafqaza ezam etməyi qərara almışıq (ezamiyyət baş tutmamışdır – Z.B.).*

*Bizə bircə şey aydındır – siz hərəkatın başında durursunuz. Buna görə də gözümüzü sizə dikmişik. Sizin partiya əqidəniz, meyliniz və əlaqələriniz barədə nə desələr də, bir şeyi həmişə yadda saxlamağı dönə-dönə xahiş edirik: Azərbaycan xalqının rifahı və onun müstəqilliyi naminə yorulmadan daim gərgin fəaliyyətiniz sizin vahid həyat amalınız olmalıdır.*

*Yoldaşlar, unutmayın ki, sizin tarixiniz var, tarixin üzərində isə Allah!*

*Yoldaşlar, bir daha ehtiyatlı olun!*

*Sizi sevən, həmişə sədaqətli yoldaşınız*

*Mir Yaqub»*

* * *

Məxfi

Azərbaycan
Kommunist Partiyası
Mərkəzi Komitəsi
1921-ci il 24 yanvar
№ 10/s

XI Ordunun
Xüsusi Şöbəsində

**AKP MK Siyasi Bürosunun 1921-ci il yanvarın 23-də keçirdiyi iclasın protokolundan**

**ÇIXARIŞ**

**Eşidildi:** «İTTİHAD» partiyasının sui-qəsdi ilə bağlı iş üzrə yoldaş Pankratovun məruzəsi.

**Qərara alındı:** 1. Azərbaycanda hazırkı şəraitdə «İTTİHAD» partiyasına qarşı açıq mübarizənin zəruri olduğunu hesab etmək.

2. Mübarizə metodları: izləmək, açmaq (?) və təşkilatı rəhbərsiz qoymaq.

3. Repressiya tədbirlərindən başqa, partiyanı parçalamaq üçün tədbirlər görmək və ən yaxşı ziyalı qüvvələrini oradan yayındırmaq.

4. Bu xəttə müvafiq olaraq hazırkı sui-qəsd işində kütləvi terrordan – güllələmədən istifadə etməmək (maraqlıdır, nə üçün birdən AKP MK Siyasi Bürosu o dövr üçün ənənəvi «kütləvi terror tədbiri olan güllələmə» sanksiyasını verməmişdir? Çox güman ki, AKP MK Siyasi Bürosunun üzvü N.Nərimanov bu sanksiyanın əleyhinə çıxış etmişdir – Z.B.).

5. Qarabəyovu, Həsən Həsənovu və Əlibəy Aşurbəyovu – partiyanın rəhbərlərini Azərbaycandan kənara sürgün etmək: Moskvaya (onlar Butırski həbsxanasına salınmışdılar – Z.B.).

6. Siyahı üzrə N.Nərimanov tərəfindən təsdiq edilən ən fəal və qatı üzvləri həbs düşərgələrinə göndərmək.

7. Qalanların isə bir daha «İTTİHAD» partiyasında iştirak etməyəcəkləri barədə dillərindən iltizam alıb azad etmək.

8. Bəşirbəy Aşurbəyov azad edilsin: belə ki, yoldaş Nərimanov onun bizə sadiq olduğunu bildirir və zaminə götürür.

Düzdür: MK-nın işlər müdiri *Rozen*
Qeyd: XI Ordunun Xüsusi şöbəsinə
*yol. Pankratova.*

AKP MK Siyasi Bürosunun hazırkı qərarı yerinə yetirilmək üçün göndərilir.

MK-ın işlər müdiri Rozen
Düzdür: XI Ordunun Xüsusi Şöbəsinin
Baş hərbi müstəntiqi *A.Qubin.*

## ÜÇLÜYÜN QƏRARI

1921-ci il yanvarın 25-də XI Ordunun Xüsusi Şöbəsi aşağıdakı tərkibdə: XI Ordunun Xüsusi Şöbəsinin rəisi Pankratov, Fəal hissənin rəisi Aşukin və baş hərbi müstəntiq Qubin qərar qəbul etmişlər.

Silahlı üsyan yolu ilə Azərbaycanda Sovet hakimiyyətinin devrilməsi və başda «İttihad» partiyası olmaqla dar milli burjua hakimiyyəti yaratmaq məqsədini qarşısına qoyan «VƏTƏN VƏ YA ÖLÜM» əksinqilabi təşkilatının 155 üzvünün və əməkdaşının işi üzrə **Qərara alınır:**

1. Qarabəy İsmayıl oğlu Qarabəyovu;
2. Məmməd Həsən Həsənovu;

3. Cəmil bəy Ləmbəranskini;

4. Əlibəy Teymurbəy oğlu Aşurbəyovu – HFK-nın Xüsusi Şöbəsinə göndərmək.

Həbib Ələskərov, Nəcəfqulu Rəsulov, Məmmədbağır Hüseynbala oğlu, Cavad Şahverdi oğlu Rəhimov, Ağaaslan Abdi oğlu Balayev, Əbdüləli Nurəli oğlu, Mirmurtuz Mirmövsümzadə, Əliheydər Şahverdi oğlu Rəhimov, Aslan Məşədi Rüstəm oğlu Əsgərov, Babacan Yusifzadə, Ələskər Fərəculla oğlu Əliyev, Məmməd Camal oğlu Süleymanov, Əjdər Ələkbər, Məmmədmehdi İsmayıl oğlu Rəsulov, Ziyad Rəhimzadə, Əlibaba Bağırov, Mirabdulla Əziz oğlu Seyidov, Ağabəy Əzimbəy oğlu Yusifbəyov, Ağasəlim Şərifov və Balaxan bəy Müllük oğlu Bakıxanovu 5 il müddətinə sonradan amnistiya hüququ verilmədən Xolmoqor şəhərindəki həbs düşərgəsinə göndərmək.

Xurşid Rəşidov, Dadaş Məşədi Nağı oğlunu, Mir Nağı oğlu Həsənovu, Süleyman İsmayıl oğlu Rəsulovu, Əsədulla İbrahim oğlu Əliyevi, Əlövsət Molla Məcidovu, Ağarza Cəlilovu, Məmmədsadıq Məşədi Nəcəfovu (Cəfərov, Nəcəfov – ?), Məmməd Mirzə oğlu Həsənovu, Mürsəl (Mürsəli?) İbrahimovu, Maqnos Tarasoviç Daqonadzeni 5 il müddətinə sonradan amnistiya hüququ verilmədən Ryazan şəhərindəki həbs düşərgəsinə göndərmək.

Məşədi Yusif Salayevi, Süleyman Rəşidovu, Əliheydər Əbdülhəsəni, Əlisa İbadulla oğlu Kərimovu, Mehdi Qulam oğlu Qulamovu, Sədulla Məlikməmməd oğlu Əliyevi, Seyidəli Məmmədtağı oğlu Tağıyevi, Abdulla Zeynalovu, Məmməd Yusif oğlu Vəliməmmədovu, Əlibaxşı Xəlil oğlunu – 5 il müddətinə sonradan amnistiya hüququ verilmədən Nijni Novqorod şəhərindəki həbs düşərgəsinə göndərmək.

Məşədi İbrahim Həsənov, Kərim Süleyman oğlu Kələntərov, Məmmədnağı Rəsulov, Mirzə İmamqulu oğlu Nuriyev, Qəmbər Məmmədmirzə oğlu, Ağacan Qəmbər oğlu Şıxəliyev, Ağasaleh Qəmbər oğlu, Yusif Paşa Əmirhəmzə Mirqasım Mirabdulla oğlu, Səttar bəy Yusifbəyov, Qəzənfər Əbülfəz oğlu Cavadov, Cəfər Cəfərov, Nemət Atakişi oğlu, Mustafa Mustafayev, Hacı Əbdülbaği, Salman İbrahim oğlu Səbzəliyev, Ağabala Mirzəli oğlu, Mirheydər bəy, Ağakərim bəy, Ağahüseyn Abbasquliyev, Abbas Həsən oğlu, Məmmədqulu Ağamirzə oğlu, Səməd Ağabala oğlu Allahverdiyev, Əli Ələkbər oğlu Tağıyev, Abbas Məşədinağı oğlu, Ağası Zülfüqar oğlu, Xasbulat Əzizzadə, Cəfər Qafarov, Harun Həsən (?), Ağahüseyn

Məmmədov, Hüseyn Bağır oğlu Vəzirov, Əlinağı Hüseynov, Xəlil Muxtar oğlu, Dadaş Həsənbəyov, Teymur Mənsur oğlu, Ağababa Abdullayev, Məcid Rəsulov, Əli Cəfərqulu, Əlihüseyn Qəniyev, Hüseyn bəy Abbasəlibəy oğlu Seyidbəyov, Abbasqulu Nemət oğlu Bayramov, Rza Məmmədəli oğlu Əliyev, Ələsgər Ələkbərov, Abdulla Hacınəsir oğlu Axundov, Rəcəbəli Cabbar bəy, Ağadadaş Mirzə oğlu Ağayev, Məşədi Məhərrəmverdi (o, həm də Mövlamverdi Fərzəli oğludur), Hacı Əli Yusup oğlu, Mirələskər Mirabbas oğlu Həsənov, Saleh İbadullayev, Ələskər Əlimərdan oğlu Hüseynov, Mirməmməd Mirabbas oğlu Həsənov, Ağabala Məmməd Rəsul oğlu, Şükür Fərman oğlu, İsrafil Bülhüseyn oğlu, Nurverdi Mustafa oğlu, Abdulla Qurban oğlu, Əflatun Hənifə oğlu, Dadaş Yunis oğlu, Əliabbas Seyid oğlu, Məmmədəli Mustafayev, Ələkbər Babayev, Məmmədhüseyn Fərzəliyev, Anna Əmirxasova, Məmməd Məhərrəm oğlu, Əliyev Ələkbər Fərəculla, Cabbar Süleyman Hacı İsgəndər Süleyman Xəlil oğlu Abdullayev, Məmməd İsmayıl oğlu İbrahimov, Bəşirbəy Aşurbəyov – dustaqlıqdan azad edilsinlər, güllələnmək qorxusu altında bir daha antisovet təşkilatlarında və qruplarında iştirak etməyəcəkləri barədə dillərindən iltizam alınsın.

Abuzər Qulamov, Nəcəfqulu Quliyev, Almazan (?) Rəhman oğlu, Məmməd Əsgərəli oğlu Tağıyev, Əjdər Mirzəli oğlu, Cəbrayıl Cəbrayılov, Məşədi Hacıağa, Əlibəy Cəfər oğlu Qulubəyov, Mikayıl Hüseynov, Mirzəbaba İskəndərov, Ramazan Mirzəməmməd oğlu, Əli Məşədi Mirzəli oğlu, Hüseynov Cəfər Hüseyn, Məmmədcabbar Mehdiyev, Muzalim Müslüm oğlu, Miraləm Mirəhməd oğlu, Nağı Tağıyev, Teymur Əmir oğlu, Məşədi Həsən Səttar oğlu, Kərbəlayi Qılman Hacıbaba oğlu, Əligün Ağabaxış oğlu, Əlikərəm Əhəd oğlu, Abbasqulu Səfqulu oğlu, Məlikağa Baxşı oğlu, Hacıbala Umud oğlu, Zülfüqar Mirzə oğlu, Xudadat bəy Məlikaslanov, Əliheydər Seyfulla oğlu Abbasov, Əli Bəhri oğlu, Kərbalayi Mirzəağa Cavad oğlu, Hüseyn Qasımov, Rəşid Fəxrəddin, Həsən Hacı Əlibəyov – dustaqlıqdan azad edilsinlər, belə ki, onların təşkilatda iştirakı müəyyən olunmamışdır.

1. Kərbəlayi Musa Mirzəmməd oğlu;
2. Mirmehdi Miriyev;
3. Fərzulla Zərbəli oğlu Məmmədov – öldüklərinə görə istintaq işi xətm olunsun.

**Eşidildi:** Müsavat partiyasının fəal təşkilatçısı, 1918-ci ildə Bakıda Sovet hakimiyyətinin devrilməsində, habelə sonralar müsavat hökumətinin

dirçəlməsində fəal iştirak etmiş müttəhim Abbasqulu Məmməd İbrahim oğlu Kazımzadənin ifadəsi.

İrəli sürülən ittihamı müttəhimin öz ifadəsi ilə təsdiq etdiyini və onun əksinqilabi Müsavat partiyasının və hökumətinin ən görkəmli simalarından biri kimi qara müsəlman kütləsi içərisində də nüfuzlu olduğunu nəzərə alaraq

**Qərara alındı:** Abbasqulu Məmməd İbrahim oğlu Kazımzadə HFK-nın Xüsusi Şöbəsinə göndərilsin.

Əslini imzaladı:

XI Ordunun Xüsusi Şöbəsinin rəisi

*Pankratov*,

Fəal hissənin rəisi –

*Aşukin*

Baş hərbi müstəntiq – *Qubin*.

**Düzdür:** Qeydiyyat şöbəsinin rəisi – *Nikolayev*

30 yanvar 1921-ci il

Pankratov, Aşukin, Qubin!

Oxucular! Görün Sovet hökuməti 1920-ci ilin aprelində Azərbaycanı işğal etdiyi dəqiqədən öz işinə necə başlamışdır.

# 1930-CU İLİN FACİƏSİ

*(270 №-li istintaq işi)*

1930-cu ilin fevral ayında ÜİK(b)P-nin «Kənddə partiyanın sinfi xəttinin düzəldilməsi və qolçomaqların bir sinif kimi ləğv edilməsi şüarının həyata keçirilməsi» haqqında olan qərarının yerinə yetirilməsi ilə əlaqədar olaraq bütün Azərbaycanın kəndlərində qolçomaq adı ilə minlərlə adam ailələrilə birlikdə vətənindən çox uzaqlara sürgün edilmişdir. «Antisovet ünsürlərinin aradan qaldırılması» adı ilə hakim dairələr və xüsusən bunların kənd mahallarında olan rəsmi nümayəndələri zəhmətkeş kəndlilərin başına elə oyun açdılar və elə divan tutdular ki, buna vəhşilikdən başqa heç bir ad vermək olmaz.

«Torpaq – kəndlilərə!» şüarı altında Oktyabr çevrilişində kənd kütləsini öz tərəfinə çəkib qələbə çalan bolşeviklər çevrilişdən sonra, doğrudan da torpaqları kəndlilərə payladılar. Yaranan fərdi təsərrüfatlar bir-iki il ərzində ölkədə ərzaq bolluğuna yol açdı, çünki kəndlilər həm öz xeyirlərinə, həm də bazar üçün canla-başla çalışırdılar. Kənd təsərrüfatları maneələrsiz inkişaf etməkdə olardısa, bəlkə də indi xalqımız aclıq uçurumunun qabağında durmazdı.

Əfsus ki, belə olmadı. Çox çəkmədi ki, qadasını aldığımız partiyamız var gücü ilə kəndlilərə elə toy tutdu ki, gəl görəsən! Buna görə də kəndlilər arasında narazılıq əmələ gəldi, çünki külli miqdarda özbaşına təyin olunan müsadirə və vergilər yalnız və yalnız müqavimətə çağırırdı. Axı başqa cür ola da bilməzdi: səhər sübhdən axşama qədər öz ailə üzvləri ilə birlikdə tarla və bağ-bostanlarda işləyib tər tökəsən, amma məhsulun bəhrəsini görməyib onu «könüllü» təhvil verib əvəzinə heç bir şey almayasan – buna kim dözə bilərdi?

Və kəndlilər müqavimətə keçdilər. 1930-cu ilin əvvəllərində Azərbaycanın, demək olar ki, bütün mahallarında hökumətin törətdiyi özbaşınalığın əleyhinə üsyanlar qalxdı.

Üsyanlar Zaqatala-Şəki, Quba, Lənkəran, Qarabağ, Naxçıvan və başqa yerləri əhatə etdi. Rəsmi tariximizdə kəndlilərin bu üsyanlarına cürbəcür nalayiq adlar verdilər, amma həqiqətdə bunların əksəriyyəti kəndlilərin haqlı tələblərindən doğan narazılıq hərəkətləri idi.

Rəsmi dairələr üsyançıların hamısına «bandit», «silahlı qolçomaq dəstələri» və buna bənzər ad qoyaraq möhkəm silahlanmış müntəzəm ordu

hissələrinin gücü ilə bu narazılıq üsyanlarını qan içində boğur, sağ qalanları isə «hərbi əsir» adı ilə DSİ-nin (QPU), Fövqəladə Üçlüklərin sərəncamına verirdi. Bu Üçlüklərin isə fəaliyyəti əksərən ölüm hökmləri çıxarmaqdan ibarət idi.

Bu yazıda oxucuları 1930-cu il sentyabrın 22-dən oktyabrın 12-dək fəaliyyətdə olan Naxçıvan MSSR üzrə Fövqəladə Üçlüyün protokolları ilə tanış etmək istəyirəm. Üçlüyün sədri İbrahim Tağıyev, üzvləri isə 41-ci Naxçıvan sərhəd dəstəsinin rəisi Nikişev və Az.DSİ-nin Naxçıvan Vilayət şöbəsinin rəisi Yaqubov idilər. Üçlüyün bütün iclaslarında Naxçıvan XKS sədri Vəlibəyov, Qəzənfər Musabəyov və Ağahüseyn Rəsulzadə iştirak edirdilər (deməli, bu artıq Fövqəladə Üçlük yox, Altılıq idi).

Üçlüyün (Altılığın) «eşidildi» hissəsindən: «1930-cu ilin fevral ayında antisovet ünsürlərinin aradan qaldırılmasından sonra Naxçıvan MSSR qolçomaqları quduzcasına müqavimətə hazırlaşıb, Sovet hakimiyyəti əleyhinə üsyan qaldırılması üçün silahlı qolçomaq dəstələrinin təşkilinə keçdilər. Bunlardan ən fəalı Keçili və Nəhəcir dəstələri idi. Bu dəstələrin tərkibi qol-çomaqların əlaltıları və şüursuz ortabab və yoxsulların hesabına artıb, 1930-cu ilin mart ayında qalxmış üsyanın mərkəzinə çevrilmişlər. Nəhəcir dəstəsi Naxçıvan mahalında özünə əlverişli şəraitdən, yəni ordu hissələrinin olmamasından istifadə edərək, üsyana qonşu Əbrəkunis rayonu Surab, Ərazin, Əbrakunis kəndlərini də cəlb edir və bu vaxt başqa böyük Keçili – Şahbuz üsyançı dəstəsi ilə birləşib Naxçıvana yürüş təşkil edirlər ki, şəhəri zəbt edib Naxçıvan vilayətində Sovet hakimiyyətini devirsinlər».

Bu ittihamda adı çəkilən altı nəfər Naxçıvan MSSR-də iyirmi gün ərzində aşağıdakı hökm-qərarlarını çıxarıblar:

*Keçili kəndində, 22 sentyabr 1930-cu il:*

1. Məmmədəli Cəfərəli oğlu, 35 yaşlı, varlı, evli, bitərəf;
2. Salman İsmayıl oğlu, 44 yaşlı, ortabab, evli, bitərəf;
1. Şahsuvar Kərim oğlu, 35 yaşlı, varlı, evli, bitərəf;
1. Eyvaz Kərim oğlu, 52 yaşlı, varlı, evli, bitərəf;
2. Məmmədəli Məmməd Hüseyn oğlu, 47 yaşlı, qolçomaq, bitərəf, evli;
2. Ələkbər Məmi oğlu, 29 yaşlı, varlı, evli, bitərəf;
3. Müslüm Gülməli oğlu, 35 yaşlı, varlı, evli, bitərəf.

Silahlı üsyanda iştirakları, antisovet təbliğatları və banditlərə yardımlarına görə – güllələnsinlər, əmlakları müsadirə edilsin.

*Şahbuz kəndində, 22 sentyabr 1930-cu il:*

1. Məmmədhüseyn Mazan oğlu, Kükü kənd sakini, 40 yaşlı, varlı;

2. Paşan Hüseynəli oğlu, Kükü kənd sakini, 45 yaşlı. Kərbəlayi Müseyibin, Keçili, Qardaşxan və Ağa Əli dəstələri ilə əlaqələrinə, əhali arasında Sovet hakimiyyətinin devrilməsi haqda müxtəlif fitnəkar şayiələri yaymalarına görə – güllələnsinlər, əmlakları müsadirə edilsin.

*Şahbuz kəndində, 22 sentyabr 1930-cu il:*

1. Xəlil İbrahim oğlu, Beçənək kənd sakini, 42 yaşlı, varlı, evli, bitərəf;
2. Bayram Əli oğlu, Beçənək kənd əhli, 36 yaşlı, varlı, evli, bitərəf;
3. Məmmədhəsən Nəsir oğlu, Beçənək kənd sakini, 47 yaşlı, varlı, evli, bitərəf.

Mart üsyanında iştiraklarına, Qardaşxanın və Keçili dəstələrinə köməklərinə və antisovet təbliğatlarına görə – güllələnsinlər, əmlakları müsadirə edilsin.

*Şahbuz kəndində, 23 sentyabr 1930-cu il:*

1. Səfi İsmayıl oğlu, Kükü kənd sakini, 45 yaşlı, qolçomaq, evli
2. Novruz Əli Məmməd Qulu oğlu, Kükü kənd sakini, 35 yaşlı, qolçomaq –

Xanəli və Qardaşxanın dəstələri ilə əlaqələrinə və mart üsyanında iştiraklarına görə – güllələnsinlər, əmlakları müsadirə edilsin.

*Naxçıvan şəhəri, 23 sentyabr 1930-cu il:*

1. Qurbanov Əli Qurban oğlu, Beçənək kənd əhli, 40 yaşlı, qolçomaq, evli, bitərəf;
2. Babayev Novruz Məmiş oğlu, Keçili kənd sakini, 45 yaşlı, evli, bitərəf;
3. Əsgərov Zülfüqar Dünyamalı oğlu, Ərəfsə kənd sakini, 55 yaşlı, qolçomaq, evli, bitərəf;
4. Məmmədəliyev İmamqulu Dünyamalı oğlu, Keçili kənd sakini, 60 yaşlı, qolçomaq, evli, bitərəf – güllələnsinlər, əmlakları müsadirə olunsun.
5. Mehdiyev Kərim Əlməmməd oğlu, Keçili kənd sakini, 80 yaşlı, varlı, evli, bitərəf – yaşı nəzərə alınaraq üç il həbs düşərgəsində saxlanılsın.

*Əbrəkunis kəndi, 26 sentyabr 1930-cu il:*

1. Molla Haşım Əlməmməd, Ərəfsə kənd sakini, 50 yaşlı, molla, bitərəf, tanınmış və nüfuzlu şəxs – quldurluğa, Sovet hakimiyyəti əleyhinə

silahlı üsyana və antisovet təbliğata görə – **güllələnsin**, əmlakı müsadirə edilsin.

2. Şahvələd Əbdülhəsən oğlu, Ərəfsə kənd sakini, 45 yaşlı, varlı, bitərəf, Kərbəlayi Yəhyanın dəstəsinin üzvü – **güllələnsin**, əmlakı müsadirə edilsin.

3. Aslan Məmməd oğlu, Ərəfsə kənd sakini, 28 yaşlı, yoxsul, evli, bitərəf – mart üsyanında iştirakına görə – **güllələnsin**, əmlakı müsadirə edilsin.

4. Kərbəlayi Rəhim Qafarəli oğlu, Ərəfsə kənd sakini, 36 yaşlı - mart üsyanında iştirakına görə – **güllələnsin**, əmlakı müsadirə edilsin.

5. Kərbəlayi Nəcəfqulu Abbasqulu oğlu, Ərəfsə kənd sakini, 32 yaşlı, varlı, evli, bitərəf – mart üsyanında iştirakına görə – **güllələnsin**, əmlakı müsadirə edilsin.

6. Balakişi Ağa oğlu, Ləkətağ kənd sakini, 28 yaşlı, qolçomaq, bitərəf ; mart üsyanında iştirakına görə – **güllələnsin**, əmlakı müsadirə edilsin.

*Naxçıvan şəhəri, 29 sentyabr 1930-cu il:*

1. Babayev Kərbəlayi Baba Əbil oğlu, Nəhəcir kənd sakini, 40 yaşlı, ortabab, bisavad, bitərəf – Sovet hakimiyyəti əleyhinə üsyan təşkil etməsinə və antisovet təbliğata görə – **güllələnsin**, əmlakı müsadirə edilsin.

2. Xanməmmədov Molla İbrahim Nurməmməd oğlu, Nəhəcir kənd sakini, 32 yaşlı, az savadlı, bitərəf, evli, ortabab – antisovet təbliğata və Sovet hakimiyyəti əleyhinə üsyan təşkil etməsinə görə – **güllələnsin**, əmlakı müsadirə edilsin.

3. Həsənov Paşa Şükür oğlu, Göynük kənd sakini, 35 yaşlı, bisavad, evli, bitərəf, ortabab – Sovet hakimiyyəti əleyhinə üsyan təşkil etməsinə və xaricdə olan əksinqilabçılarla əlaqə saxlamasına görə **güllələnsin**, əmlakı müsadirə edilsin.

4. Xanməmmədov Mazi Şıxmamed oğlu, Nəhəcir kənd sakini, 50 yaşlı, evli, bisavad, ortabab – Sovet hakimiyyəti əleyhinə üsyanda fəal iştirakına görə – **güllələnsin**, əmlakı müsadirə edilsin.

5. Məmmədov Mütəllib Fətulla oğlu, Nəcəf Əlibəy Dizə kənd sakini, 29 yaşlı, bisavad, bitərəf, ortabab, evli – Sovet hakimiyyəti əleyhinə üsyanda fəal iştirakına görə – güllələnsin, əmlakı müsadirə edilsin.

6. Yaqubov Kərbəlayi Muxtar Səfərəli oğlu, Nəhəcir kənd sakini, 55 yaşlı, bitərəf, bisavad, qolçomaq – Sovet hakimiyyəti əleyhinə üsyanda fəal iştirakına görə – **güllələnsin**, əmlakı müsadirə edilsin.

7. Həmzəyev Qafaq Kərbəlayi Əli oğlu, Nəhəcir kənd sakini, ortabab, bitərəf, az savadlı – Sovet hakimiyyəti əleyhinə üsyanda fəal iştirakına görə – **güllələnsin**, – əmlakı müsadirə edilsin.

8. Ramazanov Həsənxan Həsənqulu oğlu, Nəhəcir kənd sakini, 40 yaşlı, ortabab, bitərəf, bisavad, evli – Sovet hakimiyyəti əleyhinə üsyanda fəal iştirakına görə – **güllələnsin**, əmlakı müsadirə edilsin.

9. Xanməmmədov Teymur Şirməmməd oğlu, Nəhəcir kənd sakini, 50 yaşlı, ortabab, bisavad, evli – Sovet hakimiyyəti əleyhinə üsyanda fəal iştirakına görə – **güllələnsin**, əmlakı müsadirə edilsin.

10. Ramazanov Mustafa İmaməli oğlu, Nəhəcir kənd sakini, 55 yaşlı, bisavad, evli – Sovet hakimiyyəti əleyhinə üsyanda fəal iştirakına görə – **güllələnsin**, əmlakı müsadirə edilsin.

11. Həsənov Ağa Əli Şükür oğlu, Göynük kənd sakini, 30 yaşlı, bitərəf, ortabab – Sovet hakimiyyəti əleyhinə üsyanda fəal iştirakına görə – **güllələnsin**, əmlakı müsadirə edilsin.

12. Həsənov Zöhrəli Şükür oğlu, Göynük kənd sakini, 26 yaşlı, ortabab, bitərəf, bisavad, evli – Sovet hakimiyyəti əleyhinə üsyanda fəal iştirakına görə – **güllələnsin**, əmlakı müsadirə edilsin.

13. Seyidov Ələsgər Mir Əsəd oğlu, Teyvaz kənd sakini, 55 yaşlı, bisavad, ortabab, bitərəf – Sovet hakimiyyəti əleyhinə üsyanda fəal iştirakına görə – **güllələnsin**, əmlakı müsadirə edilsin.

14. Hüseynov Allahqulu Həsənxan oğlu, Ləkətağ kənd sakini, Azərb. K(b)P üzvü, az savadlı, fəhlə, 31 yaşlı, evli, Ərəfsə kənd sovetinin keçmiş sədri – Sovet hakimiyyəti əleyhinə üsyanda fəal iştirakına görə – güllələnsin, əmlakı müsadirə edilsin.

15. Ramazanov Balaca Həsənqulu oğlu, Nəhəcir kənd sakini, 37 yaşlı, bitərəf, bisavad, ortabab, evli – üsyanda passiv iştirakını nəzərə alaraq on il həbs düşərgəsində saxlanılsın.

16. Həsənov Nurəli Şükür oğlu, Göynük kənd sakini, 22 yaşlı, bitərəf, bisavad, ortabab, evli – üsyanda iştirakına görə, lakin böyük qardaşının təsiri altına düşməsini nəzərə alaraq – beş il həbs düşərgəsində saxlanılsın.

17. Rəcəbov Məmməd Həsən oğlu, Nəhəcir kənd sakini, 38 yaşlı, ortabab, bitərəf, bisavad – Sovet hakimiyyəti əleyhinə üsyanda iştirakına görə – beş il həbs düşərgəsində saxlanılsın.

18. Hüseyn Əli Cəfər oğlu, Nəhəcir kənd sakini, 32 yaşlı, ortabab, bisavad, bitərəf – qorxutma yolu ilə Sovet hakimiyyəti əleyhinə üsyanda iştirakına görə – üç il həbs düşərgəsində saxlanılsın.

19. Piriyev Vəli Gülməli oğlu, Nəhəcir kənd sakini, 35 yaşlı, ortabab, bitərəf, bisavad – Sovet hakimiyyəti əleyhinə üsyanda passiv iştirakına görə üç il həbs düşərgəsində saxlanılsın.

20. Hüseynov Heydər Abbas oğlu, Göynük kənd sakini, 47 yaşlı, qolçomaq, evli, az savadlı, bitərəf – Sovet hakimiyyəti əleyhinə üsyanda passiv iştirakına görə – on il həbs düşərgəsində saxlanılsın.

21. Abbasov Həbib Məhərrəm oğlu, Göynük kənd sakini, 35 yaşlı, bitərəf, bisavad, qolçomaq, evli – Sovet hakimiyyəti əleyhinə üsyanda iştirakına görə – səkkiz il həbs düşərgəsində saxlanılsın.

Naxçıvan şəhəri, 29 sentyabr 1930-cu il:

1. Kərbəlayi İbrahim Cəbrayıl oğlu, Ərəfsə kənd sakini, varlı, 45 yaşlı, bitərəf, bisavad, evli – Sovet hakimiyyəti əleyhinə üsyanda iştirakına görə – beş il həbs düşərgəsində saxlanılsın.

2. Kəngərlinski Xancan, Ərəfsə kənd sakini, 21 yaşlı, bəy, subay, Naxçıvan pedaqoji texnikumunun tələbəsi – qohumu Səlimbəy Kəngərlinskinin dəstəsi ilə əlaqəsinə görə – işi istintaq üçün Naxçıvan Vilayət DSİ-nə göndərilsin.

3. Kəngərlinski Qaraş, Ərəfsə kənd sakini, 27 yaşlı, bəy, ortabab, evli, savadlı, bitərəf – dəstəbaşı Səlimbəy Kəngərlinskinin qardaşı – sərhəd boyu yaşamaqdan məhrum edilərək sürgün edilsin.

4. Kərbəlayi Nabat oğlu, Ləkətağ kənd sakini, 55 yaşlı, bisavad, bitərəf – banditlərlə əlaqəsinə görə beş il həbs düşərgəsində saxlanılsın, ailəsi sürgün edilsin.

Naxçıvan şəhəri, 1 oktyabr 1930-cu il:

1. Yusifov Baxşəli Ələkbər oğlu, Xanəgah kənd sakini, 35 yaşlı, xidmətçi, bitərəf, az savadlı, evli – üsyançı dəstəsinin sabiq başçısı, 1930-cu il mart hərbi üsyanında fəal iştirakına, antisovet təbliğat aparmasına və antisovet ünsürlər arasında nüfuzlu olmasına görə – güllələnsin, əmlakı müsadirə edilsin.

2. Kəngərlinski Qaraxan Sultan oğlu, Saltax kənd sakini, 35 yaşlı, bitərəf, bisavad, bəy, evli – Naxçıvanda Sovet hakimiyyəti əleyhinə silahlı üsyanda iştirakına, bəy olmasına, Sovet hökuməti əleyhinə müntəzəm təbliğat aparmağına və kəndlilər arasında böyük nüfuzu və təsiri olmasına görə -- güllələnsin, əmlakı müsadirə edilsin.

3. Məmmədov İbiş Məmmədəli oğlu, Noraşen kənd sakini, 50 yaşlı, bitərəf, evli, səsindən məhrum olmuş – üsyançı dəstəsinin rəhbəri olub,

Sovet hakimiyyəti əleyhinə üsyanda iştirakına, Sovet hakimiyyəti əleyhinə müntəzəm təbliğat aparmağına və kəndlilər arasında böyük nüfuzuna görə – güllələnsin, əmlakı müsadirə edilsin.

4. İmaməli Tarverdi oğlu, Qarabağlar kənd sakini, 47 yaşlı, bitərəf, bisavad, qolçomaq, evli – Kərbəlayi Müseyibin dəstəsini ərzaqla təmin etməsinə və onunla əlaqəsinə görə – güllələnsin, əmlakı müsadirə edilsin.

5. Musayev Kərbəlayi Cabbar Xəlil oğlu, Xanəgah kənd sakini, 32 yaşlı, varlı, bitərəf, az savadlı, evli – mart ayında silahlı üsyanda iştirakına və müntəzəm antisovet təbliğatına görə – beş il həbs düşərgəsində saxlanılsın.

6. Hüseynov Sayad Həsən oğlu, Xanəgah kənd sakini, 35 yaşlı, ortabab, bitərəf, bisavad, evli – mart ayında üsyanda fəal iştirakına və müntəzəm antisovet təbliğatına görə – beş il həbs düşərgəsində saxlanılsın.

7. Hüseynov Adıgözəl Murad oğlu, Kırma kənd sakini, 27 yaşlı, az savadlı, bitərəf, evli – silahlı üsyanda iştirakına və müntəzəm antisovet təbliğatı apardığına görə – beş il həbs düşərgəsində saxlanılsın.

8. Məmmədəliyev Talıb Qəmbər oğlu, Saltax kənd sakini, 42 yaşlı, qolçomaq, səsindən məhrum edilmiş, bisavad, evli – mart silahlı üsyanında iştirakına və müntəzəm antisovet təbliğatına görə – beş il həbs düşərgəsində saxlanılsın.

9. Quliyev Kərbəlayi Qulu Kərbəlayi Zeynalabdin oğlu, Saltax kənd sakini, 35 yaşlı, bitərəf, bisavad, varlı, evli – mart silahlı üsyanında iştirakına, müntəzəm antisovet təbliğatına görə – yeddi il həbs düşərgəsində saxlanılsın.

10. Əliyev Kərim Rəhim oğlu, Noraşen sakini, 50 yaşlı, bitərəf, bisavad, varlı, evli – silahlı üsyanda iştirakına və antisovet təbliğatına görə – yeddi il həbs düşərgəsində saxlanılsın.

11. Xəlil Qoca oğlu, Ərəfsə kənd sakini, 26 yaşlı, bitərəf, bisavad, subay, çoban – banditlərlə əlaqəsinə görə – beş il həbs düşərgəsində saxlanılsın.

12. Həsənəliyev Şahqulu Səməd oğlu, Keçili kənd sakini, 22 yaşlı, bisavad, bitərəf, evli, çoban – banditlərə ərzaq və sursat daşımağına görə – beş il həbs düşərgəsində saxlanılsın.

*Baş Noraşen, 3 oktyabr 1930-cu il:*

1. Əliyev Ağamalı Əli oğlu, Yaycı kənd sakini, 40 yaşlı, bitərəf, varlı, evli – silahlı üsyanlarda fəal iştirakına, vaxtaşırı bandalarda olmağına, sabiq banda dəstəsinin rəhbəri kimi banditlərlə daimi əlaqəsinə görə – güllələnsin, əmlakı müsadirə edilsin.

2. Sadıqov Rəhim Ələkbər oğlu, Cağazur kənd sakini, 40 yaşlı, bisavad, bitərəf, varlı, evli – silahlı üsyanda iştirakına görə – **güllələnsin**, əmlakı müsadirə edilsin.

3. Rzayev Qoçəli Əhməd oğlu, Yaycı kənd sakini, 28 yaşlı, bisavad, bitərəf, subay, ortabab – silahlı üsyanda fəal iştirakına görə – **güllələnsin**, əmlakı müsadirə edilsin.

4. Cəfərxan Baba oğlu, Qaraquş Bilav kənd sakini, 50 yaşlı, bitərəf, bisavad, qolçomaq – banditləri ərzaqla təmin etməyinə, onlarla daim əlaqə saxlamağına və antisovet təbliğatı aparmağına görə – **güllələnsin**, əmlakı müsadirə edilsin.

*Naxçıvan şəhəri, 4 oktyabr 1930-cu il:*

1. Mehdiyev Kərbəlayi Şahvəli Məmməd oğlu, Ərəfsə kənd sakini, 35 yaşlı, bitərəf, bisavad, qolçomaq, evli – silahlı üsyanda iştirakına, banditlərlə daimi əlaqəsinə və antisovet təbliğatına görə – **güllələnsin**, əmlakı müsadirə edilsin.

2. Quliyev Məmi Mikayıl oğlu, Kükü kənd sakini, 29 yaşlı, bitərəf, savadlı, varlı – silahlı üsyanda iştirakına və hökumət orqanlarına yalan məlumat verməsinə görə – **güllələnsin**, əmlakı müsadirə edilsin.

3. Abbasov Mustafa Məmməd oğlu, Keçili kənd sakini, 35 yaşlı, az savadlı, bitərəf, varlı, evli – silahlı üsyanda iştirakına görə – beş il həbs düşərgəsində saxlanılsın.

4. Əliyev Qoçəli Məmməd oğlu, Keçili kənd sakini, 30 yaşlı, bitərəf, bisavad, varlı, evli – mart üsyanında iştirakına və banditlərlə əlaqədə olmağına görə – səkkiz il həbs düşərgəsində saxlanılsın.

5. Nəcəfəliyev Ağa Məmməd Fətulla oğlu, Keçili kənd sakini, 50 yaşlı, bitərəf, bisavad, varlı, evli – mart üsyanında iştirakına və banditləri ərzaqla təmin etməsinə görə – beş il həbs düşərgəsində saxlanılsın.

6. Məmmədov Malış hacı Kərim oğlu, Keçili kənd sakini, 55 yaşlı, bitərəf, bisavad, varlı, evli – mart üsyanında iştirakına, banditlərlə əlaqəsinə və onları ərzaqla təmin etməsinə görə – beş il həbs düşərgəsində saxlanılsın.

7. Məmmədov Kərbəlayi Qurban Məhərrəm oğlu, Keçili kənd sakini, 45 yaşlı, bitərəf, az savadlı, varlı, evli – Keçili bandasının keçmiş rəhbəri – on il həbs düşərgəsində saxlanılsın.

8. Ağayev Vəli Qulu Ağa oğlu, Keçili kənd sakini, 33 yaşlı, bitərəf, bisavad, qolçomaq, evli - mart üsyanlarında iştirakına və antisovet təbliğatına görə – altı il həbs düşərgəsində saxlanılsın.

9. Həsənov Hüseyn Məhərrəm oğlu, Keçili kənd sakini, 40 yaşlı, bitərəf, bisavad, qolçomaq, evli – mart üsyanlarında iştirakına, banditlərlə əlaqəsinə və antisovet təbliğatına görə – altı il həbs düşərgəsində saxlanılsın.

10. Əli Məmmədov Pirvəli Pirəli oğlu, Keçili kənd sakini, 45 yaşlı, bitərəf, az savadlı, qolçomaq – mart üsyanında iştirakına və antisovet təbliğatına görə – səkkiz il həbs düşərgəsində saxlanılsın.

11. Həsənquliyev Teymur Nəcəf oğlu, Xanəgah kənd sakini, 37 yaşlı, bitərəf, bisavad, varlı, evli – mart üsyanında iştirakına və antisovet təbliğatına görə – beş il həbs düşərgəsində saxlanılsın.

12. Kərbəlayi Fatma Məşədi Mehdiqulu qızı, Keçili kənd sakini, 50 yaşlı, bisavad, bitərəf, ərli – fəal antisovet təbliğatı apardığına, banditləri Sovet hakimiyyətinin əleyhinə fəal təhrik etməsinə və kəndlilər arasında böyük hörmət və nüfuza malik olmasına görə – beş il həbs düşərgəsində saxlanılsın.

13. Züleyxa Xudakərim qızı, Keçili kənd sakini, 50 yaşlı, bitərəf, bisavad, qolçomaq, ərli – antisovet təbliğatı aparmasına, banditləri ərzaq və sursatla təmin etməsinə, Sovet hakimiyyətinin devrilməsinə çağırışlarına və kəndlilər arasında böyük nüfuz və hörmətə malik olmasına görə – beş il həbs düşərgəsində saxlanılsın.

14. Keçili bandit ailələri haqda – həmin ailələr sürgün edilsin.

*Naxçıvan şəhəri, 12 oktyabr 1930-cu il:*

1. Əliqulu Hacı Cabbar oğlu, Ərəfsə kənd sakini, 40 yaşlı, az savadlı, bitərəf, qolçomaq, evli – silahlı üsyanlarda fəal iştirakına, üsyançılar dəstəsinə rəhbərliyinə və antisovet təbliğatına görə – **güllələnsin**, əmlakı müsadirə edilsin.

2. Mürşüd Mirzə Məmməd oğlu, Kulis kənd sakini, 50 yaşlı, bitərəf, bisavad, ortabab, evli – banditizmə görə – **güllələnsin**, əmlakı müsadirə edilsin.

3. Məhərrəmov Eyniş Əlixan oğlu, Kulis kənd sakini, 25 yaşlı, bisavad, bitərəf, varlı, evli – banditizmə və antisovet ünsürləri arasında böyük nüfuza və hörmətə malik olmağına görə – güllələnsin, əmlakı müsadirə edilsin.

4. Məhərrəmov Novruz Kərbəlayi Həsən oğlu, Kulis kənd sakini, 45 yaşlı, bitərəf, bisavad, qolçomaq, evli – banditlərlə əlaqəsinə və antisovet ünsürü olduğuna görə – güllələnsin, əmlakı müsadirə edilsin.



5. İmamov Ağa Zeynalabdın oğlu, Ərəzim kənd sakini, 45 yaşlı, bitərəf, az savadlı, qolçomaq, evli – silahlı üsyanda iştirakına və antisovet təbliğatına görə – **beş il** həbs düşərgəsində saxlanılsın.

6. Həsənov Hümbətəli Ələmqulu oğlu, Ərəzim kənd sakini, 34 yaşlı, bitərəf, az savadlı, qolçomaq, evli – silahlı üsyanda iştirakına və antisovet təbliğatına görə – **altı il** həbs düşərgəsində saxlanılsın.

7. Əlimməmməd Məşədi Mustafa oğlu, Kulis kənd sakini, 43 yaşlı, bitərəf, bisavad, varlı, evli – banditlərlə əlaqəsinə və hökumət tədbirlərinin əleyhinə çıxış etməsinə görə – **üç il** həbs düşərgəsində saxlanılsın.

8. Qəmbər Həzrətqulu oğlu, Ərəfsə kənd sakini, 35 yaşlı, bitərəf, bisavad, evli, ortabab, dəyirmançı – banditlərlə əlaqəsinə və hərbi hissələrin yerləşməsi haqda məlumat verməsinə görə – **üç il** həbs düşərgəsində saxlanılsın.

9. Rəhim Dünyamalı oğlu, Ləkətağ kənd sakini, 50 yaşlı, bitərəf, bisavad, varlı, evli – banditlərlə daim əlaqədə olmağına və antisovet təbliğatına görə – **beş il** həbs düşərgəsində saxlanılsın.

Adı çəkilən vətəndaşlarımızın neçəsi güllələnib, neçəsi də həbs düşərgəsinə atılıb – bunu oxucu özü hesablaya bilər.

Qəribədir: Azərbaycan Respublikasının parlamentindən 1920-ci il aprel ayının 28-nə keçən gecə hakimiyyəti səssiz-səmirsiz, demək olar ki, müftə əllərinə keçirən bolşeviklər siyasi rəqiblərilə demirəm, adi Azərbaycan fəhlə və kəndlilərinə insancasına münasibət göstərsəydilər, əlbəttə xalqımızın hörmətini də qazanardılar. Lakin hakimiyyəti əllərinə alan kimi bolşeviklər bandit Dzerjinskinin qırmızı terror bayrağını qaldıraraq soyğunçuluq, qarət və xalqı qəsdən məhv etməklə məşğul oldular. Neft mədənlərində işləyən minlərlə azərbaycanlı fəhlələri casusluq adı ilə kimi sürgün edilir, kimi də İrana qovulub əvəzinə Serebrovski kimilər Bakıya Krımdan qovulmuş Vrangelin ordusunda xidmət edən zabit və soldatlarını gətirirdilər.

Yazıq kəndlilərimiz isə son illərə qədər pasportsuz muzdurlar olub səhər sübhdən gecənin zülmətinə qədər qan-tər tökərək əvəzinə, demək olar ki, heç bir şey qazanmırdı. Əksinə, hələ də borc içindəydilər. Hər hansı bir etiraz da əlüstü damğalanırdı: əksinqilabi, antisovet, antikolxoz, antipartiya və min cür başqa «anti»lər adı ilə yüzlərcə və minlərcə kəndli zəhmətkeş güllələnir və ya sürgün edilirdi, nə hayına cavab verən var idi, nə də harayına.

Allah qərəzlə məhv olunan kəndlilərimizə rəhmət etsin, yaşayıb oğul-nəvələri üçün yaxşı həyat gözləyənlərə də Allah ürək-dirək versin!

## ƏSGƏR QƏMBƏR OĞLU HACIYEV

Sovet hakimiyyəti Azərbaycanda bərqərar olunan gündən bu yana Azərbaycan xalqının oğullarından neçə mininin məhv edildiyini heç kəs bilmir və bilə də bilməz. Dillərdə və bəzi şairlərimizin «dastanlarında» təmtəraqlı sözlərlə tərənnümü səmalara qədər ucaldılmış XI Ordunun Xüsusi şöbəsinin məmurları və ələlxüsus onun rəhbəri olan, Azərbaycan xalqının «qırmızı» cəlladı Pankratovun qanlı fəaliyyəti hələ xalqımız üçün bağlı qalır. Bakı proletariatının yalançı «üsyanı» nəticəsində, əslində isə 1920-ci il aprel ayının 27-dən 28-nə keçən gecə Azərbaycan milli parlamentinin qərarına əsasən hakimiyyəti əllərinə alan bolşeviklər iş başına keçən kimi Azərbaycan ziyalılarını məhv etmək məramnamələrini həyata keçirməyə başladılar.

Pankratovun rəhbər olduğu XI Ordunun Xüsusi şöbəsi (Osobıy otdel) Bakıda və Azərbaycanın başqa şəhərlərində olan bölmələrində sayı bilinməyən uzun-uzadı «Sovet hakimiyyətinin düşmənləri»nin siyahıları tərtib olunurdu. Bu siyahılara əsasən Xüsusi şöbənin özündə və bütün rayonlarda (xüsusilə sərhəd rayonlarında) Fövqəladə Üçlüklər təşkil edilir və bütün «düşmənlər» bu üçlüklərin qərarlarına əsasən həbs düşərgələrinə sürgün olunurdular.

Tezliklə XI Ordunun Xüsusi şöbəsini əvvəl Fövqəladə Komissiya (ÇK – Çrezvıçaynaya komissiya), sonra da Baş Siyasi İdarə (QPİ – Qlavnoe Politiçeskoye Upravleniye) əvəz etdi, amma Fövqəladə Üçlüklər öz işlərini əvvəlki kimi davam etdirdi. Lakin BSİ-nin üçlükləri sürgün etməkdən başqa çox asanlıqla güllələnmə qərarlarına (hökmlərə yox!) əl atırdılar. İndi vətəndaşları tək-tək yox, siyahılarla məhkum edirdilər. Bu qara siyahıların adları müxtəlif idi: «Cəmiyyətdən kənar ediləsi şəxslərin siyahısı», «ləğv olunmalı fəal antisovet ünsürlərin siyahısı», «qəddar antisovet şəxslərin siyahısı» və s. Siyahılar özləri də müxtəlif idi: birinci kateqoriya siyahı, ikinci kateqoriya siyahı... Bu siyahıları xüsusən kənd rayonlarında kim tərtib edirdi, indi müəyyən etmək o qədər də yüngül iş deyil. Bu – DSİ-nin firma sirridir və güman etmirəm ki, tezliklə açılsın.

Ziyalılar haqda bu məqalədə söhbət açmayacağam. Sözüm kənd rayonlarında Fövqəladə Üçlüklərin fəaliyyətindən gedəcək.



Kənd rayonlarında Fövqəladə Üçlüklərə, hətta sərhədboyu rayonlarda sərhəd boyu hərbi hissələrin komandirlərinə ixtiyar verilmişdi ki, xoşlarına gəlməyən adamların adlarını bu siyahılara salsınlar.

Kimlər salınırdı bu siyahılara? Bir neçə məsələni oxucunun yadına salmaq istəyirəm. Bildiyimiz kimi, Oktyabr çevrilişinə fəhlə və kəndliləri cəlb etmək üçün bolşeviklər «zavod, fabriklər – fəhlələrə», «torpaq – kəndlilərə» şüarlarını irəli sürmüşdülər və camaat da bunların cşqinə və işıqlı gələcək naminə hücum edib köhnə dünyanı dağıtdı (amma heç bir şey qazanmadı).

Siftə-siftə torpaq kəndlilərə paylandı da, kəndlilər də yavaş-yavaş dirçəlib insan kimi dolanıb-yaşadılar. Lakin çox keçmədən Şura hökuməti ortaya kolxoz məsələsini saldı və tezliklə «elliklə könüllü – məcburi kolxoza girmək» məsələsi çıxdı. «Avam və gələcəyin bəxtəvərliyini başa düşməyən» kəndlilər isə özləri işlədiyi torpağı qaytarmağa və kolxozlara girməyə heç də tələsmirdilər. Kolxozlara yalnız lüt və işləmək istəməyən kəndlilər həvəslə girirdi. Öz təsərrüfatında özü və ailə üzvləri işləyən və halal zəhməti ilə dolanan kəndlilərin kolxozlara girmək meylləri heç yox idi.

İşləmək həvəsində olmayan və tənbəl kəndlilərin əksəriyyəti tezliklə firqəyə daxil olub kəndlərdə məsul vəzifələr tutub bellərinə tapança bağladılar və zəhmətkeş kəndlilərin başına elə oyun açdılar ki, gəl görəsən... Elə həmin vaxt kolxoza girmək istəməyənlərin siyahıları tutulur və BSİ-nin sərəncamına göndərilirdi.

Azərbaycanın bütün rayonlarında BSİ-nin şöbələri var idi və bu şöbələrin səlahiyyəti qeyri-məhdud idi. Necə deyərlər: təki adam olsun, maddə düzələr.

Dağlıq Qarabağ Muxtar Vilayətində də BSİ-nin ermənilərdən ibarət üçlükləri fəaliyyət göstərirdi. Onlar Qarabağa və ətraf rayonlara (Xüsusən Ermənistanla həmsərhəd olan rayonlara) daxil olan azərbaycanlı kəndlərinə də nəzarət edirdilər.

1920-ci illərin axırlarından başlayaraq Xankəndində (indiki Stepanakertdə) fəaliyyətdə olan Xüsusi üçlüyə Qalstyan, Sarkisyan və Petrosyan daxil idilər. Bu üç nəfərin özbaşına hərəkəti və təqibləri nəticəsində Qarabağın azərbaycanlı kəndlərinin sayı getdikcə azalırdı: hər kənddən dediyimiz siyahılarla on-on beş kişi güllələnir, əmlakları müsadirə edilir, ailələri də sürgün edilirdi. Elə o vaxtlardan Qarabağın azərbaycanlı kənd və obalarının sakinlərinin sayı getdikcə azalıb yerlərini ermənilər tuturdu.

Oxucuları 1930-cu ilin iyun ayında Baş Siyasi İdarənin Qarabağ vilayət şöbəsi məmurları tərəfindən uydurulmuş 165 №-li istintaq işi ilə tanış etmək istəyirəm. Bu iş həcmcə çox kiçik iş olub, cəmi 12 (!) vərəqdən ibarətdir.

*Vərəqə 1.* «1930-cu il iyunun 13-də Stepanakert şəhərində. Mən, Azərbaycan BSİ Qarabağ vilayət şöbəsinin müvəkkili Qalstyan, vətəndaş Hacıyev Əsgər Qəmbər oğlunun qərəzli antisovet təbliğat aparmaqda və Sultanov Sultanbəy ilə əlaqədə olmaqda əldə edilmiş ittiham materiallarını nəzərdən keçirib qərara aldım: həmin işi öz icraatıma götürürəm».

*Vərəqə 2.* «Müqəssir sifəti ilə cəlb edilmə haqqında qərar: 1930-cu il iyunun 13-də Stepanakert şəhərində. Mən, Azərb. BSİ Qarabağ vilayət şöbəsinin müvəkkili Qalstyan vətəndaş Hacıyev Əsgər Qəmbər oğlunun işi ilə tanış olub qeyd olunan Hacıyevin müntəzəm surətdə qərəzli antisovet təbliğatı aparmağını və Sultanov Sultanbəylə əlaqədə olmağını müəyyən edib, qərara gəldim:

Hacıyev Əsgər Qəmbər oğlu həmin iş üzrə müttəhim sifətiylə məsuliyyətə cəlb edilib Azərb. SSR CM-nin 72 və 79-cu maddələri ilə müqəssir bilinsin».

*Vərəqə 3.* Hacıyev Əsgər Qəmbər oğlunun həbs edilməsi haqda 1930-cu il 13 iyun tarixli qərar.

*Vərəqə 4.* 1930-cu il iyunun 14-də müstəntiq Familiant tərəfindən aparılmış Malıbəyli kənd müəllimi Qasımov Fazilin dindirilməsi. **Qasımov:** «Əsgər Qəmbər oğlu Hacıyev qolçomaqdır. Səsi alınıb. Onun doğma qardaşı tanınmış müsavatçı idi, buna görə də 1925-ci ildə məhkum olunub. Solovki konslagerinə sürgün edildi və orada da öldü.

Əsgər Qəmbər oğlu Sovet hakimiyyətindən narazı olub, varlı kəndlilər və antisovet ruhlu şəxslər arasında Sovet hakimiyyəti əleyhinə təbliğat aparırdı. Onun şəxsi dəyirmanı və iki muzduru var. O deyir ki, hökumət böyük vergilər təyin edib düzgün iş görmür. O kəndliləri inandırmaq istəyir ki, hökumətin siyasəti düz deyil. O deyir: «Axı Sovet hökuməti bütün kəndliləri niyə boğur?». Kommunistlər arasında o, özünü çox ehtiyatlı aparırdı, onlara yaltaqlanırdı, qoyun kəsirdi və onları düz sinfi yoldan sapdırmağa çalışırdı. Kənd əhli arasında nüfuzu var və buna görə də zərərlidir, çünki kəndlilər ona qulaq asır. O isə bütün məsələlərdə hökumət əleyhinə təbliğat aparır. Onun çoxlu – on min manata qədər nağd pulu var (Görəsən, Qasımov Fazil bunu haradan bilirdi? – Z. B.)».

*Vərəqə 5.* 1930-cu il iyunun 13-də Azərb. BSİ-nin vilayət müvəkkili Sarkisyan tərəfindən Malıbəyli kənd soveti sədri olan Mədətov Bəhmənin dindirilməsi. **Mədətov:** «Əsgər Qəmbər oğlu Hacıyev çox mötəbər və varlı kəndlidir. Bundan başqa, alver edir. Onun qardaşı Yusif Hacıyev 1927-ci ildə əksinqilabi fəaliyyətinə görə Solovki konslagerinə sürgün edilib. Məlumatlara görə onun Sultanov Sultanbəylə əlaqəsi var. İndi və xüsusən son günlərdə fəal antisovet təbliğatı ilə məşğuldur. Zərərli tipdir və ictimaiyyət üçün təhlükəlidir. Mədətov».

Hacıyev Əsgər Qəmbər oğlunun özü isə həbs edilməsindən yalnız on gündən sonra, 1930-cu il iyunun 23-də dindirilib, lakin buna heç dindirilmə də demək olmaz, çünki erməni müstəntiqləri Hacıyevin taleyini özləri müəyyən etmişdilər.

*Vərəqə 6.* «Hacıyev Əsgər Qəmbər oğlunun, qolçomağın, səsdən məhrum edilib bir ay bundan qabaq səsi qaytarılmışın, Malıbəyli kənd sakininin, bir ev, iki inək, iki öküz, bir at, bir camış, bir eşşək və Sovet hökuməti tərəfindən müsadirə edilən bir dəyirmanın sahibinin Dindirilməsi. Dindirən müvəkkil Sarkisyandır.

**Hacıyev:** «Mənə verilən sualların mahiyyəti üzrə cavab verirəm ki, mən kənddə heç bir antisovet təbliğat aparmamışam və quldurlarla mənim heç bir əlaqəm olmayıb. Ətraf kəndlərin camaatı, hətta ermənilər belə, məni yalnız müsbət tərəfdən tanıyırlar və heç kəs deməz ki, mən antisovet fəaliyyəti ilə məşğulam. Bütün partiya üzvləri mənim yalnız yaxşılığımdan danışarlar, çünki mən heç vaxt Sovet hakimiyyətinin tədbirlərinin əleyhinə olmamışam. Mənə isnad edilən cinayətdə özümü təqsirkar bilmirəm və buna da heç bir əlavəm yoxdur».

*Vərəqə 7.* «1930-cu il iyunun 23-də mən, Azərb. BSİ-nin Qarabağ vilayət şöbəsinin müvəkkili Sarkisyan Hacıyev Əsgər Qəmbər oğluna ittihamnaməni təqdim edərkən Hacıyev özünü müqəssir bilmədi».

*Vərəqə 8.* «Qərar. 1930-cu il 13 iyun (oxucu görür ki, qərar ermənilər tərəfindən qabaqcadan hazırlanıb. – Z.B.) Stepanakert şəhəri.

Mən, Azərb. BSİ-nin Qarabağ vilayət müvəkkili K.Qalstyan həmin gün Hacıyev Əsgər Qəmbər oğlunun 165 №-li istintaq işini nəzərdən keçirərək müəyyən etdim ki: vətəndaş Hacıyev Əsgər Qəmbər oğlu kəndlilər arasında qərəzli antisovet təbliğatı ilə məşğul olaraq deyirdi: «Bütün kəndliləri boğan Sovet hakimiyyəti bizim nəyimizə gərəkdir? » Hacıyev Sultanov

Sultanbəylə keçmişdə və indi əlaqə saxlayıb, son zamanlarda isə, xüsusən fövqəladə fəaliyyət göstərməkdədir.

Bütün bunları nəzərə alaraq və Azərb. KP MK-nın Siyasi Beşliyin (bələsi də varmış! – Z.B.) 1930-cu il 10 iyun tarixli və 3 nömrəli qərarını əldə rəhbər tutaraq qərara gəldim:

Hacıyev Əsgər Qəmbər oğlu Azərb. SSR CM-nin 72 və 79-cu maddələri üzrə təqsirləndirilsin, 165 №-li istintaq işi baxılmaq üçün Siyasi Beşliyin müşavirəsinə göndərilsin. «Razıyam» – Q.Petrosyan».

*Vərəqə 9.* «1930-cu il iyunun 24-də Ağdam şəhərində Zaqafqaziya BSİ-nin Fövqəladə Üçlüyünün iclasının protokolundan çıxarış:

**Eşidildi:** (məruzəçi – Familiant): Əsgər Qəmbər oğlu Hacıyevin 165 №-li cinayət işi. Antisovet təbliğatda təqsirləndirilir, yəni Azərb. SSR CM-nin 72-ci maddəsi ilə.

**Qət edildi:** 45 yaşlı Əsgər Qəmbər oğlu Hacıyev güllələnsin. Sofronov».

*Vərəqə 10.* Məhkum olunmuş Hacıyev Əsgər Qəmbər oğlunun həyat yoldaşı Gülsüm Cəfər qızının şikayəti.

*Vərəqə 11.* Həmin şikayət üzrə 1958-ci il fevralın 11-də Azərb. SSR Prokuror müavini İsmayılov İlyasın Hacıyev Əsgər Qəmbər oğlunun 165 №-li cinayət işi ilə əlaqədar Azərb. SSR Ali Məhkəməsinə göndərdiyi etirazı.

«Hacıyevin işi yoxlanılarkən müəyyən olundu ki, onun məhkum olunması qanunsuz qisasalma idi, çünki onun işi üzrə heç bir ittihamedici material əldə edilməmişdi.

Cəmi on gün davam edən istintaq vaxtında yalnız iki şahid dindirildi: Qasımov və Mədətov.

Şahid müəllim Qasımovun ifadələri iş üzrə dəlil ola bilməz: əvvəla, qeyri-konkret olduğuna görə, sonra isə obyektiv olmadığına görə. Çünki Qasımov, Hacıyevin kəndlilər arasında Sovet hakimiyyəti əleyhinə təbliğat apardığını deyəndə bunu təsdiq edən heç bir adamın adını çəkməmişdi.

İkinci şahid – kənd soveti sədri Mədətovun ifadəsi yalnız onca sətirdə yazılıb və bu on sətirlik mətn ümumi, səthi ifadələrdən ibarətdir: «Hacıyev çox mötəbər və varlı kəndlidir və fəal antisovet təbliğatı ilə məşğuldur». Amma şahid demir ki, təbliğat nədən ibarətdir və DSİ bununla maraqlanmır, çünki Hacıyevin taleyi qabaqcadan, həbs olunduğu gündən həll edilmişdi. Bu da 1930-cu il iyunun 13-də DTİ-nin Qarabağ vilayət müvəkkilləri Qalstyanın və Petrosyanın tərtib etdikləri arayışdan görünür. Onlar

Hacıyevi dindirmədən (onu on gündən sonra dindiriblər). Hacıyevin işini «Siyasi Beşliyin» sərəncamına göndərdilər.

Hacıyevin işi üzrə ittihamnamə tərtib olunmayıb.

Bunlara görə xahiş edirəm ki, Hacıyev Əsgər Qəmbər oğlu haqqında olan Zaqafqaziya DSİ Fövqəladə Üçlüyünyn 24 iyun 1930-cu il tarixli qərarları sübuta yetmədiyindən ləğv edilsin».

*Vərəqə 12.* 1958-ci il fevralın 28-də Azərb. SSR Ali Məhkəməsinin Cinayət işləri üzrə məhkəmə kollegiyası Azərb. SSR Prokurorunun müavininin etirazına əsasən Hacıyev Əsgər Qəmbər oğlu haqqında olan Fövqəladə Üçlüyün 24 iyun 1930-cu il tarixli qərarını ləğv edib, işinə isə sübuta yetmədiyinə görə xətm verdi.

1958-ci il martın 17-də Əsgər Qəmbər oğlu Hacıyevin oğlu Qəmbər atasının bəraəti haqqında arayış alır.

İşdə Hacıyevin fotoşəkli yoxdur.

Allah Əsgər Qəmbər oğluna və minlərcə onun kimi günahsız məhv olunmuş həmvətənlərimizə rəhmət etsin!

## SOVET HƏBS DÜŞƏRGƏLƏRİNİN İLK MƏHBUSLARI

Tarixən dəyirman daşını həmişə bizim başımızda fırladıblar. Əvvəl-əvvəl bizi çək-çevirə salıblar, siyasət ipini bizim boğazımıza keçiriblər. Sovet dövləti qurulmamışdan əvvəl Azərbaycanın qurğusunu qurmuşdular, bölüb-bölüşdürmək nəqşəsini cızıb hazırlamışdılar.

Azərbaycan mərdləri ilə bolşevik kələkbazlarının, gizli qəsbkarlıq siyasəti yürüdənlərin fikri, amalı başqa-başqa idi. Müsavatçı ziyalılar meydana mərdanə girmişdilər, mədəni səviyyələri, siyasi əqidələri, dünyagörüşləri, imanları, məsləkləri uca idi, saf idi, insanlıq naminə idi. «Ayır-buyur» siyasəti ilə, «necə olur-olsun» hökmü ilə, aldatmaqla, oyunbazlıqla, yalanla, böhtanla, sıxma-boğma ilə, hədə-qorxu gəlməklə, qan-qada ilə Azərbaycanı ayaqlayanlar isə buqələmun kimi min dona girirdilər və indi də donlarını tez-tez dəyişirlər.

Biz, doğrudan da, böyük xalqıq. Bu qədər qırıb-töküblər, kəsib-biçiblər, əsir-yesir eləyiblər, çürüdüblər, çərlədiblər, yenə də məhv olmamışıq.

İlk sovet həbs düşərgələrinin də qurbanları bizim xalqın qeyrətli oğulları, azadlıq cəfakeşləri olublar. Bu yazı da ilk qurbanlarımız, ilk müsibətkeşlərimiz barədədir...

Rusiyada Sovet hakimiyyəti qurulduqdan sonra Leninin və Trotskinin sərəncamına əsasən, Solovetsk adalarında (Ağ dəniz), Suzdal, Yaroslavl və başqa yerlərdə Sovet dövlətinin həbs düşərgələri yaradıldı. Minlərlə «inqilab düşməni» bu düşərgələrin ilk «sakini» oldu. Kim idi düşmən adlandırılanlar? Rusiya zadəganları, başqa millətlərdən olan görkəmli şəxsiyyətlər, Avropanın müxtəlif ölkələrində təhsil almış ziyalılar, Sovet hakimiyyətinin qurulması uğrunda mübarizə aparan, ona kor-koranə inanan bütün adamlar, digər partiyaların, hətta yeni hakimiyyətə loyal münasibət bəsləyən partiyaların üzvləri, üstəlik yaxşı yaşadığına görə günahlandırılan minlərlə günahsız kəndli.

Məhbuslar arasında Azərbaycan xalqının da ən yaxşı oğulları vardı. Təkcə «Müsavat» partiyasının yüzlərlə üzvü bir və ya iki dəfə bu düşərgələrə sürgün edilmişdi.

Azərbaycanda Sovet hakimiyyəti qurulan kimi, XI Qızıl Ordunun xüsusi şöbəsi ziyalılara, bütün mövcud partiyaların üzvlərinə, hətta liberal əhvali-ruhiyyəli adamlara belə amansız divan tutmağa başladı. On nəfərdən çox azərbaycanlı general məhkəməsiz və istintaqsız güllələndi. Halbuki Azərbaycan ordusu Qızıl Orduya qarşı vuruşmamışdı və mövcud razılaşmaya əsasən generallar təqib olunmamalı idilər. Təkcə iki general – Səməd Mehmandarov və Əliağa Şıxlinski N. Nərimanovun səyi nəticəsində sağ qaldılar.

1920-ci il aprelin əvvəlində XI Qızıl Ordu Azərbaycana doğru irəliləyirdi. Bununla əlaqədar ordunun inqilab şurası ilə danışıqlar aparmaq üçün Pepinov, Rəhim Vəkilov və başqalarından ibarət Azərbaycan parlament nümayəndə heyəti Pyatiqorska gəldi. Burada onlar həbs olundular, yalnız bir aydan sonra azad edildilər. Məlumdur ki, Azərbaycan parlamenti 1920-ci il aprelin 27-dən 28-nə keçən gecə hakimiyyəti könüllü olaraq, müqavimət göstərmədən bolşeviklərə vermək barədə qərar çıxarmışdı. Azərbaycan parlamentinin təkcə bu alicənab və humanist hərəkəti Azərbaycanın gələcək yiyələri tərəfindən ləyaqət və hörmətlə qiymətləndirilməli idi: heç olmazsa, adi ədalət baxımından. Lakin hər şey tamam tərsinə oldu. Çünki məqsəd Azərbaycanı, birinci növbədə Bakını nefti ilə birlikdə zorla ələ keçirmək idi.

Bolşeviklərin əsas siyasi opponentləri (təbiidir ki, Fövqəladə Komissiyanın da) müsavatçılar idi. Onlarla «haqq-hesabı çürütmək» vaxtı çatmışdı. Lakin buna mübahisə, diskussiya və s. vasitəsilə nail olmaq mümkün

deyildi. Çünki müsavatçıların intellekti, yəni zehni inkişaf səviyyəsi düşünüb hazırlaşmadan, necə gəldi «dünya inqilabına» doğru gedənlərinkindən xeyli yüksək idi. Bununla belə, gəlmələr respublikanı və onun sərvətlərini idarə etmək üçün müsavatçılarla diskussiya keçirmək barədə heç fikirləşmirdilər də. Bəli, bu, respublikanın yeni ağalarının vəzifəsinə daxil deyildi. Məqsəd bir idi: mane olanları aradan götürmək, düşünənləri, fikir söyləyənləri təkləyib məhv etmək. Həbs düşərgələri də bunun üçün yaradılmırdımı?!

MK orqanları bir müddət nə hakimiyyəti könüllü surətdə Sovetlərə verən müsavatçılara, nə ittihadçılara, nə də digər partiyaların üzvlərinə dəyib toxunmadılar. Bundan əlavə, 1920-ci il aprelin sonunda indiki Bakı Sovetinin binasında Azərbaycan SSR Xalq Komissarları Şurası ilə bağlanan müqaviləyə əsasən «Müsavat» açıq surətdə fəaliyyət göstərirdi. Partiyadan çıxaraq öz Mərkəzi Komitəsini seçən sol qanad xüsusilə fəallaşdı. Lakin Fövqəladə Komissiya Azərbaycanda, xüsusən Bakıda fəaliyyət göstərən partiyaların üzvləri haqqında dəqiq məlumata malik olmadığından 1920-ci ilin may ayından təxmini həbslərə başladı. Həbs olunanları üç-dörd ay ara verməyən sorğu-suala tutdular. Nəticədə Fövqəladə Komissiya həmin dövrdə, demək olar ki, fəaliyyət göstərən bütün partiyaların üzvləri barədə özünə lazım olan dolğun məlumat yığa bildi. Toplanmış material Fövqəladə Komissiyaya partiyaların, xüsusən «Müsavat»ın fəaliyyətindəki zəif və güclü cəhətləri müəyyənləşdirmək, öncülləri, potensial fəalları aşkara çıxarmaq, yaxın gələcəkdə partiyaları ləğv etmək, üzvlərini sıxışdırmaq üçün qətiyyətli addımlar atmaq imkanı verirdi.

Birdən-birə təqiblərə başlamaq sanki yaxşı deyildi. Buna görə də Stalin partiyanın rəhbəri Məmməd Əmin Rəsulzadəni Moskvaya, Milli İşlər üzrə Xalq Komissarlığına işə götürdü. Müsavatçıların bir qismi İttifaq və respublika səviyyəli vəzifələrə təyin olundu.

1920-ci ilin axırlarından 1923-cü ilin ortalarınadək Fövqəladə Komissiya «Müsavat» partiyası üzvləri arasında seçmə həbslər apardı. Bir ay-ay yarım çəkən istintaqdan sonra məhbuslar buraxılırdılar. Həbsə alınanlar içərisində Kərbəlayi Vəli Mikayıl oğlu Mikayılov, Rəhim Alı ağa oğlu Vəkilov, Qurban İsabala oğlu Musayev, Əsədulla hacı Ağamirzə oğlu Məmmədov, Salman Məmməd oğlu Rəhimov, Məşədi Haşım oğlu İslamov, Novruz Ağa oğlu Ağayev, Baba Hüseyn oğlu Cəbiyev, ümumiyyətlə, 30-dan çox müsavatçı vardı.

Müsavatçıların Azərbaycanda Sovet hakimiyyətinin fəalları arasında az-çox təmiz, vicdanlı adam kimi tanıdıqları Mirzə Davud Hüseynov 1923-cü ilin iyul-avqust aylarında partiyanın öncülləri ilə partiyanı leqallaşdırmaq, fəaliyyətini dayandırmaq, nəhayət, özünü buraxmaq barədə danışıqlara başladı. Mirzə Davuda kömək məqsədilə Tiflisdən Xarici İşlər üzrə Zaqafqaziya kollegiyasının nümayəndəsi də gəlmişdi. Müsavatçılarla danışıqlar zamanı ortaya belə bir şüar atıldı: «Tovarişi, yoldaşi! Sovetski vlast çox yaxşı! Svoloç bıl Nikolay, yaşasın Perviy May! ».

Mirzə Davud müsavatçıları inandıra bildi ki, onlar «inqilabın dəmir katorqası»na – bolşeviklərə qarşı ideya mübarizəsini dayandırmalı, təslim olmalıdırlar. 1923-cü il avqustun 14-də «Bakinski raboçi» qəzetində B.B. imzası ilə «Müsavat buraxıldı» sərlövhəli məqalədə bu partiya – «məzlumlara və köləl ərə məhəbbət və sədaqət kimi böyük sözlərlə pərdələnmiş bəy və xanların satqın milli partiyası» adlandırılırdı. Həmin qəzetdə «Müsavatçıların Bəyannaməsi» də dərc olunmuşdu. Bəyannamədə deyilirdi ki, Antanta ölkələri imperializmi Şərq xalqlarını öz mənafeyi naminə istismar edərək, onların milli azadlıq hərəkatını boğur, milli istiqlaliyyətə can atan türk xalqlarının dirçəlişinə, müstəqil siyasi varlığı uğrunda mübarizəsinə mane olur. Müsavat partiyası Şərqin imperializm zülmündən qurtulması tərəfdarıdır və türk xalqları ziyalılarının qabaqcıl dəstəsi kimi tam məsuliyyəti ilə bildirir ki, xalqların köləlikdən azad olunmasında Azərbaycanın inkişafının böyük əhəmiyyəti vardır. Etiraf edilir ki. RKP-nin XII qurultayının və Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin qərarında SSRİ daxilində millətlərin hüquq bərabərliyi daha real şəkildə təsbit olunur, digər tərəfdən Şərqin azad edilməsi məsələsi daha həyati və əməli təmələ əsaslanır.

Bəyannamənin sonunda deyilirdi: «Sovet hakimiyyəti zəhmətkeşlərin müdafiəçisidir, geniş kütlələri siyasi həyata cəlb edir. O, Qafqaz xalqları arasında möhkəm sülh yaratmışdır. «Müsavat» partiyası da həmişə buna tərəfdar olmuşdur. İmperialist, daha sonra vətəndaş müharibəsi nəticəsində fiziki, iqtisadi və mədəni cəhətdən zəifləmiş Azərbaycanın geniş kütlələrinə uzun müddət dinclik lazımdır. Bütün bunları nəzərə alaraq, biz, aşağıda imza edənlər bu məsul dövrdə Azərbaycanda Sovet hakimiyyətinə qarşı mübarizə cəbhəsi açanları pisləyir və harada yerləşməsindən asılı olmayaraq, Azərbaycanda Sovet hakimiyyətinə qarşı mübarizəyə çağıran bütün təşkilatları, siyasi qrupları və ayrı-ayrı adamları, burada, yaxud xaricdə yerləşməsindən asılı olmayaraq, türk xalqlarının düşməni elan edirik.

Bununla yanaşı, biz sovet platformasında işləməyə, bütün qüvvəmizi Sovet hakimiyyətinə sərf etməyə hazırıq. Şübhələri dağıtmaq və heç bir söz-söhbətə yol verməmək üçün elan edirik ki, qeyri-leqal fəaliyyət göstərən «Müsavat» təşkilatı buraxılmış hesab olunur.

«Müsavat» partiyası MK-nın üzvləri: Əbdülvahab Məmmədzadə, Sadıq Quluzadə.

Partiya üzvləri: Ələkbər Salmanzadə, Həmid Qarayev, Novruz Ağayev, Seyid Hüseyn Sadıqov, Nəriman bəy Nərimanbəyli, Kərbəlayi Vəli Mikayilov, Cəfər Cabbarzadə, Rəhim Vəkilov, Əliağa Əlizadə, Əliövsər Nəcəfov, Məmməd Seyid Axundzadə».

Müsavatçılar, xüsusən də partiyanın sol qanadı (onlara «Sollar» da deyirdilər) necə də sadəlövh, necə də vicdanlı, düz adamlar idilər! Azərbaycan xalqının və respublikanın xoş güzəranı naminə fəaliyyət göstərən müsavatçılar Bəyannaməni dərc edərək, elə gümanda idilər ki, həqiqətən də başqaları kimi onlar da hamı ilə birlikdə sosializm cəmiyyətinin qurulmasında fəal iştirak edəcəklər. Onlar bilirdilər ki, «Müsavat»ın bütün üzvlərini, həmçinin digər partiyaları təqib edir, pusurlar. Lakin güman edirdilər ki, gizli fəaliyyətdən çıxdıqdan sonra təqib olunmayacaq, respublikanın qalan bütün vətəndaşları kimi azad surətdə yaşayıb-işləyəcəklər.

Lakin müsavatçıların təqibi dayandırılmadı, əksinə, sürətləndi. Bəyannamə dərc olunan günün ertəsi leqal «Müsavat» partiyasının bütün üzvlərini bu və ya başqa bəhanə altında tutmağa, istintaq edib Birləşmiş Dövlət Siyasi İdarəsi (BDSİ) kollegiyası Xüsusi Müşavirəsinin qərarına əsasən, həbs düşərgələrinə göndərməyə başladılar.

Mən Fövqəladə Komissiya tərəfindən həbsə alınmış müsavatçılardan bəzilərinin işi ilə tanış olmuşam. Onlardan bir neçəsini oxucuya təqdim etmək istəyirəm. Qoy uzaq keçmişin həmin hadisələrindən o da hali olsun. Müsavatçılar üçün tərtib olunmuş cinayət materiallarında tədqiqatçılar üçün əvəzsiz olan çox nadir sənədlər var.

## VƏKİLOV RƏHİM ALI AĞA OĞLUNUN
işindən (№ 25692)

1922-ci ilin avqustunda sol müsavatçıların Mərkəzi Komitəsinin üzvü Mirzəbala Məmmədzadənin təklifi ilə Mərkəzi Komitə Siyasi Komissiyasının rəhbəri təyin olunmuşdur. Komissiyaya Sadıqov Seyid Hüseyn, Əliövsər Nəcəfov və Kərbəlayi Vəli Mikayılov daxil idilər. Komissiya bu proqramı təsdiq etmişdi:

I. Nəzəriyyə və son məqsəd: a) Azadlıq və müstəqillik, b) Millət və millətçilik, c) İslam beynəlmiləlçiliyi, ç) Mərkəzsizləşdirmə, d) Türkizm və turanizm, e) Xalqçılıq və respublikaçılıq.

II. Yaxın məqsəd və vəzifələr: a) İdarəetmə forması, b) İqtisadi məsələ, c) Aqrar məsələ, ç) Fəhlə məsələsi, d) Ədliyyə, e) Maarif.

III. Partiya quruculuğu:

Partiya nizamnaməsi, partiya intizamı, partiya təşkilatı, təşkilatın prinsipləri, partiya təbliğatı, partİya üçün natiqlik sənətinin əhəmiyyəti, işə sədaqət, yazmaq bacarığı və s.

Azərbaycan Dövlət Universiteti şərqşünaslıq fakültəsi tarix şöbəsinin tələbəsi Rəhim Vəkilov Azərbaycanın gələcəyi üçün konsepsiyasını belə şərh edirdi: «Mən Rusiya inqilabının «Xalqların öz müqəddəratını təyin etməsi, tamam ayrılmasının təmin olunması əsasında ilhaqsız, təzminatsız sülh» şüarının təsiri altında idim. Qızıl Ordunun gəlişindən sonra bu şüar müxtəlif dəyişikliklərə məruz qalsa da, mənim Antantaya olan antiimperialist əhvali-ruhiyyəm dəyişilmədi. Çünki aydın idi: nə qədər ki iki nəhəng qüvvə – Qərb imperializmi ilə Rusiya və Türkiyə arasında mübarizə gedir, kiçik Azərbaycan öz qüvvəsi ilə müstəqil respublika ola bilməz. Heç şübhəsiz, mən bu iki qüvvədən birinə – Rusiya-Türkiyə ittifaqına rəğbət bəsləyirəm».

1924-cü il aprelin 24-də BDSİ-nin Xüsusi Müşavirəsi Rəhim Vəkilovu 3 il müddətinə cəzasını Yaroslavl həbs düşərgəsində çəkməklə sürgünə göndərdi.

Birinci və ikinci (51 günlük həbs nəzərdə tutulur) həbsarası müddətdə müsavatçıların bir qismi Mirzəbala Məmmədzadə başda olmaqla 14 avqust 1923-cü il Bəyannaməsinə qol çəkməyib qeyri-leqal fəaliyyəti davam etdirirdi. Qurban Musayev, Ağasəlim Rəhimov, Məşədi İslamov və Salman Rəhimov gizli mətbəədə (Çadrovaya küçəsi, 62) «İstiqlal» qəzetini

(1923-cü ilin oktyabr-dekabr aylarında 19-cu nömrə mətbəədə yığılarkən onlar həbs olunmuşlar) buraxmaqda idilər.

Əvvəllər müsavatçılarla söhbətlərdə ədəb və nəzakət qaydalarını gözləyən, mədəni rəftar edən FK müstəntiqləri indi sözə belə başlayırdılar: «Xəbərdarlıq edirik ki, yalan, ikibaşlı, qeyri-müəyyən məlumatlar versəniz, siz ən yüksək cəzaya – güllələnməyə məhkum ediləcəksiniz». İndi hünərin var, gəl, demək olar ki, haqqında hər şeyi bilən müstəntiqə lazım olanı demə. Ona görə də onların hamısı öz əlləri ilə istintaq protokoluna yazırdılar: «Oxudum, nəzərə alıram və qol çəkirəm».

Xülasə, 1924-cü ilin aprel ayında yüzdən çox müsavatçı (Qurban Musayev – iş № 25704, Əsədulla Məmmədov – iş № 25700, Kərbəlayi Vəli Mikayılov – iş № 25894, Novruz Ağayev – iş № 25697, Salman Rəhimov – iş № 25706, Məşədi İslamov – iş № 25699 və b.) mühakimə olunaraq, 2-3 il müddətinə Yaroslavl, Suzdal, Solovetski həbs düşərgələrinə göndərildilər.

Müsavatçılar hələ də Sovet hakimiyyəti rəsmi nümayəndələrinin vicdanına, düzlüyünə inanırdılar. Fikirlərincə hakimiyyətlə onlar arasındakı «kişi söhbəti»nə – müqaviləyə əməl olunmalı idi. Ona görə də sürgünə göndərilənlər məsələni aydınlaşdırmaq üçün çaşqın vəziyyətdə BDSİ-nin rəhbərliyinə müraciət etdilər. Qurban Musayevin hifz olunmuş sənədləri bu baxımdan maraqlıdır.

**Birinci sənəd**

*BDSİ kollegiyasının rəyasət heyətinə.*
*«Müsavat» partiyası sol qrupunun işi üzrə*
*siyasi məhbuslardan*

ƏRİZƏ

«Müsavat» partiyası sol qrupunun işi üzrə on bir nəfər gənc zəhmətkeş – ziyalı və fəhlə Azərbaycan Fövqəladə Komissiyası tərəfindən Suzdal və Yaroslavl həbs düşərgələrinə sürgün edilib, BDSİ-nin sərəncamına göndərilmişdir. Bu adamlar həmişə, hər yerdə özlərini Sovet hakimiyyəti ilə həmrəy və loyal münasibət tərəfdarı kimi göstərmişlər. Lakin daxili dövlət quruculuğu məsələləri barədə fikir ayrılığı olmuşdur. Bu ixtilaflar da KP

və Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin XII qurultayı qərarlarının həyata keçirilməsi nəticəsində. demək olar, aradan qaldırılmışdır.

«Müsavat»ın sol qrupu Azərbaycanın sovetləşməsi dövründə iki dəfə Sovet hakimiyyəti ilə həmrəyliyini ona loyal münasibətini bildirmişdir: birinci dəfə Azərbaycan sovetləşəndən sonra, keçmiş Bakı Şəhər İdarəsinin binasında keçirdiyi ümumi yığıncaqda; ikinci dəfə 1923-cü il avqustun 14-də «Bakinski raboçi» qəzetində Bəyannamələri dərc olunmuş sol müsavatçıların həbsindən sonra.

Böyük Rusiya inqilabının yaratdığı və elan etdiyi prinsiplər əsasında tərbiyə almış bu gənc qüvvəyə Azərbaycan respublikasının bir sıra məsul işçilərinin daşürəkli münasibəti sol müsavatçıların bir qisminin gizli fəaliyyətə keçməsinə səbəb oldu. Özü də sol müsavatçıların gizli fəaliyyəti başdan-başa barışığa, anlaşılmazlıqların aradan qaldırılmasına xidmət edirdi. Bu cəhət 1923-cü il 14 avqust tarixli Bəyannamədə də öz əksini tapmışdır. Mirzəbala Məmmədzadə istisna olmaqla, sol müsavatçılar öz Bəyannamələrinə sadiq qalıb, gizli işə keçmədilər. Mirzəbala Məmmədzadə hələ 1923-cü ilin əvvəllərində ideya və taktika məsələləri üstündə yoldaşları ilə əlaqəni kəsmiş. Bəyannamədən sonra gizli fəaliyyətə keçən də o olmuşdu. Bunu, Əbdülvahab Məmmədzadə və Kərbəlayi Vəli Mikayılovdan savayı, ikinci dəfə həbs olunmuş bütün sol müsavatçıların azad edilməsi faktı bir daha sübut etdi. Yeri gəlmişkən deyim ki, səkkiz aylıq istintaqdan sonra bu nəticəyə gəlmişdilər. Heç bir dəlil-sübutu olmayan Azərbaycan Fövqəladə Komissiyası verilən cəzanı müsavatçıların şübhə doğurmaları bəhanəsilə pərdələyirdi. Doğrudur, sürgünə göndərilənlərdən iki nəfər – Qurban Musazadə və Ağasəlim Rəhimov Bəyannamədən sonra düşünüb-daşınmadan gizli fəaliyyətə qoşulmuşdular. Buna səbəb beynəlxalq vəziyyət, mövcud şəraitdə Sovet hakimiyyətinin rolunu düzgün qiymətləndirə bilməmələri idi. 14 avqust Bəyannaməsinin tələblərini qəbul edən bu iki nəfər üç nəfərlə – Nəsrulla İsrafılov, Əlihəsən Babayev və Rəhman Əbdülovla həmfikir idilər. Onların beşi də Bəyannamənin tələblərinə əməl edərək, gizli işə keçməmişdi. Sürgün olunanlardan dörd nəfəri – Məşədi İslamov, Hacıbaba Cəbiyev, Ağakərim Əliyev və Salman Rəhimov bitərəf idilər və Bəyannaməyə qədər dolayı yolla işdə iştirak etmişdilər. Beləliklə, Azərbaycan Fövqəladə Komissiyasının (AFK) «Bəyannamədən sonra iş apardıqlarına görə» həbsə aldığı 11 nəfərdən 9-u əslində heç bir işlə məşğul olmamışdı.

Sürgünə göndərilən bu adamlar Azərbaycanın mədəni həyatında mühüm rol oynaya bilərdilər:

1. Qurban Musazadə – Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin tələbəsi, jurnalist, pedaqoq, türk və rus dillərinin bilicisi.

2. Nəsrulla İsrafilov – iqtisad fakültəsinin tələbəsi, pedaqoq, siyasi və elmi kitabların mahir tərcüməçisi, türk ədəbi dilində, rus dilində mükəmməl danışan.

3. Kərbəlayi Vəli Mikayılov - pedaqoq, 1903-cü ildən jurnalist, türk və fars dillərinə yaxşı bələd idi.

4. Əbdülvahab Məmmədzadə – BDU nəzdində fəhlə fakültəsinin türk mədəniyyəti, tarixi və coğrafiya fənləri üzrə, N.Nərimanov adına Bakı texnikumunda türk dili və mədəniyyəti tarixi üzrə müəllim, türk, fars, ərəb və rus dillərində çıxan siyası, ədəbi, elmi kitabların tərcüməçisi, jurnalist.

5. Ağasəlim Rəhimov – ekspeditor, ixtisaslı korrektor. Türk və rus dillərini yaxşı bilirdi.

6. Rəhman Əbdülov (Əbdürrəhman xan) – gənc şair, jurnalist, ixtisaslı fəhlə, türk və rus dilləri üzrə mürəttib, AKGİ MK-nın orqanı «Gənc işçi» qəzetinin məsul katibi.

7. Əlihəsən Babayev – rus və türk dillərində ixtisaslı mürəttib. Son 6 ildə birinci Azərbaycan Dövlət mətbəəsinin müdiri. Türk, fars və rus dillərini əla bilirdi.

8. Ağakərim Əlizadə – Azərbaycan Politexnik İnstitutunun tələbəsi, texnoloq, müəllim, türk dilindən rus dilinə tərcüməçi.

Bu adları çəkilənlər həbs düşərgəsinə 3 il müddətinə sürgün edilmişdilər.

9. Məşədi İslamov – türk və fars dilləri üzrə 20 il mürəttiblik təcrübəsi olan qocaman mətbəə işçisi.

10. Salman Rəhimov – türk və rus dilləri üzrə orta təhsilli, kitabxanaçı, ruscadan türkcəyə tərcüməçi.

11. Hacıbaba Cəbiyev – 52 yaşlı qocaman inqilabçı, 1907-ci il İran inqilabının fəal iştirakçısı.

Bu üç nəfərə ikiillik sürgün cəzası verilmişdi. Sənədlər arasında yuxarıda adları qeyd olunan 11 nəfərin imzaladığı bir ərizə də vardır. Onu yoldaşları adından Əlihəsən Babayev yazmışdır: «Öz ixtisasımıza uygun olaraq Vətənimizə, həmçinin Sovet Sosialist Respublikaları İttifaqına xidmət etmək istəyirik. Ona görə də AFK-nın Azərbaycan gənc qüvvələri ilə əlaqədar çıxardığı sərt qərara diqqətinizi cəlb etməyi lazım bilirik. Şübhəsiz

ki, yuxarıda deyilənləri nəzərə alaraq, siz öz nüfuzlu sözünüzlə bu qərarı yüngülləşdirəcək və bizə öz qüvvəmizi Vətənimizin, eyni zamanda bütün Şərq xalqlarının xeyrinə sərf etmək üçün Moskvada azad yaşamaq imkanı verəcəksiniz.

Mümkün olmazsa, düşərgə həyatımızı RSFSR quberniyalarından birində BDSİ-nin nəzarəti altında sərbəst yaşamaqla əvəz edəcəyinizə dərin inam bəsləyirik.

*Əlihəsən Babayev, Əbdülvahab Məmmədzadə, Ağasəlim Rəhimov, Salman Rəhimov, Nəsrulla İsrafilov, Qurban Musayev, Məşədı İslamov, Ağakərim Əlizadə, Hacıbaba Cəbiyev, Rəhman Əbdülov, Kərbəlayi Vəli Mikayılov.*

Moskva, Butır həbsxanası, 25 iyun 1924-cü il.

**İkinci sənəd**

*BDSİ kollegiyasının Rəyasət heyətinə.*
*«Müsavat» partiyası sol qrupunun işi üzrə siyasi məhbuslardan:*

ƏRİZƏ

Zaqafqaziya FK-nın təsdiq etdiyi Azərbaycan FK kollegiyasının qərarı ilə biz – 11 nəfər aşağıda imza edənlər «Müsavat» partiyası sol qrupunun işi üzrə ayrı-ayrılıqda 3 və ya 2 il müddətinə Yaroslavldakı həbs düşərgəsinə sürgün edilmişik. Sizdən artıq dərəcədə xahiş edirik ki, ümumi qaydaya müvafiq surətdə sürgün müddətini əvvəlcədən FK şəraitində həbsdə yatdığımız vaxtdan hesablayasınız:

*Moskva,*
*Butır həbsxanası, 25. 07. 1924*

*(11 imza).*

**Üçüncü sənəd**

*BDSİ-yə:*
*«Müsavat» partiyasının işi üzrə*
*siyasi məhkum*
*Baba Həsən oğlu Cəbiyev tərəfindən*

## ƏRİZƏ

Bitərəf olsam da, həmişə proletar inqilabını müdafiə mövqeyində durmuşam. 52 yaşım var. Ömrümün son illərindən daha çox öz həyatımla məşğul olmağa, heç bir siyasi işə baş qoşmamağa çalışmışam. «Müsavat» partiyası işinə təsadüfən düşmüşəm və həbs düşərgəsinə 2 il müddətinə sürgün edilmişəm.

Qocalığımı nəzərə alaraq barəmdə çıxarılan hökmü yüngülləşdirməyinizi xahiş edirəm ki, evin yeganə çörək gətirəni olduğumu nəzərə alaraq, 6 nəfərdən ibarət ailəmə rəhm edib, haqqımda çıxarılan hökmü yüngülləşdirəsiniz.

*Baba Həsən oğlu Cəbiyev.*

Əriza 1924-cü il iyulun 8-də 3140/s nömrəsi altında DSİ-nin Şərq şöbəsində qeydə alınmışdır.

Butır həbsxanası kargüzarının imzaladığı arayışda deyilir:

Məhbus Dyasbayev B.O. (belə!).

57-ci maddə ilə ittiham olunur.

1. 12. 1923-cü ildən BDSİ-nin hesabındadır.

2 il müddətinə sürgünə məhkum olunmuşdur.

BDSİ-nin Şərq Şöbəsi hər üç ərizəni 1924-cü il iyulun 5-də BDSİ kollegiyasının Rəyasət heyətinə göndərmişdir. Mətn belədir: BDSİ hərbi Şöbəsi «Müsavat» partiyasının işi üzrə bu il aprelin 25-də BDSİ kollegiyasının nəzdindəki Xüsusi Müşavirə tərəfindən sürgünə və həbs düşərgəsinə məhkum olunmuş bir qrup Azərbaycan vətəndaşının ərizəsini öz rəyilə sizə göndərir.

BDSİ hərbi Şöbəsinin rəis müavini: *Vollenberq.*

I şöbənin rəisi: *Sokolovski.*

katib müavini: *Siqal.*

## RƏY

Mən, BDSİ hərbi Şöbəsinin müvəkkili Xalipov 1924-cü il iyulun 2-də «Müsavat» partiyasının işi üzrə siyasi dustaqların ərizəsinə baxıb aşağıdakıları bildirirəm:

1. İndi özlərini sol qrup adlandıran məhkumlar əslində «solçu» olmamışlar. Ümumiyyətlə, «Müsavat» partiyasında nə sol, nə də sağ qrup yoxdur.

2. Ərizədə Sovet hakimiyyətinə tərəfdar olmaları bildirilir. Materiallar isə başqa şey deyir. Onlar Türkiyə konsulluğu ilə sıx əlaqə saxlamış, Ankaraya arxalanmışlar.

3. Müsavatçılar özlərinə haqq qazandıraraq, gizli fəaliyyətlərini guya Sovet hakimiyyəti ilə öz aralarındakı taktiki ziddiyyətləri azaltmaq cəhdi ilə əlaqələndirirlər. Halbuki, bu bəyanat həqiqətə uyğun deyil. Materiallar gürcü menşevikləri ilə silahlı çıxışlara hazırlıqdan, bu məqsədlə də onlarla ittifaqa girmələrindən xəbər verir. Müsavatçılar menşeviklərin maddi köməyindən faydalanmışlar.

Yuxarıda deyilənləri nəzərə alaraq əvvəlki cəzanın, yəni BDSİ kollegiyası nəzdində Xüsusi Müşavirənin 1924-cü il 28 iyun tarixli qərarının saxlanılmasında israr edirəm.

BDSİ hərbi şöbəsi bölməsinin müvəkkili: *Xalipov.*
«Razıyam» – BDSİ hərbi Şöbəsi
I bölmə rəisi: *Sokolovski.*
«Təsdiq edirəm» – BDSİ Şərq şöbəsinin
rəis müavini: *Vollenberq.*

Gürcü menşevikləri ilə münasibətə gəlincə, belə bir əlaqə var idi. Rəhim Vəkilov ifadəsində deyirdi: «Mən «Müsavat»la gürcü menşevikləri arasında rabitə yaradırdım. «Müsavat»la əlaqə saxlamaq üçün 1922-ci ilin noyabrında Mamardaşvili, sonralar isə Putkaradze yanıma gəldi».

Bu əlaqə həm Bakıda, həm də Tiflisdə müəyyən adamlar vasitəsilə qeydə alınırdı.

Uzun illər həbsxana və həbs düşərgələrində olmuş Oleq Volkov «Zülmətdə» kitabında (Moskva, 1989, səh.46) müsavatçıların bu qrupu haqda belə yazır: «həmin dövrdə Butırda «Müsavat» partiyasının 300 nəfərə yaxın üzvü vardı. Türk, sonralar isə Azərbaycan ziyalılarının qaymağı olan bu adamlar Solovkiyə sürgün olunmuşdular. (səh.47-48). Mahmud Bakı zindanlarındakı qətllərdən, işgəncələrlə aparılan istintaqlardan xəsisliklə danışardı».

Beləliklə, onlarca yox, yüzlərlə müsavatçı həbs düşərgəsinə sürgün olunmuşdu və burada da onları güdürdülər. Məsələn, Solovetsk adasında xüsusi təyinatlı şimal düşərgələrindən birində – 1 nömrəli alahiddə düşərgədə cəzasını çəkən Məşədi İslamov haqqında BDSİ-nin şərq şöbəsinə belə raport göndərilmişdi:

«Solovetsk düşərgələri idarəsi Solovetsk düşərgələrinin izolyatorunda saxlanılan dustaq M. İslamovun adına olan məktubu sizə göndərir».

İdarə rəisi: *Noqtev*.

Katib: *Vaskov*.

Budur həmin məktub:

Ağ dəniz, Solovki adası.

23 sentyabr, 1924-cü il.

«Çox hörmətli Məşədi! Əvvələ bütün azərbaycanlılara, Sizə və Sizin yoldaşlara atəşin salam! Bizi yalnız Qafqaz dağları ayırır. Lakin onlar tezliklə bizim andımız qarşısında dağılacaq. Onlar bu qədər hücuma davam gətirə bilməz. Qadınların göz yaşı onları yuyub aparar və gözəl günlərin birində Azərbaycan oğlu bir əlində istiqlal bayrağı, o biri əlində qılınc Kazbekin zirvəsinə qalxaraq, xəritədə öz vətənini axtarar. Vətənə bax və fərəhlən: indi orada qan tökülür, gələcəkdə isə o azad olacaq.

Salmana (Rəhimova – Z.B.) salam söylə.

*E.Məşədi*».

Xüsusi təyinatlı Şimal düşərgələri Mərkəzi Attestasiya Komissiyası (MAK) (protokol № 22, 29 sentyabr, 1925-ci il; sədr – R.İ.Vasko, üzvləri: D.Y.Koçanov, A.S.Zapolski, katib – M.X.Pilyevski). Məşədi İslamov haqda belə yazırlar: «Düşərgə qaydalarına açıq-aşkar məhəl qoymur, özünü siyasətçi kimi göstərir, ixtisası üzrə vicdanla işləyir».

1926-cı il martın 19-da Xüsusi təyinatlı Şimal düşərgələri Mərkəzi Attestasiya Komissiyası qərara aldı: «İslamov Məşədinin əməyə münasibəti və intizamı qənaətbəxşdir».

M.İslamov 1916-cı il oktyabrın 22-də cəza müddətini çəkib qurtarmaq haqda vəsiqə aldı. Həmin gün Salman Rəhimov, Baba Cəbiyev də düşərgəni tərk etdilər.

«Müsavat» partiyasının bütün üzvləri haqqında məlumat vermək imkanım olmadığı üçün onlardan yalnız biri – Kərbəlayi Vəli Mikayılov barədə söhbət açmaq istəyirəm. Kərbəlayi Vəli partiyanın öncüllərindən idi, birinci və ikinci qurultaylara nümayəndə seçilmişdi. 1914-cü il aprelin 25-də Kərbəlayi Vəli Mikayılovu 3 il müddətinə Yaroslavl həbs düşərgəsinə sürgün edirlər. Həmin il noyabrın 1-də Mikayılov BDSİ-yə belə bir ərizə



*Hacıyev Hacı Şükür oğlu* *Rəhimov Əbdülhəsən Ələkbər oğlu*

yazır: «1923-cü il iyulun 20-də Azərbaycan FK-nın həbsə aldığı müsavatçılar arasında mən də var idim. 51 gündən sonra Mirzə Davud Hüseynov, Tiflisdən Zaqafqaziya kollegiyasının nümayəndəsi İndel yanımıza gəlib bizimlə danışıqlar apardılar. Nəticədə müsavatçılar Bəyannamə imzalamağa razılıq verdilər. Bəyannamənin bir maddəsində deyilirdi ki, müsavatçılar gizli təşkilatı buraxır və Sovet hakimiyyəti əleyhinə iş görməməyə söz verirlər. Mən bu maddəyə görə Bəyannaməyə qol çəkmədim. Çünki heç bir gizli təşkilatın işində iştirak etməmişdim».

Mikayılov və Məmmədov üzərində nəzarəti artırdılar. 1925-ci il noyabrın 7-də Azərbaycan FK rəisinin müavini Qorbenko Yaroslavl BDSİ-nin rəisi Vinokurovun adına belə bir məktub göndərdi: «Bildiririk ki, iyulun axırlarında Yaroslavldan Bakıya bir qadın gəlmiş, Kərbəlayi Vəli Mikayılovun oğlunu özü ilə Yaroslavla aparmışdır. Mikayılovun qardaşı oğlu Agabala Mikayılov da Yaroslavla yola düşmüşdür. Məqsədi Kərbəlayi Vəli Mikayılovu və Əbdülvahab Məmmədovu Xəzər dənizi vasitəsilə Daşkəndə, oradan da İrana qaçırmaqdır. Hər iki adam «Müsavat» partiyası MK-nın gör-kəmli üzvləri olduğu üçün onların qaçırılması tamamilə arzuolunmazdır. Əks təqdirdə bu qaçış xaricdə yaşayan müsavatçıların dağılmaqda olan sıralarına yeni ruh verərdi. Onları həbsdən buraxmamaq, möhkəm nəzarət altında saxlamaq lazımdır. Çünkı qaçmaq məsələsi həll olunub».

Lakin Kərbəlayi Vəli Mikayılov və Əbdülvahab Məmmədov axır ki, Aşqabaddan keçərək İrana qaça bildilər. Amma 1941-ci ildə sovet qoşunları İrana daxil olan zaman onların hər ikisini tutub digər siyasi mühacirlərlə birlikdə güllələdilər.



*Hacıyev Hacı Şükür oğlu*



*Rəhimov Əbdülhəsən Ələkbər oğlu*

1926-27-ci illərdə həbslərin üçüncü dövrü başlandı. Yenidən çoxlu müsavatçı tutulub sürgünə göndərildi. Görən neçə idi onların sayı? Bunu bir Allah bilir!

1926-cı ildə «Müsavat» partiyasının təşkilatları üzrə 138 nömrəli (?) cinayət işinə əsasən BDSİ-nin xüsusi kollegiyası xəstəxana işçisi, Müsavat Partiyası Bakı Komitəsinin keçmiş sədri Mirəbdülqəni Ələkbər oğlu Mirqasımovu cəzasını həbs düşərgəsində çəkməklə 6 il azadlıqdan məhrum etdi.

1927-ci ildə «Müsavat» partiyasının təşkilatları üzrə (MK, BK, Balaxanı-Sabunçu RK, Qarabağ Viday Komitəsi, Ağdam, Cavanşir, Kürdüstan, Qaryagin, Lənkəran, Qazax, Şamaxı, Gəncə, Göyçay qəza komitələri) 148, 253, 388, 389, 409 və 827 nömrəli cinayət işlərinə əsasən:

Hacıyev Hacı Şükür oğlu - Ağdam MK-nın keçmiş sədri – 8 il müddətinə;

Rəhimov Əbdülhəsən Ələkbər oğlu - «Müsavat» partiyası MK-nın və BK-nın üzvü, feldşer – 1927-ci ildə 10 il müddətinə;

İsrafilov Süleyman Hüseyn oğlu - «Müsavat» partiyası Bakı Komitəsinin keçmiş üzvü, 1937-ci ildə güllələnmiş hakim Məmməd Orxanbəylinin bacısı oğlu – 1926-cı ildə 6 il müddətinə;

Əbdülzadə Əbdül Abbas oğlu – müəllim, MK-nın ikinci və üçüncü tərkibinin üzvü – 8 il müddətinə;

Məmmədzadə Əbdülbağı Nəsrulla oğlu – «Müsavat» partiyası MK-nın birinci, ikinci və üçüncü tərkibinin fəalı – 10 il müddətinə;

Bəydəmirov Mövsüm Məzahir oğlu – «Müsavat» partiyasının fəalı, qulluqçu – 1926-cı ildə 10 il müddətinə;



*Məmmədzadə Əbdülbağı Nəsrulla oğlu*



*Bəydəmirov Mövsüm Məzahir oğlu*

Sultanov Qəzənfər Hacı Zeynal oğlu – BK-nın üzvü – 1926-cı ildə 6 il müddətinə;

Sultanov Mehdi bəy Eynalı oğlu – çar ordusunun keçmiş kapitanı, müsavat ordusunun podpolkovnıki, Azərbaycan diviziyası üçüncü polkunun komandiri – 1926-ci ildə 10 il müddətinə;

Nəsibov Əsəd Nəsib oğlu - Müsavat Partiyası Ağdam MK-nın keçmiş üzvü – 1926-cı ildə 10 il müddətinə sürgün edildilər.

Solovetsk həbs düşərgələrində cəzalarını çəkib qurtardıqdan sonra 1934-36-cı illərdə Azərbaycana qayıdıb gələn bu 10 nəfəri dördüncü, sonuncu həbs gözləyirdi.

1936-cı il avqustun 9-da Dövlət Təhlükəsizlik İdarəsi 2-ci Xüsusi Siyasi Şöbəsinin rəis müavini leytenant Nəzərli 1886-cı ildə doğulmuş Mirqasımov Mirəbdülqəni Ələkbər oğlunun qeyri-leqal «Müsavat» təşkilatının fəal üzvü kimi gizli əksinqilabi işlə məşğul olması barədə məsələ qaldırdı. Mirəbdülqəni Mirqasımov 1936-cı il avqustun 25-də Azərbaycan Cinayət Məcəlləsinin 72/73-cü maddəsinə əsasən 1201 nömrəli orderlə həbs olundu. Xatırladım ki, yuxarıda adları çəkilən 10 nəfərin hamısı Azərbaycan Cinayət Məcəlləsinin 72/73-cü maddəsi üzrə mühakimə olunmuşdur.

Həmin gün 1207 nömrəli orderlə 1887-ci ildə doğulmuş Hacı Şükür oğlu Hacıyev də həbs olundu.

1936-cı il dekabrın 22-dən 30-dək Rəhimov Əbdülhəsən Ələkbər oğlu (1899), İsrafilov Süleyman Hüseyn oğlu (1884), Əbdülzadə Əbdül Abbas oğlu (1888), Məmmədzadə Əbdülbağı Nəsrulla oğlu (1891), Bəydəmirov Mövsüm Məzahir oğlu (1899), Sultanov Qəzənfər Hacı Zeynal oğlu (1897), Sultanov Mehdi bəy Eynalı oğlu (1880), Nəsibov Əsəd Nəsib oğlu


*Nəsıbov Əsəd Nəsib oğlu*


*Nəsibov Əsəd Nəsib oğlu*

(1901) həbsə alındılar. Onlar «qeyri-leqal Müsavat Partiyası MK-nın üzvü, fəalı olduqları», «Solovkidə Müsavat Partiyası IV Mərkəzi Komitəsinin üzvləri arasında əlaqə saxladıqları», «Müsavatın qatı tərəfdarları olduqları» üçün ittiham edilirdilər.

Yelyan və Atakişiyev adları çəkilən müsavatçıları dəfələrlə istintaq etdilər. «Əksinqilabi Müsavat Partiyasının üzvü Mədinə xanım Qiyasbəylini isə Platonov və Oqanezov 13 dəfə sorğu-suala tutdular. Bütün bu istintaqlar əsasən üç dəfə mühakimə olunub, Solovetsk həbs düşərgələrinə sürgün edilmiş müsavatçıların təxmini siyahısını hazırlamağa imkan verir. Budur onlar:

İbrahim Atakişiyev, Cahangir Ağayev, Qulam Axundov, İdris Əliyev, Mirzəağa Axundzadə, Məmmədtağı Ağamalıyev, Teymur Əliyev, Miryusif Ağamirov, Hacı Əkbərov, Mirməcid Ağamirov, Böyükağa Axundov, Adıgözəlov, Novruz Ağayev, Əliqulu (Şuşa), Məcid Axundov, Məşədi Ələkbər Ələsgərov, Məmmədəli Ağamalıyev, Əbdülzadə Əbdül, İbrahim Azəri, Fərhad Əliyev, Ağasəlim Əliyev, İbrahim Axundov, Ağakərim Əliyev, Nəriman Axundov, Cəbrayıl Ağacanov, Məryəm Bayraməlibəyova, Əbülfəz Babayev, Mirbaba Babayev, Məmmədhəsən Baxşəliyev, Yusif Bəhramov, Həbib Babayev, Müseyib Bədəlbəyov, Abbasqulu Babayev, Bədəl bəy Bədəlbəyov, Zəkəriyyə Vəkilov, İsfəndiyar Vəkilov, Rəhim Vəkilov, Məmmədhəsən Vəkilov (Baharlı), Əhməd Hacınski, Süleyman Hacıyev, Əli Quliyev, Surxay Hüseynov, Əmir Hacıyev, Qara Hüseynov, Əhməd Güləhmədov, Əlihüseyn Dadaşov, Məmmədqulu Cəfərov, Cümşüd Zamanov, Məmməd Zeynallı, Sadıq İmanov, Mövsüm İsmayılov, Dadaş İmanov, Nəsrulla İsrafilov, Süleyman İsrafilov, Rəşid İsmayılov, Lətif İsmayılov, Abbas İsmayılbəyov, Fuad İbrahimov, Həsən İbrahimov, İbrahim Quliyev, Nəsrulla Qulubəyov, Əbdül Qəhrəmanov, Məmmədsadıq Quliyev, İsmayıl

bəy Lütfəlibəyov, Muin Qazıyev, Niyazi Mirfətullayev, Əlabbas Müznib, Mahmud Mahmudzadə, Məmmədhəsən Məlikov, Mirheydər Mirmövsümov, Teymur Mustafayev, Məlikməmməd Məlikov, Qurban Musayev, Səməd Mirzəyev, Mirəliyev, Cəbrayıl Mikayılzadə, Əbdül Muin Mirfeyzullayev, Məmməd Ələsgər, Əbdülvahab Məmmədov, Müseyib Muxtarov, Kərbəlayi Vəli Mikayılov, Cavad bəy Məlik-Yeqanov, Atababa Musaxanlı, Mahmud Məmmədov (Oleq Volkovun haqqında səmimiyyətlə danışdığı Mahmud), Əliövsər Nəcəfov, Nəriman bəy Nərimanbəyli, Əsər Nəsibov, Nəsrulla Novruzov, Firidun Nağıyev, Tahir Nərimanov, Əbdüləli Orucov, Hüseyn Paşayev, Cəfər bəy Rüstəmbəyov, Nəsrulla Rzabəyli, Mehdi bəy Sultanov, Qəzənfər Sultanov, Məmməd Səlimov, Nadir Səidov, Əbdüləli Sadıqov, İlyas Tağıyev, Mirxalıq Tağıyev, Həşim Feyzullayev, Saleh Feyzullayev, Kazım Fətəliyev, Fərzəlibəyov, İsfəndiyar Həyatov, Əliş Xanbudaqov, İsrafil Şıxlinski, Abdulla Şərifov, Məmmədağa Şimir, Əli Yusifzadə...

İstintaq zamanı müstəntiqlər bir məsələni aydınlaşdırmaq istəyirdilər: həbs düşərgəsində aclıq keçirən müsavatçılar hansı siyasi məqsədi güdürdülər? Cavab belə idi: «Cəza müddətini çəkib həbs düşərgəsindən çıxdıqdan sonra siyasi simalarını itirməmək, caniyə oxşamamaq məqsədini».

17 nəfərin keçirdiyi ilk siyasi aclıq 1928-ci il aprelin 13-də başlandı və 13 gün çəkdi. Bundan bir-iki ay sonra – iyun-iyul aylarında bəlkə də Solovkidəki bütün müsəlmanların iştirak etdiyi ikinci aclıq başlandı. Maksim Qorki məhbusların vəziyyəti ilə tanış olmaq üçün Solovkiyə gəldi. Müsavatçılardan bir nəfər Qorkiyə məhbusların məhrumiyyət dolu əzab-əziyyətli həyatı barədə məktub verdi. Düşərgə rəhbərliyi bu qoçağı cəzasız buraxmadı. İstintaq zamanı Mədinə xanım Qiyasbəyli bu haqda elan edəndə müstəntiq ondan soruşdu: «Siz bu məlumatın əksinqilabi, böhtan xarakteri daşıdığını etiraf edirsinizmi?» Lakin bütün müsavatçıların şahidi olduğu hadisə heç də böhtan deyildi.

Müsavatçıların əksəriyyətinin qoşulduğu üçüncü böyük aclıq 1928-ci il noyabrın 1-dən dekabrın 15-dək davam etdi. 56 gün çəkən dördüncü aclığı isə 6 nəfər keçirdi.

Oleq Volkovun yazdığı kimi onların hamısı rəhmətə getmiş, başçıları isə aclığın 53-cü günündə keçinmişdi.

Məmmədzadə 1909-17-ci illərdə RSDFP-nin üzvü olduğundan müstəntiq ona belə demişdi: «Siz kommunist bolşeviklər partiyasının üzvü, həm də millətçi-təmayülçü olmusunuz. Millətçi-təmayülçülərin Azərbaycanda fəaliyyəti və onlara yaxın olanlar barədə istintaqa ətraflı məlumat verin». Cavab belə idi: «Bəli, həqiqətən mən Azərbaycan K(b)P üzvü ola-ola Azərbaycanın sovetləşməsinin ilk aylarından millətçi-təmayülçülərə yaxınlaşdım. O vaxt bir çox məşhur adamlar, o cümlədən Nəriman Nərimanov, Mövsüm Qədirli, Ağababa Yusifzadə, Tağı Şahbazi, Əhməd Əhmədov, Əmən Qazızadə, Bağı Cəfərzadə (Bağı Dan), Yusif Məlikov millətçi-təmayülçülər idi.

Azərbaycanda millətçi-təmayülçülük 1918-ci ildə Azərbaycan Kommunist bolşeviklər partiyasının üzvləri arasında apardığı gizli iş zəminində əmələ gəlmişdi. Belə ki, Nikitin, Yeqorov və başqa bu kimi rəhbərlərin hərəkətini biz böyük dövlət şovinizminin təzahürü kimi qiymətləndirirdik.

Millətçi-təmayülçülərin əsas prinsiplərinin həyata keçirilməsi yerli türk xalqlarının tərbiyəsi və irəli çəkilməsinə; müsadirənin dayandırılmasına; əhalini təmin etmək üçün xırda ticarətə yol verilməsinə gətirib çıxarırdı.

Biz millətçi-təmayülçülər hesab edirik ki, göstərilən tədbirlərin həyata keçirilməməsi partiya xəttini pozmaq deməkdir. Öz fəaliyyətim nəticəsində mən partiyadan çıxarıldım. Biz görüşlər zamanı bütün çatışmazlıqlar barədə danışır, belə hesab edirdik ki, partiya ilə açıq mübarizəyə girməyin mənası yoxdur. Odur ki, respublika rəhbərliyinə yaxın olan Nəriman Nərimanov qarşıda duran vəzifələrin dinc yolla həyata keçirilməsinə nail olmalıdır».

1937-ci il martın 31-də Dövlət Təhlükəsizlik İdarəsi 4-cü şöbəsi 2-ci bölməsinin rəisi Atakişiyev 10 nəfərin işi üzrə aşağıdakı qərarı qəbul etdi: «Müttəhimlər Mirqasımov Mirqəni, Mirfeyzullayev Mirabdulla, Hacıyev Hacı, Rəhimov Əbülhəsən, İsrafilov Süleyman, Əbdülzadə Əbdül, Məmmədzadə Əbdülbağı, Mövsüm Bəydəmirov, Sultanov Qəzənfər, Sultanov Mehdi bəy, Nəsibov Əsəd və başqalarının 12288 nömrəli istintaq işi ilə tanış oldum. Bu adamlar sürgün zamanı həbs düşərgəsində «Müsavat» Partiyası 4-cü qeyri-leqal MK-nın yaradıcısı və fəal üzvü olmuşlar. İstintaq nəticəsində müttəhimlərin əksinqilabi müsavatçı fəaliyyəti tamamilə sübuta yetirildiyindən və onların istintaqı başa çatdığından iş baxılmaq üçün SSRİ Xalq Daxili İşlər Komissarlığının xüsusi müşavirəsinə göndərilə bilər».

1937-ci il aprelin 20-də 10 nəfərin işi üzrə hamı üçün maddələri eyni olan qərar çıxarıldı:

1. Sürgün dövründə qeyri-leqal «Müsavat» Partiyasında fəaliyyət göstərərək yeni qeyri-leqal MK-nın fəalı olmuş, məhbus müsavatçılar arasında təşkilat siyasi iş aparmışdır;

2. Sürgündən qayıdandan sonra da yeni qeyri-leqal MK üzvləri ilə əlaqəni bərpa etmiş, Aşqabad müsavat qrupunun üzvləri ilə yazılı əlaqə saxlamışdır.

On müttəhimdən yalnız iki nəfəri – Əbdülbağı Nəsrulla oğlu Məmmədzadə və Nəsib Əsəd oğlu Nəsibov verilən işgəncələrə baxmayaraq, özlərini müqəssir saymamış, qalanlar isə öz günahlarını «etiraf etmişlər».

1937-ci ildə Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığının xüsusi üçlüyü qərara aldı: Nəsibov Əsəd Nəsib oğlu, Sultanov Mehdi bəy Eynallı oğlu, Sultanov Qəzənfər hacı Zeynal oğlu, Bəydəmirov Mövsüm Məzahir oğlu, Məmmədzadə Əbdülbağı Nəsrulla oğlu, Əbdülzadə Əbdül Abbas oğlu, İsrafilov Süleyman Hüseyn oğlu, Rəhimov Əbdülhəsən Ələkbər oğlu, Hacıyev Şükür Hacı oğlu və Mirqasımov, Mirəbdülqəni Ələkbər oğlu güllələnsinlər.

Onlardan doqquzunun 1937-ci il iyulun 28-də gecə saat 00:50 dəqiqədə, N.Nəsibovun isə 1937-ci il avqustun 3-də həmin vaxtdaca güllələnməsi haqda aktın surəti işə daxil edilmişdir. Aktı DTİ 10-cu bölməsinin leytenantı Suxanov və 8-ci bölmənin rəisi Koqan imzalamışlar.

Azərbaycan SSR Cinayət Məcəlləsinin 72/73-cü maddəsilə ittiham olunan peşəkar müsavatçı Mədinə xanım Mehdi qızı Qiyasbəyli də xüsusi üçlüyün qərarı ilə 1937-ci il sentyabrın 26-da güllələnməyə məhkum edildi. 1937-ci il sentyabrın 28-də gecə saat 01:25-də hökm yerinə yetirilmişdir. Bu mərd qızımızın da ölüm aktını Suxanov və Koqan imzalamışlar.

11 nəfər azərbaycanlının həyatı beləcə sona yetdi.

SSRİ Ali Soveti Rəyasət heyətinin 1989-cu il 16 yanvar tarixli qərarı əsasında 1990-cı il aprelin 12-də bədnam Xüsusi Üçlüyün bütün qurbanlarına bəraət verildi.

Tariximizin daha bir qanlı səhifəsi ilə tanış olduq. Nə qədər ki yurdumuzun ən yaxşı övladlarını qıranların hamısı ədalət məhkəməsi qarşısında cavab verməyib, yaralarımız göynər eləyəcək, qəlbimiz rahat olmayacaq. Azərbaycan xalqının cəlladlarına ölüm olsun!

Amin!

# QADINLARIMIZ - QURBANLARIMIZ

## MƏDİNƏ XANIM MEHDİ QIZI QİYASBƏYLİ

1. *Gürcüstan SSR Xalq Maarif Komissarlığına*

Sizin Tiflis şəhərində türk pedaqoji texnikumu müdiri vəzifəsinə bir nəfər təcrübəli müəllim ayırmaq haqda xahişinizi nəzərə alaraq, Azərbaycan SSR Baş Tərbiyə İdarəsi bu vəzifəyə təcrübəli müəllim və inzibatçı, Bakı Qadın Pedaqoji Texnikumunun sabiq müdiri Mədinə xanım Qiyasbəylini məsləhət görür.

Baş Tərbiyə İdarəsi müdiri
*Ab.Sultanov.*
*Bakı, 20 iyul 1927-ci il.*



*Qiyasbəyli Mədinəxanım Mehdi qızı*

2. *Arayış.* Mən, Azərbaycan Maarif Mərkəzi həmkarlar Şurasının sədri Pənah Qasımov təsdiq edirəm ki, yoldaş Mədinə xanım Qiyasbəyli Azərbaycanda 1906-ci ildən indiyə kimi arası kəsilmədən müəllimə vəzifəsində çalışmışdır.

*24 dekabr 1928-ci il.*

3. *Arayış.* Həmin arayış verilir Mədinə xanım Qiyasbəyliyə ondan ötrü ki, o, 1930/31-ci tədris ilində Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun fəhlə fakültəsi hazırlıq kurslarının müəlliməsi vəzifəsində çalışırdı. AK-

Tİ-də işlədiyi vaxt o, geridə qalan tələbələrə pulsuz dərs demiş və ən yaxşı müəllimə kimi mükafat almışdır.

AKTİ-nin müdir müavini:
*Nağızadə.*

№ 108/13 b.

Gəncə, 28 iyul 1932-ci il.

4. *Arayış.* Verilir Qiyasbəyli Mədinə xanıma ondan ötrü ki, o, 1920-ci il dekabrın 20-dən XMK-nın 1921-ci il yanvarın 20-si tarixli 92 nömrəli əmrinə əsasən Bakı Qadınlar Pedaqoji Texnikumuna müdir və müəllimə vəzifələrinə təyin olunub. Həmin vəzifələrdə o, 1926-cı ilin sentyabr ayınadək işləyib ; kişilər və qadınlar pedaqoji texnikumlarının birləşmələrinə görə müdir vəzifəsindən azad olunub, müəllimə kimi işini davam edirdi.

XMK işlər müdiri: *Mirzəzadə.*
Bakı, 27 avqust 1932-ci il.

5. *Azərbaycan Tibb institutunun 1935-ci il iyulun 8-də verdiyi K-730 nömrəli arayış.*

Verilir Mədinə xanım Qiyasbəyliyə ondan ötrü ki, o, Azərbaycan Dövlət Tibb İnstitutunda assistent vəzifəsində işləyib, ayda 212 manat maaş alır.

Katibə – imza.

Mühasib – imza.

Bu və başqa sənədlərdən görünür ki, Mədinə xanım Qiyasbəyli Azərbaycanda Sovet hakimiyyəti qurulmasının ilk günündən bu hakimiyyət üçün canla-başla xidmət edirdi. İndi gəlin görək bu hakimiyyətin Təhlükəsizlik idarəsi Sovet hakimiyyətinin ən fəalının başına nə kimi oyunlar açdı və onun ömrünə necə xaincəsinə son qoydu.

1936-cı il dekabrın 7-də Azərb. SSR XDİK Dövlət Təhlükəsizliyi idarəsi məxfi siyasi şöbəsi dördüncü bölməsinin müvəkkili Platonov belə bir arayış tərtib edir:

«Dövlət Təhlükəsizliyi idarəsində olan materiallardan görünür ki, vətəndaş Qiyasbəyli Mədinə xanım Mehdi qızı 1897-ci ildə anadan olmuş, qeyri-leqal əksinqilabi müsavatçı təşkilatının üzvüdür.

Hesab edirəm ki, Qiyasbəyli M.M. həbsə alınıb, Azərb. SSR CM-nin 72/73-cü maddələrinə əsasən məsuliyyətə cəlb edilməlidir».

Dekabrın 8-də 1747 nömrəli orderə əsasən Qazax rayonunun Salahlı kəndində doğulan, Azərbaycan Tibb İnstitutunun müəllimi olan Qiyasbəyli M. M. həbs edilir. Bu haqda qərarı Mədinə xanıma dekabrın 10-da vermişlər (Tutu-landan iki gün sonra).

Mədinə xanımın 1936-cı il dekabrın 10-da keçirilən birinci dindirmədən (dindirməni leytenant Platonov və serjant Oqanezov aparırdılar):

*Sual:* İstintaq müəyyən edir ki, siz qeyri-leqal əksinqilabi müsavatçı təşkilatının üzvüsünüz. Bunu boynunuza alırsınız? Cavab: Yox, boynuma almıram. Sual: Siz şəxsən müsavatçılardan kimi tanıyırsınız? Cavab: Müsavatçılardan aşağıdakıları tanıyıram:

1. Vəkilov Rəhim – dayım oğlu. Müsavat parlamenti üzvü idi. Əksinqilabi müsavatçı fəaliyyətinə görə sürgündə idi. 1934-cü ildə Solovki konslagerindən qayıdandan sonra özünü öldürdü.
2. Vəkilov İsfəndiyar – atamın əmisi oğlu. Solovki konslagerində sürgündə idi. 1936-cı ilin noyabrında qayıdıb.
3. Vəkilov Zəkəriyyə – dayımdır. Konslagerdə idi. Sürgündən 1936-cı ildə qayıdıb.
4. Vəkilov (Baharlı) Məmməd Həsən. Sürgündə idi.
5. Rəhimov Əbdülhəsən – müəllimdir.

*Sual:* Həmin göstərdiyiniz şəxslərdən sürgündən gələndən sonra kimlə görüşmüsünüz? Cavab: İndi sürgündə olan Rəhimovdan başqa hamısı ilə. Sual: Baharlı sürgündən qayıdandan sonra siz onunla harada və nə zaman görüşmüsünüz? Cavab: Baharlını sürgündən sonra mən bircə dəfə görmüşəm və ondan Vəkilov Rəhimin sürgündə necə yaşadığını soruşmuşam. Sual: Baharlı sizə sürgün haqda nə danışıb? Cavab: Deyib ki, Vəkilov Rəhim Solovki konslagerindən çoxdan harasa aparılıb və ondan heç bir xəbər yoxdur. Sual: Siz haradan bilirsiniz ki, konslagerdə həbsdə olan müsavatçılar siyasi aclıq elan etmişdilər. Cavab: Bu barədə birinci dəfə mən Məlikov Rəhimbəydən 1930-31-ci illərdə bilmişəm. Daha sonra bunu sürgündən qayıdan Vəkilov Zəkəriyyə təsdiq etdi. Sual: Vəkilov Zəkəriyyə bu aclıqlar və müsavatçıların konslagerdə vəziyyəti haqda sizə danışdı? Cavab: O mənə dedi ki, aclıqlar ona görə elan olunurdu ki, müsavatçıları canilərlə bir yerdə işlədirdilər. Zəkəriyyə dedi ki, aclıqlar vaxtı müsavatçılardan iki nəfər – Axundov İdrisin qardaşı İbrahim və Nəcəfov Əli Əfsər öldü. Aclıqlardan sonra lagerin idarəsi güzəştə gedib məhbus müsavatçılar üçün başqa iş üsulunu tətbiq etdi. Zəkəriyyə xəbər verdi ki, o özü, Baharlı, Vəkilov

Rəhim və Vəkilov İsfəndiyar bu aclıqlarda fəal iştirak edirdilər. Sual: Bu aclıqlar haqda siz kimə danışmısınız? Cavab: heç kəsə. Sual: İstintaqa məlumdur ki, siz bu barədə bir neçə adama danışmısınız. Məsələn, Şahsuvarov Nurməmmədə. Bunu boynunuza alırsınız? Cavab: İnkar edirəm. Sual: Maksim Qorkinin konslagerə gəldiyi vaxt müsavatçıların hərəkətləri haqda sizə nə məlumdur? Cavab: Mən bu barədə heç bir şey bilmirəm. Sual: Siz istintaqa qeyri-səmimi ifadələr vermək yolu tutmusunuz. İstintaq sizə xəbərdarlıq edir. İstintaq yəqin bilir ki, Maksim Qorkinin lagerə gəlməsindən və müsavatçıların bu vaxt hərəkətindən söhbət açmısınız. İstintaq sizdən gerçək ifadə tələb edir. Cavab: Mənə danışıblar ki, Maksim Qorki konslagerə gəlib dustaqların halı ilə tanış olmaq istəyəndə, cəza tədbirlərindən qorxan müsavatçılar ona heç bir şey demədilər. Lakin müsavatçılardan biri Maksim Qorkiyə dustaqların konslagerdə çəkdikləri məhrumiyyət və işgəncələr haqda yazılı məktub verdi. Sonra bunu bilən lager rəhbərləri bu qoçağı məhv etdilər. Sual: Boynunuza alırsınızmı ki, bütün bu məlumat əksinqilabi böhtandır? Cavab: Bəli, boynuma alıram (böhtana bir bax! Özü də əksinqilabi! – Z.B.).

1936-cı il dekabrın 16-da keçirilən ikinci dindirmədən:

*Müstəntiq:* Müsavatçı Qədimov Abbas bəyi tanıyırsınız? Cavab: Doktor Abbas bəyi mən tanıyıram. Amma müsavatçı kimi yox. Sual: Müsavatçı Əsəd Nəsibovu tanıyırsınız? Cavab: Bilirəm ki, o, müsavatçı fəaliyyətinə görə sürgün edilib. Sual: Müsavatçı yazıçı Hüseyn Sadıq sizə tanışdır? Cavab: Mən onu 1927-ci ildən müəllim kimi tanıyıram. Sual: Müsavatçı şair Əhməd Cavadı tanıyırsınız? Cavab: Bəli, mən bilirəm ki, şair Əhməd Cavad 1918-19-cu illərdə müsavat firqəsinin üzvü idi. Sual: Azərbaycanda Sovet hakimiyyəti bərqərar olandan sonra Əhməd Cavadın müsavatçı fəaliyyətindən nə bilirsiniz? Cavab: Bilirəm ki, o, 1926-27-ci illərdə «Maarif və mədəniyyət» jurnalında müsavat ruhlu «Göy-göl» şerini dərc edib. Sual: Müsavatçı Vəkilov Mustafanı tanıyırsınız? Cavab: Bəli, tanıyıram. Dayım oğludur *Sual:* O indi haradadır? Cavab: Türkiyədə.

1936-cı il dekabrın 21-23-də keçirilən üçüncü dindirmədən:

*Sual:* Sizi əksinqilabi müsavatçı təşkilatına kim cəlb edib? *Cavab*: heç kəs. Mən bu təşkilata daxil olmamışam. *Sual*: Məmmədzadə Abdulvahabı tanıyırdınız? *Cavab*: Onun müsavatçı olduğunu həbs olunmasından sonra bildim. *Sual*: Siz müsavatçıların ailələrinə maddi yardım etmək haqda mü-

savatçı Məlik Yeqanov, Cavad bəylə söhbət etmişdinizmi? *Cavab*: Bəli. mən sürgün edilən müsavatçıların ailələrinə maddi yardım etməkdə iştirak etmişəm. *Sual*: Məryəm xanım Bayraməlibəyli haqda nə deyə bilərsiniz? *Cavab*: Mənim Məryəm xanımla əksinqilabi müsavatçı əlaqəm var idi. O. mənim əksinqilabi görüşlərim haqda bilirdi. O özü də həbs olunan müsavatçılarla həmrəy idi, çünki belə hesab edirdi ki. bu adamlar millət uğrunda əziyyət çəkirlər. O, hesab edirdi ki. sürgün edilən müsavatçıların ailələrinə kömək etmək vacibdir. O bilirdi ki. əri Cavad bəy xaricdə yaşayan müsavatçıların ailələrinə kömək edirdi.

1936-cı il dekabrın 25-26-da keçirilən dördüncü dindirmədən:

*Sual*: Rəhim Vəkilov sürgündən nə vaxt qayıtdı? *Cavab*: 1934-cü ildə. *Sual*: Tiflisdə Rəhim kimin evində qalırdı? *Cavab*: Qamsaxurdiyanın; 1934-cü ilin yayında o, müvəqqəti Cəfərbəy Rüstəmbəyovun evində qalırdı. *Sual*: Siz bilirdiniz ki, Cəfərbəy müsavatçı olub və müsavatçı da qalıb? *Cavab*: Mən bilirəm ki, Cəfərbəy 1924-cü ilədək müsavatçı qalaraq Azərbaycanda Sovet quruluşunun ziddinə çıxırdı. *Sual*: Siz Cavad bəydən 1928-ci ildə əksinqilabi müsavat jurnallarını almaqla əksinqilabi cinayət etməyinizi boynunuza alırsınız? *Cavab*: Bəli.

1937-ci il yanvarın 3-də keçirilən beşinci dindirmədə müstəntiq professor Bəkir Çobanzadə haqda sorğu-sual aparırdı.

Fevralın 7-də altıncı dindirmədən:

*Sual:* Osman Ağa Gülməmmədov sizə tanışdır? O, indi haradadır? *Cavab*: Osman Ağa mənim həmkəndlimdir. Mən onu 1909 – 1920-ci illərdə görmüşəm. Azərbaycanın sovetləşməsindən sonra o, Azərbaycan alayı ilə Turkiyəyə getdi. *Sual*: Konslagerdən qayıdan müsavatçılardan kimlərlə görüşmüsünüz? *Cavab*: Rəhim Vəkilovla, 1934-cü ildə, Bakıda; Zəkəriyyə Vəkilovla 1933 – 1934-cü illərdə, Bakıda; İsfəndiyar Vəkilovla 1936-cı ilin noyabrında, Bakıda; Məmməd Həsən Baharlı ilə 1934-cü ildə; Əhməd Gülməmmədovla 1934-cü ildə; Əsəd Nəsibovla 1935-ci ildə; Atababa Musaxanlı ilə 1934-cü ildə; Mahmud Məmmədovla 1933, ya 1934-cü ildə; Həşim Feyzullayevlə 1936-cı ildə.

Fevralın 8-dəki yeddinci dindirmədən:

*Sual*: İstintaq müəyyən edib ki, siz həbs olunduğunuz günədək əksinqilabi millətçi mövqedə olaraq Sovet hakimiyyəti əleyhinə mübarizə edirdiniz. *Cavab*: Bunu rədd edirəm. *Sual*: Sizi müsavatçılarla nə bağlayırdı?

*Cavab*: Bizim bir millətçi nəzərimiz, qohumluğumuz və bu adamların mədəniyyəti.

1937-ci il aprelin 22-də olan səkkizinci dindirmədən:

*Sual*: Əksinqilabçı-millətçi Hənəfi Zeynallını tanıyırsınızmı? *Cavab*: Hənəfi Zeynallını mən kommunist kimi tanıyıram.

Doqquzuncu dindirmə iki aydan sonra, iyulun 22-də oldu.

*Müstəntiq*: Siz əbəs yerə istintaqdan qeyri-leqal əksinqilabi müsavatçı fəaliyyətinizi gizlədirsiniz. İstintaqın sizi ifşa etmək üçün kifayət qədər dəlilləri var. Biz bir daha sizə xəbərdarlıq edirik ki, siz həqiqəti deyəsiniz. *Cavab*: Mən həqiqətin tərəfdarıyam və deyirəm ki, mən heç vaxt Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra əksinqilabi, qeyri-leqal müsavatçı olmamışam və Sovet hakimiyyətindən qabaq da müsavat firqəsində olmamışam.

1937-ci il iyulun 27-də keçirilən onuncu dindirmədə müstəntiq Qiyasbəyli Mədinə xanıma Çobanzadə, Qubaydullin, Əziz Şərifov, Abdulla Şaiq, İsmayıl Hikmət, Xəlil Fikrət və Zeynallı haqqında suallar verirdi.

İyunun 28-dəki on birinci dindirmədən:

*Müstəntiq*: Sizin istintaq qarşısında inadınızı istintaq möhkəm iradəli müsavatçının iradəsi kimi qiymətləndirir. *Cavab:* Mən heç vaxt müsavatçı olmamışam.

1937-ci il sentyabrın 8-də sonuncu, on ikinci dindirmə zamanı müstəntiqin: «İzah edin görək, Azərbaycan əksinqilabi millətçi təşkilatla sizin əksinqilabi əlaqəniz konkret olaraq nədən ibarət idi?» – sualına Mədinə xanım yenə də rədd cavabını vermişdir.

Həmin gün istintaqın bitməsi haqda protokol tərtib olunanda Qiyasbəyli Mədinə xanım rəsmi elan etdi ki, onun istintaqa heç bir əlavəsi yoxdur, müsavat firqəsində olmayıb və əksinqilabi millətçi təşkilatla əlaqəsi yox idi.

1937-ci il sentyabrın 23-də tərtib olunan ittihamnamədə aşağıdakılar yazılmışdır: «Azərbaycanda Sovet hakimiyyəti hələ bərqərar olmamışdan qabaq Qiyasbəyli Mədinə xanım müsavat firqəsinin fəal üzvü olub, Məmməd Əmin Rəsulzadə və müsavatın başqa görkəmli başçıları ilə sıx əlaqəsi var idi. Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra Qiyasbəyli yenə də əksinqilabi müsavatçı mövqeyində qalıb, Bakıda olan qeyri-leqal əksinqilabi müsavat təşkilatına daxil idi və Baharlı Məmməd Həsən, Vəkilov Rəhim və başqaları tərəfindən rəhbərlik edilən qeyri-leqal müsavat

mərkəzi ilə əlaqə saxlayırdı. Həmin təşkilatın 1927-ci ildə ləğv olunmasından sonra azad gəzən Qiyasbəyli öz ətrafına əksinqilabi millətçi ruhunda olan gəncləri toplayırdı. 1930 və 1933-cü illərdə Qiyasbəyli İranda olan müsavatçılarla qeyri-leqal əlaqə saxlayırdı. Həbs olunan günə kimi Qiyasbəyli Mədinə xanım Sovet hökumətilə mübarizə mövqeyində qalıb, əksinqilabi-millətçi təşkilatın üzvləri Ruhulla Axundov, Bəkir Çobanzadə və başqaları ilə əksinqilabi əlaqə saxlayırdı.

Göstərilənlərə əsasən 1889-cu ildə məşhur bəy ailəsində doğulmuş, dul, Tibb İnstitutunun müəlliməsi Qiyasbəyli Mədinə xanım Mehdi qızı Azərbaycan SSR CM-nin 72 və 73-cü maddələri ilə təqsirləndirilir. Müttəhim Qiyasbəyli özünü qismən müqəssir hesab etdi. İzah olunanlara əsasən, 13506 nömrəli iş üzrə istintaqı bitmiş hesab edərək Qiyasbəyli Mədinə xanımın işi Azərbaycan SSR XDİK nəzdində olan xüsusi üçlüyə verilsin».

Azərbaycan SSR XDİK nəzdindəki üçlüyün 1937-ci il sentyabrın 26-da keçirilən iclasın protokolundan çıxarış:

«**Eşidildi:** Azərb. SSR CM 72 və 73-cü maddələri ilə müqəssir sayılan təcrübəli müsavatçı Qiyasbəyli Mədinə xanım Mehdi qızının 13506 nömrəli cinayət işi.

**Qərara alındı:** Qiyasbəyli Mədinə xanım Mehdi qızı – güllələnsin, əmlakı müsadirə edilsin (görəsən, nəyi varmış? – Z.B.).

İşin 202-ci vərəqindəki aktdan çıxarış: «Azərb. SSR XDİK-in xüsusi üçlüyün 1937-ci il 26 sentyabr tarixli, 45 yaşında olan Qiyasbəyli Mədinə xanım Mehdi qızının güllələnməsi haqda qərarı 1937-ci il sentyabrın 28-də gecə saat 01:25 dəqiqədə yerinə yetirildi. Baş leytenant Suxanov».

1956-cı il iyulun 15-də Azərb. SSR prokurorunun köməkçisi mayor İ.Kərimov, 1933-cü ildən DTK-nin Qiyasbəyli Mədinə xanım barəsində topladığı 16548 nömrəli sənədlər qovluğunu yoxladıqda, aşağıdakı nəticələrə gəlmişdir:

«Sənədlərdən görünür ki, Qiyasbəyli Mədinə xanım Dövlət Siyasi İdarəsi və XDİK tərəfindən hələ 1925-ci ildən ta 1936-cı il dekabrın 8-dək, yəni həbs olunduğu günə qədər daim göz altına alınmış və bu idarələrin agentləri tərəfindən izlənmiş və demək olar ki, onun hər addımı belə qeydə alınmışdı. İzləmə ondan ötrü aparılırdı ki, guya Qiyasbəyli Mədinə xanımın müsavat partiyasının keçmiş üzvləri ilə əlaqəsi olmuş və s. müsavatçıların fəal həmkarı imiş.

Həmin 16548 nömrəli qovluqda olan sənədləri təftiş edərkən belə nəticəyə gəlmək olar ki, Azərb. SSR XDİK-in Qiyasbəyli Mədinə xanımın əksinqilabi müsavatçı fəaliyyəti haqda heç bir konkret məlumatı yox idi.

1956-cı il avqustun 10-da Azərbaycan SSR prokuroru A.Babayev Azərbaycan SSR Ali Məhkəməsinin Cinayət işləri üzrə məhkəmə kollegiyasına, 1937-ci il 26 sentyabr tarixli Azərb. SSR XDİK Xüsusi Üçlüyün qərarı ilə güllələnən Qiyasbəyli Mədinə xanımın işi üzrə öz etirazını təqdim etmişdir. Etirazda deyilir:

«İşin materiallarından görünür ki, Qiyasbəyli Mədinə xanımın mühakiməsinin əsasına yalnız onun ziddiyyətli ifadələri qoyulmuşdur. Bunlar isə qeyri-obyektiv olduğu üçün başdan-ayağa uydurmalardan ibarətdir. Buna görə də həmin Xüsusi Üçlüyün Qiyasbəyli Mədinə xanımın işi üzrə qərarı ləğv və haqqındakı iş isə xətm olunmalıdır».

1956-cı il avqustun 24-də Azərbaycan SSR Ali Məhkəməsinin Cinayət işləri üzrə məhkəmə kollegiyası qərara gəlir: «Azərbaycan SSR XDİK Xüsusi Üçlüyün 1937-ci il 26 sentyabr tarixli Qiyasbəyli Mədinə xanım Mehdi qızının haqqında olan qərarı əsassız olduğundan ləğv olunub, onun işi isə sübutsuz olduğu üçün xətm edilməlidir».

1956-cı il sentyabrın 3-də Qiyasbəyli Mədinə xanımın oğlu Əziz anasının tam bəraəti haqda arayış almışdır.

Budur, xalqımızın günahsız qızı Mədinə xanımın faciəli taleyi!

## GÜLARƏ XANIM İBRAHİM XƏLİL QIZI QƏDİRBƏYOVA

*(Göylü qızı)*

1938-ci il avqust ayının 8-də Dövlət Təhlükəsizlik İdarəsinin 4-cü şöbəsi 6-cı bölməsinin rəisi leytenant M.Mustafayev 4-cü şöbənin müdiri, baş leytenant Atakişiyevə belə bir arayış təqdim edir:

«Azərb. SSR XDİK DTİ-si əksinqilabi millətçi təşkilatının üzvləri Qasımov Mirzə Məmməd (Sabirabad RİK-in keçmiş sədri) və Sultanov Həmid (Az. SSR Kommunal Təsərrüfatı Komissarlığının keçmiş rəhbəri) öz ifadələrində göstəriblər ki, Qədirbəyova Gülarə əksinqilabi millətçi təşkilatının üzvüdür.

«Bundan qabaq saydığım şəxslərdən başqa, təşkilatın aşağıdakı üzvləri də mənim yadıma düşdülər və bunlar haqda da ifadə vermək istəyirəm.

1) Qədirbəyova Gülarə. Mən onunla 1936-cı ilin iyul ayında Azərb. KP Mərkəzi Komitəsinin yanında görüşdüm. Birlikdə Nazirlər Şurasının yanındakı bağçaya endik və orada söhbət etdik. Söhbətimiz uzun oldu və lap əvvəlindən millətçilik ruhunda keçdi. Qədirboyova şikayət edirdi ki, onu hər dəfə bir iş yerindən o birisinə köçürürlər və onunla hesablaşmırlar. O, qəzəblə deyirdi ki, ərini – Asəf Rəhmanovu – əbəs yerə həbs etdilər (o, 1938-ci il yanvarın 3-də güllələnib – Z.B.) və bu işdə MK rəhbərliyini təqsirləndirirdi. O, qəzəblə deyirdi ki, MK milli kadrlardan istifadə etmir, əksinə, bu kadrlara heç bir əhəmiyyət verilmir və i.a. Nümunə üçün Ruhulla Axundovun adını çəkdi. Onun fikrincə, Ruhulla Azərbaycanda daha da görkəmli vəzifə tuta bilərdi. Sonra söhbət əksinqilabi millətçi təşkilat haqda oldu və Qədirbəyova dedi ki, mənim əksinqilabi təşkilatında olmağımdan xəbərdardır. Özündən danışanda dedi ki, o da əksinqilabi təşkilatın üzvüdür və təşkilata İbrahim Tağıyev (1937-ci il oktyabrın 13-də güllələnib – Z.B.) tərəfindən cəlb olunub. Gülarə dedi ki o, əksinqilabi işi məsul vəzifələrdə olan azərbaycanlı qadınlar arasında aparır və bu işi əksinqilabi təşkilatın göstərişləri ilə edir.


*Qədirbəyova Gülarə İbrahimxəlil qızı*

Qədirbəyova Gülarə haqda mən bunları bilirəm: O, Nuxa qəzasının keçmiş kətxuda ailəsindəndir. Onun qız familiyası Əfəndiyevadır və bu ailə çox varlı, həm də Nuxada məşhur idi. Dəstəbazlıq dövründə AzK(b) P MK rəhbərliyinin əleyhinə mübarizədə fəal iştirak edirdi (1930-31-ci illərdə). Məbud Zeynalov və onu partiyaya götürən İbrahim Tağıyevlə sıx əlaqədə idi».

(Qasımov Mirzə Məmmədin 1937-ci il 14 sentyabr tarixli ifadəsindən).

«Bizim əksinqilabi təşkilatın üzvlərindən əlavə bunları tanıyıram... Qədirbəyova Gülarə – Azərb. XKS nəzdində olan İdman Komitəsinin keçmiş sədri və «Şərq qadını» jurnalının baş redaktoru, onu təşkilata Qasımov Mirzə Məmməd cəlb etmişdi»

(Sultanov Həmidin 1937-ci il 31 iyul tarixli ifadəsindən).

Azərbaycan SSR Prokurorluğu kadrlar şöbəsinin keçmiş rəisi Həşimzadə Bilqeyisin 25 fevral və 17 iyun 1937-ci il tarixli M.C.Bağırovun adına yazdığı ərizələrdən görünür ki, Qədirbəyova Gülarənin artıq həbs edilmiş və məhkum olunmuş müsavatçı yazıçılar Qurbanovla, Əhməd Cavadla, Hüseyn Cavidlə (güllələniblər) və Tamara Salikova, Sənubər Əyyubova və Xavər Qarayeva ilə (məhkum olunublar) və həmçinin Azərneft mühəndisi Xədicə Hüseynova və başqaları ilə əlaqəsi var idi.

Deyilənlərə əsasən, Qədirboyova Gülarə İbrahim Xəlil qızının həbs olunub Azərb. SSR CM-nın 72 və 73-cü maddələri ilə məsuliyyətə cəlb edilməsini lazım görürəm».

Lakin bu qərardan qabaq:

1938-ci il iyulun 23-də Qədirbəyova Gülarənin həbs olunması uçün L-956 nömrəli order verilmişdir. İyulun 26-da İsmayıllı rayonunun Basqal kəndində anasının dəfninə gəlmiş Qədirbəyova Gülarə həbs olundu. İyulun 27-də M.Mustafayev Qədirbəyova Gülarə artıq həbsdə ola-ola onun həbs olunması haqda qərar çıxarır (çox əla işləyirdilər: əvvəlcə adamı həbs edirdilər, sonra isə haqqında qərar çıxarırdılar – Z.B.).

1938-ci il noyabrın 17-də XDİK DTK-nin müvəkkili Korneşov Qədirbəyova Gülarənin işi üzrə şahid sifətilə Həşimzadə Bilqeyis Əhməd qızını dindirir:

*Sual:* Öz ərizələrinizdə göstərirsiniz ki, Qədirbəyova Gülarə qardaşının əksinqilabi fəaliyyətə görə sürgün olunmasına baxmayaraq, onun qohumları ilə əlaqə saxlayır. Siz bunu təsdiq edirsinizmi? *Cavab*: Bəli, təsdiq edirəm. Qədirbəyovanın ögey qardaşı Qazıyev Kərim Müsavat partiyasının fəal üzvü kimi əksinqilabi fəaliyyətinə görə məhkum olunub sürgün edilmişdir. Buna baxmayaraq, Qədirbəyova öz ögey atasına 1935-36-cı illərə qədər maddi yardım göstərirdi. Bundan başqa o, Kərimin qardaşı Yusiflə əlaqə saxlayırdı. Qədirbəyovanın atalığının kənd mollası olmağını da deməyi vacib bilirəm. *Sual*: Siz haradan bilirsiniz ki, Qədirbəyova atalığına maddi yardım göstərir və Kərimin qardaşı Yusiflə əlaqə saxlayırdı? *Cavab*: Mən şəxsən bilirəm ki, Qədirbəyova Yusiflə əlaqə saxlayırdı. Onlar bir-birinin evinə gedib-gəlirdilər. Atalığına yardım məsələsinə gəldikdə deməliyəm ki, atalığı onun evində yaşayırdı. Bir neçə dəfə mən özüm şəxsən görürdüm ki, atalığı ərzaq və sənaye malları alırdı. *Sual*: Qədirbəyovanın müsavatçı yazıçılar və başqa ifşa olunmuş xalq düşmənləri ilə əlaqəsi haqda özünüzün verdiyiniz məlumatları dəqiqləşdirin. *Cavab*:

Onun, yəni Qədirbəyovanın müsavatçı yazıçılarla əlaqəsi haqda mənə aşağıdakı faktlar məlumdur: Əli Bayramov adına mədəniyyət sarayının 15 illiyinə hazırlanan «Bir sarayın tarixi» adlı kitabın hazırlanmasını o, müsavatçı yazıçıya, Musayev Qurbana tapşırmışdı. Musayev isə kitabı ideoloji cəhətdən mənfi tərtib edir. Qədirbəyova isə bundan nəticə çıxarmayaraq, kitabın tərtibini başqa müsavatçı yazıçıya – Əhməd Cavada tapşırır. Bu da kitabı ideoloji cəhətdən daha da korladı və kitab yararsız oldu. Qeyd etməliyəm ki, Qədirbəyova «Bir sarayın tarixi» kitabını şəxsən özü redaktə edirdi. Buna görə də heç təsadüfi deyil ki, bu kitab müsavat ruhunda yazılmışdı. Qədirbəyova dəfələrlə şəxsən mənə deyirdi ki, o artıq ifşa olunmuş xalq düşməni, müsavatçı, yazıçı Hüseyn Cavidlə yaxınlıq edir. Qədirbəyova deyirdi ki, Hüseyn Cavid evinə tez-tez gəlir, saatlarla otururdu Bir də demək lazımdır ki, Qədirbəyovanın artıq xalq düşməni kimi ifşa olunmuş mühəndis Xədicə Hüseynova ilə yaxınlığı var idi. Onlar ikisi də Əli Bayramov adına sarayda işləyir, birlikdə vaxtlarını keçirir, dostluq edirdilər».

Çox sağ olun, Bilqeyis Həşimzadə! Əhsən! Amma hələ bu harasıdır! İşin içində Qədirbəyovanın birinci əri Qədirbəyov Əhmədin Azərbaycan Dövlət Siyasi İdarəsinin məxfi şöbəsinin rəisi Moroza və həmin idarənin Şərq şöbəsi (beləsi də var imiş! – Z.B.) müdiri Jukova hələ 1928-ci ilin noyabrında yazdığı böhtan dolu danos da var idi. Elə həmin il Naxçıvanın fəhlə təftişi şöbəsinin müdiri Nuriyeva Az. K(b)P katibinə bir danos yazır və göstərir ki, Qədirbəyovanın keçmişi «bizə yabançıdır» və onu əbəs yerə Zaqafqaziya ölkə komitəsinin fəhlə təftişi şöbəsinə müdir müavini təyin ediblər. Yazıq Gülarə xanım!

Qədirbəyovanın birinci dindirilməsi 1938-ci il avqustun 15-də keçirildi.

«*Müstəntiq:* Siz əksinqilabi millətçi təşkilatın üzvü kimi təqsirləndirilirsiniz. Bunu etiraf edirsiniz? Cavab: Rədd edirəm. Mən heç bir təşkilatda olmamışam. Müstəntiq: Sizin adı çəkilən təşkilata daxil olmağınız istintaq tərəfindən müəyyən olunub. Təklif edirik ki, müqavimət göstərməyib, işin mahiyyəti üzrə səmimi ifadə verəsiniz. Cavab: Bir daha qətiyyətlə ərz edirəm ki, mən heç bir zaman heç bir təşkilata daxil olmamışam.

1938-ci il oktyabrın 31-də keçirilən ikinci dindirmədən:

*Sual:* Öz işinizlə əlaqədar sizin kiminlə yaxınlığınız var idi? *Cavab:* Mən 1930-cu ildə Tiflisdə Zaqafqaziya Vilayət Komitəsinin Qadınlar bölməsinin müdiri işləyirdim. ÜİK(b)P-nin Qadınlar şöbəsinin keçmiş müdiri

Şikova Klavdiya ilə əlaqəm var idi. Sultanova Ayna və Rəhmiyeva Məmura ilə də. «Şərq qadını» jurnalında işləyəndə Səməd Vurğunla, Şamilovla, Qantəmirlə, Süleyman Rüstəmlə».

1938-ci il noyabrın 15-də keçirilən üçüncü dindirmədən:

«*Müstəntiq:* İstintaq bir daha sizdən sizə verilən ittihamın mahiyyəti üzrə səmimi ifadələr tələb edir.

*Cavab:* Mən səmimiyyətlə deyirəm ki, heç bir əksinqilabi təşkilatda olmamışam. Azərbaycanda olan millətçi təşkilatla heç bir əlaqəm olmayıb və bu təşkilat haqda mən qəzetlərdən bilmişəm. *Müstəntiq:* Nəzərə alınız ki, sizin əleyhinizə əksinqilabi millətçi təşkilatın üzvləri tərəfindən verilən konkret ifadələr var. İstintaqı məcbur etməyin ki, sizi həmin ifadələrlə ifşa etsin. *Cavab:* Bir daha bütün məsuliyyətimlə bəyan edirəm ki, mən əksinqilabi təşkilatda olmamışam. *Müstəntiq:* Sizə müttəhim Həmid Sultanovun ifadəsi oxunur. *Cavab:* Bu ifadəni mən qəti suratdə rədd edirəm. Həmid Sultanovu mən yalnız məsul işçi kimi tanıyırdım. O, mənə böhtan atır. *Müstəntiq:* Sizə müttəhim Mirzə Məmməd Qasımovun ifadəsi oxunur. *Cavab:* Qasımovun mənim əksinqilabi millətçi təşkilatın üzvü olmağım haqda ifadəsini mən rədd edirəm. Qasımov mənə qarşı kinli idi. Bəlkə buna görə də o, haqqımda belə böhtanlar yayır».

1938-ci ilin 21 noyabrında keçirilən dördüncü və axırıncı dindirmədə müstəntiq yuxarıda adı çəkilən yazıçıların antisovet fəaliyyətindən sorğu-sual edirdi. Qədirbəyova bütün suallara rədd cavabı verir.

1939-cu il yanvarın 20-də Qədirbəyova Gülarə xanımın işi üzrə istintaqın bitməsi haqda protokol tərtib olunur. Protokolla tanış edilən Qədirbəyova ona bu sözləri əlavə edir: «Mən partiyanın namuslu və sadiq üzvü olaraq qalıram».

Həmin gün Qədirbəyovanın işi üzrə ittihamnamə tərtib olunur: «Qədirbəyova Gülarə xanım İbrahim Xəlil qızı müqəssirdir ona görə ki, o, əksinqilabi millətçi təşkilatın fəal üzvü olaraq, həmin təşkilatın üzvləri ilə əlaqə saxlayırdı. O, Azərbaycan K(b)P MK rəhbərliyini hörmətdən salmaq üçün millətçi söhbətlərdə iştirak edir və əksinqilabi iş aparırdı; yəni, Azərb. SSR CM-nin 72 və 73-cü maddələrilə cinayət məsuliyyəti daşıyır. Qədirbəyova özünü müqəssir bilməyir.

Qədirbəyovaya təqdim olunan ittihamın sübut olunmasını nəzərə alaraq, həmin işin baxılması SSRİ Xalq Daxili İşlər Komissarı yanında olan

Xüsusi Müşavirəyə verilsin. İşə əşyayi-dəlil olan «Bir sarayın tarixi» adlı kitab əlavə edilir».

Bu qərara 1939-cu il fevralın 1-də Azərbaycan SSR Prokurorunun müavini Seliverstov və martın 28-də XDİK Yanında Xüsusi Müşavirə katibliyinin müvəkkili leytenant Xolodirov, Xüsusi Müşavirə katibliyinin 1-ci şöbə müdiri leytenant Borovkov və Xüsusi Müşavirə katibliyinin rəisi kapitan Markeyev razılıq verirlər.

Xüsusi Müşavirənin 1939-cu il 9 iyun tarixli qərarı (14 nömrəli protokol): «Qədirbəyova Gülarə İbrahim Xəlil qızı antisovet təşkilatında iştirak etdiyinə görə beş il müddətinə həbs düşərgəsinə göndərilir» (həmin Xüsusi Müşavirənin gündəliyini Azərbaycan SSR XDİ komissarını əvəz edən baş leytenant Xoren Markaryan tərtib edib).

1950-ci il oktyabrın 4-də Azərbaycan SSR DTK-nin 5-ci şöbə, 3-cü bölməsinin rəisi podpolkovnik Ələkbərov nazir müavini polkovnik Kərimovun adına belə bir raport yazır: «1942-ci ilin may ayında məhbus Qədirbəyova Gülarə İbrahim Xəlil qızı Sibir lagerlərindən (Marinskdən) yox olub və onun indi harada olduğu məlum deyil. Qədirbəyova Gülarə DTK və SSRİ Prokurorluğunun 1948-ci il 28 oktyabr tarixli 66/241 ss nömrəli qərarına görə yenidən həbs olunmalıdır.

Xahiş edirəm, Qədirbəyovanın axtarılmasına sərəncam verəsiniz» (Kərimovun dərkənarı: «Axtarış elan edilsin. Həbs müddəti qurtarandan sonra Qədirbəyova yox olub və olduğu yer müəyyən edilməyib, faktiki olaraq Qədirbəyova axtarılmalı, tapılmalıdır və yeri müəyyən olunandan sonra həbs edilməlidir»).

1957-ci il sentyabrın 13-də Azərbaycan SSR Prokurorunun müavini İsmayılov Qədirbəyova Gülarə xanımın işi üzrə etirazını bildirir və xahiş edir ki, Qədirbəyova haqqında xüsusi Müşavirənin qərarı ləğv edilib, işi isə hərəkətlərində cinayət tərkibi olmadığı üçün xətm olunsun.

1957-ci il oktyabrın 30-da Azərbaycan SSR Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyası qərara alır: «Azərbaycan SSR Prokurorluğunun etirazı təmin edilsin: SSRİ XDİK Xüsusi Müşavirəsinin Qədirbəyova Gülarə xanım İbrahim Xəlil qızı haqqında olan 1939-cu il 9 iyun tarixli qərarı ləğv olunsun, onun işi isə hərəkətlərində cinayət tərkibi olmadığı üçün xətm olunsun».

Bəs Gülarə xanım Göylü qızına nə oldu? İzinə düşən varmı?

## QAYIBOVA XƏDİCƏ XANIM OSMAN QIZI

30-cu illərin minlərlə qurbanları arasında adlı-sanlı qadınlarımız da az deyildi.

Bu yazımda onlardan birisinin haqqında – görkəmli pianoçu və Bakıda Şərq konservatoriyasının qurucusu Qayıbova Xədicə xanımın həyatının son ayları haqda oxuculara məlumat vermək niyyətindəyəm.

1938-ci il martın 16-da Azərbaycan Daxili İşlər Xalq Komissarlığının Dövlət Təhlükəsizlik İdarəsi birinci bölməsinin üçüncü şöbə rəisinin müavini, leytenant Tevosyan belə bir arayış hazırlayır:

«Türk və ingilis qərargahlarının Bakıda olduqları zaman, 1893-cu ildə anadan olan, Azərbaycan Dövlət Konservatoriyasının keçmiş müəllimısi Xədicə xanım Qayıbova onlarla yaxın əlaqədə idi, həmin qərargahların zabitlərini evinə qonaq çağırırdı.

Azərbaycanın sovetləşməsindən sonra Qayıbova öz evində müsavat firqəsinin liderlərindən olan Mustafa Vəkilovu gizlətmişdir. Vəkilovu həbs etmək üçün gələndə Qayıbova ona qaçmaq üçün imkan yaratdı. Vəkilov xaricə qaçıb və indi Türkiyədədir.

1924-cü ildə Qayıbovanın evində türk ordusunun zabiti azərbaycanlı Sultan Hüseynzadə gizlənirdi. Qayıbovanın evindən o, İrana qaçıb və orada alman və yapon kəşfiyyatlarına xidmət edir.

Əksinqilabi millətçi təşkilatının rəhbərlərindən biri - Fərəczadənin 1937-ci il iyulun 17-də verdiyi ifadədən görünür ki, Türkiyə kəşfiyyatının agenti Dadaş Bünyadzadə həmin kəşfiyyatla əlaqəsini Qayıbova Xədicə xanımın vasitəsilə saxlayırdı.

Qayıbovanın əri Rəşid Qayıbov Azərbaycan SSR DİXK tərəfindən əksinqilabi millətçi təşkilatının üzvü kimi həbs edilmişdir.

1933-cü ildə Qayıbova casusluqda təqsirləndirilərək Azərbaycan Dövlət Siyasi idarəsi tərəfindən həbs edilmiş, amma ittiham sübut olunmadığı üçün azad edilmişdir.

Yuxarıdakılara əsasən Qayıbova həbs edilib Azərbaycan SSR CM-nin 68-ci maddəsinə görə istintaqa cəlb edilməlidir».

1938-ci il martın 16-da leytenant Tevosyan belə bir qərar çıxarır:

«Qayıbova Xədicə xanım casusluqda kifayət qədər ifşa olunduğu üçün qərara aldım: vətəndaş Qayıbova Xədicə xanım Azərbaycan SSR CM-nın 68-ci maddəsinə əsasən müttəhim sifətilə işə cəlb edilsin».

1938-ci il martın 17-də Dövlət Təhlükəsizlik idarəsinin 4390 nömrəli orderinə əsasən Qayıbova Xədicə xanım Şah döngəsi 16 nömrəli evdə həbsə alınmışdı (Qayıbovanın o vaxt 23 yaşlı Abdulkərim adlı oğlu və 12 yaşlı Alanqu adlı qızı var idi).

1938-ci il martın 20-də keçirilən birinci dindirmədən:

*Müstəntiq:* İstintaq müəyyən edib ki, siz əksinqilabı fəaliyyətlə məşğul idiniz. Özünüzü müqəssir bilirsinizmi? *Cavab:* Mən əksinqilabi fəaliyyətlə məşğul olmamışam və bu barədə özümü müqəssir bilmirəm. *Müstəntiq:* Siz yalan cavab verdiniz, təklif edirəm ki, doğru danışasınız. *Cavab:* Mən öz cavabımı təsdiq edirəm. *Müstəntiq:* Sizin tanışlarınızdan xaricdə kim yaşayır? *Cavab:* Qardaşım Məmməd Müftizadə. O, Türkiyəyə 1917-ci ildə gedib, onunla əlaqəm yoxdur. 1922-23-cü illərdə Bakıda İran konsulu olan Məmmədxan, indi o haradadır, bilmirəm və onunla əlaqəm yoxdur. Müsavatın zabiti Sultan Hüseynzadə 1925-ci ildə gizli yolla İrana qaçıb. İndi nə ilə məşğuldur, bilmirəm. Əlaqəm yoxdur. Müstəntiq: Son üç-dörd ildə sizin tanışlarınızdan Sovet hökuməti tərəfindən kim cəzalandırılıb? *Cavab:* 1. Ərim Qayıbov Rəşid – DİXK tərəfindən 1937-ci ilin noyabrında həbs edilib.

2. Dadaş Bünyadzadə – Azərbaycan SSR XKŞ-nın sabiq sədri. Qəzetlərdən bildim ki, o, xalq düşməni kimi həbs edilib.-

3. Həmid Sultanov və onun arvadı – o, sabiq Xalq Ədliyyə Komissarıydı. 1937-ci ilin yayında xalq düşməni kimi həbs edilib.

4. Əliheydər Qarayev və onun arvadı. Nəyə görə həbs ediliblər, bilmirəm. Qəzetlərdən öyrəndim. Moskvada yaşayırdılar.

5. Opera teatrının müdiri Şahbazov. 1937-ci ildə həbs olunub.

6. Əliyev Baba – Azərbaycan SSR MİK-in sədr müavini. 1937-ci ildə həbs olunub.

Yuxarıda saydığım tanışlarımla, ərimdən başqa, heç bir münasibətim olmayıb, yalnız işdə və incəsənət aləmində.

1938-ci il martın 23-də keçirilən ikinci dindirmədən:

*Müstəntiq:* 1917-1920-ci illərdə siz haradaydınız? *Cavab:* 1917-ci ildən 1919-cu ilin sonunadək mən Tbilisidə idim. 1919-cu ilin sonundan həbs olunan günə kimi mən Bakıda yaşayırdım. *Müstəntiq:* Bakıda olan türk və ingilis qoşunlarının zabitlərindən kimi tanıyırdınız? *Cavab:* Türk qoşunlarının rəhbərlərindən biri Xəlil paşa mənə tanış idi. Onun adyutantı Cavad bəyi və təyyarəçi zabit Əşrəf Təmuçini də tanıyırdım. İngilislər

arasında tanışlarım yox idi. *Müstəntiq*: Yuxarıda adlarını çəkdiyiniz türk zabitləri ilə tanışlığınız nə ilə ifadə olunurdu? *Cavab*: Xəlil paşa tanış kimi dəfələrlə bizim evə gəlibdi. Məni onunla qardaşım Məmməd Müftizadə Tbilisidə tanış etmişdi. Cavad bəylə məni Xəlil paşa tanış etmişdi. Aramızda heç bir şey olmayıb. Təyyarəçi zabit Əşrəf Təmuçinlə məni indi xalq düşməni kimi ifşa olunmuş Çingiz İldırım tanış etmişdi. *Müstəntiq*: Müsavat ordusunun zabitlərindən sizə kim tanış idi? *Cavab*: General Əliağa Şıxlinski. Mənim keçmiş ərimin qohumudur. General Usubov İbrahim də ərimin qohumudur. Zabit Sultan Hüseynzadə bir zaman mənə bənd olmuşdu və hərdənbir məni teatra dəvət edirdi. Başqa tanış zabitlərim yox idi. *Müstəntiq*: Sovetləşmədən sonra sizin evinizdə sovet orqanlarından gizlənən olubmu? *Cavab*: Sovetləşmədən sonra yaşadığım evdə 10-15 gün ərzində müsavat firqəsinin və hökumətinin liderlərindən biri Mustafa Vəkilov gizlənirdi. *Müstəntiq*: Vəkilovun gizlənməsinə kim kömək edirdi? *Cavab*: Vəkilovun qaçmasına bilavasitə mən kömək etmişəm və özümü təqsirkar hesab edirəm ki, Vəkilovun qaçması haqda bilə-bilə bu barədə heç kəsə deməmişəm. Onun gizlənməsində Mirzə Davud Hüseynovun da təqsiri var. *Müstəntiq*: Mustafa Vəkilov haraya qaçdı? *Cavab*: Düzünü deyə bilmərəm, guya Türkiyəyə. Müstəntiq: Qaçandan sonra Vəkilovla əlaqəniz olubmu? *Cavab*: Onunla əlaqəm yoxdur.

1938-ci il martın 25-də keçirilən üçüncü dindirmədən:

*Sual*: Müsavat firqəsinin və parlamentinin keçmiş lideri olan Mustafa Vəkilovun gizlənməsi və qaçmasında özünüzü təqsirkar bilirsinizmi? Cavab: Mustafa Vəkilovun qaçmağını bilərək heç kəsə xəbər verməməyimdə özümü təqsirkar bilirəm. Lakin bundan mənim heç bir məqsədim olmayıb və bir də bu haqda Azərbaycan inqilabi komitəsinin sədri Mirzə Davud Hüseynov da bilirdi.

1938-ci il aprelin 2-də keçirilən dördüncü dindirmədən:

*Sual*: Vəkilovun sizin evinizdə gizlənməsi haqda siz bir yerə xəbər verdinizmi? *Cavab*: Xeyr, bu haqda mən heç kəsə deməmişdim. *Sual*: Vəkilov SSRİ-də leqal yaşamaq istəməsi haqda sizə deyibmi? *Cavab*: Bəli, o, SSRİ-də qalmaq istəyirdi. *Sual*: Vəkilovun bu fikrini siz bir adama çatdırmısınızmı? *Cavab*: Maraqlanıb, mən bu barədə Mirzə Davud Hüseynovun fikrini bilmək istədim. Mən ona dedim ki, Vəkilovun gizlənməsindən xəbərdaram, amma onun harada qalması haqda Mirzə Davuda demədim. Mirzə Davud mənə dedi: «Vəkilovu mən yaxşı tanıyıram və onun haqqın-

da mən yalnız müsbət fikirdəyəm. Buna görə də onun SSRI-də qalmasına etiraz etmirəm». Bu sözləri mən Vəkilova çatdırdım. *Sual*: Mustafa Vəkilovun xaricə qaçmağında kömək edən Sultan Hüseynzadə kimdir? *Cavab*: Keçmişdə o, müsavat ordusunun zabiti idi. Üç-dörd dəfə həbs olunandan sonra o, 1924-25-ci illərdə xaricə qaçmışdır. *Sual*: Sultan Hüseynzadənin həbsdən azad edilməsi üçün siz kimlərə müraciət etmişdiniz? *Cavab*: Sultanın azad edilməsi haqda mən Azərbaycan hərbi komissarı Əliheydər Qarayevə və Mirzə Davud Hüseynova müraciət etmişdim. *Sual*: Deyin görək, siz daha kimin həbsdən azad edilməsini xahiş etmisiniz? *Cavab*: 1925-ci ildə mənim yaxın tanışım, «Kommunist» qəzetinin əməkdaşı Yusifzadə həbs olundu, mən Mircəfər Bağırovdan onun azad olunmasını xahiş etdim, Bağırov söz verdi ki, məsələylə tanış olar və əgər onun təqsiri yoxdursa, həbsdən buraxdırar. Amma təxminən bir ildən sonra mən bildim ki, Yusifzadə müsavatçı kimi 10 il həbsə məhkum edilib. *Sual*: Türkiyə və İran konsulxanalarının əməkdaşlarından kiminlə tanışlığınız var idi? *Cavab*: Türk konsulu Məmduh Şövkət bəyi tanıyırdım. O, Fərid bəyi əvəz etdi. İranlılardan Məmməd xanı, Ramazan xanı və İsmayıl xanı tanıyırdım.

1938-ci il aprelin 5-də keçirilən beşinci dindirmədən:

*Sual:* İstintaq müəyyən edib ki, siz müəyyən bir xarici dövlət mənafeyinə casusluq edirsiniz. *Cavab*: Bu yalandır. Mən casusluqla heç vaxt məşğul olmamışam. *Sual*: İstintaq müəyyən edib ki, xarici kəşfiyyat nümayəndələrindən birisi Dadaş Bünyadzadə sizin vasitənizlə bir xarici dövlətin kəşfiyyatıyla rabitə saxlayırdı. *Cavab*: Bu yalandır. Mən heç vaxt Dadaş Bünyadzadədən xarici kəşfiyyatla əlaqədar tapşırıqlar almamışam. *Sual*: Belə hal olubmu ki, müəyyən xarici dövlətin adamlarına ötürmək üçün Dadaş Bünyadzadə sizə ayrı-ayrı tapşırıqlar versin? *Cavab*: Yox, heç vaxt. Mənim 1926-cı ildən xarici konsulxanaların əməkdaşları ilə heç bir əlaqəm yoxdur.

1938-ci il aprelin 11-də keçirilən altıncı dindirmədən:

– Mən 1893-cü ildə Tiflisdə anadan olmuşam. Atam Müftizadə Osman, anam Terequlova Züleyxadır. Mən müqəddəs Nina adına bağlı məktəbdə oxuyurdum. Musiqidən dərsləri mənə böyük ustadlar verirdilər – L.F.Knina və Truskovski. Azərbaycanda Sovet hakimiyyətinin qurulmasının birinci günündən mən incəsənət və musiqi sahəsində işləyirdim. Xalq Maarif Komissarlığı nazdində olan "Şərq musiqisi" adlı şöbəyə müdir təyin olundum. Mən Şərq Konservatoriyasını yaratdım və oraya bütün peşəkar mu-

siqiçiləri dəvət etdim. Həmin musiqiçilər elə o zaman təşkil olunan Şərq orkestrinə daxil oldular. Sonra türk qadınları üçün musiqi-dramatik studiya açıldı ki, burada səhnə üçün türk qadınlarından kadrlar hazırlanmalıydı.

Studiyanın işi dəyişəndən sonra mən yaradıcı işlə məşğul olub konsertlər verdim və musiqinin əsaslarını da mükəmməl öyrənmək üçün 1927-ci ildə konservatoriyanın kompozisiya nəzəriyyəsi sinfinə daxil oldum. Eyni zamanda konsert verir və teatr texnikumunda dərs deyirdim. 1934-cü ildən konservatoriyada elmi tədqiqat işi aparırdım.

1938-ci il aprelin 12-də keçirilən yeddinci dindirmədə müstəntiq Xədicə xanımın birinci əri Rəşid Qayıbovun «praktiki əksinqilabi fəaliyyəti» ilə maraqlanırdı.

Aprelin 23-də keçirilən səkkizinci dindirmədə Qayıbovanın qardaş və bacıları haqda danışıq gedirdi.

1938-ci il aprelin 28-də keçirilən doqquzuncu dindirmədən:

*Sual*: Sizə ikinci dəfə təklif edilir ki, müəyyən xarici dövlətin kəşfiyyat agenti kimi siz öz praktiki casusluq fəaliyyətiniz haqda müfəssəl danışasınız. *Cavab*: Mən heç vaxt kəşfiyyat agenti olmamışam və casusluq da etməmişəm. *Sual*: Siz doğru danışmırsınız. İstintaq müəyyən edib ki, Türkiyə kəşfiyyatının agentlərindən biri olan Dadaş Bünyadzadə casusluq məqsədi ilə sizə ayrı-ayrı tapşırıqlar verir və sizin şəxsən vasitəçiliyinizlə Türkiyə kəşfiyyatı ilə əlaqə saxlayırdı. *Cavab*: Mən təsdiq edirəm ki, mənim vasitəçiliyimlə Dadaş Bünyadzadə Türkiyə kəşfiyyatı ilə heç bir əlaqə saxlamırdı və o, mənə heç bir tapşırıq vermirdi. *Sual*: Deyin görək, siz Əsgər Məmməd oğlu Fərəczadə ilə tanışsınızmı? *Cavab*: 1933-cü ildə ərim Şamxorda birinci katib işləyəndə, Fərəczadə Əsgər o vaxt Azərbaycan KP tədarük müvəkkili idi.

Müttəhim Fərəczadənin 1937-ci il iyulun 17-də olan dindirilməsindən: «Dadaş Bünyadzadə Türkiyə kəşfiyyatçısı ilə əlaqəsini öz şəxsi katibi Muravyov və Xədicə xanım Qayıbovanın vasitəsilə həyata keçirirdi» (Fərəczadənin özü də xalq düşməni kimi güllələnib).

1938-ci il mayın 7-də Qayıbova Xədicə xanımın işi üzrə istintaqın qurtarması haqda protokol tərtib olunur.

Mayın 8-də müstəntiq Tevosyan 23311 nömrəli istintaq işi üzrə ittihamnamə tərtib edir. Xədicə xanım Qayıbova Azərbaycan SSR CM-nin 68-ci maddəsi ilə müqəssir hesab edilir.

Altı aydan sonra çıxarılan, 1938-ci il oktyabrın 19-u tarixli Azərbaycan SSR XDİK-in xüsusi üçlüyünün qərarı:

**Eşidildi:** 1893-cü ildə anadan olmuş Qayıbova Xədicə xanım Osman qızının 23311 nömrəli istintaq işi.

**Qərara alındı:** Qayıbova Xədicə xanım Osman qızı – Türkiyə konsulxanası ilə əlaqəsinə və casusluq fəaliyyətinə görə güllələnsin, şəxsi əmlakı müsadirə edilsin.

Qərara DTK Birinci Xüsusi şöbənin rəisi leytenant Sovçenko qol çəkib.

1954-cü il oktyabrın 24-də Qayıbova Xədicə xanımın qızı Sultanova Alanqu Azərbaycan SSR Daxili İşlər Nazirinin adına ərizə yazıb xahiş edir ki, ona «məktublaşmadan məhrum olaraq 10 il həbs cəzası olan» anasının taleyi haqda məlumat versin.

1955-ci il aprelin 28-də DTK Xüsusi şöbəsinin baş müstəntiqi mayor Menyayev Qayıbova Xədicə xanımın qızı Sultanova Alanqunun ərizəsinə aid qərar çıxarır:

«Qayıbova yalnız Fərəczadənin yoxlanmamış və səthi ifadələri ilə ifşa olunurdu. Lakin bu ifadələr Dadaş Bünyadzadənin işində olan sənədlərdə öz təsdiqini tapmadılar, istintaq isə Qayıbovanın casusluğunu təsdiq edən heç bir material əldə etməmişdir. Buna görə də Azərbaycan SSR XDİK Xüsusi üçlüyünün 1938-ci il oktyabrın 19-da Qayıbova Xədicə xanım Osman qızının güllələnməsi haqda qərarı əsassız hesab edilib ləğv olunmalıdır. Qayıbovanın hərəkətlərində cinayət tərkibi olmadığı üçün iş xətm olunmalıdır».

1956-cı il yanvarın 27-də Zaqafqaziya hərbi Dairəsinin hərbi prokuroru polkovnik Sumarev Qayıbova Xədicə xanımın işi üzrə etiraz vermişdir:

«Azərbaycan SSR XDİK Xüsusi üçlüyünün Qayıbova Xədicə xanımın Osman qızı haqda 1938-ci il oktyabrın 19-u tarixli qərarı ləğv olunmalı və onun hərəkətlərində cinayət tərkibi olmadığı üçün iş xətm edilməlidir».

1956-cı il fevralın 14-də Zaqafqaziya hərbi Dairəsinin hərbi tribunalı belə qərara gəldi:

«Zaqafqaziya hərbi prokurorunun etirazı təmin olunsun, Azərbaycan SSR XDİK Xüsusi üçlüyünün Qayıbova Xədicə xanım Osman qızının güllələnməsi haqda 1938-ci il oktyabrın 19-u tarixli qərarı ləğv olunsun və Qayıbovanın hərəkətlərində cinayət tərkibi olmadığı üçün onun işi xətm olunsun».

1956-cı il fevralın 29-da Qayıbova Xədicə xanımın qızı Alanqu anasının işinin xətmi və onun təmiz bəraəti haqda arayış almışdır.

## ELM QIRIMI. FACİƏ

### HƏNƏFİ BABA OĞLU ZEYNALLI

*(İstintaq işi № 12493/81)*

1988-ci il avqustun 13-də «Elm» qəzetində Azərbaycan SSR Elmlər Akademiyasının (SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı – o vaxt belə adlanırdı) iki əməkdaşının – ədəbiyyat və dilçilik institutunun elmi işçisi Əsgərov Salman Mümtazın (istintaq işi № 12493/278, 2043 №-li məhbus) və tarix, arxeologiya, etnoqrafiya institutunun direktor müavini Xuluflu Vəli Məmmədhüseyn oğlunun (istintaq işi № 12493/80, 703 №-li məhbus) məhkəmə prosesi haqqında materiallar dərc edilmişdir.



*Hənəfi Zeynallı Baba oğlu*

Azərbaycan SSR EA-nın repressiyaya məruz qalan əməkdaşlarının uzun siyahısında Zeynallı Hənəfi Baba oğlunun da adı vardır. O, 1937-ci il yanvarın 28-dək, yəni həbs olunanadək ədəbiyyat və dilçilik institutunda elmi katib vəzifəsində işləmiş və eyni zamanda həmin institutun dil və ədəbiyyat şöbəsinə rəhbərlik etmişdir.

Zeynallı Hənəfi Baba oğlu 1896-cı ildə Bakıda dəmirçi-nalbənd ailəsində anadan olmuşdur. 6 yaşında ikən yetim qalmışdır. H.B.Zeynallı 1916-cı ildə Bakıdakı Orta Politexnik məktəbini bitirmiş və elə həmin il müsabiqə imtahanını müvəffəqiyyətlə verərək İmperator Texniki Peşə məktəbinə (hazırda Moskva ali Texniki İnstitutu adlanır) daxil olmuşdur. 1917-ci ildə fevral inqilabından sonra təhsilini dayandırmış və 1922-ci ilədək partiya, sovet, ictimai-təşkilati işlərdə çalışmış, müəllimlik etmişdir. 1919-cu ildə bolşeviklər partiyasına daxil olmuşdur.

H.B.Zeynallı 1922-ci ildə ADU-ya daxil olmuş, oranı 1927-ci ildə bitirmiş və təyinatını Şərq fakültəsinin Azərbaycan türk ədəbiyyatı tarixi kafedrasına, sonra isə APİ-yə almışdır.

1930-cu ildən dosent olmuşdur. 1923-cü ildən Azərbaycan Dövlət Nəşriyyatının əsas yaradıcılarından biri kimi fəaliyyət göstərmiş və ora-

nın baş redaktoru vəzifəsində çalışmışdır. 1923-31-ci illərdə Azərnəşrdə işləyərkən o, «Kommunist» qəzeti, «Maarif və mədəniyyət», «İnqilab və mədəniyyət», «Maarif işçisi» jurnallarında əməkdaşlıq etmiş, geniş ədəbi-publisistik yazılarla çıxış etmişdir.

H.B.Zeynallı 1930-cu ildən Azərbaycan DETİ-nin ədəbiyyat bölməsində işləyir, folklor qrupuna rəhbərlik edir. 1935-ci ilədək o, V.İ.Leninin əsərlərinin tərcüməçilərindən biri olur. 1934-cü ildə isə SSRİ Elmlər Akademiyası Azərbaycan filialında işə başlayır, folklor bölməsinə rəhbərlik edir və həm də Azərnəşrdə redaktor kimi çalışır.

H.B.Zeynallının əsərləri içərisində 1926-cı ildə yazdığı «Azərbaycan atalar sözləri və məsəllər» (burada 4 minədək atalar sözü və məsəllər toplanmışdır), 1928-ci ildə yazdığı «Türk ədəbiyyatı üzrə iş kitabı», folklor, terminologiya və s.-lə bağlı məqalələrin adlarını çəkmək olar.

1937-ci il yanvarın 28-də Zeynallı Hənəfi Baba oğlu Ruhulla Axundovun əksinqilabi qrupunun üzvü kimi həbs olundu. O, Azərbaycan SSR CM-nin 72 və 73-cü maddələri üzrə məsuliyyətə cəlb edildi və günahlandırıldı, ondan ötrü ki:

1. 1917-ci ildə eserlər partiyasının üzvü olmuşdur.

2. 1928-ci ildə Bakıda Türkiyə konsulu Fərid bəylə əlaqə saxlamış və onun vasitəsilə tanınmış türk millətçi xadimi İsmayıl Hikmətlə məktublaşmışdır.

3. 1929-cu ildə və sonrakı illərdə müsavatçılardan Baharlı, Feyzullayev, Mövsümov və başqaları, habelə Çobanzadə ilə sıx əlaqədə olmuşdur.

4. Özünün praktik elmi işlərində əksinqilabi millətçi ideologiyanı yazmışdır.

1937-ci il yanvarın 28-dəcə H.B.Zeynallı SSRİ Elmlər Akademiyası Azərbaycan filialında «bütün vəzifələrdən kənar edildi».

H.B.Zeynallı ilə aparılan birinci istintaq 3 gün – 1937-ci il yanvarın 29-dan 31-dək davam etmişdir. Onu əksinqilabçı və millətçi Haşım Əfəndi, İsmayıl Hikmət, Xəlil Fikrət, Bəkir Çobanzadə, Əhməd Cavad, Cəfər Cabbarlı, Atababa Musaxanlı, Cabbar Əfəndiyev, Əhməd Hacınski, Məmmədsadıq Quliyev, Əliabbas Mütəllibov, Böyükağa Talıblı, Əli Nazim, Vəli Xuluflu, Mikayıl Rəfili, Həsən İmanov, Salman Mümtaz, Əhməd Triniç, Cavad Bağırov, Xəlil İbrahimov, Rəşad Yusifzadə, Cavad Mövsümzadə ilə əlaqədə olduğuna görə ittiham etmişdilər.

Lakin müttəhim bu ittihamı rədd etmişdir.

Fevralın 3-də H.B.Zeynallı özünün hansısa antisovet təşkilata məxsusluğunu boynuna alınır. Bu zaman müstəntiq təkidlə deyir: «Düzgün ifadə verin, bəsdirin, müqavimət göstərməyin». H.B.Zeynallı yenidən hər şeyi rədd edir. Lakin sonrakı istintaqda (fevralın 4-də) müttəhim deyir: «Bəli, mən əksinqilabi kitablar alırdım, bəli, mən əksinqilabi təşkilatın üzvü idim. Cavad Bağırzadəni, Həbib Səmədzadəni, İmran Babayevi də həmin təşkilata cəlb etmişdim, bəli, mən əksinqilabi millətçi kadrlar tərbiyə edib yetişdirmişəm, bəli, mən Türkiyəyə meyl etmək baxımından Azərbaycanın SSRİ-dən ayrılmasına tərəfdar idim».

Fevralın 9, 10 və 11-də H.B.Zeynallı etiraf etmişdir ki, o, əksinqilabi təşkilata R.Axundov tərəfindən cəlb olunmuşdur. «1936-cı ilin sonunda onun kabinetində Bakıda və respublikanın rayonlarında gəncləri təşkilata cəlb etmək kimi göstərişlər almış, türk ziyalıları arasında işi genişləndirərək, onları terrora, təxribatçılığa, ziyankarlığa, casusluğa və müharibə vaxtı təslimçiliyə istiqamətləndirmişdi».

H.B.Zeynallı fevralın 13 və 14-də «etiraf etmişdir» ki, əksinqilabi təşkilata: Gəncədə – RXMŞ müdiri Namazovu, RXMŞ inspektoru Əhməd Əhmədovu və müəllim Məmməd Quliyevi, Tovuzda – RİK sədri Salmanovu və texnikumun müəllimi Biləndərlini, Şamxorda – RXMŞ müdiri Qurbanovu və klub müdiri Xəlilovu, Bakıda Ticarət İnstitutunun müəllimi Hacıkərim Sanılını, Mikayıl Müşfiqi və Dəmirçizadəni, yazıçı Cahanbaxışı, riyaziyyat müəllimi Məcid Abdullayevi, tarix müəllimi Qafur Əfəndiyevi və aspirant Həmid Araslını cəlb etmişdir. Adı çəkilən axırıncı şəxs müttəhimi məlumatlandıraraq deyirdi ki, APİ tələbələri arasında əksinqilabi əhval-ruhiyyəli şəxslər toplasın və özü də təxribatçılıq və ziyankarlıqla məşğul olsun. Sonradan o, «xatırlamışdı» ki, Gədəbəydə RXMŞ inspektoru Şahmuru, müəllim Axundovu, habelə Dəstəfurda müəllim Əliyevi də bu işə cəlb etmişdir.

1937-ci il fevralın 16-da H.B.Zeynallı terrorda, casusluqda və təxribatçılıqda əli olduğunu «boynuna almışdır»: fevralın 20-də ZSFSR-in ləğv edilməsi, SSRİ-dən tam ayrılmaq şərti ilə Azərbaycan SSR-in yaradılması məsələləri üzərində ciddi işləmişdir.

H.B.Zeynallının istintaq işindən məlum olur ki, «Türkiyənin mövqeyindən çıxış edərək Azərbaycan SSR-ni SSRİ-dən ayırmaq və İran Azərbaycanı ilə birləşmək məsələsini irəli sürən nərimanovçular qrupu da varmış». Bu qrupa Dadaş Bünyadzadə, Baba Əliyev, Yusif Məlikov, Bağı

Cavari, Teymur Əliyev, Mustafa Quliyev, Novruz Rzayev, Böyükağa Talıblı, Mövsüm Qədirli, Ağahüseyn Kazımov, Muxtar Hacıyev, Soltan Məcid Əfəndiyev, Tağı Şahbazi, Həmid Sultanov, Məmməd Səid Ordubadi, Yusif Qasımov, Mirzağa Əliyev, İsmayıl Zeynalov, Əyyub Xanbudaqov, Hacıağa Abbasov, Əzim Əzimzadə, Əzim Dadaşov, Vəli Xuluflu, Məmməd Biləndərli daxil idilər.

Fevralın 26-da H.B.Zeynallı yenidən «etiraf edir» ki, o, SSRİ EA-nın Azərbaycan filialında Ruhulla Axundov tərəfindən yaradılan əksinqilabi təşkilatın üzvü olmuşdur.

1937-ci il mayın 5-10-da H.B.Zeynallı Azərbaycanda dövlət çevrilişi ilə əlaqədar istintaq edilir. O, «etiraf edir ki», bu çevriliş SSRİ-nin kapitalist dövlətləri ilə müharibəyə başladığı bir vaxtda olmalı idi.

1937-ci il mayın 10-15-də H.B.Zeynallı əksinqilabi təşkilatın üzvlərinin siyahısını «dəqiqləşdirir».

Mayın 25-29-da müttəhim bu istintaq işindən keçən professor B.V.Çobanzadə ilə olan əlaqəsini də «açıb söyləyir».

İyunun 22-də H.B.Zeynallı neft sənayesinə vurulan ziyankarlıq və təxribatçılıqda əli olduğunu «bildirir».

Avqustun 26-da H.B.Zeynallı, L.P.Beriya və M.C.Bağırovun öldürülməsinə görülən hazırlıq barədə, həm də axırıncının MK binasının yanında, tində yaxud MX ilə Xalq Komissarları şurası binaları arasında, ya onun neft rayonlarının birinə gedərkən, yaxud MK binasının önündəcə «aradan götürməyi» nəzərdə tutduqlarını danışır.

Sentyabrın 2-də müstəntiq H.B.Zeynallını ittiham edir: ondan ötrü ki, müttəhim «əksinqilabi təşkilatın üzvü kimi əksinqilabçı iş aparmış, ziyankarlıq törətmiş, terror mövqeyində dayanaraq L.P.Beriya və M.C.Bağırov yoldaşlara qarşı hazırlanan terrorçu aktlardan xəbərdar olmuşdur».

Sentyabrın 20-də müstəntiq H.Zeynallını yenidən ittiham edir: ondan ötrü ki, o, Ruhulla Axundovun rəhbərliyi altında elm cəbhəsində də ziyanlı işlər aparmışdır. Orta təhsil müəssisələri üçün dil və ədəbiyyat üzrə dərsliklərin müntəzəm buraxılışına mane olmuşdur; Azərbaycan ədəbiyyatı klassiklərindən M.F.Axundovun əsərlərinin və «Molla Nəsrəddin»in nəşrini bilərəkdən saxlatdırmışdır; inqilabi folklor tərəfdarlarının əsərlərinin toplanmasını dayandırmış, əvəzinə Koroğlu materiallarını toplamışdır, çünki məhz burada o, təşkilatın Azərbaycanın müstəqilliyi haqqında «ide-

yasını» əks etdirməli idi; başdan-başa ziyanlı terminologiya və orfoqrafiya tərtib etmiş və onu ziyalılar arasında yaymışdır».

H.B.Zeynallı: «Azərbaycan SSR CM-nın 73, 64, 69, 17-70-ci maddələri üzrə özümü tam günahkar hesab edirəm».

İşdə Zeynallının Sovet hökumətinə qarşı düşmən fəaliyyətini «ifşa edən» digər müttəhimlərin ifadələri də var idi. Hüseynov Mikayıl Namaz oğlunun ifadəsindən aydın olur ki, 1933-cü ildə «Azərbaycan millətçi partiyası» yaradılmışdır. Onun tərkibinə aşağıdakı şəxslər daxil idilər:

Əhməd Triniç – Azərnəşrin direktoru.

Əli Kərimov – Azərbaycan Dövlət Dram Teatrının direktoru.

Hənəfi Zeynallı – SSRİ EA Azərbaycan filialının əməkdaşı.

Vəli Xuluflu – ASE-nin direktor müavini.

Balabəy Həsənbəyov – ADU-nun rektoru.

Baba Əsgərov – partiya tarixi institutunun əməkdaşı.

Rahim Həsənov – partiya tarixi institutunun direktor müavini.

Məmməd Cuvarlinski – Nuxa Şəhər Partiya Komitəsinin katibi.

Qənbər Sadıqov – Torpaqşünaslıq elmi-tədqiqat institutunun direktoru.

Hüseyn Məmmədov – Marksizm-Leninizm institutunun partiya təşkilat katibi.

Daşdəmir Bünyadzadə – Marksizm-Leninizm institutunun müavini.

İsmayıl Cəmilov – Az. K(b)P Nuxa Şəhər Komitəsinin işçisi.

Kazım Ələsgərov – Siyasi ədəbiyyat nəşriyyatının direktoru.

Həmid Sultanov – Xalq kommunal təsərrüfatı komissarı.

Əsgər Fərəczadə – Dövlət plan komitəsinin sədri.

Əyyub Xanbudaqov – Zaqafqaziya daxili ticarət komissarlığının məsul işçisi.

Dadaş Bünyadzadə – Zaqafqaziya xalq torpaq komissarı.

Mirzə Davud Hüseynov – Zaqafqaziya xalq maarif komissarı.

Həsən Səfərov – Az. KP MK-nın kənd təsərrüfatı şöbəsinin müdiri.

Əhməd Kazımov – partiya tarixi institutunun əməkdaşı.

Əsgər Eyvazov – Azəbaycan SSR xalq komissarları şurası sədrinin müavini.

Saleh Güllücanski – Azərbaycan AKTMİ-nin direktoru.

İbrahim Eminbəyli – qlavlitin rəisi.

Soltan Məcid Əfəndiyev –Az. MİK-in sədri.

Adil Həsənov – Xalq maarif komissarının müavini.

Başir Səfərov – K.İsmayılov RİK-in sədri.

Bala Əfəndiyev – Azərbaycan K(b)P Zaqatala Rayon Komitəsinin katibi.

Həmid Yaqubov – Respublika prokuroru.

Yusif Cəfərov – Azərbaycan K(b)P Qonaqkənd Rayon Komitəsinin katibi.

Heydər Vəzirov – Azərbaycan SSR xalq torpaq komissarı.

Rzayev – Azərbaycan K(b)P Samux Rayon Komitəsinin katibi.

1937-ci il sentyabrın 20-də istintaqın başa çatması haqqında protokol tərtib olundu. Buraya H.B.Zeynallı «heç bir əlavə etmədi».

1937-ci il oktyabrın 5-də Azərbaycan SSR-in xalq daxili işlər komissarı Sumbatov – Topuridze H.B.Zeynallının Azərbaycan SSR CM-nin 73, 64, 69 və 70-ci maddələrində nəzərdə tutulan cinayətlərdə təqsirləndirildiyi üçün 12.493/81 nömrəli işə verilmiş ittihamnaməni təsdiq edir. Burada deyilirdi: «1936-cı ilin sonunda Azərbaycanda əksinqilabı trotskiçi-zinovyevçi təşkilat aşkar edilmiş və tamamilə dağıdılmışdır. Təşkilatın əsas vəzifəsi ziyanvericilik, casusluq, partiya və dövlət rəhbərlərinə qarşı terrordan istifadə etmək, silahlı üsyan hazırlamaq yolu ilə Azərbaycanı SSRİ-dən ayırmaq idi.

H.B.Zeynallı ittiham edilirdi ondan ötrü ki:

1. 1934-cü il dekabrın 1-də Kirovun xaincəsinə öldürülməsini həyata keçirən və sonrakı illərdə (1934-1937) partiya və hökumət rəhbərlərinə qarşı terrorçu aktlar hazırlayan əksinqilabi trotskiçi-zinovyevçi terrorçu təşkilatın üzvü idi.

2. 1925-ci ildən əksinqilabi pantürkist təşkilatın tərkibinə daxil idi, bu təşkilatın üzvü Çobanzadə ilə əlaqə saxlamış və həbs olunan günədək partiyaya və Sovet Hakimiyyətinə qarşı barışmaz mübarizə mövqeyində durmuşdur.

3. 1934-cü ildə əksinqilabi millətçi təşkilatın tərkibinə daxil idi, hansı ki, onun rəhbərlərindən biri olan R.Axundov tərəfindən bu təşkilata cəlb edilmişdir və rəhbərlik ilə təşkilatı əlaqə saxlamışdır.

4. Azərbaycanın ayrı-ayrı rayonlarında əksinqilabi əhval-ruhiyyəli adamları millətçi təşkilata cəlb edərək silahlı üsyanın hazırlanması sahəsində fəal iş aparmış, əhali arasında üsyançı əhval-ruhiyyəsi yaymışdır.

5. Terrorçu mövqeyində dayanmış, ÜİK(b)P ZAQ katibi Beriya və AK(b)P MK katibi M.C.Bağırova qarşı hazırlanan terror aktlarının işlə-

nib hazırlanmasında və ayrı-ayrı variantların müzakirəsində fəal iştirak etmişdir.

6. SSRİ EA Azərbaycan filialının ədəbiyyat və dilçilik institutunda işləyərkən elm cəbhəsində də ziyanlı fəaliyyət göstərmişdir.

Yəni Azərbaycan SSR CM-nin 73, 64, 69 və 70-ci maddələrində nəzərdə tutulan cinayətlərdə günahlandırılır.

H.B.Zeynallı özünün günahkar olduğunu tamamilə etiraf edir».

1937-ci il oktyabrın 11-də Ali Məhkəmənin Kollegiyası qərara alır;

1. H.B.Zeynallının işi məhkəməyə verilsin.

1. İşə bağlı məhkəmə iclasında, müdafiəçisiz, ittihamçısız və şahidlərsiz baxılsın.

1937-ci il oktyabrın 12-də SSRİ Ali Məhkəməsi hərbi Kollegiyası Səyyar sessiyasının (Matuleviç, Zaryanov, Jiqur) bağlı məhkəmə iclası oldu.

İclas saat 16:25 dəqiqədə başlandı.

H.B.Zeynallı: «Özümü tam günahkar hesab edirəm, tam təslim olur və mərhəmət diləyirəm».

İclas saat 16:40 dəqiqədə qurtardı.

Hərbi kollegiya Hənəfi Baba oğlu Zeynallını ən agır cəzaya – güllələnməyə məhkum etdi.

SSRİ MİK-in 11.12.1934-cü ildən qüvvədə olan qərarına görə heç bir şikayət qəbul edilmir və hökm dərhal yerinə yetirilməlidir».

Zeynallı Hənəfi Baba oğlunun güllələnməsi haqqında hökm 1937-ci il oktyabrın 13-də Bakıda icra edildi. İstintaq işinin 392-ci səhifəsinə bu barədə arayış tikilmişdir.

1955-ci il aprelin 6-da Dövlət Təhlükəsizlik Komitəsinin sədri H.B. Zeynallının həyat yoldaşı Şərifova Səyyarə Səttar qızının ərinin işinə yenidən baxılması xahişi ilə əlaqədar ərizəsini almışdır. S.Şərifova özü də xalq düşməninin həyat yoldaşı olduğuna görə 8 il müddətinə həbsdə saxlanılırdı.

1957-ci il martın 30-da SSRİ Ali Məhkəməsi hərbi Kollegiyasının qərarına görə 1937-ci il sentyabrın 12-də SSRİ Ali Məhkəməsi hərbi Kollegiyasının Hənəfi Baba oğlu Zeynallının istintaq işi üzrə çıxartdığı hökm dəyişdirildi və cinayət tərkibi olmadığı üçün iş xətm edildi.

## BƏKİR VAHAB OĞLU ÇOBANZADƏ

*İstintaq işi № 12493*

Milli kadrları tamamilə məhv etmək, ilk növbədə dünyaca məşhur, daim düşünən, mülahizə edən, yeni fikirli alimləri, mütəfəkkir və intellektualları aradan götürmək – 30-cu illərdə ölkəni idarə edən rəhbər klanın, qabaqcıl olan hər şeyi caynaqlayan qara əllərin niyyəti belə idi.

1937-1938-ci illərdə SSRİ EA-nın Azərbaycan filialının, demək olar ki, bütün alimlərinin istintaqı 12493 nömrəli iş üzrə keçirdi. Hər şeyi məhv edən insan qəssabxanasının, daha doğrusu, ölüm maşınının bu dəfəki növbəti qurbanı isə SSRİ EA Azərbaycan filialının baş elmi işçisi, APİ və ADU-nun dil və ədəbiyyat kafedrasının müdiri, professor Bəkir Vahab oğlu Çobanzadə (59 nömrəli məhbus) idi.



*Çobanzadə Bəkir Vahab oğlu*

Bəkir Vahab oğlu Çobanzadə 1893-cü il mayın 15-də Krım şəhəri, Qarasubazarda anadan olmuşdur. 1908-ci ildə o, ibtidai gimnaziyanı bitirmiş və müsəlman xeyriyyə cəmiyyəti tərəfindən təhsilini davam endirmək məqsədilə İstanbula göndərilmişdir. 1914-cü ildə İstanbul liseyinin ədəbiyyat şöbəsinin və İstanbul universiteti nəzdində ərəb və fransız dilləri üzrə ali kursları bitirərək məktəb və liseylərdə bu dilləri tədris etmək hüququ almışdır. Elə həmin ildəcə Budapeşt universitetinin tarix-filologiya fakültəsinə daxil olmuş və oranı 1918-ci ildə bitirmişdir. 1920-ci ildə B.Çobanzadə «Komanikus» məcəlləsində zahiri sinharmonik uyğunsuzluq və türk dillərində artikulyasiya bazası problemi» mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş və türkologiya üzrə filologiya elmləri doktoru alimlik dərəcəsi almışdır. Çobanzadənin elmi rəhbəri məşhur akademik İqnats Qoldsiyer olmuşdur. O, Tavriya universitetinin dəvəti ilə Krıma qayıtmış və dilçilik kafedrasının dosenti təyin edilmişdir. 1922-ci il martın 15-də professor, 1924-cü ildə isə Krım universitetinin rektoru seçilmişdir.

1924-cü ildə Çobanzadə ADU-nun və Yeni Türk Əlifbası Komitəsinin dəvəti ilə Bakıya gəlmiş və burada türk dili və ədəbiyyatı kafedrasının professoru seçilmiş, 1925-ci ildə isə Şərq fakültəsinin dekanı olmuşdur.

1927-ci ildə Çobanzadə Ümumittifaq Yeni Əlifba Mərkəzi Komitəsi elmi şurasının sədri təyin edilmişdir. 1928-ci ildə o, Moskvada Şərq Xalqları İnstitutunun həqiqi üzvü seçilmişdir. Burada Çobanzadə türkoloq aspirantlara rəhbərlik etmişdir.

1925-1933-cü illərdə Azərbaycan Terminologiya Komitəsinin humanitar bölməsinin sədr müavini, sədri və rəhbəri olmuşdur. 1930-cu və 1934-cü illərdə Fərqanə Ali Pedaqoji İnstitutunda özbək dili və ədəbiyyatı kafedrasının professoru işləmişdir. 1932-ci ildən SSRİ EA-nın Azərbaycan filialında dil bölməsinin baş elmi mütəxəssisi, Azərbaycan Elmi-Tədqiqat Pedaqogika və Psixologiya İnstitutunun həqiqi üzvü olmuşdur. 1935-ci ildə Paris Dilçilik Cəmiyyətinin üzvü seçilmişdir.

Çobanzadə alman, macar, fransız, ərəb, fars, türk, rus və demək olar ki, bütün türk dillərini mükəmməl bilirdi. Həbs olunanadək professor B.V.Çobanzadə müxtəlif dillərdə və müxtəlif aspektlərdə türk dili və ədəbiyyatı problemləri ilə bağlı 350-dən çox kitab və məqalələrin müəllifi idi.

1937-ci il yanvarın 26-da B.V.Çobanzadənin həbs olunması haqqında qərar çıxarıldı. O ittiham edilirdi ondan ötrü ki, 1924-cü ildən Bakıda yaşadığı dövrdə əksinqilabi millətçi fəaliyyətdə olmuşdur. Məsələn:

a) 1926-cı ildə Krım «Milli firqə»si Mərkəzi Komitəsi adından müsavat partiyası Mərkəzi Komitəsi ilə birgə iş barədə danışıqlar aparmışdır.

b) Ruhulla Axundov Çobanzadə ilə partiya və Sovet hökumətinə qarşı blokda əksinqilabi trotskiçi təşkilatla birgə iş haqqında danışıqlar aparmışdır.

c) Özünün ədəbi əsərlərində və mühazirələrində əksinqilabçı millətçi ideologiyanı geniş yaymışdır; yəni Azərbaycan CM-nin 72 və 73-cü maddələrində nəzərdə tutulan cinayətlərdə təqsirləndirilirdi.

B.V.Çobanzadə 1937-ci il yanvarın 28-də Kislovodskda «Qornyak» («Mədən fəhləsi») sanatoriyasında həbs edildi və mühafizəçi əsgərin köməyi ilə Bakıya gətirildi.

1937-ci il fevralın 7-9-da Çobanzadə ilə ilk istintaq keçirildi. Burada aydın oldu ki, 1919-cu ildə o, Macarıstanın Qızıl Ordusunda xidmət etmiş, 1920-1924-cü illərdə Krım «Milli firqə»sinin üzvü və katibi olmuşdur. Elə bu istintaqdaca B.V.Çobanzadə əksinqilabi millətçi fəaliyyət apardığını etiraf etmişdir. «Əksinqilabi mövqedə duran, əksinqilabi əlaqədə olduğunuz şəxslərin familiyalarını deyin» sualına müttəhim 1929-cu ildən tanıdığı, SSRİ EA Azərbaycan filialının tarix institutunun direktor müavini

Həsən İmanovun, 1929-cu ildən tanıdığı «əksinqilabi mahnılar oxuyan» Vəli Xuluflunun, 1924-cü ildən tanıdığı, ASE-nin əməkdaşı Yusif Əliyevin, 1929-cu ildən tanıdığı SSRİ EA Azərbaycan filialının əməkdaşı, əksinqilabi millətçi istiqamətlərin, ədəbi əsərlərin müəllifi, qrupun üzvlərinin və onların ətrafındakı şəxslərin əksinqilabi mövqedən tərbiyə edilməsi və möhkəmlənməsi sahəsində fəal iş aparan, partiya və sovet hökumətinin siyasətinə qarşı böhtanlar yayan Əli Nazimin adlarını çəkmişdir. Sonra isə müttəhim 1933-cü ildən tanıdığı SSRİ EA Azərbaycan filialının tarix institutunun əməkdaşı Ağamir Məmmədovun, 1925-ci ildən tanıdığı APİ-nin dosenti və SSRİ EA Azərbaycan filialının dil və ədəbiyyat institutunun əməkdaşı Abdulla Tağızadənin adlarını söyləmişdir.

1937-ci il fevralın 14-də B.V.Çobanzadənin verdiyi əksinqilabi və pantürkist siyahıya Əziz Qubaydullinin, A.S.Bukşpanın, Vəli Xuluflunun, Agamir Məmmədovun, Ə.Salamzadənin, Həsən İmanovun, Mövsüm Səlimovun və Əbdülovun adları əlavə edilmişdi.

Fevralın 16-dakı istintaq mədəniyyət cəbhəsi işçiləri arasında aparılan əksinqilabi millətçi fəaliyyətə həsr olunmuşdur. «Sizin əksinqilabi millətçi fəaliyyətiniz nədən ibarət idi?» sualına Çobanzadə belə cavab vermişdir: «Əksinqilabi milli təbliğat aparmaq, pantürkizmi geniş yaymaq, əksinqilabi millətçi azərbaycanlı ziyalılarının əksinqilabi millətçi və pantürkist mövqelərini möhkəmləndirmək və öz elmi əsərində əksinqilabi milli ideyaları irəli sürməkdən ibarət idi».

«Siz daha kimlərlə əlaqədə idiniz?» sualının cavabında Çobanzadə aşağıdakı şəxslərin adlarını çəkmişdir: (Bakı üzrə) 1925-ci ildən ATİ-nin dosenti Yaqub Zəki, 1925-ci ildən Salman Mümtaz, 1930-cu ildən Semaşko adına xəstəxananın həkimi Ələkbər Adıgözəlov, 1925-ci ildən xalq səhiyyə komissarlığının işçisi Reved Şirinski, 1933-cü ildən Ruhulla Axundov, 1930-cu ildən APİ-nin professoru A.S.Bukşpan, APİ-nin dosenti İdris Həsənov, 1925-ci ildən 30-cu ilədək Hənəfi Zeynallı (milli təmayülçü), 1925-ci ildən A.R.Zifeld, 1929-cu ildən A.V.Baqri (əksinqilabçı-millətçi), 1925-ci ildən Mədinə Qiyasbəyli (müsavatçı), 1928-ci ildən APİ-nin dosenti Qasım Feyzullayev, 1928-ci ildən aspirant İsmayıl Abbasov, 1928-ci ildən ADU-nun tarixçisi Baba Əsgərov, 1929-cu ildən bəstəkar A.Refetov, 1925-ci ildən müəllim Asiya Akimova, 1929-cu ildən professor A.Axundov, 1930-cu ildən mühəndis Rüstəmbəy Sultanovla əlaqədə olduğunu söyləmişdir.

Sonra Şimali Qafqaz, Özbəkistan, Ermənistan, Türkmənistan və Leninqraddan olan şəxslərin adlarını çəkmişdi.

Fevralın 17-19-da Çobanzadə «türklərlə əlaqə saxladığını, onların məlumatçısı və Bakıda Türkiyə konsulu ilə əlaqədə olduğunu etiraf etmişdir».

1937-ci il martın 3-5-i «həbs olunan günədək mən əksinqilabi millətçi mövqeyində durmuşam və SSRİ-dən ayrılmaq şərti ilə türk-tatar xalqlarının vahid müstəqil dövlət halında birləşməsi (Vahid Turan dövləti) məqsədini qarşıya qoymuşam».

Sonra Çobanzadə göstərmişdir: «Biz 1930-cu ildə əksinqilabi millətçi qrup yaratmışdıq. Birinci qrup azərbaycanlı ziyalılardan ibarət idi (rəhbəri mən idim). Onun tərkibinə aşağıdakılar daxil idi: Cabbar Məmmədzadə, Qarabağlı, Fərhad Ağazadə, Qulam Ələkbərli, Əhməd Seyidov, Əlisəbri Qasımov, Əbdülkərim Əfəndizadə, Abdullayev, Salman Mümtaz, Baba Əsgərov, İsmayıl Abbasov, Əmirxanov, İsmayıl Əlizadə, Əli Sultanlı, Feyzulla Qasımzadə, Kitinayev.

İkinci qrupa Krım-tatar tələbələri daxil idi və bu qrupa da mən rəhbərlik edirdim. Üçüncü qrup Azərbaycan ziyalılarından ibarət idi (rəhbəri İsmayıl Hikmət idi), Atababa Musaxanlı, Hənəfi Zeynallı, Cabbar Əfəndizadə, Abdulla Tağızadə, Xalid Seyid Xocayev, Mikayıl Müşfiq, Əli Hüseynzadə, Mikayıl Rzaquliyev, Hüseyn Cavid, Əhməd Cavad, Surxay Yusupov və Abdulla Şaiq (İsmayıl Hikmət gedəndən sonra 1927-ci ildə bu qrupa da mən rəhbərlik edirdim). Dördüncü qrupu (azərbaycanlı ziyalılar) Əziz Qubaydullin aparırdı. Onun tərkibinə Ə.Salamzadə, Ağamir Məmmədov, A.Bukşpan, M. Bayramov, V.Xuluflu, Qara İsmayılov, Ələsgər Ələkbərov, Mövsüm Salamov və H.Biləndərli daxil idilər. Beşinci qrup Qazan tatarlarından ibarət idi və onu da Əziz Qubaydullin aparırdı.

1937-ci ilin martında 6 istintaq Çobanzadənin Krımdakı fəaliyyətinə həsr edilmişdi. 1937-ci il aprelin 17-20-də Çobanzadə Azərbaycandakı əksinqilabi fəaliyyətini «açıb söyləmiş» və Ruhulla Axundovun rəhbərliyi ilə Azərbaycanda əksinqilabi Azərbaycan millətçi təşkilatın olduğunu təsdiq etmişdir.

Sonra Azərbaycanın rayonlarında, Gəncədən Qazaxadək olan yerlərdə təşkilata cəlb olunan şəxslər haqqında danışıldı. 1937-ci il aprelin 23-25-də aparılan istintaqda Bəkir Çobanzadəyə belə bir sual verildi: «Azərbaycanın rayonlarında silahlı üsyana hazırlıqla bağlı təşkilat tərəfindən praktiki olaraq nə kimi iş görülmüşdür?». Müttəhim cavabında bildirmişdi ki, Sovet hökumətinə qarşı üsyan üç variantda olmalı idi:

1. Üsyanı dağ rayonlarından (Dəstəfurda, Gədəbəydə, Kəlbəcərdə və b.) başlamaq;

2. Üsyana İran və Türkiyə ilə sərhədyanı rayonlarda başlamaq. Çünki oradan həm silah alınmalı, həm də quldur dəstələri şəklində adamlar köməyə gəlməli idilər;

3. Üsyana Bakının özündəcə başlamaq. Çünki təşkilat belə hesab edirdi ki, Bakını ələ keçirmək elə bütün Azərbaycanı ələ keçirmək deməkdir.

İyunun 13-dən müstəntiq Azərbaycanda baş verəcək dövlət çevrilişinin təfərrüatını aydınlaşdırmışdır. Çobanzadə demişdir ki, bu zaman M.C. Bağırovun aradan götürülməsi nəzərdə tutulmuşdur. Onun yerinə Hüseyn Rəhmanov keçməli idi.

1937-ci il iyunun 25-də SSRİ-də əksinqilabi millətçi pantürkist gizli təşkilatın fəaliyyəti haqqında suala cavab verən müttəhim təşkilatın aşağıdakı üzvlərinin adlarını çəkmişdir:

1. Rıskulov – RSFSR XKŞ sədrinin müavini.
2. İsfəndiyarov Səncər – RSFSR MİK-in keçmiş katibi.
3. Şuqu Əmirəsən – Krım MSSR XKŞ sədri.
4. Raximbayov – Özbəkistan K(b)P MK katibi.
5. Yumanqulov – RSFSR xalq maarif komissarı.
6. Taxo Qodi – Dağıstan xalq maarif komissarı.
7. Ömər Əliyev – Qaraçay-Çərkəz İcraiyyə Komitəsinin sədri.
8. Soltanməcid Əfəndiyev – Azərbaycan SSR MİK sədri.
9. Dadaş Bünyadzadə – ZSFSR xalq torpaq komissarı.
10. Mustafa Quliyev – Azərbaycan SSR xalq maarif komissarı.

Burada, habelə Moskvada, Leninqradda, Samarada, Həştərxanda, Saratovda, Ulyanovskda, Orenburqda, Donbasda və Sibirdə də pantürkist təşkilatların olduğu göstərilmişdir.

1937-ci il iyulun 5-9-da müstəntiq Sovet hökumətinə qarşı fəal mübarizə aparmaq məqsədilə pantürkist təşkilatlar arasında əlaqələrin olması barədə suallar verir. Burada «Əksinqilabçı ittihamçı təşkilatı»nın adı çəkilmiş və aşağıdakı şəxslərin təşkilatın tərkibinə daxil olduğu göstərilmişdir: Rüstəmbəy Sultanov, Əlisəbri Qasımov, Atababa Musaxanlı, Səməd Şahsuvarov, Soltan Qənizadə, Nurməmməd Şahsuvarov, Pənah Qasımov, Hamid Şaxtaxtinski, Yusif Əliyev, Oruc Əliyev, Əşrəf Hacıyev, Rəşid Məmmədov, Mikayıl Rəhimli, Abbas Sultanov, İlyasov. Qulu Hüseynov,

Abdulla Şaiq, Şamil Mahmudov, Azadbəy Əmirov, Qafur Rəşad (Qantəmir), Fətullabəy Rüstəmbəyov, Cabbar Məmmədzadə.

İyulun 13-14-də müstəntiq leninqradlı alimlərdən Samoyloviç və Vəlinin əksinqilabi fəaliyyəti ilə bağlı sorğu-sual aparır; iyulun 16-17-də «Vahid türk-tatar dövləti»nin tərkibinə daxil olacaq Dağıstanda əksinqilabi-millətçi təşkilat haqqında istintaq aparır; iyulun 20-21-də müstəntiq «Azərbaycanda praktik olaraq əksinqilabi fəaliyyət göstərən müsavatçılar, ittihadçılar və milli-təmayülçülər bloku haqqında ifadələr alır».

1937-ci il iyulun 27-də Çobanzadə Azərbaycanda əksinqilabi təşkilatlar və elm cəbhəsində əksinqilabi iş barədə istintaq olunur. Burada A.V.Baqriyin, P.K.Juzenin, S.V.Yelpatyevskinin, Baybakovun, Uvar-Uvarın, Pisarevskinin, Belyayevin, Ryuminin, Lapuxinin, Kovankonun, Kamarovskinin, Makovelskinin, Yevlaxovun, Fidolinin, Şirokoqorovun, Paxomovun adları çəkilir. İyulun 28-29-da B.V.Çobanzadə Rıskulov, iyulun 29-da Zifeld, avqustun 2-də Y.Vəzirov, avqustun 25-də Azərbaycan milli partiyası və Əsgər Fərəczadə haqqında ifadə verir.

1937-ci il sentyabrın 1-də Çobanzadə sonuncu istintaqda ona verilən ittihamlarla bağlı günahkar olduğunu etiraf edir. Sentyabrın 2-də Çobanzadəyə verilən əlavə ittihamlar üzrə qərar çıxarılır. «Çobanzadə praktiki olaraq özünün əksinqilabi fəaliyyətində SSRİ-yə qarşı silahlı üsyana hazırlıqla bağlı fəal iş aparmış, xarici dövlətlərin kəşfiyyat orqanları ilə əlaqədə olmuş və onlara SSRİ barədə vaxtaşırı məlumatlar vermiş, SSRİ-yə qarşı üsyan qaldırılacağı halda terror mövqeyində dayanacağı yəqin edilmişdir, yəni Azərbaycan SSR CM-nin 21-64, 68, 70-ci maddələrində nəzərdə tutulmuş cinayətlərdə təqsirləndirilir.

Həmin gün 1937-ci il sentyabrın 2-dəcə Azərbaycan SSR CM-nin 64, 69-1, 70 və 73-cü maddələrində nəzərdə tutulan cinayətlərdə B.V.Çobanzadənin təqsirləndirilməsi ilə bağlı sonuncu ittihamnamə tərtib olunur:

1. Milli respublikaların SSRİ-dən silahlı yolla ayrılmasına hazırlaşan və «Vahid türk-tatar dövləti»nin yaradılmasına çalışan Ümumittifaq əksinqilabi pantürkist təşkilat mərkəzinin üzvü kimi ÜİK(b)P və Sovet hökumətinə qarşı barışmaz mübarizə mövqeyində dayanmışdır.

2. Krımda, Azərbaycanda, Özbəkistanda və Dağıstanda silahlı üsyanın, təxribatın və terrorun hazırlanması sahəsində bilavasitə fəal iş aparmışdır.

3. Türkiyə və Polşa təşkilatlarının casusu kimi iş aparmışdır.

1937-ci il sentyabrın 21-də B.V.Çobanzadə Azərbaycan SSR xalq daxili işlər komissarı D.D.Sumbatov-Topuridzenin adına aşağıdakı məzmunda ərizə ilə müraciət etmişdir:

«Özümün əksinqilabi millətçi fəaliyyətimi etiraf edirəm və xahiş edirəm nəzərə alasınız ki:

1. Mən öz ixtisasım üzrə sovet Şərqinin ilk professoruyam, bu ada Sovet hökuməti tərəfindən layiq görülmüşəm və bu ölkələrdə ilk dəfə ana dilində mühazirə oxumuşam.

2. Bütün elmi fəaliyyətim dövründə təxminən 150 elmi əsər yazmışam. Onların 100-ü Azərbaycan dili və Azərbaycan dilində ədəbiyyat problemlərinin ilk elmi əsaslarına həsr edilmişdir.

3. Yüzlərlə dilçi və ədəbiyyatşünas mütəxəssislər hazırlamışam.

Şanlı Kommunist Partiyası və Sovet hökumətindən xahiş edirəm ki, mənə öz ixtisasım üzrə işləməyim və Sovet İttifaqının qüdrətinin daha da artırılmasında, habelə hər cür əksinqilabi millətçilərin ifşa olunmasında iştirak etmək üçün imkan yaradasınız».

1937-ci il oktyabrın 12-də SSRİ Ali Məhkəməsi hərbi Kollegiyası Səyyar sessiyasının (Matuleviç, Zaryanov, Jiqur) bağlı məhkəmə iclası oldu. İclas saat 11:20 dəqiqədə başlandı, saat 11:40 dəqiqədə qurtardı.

Müttəhim son sözündə bildirmişdi ki, istintaqdan heç bir şey gizlətmədiyi, hər şeyi açıb söylədiyi, birgə işlədiyi bütün yoldaşlarının adlarını verdiyinə görə ona güzəşt edilsin.

1937-ci il oktyabrın 12-də B.V.Çobanzadə ən ağır cəzaya – güllələnməyə məhkum edildi. Hökm dərhal yerinə yetirildi. (İşə B.V.Çobanzadənin 1937-ci il oktyabrın 13-də güllələnməsi haqqında arayış tikilmişdir.)

1954-cü il fevralın 14-də və 1955-ci il fevralın 21-də professor B.V.Çobanzadənin həyat yoldaşı Ruqiyyə Kireyevna ərinin işinə yenidən baxılmasını xahiş edir.

1957-ci il iyunun 6-da SSRİ Ali Məhkəməsi hərbi Kollegiyasının çıxardığı qərara görə B.V.Çobanzadənin işində cinayət tərkibi olmadığına görə iş xətm edildi.

## BALABƏY CABBAR OĞLU HƏSƏNBƏYOV

*İstintaq işi № 12493-6*

1937-ci il yanvarın 28-də Azərbaycan SSR XDİK Dövlət Təhlükəsizlik İdarəsinə 1899-cu ildə anadan olmuş, iqtisadçı, professor, Azərbaycan Dövlət Universitetinin rektoru, 1919-çu ildən Azərbaycan K(b)P-nin üzvü Balabəy Cabbar oğlu Həsənbəyov haqqında arayış daxil oldu.

Arayışda deyilirdi: «Tixomirov və Çiçikalovun ifadələrindən müəyyənləşdirilmişdir ki, onlar Həsənbəyovla əksinqilabi trotskiçi əlaqədə olmuşlar. Həsənbəyov müxtəlif məsələlər üzrə partiyanın yeritdiyi xəttə əksinqilabi trotskiçi böhtanlar atmışdır.

Tixomirov göstərmişdir ki, 1936-cı ildə Həsənbəyov marksizm-leninizm institutunun işçilərinin və tələbələrinin partiya iclasında əksinqilabi trotskiçi kimi çıxış etmişdir.



*Həsənbəyov Balabəy Cabbar oğlu*

Həmçinin aydın olmuşdur ki, Həsənbəyov universitetdə millətçi əhval-ruhiyyəli şəxslərdən – Ağamir Məmmədov, Heydər Verdiyev, Abdullayev və başqalarından ibarət bir dəstə yaratmışdır.

Göstərilənlərə əsasən B.C.Həsənbəyov həbs edilməli və Azərbaycan SSR CM-nin 72-73-cü maddələri üzrə cinayət məsuliyyətinə cəlb olunmalıdır».

Elə həmin gün B.C.Həsənbəyov həbs edilmişdir (aşağıdakı səbəblərə görə onun dustaqda saxlanma müddəti iki dəfə uzadılmışdır: «B.C.Həsənbəyov əksinqilabi trotskiçi təşkilatın üzvü olub ÜİK(b)P-yə və Sovet hökumətinə qarşı mübarizə vasitəsi kimi hökumət əleyhinə silahlı üsyan hazırlanmasında iştirak etmiş, mədəni cəbhədə ziyankarlıq işi aparmış, terrorun tərəfində durmuşdur»).

1937-ci il aprelin 16-da Azərbaycan K(b)P Voroşilov Rayon Komitəsinin bürosu B.C.Həsənbəyovu «XDİK orqanları tərəfindən tutulmuş partiya düşməni və əksinqilabi trotskiçi» kimi partiya sıralarından çıxarmışdır.

1937-ci il yanvarın 29-da birinci istintaqda Həsənbəyova «ənənəvi» sual verilmişdi: «İstintaqa aydın olmuşdur ki, siz əksinqilabi millətçi təşkilatın üzvüsünüz. Bunu etiraf edirsinizmi?». *Cavab*: «Mən heç vaxt heç bir əksinqilabi millətçi təşkilatın üzvü olmamışam. Həmişə əksinqilabi millətçiliyə qarşı mübarizə aparmışam». Müstəntiq: «Əksinqilabçı trotskiçilərdən kimləri tanıyırsınız?». *Cavab*: «Rəsmi mənbələrdən mənə aşağıdakı əksinqilabçı trotskiçilər məlumdur: professor Sofronoviç – 1936-cı ildə həbs edilmişdir, professor Nikolayev – 1936-cı ildə həbs edilmişdir, professor Drabkin – Moskvaya getmişdir, professor Tixomirov və Çiçikalov. Professor Vasilyev və Qarber haqqında da məlumatım rəsmi mənbələrdəndir». Müstəntiq: «Əksinqilabçı millətçilərdən kimləri tanıyırsınız?». *Cavab*: «Rəsmi mənbələrdən mənə məlum idi ki, keçmişdə milli-təmayülçülüyə Xuluflu, Xanbudaqov, Cəbiyev, Qədirli, S.M.Əfəndiyev, Talıblı qoşulmuşdular. Mən isə heç bir qeyri-leqal əksinqilabi iş aparmamışam və bunu mənə on milyonlarla adamlar desələr də, inanın ki, yalandır».

10-11 fevral 1937-ci il, ikinci istintaq. *Müstəntiq*: «SSRİ-də elmi cəbhənin vəziyyətilə bağlı əksinqilabi trotskiçi görüşlər barədə sizə kim danışmışdır?». *Cavab*: «Xatırlamıram... Belə ki, bu cür görüşlər haqqında mənə heç kim bir söz deməyib». *Müstəntiq*: «Sizə Çiçikalovun 31.1-1.02.1937-ci ildə verdiyi ifadəsini təqdim edirik». *Cavab*: «Etiraf edirəm ki, SSRİ-də elm cəbhəsinin vəziyyəti haqqında Çiçikalovla söhbətlərim olub, hətta bu barədə digər elmi işçilərlə də danışıqlarım ola bilərdi». *Müstəntiq*: «İnadkarlıq etməyin! Sizə Tixomirovun 19.12.1936-cı ildə verdiyi ifadə təqdim olunmuşdur». *Cavab*: «Mən əksinqilabi trotskiçi baxımdan heç nə danışmamışam». *Müstəntiq*: «Siz, Qarberə əksinqilabi trotskiçi görüşləriniz barədə danışmısınız. Bunu da inkar edəcəksiniz?». *Cavab*: «Bəli, inkar edirəm!».

Üçüncü istintaq təxminən iki aydan sonra, 1937-ci il aprelin 5-də keçirilmişdir. *Müstəntiq*: «Axtarış zamanı sizdən əksinqilabçı Trotskinin əsərlərindən götürülmüş sitatlar tapılmışdır. Bunlar kim tərəfindən yazılmışdır?». *Cavab*: «Özüm yazmışam». *Müstəntiq*: «Nə üçün?». *Cavab*: «Bunlar mənə 1931-ci ildə yazdığım «Azərbaycanda işçi qüvvəsinin təkrar istehsalı problemi» adlı elmi işim üçün lazım olmuşdur». *Müstəntiq*: «Bəs bu sitatları sonra nə üçün saxlamışdınız?». *Cavab*: «Sadəcə olaraq onlara fikir verməmişdim». *Müstəntiq*: «Cavabınız bizi qane etmir. İstintaq sizin əksinqilabi sənədlər saxladığınızı müəyyən etmişdir. Bizə məlumdur

ki, siz 1936-cı ilin əvvəllərində marksizm-leninizm institutunda keçirilən partiya yığıncağında xalqımızın rəhbəri Leninə və Stalinə qarşı əksinqilabi çıxışlar etmişsiniz. Bunu boynunuza alırsınızmı?». *Cavab*: «Rədd edirəm». Müstəntiq: «Sizə müttəhim Tixomirovun ifadəsini oxuyuruq». *Cavab*: «Partiya iclasında mənə irad tutdular ki, mühazirələrimdə Lenin və Stalinin əsərlərindən az sitatlar gətirirəm. Mən isə onlara cavabımda dedim ki, məsələ sitatlarda deyil, onun mahiyyətindədir, əsaslandırılmasındadır. Axı hamı çalınan bir havanın altında oynaya bilməz. Bu cavabımla mən xalqımızın rəhbəri Lenin və Stalinə qarşı heç bir əksinqilabı mövqedə olduğumu etiraf edə bilmərəm».

28 may 1937-ci il, dördüncü istintaq: (Bu istintaq təxminən iki aydan sonra olmuşdur). *Müstəntiq*: «Ağamir Məmmədovu tanıyırsınızmı? Onun əksinqilabi millətçi mövqelərindən sizə nə məlumdur?». *Cavab*: «Ağamir Məmmədovun əksinqilabi millətçi mövqeyi haqqında mən heç nə bilmirəm». *Müstəntiq*: «Çiçikalov isə ifadəsində demişdir ki, Həsənbəyov əksinqilabi millətçi Ağamir Məmmədovla müntəzəm əlaqə saxlayır, onun əksinqilabi millətçi görüşlərini siyasi cəhətdən tamamilə düzgün hesab edir. Bu ifadə ilə siz düz danışmamaqda ifşa olunursunuz». *Cavab*: «Yalandır!».

Oxucu görür ki, iqtisadi siyasət sahəsində ilk azərbaycanlı professor, hələ 1931-ci ildə ciddi monoqrafiyaların (indi onlar haradadır? – Z.B.) müəllifi olan Həsənbəyova müstəntiq bata bilmir və elə bu vaxtdan istintaq 3 nömrəli metodun tətbiqinə, yəni işgəncələrə keçir.

Beşinci istintaq iki aydan sonra, 1937-ci il avqustun 4-də oldu. *Müstəntiq*: «Altı aydan çoxdur ki, siz istintaqa müqavimət göstərir və düzgün ifadələr vermirsiniz. İstintaq qəti cavab gözləyir. Siz ÜİK(b)P, Sovet dövləti və bütün xalq qarşısında hər şeyi açıb söyləmək fikrindəsiniz, yaxud sizi gərək digər müttəhimlərin ifadələri, üzləşmələr vasitəsilə ifşa edək?». *Cavab*: «6 aydan çoxdur ki, özümün əksinqilabi trotskiçi və əksinqilabi millətçi təşkilatlarda iştirakımı boynuma almayaraq istintaqa qəti müqavimət göstərdiyimi etiraf edirəm. Lakin indi ÜİK(b)P, Sovet hökuməti və sovet xalqı qarşısında əksinqilabi mübarizədən əl çəkərək hər şeyi açıb söyləməyi qərara aldım və istintaqa əksinqilabi trotskiçi və əksinqilabi millətçi təşkilatlarda özümün və onların digər üzvlərinin fəaliyyəti haqqında ətraflı, dəqiq ifadələr vermək fikrindəyəm. Boynuma alıram ki, mən əksinqilabi trotskiçi və əksinqilabi millətçi təşkilatların üzvü olmuşam». *Müstəntiq*: «Baxaq görək, siz nə qədər səmimisiniz! Əksinqilabi trotskiçi və əksinqi-

labi millətçi təşkilatlara nə vaxt və kim tərəfindən cəlb edilmisiniz?». *Cavab*: «Əksinqilabi trotskiçi təşkilata mən 1936-cı ilin əvvəllərində trotskiçi Çiçikalov tərəfindən cəlb olunmuşam». *Müstəntiq*: «Əksinqilabi trotskiçi təşkilat Bakıda kimə qarşı və necə terrorçu aktlar hazırlayırdı?». *Cavab*: «1936-cı ilin baharında Çiçikalov mənə dedi ki, əksinqilabi trotskiçi təşkilat Kalininə, Voroşilova və Bağırova qarşı terror hazırlayır. Etiraf edirəm ki, mən Çiçikalovun terrorist görüşlərilə şərik idim və terroru ÜİK(b)P və Sovet hökumətinə qarşı mübarizə vasitələrindən biri hesab edirdim».

Altıncı istintaq 1937-ci il avqustun 26-da olmuşdur. *Müstəntiq*: «Əksinqilabi millətçi təşkilata nə vaxt və kim tərəfindən cəlb edilmisiniz?». *Cavab*: «1936-cı ilin baharında Mirzə Məmmədov tərəfindən». *Müstəntiq* «İstintaq müəyyən etmişdir ki, üzvü olduğunuz əksinqilabi millətçi təşkilat öz qarşısına Azərbaycanın SSRİ-dən ayrılması vəzifəsini qoymuşdur. Bu barədə niyə susursunuz?». *Cavab*: «Mənə bu barədə Mirzə Məmmədov danışmışdır». *Müstəntiq*: «Əksinqilabi millətçi təşkilata siz kimləri cəlb etmisiniz?». *Cavab*: «Mən heç kəsi cəlb etməyə macal tapmamışdım. Lakin ADU-nun hazırlıq şöbəsinin müdiri Baba Babayevi, müəllimləri İsrafil Axundovu, Abbas Nəbiyevi və kitabxana müdiri Ağamir Məmmədovu hazırlamaq istəyirdim. 1936-cı ilin baharından mən onlarla müntəzəm olaraq aşağıdakı mövzularda əksinqilabi millətçi söhbətlər aparmağa başlamışdım:

a) Azərbaycanın milli kadrları irəli çəkilmir, aradan götürülür. Bu işdə mən və həmin şəxslər ÜİK(b)P-yə böhtan ataraq onu təqsirləndirirdik.

b) Azərbaycan mədəniyyəti, dil və ədəbiyyatı inkişaf etmir. Həmin şəxslər mənim bu sahədəki əksinqilabi millətçi görüşlərimlə şərik idilər. Lakin sonradan mən bu işin dalınca getmədim və əksinqilabi millətçi təşkilatın olduğu haqqında bu şəxslərə heç bir məlumat vermədim». *Müstəntiq*: «Nə üçün?» *Cavab*: «1936-cı ilin payızında əksinqilabi təşkilatdan uzaqlaşmağa başladım; nə isə məndə şübhə oyanmışdı, sonra isə birdən-birə həbs olundum».

1937-ci il sentyabrın 2-də yeddinci istintaqda müttəhimdən soruşurlar: «İstintaq müəyyən etmişdir ki, siz Kirovabad rayonunda Sovet hökumətinə qarşı silahlı üsyan hazırlamaq məqsədi ilə əksinqilabi üsyançı fəaliyyət göstərmisiniz. Etiraf edirsinizmi?». *Cavab*: «Bunu mən qəti rədd edirəm!». Müstəntiq: «Sizə Həsən Səfərovun 07.07.1937-ci il tarixdə verdiyi ifadəni oxuyuruq». *Cavab*: «Səfərovun da ifadəsini qəti rədd edirəm!».

1937-ci il sentyabrın 3-də Balabəy Həsənbəyov özünün günahkar olduğunu «etiraf etmişdir», ondan ötrü ki:

a) 1932-ci ildə fəal əksinqilabçı trotskiçi Çiçikalovla əlaqə saxlamış, 1936-cı ilin əvvəllərində Bakı əksinqilabi trotskiçi təşkilatın tərkibinə cəlb edilmişdir;

b) 1936-cı ildə Mirzə Məmmədov tərəfindən gizli əksinqilabi millətçi təşkilata cəlb olunmuş və onun işində iştirak etmişdir;

c) Məmmədovun tapşırığı ilə Ağamir Məmmədovla, Abbas Nəbiyevlə, Baba Babayevlə, İsrafil Axundovla əksinqilabi əlaqə yaratmış və onları hazırlayıb əksinqilabi millətçi təşkilata cəlb etməyə cəhd göstərmişdir;

ç) Əksinqilabi trotskiçi terrorist Çiçikalovun təsiri altında ÜİK(b)P və Sovet dövlətinə qarşı olan mübarizə vasitəsi kimi terrorun tərəfində durmuşdur;

d) Çiçikalovdan öyrənmişdi ki, əksinqilabi trotskiçi təşkilat Kalininə, Boroşilova və Bağırova qarşı terror aktları hazırlamışdır, lakin onları həyata keçirə bilməmişdir.

Yəni B.C.Həsənbəyov Azərbaycan SSR CM-nin 64, 69, 70 və 73-cü maddələrində nəzərdə tutulan cinayətlər üzrə günahlandırılmışdır.

1937-ci il oktyabrın 10-da SSRİ Ali Soveti hərbi Kollegiyası Səyyar sessiyasının (Matuleviç, Zaryanov, Jiqur) hazırlıq iclası oldu: «B.C.Həsənbəyovun işinə bağlı məhkəmə iclasında, müdafiəçisiz, ittihamçısız və şahidlərsiz baxılsın».

1937-ci il oktyabrın 11-də, saat 17:45 dəqiqədə SSRİ Ali Məhkəməsi hərbi Kollegiyasının bağlı məhkəmə iclası keçirildi. B.C.Həsənbəyov özünü günahkar bildi. Son sözdə müttəhim günahının yüngülləşdirilməsini xahiş etdi. Məhkəmənin iclası saat 18-də sona yetdi.

Həmin gün universitetin rektoru, professor Balabəy Cabbar oğlu Həsənbəyov ən ağır cəzaya – güllələnməyə məhkum edildi. İstintaqın işində B.C.Həsənbəyovun ölüm hökmünün 1937-ci il sentyabrın 12-də Bakı şəhərində yerinə yetirildiyi haqqında arayış var.

1956-cı il aprelin 7-də B.C.Həsənbəyovun işi ilə əlaqədar çıxarılan hökmün ləğv edilməsi haqqında qərar SSRİ Ali Məhkəməsi hərbi Kollegiyasına təqdim edilir.

B.C.Həsənbəyovun işinə yenidən baxılmış, SSRİ Ali Məhkəməsi hərbi Kollegiyasının 1937-ci il oktyabrın 11-də çıxardığı hökm 1956-cı il sentyabrın 15-də SSRİ Ali Məhkəməsinin hərbi Kollegiyasının qərarına görə ləğv edilmiş və cinayət tərkibi olmadığına görə iş xətm olunmuşdur.

## BÖYÜKAĞA MİRQASIM OĞLU TALIBLI

*İstintaq işi № 12493-78*

1936-cı il dekabrın 25-də Azərbaycan K(b)P Voroşilov Rayon Komitəsi imzasız məktub əsasında 1918-ci ildən partiyanın üzvü olan Böyükağa Mirqasım oğlu Talıblını «aşkar edilməmiş milli-təmayülçü kimi» partiya sıralarından çıxarmışdır.

1937-ci il yanvarın 8-də baş leytenant Atakişiyev (gələcək xalq komissarı) Azərbaycan XDİK DTİ-nin rəisi Gerasimova aşağıdakı məzmunda arayış təqdim etmişdir: «1897-ci ildə Salyanda anadan olmuş, Azərbaycan SSR Xalq Torpaq Komissarlığının keçmiş əməkdaşı, Yazıçılar İttifaqının, Azərbaycan MİK-in, Bakı Sovetinin üzvü Böyükağa Talıblı əksinqilabi millətçi meyllərinə görə partiya sıralarından xaric edilmişdir. DTİ-dəki materiallardan görünür ki, Böyükağa Talıblı partiya sıralarında ikən ikiüzlü rol oynamış, partiya və Sovet hökumətinin ünvanına, onun yeritdiyi milli siyasətə qarşı əksinqilabi millətçi əhval-ruhiyyəli çıxışlar etmişdir.



*Talıblı Böyükağa Mirqasım oğlu*

Göstərilənlərə əsasən Böyükağa Talıblının həbs olunub Azərbaycan SSR CM-nin 72-ci maddəsi üzrə məsuliyyətə cəlb edilməsini zəruri sayıram».

Elə həmin gün Azərbaycan SSR XDİK İdarəsi rəisi Sumbatov Talıblının həbsi haqqında çıxarılan qərarı təsdiq etdi. 1937-ci il yanvarın 9-da onun həbs edilməsi üçün order verildi.

10 yanvar 1937-ci il, birinci istintaq: «İstintaqa məlumdur ki, siz gizli müsavatçı təşkilatın üzvüsünüz. Bunu boynunuza alırsınızmı?». *Cavab*: «Qəti rədd edirəm. Mən həmişə müsavatçılara qarşı mübarizə aparmışam və aparıram». *Müstəntiq*: «Müsavatçılardan şəxsən kimləri tanıyırsınız?». *Cavab*: «Dramaturq Cəfər Cabbarlını, Qlavlitin rəisi İbrahim Eminbəylini, BXMŞ müdiri Hüseynovu, şair Mikayıl Müşfiqi, kürəkənim Əbüsalam Səmədovu və Rəhim Vəkilovu. Onlar həmişə deyirdilər ki, Azərbaycan çar dövründə olduğu kimi, 1920-ci ildən sonra da asılı müstəmləkə vəziyyətində qalmışdır».

23 yanvar 1937-ci il, ikinci istintaq. *Müstəntiq*: "İstintaq sizdən tələb edir ki, tanıdığınız bütün müsavatçıların adlarını söyləyəsiniz!». *Cavab*: «Adlarını çəkdiklərimdən başqa daha heç kəsi tanımıram». *Müstəntiq*: «Düz danışmırsınız. Məmməd Həsən Baharlını tanıyırsınızmı?». *Cavab*: «Bəli, onunla 1925-1926-cı illərdən tanışam. Lakin müsavatçı olduğunu bilmirəm». *Sual*: «Müsavatçılardan daha kimləri tanıyırsınız?». *Cavab*: «Heç kimi tanımıram». *Sual*: «İstintaq sizə inanmır və tanıdığınız bütün müsavatçıların adlarını söyləməyi tələb edir». *Cavab*: «Yenə də bildirirəm ki, şəxsən müsavatçılardan daha heç kəsi tanımıram və heç kəsin də adını çəkə bilmərəm». *Müstəntiq*: «İstintaq bir daha əmin olur ki, siz səmimi deyilsiniz və tanıdığınız müsavatçıların adlarını söyləmək istəmirsiniz. Sizə təklif edirik ki, bilə-bilə yalan ifadələr verməkdən qaçın və ancaq düz danışın!». *Cavab*: «Mən əvvəl verdiyim cavabların üstündə dururam. Müsavatçılardan daha heç kəs mənə məlum deyil». *Müstəntiq*: «Bir halda ki, siz inad edirsiniz və düz danışmaq istəmirsiniz, istintaq sizi ifşa etməyi qərara alır! Seyid Hüseyn Sadıxovu tanıyırsınızmı?». *Cavab*: «Sadıxov Yazıçılar İttifaqının üzvüdür. Onu 1936-cı ildən tanıyıram. Lakin onun müsavatçı olduğu mənə məlum deyil». *Müstəntiq*: «Məmmədəmin Rəsulzadənin kürəkəni kimi də tanımırdınız?». *Cavab*: «Tanımırdım. Bu barədə ancaq Süleyman Rüstəmdən eşitmişdim». *Müstəntiq*: «Müsavatçı Musaxanlı ilə tanışsınızmı?». *Cavab*: «Xeyr». *Müstəntiq*: «Əhməd Cavadı müsavatçı kimi tanıyırdınızmı?». *Cavab*: «Əksinqilabi müsavatçı ideologiyanın tərəfdarı olan şair kimi ayrı-ayrı əsərlərindən mənə məlum idi». *Müstəntiq*: «Əksinqilabi əhval-ruhiyyəli elementlərdən kimləri tanıyırsınız?». *Cavab*: «Hüseyn Cavidi. Başqalarını tanımıram». *Müstəntiq*: «Düz danışmırsınız! Pepinov sizə tanışdırmı?». *Cavab*: «Onun haqqında heç nə bilmirəm!». *Müstəntiq*: «Soltan Məcid Qənizadəni tanıyırsınızmı?». *Cavab*: «Bu familiyanı birinci dəfə eşidirəm!». *Müstəntiq*: «Əksinqilabi əhval-ruhiyyəli şəxslərdən sizə daha kimlər məlumdur?». *Cavab*: «Daha heç kəsi tanımıram». *Müstəntiq*: «İstintaq müddətində müntəzəm olaraq siz tanıdığınız əksinqilabi elementlərin adlarını söyləməkdən çəkinirsiniz. Mübarizəni dayandırmağı və doğru-düzgün ifadələr verməyi təklif edirik. İstintaqa məlumdur ki, siz digər şəxsləri də tanıyırsınız. Onlar haqqında istintaqa ifadə verməyinizi tələb edirik!». *Cavab*: «Əksinqilabi əhval-ruhiyyəli şəxslərdən daha heç kəsi tanımıram». *Müstəntiq*: «Makinskilərdən kimləri tanıyırsınız?». *Cavab*: «Ancaq bir nəfəri – Əlibəyi». *Müstəntiq*:

«O, sizə əksinqilabi əhval-ruhiyyəli şəxs kimi tanışdırını?». *Cavab*: «Xeyr, bu barədə mənə heç nə məlum deyildi». *Müstəntiq*: «Müsavatçılardan daha kimləri tanıyırsınız?». *Cavab*: «Daha heç kəsi». *Müstəntiq*: «Siz milli təmayülçüsünüz. Bunu etiraf edirsinizmi?». *Cavab*: «Mən heç vaxt milli təmayülçü olmamışam».

1937-ci il fevralın 23-də, üçüncü istintaqda Talıblı müstəntiqin ona atdığı bütün iftiraları yenə rədd edir.

28 fevral 1937-ci il, dördüncü istintaq. *Müstəntiq*: «Axtarış zamanı sizin evinizdən qadağan olunmuş «Təsnif: Mən türkəm» qrammofon valı və ÜİK(b)P və Sovet hökumətinə böhtan məzmunlu «Qırmızı terror» əksinqilabi kitab tapılmışdır». *Cavab*: «Qrammofon valı haradasa evdə idi, lakin kitabın isə evdə saxlanmasını mən qəbahət hesab etmirdim». *Müstəntiq*: «Siz əvvəllər Ədliyyə Komissarı və Azərbaycan SSR prokuroru işləmisiniz?». *Cavab*: «Bəli, 1925-26-cı illərdə bu vəzifələrdə olmuşam». *Müstəntiq*; «Yəqin ki, cinayət məcəlləsini bilirdiniz?». *Cavab*: «Bəli». Müstəntiq: «Onda necə deyə bilərsiniz ki, bu kitabın evdə saxlanması qəbahət deyil». *Cavab*: «Kitabı mənə MK-nın katibi vermişdi və ona görə də belə hesab etdim ki, onu evdə saxlaya bilərəm». *Müstəntiq*: «İstintaq əmin olur ki, siz kitabı evdə saxlamaqla əksinqilabi cinayət törətdiyinizi boynunuza almaq istəmirsiniz».

Oxucu görür ki, istintaq müttəhim Talıblının qarşısında nə qədər gücsüzdür. Bu o dövrün mətbuat orqanlarının yazdıqları materiallardan da məlum idi. Onlar Talıblıdan yeni bir fakt ala bilməmişdilər. Onun ayrı-ayrı sözlərini əsas tutaraq müstəntiq Xoren Qriqoryan elə həmin gün – fevralın 28-də müttəhimin işi ilə əlaqədar iki akt tərtib etmişdir. Birinci – «Talıblı AzK(b)P və Azərbaycan SSR hökumət rəhbərlərinə böhtan ataraq deyir ki, guya rəhbərlik müsavatçıları ifşa etdiyinə görə onu gözümçıxdıya salıb. Bundan sonra Talıblı bildirmişdir ki, onun işi üzrə istintaq Moskvada aparılsın. Belə ki, buradakı müstəntiqlər müttəhimi Azərbaycanın partiya təşkilatına böhtançılıqda ittiham edirlər. Talıblı aktı imzalamaqdan imtina etmişdir». İkinci – 28.02.1937-ci ildə aparılan istintaq zamanı Talıblıya digər müttəhimlərin ifadələri təqdim olunduqdan sonra bildirilmişdir ki, ümumiyyətlə Azərbaycanda onu millətçi kimi hazırlayandan sonra bir kəs belə deyə bilməz ki, Talıblı millətçi deyil. Çünki hamı başqa cür söyləməkdən qorxurdu».

Bununla da günlərlə, saatlarla davam edən işgəncələr başlandı. Onu amansızcasına, əlləri, ayaqları ilə və rezin şlanqlarla döyməyə başladılar... Nəhayət, Talıblı sındı. (Buna kim dözərdi? – Z.B.).

1937-ci il iyulun 13-də istintaqın müddəti iki dəfə uzadıldıqdan sonra Talıblı müstəntiqlərin diktəsi ilə Sumbatova aşağıdakı məzmunda ərizə yazmışdı: «6 ay ərzində mən istintaqa səmimi ifadələr verməmişəm. İndi isə partiya və Sovet hökuməti qarşısında tamamilə təslim olub müqavimətı dayandırıram. Mən əksinqilabi millətçi təşkilatın üzvüyəm və bu məsələ ilə əlaqədar ətraflı ifadələr vermək istəyirəm. Mənim işim üzrə istintaqın sürətini artırmaq üçün sizin əmrinizi gözləyirəm».

Beləliklə də Qriqoryan, Markaryan, Avetisyan, Qalstyan və bu tipli digər müstəntiqlərin uydurduqları dünyanın min bir mənasız günahlarında Talıblı özünün təqsirkar olduğunu etiraf etməli idi. 1937-ci il iyulun 13-də, beşinci istintaqda Talıblı boynuna almışdır ki, (başqaları kimi – Z.B.) o, 1934-cü ildə Rəhim Hüseynov və Əsgər Fərəczadənin vasitəsilə, Ruhulla Axundov tərəfindən əksinqilabi təşkilata cəlb edilmişdir. Onun qarşısına aşağıdakı vəzifələr qoyulmuşdur:

1. Rəhbərlik etdiyi aparatın yüz faiz türkləşdirilməsi;
2. Yeni üzvlər cəlb etmək üçün təşkilatlara kadrların toplanması;
3. Planlaşdırmada əksinqilabi millətçi göstərişlərin yayılması; daha doğrusu, planlaşdırma işinə zərər vurulması.

1937-ci il iyulun 14-də – altıncı istintaqda Talıblı etiraf etmişdir ki, onun daxil olduğu təşkilatın əsas vəzifəsi Azərbaycanda Sovet hakimiyyətini devirmək və müstəqil Azərbaycan dövləti yaratmaq, İran Azərbaycanı, Dağıstan və Gürcüstanın bəzi hissələri ilə birləşərək xarici müdaxilə zamanı silahlı üsyan yolu ilə Sovet hökumətini yıxmaq idi.

1937-ci il iyulun 15-də yeddinci istintaqda Talıblının Bakı Plan Komitəsində və Dövlət Plan Komitəsində işlədiyi vaxtlarda apardığı ziyankarlıq işləri ilə əlaqədar sorğu-sual başlanmışdır.

1937-ci il iyulun 16-da səkkizinci istintaqda Talıblı əksinqilabi millətçi təşkilatın üzvləri – Yerli sənaye komissarı Hüseynbala Ağaverdiyev, xalq kommunal təsərrüfatı komissarı Həmid Sultanov, xalq maliyyə komissarı Nadir İbrahimov, respublika dövlət plan komitəsinin sədri Əsgər Eyvazov, Azərbaycan K(b)P MK-nın məktəblər şöbəsinin müdiri İzmail İzmailov, respublika prokuroru Bahadur Vəlibəyov və Maştağa Rayon Partiya Komitəsinin katibi Əhməd Əhmədov haqqında ifadələr vermişdir.

1937-ci il iyulun 20-də, doqquzuncu istintaqda Talıblı əksinqilabi təşkilatın üzvlərinin dövlət vəsaitini mənimsədikləri və bu vəsaiti əksinqilabi təşkilatın ehtiyaclarına sərf etdikləri barədə danışır, Azərbaycanın rayonlarında əksinqilabi təşkilatın fəaliyyəti haqqında ifadə verir, habelə yazıçılardan Hacı Nəzərlinin, Səməd Vurğunun və Ələkbərlinin, AHİŞ-in keçmiş sədri İsrafil Rəhimovun, Az.DSİ-nin keçmiş rəisi Novruz Rzayevin və Xarici Ticarət Komissarlığının keçmiş müvəkkili İbad Əliyevin adlarını çəkir.

1937-ci il iyulun 21-də, onuncu istintaqda Talıblı SSRİ-nin digər şəhərlərində işləyən əksinqilabi təşkilatın üzvləri – azərbaycanlılar, habelə Azərnəşrin direktoru Əsəd Axundov və MK yanında kənd təsərrüfatı məktəbinin rektoru Güllücanski haqqında ifadələr verir.

1937-ci il avqustun 11-də, on birinci istintaqda Talıblı Salyan rayonunda aparılan «əksinqilabi millətçi iş» haqqında ifadələr verir.

17 avqust 1937-ci il, on ikinci istintaq. Müstəntiq: «İstintaqın ədəbiyyat cəbhəsində aparılan əksinqilabi millətçi iş haqqında bəzi məlumatlar var və sizdən tələb olunur ki, bu məsələ ilə bağlı ifadələr verəsiniz». Talıblı: «1925-ci ildə mənim təşəbbüsümlə Azərbaycan Yazıçılar Cəmiyyətinin təşkil olunması məsələsi qaldırılmışdır. Elə ilk günlərdən bura millətçi, antisovet və digər əksinqilabi əhval-ruhiyyəli şəxslərin, bir növ Salman Mümtaz, müsavatçılardan Hüseyn Cavid, Əhməd Cavad, Səməd Mənsur, Yusif Vəzirov, ittihadçılardan S.M.Qənizadə, pantürkist Çobanzadə, türk professorlarından Hikmət və Fikrət, qatı millətçilərdən Səməd Vurğun və Mikayıl Müşfiq kimi şəxslərin yuvasına çevrilmişdir. 1927-ci ildə Yazıçılar cəmiyyəti «Qızıl qələm»lə birləşdi və Azərbaycan Proletar Yazıçıları Cəmiyyəti yaradıldı. Burada qatı millətçilərdən Mustafa Quliyev və Hacı Nəzərli öz mövqelərini möhkəmləndirdilər».

Müstəntiq: «Yazıçılar İttifaqının ayrı-ayrı üzvlərinin əksinqilabi fəaliyyətləri haqqında sizə nə məlumdur?». Talıblı: «Mənə Azərbaycan Yazıçılar İttifaqının əksinqilabi əhval-ruhiyyədə olan üzvlərinin apardıqları əksinqilabi işlər məlum idi:

1. Səməd Vurğun – əqidəli əksinqilabı millətçi. Abdulla Şaiqlə bacanaq idi, onun millətçi mövqeyini açıqcasına müdafiə edirdi.

2. Kazım Ələkbərli – Yİ-də özünün millətci xəttini yeridir, Sabirin yubileyini millətçi ruhda aparmış, H.Cavidin, Ə.Cavadın, A.Şaiqin, M.Müşfiqin və başqalarının əksinqilabi millətçi çıxışlarını müdafiə edir.

3. Tağı Şahbazı – köhnə milli-təmayülçüdür. Nəriman Nərimanovla sıx əlaqə saxlayırdı.

4. Hacı Nəzərli – Yİ-nin daxilində S.Vurğundan, M.Hüseyndən, R.Rzadan və İ.Hafizdən ibarət möhkəm əksinqilabi millətçi qrup yaratmışdı.

5. Mikayıl Müşfiq – qatı millətçi, Ə.Cavadın şagirdi idi.

6. Mehdi Hüseyn – H.Nəzərlinin əksinqilabi qrupunun üzvüdür və Azərbaycanda averbaxçılıq işinin aparılmasında onun sədaqətli köməkçisi idi.

7. Əli Nazim – əksinqilabi müsavatçı;

8. Yusif Vəzirov – məşhur müsavatçı;

9. Hüseyn Cavid – irticaçı və millətçi. Onun bütün əsərləri mürtəce və millətçi baxımdan yazılmış, bədii cəhətdən aşağı səviyyədədir;

10. Əhməd Cavad – müsavatçı;

11. Süleyman Rüstəm – millətçi, Averbaxla şəxsən əlaqəsi var idi.

12. Abdulla Şaiq – millətçi və pantürkist idi.

1937-ci il avqustun 20-də, on üçüncü istintaqda Talıblı məxsusi olaraq «1926-cı ildən Bakıda fəaliyyət göstərən əksinqilabi koalisiya bloku; Dadaş Bünyadzadənin rəhbərlik etdiyi qrupun əksinqilabi millətçi fəaliyyəti; Heydər Vəzirovun başçılıq etdiyi əksinqilabi millətçi təşkilatın hərbi mərkəzi; «sağların əksinqilabi təşkilatı» barəsində danışdı.

1937-ci il avqustun 22-də, on dördüncü istintaqda Talıblı «əksinqilabi millətçi təşkilat tərəfindən Azərbaycan SSR-in xalq təsərrüfatının planlaşdırılmasına vurulan ziyankarlıq metodları» haqqında ifadələr verir.

1937-ci il avqustun 29-da, on beşinci istintaqda Talıblı Nadir İbrahimovun əksinqilabi millətçi fəaliyyəti haqqında ifadələr verir.

1937-ci il sentyabrın 7-də, on altıncı istintaqda Talıblı özünü əlavə olaraq Azərbaycan SSR CM-nin 64, 69 və 73-cü maddələri üzrə günahkar bilmişdir.

1937-ci il sentyabrın 14-də, on yeddinci, axırıncı istintaqda Talıblını «terrorist fəaliyyətilə» əlaqədar sorğu-sual etmişlər. O bildirmişdir: «Əksinqilabi mərkəz və Ruhulla Axundov M.C.Bağırovu 1935-ci ilin yayında öldürmək barədə mənə tapşırıq vermişdi. Onu Zuğulbaya gedən yolda öldürməliydim. Bu işdə mənə Maştağa Rayon Partiya Komitəsinin katibi Əhməd Əkmədov kömək edirdi.

1937-ci il sentyabrın 14-də Böyükağa Talıblının işi üzrə istintaqın başa çatması haqqında protokol tərtib edilmişdi. 1937-ci il sentyabrın 20-də isə

ittiham qərarı yazıldı. Qərarda deyilirdi: «1936-cı ilin axırlarında silahlı üsyan yolu ilə Azərbaycanın SSRİ-dən ayrılması məqsədini qarşısına qoyan, partiya və hökumət rəhbərlərinə qarşı terror tətbiq edən, ziyankarlıq və casusluq işi aparan əksinqilabi trotskiçi millətçi təşkilat aşkar edilmiş və dağıdılmışdır.

Azərbaycan əksinqilabi trotskiçi millətçi təşkilat özünün əksinqilabi fəaliyyətində trotskiçi-zinovyevçi terrorist mərkəz və sağların əksinqilabı mərkəzi ilə əlaqədə olmuşdur.

İstintaq tərəfindən müəyyən edilmişdir ki, 1918-ci ildən partiyanın üzvü olan müttəhim Böyükağa Talıblı neçə illər ərzində mədəniyyət cəbhəsində əksinqilabi millətçi ideyaların təbliğatçısı olmuş, öz fəaliyyəti ilə Sovet hökumətinin bu sahədəki tədbirlərini pozmuşdur.

Böyükağa Talıblı ittiham edilir ondan ötrü ki:

1) Silahlı üsyan yolu ilə Azərbaycanın SSRİ-dən ayrılmasını qarşısına məqsəd qoyan, ÜİK(b)P və Sovet hökuməti rəhbərlərinə qarşı terror aktları tətbiq edən, ziyankarlıq, kapitalist ölkələrinin xeyrinə casusluq işi aparan, trotskiçi təşkilatla ittifaqda fəaliyyət göstərən Azərbaycan əksinqılabi millətçi təşkilatın MK-sının üzvü idi;

2) Millətçi təşkilatın ziyankarlıq üzrə, əksinqilabi üsyançı qrupların yaranması, partiya və hökumət rəhbərlərinə qarşı terror aktlarının hazırlanması üzrə apardığı əksinqilabi işlərdən xəbərdar olmuş və ən nəhayət özü praktik olaraq əksinqilabi işlərin həyata keçirilməsində iştirak etmişdir:

a) əksinqilabi təşkilata üzvlər cəlb edilməsində;

b) Azərbaycan SSR-in rayonlarında üsyançı qruplar təşkil edilməsində;

c) Azərbaycan SSR xalq təsərrüfatının planlaşdırılmasına ziyankarlıq işində;

ç) neft sənayesində təxribatçılıq aktlarının hazırlanmasında;

d) partiya və hökumət rəhbərlərinə qarşı terror aktlarının hazırlanmasında.

Yəni Azərbaycan SSR CM-nin 64, 69, 70 və 73-cü maddələrində nəzərdə tutulan cinayətlərdə təqsirləndirilmişdir. Talıblı günahkar olduğunu etiraf etmişdir».

1937-ci il oktyabrın 11-də SSRİ Alı Soveti hərbi Kollegiyası səyyar sessiyasının (Matuleviç, Zaryanov, Jiqur) hazırlıq iclasının protokolu tərtib edildi: Talıblının işi Azərbaycan SSR CM-nin 64, 69, 70 və 73-cu maddələri üzrə məhkəməyə verilməli. İşə bağlı məhkəmə iclasında müdafiəçisiz, ittihamçısız və şahidlərsiz baxılmalı.

1937-ci il oktyabrın 12-də SSRİ Ali Məhkəməsi hərbi Kollegiyasının bağlı məhkəmə iclası oldu. İclas saat 15:05 dəqiqədə başlandı. Müttəhim Talıblı özünün günahkar olduğunu etiraf etdi. İclas saat 15:25 dəqiqədə bağlandı.

1937-ci il oktyabrın 12-də hərbi Kollegiya Böyükağa Talıblını ən ağır cəzaya – güllələnməyə məhkum etdi.

1937-ci il oktyabrın 13-də B.M.Talıblı Bakı şəhərində güllələndi.

1956-cı il mayın 29-da Talıblının qızı Sona xanım hərbi prokurora atasının işinə yenidən baxılması və bəraət alması xahişi ilə müraciət edir.

1957-ci il iyunun 25-də SSRİ Ali Məhkəməsi hərbi Kollegiyasının qərarına görə Talıblının işi ilə əlaqədar 1937-ci il oktyabrın 12-də SSRİ Ali Məhkəməsi HK-nın çıxardığı hökm ləğv edilmiş və cinayət tərkibi olmadığına görə iş xətm olunmuşdur.

## İBRAHİM ABDULLA OĞLU EMİNBƏYLİ

İstintaq işi № 12493-83

12493 nömrəli istintaq işi üzrə ittiham olunan müttəhim A.X.Çiçikalov 1937-ci il yanvarın 23-26-sı arasında verdiyi ifadələrdə belə bir cümlə işlətmişdi: «Eminbəyli əksinqilabi millətçi təşkilata daxil idi. Mən onunla 1934-cü ilin sonlarından əksinqilabi əlaqədə olmuşam». Bu cümlə əsasında 1937-ci il yanvarın 28-də Xalq Daxili İşlər komissarının müavini Gerasimovun adına aşağıdakı məzmunda arayış daxil olmuşdur: «12493 nömrəli istintaq işinin materiallarından görünür ki, Azərbaycan K(b)P-nin üzvü, mətbuatda dövlət sirlərini mühafizə edən baş idarənin rəisi İbrahim Eminbəyli əksinqilabi millətçi təşkilatın üzvüdür və gizli müsavatçıdır». Fikrin bu şəkildə ifadəsi Eminbəylinin elə həmin keçə – 1937-ci il yanvarın 28-dəcə həbs olunması üçün əsas olmuşdur.

Həmin gün Azərbaycan K(b)P MK-nın bürosu Bağırovun imzası ilə Azərbaycan SSR Xalq Maarif Komissarlığının ilk partiya təşkilatının 1894-cü ildə anadan olmuş İbrahim Abdulla oğlu Eminbəylinin əksinqilabçı, trotskiçi və millətçi kimi partiya sıralarından çıxarılması haqqındakı qərarını təsdiq etmiş və o, Qlavlitin rəisi vəzifəsindən götürülmüşdür».

1937-ci il yanvarın 29-da birinci istintaqda Eminbəyliyə də standart sualla müraciət edilmişdir: «İstintaqa məlumdur ki, siz əksinqilabi millətçi təşkilatın üzvüsünüz. Bunu etiraf edirsinizmi?». Cavab: «Rədd edirəm».

2 fevral 1937-ci il. Müstəntiq. «Siz tanıdığınız və əlaqədə olduğunuz əksinqilabi trotskiçilərin hamısının adlarını çəkmədiniz. İstintaq sizdən düzgün ifadələr verməyi tələb edir». Cavab: «Mənə həbs edilmiş aşağıdakı əksinqilabçı trotskiçilər məlumdur: professorlardan Vasilyev, Çiçikalov Qarber, Nikolayev, Sofronoviç, Drabkina, Tixomirov, Kuzovenko, Miqavoryan, Raxmetov, dosent Manvelov». Mustəntiq: «İstintaqa məlumdur ki, siz əksinqilabi millətçi təşkilatın üzvüsünüz. Düzgün ifadələr verin!». Cavab: «Mən heç bir millətçi təşkilatın üzvü olmamışam və deyiləm».

1937-ci il fevralın 7-də üçüncü istintaqda Eminbəyli özünün «milli-təmayülçülü»yü ilə əlaqədar sorğu-sual edilmişdir. Bu məsələ 1937-ci il fevralın 9-da dördüncü istintaqda aydınlaşdırılmışdır.

1937-ci il fevralın 13-də İbrahim Eminbəyli M.C.Bağırova məktubla müraciət edir. Burada o, özünün əksinqilabi-millətçi təşkilata məxsusluğunu qəti rədd edirdi. «Bu məsələ ilə əlaqədar mənimlə neçə gün fasiləsiz 14-15 saat sorğu-sual aparmışlar. Mənə verilən ittihamları qəti rədd edirəm və kömək göstərməyinizi gözləyirəm». Müttəhim məktubuna cavab almamışdı.

1937-ci il fevralın 14-15-də beşinci istintaqda Eminbəyli yenidən özünün əksinqilabi millətçi təşkilata məxsusluğunu rədd etmişdir. Müstəntiq: «Qlavlitin rəisi kimi siz nə üçün özünüzdə istifadəsi qadağan edilmiş əksinqilabi kitablar saxlayırdınız: 1. «Zinovyevin «İnqilab ili» kitabına əlavə; 2. «Oktyabrın dərslərindən»; 3. «Lenin və Trotskinin köhnə «İskra»sı»; 4. M.Hüseynovun «Müsavat partiyası keçmişdə və hazırda»; 5. Ə.Qarayevin «Yaxın keçmişdən». Cavab: «Qlavlitin rəisi kimi mən belə kitabları saxlaya bilərdim».

Onuncu istintaq dindirməsinə qədər Eminbəyli hər hansı bir əksinqilabi iş apardığını inkar edir.

Bundan sonra müttəhimə istintaqın 3 nömrəli metodu tətbiq edildi və nəticədə İbrahim Eminbəylinin istintaqdakı davranışı bir andaca dəyişdi. Müstəntiq: «Millətçi əhval-ruhiyyəli şəxslərin əksinqilabi-millətçi və böhtan xarakterli söhbətlərinə necə münasibət bəsləyirdiniz?». Cavab: «Mən həmişə onların böhtan xarakterli söhbətləri və fikirləri ilə həmrəy idim». Müstəntiq: «Siz nə səbəbə görə başqalarının əksinqilabi millətçi dünyagörüşləri ilə razılaşıb, özünüz də millətçi əhval-ruhiyyəli çıxışlar edirdiniz?». Cavab: «Ona görə ki, mən – İbrahim Eminbəyli həbs olunan günədək əksinqilabi millətçi mövqedə dururdum.

1937-ci il martın 5-də onuncu istintaqda Eminbəyli Tağı Şahbazinin «əksinqilabi millətçi görüşləri» haqqında ifadələr verir.

1937-ci il martın 29-da İ.Eminbəyli M.C.Bağırova and məktubu yazır.

İ.Eminbəyli nə qədər sadəlövh insan və təmiz ürəkli bolşevik idi. Axı bu andiçmələr və göz yaşları Bağırova heç bir təsir göstərmirdi, çünki o, pozğun Stalin terroru qurbanlarının işgəncə «qaydalarına» özü ciddi nəzarət edirdi. Məqsəd də bu idi ki, İ.Eminbəyli kimi inqilab romantikləri fiziki cəhətdən aradan götürülsün.

1937-ci il aprelin 10-11-də on birinci istintaqda müstəntiq Eminbəyliyə «Azərbaycanın rayonlarında səfərdə olarkən apardığı əksinqilabi söhbətlər» barədə suallar verir. Müttəhim bu dəfə də ona verilən ittihamları qəti rədd edir. Həmin gündən istintaq sanki 705 nömrəli müttəhimin olduğunu unudur.

Eminbəyli 4 ay istintaqa çağırılmır və buna görə də o, 1937-ci il iyulun 21-də Azərbaycan SSR XKŞ sədri H.Rəhmanovun (həmin vaxtda o da həbs edilmişdi. lakin Eminbəylinin bundan xəbəri yox idi) adına ərizə yazır. Eminbəyli Rəhmanova bildirirdi ki, Bağırova 3 dəfə ərizə ilə müraciət etsə də. ondan cavab almamışdır. «6 aydır ki, həbsdəyəm. Lakin 5 aydan çoxdur mənimlə heç bir istintaq aparılmır. Ayda bir dəfə məni çağırıb 3 dəqiqəlik istintaq aparırlar və soruşurlar: nədir, boynuna alırsanmı?». Mən isə cavab verirəm: Xeyr! Boynuma almalı heç bir şey yoxdur». «Onda, əzizim. get otur və istirahət elə. Elədiklərini boynuna almasan, çox oturacaqsan və başqalarından daha ağır cəza alacaqsan».

İ.Eminbəyliyə yenidən 3 nömrəli metod tətbiq edilir və 1937-ci il avqustun 20-də o, müstəntiqin diktəsilə Sumbatov-Topuridzeyə «tövbə» ərizəsi yazır: «7 aydır ki, mən susuram. Nəhayət, təslim olmağı qərara aldım. Partiya və hökumət qarşısında törətdiyim cinayət işləri, təşkilatdakı fəaliyyətim barəsində ətraflı danışmaq istəyirəm. Bildirirəm ki, təşkilata mən Ruhulla Axundov tərəfindən cəlb edilmişəm».

1937-ci il avqustun 31-də on ikinci istintaq oldu. Müstəntiq: «Siz xalq komissarı Sumbatovun adına ərizə ilə müraciət etmisiniz. Orada göstərirsiniz ki, müqaviməti dayandırıb özünüzün əksinqilabi fəaliyyətiniz haqqında düzgün ifadələr vermək qərarına gəlmisiniz». Cavab: «Mən özümün əksinqilabi fəaliyyətim haqqında istintaqa düzgün ifadələr vermək qərarına gəlmişəm». Müstəntiq: «Əksinqilabçı millətçi təşkilata nə vaxt və kim tərəfindən cəlb olunmusunuz?». Cavab: «1935-ci ilin aprel-may aylarında

Ruhulla Axundov tərəfindən əksinqilabi millətçi təşkilata cəlb edilmişəm. Bir dəfə o mənə dedi." Sən – Eminbəyli dəfələrlə deyirdin ki. Bağırovun şəxsində partiya rəhbərliyi Azərbaycanda düzgün siyasət yeritmir. Azərbaycan faktiki olaraq müstəqil respublika kimi fəaliyyət göstərə bilmir. Mən sənə əvvəllər deyirdim ki, biz bu vəziyyətdən çıxış yolu tapmalıyıq və mübarizə aparmalıyıq". Bundan sonra bildirdi ki, Azərbaycanda gizli millətçi təşkilat fəaliyyət göstərir və təşkilata özü rəhbərlik edir. Mən – Eminbəyli əksinqilabi millətçi təşkilata daxil olmaq üçün razılıq verdim». Müstəntiq: «Millətçi təşkilatın sizə məlum olan tərkibi haqqında danışın». Cavab: «Ruhulla Axundov, Mikayıl Hüseynov, Həsən Səfərov. Qənbər Sadıqov, Rəhim Həsənov, Baba Əsgərov, Məmməd Məmmədov. Əzim Həsənov, Vəli Xuluflu. Əli Kərimov, Hənəfi Zeynallı, Kazım Ələkbərli. Davud Rəsulzadə, Əhməd Triniç, Mirzə Məmmədov. Böyükağa Talıblı. İsmayıl İsmayılov, Əsəd Axundov, Məmmədsadıq Əfəndiyev, Seyfulla Kərimov. Balabəy Həsənbəyov». Müstəntiq: «Təşkilatın göstərişləri haqqında məlumat verin». Cavab: «Göstərişlər aşağıdakılardan ibarət idi. 1. Sovet hökumətini devirmək üçün silahlı üsyan hazırlamaq; 2. ÜİK(b)P və Sovet hökuməti rəhbərlərinə qarşı mübarizə metodu kimi terrordan istifadə etmək; 3. Mədəniyyət cəbhəsində, kənd təsərrüfatında və sənayedə ziyankarlıq işi aparmaq. Mən terrorçular qrupunda iştirak etmək üçün razılıq vermişdim. Bağırova qarşı terrorçu akt ya Bağırovun kabinetində, yaxud da yaşadığı evin pilləkənlərindən düşərkən həyata keçirilməli idi. 1936-cı ilin fevralında tamam təsadüfən Bağırova qarşı terrorçu aktı yerinə yetirmək üçün çox gözəl fürsət düşmüşdü. Lakin mən qorxdum. Beriyaya qarşı terrorçu aktı isə başqaları yerinə yetirməli idilər». (Eminbəylinin Bağırova və Beriyaya sui-qəsd edilməsi haqqındakı ifadəsi istintaq işinin 109-131-ci səhifələrini əhatə edir.)

1937-ci il sentyabrın 22-də İbrahim Eminbəyliyə Azərbaycan SSR Cinayət Məcəlləsinin 73, 17-64 və 21-70-ci maddələri üzrə əlavə ittihamlar təqdim edildi. İşdə Eminbəylinin əleyhinə digər müttəhimlərin – Çiçikalovun, Əli Kərimovun, Rəhim Həsənovun, Mikayıl Hüseynovun, Həmid Sultanovun, Tixomirovun və Baba Əsgərovun verdikləri ifadələr də var idi.

1937-ci il sentyabrın 22-də İbrahim Eminbəylinin işi üzrə istintaqın başa çatması haqqında protokol tərtib olunmuşdu

1937-ci il oktyabrın 4-də ittiham qərarı tərtib edildi. Eminbəyli Azərbaycan SSR CM-nin 73, 64 və 70-ci maddələri üzrə ittiham olundu, ondan ötrü ki:

1. 1 dekabr 1934-cu ildə S.M.Kirovun amansızcasına öldürülməsini həyata keçirən, sonrakı illərdə (1934-1937) partiya və hökumət rəhbərlərinə qarşı terrorçu aktlar hazırlayan əksinqilabi trotskiçi-zinovyevçi terrorist təşkilatın üzvü idi;

2. 1935-ci ildə gizli əksinqilabi millətçi təşkilatın üzvü idi və onun rəhbər tərkibi ilə təşkilati əlaqə saxlayırdı;

3. Az.K(b)P MK katibi M.C.Bağırova qarşı terror aktları hazırlayan terrorist qrupun üzvü idi;

4. Terrorçu idi. Bağırova qarşı terrorçu aktı fiziki cəhətdən yerinə yetirmək üçün razılıq vermiş və onun hazırlanmasında praktiki iş aparmışdır. (İşdə 1954-cü il aprelin 9-da M.C.Bağırovla aparılan istintaq zamanı onun verdiyi ifadədən çıxarış vardır. Burada müttəhim Bağırov ona qarşı hansısa terror aktının olmasını qəti rədd edir).

1937-ci il oktyabrın 5-də Sumbatov-Topuridze tərəfindən ittiham qərarı təsdiq olunmuşdur.

1937-ci il oktyabrın 11-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının (Matuleviç, Zaryanov, Jiqur) hazırlıq iclasının protokolu yazılmışdır. İşə bağlı məhkəmə iclasında, müdafiəçisiz, ittihamçısız və şahidsiz baxılması qərara alınmışdır.

1937-ci il oktyabrın 12-də saat 17:45 dəqiqədə bağlı məhkəmə iclası keçirilmişdir. İbrahim Eminbəyli günahkar olduğunu boynuna almışdır. Son sözdə bağışlanmasını və cəzasının yüngülləşdirilməsini xahiş etmişdi. İclas saat 18-də başa çatmışdır. Elə həmin gün Eminbəyli ən ağır cəzaya –güllələnməyə məhkum edilmişdir. İşdə onun 1937-ci il oktyabrın 13-də Bakı şəhərində güllələnməsi haqqında arayış vardır. Hökmün yerinə yetirilməsi haqqında akt XDİK-in birinci Xüsusi şöbəsinin Xüsusi arxivində (VIII cild, səh.33) saxlanılır.

İ.Eminbəylinin həyat yoldaşı Firuzə Məmmədtağı qızı Eminbəyli isə 1937-ci ildə həbs edilmiş və xalq düşməninin ailə üzvü kimi sürgün olunmuşdur. Sürgündən 1946-cı ildə qayıtmışdır.

1954-cü il iyulun 2-də İ.Eminbəylinin oğlu Yavuz Eminbəyli atasının işinə yenidən baxılması xahişi ilə SSRİ Nazirlər Sovetinin sədri Malenkovun adına ərizə ilə müraciət etmişdir.

1955-ci il dekabrın 10-da SSRİ Ali Məhkəməsi hərbi Kollegiyasının qərarına görə İ.Eminbəylinin işi ilə əlaqədar 1937-ci il oktyabrın 12-də SSRİ Ali Məhkəməsi hərbi kollegiyasının çıxardığı hökm ləğv edilmiş və cinayət tərkibi olmadığına görə iş xətm olunmuşdur.

## HÜSEYNƏLİ SÜLEYMAN OĞLU BİLƏNDƏRLİ
İstintaq işi № 12493

1937-ci il yanvarın 26-da 12493 nömrəli iş üzrə ittiham olunan müttəhimlərdən B.N.Tixomirovun («ADU-nun müəllimi Hüseynəli Biləndərlini əksinqilabi trotskiçi təşkilata mən cəlb etmişəm»), Rzaqulu Məmmədovun («Hüseynəli Biləndərli hələ 1927-ci ildən əksinqilabi trotskiçi mövqedə dururdu. O, gizli əksinqilabçı trotskiçidir») və şahid Mirzə Cabbar Məmmədovun («1929-1932-ci illər ərzində Hüseynəli Biləndərli məni əksinqilabi millətçi istiqamətində hazırlamışdır. Bu zaman o deyirdi ki, Bakıda Sovet hökumətini devirmək vəzifəsini qarşısına qoyan əksinqilabi təşkilat fəaliyyət göstərir») verdikləri ifadələr əsasında 1905-ci ildə -- Qazax rayonunun Qıraq-Kəsəmənli kəndində anadan olmuş tarixçi, Partiya Tarixi İnstitutunun baş elmi işçisi, ADU-nun tarix müəllimi Hüseynəli Süleyman oğlu Biləndərli həbs edilmiş və Azərbaycan SSR CM-nin 72/73-cü maddələri üzrə cinayət məsuliyyətinə cəlb edilmişdir. 1937-ci il yanvarın 31-də Hüseynəli Biləndərli «əksinqilabi trotskiçi, müsavatçı və xalq düşməni kimi ÜİK(b)P sıralarından xaric edilmişdir.

H.Biləndərli barəsində həbs tədbirinin müddəti iki dəfə uzadılmış və 12493 nömrəli iş üzrə ittiham olunan digər müttəhimlərdən daha çox dindirilmişdir (22 dəfə). Onun işi üzrə aparılan istintaqda o qədər çox ad və familiya çəkilmiş, yeni «faktlar» və hadisələr baxımından müstəntiq üçün o qədər «uğurlu» olmuşdur ki, müstəntiq Şer (sonradan özü də xalq düşməni kimi həbs olunmuşdur) 01.07.1937-ci il tarixdə qərar çıxarmışdır: «H.Biləndərlinin ittihamı üzrə bütün istintaq materiallarını 12493 nömrəli qruplaşdırılmış xüsusi işdən 13829 nömrəli müstəqil iş kimi ayırmaq olar».

28 yanvar 1937-ci il, birinci istintaq. Müstəntiq: «İstintaqa məlumdur ki, siz əksinqilabi trotskiçi təşkilatın üzüsünüz. Əksinqilabi işdə iştirakınız haqqında danışmağınızı tövsiyə edirik». Cavab: «Mən heç bir əksinqilabi işdə iştirak etməmişəm və əksinqilabçı trotskiçilərlə həmrəy olmamışam». Müstəntiq: «Siz istintaqa müqavimət xəttində durursunuz, bir daha xatırladırıq ki, istintaqın sizin əksinqilabi fəaliyyətiniz haqqında kifayət qədər məlumatı vardır. Səmimi və ətraflı ifadə verməyinizi təklif edirik». Cavab: «Təkrar edirəm ki, mən heç vaxt əksinqilabi fəaliyyətdə iştirak etməmişəm və əksinqilabçılarla həmrəy olmamışam». Müstəntiq: «Əksinqilabçı trotskiçilərdən şəxsən daha kimləri tanıyırsınız?». Cavab: «Mənim əmim

Məmmədəli Biləndərzadə həbs olunmuşdur, lakin nə üçün həbs olunduğu mənə məlum deyil». Müstəntiq: «Trotskiçilərdən kimlərlə siz əksinqilabi trotskist xarakterli söhbətlər aparmısınız?». Cavab: «Mənim heç kəslə əksinqilabi trotskist xarakterli söhbətlərim olmayıb». Müstəntiq: «Bu düz deyil. İstintaqa məlumdur ki, trotskiçilərlə sizin əksinqilabi trotskist xarakterli söhbətləriniz olub. İstintaqa onlar haqqında danışmağı təklif edirik». Cavab: «Deyilənləri rədd edirəm və öz ifadəmin üstündə dururam». Müstəntiq: «Siz istintaqa səmimi cavablar vermirsiniz və əksinqilabi işinizi, sizə məlum olan trotskiçilərin əksinqilabi fəaliyyətini gizlətmək məqsədilə istintaqa müqavimət göstərirsiniz. İstintaq bir daha xatırladır ki, sizin əksinqilabi fəaliyyətdə iştirakınız haqqında onun məlumatı vardır. Buna görə də hər şeyi açıqca boynunuza almağı təkid edir».

Oxucu əmin ola bilər ki, 12493 nömrəli istintaq işini aparan müstəntiqlərin ilk dindirmədən başlayaraq müttəhimləri çaşdıran standart suallar yığını var idi. Sonra onlar müttəhimi tək otaqda saxlayır, bir neçə gün onu narahat etməyərək öz fikirləri ilə yalqız qoyurdular.

4 fevral 1937-ci il, ikinci istintaq. Müstəntiq: «Sizə məlum olan əksinqilabi trotskiçilərdən kimləri xatırlayırsınız?». Cavab: «Qəzetdə oxuduğum professor Tixomirovdan başqa əksinqilabi trotskiçilərdən daha heç kəsi tanımıram». Müstəntiq: «Trotskizmə ilk dəfə nə vaxt qoşulmusunuz?». Cavab: «Mən heç vaxt əksinqilabi trotskiçi görüşlərə qoşulmamışam və qoşulmuram». Müstəntiq: «Bəs əksinqilabi millətçi mövqelərdə də heç vaxt durmamısınız?». Cavab: «Mən heç vaxt əksinqilabi millətçi mövqelərdə durmamışam». Müstəntiq: «Məmmədov Mirzə Cabbarı tanıyırsınızmı? Siz onun 22.11.1936-cı il tarixdə verdiyi ifadələrlə ifşa olunursunuz». Cavab: «Rədd edirəm. Məmmədov mənim haqqımda yalan ifadələr vermişdir». Müstəntiq: «Siz tamamilə dolaşmısınız və boş-boş danışırsınız. Bu, necə olur – sizi əksinqilabçı kimi ifşa edirlər? Deyirsiniz ki, o, sizi bununla əksinqilabi millətçi təşkilata cəlb edir?» Cavab: «O, yalan ifadələrilə məni əksinqilabçı kimi təsvir etmək istəyir». Müstəntiq: «İstintaq sizin əksinqilabi təşkilata məxsusluğunuz haqqında kifayət qədər məlumata malikdir, buna görə də müqavimət dayandırmağı və düz danışmağı təklif edir». Cavab: «Mən öz ifadələrimi təsdiq edirəm». Müstəntiq: «Rzaqulu Mövsümovu tanıyırsınızmı?». Cavab: «1927-ci ildən tanıyıram». Müstəntiq: «İstintaqa məlumdur ki, siz 1927-ci ildən fəal, ikiüzlü trotskiçisiniz». Cavab: «Xeyr, mən bunu boynuma almıram». Müstəntiq: (Mövsümovun

26.10.1936-cı il tarixdə verdiyi ifadəsini oxuyur.) «Siz trotskiçisiniz, bu zaman ÜİK(b)P-nin siyasətinə böhtan ataraq «sübut etmişsiniz» ki, trotskiçilər fəhlə sinfinin mənafeyini müdafiə edirlər. Siz indi də əksinqilabi trotskizmə məxsusluğunuzu rədd edəcəksiniz?». Cavab: «Bəli, mən bunu rədd edirəm. Heç vaxt əksinqilabi trotskiçi olmamışam və Mövsümovun ifadələri yalandır. Heç vaxt əksinqilabçı olmamışam və heç bir əksinqilabı təşkilata qoşulmamışam».

14 fevral 1937-ci il, üçüncü istintaq. Müstəntiq: «Əksinqilabi trotskiçi təşkilatın üzvü olduğunuzu etiraf edirsinizmi?» Cavab: «Xeyr, mən bunu rədd edirəm. Heç vaxt əksinqilabi trotskiçi təşkilatın üzvü olmamışam və əksinqilabi trotskiçi görüşlərlə şərik deyiləm. (Biləndərli Rzaqulu Məmmədovla üzləşdirilərkən onun ünvanına deyilən bütün sözləri rədd etmişdir).

1937-ci il fevralın 19-da dördüncü istintaqda H.Biləndərli əksinqilabi təşkilata məxsusluğunu yenidən inkar edir. Mirzə Məmmədovla üzləşərkən o, Məmmədovun bütün ifadələrini tamamilə rədd edir. Sonra müstəntiq soruşur: «Bəs əksinqilabi trotskiçi İmaməli Axundovu tanıyırsınızmı?». Cavab: «İmaməli Axundovu xatırlamıram. O, mənə tanış deyil». Müstəntiq: «Axundovun 16.09.1936-cı il tarixdə yazdığı ifadəsindən görünür ki, siz 1927-ci ildə əksinqilabi trotskist platformanın oxunuşunda və əminiz Biləndərzadənin evində platformanın əksinqilabi mövqeyinin müzakirəsində fəal iştirak etmisiniz». Cavab: «Hər şeyi inkar edirəm. Xeyr!».

20-21 fevral 1937-ci il, beşinci istintaq. Müstəntiq: «Siz əksinqilabi fəaliyyətiniz haqqında səmimi ifadə vermək fikrindəsinizmi?». Cavab: «Mənim ifadələrim səmimidir – əvvəl verdiyim ifadələri də təsdiq edirəm». Müstəntiq: «1927-ci ildən həbs olunan günədək fəal əksinqilabi trotskiçi olduğunuzu etiraf edirsinizmi?». Cavab: «İnkar edirəm!» Müstəntiq: «Sizə Tixomirovun 19.12.1936-ci il tarixli ifadəsini oxuyuruq». Cavab: «Tixomirov mənim üçün şəksiz-şübhəsiz nüfuzlu bir adam idi, lakin onun ifadəsini mən inkar edirəm».

1937-ci il fevralın 22-dən, altıncı istintaqdan başlayaraq H.Biləndərli daha «ürəyiaçıq və səmimi» oldu və istintaq müstəntiqlərin qurduğu xətlə getdi. Biləndərli göstərirdi: «Tixomirovla mənim əksinqilabi söhbətlərim olmayıb, lakin etiraf edirəm ki, Tixomirov kimi mən də elmi cəbhədə ÜİK(b)P xəttinə qiymət verilməsində əksinqilabi trotskiçi mövqelərdə dururdum. Rusiyada təhkimçilik hüququ barədə məsələ üzrə marksizm-leninizm müddəalarını təftiş etməyə təşəbbüs göstərirdim».

25-26 fevral 1937-ci il, yeddinci istintaq. Müstəntiq: «Sizə əksinqilabi trotskiçi fəaliyyətdə iştirakınız barədə ətraflı və düzgün ifadə vermək təklif edilir». Cavab: «Mənim əksinqilabi fəaliyyətdə heç bir iştirakım olmayıb». Müstəntiq: «Pantürkist əhvali-ruhiyyəli şəxslərdən kimləri tanıyırsınız?». Cavab: «Xuluflunu, Çobanzadəni, Qubaydullini». Müstəntiq: «Siz adları çəkilən şəxslər tərəfindən əksinqilabi ruhda hazırlanmısınızmı?» Cavab: «Bəli, mən etiraf edirəm ki, Xuluflu və Tixomirov tərəfindən əksinqilabi istiqamətdə hazırlanmışam».

27 fevral 1937-ci il, səkkizinci istintaq: Müstəntiq: «Siz son dəqiqəyədək düşmənçi əksinqilabi mövqedə durursunuz və tərksilah edilmək istəmirsiniz. İstintaq xəbərdarlıq edir ki, sizin fəal əksinqilabi fəaliyyətinizi ifşa edən kifayət qədər məlumata malikdir. Buna görə də istintaq düzgün ifadələr verməyinizi təkid edir». Cavab: «Etiraf edirəm ki, bu günə qədər mən yalan ifadələrlə istintaqı yanlış yola aparmağa çalışırdım. Boynuma alıram ki, 1927-ci ildən əksinqilabi trotskiçiyəm, əmim Məmmədəli Biləndərzadə və İmaməli Axundov tərəfindən əksinqilabi ruhda hazırlanmışam, onlarla əksinqilabi trotskist söhbətlərdə iştirak etmişəm. 1928-ci ildə mən pedaqoq Mirzə Cabbar Məmmədov tərəfindən əksinqilabi millətçi-müsavatçı istiqamətdə hazırlanmışam. 1931-ci ildə partiya sıralarına daxil olmuşam, bununla belə əksinqilabi millətçi mövqeyimi saxlamaqda davam etmişəm».

28 fevral 1937-ci il, doqquzuncu istintaq. H.Biləndərli M.C.Məmmədovla birlikdə özünü tamam «ifşa edir». 1937-ci il martın 2-də onuncu istintaqda İmaməli Axundovu, 1937-ci il martın 3-də on birinci istintaqda Baba Əsgərovu, Tixomirovu, Eminbəylini «ifşa edir».

Sağlam düşüncə nöqteyi-nəzərindən H.Biləndərlinin «ifşası» tamam primitiv xarakter daşıyır, lakin əvvəlcədən hazırlanmış qurğunun yerinə yetirilməsi baxımından istintaq üçün belə ifadələr düzü, göydəndüşmə idi. Lakin görün, o vaxt müttəhimin düşmən fəaliyyətinə ciddi sübut əvəzinə necə mənasız fikirlər əsas götürülürdü. 1937-ci il martın 4-də on ikinci istintaqda H.Biləndərli professor Tixomirov haqqında ifadə verərək demişdir: «Tixomirov tələbələr arasında Stalinin, Kirovun və Jdanovun mətbuatda dərc olunan yeni tarix və SSRİ xalqlarının tarixi üzrə konspektlərindən qeydlərin əhəmiyyəti və Pokrovskinin tarix üzrə dərsliyinin tənqidi haqqında izahat işi aparmamışdır. Tixomirov «xalqçılar – marksizmin qəddar düşmənləridir» müddəası əleyhinə etiraz etmişdir. 1937-ci il martın

5-də on üçüncü istintaqda müttəhim bildirmişdir: «Fərdi terrorun tərəfində olduğumu etiraf edirəm». Doğrudan da, istintaq aparatının böyük nailiyyəti bax budur!

16 mart 1937-ci il, on dördüncü istintaq. H.Biləndərli Tixomirov, Çobanzadə, Zeynallı, Ağamir Məmmədov və Xuluflu haqqında «ifşaedici» ifadələr vermişdir. 1937-ci il martın 20-də on beşinci istintaqda müstəntiqin: «Terrorist ruhda kim tərəfindən hazırlanmısınız?» sualına H.Biləndərli belə cavab vermişdir: «Tixomirov tərəfindən». Bu lap sayıqlamadır! 1937-ci il martın 31-də on altıncı istintaqda müttəhim bildirmişdir ki, o, «tələbələrin trotskist xarakterli səhvlərini ört-basdır etmişdir». 1937-ci il aprelin 21-də on yeddinci istintaqda müttəhim özünün «praktiki əksinqilabi fəaliyyəti haqqında» ifadə verməyi davam etdirmişdir. 1937-ci il mayın 17-də on səkkizinci istintaqda müstəntiq H.Biləndərlidən əksinqilabçı trotskiçilərin adlarını çəkməyi (!) tələb etmişdir. Dörd gün çəkən (20-23 may 1937-ci il) on doqquzuncu istintaqda müstəntiq soruşmuşdur: «İstintaqa əksinqilabi fəaliyyətdə iştirakınız və əksinqilabçı elementlərlə əlaqəniz barədə danışın». Cavab: «Xuluflu, Əzim Dadaşov, Çobanzadə, Əli Nazim, Zeynallı, Məmməd Bayramov, Rəhim Həsənov, Qulam Bağırov, Söhbət Sumbatzadə, Qubaydullin, Həsən İmanov qatı əksinqilabçı millətçi pantürkistdirlər». Müstəntiq: «Siz Azərbaycanda əksinqilabi millətçi təşkilatın üzvü olduğunuzu etiraf edirsinizmi?». Cavab: «Bəli, etiraf edirəm ki, mən Azərbaycanda əksinqilabi millətçi təşkilatın üzvüyəm. Təşkilatın məqsədi Azərbaycanda Lenin-Stalin siyasətinə qarşı mübarizə aparmaq və Sovet hökumətinin milli siyasətinə əksinqilabi böhtanlar yaymaq yolu ilə azərbaycanlı gənclər arasında bu mübarizə üçün kadrlar tərbiyə etmək idi. Təşkilatın son məqsədi isə Azərbaycanın Sovet İttifaqından ayrılması və onun Türkiyəyə birləşməsi idi». Müstəntiq: «Bu əksinqilabi təşkilatın rəhbəri kim idi?». Cavab: «Üzvü olduğum bu təşkilatın rəhbəri Ruhulla Axundov, Xuluflu, Zeynallı, Çobanzadə idi». Müstəntiq: «Bu əksinqilabi təşkilata kim tərəfindən cəlb edilmişdiniz?». Cavab: «Milli məsələdə mənim tərəddüd etdiyimi bilən Vəli Xuluflu 1930-cu ildə məni əksinqilabi millətçi təşkilata cəlb etmişdir. Vəli Xuluflunun vasitəsilə mən əksinqilabi təşkilatın digər üzvləri ilə əlaqəyə girdim».

İyirminci istintaq üç gün (25-27 may 1937-ci il) çəkmişdir. Biləndərli yenidən təkrar etmişdir ki, müsavatçılar və trotskiçilərlə bir blokda əlaqədə

olan əksinqilabi millətçi təşkilatın üzvüdür. İyirmi birinci istintaqda (10 iyun 1937-ci il) müstəntiq onun əksinqilabi millətçi təşkilata cəlb edilməsi, üzvü olması haqqında ifadəsini təsdiq etməyi yenidən tələb edir.

Nəhayət, 1937-ci il iyunun 16-da iyirmi ikinci istintaqda əksinqilabi təşkilata cəlb edilmək metodları haqqında yenidən sorğu-sual aparılmışdır.

Biləndərlinin işinə onu ifşa edən digər müttəhimlərin də ifadələri tikilmişdir. Üç dəfə üzləşmə olmuşdur. 1937-ci il iyulun 4-də H.Biləndərlı Azərbaycan SSR CM-nin 17/70-ci maddəsi üzrə (ÜİK(b)P-yə qarşı mübarizdə terror tətbiq etmək mövqeyində durmuşdur) əlavə ittiham olunmuşdur.

1937-ci il avqustun 7-də H.Biləndərlinin istintaq işinin başa çatması haqqında protokol tərtib edilmişdir. 1937-ci il avqustun 25-də ittiham qərarı quraşdırılıb yazıldı.

1937-ci il oktyabrın 10-da SSRİ Ali Məhkəməsi hərbi Kollegiyası Səyyar sessiyasının (Matuleviç, Zaryanov, Jiqur) hazırlıq iclasının protokolu tərtib edildi: Hüseynəli Süleyman oğlu Biləndərlinin işi Azərbaycan SSR CM-nin 70 və 73-cü maddələri üzrə məhkəməyə verilməli. İşə bağlı məhkəmə iclasında, müdafiəçisiz, ittihamçısız və şahidlərsiz baxılmalı.

1937-ci il oktyabrın 11-də SSRİ Ali Məhkəməsi hərbi Kollegiyasının bağlı məhkəmə iclası keçirildi. İclas saat 13:40 dəqiqədə başlandı. Müttəhim H.Biləndərli özünün günahkar olduğunu boynuna aldı. Son sözdə günahının yüngülləşdirilməsinin xahiş etdi. İclas saat 13:55 dəqiqədə başa çatdı. (Buna bax: 10 ay istintaq getmişdir, neçə yüz kağız vərəqi müxtəlif yazılarla doldurulmuşdur, uzun sürən 22 dindirmə prosesi keçirilmişdir. çoxlu adamların ittiham olunması üçün xeyli material toplanmışdır, belə «güclü xalq düşməninin» məhkəməsi isə cəmi 15 dəqiqə çəkmişdir!)

1937-ci il oktyabrın 11-də Hüseynəli Süleyman oğlu Biləndərli ən ağır cəzaya – güllələnməyə məhkum olunmuşdur. Hökm həmin dəqiqə, dərhal yerinə yetirilmişdir.

SSRİ Ali Məhkəməsi hərbi Kollegiyasının 20 oktyabr 1956-cı il tarixli qərarına görə H.Biləndərlinin işinə yenidən baxılmış və SSRİ Ali Məhkəməsi hərbi Kollegiyasının 1937-ci il oktyabrın 11-də çıxardığı hökm ləğv olunmuş, cinayət tərkibi olmadığına görə iş xətm edilmişdir.

## MİKAYIL NAMAZ OĞLU HÜSEYNOV
İstintaq işi №12493-99

1937-ci il yanvarın 29-da M.C.Bağırovun sədrliyi ilə Azərbaycan K(b)P MK bürosunun iclası keçirilmişdir. İclasın protokolundan çıxarışda (№ 180) deyilirdi: «Azərbaycan K(b)P MK-nın partiya təbliğatı, təşviqatı və mətbuatı şöbəsinin müdiri Mikayıl Namaz oğlu Hüseynovun 1923-1924-cü illərdə trotskiçi meylləri haqqında Azərbaycan K(b)P MK-ya daxil olan materiallarla əlaqədar o, tutduğu vəzifədən və partiya sıralarından xaric edilsin, Azərbaycan K(b)P MK plenumu üzvlərinin tərkibindən çıxarılsın. O, habelə respublika təbliğatçıları kursunun müdiri, marksizm-leninizm institutunda və təbliğatçılar məktəbində müəllimlik vəzifələrindən götürülsün».

Arayış elə həmin gün Azərbaycan SSR XDİK DTİ-nin müstəntiqi Şer tərəfindən tərtib edilmişdir: «1900-cü ildə Gəncə şəhərində anadan olmuş, Azərbaycan K(b)P MK-nın məsul işçisi Mikayıl Namaz oğlu Hüseynov Çiçikalovun verdiyi ifadələrə əsasən ifşa olunmuşdur. («Mikayıl Hüseynov Həsənbəyovun evində əksinqilabi millətçi məsələləri müzakirə edirdi. Bunu mənə Tixomirovun dəstəsindən olan əksinqilabi təşkilatın üzvü Baba Əsgərov danışmışdır»). Deyilənlərə əsasən M.N.Hüseynov həbs olunmalı və Azərbaycan SSR CM-nin 72/73-cü maddələri üzrə cinayət məsuliyyətinə cəlb edilməlidir». Beləliklə, 12493 nömrəli istintaq işi üzrə 99-cu müttəhim – Mikayıl Namaz oğlu Hüseynov da cəmiyyətdən bu cür təcrid olundu. 1923-1924-cü illərdə M.Hüseynovun trotskiçi görüşləri haqqında bir «xeyirxah» şəxs məlumat vermişdi, sonra Tixomirovun dəstəsinə daxil olan Baba Əsgərovdan Çiçikalov öyrənmişdi ki, o, Həsənbəyovun evinə «gedirmiş». Bir sözlə, kimsə, haradasa, nəyisə demişdi. Bununla da repressiya dövrünün növbəti qurbanı belə aradan götürülmüşdür.

Elə həmin gün 1937-ci il yanvarın 29-da Mikayıl Hüseynov «əksinqilabi millətçi təşkilatın üzvü olub, mövcud quruluşun əleyhinə mübarizə vasitəsi kimi silahlı üsyan və ÜİK(b)P və Sovet hökuməti rəhbərlərinə qarşı terrorçu aktların tətbiqi mövqelərində durmuşdur» ittihamı üzrə həbs edilmişdir.

Necə deyərlər, təki canlı insan olsun, onun ittihamı və aradan götürülməsi üçün maddələr tapmaq asandır. Oxucu Mikayıl Hüseynovun nə qədər boş, mənasız, cəfəng ittihamlarla yükləndiyinin bir daha şahidi olur.

5 fevral 1937-ci il, birinci istintaq... Həmişə olduğu kimi, müstəntiq yenə də standart suallarla M.Hüseynovu dindirməyə başlayır: «İstintaqa məlumdur ki, siz əksinqilabi millətçi təşkilatın üzvüsünüz. Bunu etiraf edirsinizmi?». Cavab: «Mən heç bir əksinqilabi millətçi təşkilatın üzvü deyiləm». Müstəntiq: «İstintaq sizdən düz danışmağı tələb edir». Cavab: «Mən qəti deyirəm ki, əksinqilabi millətçi təşkilatın üzvü olmamışam. 1921-ci ildən ÜİK(b)P-nin üzvüyəm». Müstəntiq: «Əksinqilabi əhval-ruhiyyəli şəxslərin konkret olaraq adlarını söyləyin». Hüseynov ədliyyə orqanının işçisi Qəmbər Sadıxovun adını çəkir.

1937-ci il fevralın 19-20-də, ikinci istintaqda Hüseynov Qəmbər Sadıxovla bağlı dindirilir. Onun cavablarından biri belə olmuşdur: «1932-ci ilin sonları, yaxud 1933-cü ildə Sadıxovla sosializm quruculuğunun bəzi məsələləri ilə bağlı söhbətlərimizdə bir sıra suallar meydana çıxırdı: siniflər, dövlətlərlə bağlı, fiziki və əqli əmək arasında ziddiyyətin aradan qaldırılması, şəhərlə kənd arasındakı fərqlərlə bağlı və s. Sadıxov SSRİ-də sosializm quruculuğuna şübhə ilə yanaşırdı». Bu zaman müstəntiq Şer Hüseynova demişdir: «Bir halda ki siz Qəmbər Sadıxovu vaxtında ifşa etməmisiniz, deməli, özünüz də onun fikriylə həmrəy olmusunuz və əksinqilabi millətçi mövqedə durmusunuz!» (Daha nə deyəsən: daşdan keçən məntiqdir! – Z.B.).

Bundan sonra Mikayıl Hüseynov dörd ay dindirilməmiş və təkadamlıq kamerada saxlanmışdır. Lakin buna səbəb başqa idi. Bir dəqiqə də olsun dayanmayan ölüm konveyerini işlətmək üçün müstəntiqlər çatışmırdı.

1937-ci il iyunun 25-də üçüncü istintaqda müstəntiq yenə də müttəhimə Qəmbər Sadıxovla bağlı suallar verməyə başlayır. Hüseynovun sözləri: «Əksinqilabi göstərişlərə istinadən o, Gürcüstan və Ermənistanla bağlı zərərli və yanlış müqayisələr edir, Azərbaycanda mədəniyyət və incəsənətin inkişafına lazımi qiymət vermirdi. Kommunist Partiyasının milli siyasətinə əksinqilabi böhtanlar atırdı». (Baxın, Sadıxov necə adam imiş: Azərbaycanın yazıq vəziyyətini hələ 50 il əvvəldən görürdü! – Z.B.).

28 iyun 1937-ci il, dördüncü istintaq. Müstəntiq: «Əksinqilabçı millətçilərdən daha kimləri tanıyırsınız?» Cavab: «Şair Müşfiqi, ADU-nun rektoru Həsənbəyovu, Azərbaycan dram teatrının direktoru Triniçi, SSRİ EA Azərbaycan filialının sədr müavini Ruhulla Axundovu, Azərnəşrin direktoru Əsəd Axundovu, Masallıdakı MTS-in siyasi şöbəsinin rəisi Salman Əsgərovu». Sonra Müşfiqin «əksinqilabi millətçiliyini» əsaslandıran boş

mənasız, uydurma ifadələr verilir: «Qranat» Moskva ensiklopediyasında Füzulinin kürd şairi kimi verilməsi onu çox hiddətləndirmişdi. S.M.Əfəndiyev də buna öz qəti etirazını bildirmişdi və Yazıçılar İttifaqının sədri S. Şamilova aşağıdakı məzmunda məktub yazmışdı: «Yoldaş Şamilov! «Qranat» ensiklopediyası redaksiyası Füzulinin kürd yazıçısı olduğunu düzgün yazmamışdır. Siz buna qarşı mütləq etirazınızı bildirməlisiniz!» Məktub Sultan Məcid Əfəndiyev tərəfindən Azərbaycan dilində yazılmışdır və hazırda Azərbaycan K(b)P MK-dadır».

Yazıq Sultan Məcid! O, artıq təkadamlıq kamerada idi və özünə nə vaxt divan tutulacağını gözləyirdi. Çünki sonradan həbs edilmiş müstəntiqlərin ifadələrindən aydın olmuşdur ki, ona başqalarına nisbətən daha çox, xüsusilə amansızcasına işgəncələr verilmişdir!

Müstəntiq Mikayıl Hüseynovun sözlərini dərhal tutmuş və soruşmuşdu: «S.M.Əfəndiyevin əksinqilabi millətçi görüşləri haqqında sizə daha nə məlumdur?». Cavab: «Sultan Məcid Əfəndiyev Azərbaycan K(b)P MK-nın sədri olarkən Ə.Qarayevin «Azərbaycan K(b)P tarixi haqqında» və Mirzədavud Hüseynovun «Müsavat partiyası keçmişdə və indi» kitablarına rəy verilməsi və Ə.Qarayevin, M.D.Hüseynovun trotskiçi və əksinqilabi millətçi səhvlərilə bağlı məsələlər geniş müzakirə edilmişdi. Lakin o, Azərbaycan K(b)P MK-nın bu mühüm tapşırığına formal yanaşmış, müzakirələrdə və komissiyanın çıxardığı nəticələrdə fəallıq göstərməmişdir». (Oxucu! Nəticəni özün çıxart! – Z.B.).

1937-ci il iyulun 1-də beşinci istintaqda M.Hüseynov Azərbaycan dilində əksinqilabi millətçi mühazirələr oxuyan «əksinqilabçı millətçi» Balabəy Həsənbəyov haqqında ifadə vermişdir.

Sonra müstəntiqə «xalq düşməni» M.Hüseynovun ifşa olunmasında lənglik etdiyini xatırlatmışlar. 1937-ci l iyulun 15-də altıncı istintaqda müstəntiq müttəhimdən soruşur: «Azərbaycanda əksinqilabi millətçi təşkilatın üzvü olduğunuzu etiraf edirsinizmi?» Cavab: «Qəti şəkildə bildirirəm ki, Azərbaycanda əksinqilabi millətçi təşkilatın üzvü deyiləm və heç vaxt olmamışam».

Müstəntiq bu istintaq işi üzrə həbs edilmiş müttəhimlərdən Əli Kərimovun və Həsən Səfərovun ifadələrini M.Hüseynova oxuyur. Lakin o, yenə də əksinqilabi millətçi təşkilata məxsusluğunu qəti rədd edir.

1937-ci il iyulun 17-də yeddinci istintaqda M.Hüseynov müstəntiqin zorla onun boynuna qoyduğu bütün faktları qəti şəkildə inkar edir. Onun

«əksinqilabi inadkarlığını» görən müstəntiq deyir: «Siz istintaqa müqavimət göstərirsiniz. Düz danışmağı və günahınızı etiraf etmənizi məsləhət görürük. Əks təqdirdə istintaq ifşa olunmağınız üçün digər metodlardan istifadə edəcəkdir».

Bununla da ifşaedici metodun, yəni istintaqın üç nömrəli metodunun tətbiqinə başlandı.

Mikayıl Hüseynovu amansızcasına döyür, ağır işgəncələr verirdilər. O bu cür rəftarı təsəvvürünə belə gətirmirdi, yatsaydı yuxusuna da girməzdi! (İfşaedici amansız metodun tətbiqi nəticəsində isə M.Hüseynov 1937-ci il iyulun 22-də Sumbatov-Topuridzeyə aşağıdakı məzmunda ərizə ilə müraciət etməyə məcbur olur: «İstintaqa müqaviməti dayandırmağı qərara aldım. Mən həqiqətən əksinqilabi millətçi təşkilatın üzvüyəm, onun tərkibi, praktiki əksinqilabi fəaliyyəti, təşkilata cəlb edilənlər, Azərbaycanın rayonlarında, xüsusilə Nuxada, Gəncədə və Qubada aparılan əksinqilabi işlər. digər respublikalardakı və xaricdəki təşkilatlarla olan əlaqələr haqqında məlumatım vardır. İlk dəfə mən 1935-ci ildə Ruhulla Axundov tərəfindən hazırlanmışam və onun rəhbərlik etdiyi təşkilata cəlb olunmuşam. O, mənə tərcümə və redaktə sahəsində xüsusi tapşırıqlar verirdi».

Əlbəttə ki, M.Hüseynov bu ərizəni kütbeyin müstəntiqin diktəsilə yazmışdır. Əks təqdirdə «tərcümə və redaktə sahəsində nə kimi xüsusi tapşırıq» ola bilər? Doğrudan da, lap uydurmadır!

Beləliklə, başlandı! Səkkizinci istintaq üç gün – 1937-ci il iyulun 28-dən 30-dək fasiləsiz davam etdi. Müstəntiqlər Hüseynovdan özləri üçün «qiymətli» ifadələr almağa başladılar. Bu «qiymətli» ifadələr istintaq işinin 35-36-cı vərəqlərində öz əksini tapmışdır. M.Hüseynov 12493 nömrəli iş üzrə istintaq olunan 88 şəxsin familiyalarını söyləmişdir.

M.Hüseynov hər şeyi «etiraf etmişdir»: «Mənə nə qədər ağır olsa da deməliyəm ki, bizim əksinqilabi təşkilatımız quldur dəstəsini xatırladırdı. Sovet Azərbaycanını imperialist dövlətlərinin müstəmləkəsinə çevirmək üçün əlindən gələni edirdi». Müstəntiq: «Siz hansı təşkilat haqqında danışırsınız və o vaxt təşkilata kim tərəfindən cəlb olunmusunuz?». Cavab: «Mən əksinqilabi «Azərbaycan milli partiyası» (Azərbaycan milli firqəsi) haqqında danışıram. Ora məni 1929-cu ildə Azərbaycan K(b)P MK-nın keçmiş üzvü Ruhulla Axundov cəlb etmişdir». Azərbaycan Milli Partiyası (AMP) 1929-cu ildə yaradılmışdır. Ruhulla Axundov AMP-nin rəhbər mərkəzinin tərkibindəki şəxslərin adlarını mənə söyləmişdi: Mirzədavud

Hüseynov, Teymur Əliyev, Əliheydər Qarayev, Soltan Məcid Əfəndiyev, Dadaş Bünyadzadə, Qəzənfər Musabəyov. Həmid Sultanov, Həbib Cəbiyev və R.Axundov.

Ruhulla Axundovun sözlərinə görə Azərbaycan Milli Partiyasının vəzifələri aşağıdakılardan ibarət idi:

1. Kapitalist ölkələri tərəfindən SSRİ-yə qarşı müdaxilə zamanı Sovet hökuməti əleyhinə silahlı üsyan hazırlamaq yolu ilə Sovet Azərbaycanının SSRİ-dən ayrılması və müstəqil milli respublika yaradılması;

2. Mövcud quruluşa qarşı mübarizə vasitəsi kimi terrorun, təxribatçılığın tətbiqi, ziyankarlıq və casusluq işinin aparılması;

3. Sovet hökumətinə və partiyaya qarşı birgə mübarizə məqsədilə trotskiçilər, müsavatçılar və digər əksinqilabi təşkilatlarla birləşmək yolu ilə bütün əksinqilabi qüvvələrin toplanması.

Mən Ruhulla Axundovun yeni göstərişləri ilə tamamilə razı idim və AMP-də öz işimi davam etdirmək üçün hazır olduğumu bildirmişdim».

1937-ci il avqustun 1-də doqquzuncu istintaqda M.Hüseynov AMP-nin hərbi mərkəzi haqqında ifadə verir. Bu mərkəz öz qarşısına aşağıdakı məqsədləri qoymuşdur. 1. Azərbaycan diviziyası ilə rabitə yaradıb əlaqə saxlamaq; 2. Bakıda və Azərbaycanın rayonlarında silahlı üsyanlar zamanı hərbi əməliyyatlara rəhbərlik etmək üçün müvafiq kadrlar hazırlamaq; 3. Millətçi əhval-ruhiyyəli komandirlərdən ibarət əsas özək yaratmaq və onları AMP-yə sədaqət ruhunda tərbiyə etmək; 4. Üsyan zamanı istifadə və əksinqilabi partiyanı silahla təchiz etmək üçün silah ehtiyatı yaratmaq; 5. Azərbaycan diviziyasının hissələrində ziyankarlıq işi aparmaq; 6. Silahlı üsyan zamanı praktiki kömək məqsədilə ordu hissələrini buraya cəlb etmək.

Onuncu istintaq dörd gün – 1937-ci il avqustun 9-dan 13-dək davam etmişdir. M.Hüseynov Bakıda və respublikanın rayonlarında AMP-nin fəaliyyəti haqqında ifadələr vermişdir.

1937-ci il avqustun 23-24-də on birinci istintaqda M.Hüseynov AMP ilə Bakı əksinqilabi trotskiçi təşkilatın «mərkəzi» arasında yaranan «ittifaq» haqqında ifadələr vermişdir. İttifaq aşağıdakıları nəzərdə tuturdu:

a) zorakılıq yolu ilə stalinçi rəhbərliyi, silahlı üsyanla isə mövcud quruluşu devirmək üçün birgə mübarizənin aparılması

b) mərkəzi hökuməti tutmaq uğrunda mübarizə işində trotskiçilərə AMP tərəfindən zəruri köməyin göstərilməsi;

c) AMP tərəfindən mərkəzi trotskiçi hakimiyyətə Azərbaycan neft sənayesində güzəştlər verilməsi;

ç) Azərbaycanın SSRİ-dən ayrılması və müstəqil respublika yaradılması işində trotskiçi «mərkəz» tərəfindən təminatın verilməsi;

d) silahlı üsyanın, partiya və Sovet hökuməti rəhbərlərinə qarşı terrorçu aktların tətbiqinin təmin edilməsi sahəsində trotskiçi «mərkəz» tərəfindən AMP-yə kömək göstərilməsi.

1937-ci il avqustun 27-də on ikinci istintaqda aydın olmuşdur ki, AMP-nin rəhbər orqanları AMP-nin Mərkəzi Komitəsindən, MK-nın bürosundan, hərbi mərkəz və Ehtiyat mərkəzindən ibarət idi. Hərbi mərkəzə – Qambay Vəzirov və Mürsəl İbrahimov, Ehtiyat mərkəzinə – Davud Rəsulzadə, Qulam Sultanov, Hüseyn Rəhmanov, Cahangir Axundzadə, İsmayıl İsmayılov, Məmmədsadıq Əfəndiyev, Qəzənfər Musabəyov və Əsəd Axundov daxil idilər.

1937-ci il sentyabrın 1-2-də, on üçüncü istintaqda AMP-nin Ehtiyat mərkəzinin yaradılmasının təfərrüatı aydınlaşdı və Hüseyn Rəhmanovun, Davud Rəsulzadənin, Məmmədsadıq Əfəndiyevin, Cahangir Axundzadənin və Müseyib Şahbazovun «əksinqilabi fəaliyyəti dəqiqləşdirildi»...

...1937-ci il oktyabrın 1-də on altıncı, axırıncı istintaqda Mikayıl Hüseynova istintaqın başa çatması haqqında protokol təqdim olunmuşdur. İşin 133-179-cu səhifələrində) 12493 nömrəli iş üzrə ittiham olunanların böyük əksəriyyətinin M.Hüseynovu ifşa edən ifadələri və onlarla üzləşərkən yazılan protokollar var idi.

1937-ci il oktyabrın 3-də M.N.Hüseynovun işi üzrə ittiham qərarı tərtib olunmuşdu. O, ittiham edilirdi ondan ötrü ki:

1. 1 dekabr 1934-cü ildə S.M.Kirovun qəddarcasına öldürülməsini həyata keçirən və son illərdə (1934-1937-ci illərdə) ÜİK(b)P və Sovet hökuməti rəhbərlərinə qarşı terror aktları hazırlayan trotskiçi-zinovyevçi terrorist təşkilatın üzvü idi;

2. Eyni zamanda əksinqilabi AMP-nin sıralarında olmuşdur. Ora 1929-cu ildə cəlb edilmiş və 1933-cü ildən sonra onun qeyri-leqal Mərkəzi Komitəsinə daxil olmuşdur;

3. AMP xətti üzrə onun bir sıra fəal üzvləri ilə təşkilati əlaqələri olmuş, onlara təşkilatın direktivlərini vermiş və əksinqilabi işlərə istiqamətləndirmişdir. Əksinqilabi təşkilata üç nəfəri şəxsən özü cəlb etmişdir;

4. Silahlı üsyan yolu ilə Azərbaycanın SSRİ-dən ayrılması mövqeyində durmuşdur. Azərbaycan SSR-in 15 rayonunda üsyançı təşkilatların hazır-

lanması üzrə AMP-nın apardığı işdən xəbərdar olmuş və şəxsən özü Nuxa rayonunda əksinqilabi üsyançı təşkilata rəhbərlik etmişdir;

5. AMP-nin Bakı əksinqilabi trotskiçi-zinovyevçi terrorist təşkilatının «mərkəzi», habelə digər əksinqilabi təşkilatlarla ittifaqının mövcudluğundan xəbərdar idi;

6. Partiya və hökumətə qarşı mübarizə vasitəsi kimi ÜİK(b)P və Sovet hökuməti rəhbərlərinə qarşı terrorun tətbiq edilməsi mövqelərində dayanmışdır. L.P.Beriya və M.C.Bağırova qarşı terror aktının hazırlanmasından xəbərdar idi.

1937-ci il oktyabrın 12-də SSRİ Ali Məhkəməsi hərbi Kollegiyasının bağlı məhkəmə iclası keçirilmişdir. İclas saat 15:25 dəqiqədə açılmışdır. M.N.Hüseynov özünü günahkar bilmiş, son sözdə cavanlığının nəzərə alınıb cəzasının yüngülləşdirilməsini xahiş etmişdir. İclas saat 15:45 dəqiqdə bağlanmışdır. Hərbi Kollegiya Mikayıl Namaz oğlu Hüseynovu ən ağır cəzaya – güllələnməyə məhkum etmişdir. Hökm dərhal yerinə yetirilmişdir.

1955-ci il avqustun 30-da M.N.Hüseynovun bacısı qızı Kazımova Səltənət Kərim qızı dayısının bəraət alması xahişilə müraciət etmişdir.

1956-cı il mayın 9-da SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasına M.H. Hüseynovun işi üzrə qərar daxil olmuşdur. Vəziyyətlə əlaqədar Mikayıl Namaz oğlu Hüseynovun işinə yenidən baxılmış və Hərbi Kollegiyanın 1 sentyabr 1956-cı il tarixli qərarına görə SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının 1937-ci il oktyabrın 12-də çıxardığı hökm ləğv edilmiş və cinayət tərkibi olmadığına görə iş xətm olunmuşdur.

## BORİS NİKOLAYEVİÇ TİXOMİROV

İstintaq işi № 12493-29

Azərbaycanda 30-cu illər repressiyası dövründə təkcə milli elmi kadrlar, şair və yazıçılar, incəsənət xadimləri, hərbçilər və xalq təsərrüfatının müxtəlif sahələri üzrə ixtisaslı mütəxəssislər aradan götürülmürdü. Azərbaycanlı oğul və qızlarımızla yanaşı, Bakıda doğulub yaşayan və Sovet İttifaqının müxtəlif yerlərindən işləməyə dəvət olunan istedadlı, yüksək ixtisaslı rus, yəhudi, tatar və eləcə də digər millətlərin nümayəndələri də repressiyaya məruz qalırdılar.

Onların içərisində 1898-ci ildə anadan olmuş, ÜİK(b)P-nin üzvü, azərbaycanlı milli kadrların yetişdirilməsində böyük rol oynamış, qırmızı professor Boris Nikolayeviç Tixomirov da var idi. O, Partiya Tarixi İnstitutunun direktoru və ADU-nun tarix fakültəsinin dekanı vəzifələrində çalışmışdır.

1936-cı il dekabrın 1-də leytenant Şer tərəfindən Azərbaycan SSR XDİK DTİ-nin istintaq şöbəsinin rəisi mayor Gerasimovun adına aşağıdakı məzmunda arayış tərtib edilmişdir: «Leninqrad şəhərində məsuliyyətə cəlb olunmuş əksinqilabçı trotskiçilərdən Qarber, Zeydel və başqalarının verdikləri ifadələrə görə XDİK tərəfindən müəyyən edilmişdir ki, B.N. Tixomirov trotskiçi-zinovyevçi təşkilatın üzvüdür.

DTİ-nin istintaq şöbəsi yuxarıda göstərilənləri əsas tutaraq B.N.Tixomirovun həbs olunmasını və Azərbaycan SSR CM-nin 72/73-cü maddə üzrə məsuliyyətə cəlb edilməsini zəruri sayır...»

1936-cı il dekabrın 2-də B.N.Tixomirov həbs edildi. 1936-cı il dekabrın 4-də keçirilən birinci istintaqda müstəntiq B.N.Tixomirova «ənənəvi» sual verir: «İstintaqa məlumdur ki, siz əksinqilabi trotskiçi-zinovyevçi təşkilatın üzvüsünüz. Bunu boynunuza alırsınızmı?» Cavab: «Xeyr, boynuma almıram. Mən özümü ancaq onda günahkar bilirəm ki, ayrı-ayrı əksinqilabçı ikiüzlülərlə barışdırıcı mövqedə olmuşam, onları partiya və sovet orqanları qarşısında ifşa etməmişəm. Məsələn, Nikolayevi, Milmanı, Tomsinskini. Boynuma alıram ki, mən partiyada əksinqilabi ikiüzlü rol oynamışam. Bu, xüsusilə Y.S.Nikolayevə qarşı münasibətdə daha çox büruzə verilmişdir».

5 dekabr 1936-cı il. İkinci istintaq. Sual: «Siz əksinqilabçı trotskiçi Nikolayevi tanıyırsınızmı?». Cavab: «Tanıyıram. 1930-cu ildə ikimiz də Qırmızı Professorlar İnstitutunu bitirib Bakıya işləməyə gələrkən tanış olmuşuq». Bu istintaq bütövlüklə Y.S.Nikolayevin əksinqilabi trotskiçi fəaliyyətinin aşkar edilməsinə həsr olunmuşdur.

8 dekabr 1936-cı il. Üçüncü istintaq. Tixomirov «əksinqilabçı trotskiçi» Drabkinin fəaliyyəti ilə bağlı dindirilmişdir.

10 dekabr 1936-cı il. Dördüncü istintaq. Mustəntiq: «Tanıdığınız gizli əksinqilabçı trotskiçilərin hamısının adlarını söyləyin». Cavab: «İlya Dubinski – Azərfilmin direktoru; Armen Manvelov – Azərbaycan K(b)P MK-nın birinci katibi M.C.Bağırovun köməkçisi. Manvelovda millətçi meyllər daha çox üzə çıxırdı. O, partiya institutunda bütün erməni millətindən olan əməkdaşları savadından asılı olmayaraq, irəli çəkir və daim öz himayəsin-

də saxlayırdı. Daşnak partiyasının üzvü hansısa Manqasarovu isə xüsusilə müdafiə edirdi». 1936-cı il dekabrın 13-də beşinci istintaqda Tixomirov göstərmişdir: «Etiraf edirəm ki, mən ÜİK(b)P-nin nəzdində gizli əksinqilabi trotskiçi kimi fəaliyyət göstərirdim. Əksinqilabi trotskizmə 1931-ci ilin ikinci yarısından qoşulmuşdum. Məni bu ruhda professorlardan X.M.Qarber və Y.S.Nikolayev hazırlamışdılar. Professor Qarber, Nikolayev, Sofronoviç və müəllim Stepanyan çoxdan trotskiçi idilər...

Əksinqilabi trotskiçi-zinovyevçi təşkilatın aşağıdakı üzvlərini tanıyırdım: Leninqrad üzrə – professor Tomsinski, Malışev, Zeydel, Pexerski; Moskva üzrə – professor Milman; Saratov üzrə - profsssor Meyerson; Arxangelsk üzrə – professor Simmonov. Təşkilat ÜİK(b)P əleyhinə mübarizədə əksinqilabi trotskiçi-zinovyevçilərin sağlarla birləşməsinin zəruriliyi və ÜİK(b)P rəhbərlərinə qarşı mübarizənin daha fəal metodlarına – fərdi terrora keçidin vacibliyilə bağlı məsələləri müzakirə edirdi. Təşkilat Stalini, Hitleri və Mussolinini bərabər tuturdu».

Müstəntiqin sualı: «Əksinqilabi qrupunuzun əksinqilabi qəsdləri haqqında danışın». Cavab: «Onlar əsasən aşağıdakılardan ibarətdir:

1. Ölkədə və partiyada demokratiya yox dərəcəsindədir. Ölkədə faktiki olaraq başda Stalin olmaqla bir qrup şəxsin diktaturası mövcuddur. Partiyaya dəmir yüyən geydirilmişdir.

2. Texnikadan başqa, SSRİ-də elm irəli getmir. Sosial-iqtisadi fənlər sahəsində tam durğunluq və uçurum özünü geniş büruzə verir. Tarixçilər, filosof və iqtisadçılar üçün yaradıcı işlə məşğul olmağa heç bir şərait yoxdur; belə ki, partiyanın başında duran bir qrup rəhbərin göstərişləri əleyhinə olan bütün canlı, əsl həqiqi təfəkkürlər boğulub keyləşdirilir.

3. Riyakarlıq partiyaya qarşı mübarizədə əsas metoddur. Bu məsələ üzrə qrupun mövqeyi aşağıdakı şəkildə əsaslandırılmışdır:

a) sosial-iqtisadi fənlər sahəsində elmi cəbhədə işləmək üçün partiyaya mənsubiyyət məcburidir;

b) partiyadaxili rejim hazırkı dəqiqədə bu və ya digər «kəskin» məsələlərə əsaslanan elmi-tədqiqat xarakterli mülahizələri tamamilə məhdud, dar çərçivədə verir;

c) bütün bu çərçivələrdən çıxmaq üçün göstərilən cəhdlər partiyalılığı itirmək təhlükəsinə, belə ki, elm cəbhəsində imkanlı işdən məhrum olmağa gətirib çıxara bilər;

ç) buradan partiya rejimi sisteminin özü tərəfindən iflasa uğramış zəruri mübarizə metodu – ikiüzlülük meydana çıxır.

4. Ölkə və partiyada rejimin dəyişdirilməsinə ancaq başda Stalin olmaqla ÜİK(b)P rəhbərlərinin aradan götürülməsi ilə nail olmaq olar.

5. Partiyaya qarşı mübarizənin genişləndirilməsi prosesində müxtəlif əksinqilabı və antipartiya qruplarından, hətta əksinqilabı millətçi təşkilatlardan da istifadə etmək olar və bu həm də lazımdır.

6. ÜİK(b)P rəhbərlərinin aradan götürülməsi məqsədilə terrorçu mübarizə metodları tətbiq edilməlidir.

1936-cı il dekabrın 19-da altıncı istintaqda Tixomirov professor Tomsinski ilə (Leninqrad) bağlı elmdə partiyanın göstərişlərini pisləyən bir qrup Bakı müəllimlərinin (Ağamir Məmmədov, A.Bukşpan, Vəli Xuluflu, Mirzə Məmmədov, Balabəy Həsənbəyov, Biləndərli, Musaelyan, Belenki, Qrinyov, Gülnəzərov) əksinqilabi əlaqələri barədə ifadələr vermişdir.

1936-cı il dekabrın 29-da yeddinci istintaqda Tixomirov Ruhulla Axundovun və Çiçikalovun əksinqilabi fəaliyyətilə bağlı dindirilmişdir.

1937-ci il yanvarın 15-16-da keçirilən səkkizinci istintaq 1936-cı ildə Leninqradda olan müşavirəyə həsr edilmişdir. Müşavirədə sağlarla birləşən əksinqilabi trotskiçi-zinovyevçi bloku, partiya və Sovet hökumətinə qarşı mübarizənin genişləndirilməsi haqqında söhbətlər getmişdir.

Müstəntiq: «Əksinqilabi trotskiçi təşkilatınızın rəhbərləri tərəfindən hansı əksinqilabi trotskiçi qruplar yaradılmışdır?» Cavab: «Nikolayevin, Qarberin, Sofronoviçin və mənim belə qruplarımız var idi. Professor Nikolayevin qrupuna – Maltsev, Kuzovenko, Melyux, Abbas Yusupov, Əşrəf Quliyev, Həmzə Qasımzadə, Əbülfəz Axundov, Sokolovskaya, Vısotskaya daxil idilər.

Professor Qarberin qrupuna – Dubinski, Manvelov, Daşevski, Gelzen daxil idilər.

Professor Tixomirovun qrupuna – Salamzadə, Belenki, Biləndərli, Qripyov, Həsənboyov, Bukşpan, Mirzə Məmmədov və Sofronoviçin qrupu daxil idi».

Üç gün – 1937-ci il yanvarın 23-dən 25-dək davam edən doqquzuncu istintaqda Tixomirov Sovet hökumətinə qarşı birgə mübarizə məqsədilə əksinqilabi trotskiçi təşkilatın yerli Azərbaycan əksinqilabi təşkilatı arasında olan saziş haqqında ifadələr vermişdir. Qarberlə Axundov arasında müqavilə bağlanmışdır. Sonra Gürcüstan əksinqilabi trotskiçi mərkəzlə

(Budu Mdivani, Sergey Kavtaradze. Mixail Okudjava. Rafik Ağamalyan) habelə milli təmayülçülər və müsavatçılarla müqavilələr imzalanmışdır.

28-29 yanvar 1937-ci il. Onuncu istintaq. Müstəntiq: «Əksinqilabi trotskiçi təşkilatın Bakıda apardığı praktiki iş haqqında danışın». Cavab: «Bu iş aşağıda göstərəcəyim əsas istiqamətlər üzrə aparılırdı:

1. Əksinqilabi trotskizmin təbliği.

2. Əksinqilabi trotskiçi əlaqələrin genişləndirilməsi. təşkilata yeni üzvlərin cəlb edilməsi və əksinqilabi qrupların yaradılması.

3. İdeoloji cəbhədə rəhbər vəzifələrin zəbt edilməsi.

4. Xalq təsərrüfatının əsas sahələrində (neft. nəqliyyat. pambıq) ziyankarlıq işi aparmaq.

5. Partiya rəhbərlərinə. ilk növbədə Bağırova qarşı terrorun praktiki olaraq hazırlanması.

6. Azərbaycanın əksinqilabi millətçi təşkilatı ilə müqavilənin bağlanması. Azərbaycanın kəndlərində üsyançı dəstələrinin yaradılması. partiya və Sovet hökuməti rəhbərliyinə terrorçu zərbə rolunu oynayan üsyançı hərəkatın hazırlanması. Azərbaycan kəndlərində üsyançı hərəkatın hazırlanması əksinqilabi millətçi təşkilatın əsas vəzifəsi idi».

2 fevral 1937-ci il. On birinci istintaq Tixomirov «partiya və Sovet hökumətinə qarşı mübarizədə» əsas metod olan fərdi terror haqqında ifadələr vermişdir.

28 fevral 1937-ci il. On ikinci istintaq. Tixomirov Biləndərlinin əksinqilabi fəaliyyəti, habelə özünün əksinqilabi riyakarlığı haqqında «danışmışdır».

1937-ci il martın 27-si. On üçüncü istintaq. Tixomirovun Sofronoviçlə əksinqilabi əlaqəsinə həsr olunmuşdur.

1937-ci il aprelin 3-də on dördüncü istintaqda müttəhim «gizli trotskiçi», «solçu» Quryeviç (Moskva) haqqında ifadə vermişdir

1937-ci il aprelin 11-də. on beşinci istintaqda Tixomirov əksinqilabçı trotskiçi Melyux (Moskva) və onun əlaqələri barədə dindirilmişdir.

1937-ci il aprelin 27-də. on altıncı istintaqda o. əksinqilabçı millətçi Mikayıl Hüseynov haqqında danışmışdır.

1937-ci il mayın 10-da on yeddinci istintaqda müttəhim ÜİK(b)P daxilində ikiüzlü rol oynayan əksinqilabçı millətçilər – Maqsud Məmmədov. Balabəy Həsənbəyov. Surxay Hacıyev. Cabbar Məmmədzadə. Qubaydullin və Çobanzadə; əksinqilabçı millətçi təşkilatın üzvləri -- Ruhulla Axun-

dov, Vəli Xuluflu, Həsən Səfərov, H.Sadıxov, A.Triniç, Hənəfi Zeynallı haqqında ifadələr vermişdir.

1937-ci il mayın 11-də, on səkkizinci istintaqda əksinqilabçı trotskiçı. Xəzər Dəniz Gəmiçiliyi İdarəsinin rəis müavini V.F.Kuzovenko barəsində danışmışdır.

14 may 1937-ci il. On doqquzuncu istintaq. Müstəntiq: «Bakı əksinqilabi trotskiçi təşkilatın tərkibinə daxil olan hansı əksinqilabi trotskiçi qruplar Sizə məlumdur?». Cavab: «Rəhmətov və Peçorskinin, Gevorkyanın, Nikolayevin qrupları».

1937-ci il mayın 17-də keçirilən iyirminci istintaq əksinqilabi trotskiçi təşkilatın praktiki işinin «xronoloji inkişafının» aydınlaşdırılmasına həsr olunmuşdur.

1937-ci il iyulun 29-30-da iyirmi birinci istintaqda Tixomirov Partiya Tarixi, Neft, Ali Partiya institutlarında, universitetdə, Marksizm-Leninizm İnstitutunda, İqtisadiyyat İnstitutunda, Bakı qarnizonunda və Xəzər Dəniz Gəmiçiliyi İdarəsində aparılan «praktiki əksinqilabi iş haqqında» ifadələr vermişdir.

Ancaq 1937-ci il iyulun 7-də birdən yada düşmüşdür ki, 1924-cü ildən ÜİK(b)P-nin üzvü, 1429333 nömrəli partiya bileti olan B.H.Tixomirov hələ partiya sıralarında qalmışdır. Buna görə də o, təcili surətdə XDİK orqanları tərəfindən aşkar edilib tutulmuş, əksinqilabçı trotskist, xalq düşməni kimi partiyadan çıxarılmışdır.

1937-ci il avqustun 1-də iyirmi ikinci istintaqda Tixomirov əksinqilabi trotskiçi təşkilatın hərbi hissələrdə əksinqilabi millətçi təşkilatla birlikdə apardığı təşkilati işlərlə bağlı dindirilmişdir. Əksinqilabi təşkilata aşağıdakı şəxslər cəlb edilmişdir: Qanbay Vəzirov – Az. diviziyanın rəisi, Cabir Əliyev – Az. diviziyanın siyasi şöbəsinin rəisi, Məmmədov – Bakı şəhər hərbi komissarı, Vasilnin – Bakı şəhərinin komendantı, Abdullayev – siyasi işçi, Quliyev – kafedra müdiri. Əksinqilabi millətçi təşkilata qızıl ordu əsgərlərinin cəlb edilməsi işi ilə Məmməd Bayramov məşğul olmuşdur.

Nikolayev mənə deyirdi: «Əksinqilabi trotskiçi və əksinqilabi millətçi təşkilatlar Bakıda silahlı üsyanı ya müharibə vaxtı, yaxud iri dövlətlər arasında beynəlxalq hərc-mərclik getdiyi vaxt, yaxud da Stalinə, Voroşilova, Molotova, Kaqanoviçə və partiyanın digər rəhbərlərinə qarşı terrorçu aktların həyata keçirildiyi bir vaxta salmağı nəzərdə tutmuşlar. Silahlı üsyanın planı artıq tərtib edilmişdi. Burada aşağıdakılar nəzərdə tutulurdu a) poçt, teleqraf, dəmir yolunun eyni vaxtda ələ keçirilməsi; b) Azərbay-

canın rayonlarında üsyançı təşkilatlarla əlaqələrin yaradılması və onların silahla təchiz edilməsi; c) Bakı qarnizonunun hissələrində üsyan; ç) neft mədənlərində partlayış və yanğınların təşkili; d) mətbəənin ələ keçirilməsi və trotskiçi və millətçi şüarlarla əhaliyə müraciətlərin çap edilməsi; e) həbsxanaların zəbt edilməsi və məhbusların oradan buraxılması; ə) hökumət başçılarının, məsul işçilərin öldürülməsi və həbs edilməsi; f) əksinqilabı hökumətin təşkili.

Mən bu zaman qəzet buraxmalı idim». 1937-ci il avqustun 1-2-də 23-cü istintaqda Tixomirov əksinqilabi trotskiçı təşkilatın rəhbərlərini əksinqilabi əlaqələri haqqında ifadələr vermişdir. Beriya və Bağırova qarşı terror aktları haqqıpda məsələlər Ruhulla Axundovla müzakirə edilmişdir. «Mən verilən tapşırığa görə aşağıdakı şəxslərdən ibarət terrorçu qrup yaratmışdım: Rəhim Həsənov, Baba Əsgərov, İbrahim Eminbəyli, Belenki, Qorski, Cəmil Əsgərov, Manvelyan, Gindın, Danielyan, Musaelyan. Burada, habelə Nikolayevin, Tokinin, Çiçikalovun və Drabkinin qrupları da fəaliyyət göstərirdi».

1937-ci il avqustun 10-da keçirilən iyirmi dördüncü istintaq Tokinin əksinqilabi əlaqələrinə həsr olunmuşdur.

1937-ci il avqustun 20-də, iyirmi beşinci istintaqda Tixomirov 1935-ci ildə Bakıda siyasi büronun üzvlərindən Kalinin və Voroşilova qarşı hazırlanan terrorçu aktlar barədə dindirilmişdir.

1937-ci il avqustun 29-da B. N. Tixomirov demişdir: «Azərbaycan SSR CM-nin 73, 21/64, 69, 21/70-ci maddələri üzrə mənə verilən ittihamlarda özümü günahkar hesab edirəm».

1939-cu il sentyabrın 2-də iyirmi səkkizinci istintaqda «Terrorçu qrupun iştirakçıları və mənim, yəni Tixomirovun tərəfindən hazırlanıb terrorçu qrupa cəlb edilən Gindin» haqqında ifadələr verilmişdir.

1937-ci il avqustun 29-da B.N.Tixomirova istintaq işinin başa çatması ilə əlaqədar protokol təqdim edilmişdir. 1937-ci il avqustun 31-də 12493 №-li istintaq işi üzrə müttəhim B.N Tixomirovun ittiham qərarı tərtib edilmişdir. Burada deyilirdi: «1936-cı ilin sonlarında Bakı paralel əksinqilabi trotskiçi terrorçu təşkilatın üzvü B.N.Tixomirov Azərbaycan SSR XDİK DTİ-si tərəfindən aşkar edilib həbs olunmuşdur.

Təşkilat ÜİK(b)P və Sovet hökuməti rəhbərlərinə qarşı terror tətbiq etmək, ziyankarlıq, təxribatçılıq, casusluq işi aparmaq və Bakı şəhərində silahlı üsyan hazırlamaq vəzifəsini qarşısına məqsəd qoymuşdur.

B.N.Tixomirov ittiham edilir, ondan ötrü ki:

1. 1934-cü il dekabrın 1-də S.M.Kirovun qəddarcasına öldürülməsini həyata keçirən və sonrakı illərdə (1934-1937-ci illər) ÜİK(b)P və Sovet hökuməti rəhbərlərinə qarşı terror aktları hazırlayan əksinqilabi trotskiçi-zinovyevçi təşkilatın üzvü idi;

2. 1931-ci ildə professor Qarber tərəfindən əksinqilabi trotskiçi təşkilatın tərkibinə cəlb edilmişdir;

3. 1933-cü ildə professor Tomsinski vasitəsilə Leninqrad əksinqilabi trotskiçi təşkilatla paralel əlaqə yaratmışdır. Elə o vaxt bu təşkilatdan ÜİK(b)P rəhbərlərinə qarşı mübarizə vasitəsi kimi terror və əksinqilabi işlə əlaqədar göstərişlər alırdı;

4. 1934-1935-ci illərdə əksinqilabi trotskiçi mərkəzin üzvü Sofronoviç və bu təşkilatın fəal üzvü Nikolayevlə birlikdə xalq təsərrüfatında ziyankarlığın genişləndirilməsi haqqında əksinqilabi mərkəzin direktivlərini müzakirə etmişlər; Sofronoviçdən öyrənmişdir ki, ziyankarlıq işini Bakı şəhərinin neft rayonlarında praktiki olaraq genişləndirmək olar;

5. 1936-cı ildə Şaumyan adına institutun direktoru olarkən ziyankarlıq işi aparmışdır;

6. 1935-1936-cı illərdə əksinqilabi trotskiçi mərkəzin üzvü Sofronoviç və fəal terrorçu Nikolayevlə birlikdə silahlı üsyana hazırlıqla bağlı məsələləri müzakirə etmişdir. Üsyan vaxtı qəzet buraxmaq üçün şəxsən razılıq vermişdir;

7. 1935-1936-cı illərdə 10 nəfərdən ibarət terrorçu qrup yaratmışdır;

8. 1936-cı ilin əvvəllərində əksinqilabi trotskiçi mərkəzin üzvü kimi əksinqilabi trotskiçi və əksinqilabi millətçi təşkilatların əsas rəhbəri – Ruhulla Axundovla təşkilati əlaqə yaratmışdır;

9. Nikolayev, Çiçikalov və R.Axundovla birlikdə Kalininə, Voroşilova, Beriyaya və Bağırova qarşı terror aktlarının həyata keçirilməsilə bağlı bir neçə üsul işləyib hazırlamışdır;

10. Voroşilova və Beriyaya qarşı terrorçu aktların həyata keçirilməsində fiziki cəhətdən iştirakçı olmağa şəxsən razılıq vermişdir, yəni Azərbaycan SSR CM-nin 69, 70, 73-cü maddələrində nəzərdə tutulmuş cinayətlərdə günahlandırılmışdır. Müttəhim özünü tam təqsirkar bilmişdir.

1937-ci il sentyabrın 5-də ittiham qərarı Azərbaycan SSR xalq daxili işlər komissarı Sumbatov tərəfindən təsdiq edilmişdir. 1937-ci il oktyabrın 12-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının (Matuleviç, Zaryanov,

Jiqur) hazırlıq iclasının protokolu tərtib edilmişdir: «B.N.Tixomirovun işi Azərbaycan SSR CM-nın 69, 70 və 73-cü maddələri üzrə məhkəməyə verilməli. İşə bağlı məhkəmə iclasında müdafiəçisiz, ittihamçısız və şahidlərsiz baxılmalı».

1937-ci il oktyabrın 13-də hərbi Kollegiyanın bağlı məhkəmə iclası olmuşdur. İclas saat 22:20 dəqiqədə açılmışdır.

Müttəhim B.N.Tixomirov özünü günahkar bilmişdir. Son sözdə bildirmişdir ki, o ən ağır cəzaya məhkumdur. Lakin eyni zamanda günahının yüngülləşdirilməsini xahiş etmişdi. İclas saat 22:40 dəqiqədə bağlanmışdır.

1937-ci il oktyabrın 13-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası Boris Nikolayeviç Tixomirovu ən ağır cəzaya – güllələnməyə məhkum etmişdir. hökm dərhal yerinə yetirilmişdir. İşdə hökmün 13.10.37-ci il Bakı şəhərində icra edilməsi haqqında arayış vardır.

1956-cı il avqustun 13-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının qərarına görə 1937-ci il oktyabrın 13-də B.N.Tixomirovun işi ilə əlaqədar çıxarılan hökm ləğv edilmiş, cinayət tərkibi olmadığı üçün iş xətm olunmuşdur.

## ALEKSANDR SEMYONOVİÇ BUKŞPAN

İstintaq işi № 12493-76

12493 №-li istintaq işi üzrə həbs edilmiş Tixomirov və Çiçikalovun ifadələrinə əsasən 1898-ci ildə anadan olmuş. SSRİ EA-nın Azərbaycan filialının Tarix, Arxeologiya, Etnoqrafiya İnstitutunun əməkdaşı və Bakı ali məktəblərinin tarixçi professoru Bukşpan Aleksandr Semyonoviç 1937-ci il yanvarın 26-da Azərbaycan SSR CM-nın 72/73-cü maddələri üzrə cinayət məsuliyyətinə cəlb edilmiş və həbs olunmuşdur.

1937-ci il yanvarın 31-də SSRİ EA-nın Azərbaycan filialının rəyasət heyətinin qərarı və Tarix, Arxeologiya, Etnoqrafiya İnstitutunun əmri ilə A.S.Bukşpan xalq düşməni kimi işdən çıxarılmışdır.

1937-ci il yanvarın 29-da birinci istintaqda müstəntiq Xoren Qriqoryan A.S.Bukşpana belə bir sualla müraciət edir: «Siz əksinqilabı trotskiçi təşkilatın üzvüsünüz. Bunu etiraf edirsinizmi?». Cavab: «Mən əksinqilabi trotskiçi təşkilatın üzvü olmamışam». Müstəntiq: «Sizə düz danışmağı təklif edirik. İstintaq tərəfindən müəyyən olunmuşdur ki. siz əksinqilabi trotskiçi təşkilatın üzvüsünüz». Cavab: «Mən yenə də deyirəm ki, əksinqilabi trotski-

çi təşkilatın üzvü olmamışam». Müstəntiq: «Əksinqilabi trotskiçilərdən kimləri tanıyırsınız?». Bukşpan artıq həbs olunmuş şəxslərin familiyalarını (Çıçikalov, Tixomirov, Nikolayev, Safronoviç, Drabkin və başqaları) söyləyir.

İkinci istintaq dörd gün (1-4 fevral 1937-ci il) çəkmişdir. «Əksinqilabçı millətçilərdən kimləri tanıyırsınız?» sualına Bukşpan həbs olunmuş İbrahim Eminbəylinin, Vəli Xuluflunun, Həsən İmanovun, Ağamir Məmmədovun, Balabəy Həsənbəyovun, Dadaş Bunyadzadənin, Tağı Şahbazinin və Ruhulla Axundovun adlarını söyləyir. Dörd gün ərzində Bukşpan ayaq üstə, hətta oturmağa, yaxud divara söykənməyə icazə olmadan, fasiləsiz bir-birini əvəz edən müstəntiqlərin sorğu-sualları altında istintaq edilmişdir.

Üçüncü istintaq (7-9 fevral 1937-ci il) üç gün çəkmişdir. Bukşlan Vəli Xuluflu, Tixomirov, Safronoviçlə bağlı dindirilmişdir. Lakin o, əksinqilabi trotskiçilərlə hansısa əlaqəsinin olmasını qəti rədd etmişdir. Müstəntiq: «Siz 1923-cü ildən həbs olunan günədək partiya sıralarında ikiüzlü rol oynamışsınız. Bu, istintaqa dəqiq məlumdur. Müqaviməti dayandırmağı və düz danışmağı təklif edirik». Cavab: «Mən heç vaxt ikiüzlülük etməmişəm». Müstəntiq: «Siz əksinqilabçı, terrorçu Trotskini təbliğ etmisiniz». Cavab: «Mən əksinqilabçı Trotskini təbliğ etməmişəm».

1937-ci il fevralın 10-da dördüncü istintaqda A.S.Bukşpan «etiraf etmişdir»: «Mən gizli əksinqilabi trotskiçilərin ifşa olunmasına kömək etməmişəm. Mən özüm gizli əksinqilabi trotskiçiyəm, partiya sıralarında ikiüzlü rol oynamışam».

Beşinci istintaq dörd gün (13-16 fevral 1937-ci il) çəkmişdir. Bukşpan yenidən Çiçikalovun və Sofronoviçin əksinqilabi fəaliyyəti ilə bağlı dindirilmişdir. Professor Qubaydullinin əksinqilabi fəaliyyəti haqqında ifadə verərkən Bukşpan demişdir ki, Qubaydullin əksinqilabi müsavatçılardan Hüseyn Cavid, Ələskər Ələkbərov, Bayramov (Dövlət arxivinin direktoru), Gülnəzərov (Dövlət arxivinin işçisi), Çobanzadə, Tixomirovla əlaqədə olmuşdur. «Özümə gəldikdə isə, mən (yəni Bukşpan) pantürkist Qubaydullinlə əlaqə saxlayırdım. Yaxın Şərq tarixinin öyrənilməsi sahəsində onun şagirdi idim».

Uzun çəkən təhqir və işgəncələr əlbəttə ki, professor A.S.Bukşpana psixi təsir göstərməyə bilməzdi. O, iki dəfə intihar etməyə cəhd göstərmişdir. İşdə 1937-ci il martın 26-da yazılmış aktda deyilirdi: «36 nömrəli təkadamlıq kamerada saxlanan Bukşpan iki dəfə mələfədən ip kimi istifadə

edib özünü öldürməyə cəhd göstərmişdir. Lakin nəzarətçilər tərəfindən bu səylərin qarşısı vaxtında alınmışdır».

1937-ci il iyunun 14-də altıncı istintaqda (Bukşpanın həbsxanada saxlanılma müddəti iki dəfə uzadılmışdır) Bukşpan əksinqilabi təşkilatın üzvü olması, onun fəaliyyətində iştirak edən fəal trotskiçi kimi istintaqa «məlum» növbəti faktlar barədə demişdir: «Qəti surətdə bildirirəm ki, mən əksinqilabi trotskiçi təşkilatın üzvü olmamışam və onun fəaliyyəti haqqında heç nə bilmirəm». Qriqoryanın bütün sübut və «dəlilləri» müttəhimin qəti «yox» cavabları ilə rədd edilirdi. Müstəntiq: «Siz pantürkist və panislamist ideyaların fəal təbliğatçısısınız». (Afərin, Qriqoryan! Hətta yəhudini də pantürkist və panislamist adlandırmışdır! – Z.B.) Bukşpan Qriqoryanın həyasızcasına deyilmiş bu «dəlil-sübutunu» da qəti rədd etmişdir. Müstəntiq: «Siz «Türklərin mənşəyi haqqında» məqalənizdə türk xalqlarının birliyi ideyasını sübut etməyə çalışmışsınız». Bukşpan: «Mənim belə bir məqaləm olmayıb. «Qədim türk dövlətlərinin birləşməsinin mənşəyi haqqında» hesabatım olub və burada da mən türk xalqlarının birliyi ideyasının sübutuna çalışmamışam».

1937-ci il iyunun 19-da yeddinci istintaqda Bukşpan həbs edilmiş əmisi oğlu Yakov Bukşpan haqqında, onun professor Qurko-Kryajin, əksinqilabçı, pantürkist Xocayev və Qubaydullin, Xuluflu ilə olan əksinqilabi əlaqələri barədə dindirilmişdir. Bukşpan Qriqoryanın bütün «dəlil-sübutlarını» rədd etmişdir.

1937-ci il sentyabrın 20-də axırıncı səkkizinci istintaqda Bukşpan «qeyri-leqal yığıncaqda terror haqqında məsələnin müzakirəsində» iştirakını boynuna almır. Bukşpan 12493 nömrəli iş üzrə ittiham olunan müttəhimlərin ona qarşı verdikləri bütün ifadələri rədd edir.

1937-ci il sentyabrın 26-da istintaqın başa çatması ilə əlaqədar protokol tərtib edilərkən A.S.Bukşpan bildirmişdir ki, ona verilən ittihamlarda özünü günahkar hesab etmir.

A.S.Bukşpanın işi üzrə ittiham qərarında deyilir: «1936-cı ilin axırında Azərbaycan SSR XDİK DTİ tərəfindən Ümumittifaq trotskiçi-zinovyevçi terrorist təşkilatı ilə əlaqədə olan Bakı paralel (!) əksinqilabi trotskiçi terrorist təşkilatı aşkar edilmiş və dağıdılmışdır. Təşkilat ÜİK(b)P və Sovet hökuməti rəhbərləri əleyhinə terror tətbiq etmək vəzifəsini qarşısına qoymuş, casusluq, ziyankarlıq – təxribatçılıq işi aparmış, Bakıda silahlı üsyan (bax belə! – Z.B.) hazırlanmışdır.

1898-ci il təvəllüdlü, Azərbaycanın bir çox ali məktəblərinin professoru, Aleksandr Semyonoviç Bukşpan ittiham edilir, ondan ötrü ki:

1. 1934-cü il dekabrın 1-də S.M.Kirovun xaincəsinə öldürülməsini həyata keçirən və sonrakı illərdə (1934-1937-ci illər) partiya və Sovet hökuməti rəhbərlərinə qarşı terrorçu aktlar hazırlayan əksinqilabi trotskiçi-zinovyevçi terrorist təşkilatın üzvüdür;

2. On il ərzində (1927-1937-ci illər) Ümumittifaq əksinqilabi pantürkist təşkilatın üzvlərindən professor Çobanzadə və Qubaydullinlə əksinqilabi əlaqə saxlamış, onların əksinqilabi fəaliyyətindən xəbərdar olmuş və praktik olaraq özü də əksinqilabi millətçi xarakterli iş aparmışdır, yəni Azərbaycan SSR CM-nın 70 və 73-cü maddələrində nəzərdə tutulan cinayətlərdə təqsirləndirilmişdir.

Əvvəllər A.S.Bukşpan əksinqilabi trotskiçi söhbətlər apardığı üçün özünü günahkar bilmiş, sonra isə verdiyi ifadələrdən tamam imtina etmişdir. (Oxucu Qriqoryan tərəfindən sənədlərin nə qədər bacarıqsızcasına, yararsız halda tərtib olunduğuna özü qiymət versin! – Z.B.).

1937-ci il oktyabrın 10-da SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası Səyyar sessiyasının (Matuleviç, Zaryanov, Jiqur) hazırlıq iclasının protokolu tərtib olunmuşdur: «A.S.Bukşpapın işi Azərbaycan SSR CM-nin 70, 73-cü maddələri üzrə məhkəməyə verilməli. İşə bağlı məhkəmə iclasında, müdafiəçisiz, ittihamçısız və şahidlərsiz baxılmalı».

1937-ci il oktyabrın 11-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası Səyyar sessiyasının bağlı məhkəmə iclası olmuşdu. İclas saat 16:30 dəqiqədə açılmış, müttəhim A.S.Bukşpan özünü günahkar hesab etməmişdi. Sədr Bukşpanın əksinqilabi təşkilatın üzvü olması haqqında Çiçikalovun, Çobanzadənin və Tixomirovun verdikləri ifadələri oxumuşdur. Bukşpan bildirmişdir ki, bu şəxsləri (bax belə! – Z.B.) yaxşı tanıyır. Lakin onların verdikləri ifadələr yalandır, ona böhtan atırlar. Müttəhim son sözdə demişdir ki, heç vaxt trotskiçi olmamışdır və günahının gərgin əməklə bağışlanmasına imkan yaradılmasını xahiş etmişdir.

İclas saat 16:50 dəqiqədə bağlanmışdır.

1937-ci il oktyabrın 11-də Aleksandr Semyonoviç Bukşpan ən ağır cəzaya – güllələnməyə məhkum olunmuşdur. Hökm dərhal yerinə yetirilmişdir. (İşdə A.S.Bukşpanın 1937-ci il oktyabrın 12-də Bakı şəhərində güllələnməsi haqqında arayış vardır).

17 aprel 1955-ci ildə A.S.Bukşpanın həyat yoldaşı, uzun illər həbs cəzası çəkmiş Bukşpan-Sazonova Anna Nikolayevna özünə və ərinə bəraət verilməsini xahiş etmişdir.

1956-cı il aprelin 16-da Zaqafqaziya Hərbi Dairəsi prokurorunun köməkçisi tərəfindən hökmün ləğv edilməsi barədə qərar çıxarılmışdır.

1956-cı il iyunun 15-də Baş hərbi prokuror müavini də A.S.Bukşpanın işi üzrə belə bir qərar çıxarmışdır.

Vəziyyətlə əlaqədar A.S.Bukşpanın işinə yenidən baxılmış, SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının 1956-cı il 28 noyabr tarixli qərarına görə SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının 11 oktyabr 1937-ci il tarixli hökmü ləğv olunmuş və cinayət tərkibi olmadığı üçün iş xətm edilmişdir.

## ABDULLA MƏMMƏD OĞLU TAĞIZADƏ

İstintaq işi № 12493-200

12493 №-li istintaq işi üzrə ittiham olunan bəzi müttəhimlərin verdikləri ifadələrə əsasən 1937-ci il martın 17-də, 1897-ci ildə Gəncə şəhərində anadan olmuş, SSRİ EA Azərbaycan filialının elmi işçisi və API-nin dilçilik kafedrasının müdiri Abdulla Məmməd oğlu Tağızadənin həbs edilməsi haqqında qərar çıxarıldı. Qərarda deyilirdi ki, «A.M.Tağızadənin əksinqilabi millətçi təşkilatın üzvü olması haqqında kifayət qədər əsas var. O, ziyankarlıq işi aparmış, silahlı üsyan, partiya və hökumət rəhbərlərinə qarşı terrorçu aktların tətbiq edilməsi mövqeyində durmuşdur, yəni Azərbaycan SSR CM-nin 72/73, 64, 69 və 70-ci maddələrində nəzərdə tutulan cinayətlərdə günahlandırılır».

1937-ci il martın 20-də birinci istintaqda müstəntiqin A.M.Tağızadəyə ilk sualı bu oldu: «Əksinqilabçı millətçilərdən kimi tanıyırsınız?» Cavab: «Şəxsən mən əksinqilabçı millətçilərdən heç kəsi tanımıram. Ancaq mətbuatda ifşa olunan əksinqilabçı millətçiləri tanıyıram». Müstəntiq: «Biz sizin tanıdığınız əksinqilabçı millətçiləri soruşuruq». Cavab: «Şəxsən mən əksinqilabçı millətçilərdən heç kəsi tanımıram».

22 mart 1937-ci il. İkinci istintaq. Müstəntiq: «Martın 20-də keçirilən istintaqda xəbərdarlıq edilməsinə baxmayaraq, sizə məlum olan əksinqilabçı millətçilərdən heç birinin adını çəkmədiniz. İndi necə, tanıdığınız əksinqilabçı millətçilərin adlarını çəkmək niyyətindəsinizmi?» Cavab: «Mən

şəxsən bir nəfər də əksinqilabçı millətçi tanımıram». Müstəntiq: «Siz bunu qəti şəkildə təsdiq edirsinizmi?» Cavab: «Mən bunu qəti şəkildə təsdiq edirəm». Müstəntiq: «Əksinqilabçı millətçi kimi Vəli Xuluflunu tanıyırsınızmı? Niyə inad göstərirsiniz və istintaqa nə üçün qeyri-səmimi cavab verirsiniz? Cavab: «Orfoqrafiya və terminologiyanın ayrı-ayrı məsələləri üzrə Vəli Xuluflunu əksinqilabçı millətçi kimi tanıyıram». Müstəntiq: «İstintaqa məlumdur ki, siz həbs olunan dəqiqəyədək əksinqilabi millətçi, Sovet hökumətinə qarşı mübarizə mövqelərində durmusunuz. Bunu etiraf edirsinizmi?» Cavab: «Mən özümü günahkar hesab edirəm, ona görə ki, 1921-1922-ci illərədək əksinqilabi millətçi mövqelərdə durmuşam. 1922-ci ildən 1936-cı ilədək ideoloji cəbhədə ayrı-ayrı millətçi səhvlərim olub. Bu sahədə özümü təqsirkar bilirəm».

28 mart 1937-ci il. Üçüncü istintaq. Müstəntiq: «Müqavimət göstərmədən düz danışmağınızı təklif edirik». Cavab: «1922-ci ilədək əksinqilabi millətçi mövqedə durduğumu təsdiq edirəm». Müstəntiq: «Hər şeyi boş sözlə inkar etməyi dayandırmaq fikrindəsiniz, yaxud gözləyirsiniz ki, sizin qeyri-səmimiliyinizi ifşa edən müttəhimlərin digər ifadələrini təqdim edək?» Cavab: «Həbs olunan günədək mən əksinqilabi millətçi mövqedə durmamışam». Müstəntiq: «Müttəhim Vəli Xuluflunun 1937-ci il fevralın 25 və 28-də verdiyi ifadədə sizin həbs olunan günədək əksinqilabi millətçi mövqedə durduğunuz təsdiq edilir. Bununla da siz ifşa olunursunuz. İnad edib müqavimət göstərməyin». Cavab: «Vəli Xuluflunun ifadəsini mən rədd edirəm». Müstəntiq: «Vəli Xuluflunun ifadəsini nahaq yerə rədd etməyə çalışırsınız». Cavab: «Xuluflunun məlumatı həqiqətə uyğun deyil».

1937-ci il martın 31-də dördüncü istintaqda müstəntiq A.M.Tağızadəyə Çobanzadənin ifadəsini oxuyur. Lakin müttəhim onunla, habelə türk alimi İsmayıl hikmətlə olan əlaqəsini qəti rədd edir.

1937-ci il aprelin 4-də beşinci istintaqda A.M.Tağızadə Çobanzadə ilə olan əksinqilabi əlaqəsini rədd edir və onunla ancaq əlifba, orfoqrafiya və terminologiya ilə bağlı pantürkist söhbətlər apardığını söyləyir.

5 aprel 1937-ci il. Müstəntiqlər Qriqoryan və Şer, Çobanzadənin müttəhim Abdulla Tağızadə ilə əksinqilabi millətçi söhbətlər apardığını qəti rədd etməsi barədə müttəhimin verdiyi ifadə ilə əlaqədar akt tərtib etdilər «Müttəhim Abdulla Tağızadə istintaqda özünü qeyri-səmimi aparır, istintaqla şiddətli mübarizə edir və istintaqın bütün suallarına dəlilsiz-sübutsuz

cavablar verir. Müttəhim Abdulla Tağızadə aktı imzalamaqdan imtina etmişdir».

8 aprel 1937-ci il, altıncı istintaq. Müstəntiq: «Çalışın, tanıdığınız, yaddan çıxmış əksinqilabçı millətçilərin adlarını istintaqa söyləyin. (Xuluflu və Çobanzadədən başqa)». Cavab: «Mən əksinqilabçı millətçilərdən daha heç kəsi tanımıram». Müstəntiq: «Əksinqilabçı millətçi Əli Kərimovu necə, tanıyırsınızmı? Siz bunu istintaqdan niyə gizlədirsiniz?». Cavab: «Əli Kərimovu mən əksinqilabçı millətçi kimi tanımıram, lakin o, Azərbaycanın unifikasiya edilmiş əlifbaya keçməsinə maneçilik törətmək üçün Ruhulla Axundovdan əksinqilabçı göstərişlər alırdı».

21 aprel 1937-ci il. Yeddinci istintaqda A.M.Tağızadə müstəntiqin suallarına cavab verərək göstərmişdir: «Mən Sovet hökumətinə qarşı mübarizə mövqeyində durmamışam, əksinqilabi iş aparmamışam. Orfoqrafiyanın ayrı-ayrı məsələlərilə bağlı diskussiyalar aparılan konfrans və iclaslardan sonra mən dilçilik sahəsində əksinqilabi millətçi görüşlər barədə Çobanzadəyə, Xulufluya, Əli Nazimə, Qulam Bağırova, İdris Həsənova və Xalid Seyid Xocayevə müxtəlif vaxtlarda öz fikrimi bildirmişəm. Onlar Azərbaycan orfoqrafiyası sahəsində əksinqilabi millətçi mövqedə dururdular».

1937-ci il sentyabrın 12-də səkkizinci istintaqda (müstəntiqlər istintaqın altı ay da uzadılmasına icazə almışdılar – Z.B.) müstəntiq deyir: «Siz ÜİK(b)P-nin milli siyasət xəttinə və Sovet hökumətinə iyrənc böhtan atdığınız barədə söhbəti istintaqdan gizlədirsiniz. Düz danışın!» Cavab: «Mən bunu rədd edirəm». Müstəntiq: «Müttəhim Çobanzadə sizin əksinqilabi millətçi təşkilata məxsusluğunuz haqqında ifadə vermişdir». Cavab: «Çobanzadə düzgün ifadə verməmişdir. Mən onun bu ifadəsini rədd edirəm». Müstəntiq: «İstintaq sizdən davranış xəttinizi dəyişməyi tələb edir. Siz Azərbaycandakı əksinqilabi millətçi pantürkist təşkilatın üzvüsünüz. Bunu etiraf edirsinizmi?» Cavab: «Xeyr, etiraf etmirəm! Mən əksinqilabi millətçi pantürkist təşkilatın üzvü deyiləm və heç vaxt olmamışam. Belə bir təşkilatın olması barədə mənə heç nə məlum deyil». Müstəntiq: «İstintaq xəbərdarlıq edir ki, siz yenə də ifşa olunacaqsınız. Düz danışın!» Cavab: «Mən düz danışıram!» Müstəntiq: (Qubaydullinin ifadəsini oxuyur.) Cavab: «Qubaydullinin də ifadəsini rədd edirəm. O düz danışmır. Mən onlar tərəfindən heç bir təşkilata cəlb edilməmişəm».

Oxucu görür ki, müstəntiqin Abdulla Tağızadəni xalq düşməni, əksinqilabçı, pantürkist və millətçi kimi «ifşa etmək» təşəbbüsləri boşa çıxdı.

Lakin A.M.Tağızadə məhkumdur. O məhv ediləcək. Axı, istintaq ondan əvvəlcədən nəzərdə tutulmuş lazımi ifadələri zorla almalıdır, yoxsa Azərbaycan ziyalılığını, respublikanın bütün görkəmli alimlərini, onun bütün genofondunu aradan götürmək planı həyata keçməyəcək.

Və onda A.M.Tağızadəyə istintaqın 3 nömrəli metodu tətbiq edildi. Onu vəhşicəsinə döyməyə və bir adamın belə davam gətirə bilməyəcəyi təkmilləşdirilmiş cəza üsullarından istifadə etməyə başladılar. Nəhayət, Abdulla Tağızadə təslim oldu.

1937-ci il oktyabrın 10-da A.M.Tağızadə Çobanzadə ilə üzləşərkən istintaqın ona verdiyi bütün ittihamları etiraf etmişdir.

1937-ci il oktyabrın 15-dən 17-dək fasiləsiz aparılan doqquzuncu istintaqın sonunda müstəntiq demişdir: «Çobanzadə ilə üzləşərkən siz etiraf etdiniz ki, əksinqilabi millətçi pantürkist təşkilatın üzvüsünüz və bu məsələ ilə əlaqədar dəqiq və ətraflı ifadə verməyə söz vermisiniz. Vədinizi həyata keçirin!».

Abdulla Tağızadə əlbəttə ki, «hər şeyi etiraf etmişdir». O, müstəntiqin 1937-ci il oktyabrın 18-də onuncu istintaqda, 1937-ci il oktyabrın 19-da on birinci istintaqda göstərdiyi bütün ittihamları «etiraf etmişdir». Razı qalmış müstəntiq elə həmin gün Abdulla Məmməd oğlu Tağızadənin işi üzrə istintaqın başa çatması haqqında protokol tərtib etmişdir.

1937-ci il oktyabrın 17-də A.M.Tağızadənin bütün kitabxanası yandırılmışdır. Bu barədə işdə müvafiq akt vardır.

1937-ci il oktyabrın 22-də Sumbatov-Topuridze A.M.Tağızadənin istintaq işi üzrə ittiham qərarını təsdiq etmişdir. A.M.Tağızadə özünü təqsirkar bilmişdir, ondan ötrü ki:

1. Azərbaycanda əksinqilabi millətçi, terrorist, pantürkist təşkilatın üzvü olmuşdur. Bura 1929-cu ildən hazırlanmış və cəlb olunmuşdu;

2. Bu təşkilatda əksinqilabi fəaliyyət göstərmiş və elmi-tədqiqat xətti üzrə dilçi mütəxəssis kimi ziyankarlıq işi aparmışdır;

3. Öz mühazirələrində əksinqilabi millətçi və pantürkist görüşlər təbliğ edərək pedaqoji sahədə də əksinqilabi iş aparmışdır;

4. Milli respublikaların SSRİ-dən ayrılmaq və silahlı üsyan hazırlamaq yolu ilə vahid pantürkist dövlət yaratmaq, partiya və hökumət rəhbərlərinə qarşı terrorçu aktların tətbiq edilməsi mövqeyində durmuşdur, yəni Azərbaycan SSR CM-nin 64, 70 və 73-cü maddələrində nəzərdə tutulan cinayətlərdə ittiham edilmişdir, hərçənd ki, bu 12493 №-li istintaq işi üzrə

keçən başqa azərbaycanlı alimlərin günahlarından nə az, nə də çox idi. Lakin yeri gəlmişkən deyək ki, işdə (elə o birilərində də) müttəhim Mir Cəfər Bağırovla 1954-cü il dekabrın 15-də aparılan istintaq protokolundan çıxarış vardır. Müttəhim orada göstərmişdir: «XDİK işçilərinin 1936-1937-ci illərdə yarınmaq və yaltaqlıq məqsədilə mənə qarşı terrorist niyyətlər barədə şişirdilmiş işlər düzəltdikləri haqqında mən ifadə vermişəm. Yemelyanovun təqdimatlarından belə çıxır ki, Azərbaycanda mənə qarşı hər addımda terror hərəkətləri hazırlanırdı. Əslində isə bu ola bilməzdi və belə deyildi. Hesab edirəm ki, bunlar hamısı Sumbatov-Topuridzenin və onun dəstəsinin düşmən fəaliyyətinin nəticəsi idi. Bütün bunları o, şübhəsiz ki, Beriyanın tapşırığı ilə edirdi».

1938-ci il yanvarın 1-də (konveyer hətta yeni il bayramında da işləyirdi!) SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası Səyyar sessiyasının (Nikitenko, İyevlev, İşenko) hazırlıq iclasının protokolu tərtib edilmişdir. Burada göstərilirdi: «1 dekabr 1934-cü il Qanununa uyğun olaraq Abdulla Məmməd oğlu Tağızadə Azərbaycan SSR CM-nin 64, 70 və 73-cü maddələri üzrə məhkəməyə verilsin. İşə bağlı məhkəmə iclasında, şahidlərsiz, ittihamçısız və müdafiəçisiz baxılsın»

1938-ci il yanvarın 2-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası Səyyar sessiyasının bağlı məhkəmə iclası oldu. İclas saat 20:20 dəqiqədə açıldı. «A.M.Tağızadə özünü günahkar bilmişdir. Ona məlum olmuşdur ki, əksinqilabi təşkilatın əsas məqsədi Sovet hökumətini devirməkdir. Müttəhim son sözdə günahının yüngülləşdirilməsini xahiş etmişdir».

Saat 20:40 dəqiqədə hökm oxunmuşdur. Abdulla Məmməd oğlu Tağızadə ən ağır cəzaya – güllələnməyə məhkum olunmuşdur. Hökm qətidir və 01.011934-cü il SSRİ MİK-in qərarına görə hökm dərhal yerinə yetirilməlidir. İşin 100-cü vərəqəsində belə bir arayış var: Abdulla Məmməd oğlu Tağızadəyə verilən ölüm hökmü 1938-ci il yanvarın 2-də Bakı şəhərində yerinə yetirilmişdir. Lakin işin 102-ci vərəqəsində hökmün 1938-ci il yanvarın 3-də icra edildiyi göstərilmişdir

Beləliklə, 12493 №-li istintaq işi üzrə ittiham olunan 200-cü müttəhim - Abdulla Məmməd oğlu Tağızadənin həyatı məhv edildi.

Onu əlavə etmək qalır ki, 1956-cı il noyabrın 10-da A.M.Tağızadənin bacısı Yaqut Tağı qızı Cəfərzadə SSRİ DTK sədri Serova qardaşının bəraət alması xahişi ilə müraciət etmişdir.

Vəziyyətlə əlaqədar Abdulla Məmməd oğlu Tağızadənin işinə yenidən baxılmış və SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının 1957-ci il 19 noyabr qərarına görə SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının 1938-ci il 2 yanvar tarixli hökmü ləğv olunmuş və cinayət tərkibi olmadığına görə iş xətm edilmişdir.

## ƏLİ NAZİM MAHMUD OĞLU MAHMUDZADƏ

İstintaq işi № 12493-36

SSRİ EA-nın Azərbaycan filialının əvvəlcədən həbs olunmuş elmi əməkdaşlarından Tixomirovun, Əli Kərimovun, Xuluflunun və başqalarının verdikləri ifadələrə görə akademiyada Ruhulla Axundov tərəfindən yaradılmış əksinqilabi qrupa Əli Nazim Mahmud oğlu Mahmudzadə də daxil idi.

1937-ci il martın 17-də Azərbaycan SSR XDİK idarəsi rəisinə 1906-cı ildə Təbriz şəhərində anadan olmuş, dilçilik və ədəbiyyat institutunun elmi işçisi Əli Nazim Mahmud oğlu Mahmudzadə haqqında arayış təqdim edilmişdir. Arayışda deyilirdi:

«12493 №-li istintaq işi üzrə mühakimə olunan müttəhimlərin ifadələrindən aydın olmuşdur ki, Əli Nazim Bakı şəhərindəki əksinqilabi millətçi təşkilatın üzvüdür. Göstərilənlərə əsasən Əli Nazim həbs olunmalı və Azərbaycan SSR CM-nin 72/73-cü maddələri üzrə cinayət məsuliyyətinə alınmalıdır».

1937-ci il martın 18-də Əli Nazim həbs olundu. Bu vaxtadək isə 1936-cı ilin avqustunda Əli Nazim partiya sıralarından xaric edilmişdir.

Əli Nazimlə birinci istintaq 1937-ci il martın 22-də oldu. Müstəntiq: «1927-ci ildə siz İstanbulda pantürkist «Türk yurdu» jurnalında bir sıra antisovet məzmunlu məqalə çap etdirmisiniz. Bunu etiraf edirsinizmi?» Əli Nazim: «Məqalə Azərbaycan ədəbiyyatının ümumi türk ədəbiyyatı qollarından biri olmasının təsdiqi ilə başlayır. Mənim yazımda ədəbiyyat tarixi sinfi mübarizədən ayrı verilir. Ümumiyyətlə, bu, antimarksist məqalədir. 1918-ci ilin mart hadisələri qara qüvvələr tərəfindən təşkil olunmuş erməni-türk qırğını kimi səciyyələndirilmişdir. Bu – Azərbaycanda birinci sosialist inqilabının ünvanına böhtandır. 1927-ci ilədək mənim pantürkist görüşlərim var idi».

İkinci istintaq. 20 aprel 1937-ci il. Müstəntiq: «Ruhulla Axundovla münasibətləriniz necə idi?» Cavab: «Nüfuzlu adam kimi Ruhulla Axundovla hesablaşırdım, lakin onun ayrı-ayrı tapşırıqlarını yerinə yetirmirdim». Sual: «Elmi və ədəbi fəaliyyətinizdə əksinqilabı millətçi mövqeyinizin konkret olaraq nədə ifadə olunduğunu istintaqa açıb söyləyin» Cavab: «Mənim elmi- ədəbi fəaliyyətimdə heç bir əksinqilabı millətçi xətt olmayıb. Lakin bir sıra metodoloji və siyasi xarakterli səhvlərim olub. Mexaniki olaraq səhvlərə yol vermişəm, yəni mən bazis və üstqurumun dialektik qarşılıqlı münasibətlərini izah etməmişəm». Sual: «ÜİK(b)P sıralarından 1936-cı ildə xaric edilmisiniz, deməli sizə qarşı millətçilik ittihamı 1936-cı ildən sayılmalıdır. İstintaqa düzgün ifadə verin» Cavab: «Mən bu ittihamı qəti rədd edirəm. Ona görə ki, mənim millətçiliyimə dəlalət edən heç bir fakt göstərilə bilməz». Sual: «Siz həbs olunan dəqiqəyədək əksinqilabi millətçi mövqedə dururdunuz?» Cavab: «Mən əksinqilabi millətçi mövqedə durmamışam»...

Müstəntiq: «İstintaq sizi aşağıdakı faktlarla ifşa edir: 1934-cü ildə siz həmfikirlərinizin evində olarkən əksinqilabi söhbətlərdə iştirak etmişsiniz və böhtan ataraq göstərmişsiniz ki, Zaqafqaziya hökuməti yanlış büdcə siyasəti aparır. Bunu etiraf edirsinizmi?». Cavab: «Xeyr, etiraf etmirəm!»

Üçüncü istintaq. 21 aprel 1937-ci il. Müstəntiq: «İstintaqa əksinqilabi millətçi görüşləriniz barədə danışın» Cavab: «Mən bu suala aprelin 20-dəki ifadəmdə cavab vermişəm və yenə də deyirəm: 1928-ci ildən sonra mənim heç bir əksinqilabi görüşüm olmayıb».

1937-ci il aprelin 22-dən, dördüncü istintaqdan başlayaraq müttəhim Əli Nazim Mahmudzadə ifadə verməyin taktikasını dəyişdi və rədd cavablarından müstəntiqləri təmin edən cavablara keçdi. Çox güman ki, Əli Nazimə istintaqın üç nömrəli metodu tətbiq olunmuşdur. Müstəntiq: «SSRİ EA Azərbaycan filialının elmi və ədəbi fəaliyyət xətti üzrə ziyankarlıq faktları haqqında istintaqa danışın». Cavab: «Rəhbərlik Ruhulla Axundovun əlinə keçdikdən sonra belə bir xətt götürülmüşdür. Bu xətt inqilabi-demokratik yazıçıların – Sabir, «Molla Nəsrəddin», M.F.Axundov nüfuzdan salınmasına, mürtəce-burjua cərəyanı yazıçılarının - Hüseyn Cavid, Cavad Axundov, Əli bəy Hüseynzadə və əksinqilabı «Füyuzat» jurnalının ənənələrinin genişləndirilməsinə və yayılmasına yönəldilmişdir».

Sonra Əli Nazim Ruhulla Axundov, Hənəfi Zeynallı və Bəkir Çobanzadənin əleyhinə ifadələr vermişdir.

1937-ci il aprelin 25-26-da beşinci istintaqda Əli Nazim əksinqilabi, millətçi əhval-ruhiyyəli yazıçı və elmi işçilərin adlarını söyləmişdir. Bu, altıncı, yeddinci və səkkizinci istintaqlarda da (27.04/ 28-29.04/ 02.05-1937-ci il) təkrar olundu. 1937-ci il mayın 29-da doqquzuncu istintaqda müstəntiq soruşur: «Nə üçün siz evinizdə əksinqilabi millətçi və pantürkist ədəbiyyat və faşist Trotskinin şəklini saxlayırdınız». Cavab: «Bəli, bu işdə mən öz günahımı etiraf edirəm».

1937-ci il iyunun 1-də onuncu istintaqda Əli Nazim bu iş üzrə ittiham olunan digər müttəhimlərlə saxladığı əksinqilabi əlaqələrini də boynuna almışdır. «Mən həbs olunan dəqiqəyədək əksinqilabi millətçi mövqelərdə durduğumu və praktiki əksinqilabi iş apardığımı etiraf etməyə məcburam. Boynuma alıram ki bu, Azərbaycan K(b)P-nin daxilində əksinqilabi ikiüzlülük idi».

Bu ifadələri Əli Nazim 1937-ci il iyunun 2-3-də on birinci istintaqda da təsdiq edir. 1937-ci il iyunun 5-də on ikinci istintaqda Əli Nazim göstərir: «SSRİ EA Azərbaycan filialında Ruhulla Axundovun rəhbərlik etdiyi əksinqilabi millətçi qrup – mən də oranın üzvü idim – sovet hökumətinə qarşı mübarizə, əksinqilabi pantürkist, əksinqilabi millətçi mövqelərində dururdu. (Bu qədər əksinqilabi iş çox deyilmi? – Z.B.) Bu qrupa Ruhulla Axundov, Vəli Xuluflu, Hənəfi Zeynallı A.R.Zifeld, Həsən İmanov, Əliəjdər Seyidzadə, Salman Mümtaz, Mikayıl Rəfili və mən, Əli Nazim daxil idik».

4 iyul 1937-ci il. On üçüncü istintaq. Müstəntiq Əli Nazimi əksinqilabi qrupun üzvləri Seyidzadə və Nəzərli ilə bağlı sorğu-sual etmişdir. 7 iyul 1937-ci il, on dördüncü istintaq. Əli Nazim əksinqilabi Averbax qrupu və averbaxçılar haqqında ifadə vermişdir. Bu qrupa Süleyman Rüstəm, Mehdi Hüseyn, Səməd Vurğun və Sabit Rəhman daxil idi. 8 iyul 1937-ci il. On beşinci istintaq. Əli Nazim xüsusilə Cabbar Məmmədovun işi ilə bağlı dindirilmişdir.

1937-ci il avqustun 30-da on altıncı istintaqda Əli Nazim göstərmişdir: «İstintaq zamanı verdiyim bütün ifadələri tamamilə təsdiq edirəm. Boynuma alıram ki, 1926-cı ildən həbs olunan dəqiqəyədək əksinqilabi millətçi mövqedə durmuşam. Etiraf edirəm ki, sovet hökumətinə qarşı fəal mübarizə mövqeyində duran əksinqilabi millətçi qrupa 1934-cü ildə SSRİ EA Azərbaycan filialının rəyasət heyətinin keçmiş sədr müavini Ruhulla Axundov tərəfindən cəlb olunmuşam. Etiraf edirəm ki, bizim qrup

əksinqilabi millətçi pantürkist mövqelərində duraraq Azərbaycanın SS-Rİ-dən ayrılması məqsədini güdürdü. Etiraf edirəm ki, bizim qrup mədəniyyət cəbhəsində ziyankarlıq üzrə konkret olaraq əksinqilabi iş aparırdı. Bu, əsasən partiyanın milli siyasətinin təhrif edilməsində, əksinqilabi ədəbiyyatın nəşrində, əksinqilabi millətçi və pantürkist görüşlərin təbliğində öz əksini tapırdı. Evimdə əksinqilabi ədəbiyyat saxladığımı etiraf edirəm. Boynuma alıram ki, 1927-ci ildə Türkiyədə olarkən jurnalda əksinqilabi böhtançı müsavatçı mövqeyindən yazılmış məqalə dərc etdirmişəm. Bütün əksinqilabi fəaliyyətimdə özümü tam günahkar hesab edirəm».

Adətən, 12493 №-li istintaq işi üzrə ittiham olunan müttəhimlər altı-səkkiz, ən çox on dəfə dindirilirdilər. Lakin Əli Nazim Mahmudzadə isə on altı (!) dəfə dindirilmişdir. Görünür, Əli Nazim istintaqda «daha üzüyola» olmuşdur, çünki 3 nömrəli metodun elə birinci dəfə tətbiqindən sonra o, davam gətirə bilməmişdir. Lakin biz həmin o amansız dövrün bu və ya digər ziyalısının davranışı barədə fikir yürüdə bilmərik.

Avqustun 28-də Əli Nazimin müsadirə edilmiş bütün kitabxanası yandırılmışdır. Bu barədə işdə xüsusi akt var.

1937-ci il avqustun 30-da istintaqın tamamlanması haqqında protokol, 1937-ci il sentyabrın 5-də isə Əli Nazim Mahmudzadənin Azərbaycan SSR CM-nin 69, 18-70 və 73-cü maddələri üzrə təqsirləndirilməsi barədə ittiham qərarı tərtib edilmişdir.

1937-ci il oktyabrın 12-də SSRİ Ali Soveti Hərbi Kollegiyası Səyyar sessiyasının (Matuleviç, Zaryanov, Jiqur) hazırlıq iclasının protokolu tərtib edilmişdir: Əli Nazim Mahmudzadənin işini Azərbaycan SSR CM-nin 18-70 və 73-cü maddələri üzrə məhkəməyə verməli. İşə bağlı məhkəmə iclasında, müdafiəçisiz, ittihamçısız və şahidlərsiz baxılmalı.

13 oktyabr 1937-ci il. Saat 13:25 dəqiqədə Hərbi Kollegiyanın məhkəmə iclası işə başladı: Əli Nazim Mahmudzadə Azərbaycan SSR CM-nin 69, 13-70 və 73-cü maddələri üzrə nəzərdə tutulmuş cinayətlərdə ittiham olunmuşdur. Müttəhim özünün günahkar olduğunu etiraf etmişdir. Müttəhim son sözdə istintaqa hər şeyi söylədiyini və gəncliyinin nəzərə alınmasını, günahının gərgin əməklə bağışlanmasına imkan verilməsini xahiş etmişdir. İclas saat 13:40 dəqiqədə bağlanmışdır.

Əli Nazim Mahmudzadə 10 il müddətinə həbs cəzasına məhkum edilmişdir.

1956-cı il iyunun 19-da Əli Nazimin oğlu Ramin Mahmudzadə SSRİ DTK-ə ərizə verərək atasının işinə yenidən baxılmasını və onun bəraət almasının mümkünlüyünü xahiş etmişdir.

İşdə Əli Nazim üçün 21 may 1956-cı il tarixdə yazılmış, Mehdi Hüseyn, Süleyman Rəhimov, Süleyman Rüstəm, Məmməd Arif, Mir Cəlal Paşayev, Əli Vəliyev, İlyas Əfəndiyev və Bəxtiyar Vahabzadə tərəfindən imzalanmış xasiyyətnamə var.

İşə Əli Nazim Mahmudzadənin 1939-1940-cı illərdə Oryol həbsxanasına gətirilməsi haqqında 1957-ci il 26 fevral tarixdə yazılmış arayış tikilmişdir. Arayışda Əli Nazimə istintaq prosesində cəza tədbirləri tətbiq edilməsi ilə əlaqədar müttəhimin şikayəti barədə məlumat var idi. Bax indi bir çox oxuculara tamamilə aydın oldu ki, Əli Nazim Mahmudzadəyə 3 nömrəli metod çox gözəl və uğurla tətbiq edilmişdir.

SSRİ Ali Məhkəməsi hərbi Kollegiyasının 19 sentyabr 1957-ci il tarixli qərarına görə SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının 13.10.1937-ci ildə çıxardığı hökm ləğv olunmuş və cinayət tərkibi olmadığı üçün iş xətm edilmişdir.

Əli Nazim Mahmud oğlu Mahmudzadə 1941-ci il avqustun 23-də həbsxanada vəfat etmişdir.

## QULAM KƏRİM OĞLU BAĞIROV

İstintaq işi № 25439

1937-ci ildə 12493 nömrəli istintaq işi üzrə, demək olar ki, Azərbaycanın Elmlər Akademiyasında, universitetində və institutlarında çalışan bütün görkəmli alimlər mühakimə edilmiş və güllələnmişdilər. Onların içərisində elm, mədəniyyət və incəsənət xadimləri də var idi. Günahsız məhv edilmiş bu intellektuallara bilərəkdən dəhşətli işgəncələr verərək «azadlıqda gəzən bir çox vətən xainlərinin» həbs edilib tutulması üçün ifadələr alırdılar. Xalqın əqli potensialının fiziki cəhətdən aradan götürülməsi məsələsini tamamilə yerinə yetirmək məqsədilə bu adamları da yaşayış mühitindən ayırmaq və təcrid etmək "zəruri idi".

Lakin «bədbəxtliyə bax» ki, xalq düşmənlərinin yeni qrupunun aradan götürülməsi üçün 12493 nömrəli istintaq işi üzrə mühakimə edilmiş şəxslərdən sağ qalanı yox idi. Ona görə də 1938-ci ildə tutulanlar üçün hökmü

SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının səyyar sessiyası deyil, XDİK yanında Xüsusi Müşavirə, başqa sözlə desək, Stalin, Yejov və Beriya tərəfindən təşkil olunmuş üçlük vermişdir.

O dəhşətli repressiya illərində böhtan yolu ilə məcburi həbs edilənlərdən biri də 1904-cü ildə anadan olmuş, SSRİ EA-nın Azərbaycan filialının Ədəbiyyat və Dilçilik İnstitutunun direktor müavini və dilçilik şöbəsinin rəhbəri Qulam Kərim oğlu Bağırov idi.

Onun həbsinə hazırlıq hələ 1937-ci ildən başlanmışdır. 1937-ci il fevralın 14-də SSRİ EA-nın Azərbaycan filialının partiya təşkilatının iclası keçirilmişdir. İclasda partiya təşkilat katibi Tevosov bildirmişdi: «Qulam Bağırov müntəzəm olaraq pantürkist Çobanzadə ilə sıx əlaqə saxlayıb əməkdaşlıq edirdi. O, institutda özünütənqidi boğur, Ruhulla Axundovla xüsusi yaxınlıq edirdi».

Bağırov: «Bu yalan və böhtandır!»

Büro üzvü Zakirov: «Qulam Bağırovla Çobanzadənin eyni vaxtda məzuniyyətə getməsi, eyni sanatoriyada dincəlməsi, hətta bir otaqda qalması da təsadüfdürmü? Bu, onların sıx əlaqədə olmasına bir daha sübut deyilmi? (?! – Z.B.)». İclasda qərara alındı: Qulam Kərim oğlu Bağırov Sov.İKP sıralarından xaric edilsin, ondan ötrü ki:

1. Azərbaycan dilinin terminologiya və orfoqrafiyasının, «15 ildə Azərbaycanda elm» ədəbiyyat məcmuəsinin işlənib hazırlanmasında əksinqilabçı pantürkist Çobanzadə ilə birlikdə pantürkist konsepsiyanı geniş yaymışdır;

2. Əksinqilabçı R.Axundovun ifşa olunmasına və Çobanzadənin əksinqilabçı şəxs kimi fəaliyyət göstərməsi haqqında dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, onlarla sıx əlaqə saxlamışdır;

3. Ədəbiyyat və Dilçilik İnstitutunda direktor müavini işləyərkən özünütənqidi boğmuşdur. Ümumi iclasda institutun əməkdaşlarının əksəriyyəti onu əksinqilabçı Axundovun «sevimlisi», «xəbərçisi» adlandırmışdır;

4. Azərbaycan dilində terminologiya lüğəti işlənib hazırlanarkən ictimai və elmi təşkilatlar bura cəlb edilməmişdir. Nəticədə isə lüğətdə pantürkist təhriflərə geniş yer verilmişdir.

1938-ci il martın əvvəllərində Q.Bağırov əksinqilabı millətçi təşkilatın üzvü kimi həbs edilmiş və Azərbaycan SSR CM-nin 72, 73-cü maddələri üzrə günahlandırılmışdır. Sonradan əməliyyat müvəkkili A.Qaravəliyev «müttəhim Q.K.Bağırovun «15 ildə Azərbaycanda elm» məcmuəsində çıx-

mış «Azərbaycanda dilçiliyin təşkili» məqaləsini oxumuş və belə qənaətə gəlmişdir ki, Q.Bağırov məqaləsində dilçiliyin təşkili məsələsi ilə bağlı pantürkist mövqedə durmuş və Azərbaycan yazıçılarına antimarksist konsepsiyadan qiymət vermişdir. Buna görə də «15 ildə Azərbaycanda elm» kitabının Q.Bağırovun istintaq işinə əyani dəlil kimi əlavə olunması qərara alınmışdır».

1938-ci il, 10 aprel. Birinci istintaq, birinci sual: «Azərbaycanda əksinqilabi millətçi təşkilatın üzvü olduğunuzu etiraf edirsinizmi?» Q.K.Bağırov: «Xeyr, etiraf etmirəm». Müstəntiq: «İstintaq xəbərdarlıq edir ki, kifayət qədər yoxlanılmış məlumatlara görə siz adı çəkilən təşkilatın üzvü olmusunuz. Ona görə də düzgün ifadələr verməyinizi təklif edirik». Q.K Bağırov: «Mən qəti etirazımı bildirirəm».

1938-ci il aprelin 19-da keçirilən ikinci istintaqda Q.Bağırov yenidən əksinqilabi millətçi təşkilatın üzvü olduğunu rədd edir. Buna görə də özünün əksinqilabi işi haqqında ifadə vermək iqtidarında olmadığını söyləyir.

Boynuna qoyulan bütün günahları rədd edən Q.Bağırova istintaqın üç nömrəli metodu tətbiq edilir: onu amansızcasına döyür, işgəncə verir, iki dəfə üç gün ayaq üstə dayanmağa məcbur edirlər.

Nəhayət, 1938-ci il mayın 10-da üçüncü istintaqda Q.K.Bağırov bütün günahları boynuna alır: «Bəli, mən həqiqətən əksinqilabi millətçi təşkilatın tərkibinə daxil olduğum üçün özümü günahkar bilirəm. Məni təşkilata 1936-cı ilin sentyabrında V.Xuluflu cəlb etmişdir». Sual: «Praktiki əksinqilabi işiniz haqqında istintaqa məlumat verin». Cavab: «SSRİ EA-nın Azərbaycan filialının Dilçilik və Ədəbiyyat İnstitutunun direktor müavini vəzifəsində çalışarkən mən tematik-istehsalat planının yerinə yetirilməməsinə çalışırdım. Nəticədə 1936-cı il üçün tematik-istehsalat planı pozulmuşdur».

(Səbəbə bir bax: İnstitutun bir illik istehsalat planının pozulması üçün o zaman adamı «praktiki əksinqilabi işdə» ittiham edirdilər. Ancaq indi elmi əməkdaşların əksəriyyəti bütün il boyu bir iş görməsələr belə, onlara heç bir söz deyilmir, hələ üstəlik, dövlətdən maaş da alırlar. Yazıq Qulam Bağırov!)

1938-ci il iyunun əvvəllərində A.Qaravəliyev institutun direktor əvəzi A.L.Klimovdan aşağıdakı məzmunda arayış alır: «1936-1937-ci il üzrə Ədəbiyyat və Dilçilik İnstitutunun iş planı pozulmuşdur. Planlar çox zəif, ziyankarcasına tərtib olunmuşdur. Günün nəbzini tutan aktual mövzular

nəzərə alınmamış, qiymətli materiallar və sənədlər oğurlanmışdır. 1936-cı ildə M.F.Axundovun arxivindən 28 məktub yox olmuşdur. Əli Nazim, Ağamir Məmmədov, Çobanzadə, Qulam Bağırov tərəfindən işlənmiş mövzular aşağı səviyyədə olmuş, Azərbaycan xalqının dil və ədəbiyyatını təhrif edən ziyankar xarakteri daşımışdır». (Bax belə! – Z.B.).

1938-ci ilin iyununda müstəntiq Q.Bağırova əlavə ittihamlar verir: «Q. Bağırov partiya və hökumət rəhbərlərinə qarşı terror tətbiq etmək vəzifəsini qarşısına qoyan millətçi təşkilatın tərkibinə daxil olmuş və ziyankarlıq işi aparmışdır». Yəni bütün bu dəlillər Q.K.Bağırovun Azərbaycan SSR CM-nin 69, 21/70-ci maddələri üzrə təqsirləndirilməsinə əsas vermişdir.

1938-ci il iyulun 11-də Q.K.Bağırov dördüncü, sonuncu istintaqda demişdir: «Mən qəti şəkildə bildirirəm ki, terrorçuluq və silahlı üsyana hazırlıq işində praktik olaraq mənim heç bir iştirakım olmayıb».

1938-ci ilin iyulundan 1939-cu ilin martına qədər Q.Bağırovun işi üzrə istintaq bir qədər dolaşığa düşür. Onun əleyhinə çıxan şəxslər güllələnir, müttəhimə verilən ittihamlar isə uydurma hesab olunurdu. 1939-cu il martın 20-də əvvəlki ittihamlar Azərbaycan SSR CM-nin 21/64 və 73-cü maddələri ilə əvəz edildi. Bu maddələrə görə, Q.Bağırov «ancaq əksinqilabi millətçi pantürkist təşkilatda iştirak etdiyi üçün" təqsirləndirilirdi.

1939-cu il martın 29-da ittiham qərarı tərtib olundu. Qərarda deyilirdi: «Aparılan istintaqın nəticələrindən məlum olmuşdur ki, müttəhim Q.K.Bağırov silahlı üsyan hazırlamaq yolu ilə Azərbaycanın SSRİ-dən ayrılmasını qarşısına məqsəd qoyan əksinqilabi millətçi təşkilatın tərkibinə daxil olmuşdur.

Özünün elmi əsərlərində, xüsusilə «15 ildə Azərbaycanda elm» məcmuəsində pantürkizmi təbliğ etmiş, Azərbaycan ədəbi dilinə osmanlı və ərəb sözləri gətirmişdir. (Belə! – Z.B.).

Q.Bağırov Azərbaycan ədəbiyyatının klassikləri M.F.Axundova, M.Ə. Sabirə və başqalarına böhtan ataraq göstərmişdir ki, guya onlar əsərlərini ədəbi dildə yazmamışlar. Və bu klassiklərin ədəbi irsini hər vasitə ilə gizlətməyə çalışmışdır.

İnstitutun tematik-istehsalat planının yerinə yetirilməsinə mane olmuşdur. Məhz bütün bunlara görə Q.K.Bağırovun Azərbaycan SSR CM-nin 21/64 və 73-cü maddələrinə görə təqsirləndirilməsi zəruri sayılmışdır.

Müttəhim özünü günahkar bilmişdir. Lakin istintaqın başa çatdığı elan olunarkən, o verdiyi ifadələrdən tamamilə imtina etmişdir».

1939-cu il iyulun 21-də SSRİ XDİK yanında Xüsusi Müşavirənin 29 nömrəli protokolunda deyilirdi: «Antisovet millətçi təşkilatda iştirakına görə Q.K.Bağırov cəzasını çəkmək üçün səkkiz il müddətinə islah-əmək düşərgəsinə göndərilsin».

Qulam Kərim oğlu Bağırov ümumi hesabla 17 il həbsxanalarda, düşərgədə və sürgündə olmuşdur.

1955-ci il iyunun 16, 22, 23-də və 1956-cı il fevralın 29-da Q.K.Bağırov müxtəlif prokurorların adlarına bəraət alması xahişi ilə dörd ərizə göndərir. 1956-cı il aprelin 18-də göndərilən ərizələrə əsasən, Azərbaycan SSR Ali Məhkəməsinin məhkəmə kollegiyası qərara alır: «Azərbaycan SSR prokurorunun etirazı qəbul edilsin. SSRİ XDİK yanında Xüsusi Müşavirənin 1939-cu il iyunun 21-də Qulam Kərim oğlu Bağırovun istintaq işi ilə əlaqədar çıxardığı hökm ləğv edilsin və cinayət tərkibi olmadığı üçün iş xətm olunsun».

Axırda bircə faktı da əlavə etmək istərdim ki, Q.K.Bağırovun bəzi əsərləri, o cümlədən «Quba və Zaqatala şivələrinin səciyyəvi xüsusiyyətləri» adlı kitabı başqa şəxsin familiyası ilə çapdan çıxmışdır.

## MƏMMƏD İSMAYIL OĞLU CUVARLİNSKİ

İstintaq işi – 12493-33

Bu məqalədə isə Azərbaycanın gözəl ziyalısı kimi tanınmış, o dəhşətli illərin növbəti qurbanı olmuş Məmməd İsmayıl oğlu Cuvarlinski haqqında söhbət açacağam.

1937-ci il aprelin 14-də Azərbaycan SSR XDİK DTİ-nin IV şöbəsi (Sonkin, Atakişiyev) tərəfindən aşağıdakı məzmunda arayış tərtib olunmuşdur: «Azərbaycan K(b)P Nuxa Şəhər Komitəsinin keçmiş katibi Məmməd İsmayıl oğlu Cuvarlinski.

12493 nömrəli istintaq işi üzrə ittiham olunan əksinqilabi millətçi təşkilatın üzvü Tixomirov öz ifadəsində göstərmişdir ki, Məmməd Cuvarlinski Azərbaycan əksinqilabi millətçi mərkəzlə əlaqə saxlamışdır.

Əksmnqilabi millətçi təşkilatın üzvlərindən Əli Kərimov və Eminbəyli Məmməd Cuvarlinski ilə sıx əlaqədə olduqlarını boyunlarına almış, Azərbaycan SSR Maarif Komissarı və AzK(b)P MK aparatında işləyərkən onun əksinqilabi fəaliyyətini etiraf etmişlər.

Yuxarıda göstərilən faktlara əsasən. Məmməd Cuvarlınskinin həbs olunub Azərbaycan SSR CM-nin 72, 73-cü maddələri üzrə məsuliyyətə alınmasını zəruri hesab edirik».

M.Cuvarlinskinin həbsi haqqında akt DTİ-nın IV şöbəsinin rəisi Sinman tərəfindən təsdiq olunmuşdur. 14.04.1937-ci ildə Azərbaycan XDİK rəisi Sumbatov ittihamın təqdim olunması haqqındakı qərarı imzalamışdır. (Qərar müttəhimə 1937-ci il iyulun 18-də verilmişdir.)

Lakin bu vaxt M.Cuvarlinski Bakıda yox idi. 1937-ci ilın mayında o. Moskvaya, ÜİK(b)P MK-ya M.C.Bağırovdan şikayətə getmişdi. Cuvarlinski şikayət ərizəsində yazırdı ki. «Bağırov bütün partiya kadrlarını sıradan çıxarır; Azərbaycan SSR K(b)P MK-nın plenumlarından birində tənqidi çıxışına görə onun özünü də təqib edir». Belə çıxışdan sonra Bağırov Cuvarlinskini MK-nın tərkibindən çıxarmış və ona millətçi damğası vurmuşdur.

1937-ci il iyulun 25-də SSRİ XDİK DTİ-nin VI şöbəsinin rəisi Volkov SSRİ daxili işlər komissarının müavini Frinovskinin ünvanına aşağıdakı məzmunda məktub göndərmişdir:

«Bu il, iyunun 24-də Azərbaycan K(b)P MK-nın katibi yoldaş Bağırov SSRİ XDİK-ya xəbər vermişdir ki, Bakıda dəmiryol nəqliyyatında ifşa olunmuş (dəmiryol nəqliyyatı nəyə lazımdır? – Z.B.) antisovet trotskiçi təşkilatın fəal üzvü Cuvarlinski istintaq orqanları tərəfindən axtarılır. Əldə olunan məlumata görə hazırda Cuvarlinski Moskvada bu ünvanda: Stoleşnikov döngəsi, ev 9, mənzil 20-də yaşayır.

Cuvarlinskinin həbsinə icazə verilməsini xahiş edirik» (Frinovskinin dərkənarı: «həbs edilsin» 25.06.1937).

1937-ci il iyunun 27-də SSRİ XDİK DTİ tərəfindən Cuvarlinskinin həbsinə 2569 nömrəli order verildi. Orderi xalq daxili işlər komissarının müavini imzalamışdı.

Lakin Cuvarlinski iyunun 25-də həbs edilmişdir. Axtarış zamanı ondan BDTİ-yə verilmək üçün aşağıdakılar: Malenkovun adına göndərilmiş məktubun, Andreyevə, Malenkova, Bağırova və «Pravda» qəzeti redaksiyasına göndərilmiş ərizələrin – 28 səhifəlik beş ərizənin qəbzi götürülmüşdür.

Müttəhim Cuvarlinskinin Moskvada doldurulmuş anketindən:

1902-ci ildə Azərbaycan SSR-in Qaryakin rayonunun Cuvarlı kəndində anadan olmuşdur. Nuxa şəhərinin sakinidir. İxtisasca müəllim və partiya işçisidir. AzK(b)P Nuxa Şəhər Komitəsinin birinci katibi vəzifəsində çalış-

mışdır. İnqilabdan əvvəl kəndli olmuş, 3 il keşikçi, 1 il isə qara fəhlə işləmişdir. İnqilabdan sonra – qulluqçu olmuş, 14 il partiya işində çalışmışdır İbtidai məktəbin 4 sinfini, II dərəcəli sovet partiya məktəbini, ÜİK(b)P MK yanında partiya işçiləri üçün kursu və qiyabi olaraq pedaqoji texnikumu bitirmişdir. 1920-ci ildən ÜİK(b)P MK-nın üzvüdür. 12 yaşında Sveta adlı qızı var.

1937-ci il iyulun 26-da SSRİ XDİK BDTİ-nin VI şöbəsi III bölməsinin rəisi İ.Norko M.İ.Cuvarlinskini dindirmişdir. Aşağıda müttəhimin verdiyi ifadədən bəzi sitatlar: «1937-ci ilin mayında mən Moskvaya ÜİK(b)P MK-ya AzK(b)P MK rəhbərliyindən və birinci katib M.C.Bağırovdan şikayətə gəlmişdim. Moskvaya 1937-ci il mayın 4-də çatdım. Mən Nuxa Şəhər Partiya Komitəsinin katibi və AzK(b)P MK-nın üzvü idim. MK-nın katibi Bağırova bəzi məsələlərdə öz etirazımı bildirmişdim, sonra MK-nın dekabr ayında keçirilən plenumunda MK rəhbərliyinin bəzi nöqsanlarını tənqid etmişdim. Bu tənqidi çıxış xalq düşmənlərinin respublikanın rəhbər orqanlarına soxulması ilə əlaqədar idi. Buna görə də Bağırov məni təqib etməyə başladı və üstümə millətçi ləqəbi qoyub MK-nın tərkibindən çıxartdı, işdən azad etdi. Vəziyyətin belə olduğunu görüb ÜİK(b)P MK-ya ərizə ilə müraciət etdim, Moskvaya indiki gəlişim də məhz bununla əlaqədardır. Sinayskiyə Bağırovun məni təqib etdiyini və ondan Moskvaya şikayətə getdiyimi bildirmişdim. Mən ÜİK(b)P MK-nın katibi Andreyevin və ÜİK(b)P MK-nın şöbə müdiri Malenkovun adlarına iki ərizə vermişdim».

1937-ci il iyulun 8-də M.Cuvarlinski xüsusi mühafizəçi ilə Bakıya gətirildi və təkadamlıq kameraya salındı.

1937-ci il iyulun 15-də Azərbaycan SSR XDİK DTİ-nin IV şöbəsinin IV bölmə rəisinin köməkçisi leytenant Şer (bu familiyanı yadda saxlayın Z.B.) müttəhim M.İ.Cuvarlinskini dindirmişdir.

Şer: «Siz Azərbaycanda əksinqilabi millətçi təşkilatın üzvü kimi ittiham olunursunuz və əldə olan məlumata görə təşkilatın işində fəallıq göstərmisiniz. İstintaq tələb edir ki, bu barədə ətraflı məlumat verəsiniz» Cuvarlinski: «Əksinqilabi millətçi təşkilatda iştirakımı qəti surətdə rədd edirəm».

İşin 17-ci səhifəsində aşağıdakı məzmunda yazılmış bir akt var idi «Hazırkı akt tərtib olunur ondan ötrü ki, müttəhim Məmməd Cuvarlinski 1937-ci il iyulun 16-da keçirilən istintaqda hökumət rəhbərlərinin ününanına böhtan ataraq bildirmişdir ki, Azərbaycan K(b)P MK-nın katibi M

C.Bağırov Cuvarlinskinin əleyhinə uydurulmuş materiallar hazırlamışdır. Azərbaycan XDİK-in rəisi Sumbatov və DTİ-nin IV şöbəsinin rəisi Sinman bu işdə onun yaxın köməkçiləri olmuşdular.

Müttəhim Cuvarlinski hazırkı aktı imzalamaqdan imtina etmişdir.

DTİ-nin IV şöbəsinin rəisi Sinman. DTİ-nin IV bölməsi rəisinin köməkçisi Şer».

Oxucu görür ki, heç bir günahı olmayan Məmməd Cuvarlinski ona qarşı düşünülmüş şəkildə əvvəlcədən hazırlanmış uydurma faktlara inadla etirazını bildirir və ədalətin zəfər çalacağına ümid edirdi. Lakin... Azərbaycan XDİK idarəsinin keçmiş əməkdaşı S.S.Zıkovdan 04.09.1954-cü ildə alınmış ifadədə deyilir:

«Xoren Qriqoryanın köməkçisi Şerin keçmiş maarif komissarı Cuvarlinskini necə döydüyünün mən özüm şahidi olmuşam. Bu barədə Qriqoryana danışdım, lakin Cuvarlinskinin döyülməsi haqqında verdiyim xəbəri Qriqoryan gülümsəməklə qarşıladı».

DTİ-nin keçmiş əməkdaşı İ.M.Krotkovdan 30.11.1954-cü ildə alınmış ifadədən:

«Mən VI bölmə rəisinin köməkçisi Şerə tabe idim. Bölmənin rəisi isə Qriqoryan idi. Siyasi şöbədə işə başladığım ilk gündən istintaq zamanı müttəhimlərə verilən amansız işgəncələrin şahidi olurdum. Bir qayda olaraq əvvəlcə müttəhimlərdən etiraf ifadəsi almaq üçün onları döyür, sonra isə əksinqilabi təşkilatın digər iştirakçılarının adlarını çəkmək məqsədilə əziyyət verirdilər. Ən axırda isə müttəhimin həqiqətən düşmən olduğu və bunu etiraf etdiyi üçün işgəncə verirdilər.

Azərbaycan SSR-in maarif komissarı olmuş, həbs edilməmişdən əvvəl Nuxa Şəhər Partiya Komitəsinin birinci katibi işləmiş Məmməd Cuvarlinski ən ağır işgəncələrə məruz qalmışdır. Cuvarlinski Bağırovdan Moskvaya şikayətə getdiyi üçün onun göstərişi ilə elə Moskvada həbs olunmuşdur. Bakıya gətirilən kimi Sumbatov Bağırovun adından GSŞ-a əmr vermişdir ki, Cuvarlinski ilə hər cür rəftar etmək olar. Cuvarlinski daxili həbsxanaya gətiriləndə bir çox işçilər sevindi. Onların sevincinə səbəb Bağırovdan ÜİK(b)P MK-ya şikayətə gedən «qatı» cinayətkarın axır ki, tutulub mühakiməyə verilməsi idi. Məhz buna görə də müttəhim istintaqa gətirilən kimi bütün müstəntiqlər, o cümlədən Şer də ona düşmən gözü ilə baxırdılar. Cuvarlinskiyə ilk dəfə işgəncə verilən gün mən orada olmamışam. Lakin onun bərk döyüldüyünü görmüşəm

Bir dəfə Şerin göstərişi ilə Cuvarlinskini 5-6 müstəntiq əhatəyə alıb, rezin dəyənək və burulmuş nəm döşəkağı ilə döyüb işgəncə verirdilər. Cuvarlinski küt ağrılara dözməyib yıxılır, yenidən təpik və yumruqla onu ayağa qaldırıb vururdular. Bütün bunlar təhqir xarakteri daşıyırdı. Sonra isə bunu əyləncə məqsədilə edirdilər.

Verilən işgəncələrin nəticəsində Cuvarlinski tam taqətdən düşürdü, yarışüurlu vəziyyətdə öz-özünə heç bir hesabat vermədən istənilən ifadəyə, sənədə qol çəkirdi.

Onun hansı əsasla tutulduğunu xatırlamıram, ancaq yaxşı yadımdadır ki, bir dəfə Şer mənə qaralamada yazılmış qeydlərə əsasən protokol yazmağı əmr etdi.

Şer, Kolya, Musatov, Mədət Həsənov, Mustafa Mustafayev və mən Cuvarlinskiyə olmazın işgəncələr vermişik. Başqalarını isə xatırlamıram.

1937–1938-ci illərdə kütləvi həbslər zamanı partiya və sovet orqanlarının bütün rəhbər işçiləri, xalq komissarları və onların müavinləri tutulurdular. Məsələn, Maarif Komissarlığında dörd xalq komissarı – Pənah Qasımov, Məmməd Cuvarlinski, Müseyib Şahbazov, Məmmədsadıq Əfəndiyev, habelə maarif komissarının iki müavini repressiyaya məruz qalmışdı».

DTİ-nin keçmiş əməkdaşı İvan Petroviç Klemençikin 18.04.1955-ci ildə verdiyi ifadədən: *«Həbs olunanların kütləvi surətdə döyülüb incidilməsi 1937-ci ilin ortalarından başlamışdır. IV şöbənin keçmiş rəisi Sinmanın dediyindən mənə məlum idi ki, müttəhimlərin döyülüb işgəncə verilməsi haqqında göstəriş Sumbatovdan alınmışdır».*

1955-ci il aprelin 13-də Məmməd Cuvarlinskinin işi üzrə Baş hərbi prokurorluğun nəzarət əməliyyat şöbəsinin arxivindən gətirilmiş işə baxılması barədə protokol tərtib edildi. Aydın oldu ki, 1945-ci ildə BHP-nin arxiv sənədləri saxlanılan yerdə yanğın baş vermiş və bir çox arxiv sənədləri, o cümlədən Cuvarlinskinin işi üzrə sənədlərin bir hissəsi sıradan çıxmış, bir hissəsi isə xarab olmuşdur. İşin 3 və 4-cü səhifələrində Cuvarlinskinin göy mürəkkəblə İ.V.Stalinin ünvanına yazılmış şikayət ərizəsi qorunub saxlanılırdı.

Cuvarlinskinin ərizəsindəki bir sitatla tanış olaq:

«1936-cı ilin dekabrında Azərbaycan K(b)P MK plenumunda Az. K(b)P MK rəhbərliyinin yarıtmaz işini, nöqsanlarını tənqid etmişdim. Bu çıxı-

şım yenə də Bağırovun qəti narazılığına və etirazına səbəb olmuşdur. Elə həmin vaxtdan mən açıqca təqibə məruz qaldım.

1937-ci il martın 14-də mən Azərbaycan SSR Sovetlər qurultayının partiya qrupunda çıxış edərək Azərbaycan SSR Konstitusiyası layihəsinə bəzi düzəlişlər etdim. O zaman Bağırov əleyhimə çıxış edərək məni millətçilikdə günahlandırdı. 1937-ci il martın 17-də MK-nın bürosu, martın 19-da isə Azərbaycan K(b)P MK plenumu Bağırovun təklifi ilə məni MK-nın bürosundan, martın 20-də partiya işindən xaric etdilər.

Bütün bu çirkinliyə dözməyib Moskvaya gəldim və Malenkovun qəbuluna düşəcəyim günü gözlədim. Onun qəbulunda 1937-ci il iyunun 27-si və ya 28-i olmalı idim. Lakin iyunun 25-də gecə SSRİ XDİK nümayəndələri mənzilimə gəlib məni həbs etdilər. Artıq altıncı gündür ki, Butırski həbsxanasındayam.

*Əziz rəhbərimiz!*

*Budur, təmiz və namuslu bir bolşevik olduğum halda, həbsxanaya düşmüşəm. Bu təsadüfi deyil. Az. K(b)P MK rəhbərliyində yuva salmış çirkin əməllərin nəticəsi idi və Bağırov isə bu yuvanın hörümçək toruna düşmüşdür.*

*Mən Az. K(b)P MK rəhbərliyindəki çirkinliklərin qurbanıyam.*

*Yoldaş Stalin! Az.K(b)P haqqında... ittiham edirlər... Xahiş edirəm Siz... əks təqdirdə Bağırov məni məhv edəcək».*

Cuvarlinskinin Stalinə olan məktubunun bir hissəsi, müttəhimlərin və ittiham edilən Az. SSR XDİK DTİ müstəntiqlərinin ifadələri 1954-1955-ci illərdə tapılıb meydana çıxmışdı. Buna görə də 1937-ci ilin iyuluna qayıdaq.

Oxucular artıq istintaqın üçüncü metodunun tətbiqi səhnəsilə tanışdırlar. Amansız işgəncələrə məruz qalan Cuvarlinski Bağırov və Sumbatova «təslim» məktubu yazır. İşgəncələrin nə qədər ağır olduğu məktubdakı cızma-qara xətdən aydın görünürdü: Cuvarlinskinin gözəl və səlis xətti cızma-qaraya çevrilmişdi. Hiss olunurdu ki, ağrılardan onun əlləri belə qələm tutmurdu. 1937-ci il iyulun 21-də müstəntiqlərin diktəsi və köməyilə yazılmış məktubdan bəzi sətirlər:

"*Uzun sürən tərəddüddən sonra mən, Məmməd İsmayıl oğlu Cuvarlinski partiya və Sovet hökuməti qarşısında tamamilə təslim olmağı* (bu, müstəntiqlərin ən çox sevdikləri sözdür, işgəncələrdən sonra bütün müttəhimlər öz məktublarını bu sözlərlə başlayırlar - Z.B.) *və özümün əksinqilabi millətçi fəaliyyətim haqqında danışmağı qərara aldım*".

(Ancaq 1937-ci il iyulun 23-də Azərbaycan üzrə KPK Partiya kollegiyası Cuvarlinskinin işilə bağlı qərara almışdı: «XDİK orqanları tərəfindən xalq düşməni kimi həbs edilmiş Məmməd Cuvarlinski partiya sıralarından xaric olunsun»).

Cuvarlinski etiraf etmişdi ki, burjua millətçiləri, Az. K(b)P sıralarında ikiüzlü rol oynayan Ə.Qarayev, Y.Qasımov, D.Bünyadzadə, Ə.Əmiraslanov və başqalarının təsiri altına düşərək əksinqilabi millətçi təşkilata daxil olmuşdur.

«Əksinqilabi təşkilata mən 1936-cı ilin sentyabrında Az. K(b)P MK-nın mədəniyyət şöbəsinin keçmiş müdiri Mikayıl Hüseynov tərəfindən cəlb edilmişəm.

Mən Nuxadakı əksinqilabi təşkilatın rəhbəri idim».

Lakin bu materiallar istintaq üçün azlıq edirdi və növbəti işgəncədən sonra Cuvarlinski aşağıdakı ifadələri də vermişdi: «1935-ci ilin sentyabrında məni əksinqilabi millətçi təşkilata Ruhulla Axundov cəlb etmişdir».

1937-ci il 7 sentyabr. Şer M.Cuvarlinskinin işi üzrə istintaqın başa çatması haqqında protokol tərtib etdi.

1937-ci il 13 sentyabr. Sinman M.Cuvarlinskinin Azərbaycan SSR CM-nin 64, 69, 70 və 73-cü maddələrində nəzərdə tutulan cinayətlərdə təqsirləndirilməsilə əlaqədar ittiham qərarı tərtib etdi:

Azərbaycan SSR XDİK DTİ 1936-cı ilin sonlarında silahlı üsyan yolu ilə Azərbaycanın SSRİ-dən ayrılması vəzifəsini qarşısına qoyan, ziyankarlıq, casusluq işi aparan, partiya və hökumət rəhbərlərinə qarşı terror tətbiq edən əksinqilabi trotskiçi-millətçi təşkilatını aşkar etmiş və dağıtmışdır.

Özünün əksinqilabi fəaliyyətində Azərbaycanın əksinqilabi trotskiçi-millətçi təşkilatı trotskiçi-zinovyevçi terrorçu mərkəz və sağların əksinqilabi mərkəzilə əlaqədə olmuşdur.

Aparılan istintaqdan aydın olmuşdur ki, Məmməd Cuvarlinski hələ 1931-ci ildə əksinqilabi millətçiliyə meyl etmişdir. 1935-ci ildə Cuvarlinski Ruhulla Axundov tərəfindən əksinqilabi millətçi təşkilata cəlb edilmişdir.

M.Cuvarlinski əksinqilabi təşkilatda fəal praktiki iş aparmışdır: o, Nuxa Şəhər Partiya Komitəsinin katibi olarkən oradakı əksinqilabi millətçi təşkilata rəhbərlik etmişdir.

Məmməd Cuvarlinskinin rəhbərliyi altında bu təşkilat rayonun kənd təsərrüfatı sahəsində və sənayesində ziyankarlıq işi aparmış, üsyançı kadrlar hazırlamışdır. Cuvarlinski şəxsən özü əksinqilabi təşkilata neçə-neçə şəxs cəlb etmişdir.

Yuxarıda göstərilənlərə əsasən Məmməd İsmayıl oğlu Cuvarlinski ittiham olunur ondan ötrü ki:

1. Silahlı üsyan yolu ilə Azərbaycanın SSRİ-dən ayrılmasını qarşısına məqsəd qoyan, ziyankarlıq, casusluq işi aparan, partiya və hökumət rəhbərlərinə qarşı terror tətbiq edən əksinqilabi millətçi təşkilatın üzvü idi;

2. Praktiki əksinqilabi işdə fəallıq göstərərək rayondakı əksinqilabi üsyançı təşkilatın rəhbəri idi;

3. Kənd təsərrüfatında və sənayedə ziyankarlıq işi təşkil etmiş, üsyançı kadrlar hazırlamışdır.

Özünü günahkar bilmişdir. Müttəhim Ruhulla Axundovun, Rəhim Həsənovun, Mehdi Mehdiyevin və Mikayıl Hüseynovun ifadələrilə ifşa olunur.

1937-ci il 12 oktyabr. Həmin gün SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası Səyyar sessiyasının (iclasa Azərbaycan xalqının cəlladlarından olan A.Vışinskinin müavini Matuleviç sədrlik edirdi. Digər cəlladlar Zaryanov və Jiqur isə məhkəmənin üzvü idilər) bağlı məhkəmə iclası keçirilmişdir.

İclas saat 21:30 dəqiqədə açıldı. Son sözdə M.Cuvarlinski islah olunması üçün imkan verməyi xahiş etmişdir.

Saat 21:45 dəqiqədə iclas sona çatmışdı. 15 dəqiqədə M.Cuvarlinskinin taleyi həll olunmuşdur. Bir saat ərzində isə dörd belə «vətən xaininin» məhkəməsi keçirilmişdir. Matuleviç və onun komandası isə il yarım ərzində Bakıda oturaraq fasiləsiz nə qədər hökmlər vermişlər.

1937-ci il oktyabrın 12-də Məmməd İsmayıl oğlu Cuvarlinski ən ağır cəzaya – güllələnməyə məhkum olunmuşdur. Hökm 1937-ci il oktyabrın 13-də yerinə yetirilmişdir. Nədənsə güllələnmə haqqında akt işdə yoxdur.

1955-ci il iyunun 17-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasına Məmməd İsmayıl oğlu Cuvarlinskinin işi üzrə verilən hökmün dəyişdirilməsi barədə qərar təqdim edilmişdir. Qərarda deyilirdi ki, M.Cuvarlinskinin həbs edilməsi tamamilə əsassız olmuş, onun haqqında qaldırılan iş uydurma materiallardan düzəldilmişdir.

1955-ci il avqustun 3-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının qərarı ilə SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının 12.10.1937-ci ildə verdiyi hökm ləğv edildi, cinayət tərkibi olmadığı üçün iş xətm olundu.

Məmməd İsmayıl oğlu Cuvarlinski 12493 nömrəli istintaq işi üzrə güllələnmiş yüzlərlə Azərbaycan ziyalıları içərisində 33-cü idi.

## XALİD SEYİD XOCAYEV

İstintaq işi № 12493–72

1937-1938-ci illərdə amansızcasına və məqsədyönlü şəkildə aradan götürülən Azərbaycanın görkəmli mütəfəkkirlərinin, onun elmi qüvvələrinin siyahısında tanınmış türkoloq, SSRİ EA-nın Azərbaycan filialının elmi əməkdaşı Xocayev Xalid Seyidin də adını çəkmək lazımdır.

Xalid Seyid Xocayev 1888-ci ildə Daşkənd dairəsinin Kaşkorqan kəndində anadan olmuşdur. Mədrəsəni bitirdikdən sonra 1914-cü ildə İstanbula getmiş və müsabiqə yolu ilə universitetə daxil olmuşdur. 1918-ci ildə tarix-filologiya fakültəsini bitirmişdir. 1918-1920-ci illərdə Gəncədə gimnaziyada müəllimlik etmişdir. 1920-1921-ci illərdə Daşkənddə yaşamış, orada da müəllimlik fəaliyyəti ilə məşğul olmuşdur. Lakin tezliklə Bakıya qayıtmış, 1922-1926-cı illər ərzində Özbəkistanın daimi nümayəndəliyinin yataqxanasının müdiri, orta və ali təhsil ocaqlarında müəllim vəzifəsində işləmiş, sonra isə həbs olunana kimi SSRİ EA-nın Azərbaycan filialında çalışmışdır. Xalid Seyid Xocayev üslubiyyat, sintaksis, türk və fars dillərinin qrammatikası ilə bağlı bir çox kitabların müəllifi olmuş, Orxon yazılarını tərcümə etmişdir. Lakin onun ən böyük əsəri Mahmud Kaşğarinin məşhur lüğətinin tərcüməsi idi. Təəssüf ki, Xocayevin minnətdar şagirdləri öz müəllimlərinin əsərini elə adamlara aid edirlər ki, onlar 30-cu illərdə Mahmud Kaşğarinin varlığı barədə belə heç nə bilmirdilər. Bu zaman Xalid Seyidi xoş bir sözlə xatırlamağı belə ona çox görürdülər.

Xocayev Xalid Seyid 1937-ci il iyunun 3-də həbs edilmiş və 32493 nömrəli istintaq işi üzrə 72 nömrəli məhbus olmuşdur.

1937-ci il iyunun 5-də birinci istintaqda Xalid Seyidə bildirildi:

«Yataqxananın müdiri vəzifəsindən siz tələbələr arasında əksinqilabi, millətçi təbliğat apardığınız üçün qovulmusunuz». Xalid Seyid: «Mənə belə ittiham verilməmişdir». Sual: Siz əbəs yerə verilən suala cavab verməkdən çəkinirsiniz. İstintaqa məlumdur ki, siz əksinqilabi pantürkist təşkilatın üzvüsünüz. Bunu etiraf edirsinizmi?» Cavab: «Qəti surətdə rədd edirəm».

(1937-ci il, iyunun 5-də SSRİ EA-nın Azərbaycan filialının tarix, dil və ədəbiyyat institutu müdiriyyətinin əmrinə görə Xalid Seyid Xocayev iyunun 4-də institutun elmi əməkdaşlarının siyahısından çıxarılmışdır).

İkinci istintaqda, 1937-ci il iyunun 21-də müttəhimə «üç nömrəli vari-

ant» tətbiq edildikdən sonra X.S.Xocayev «peşəkar pantürkist» kimi cavab verir: «Bəli, mən etiraf edirəm ki, 1916-cı ildən həbs olunanadək pantürkist mövqeyində dayanmışdım». Sual: «Əksinqilabı pantürkist təşkilatına nə vaxt daxil olmusunuz?» (Üsluba toxunulmamışdır – Z.B.). Cavab: «1925-ci ildə məşhur pantürkist Ə.S.Qubaydullinin Bakıya gəlişindən sonra». Sual: «Pantürkist təşkilatında sizin praktiki əksinqilabi fəaliyyətiniz nədən ibarət idi?» Cavab: «Mən tələbə-gənclər arasında pantürkist təbliğat apararaq Sovet hakimiyyətinə qarşı pantürkist kadrlar hazırlayırdım»

İyulun 7-9-da müstəntiq müttəhimdən soruşdu: «Əksinqilabi millətçi təşkilatda praktiki işiniz haqda danışın». Cavab: «Mənim əksinqilabi fəaliyyətim 1926-1928-ci illərdə Bakıda təhsil alan özbək tələbələri arasında keçmişdir». Sual: «1928-ci ildən sonra siz əksinqilabi təşkilati fəaliyyət aparmısınız?» Cavab: «Xeyr, aparmamışam. Mən pantürkist təbliğatı öz əsərlərimdə əks etdirmişəm, xüsusilə Mahmud Kaşğarinin «Türk sözləri lüğəti» kitabının tərcüməsində». Sual: «Siz düz danışmırsınız. Bəsdirin, bizə müqavimət göstərməyin». Cavab: «Bəli, etiraf edirəm ki, 1935-ci ildə APİ-nin tələbəsi, milliyyətcə özbək olan Səlimsakovu əksinqilabi millətçi istiqamətə yönəltmişəm. 1928-1936-cı illər ərzində daha heç kəsi bu işə cəlb etməmişəm». Sual: «Siz yenə də düz danışmırsınız. Bakıda elmi və pedaqoji işçilərlə əksinqilabi əlaqədə olmusunuzmu?». Cavab: «Etiraf etməyə məcburam ki, Vəli Xuluflu, Qulam Bağırov, Zifeld, Cabbar Məmmədzadə, Hənəfi Zeynallı və aspirantlardan Çobanzadə, Hüseynzadə və Dəmirçizadə ilə əksinqilabi əlaqədə olmuşam». Sual: «Sizin onlarla əksinqilabi əlaqəniz nədən ibarət idi?» Cavab: «Bu şəxslərlə mən pantürkist söhbətlər edirdim və onlar da əksinqilabi pantürkist mövqeyindən danışırdılar. Bundan başqa, Vəli Xuluflu və Zifeld Mahmud Kaşğarinin pantürkist kitabını tərcümə etdiyim üçün məni müdafiə edirdilər». Sual: «Türkiyə kəşfiyyatındakı işiniz haqqında danışın» Cavab: «Mən Türkiyə kəşfiyyatında işləməmişəm». Sual: «Siz düz demirsiniz! Bu sualla əlaqədar sizin etirafınızı tələb edirik!». Cavab: «Etiraf etməyə məcburam ki, 1918-ci ildə mən İstanbul universitetinin bir qrup tələbəsi ilə birlikdə Nuru Paşanın türk ordusunda Azərbaycana göndərilmişdim. Biz ordunun «Şubə və Məxsusi» xüsusi şöbəsinə təyin olunmuşduq».

14-15 iyul. Müstəntiq: «Bəsdirin, müqavimət göstərməyin. Azərbaycandan, türk ordusundan tərxis olunduqdan sonra sizin Türkiyə kəşfiyyatı ilə əlaqəniz barədə istintaqın kifayət qədər məlumatı var». Cavab: «Bəli,

etiraf etməliyəm ki, təxminən 1924-cü ildə mən yenidən Türkiyə kəşfiyyatı ilə əlaqə yaratdım və təxminən 1937-ci ilədək onunla əlaqə saxladım» Sual: «Türkiyə kəşfiyyatının verdiyi hansı tapşırıqları yerinə yetirirdiniz?». Cavab: «Türkiyə kəşfiyyatının tapşırığı üzrə mən təşkilatımızın özəyini İngiltərəyə meyldən uzaqlaşdırmaq üçün təşkilatın üzvləri arasında türkofil iş aparırdım».

Axırıncı dəfə X.S.Xocayev 1937-ci il sentyabrın 4-də dindirilmişdir (yəni onun işi üzrə istintaq 3 ay davam etmişdir) və müstəntiq onun işi üzrə istintaqın başa çatması haqqında protokol tərtib etmişdir. Xalid Seyid «istintaqa heç bir əlavə etməmişdir». Düzdür, həmin gün o, Azərbaycan SSR CM-nin 68-ci maddəsi üzrə əlavə yenə də ittiham edilmişdir: «Əksinqilabi pantürkist təşkilatın üzvü kimi həm də Türkiyənin xeyrinə kəşfiyyat işi aparmışdır».

1937-ci il, sentyabrın 13-də 12493/72 nömrəli iş üzrə ittiham qərarı imzalandı.

O, Azərbaycan SSR CM-nin 73, 70, 63-1 maddələrində nəzərdə tutulan cinayətlərdə təqsirləndirilirdi.

1937-ci il oktyabrın 11-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyanın Səyyar sessiyasının (Matuleviç, Zaryanov, Jiqur) hazırlıq müşavirəsinin protokolu tərtib edilir:

Elə həmin gün X.S.Xocayevə ittiham qərarının surəti təqdim edildi.

1937-ci il, oktyabrın 12-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının Səyyar sessiyasının məhkəmə iclasının protokolu tərtib olundu.

«Müttəhim Xocayev günahkar olduğunu tam etiraf etdi. İlkin istintaqda verdiyi ifadələri təsdiq etdi və məhkəmə istintaqına heç bir əlavəsi olmayacağını bildirdi».

Müttəhim son sözdə günahının yüngülləşdirilməsini xahiş etdi. İclas saat 15:10 dəqiqədə açıldı, saat 15:25 dəqiqədə bağlandı.

Hökm: Müttəhim Xocayev 1925-ci ildən Ümumittifaq antisovet pantürkist, təxribatçı-terrorçu və casus təşkilatının üzvüdür. Onların məqsədi Sovet hakimiyyətini devirmək, milli respublikaları SSRİ-dən ayırmaq və vahid türk-tatar burjua dövlətini yaratmaqdır. Xocayev müntəzəm olaraq əksinqilabi-millətçi təbliğat aparmış, əksinqilabi pantürkist təşkilata yeni-yeni üzvlər cəlb etmiş və 1924-cü ildən 1937-ci ilədək bir xarici dövlətin casusu olmuşdur.

Yuxarıda deyilənlərə əsasən və Azərbaycan SSR CM-nin 316 və 317-ci maddələrinə müvafiq SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası Xalid Seyid Xocayevi ən ağır cəzaya – güllələnməyə məhkum etdi. Hökm qətidir, şikayət qəbul edilmir və hökm 1 dekabr 1934-cü il SSRİ CM-nin qərarına görə dərhal yerinə yetirilməlidir.

İşə 13 oktyabr, 1937-ci il tarixli bir arayış tikilmişdir. Burada göstərilirdi ki, Xalid Seyid Xocayevin güllələnmə hökmü Bakıda icra edilmişdir.

1954-cü ilin dekabrında X.S.Xocayevin həyat yoldaşı Sara Rza qızı Xocayeva (13.10.1937-ci ildən 15.05.1941-ci ilədək həbs düşərgəsində olmuşdur) ərizə verərək ərinin işi və onun taleyi haqqında məlumat almağı xahiş etmişdi.

1955-ci il aprelin 16-da S.R.Xocayeva həyat yoldaşı X.S.Xocayevin işinə yenidən baxılmasını xahiş edir.

SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının 16 may 1957-ci il tarixli qərarına görə SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının 1937-ci il, oktyabrın 12-də çıxardığı hökm ləğv olunmuş və cinayət tərkibi olmadığına görə iş xətm edilmişdir.

## ƏBDÜLƏZİZ HEYDƏR OĞLU SALAMZADƏ

İstintaq işi № 12493-62

1937-ci il mayın 15-də Azərbaycan SSR XDİK DTİ-də belə bir arayış tərtib edilmişdi: «12493 nömrəli iş üzrə istintaq materiallarından məlum olmuşdur ki, Ə.Salamzadə trotskiçi və pantürkist təşkilatların üzvləri ilə əksinqilabi əlaqə saxlamış və bu təşkilatların fəaliyyətində iştirak etmişdir. Göstərilənlərə əsasən Ə.Salamzadə həbs olunmalı və Azərbaycan SSR CM-nin 72/73-cü maddələri üzrə məsuliyyətə alınmalıdır».

Əbdüləziz Heydər oğlu Salamzadə 1907-ci ildə Şamaxı şəhərində anadan olmuşdur. O, SSRİ EA Azərbaycan filialı Tarix institutunun doktorantı idi. 1937-ci il mayın 27-də Leninqradda həbs olunmuş və 1937-ci il iyunun 2-də Bakıya göndərilmişdir.

1937-ci il iyunun 17-də birinci istintaqda Salamzadəyə belə bir sual verilmişdi: «Bakıdakı və Leninqraddakı tanışlarınızın adlarını söyləyin». Burada Qubaydullinin, Tixomirovun, İmanovun, Qrınyovun, Bayramovun, Rəfilinin, Gülnəzərovun və Mirzə İbrahimovun adları çəkilmişdir.

Sual: «Trotskiçilərdən və əksinqilabi millətçilərdən kimləri tanıyırsınız?». Cavab: «Pantürkistlərdən Qubaydullini və Çobanzadəni tanıyıram».

İkinci istintaq bir aydan sonra olmuş və üç gün (1937-ci il 16-18 iyul) davam etmişdir. Müstəntiq: «İstintaqa məlum olmuşdur ki, siz əksinqilabi trotskiçi təşkilatın üzvüsünüz. Bunu etiraf edirsinizmi?» Cavab: «Mən əksinqilabi trotskiçi təşkilatın üzvü deyiləm və olmamışam». Müstəntiq: «İstintaq xəbərdarlıq edir ki, əkər siz əksinqilabi trotskiçi təşkilata məxsusluğunuzu boynunuza almasanız ifşa olunacaqsınız. Sizi səmimi və düzgün ifadələr verməyə çağırırıq». Cavab: «Mən düz danışıram. Əksinqilabi iş aparan heç bir təşkilata məxsus deyiləm. Tixomirovun məni 1933-cü ildə əksinqilabi trotskiçi təşkilata cəlb etməsi haqqında verdiyi ifadəsini qəti surətdə rədd edirəm».

Əbdüləziz Salamzadə Azərbaycanda ilk tarix elmləri namizədi idi və Bakıda həbslər zamanı o, Leninqradda doktoranturada müdafiəyə hazırlaşırdı. O, geniş mənada intellektual idi və dar dünyagörüşünə malik müstəntiq onunla danışarkən çox çətinlik çəkirdi. Buna görə də Ə.Salamzadəyə üç nömrəli metodun tətbiq edilməsi qərara alındı. Salamzadənin işində sonradan mühakimə olunmuş müstəntiqlərin (Şer, Sinman, Qalstyan) ifadələri vardır. Bu ifadələrdə müttəhimə üç nömrəli metodun necə tətbiq olunduğu ayrı-ayrı detallarla ətraflı təsvir olunmuşdur. Bununla da Ə.Salamzadə «sındırılmışdı!»

Üçüncü istintaq bir aydan sonra olmuş və üç gün (1937-ci il 17-19 avqust) davam etmişdir. Müstəntiq: «Qeyri-leqal əksinqilabi trotskiçi təşkilatın üzvü olduğunuzu etiraf etmək fikrindəsinizmi?» Cavab: «Mən əksinqilabi müqavimətı dayandırmaq (deme, belə də olurmuş! – Z.B.) və düzgün ifadə vermək qərarına gəldim. Boynuma alıram ki, mən həqiqətən əksinqilabi trotskiçi terrorist təşkilatın üzvüyəm». Müstəntiq: «Əksinqilabi trotskiçi terrorist təşkilata nə vaxt və kim tərəfindən cəlb edilmişsiniz?» Cavab: «Mən təşkilata 1933-cü ildə elmi rəhbərim professor Tixomirov tərəfindən cəlb edilmişəm. Tixomirovun əksinqilabi trotskiçi görüşləri ilə tamamilə həmrəy idim». Müstəntiq: «Əksinqilabi trotskiçi terrorist təşkilat öz qarşısına hansı məqsəd və vəzifələri qoymuşdur?» Cavab: «Tixomirovun sözlərindən və əksinqilabi trotskiçi təşkilatın üzvü kimi mənə məlumdur ki, bu təşkilatın əsas vəzifəsi zorakılıq yolu ilə hazırkı quruluşu dəyişmək və kapitalist münasibətlərini bərqərar etmək idi. Bunu həyata

keçirmək üçün təşkilat: 1. Üzvlərinin sayını artırmaq sahəsində - buraya yeni-yeni qüvvələr cəlb etmişdir;

2. Əksinqilabi trotskiçi görüşlərin yayılması sahəsində təşkilatın xeyrinə təbliğat və təşviqat işi aparmışdır;

3. Müdaxilənin hazırlanması sahəsində kapitalist ölkələri ilə əlaqəyə girmişdir;

4. Ölkə daxilində əksinqilabi qüvvələrin möhkəmləndirilməsi sahəsində – millətçi və digər əksinqilabi təşkilatlarla blok yaratmışdır

Əsas mübarizə metodu partiya və Sovet hökuməti rəhbərlərinə qarşı terrorist aktların, habelə təxribatçılıq, casusluq və ziyankarlığın tətbiq edilməsi idi».

1937-ci il avqustun 25-26-da dördüncü istintaqda Əbdüləziz Salamzadə «etiraf etmişdir» ki, Leninqraddan başqa, Azərbaycanda fəaliyyət göstərən əksinqilabi millətçi təşkilata da məxsus idi. «Ora 1929-cu ildə Sovet Şərq Xalqlarının Tarixi kafedrası üzrə mənim əvvəlki rəhbərim professor Qubaydullin tərəfindən cəlb edilmişəm».

1937-ci il avqustun 29-da beşinci istintaqda Salamzadə göstərmişdir: «Bizim əksinqilabi trotskiçi terrorist təşkilatın əsas vəzifəsi Sovet hökumətini zorakılıq yolu ilə devirmək idi».

1937-ci il sentyabrın 3-də altıncı istintaqda Salamzadə Xuluflu, Ağamir Məmmədov və Həsən İmanovla əksinqilabi əlaqələrinin olduğunu bildirir 1937-ci il sentyabrın 5-də axırıncı, yeddinci istintaqda özünün bütün ifadələrini tamamilə təsdiq edir. Elə həmin gün istintaqın başa çatdığı Ə.Salamzadəyə xəbər verilir.

1937-ci il sentyabrın 19-da standart şəkildə ittiham qərarı tərtib edilmişdi.

Ə.Salamzadə özünü günahkar bilmişdi.

1937-ci il oktyabrın 10-da SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının Səyyar sessiyası (Matuleviç, Zaryanov, Jiqur) qərara almışdır: «Əbdüləziz Heydər oğlu Salamzadənin işi Azərbaycan SSR CM-nin 70, 73-cü maddələri üzrə məhkəməyə verilsin. İşə bağlı məhkəmə iclasında, müdafiəçisiz, ittihamçısız və şahidlərsiz baxılsın.

1937-ci il oktyabrın 11-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının bağlı məhkəmə iclası keçirildi. İclas saat 14 00 dəqiqədə açıldı. Müttəhim Ə.H.Salamzadə günahkar olduğunu boynuna aldı. Son sözdə cəzasının yüngülləşdirilməsini xahiş etdi. İclas saat 14:15 dəqiqədə bağlandı (cəmi 15 dəq! – Z.B.).

1937-ci il oktyabrın 11-də Əbdüləziz Heydər oğlu Salamzadə ən ağır cəzaya – güllələnməyə məhkum edildi.

SSRİ MİK-in 1 dekabr 1934-cü il qərarına görə hökm qətidir, şikayət qəbul edilmir və dərhal yerinə yetirilməlidir. İşdə Əbdüləziz heydər oğlu Salamzadənin güllələnmə hökmünün Bakı şəhərində 1937-ci il oktyabrın 12-də yerinə yetirilməsi haqqında arayış vardır.

Lakin 1957-ci il aprelin 18-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının Azərbaycan SSR DİN-in milis idarəsinə göndərdiyi təqdimatda deyilirdi ki, guya Ə.Salamzadə 1938-ci il noyabrın 19-da həbsdə olarkən vəfat etmişdir. Müttəhimin ölümü haqqında bu şəhadətnamə Ə.Salamzadənin həyat yoldaşının qardaşı Fuad Əbdürrəhmanova verilmək üçün göndərilmişdir.

1955-ci il aprelin 22-də Ə.H.Salamzadənin bibisi Lumu Soltan qızı Salamova qardaşı oğlunun taleyi haqqında məlumat almaq arzusunda olduğunu bildirmişdir. 1955-ci il sentyabrın 22-də Ə.H.Salamzadənin qızı Avrora Salamova atasının bəraət almasını xahiş etmişdir.

Vəziyyətlə əlaqədar Ə.H.Salamzadənin işinə yenidən baxılmış. 1956-cı il noyabrın 28-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının qərarına görə 1937-ci il oktyabrın 11-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının çıxardığı hökm ləğv edilmiş və cinayət tərkibi olmadığına görə iş xətm olunmuşdur.

## ABDULLA MƏHƏMMƏD OĞLU ŞƏRİFOV

İstintaq işi № 10497

12493 nömrəli iş üzrə ittiham olunanlar mühakimə edildikdən və güllələndikdən sonra qəssabxana maşınını idarə edən cəlladlar öz fəaliyyətlərinin ikinci mərhələsinə, yəni artıq öldürülən adamların ifadələrində adları çəkilən şəxslərin aradan götürülməsinə başladılar.

İkinci mərhələdə repressiyaya məruz qalanlar içərisində Azərbaycan SSR EA-nın Tarix, Ədəbiyyat və Dilçilik İnstitutunun elmi əməkdaşı, APİ-nin Azərbaycan dili və ədəbiyyatı kafedrasının müdiri, 1893-cü ildə anadan olmuş Abdulla Məhəmməd oğlu Şərifov da var idi.

1937-ci il iyulun 21-də A.Şərifov xalq düşməninin köməkçisi və əlaltısı kimi işdən xaric edilmişdir. 1937-ci il dekabrın 20-də o «Sovet hökumətinə

qarşı silahlı mübarizə mövqeyində dayandığına və elmi cəbhədə ziyankarlıq işi apardığına görə» həbs olunmuşdur. Kapitan Avanesyan tərəfindən tərtib edilmiş arayışda deyilirdi: «Azərbaycan SSR XDİK DTİ orqanları tərəfindən həbs edilmiş əksinqılabi burjua-millətçi təşkilat mərkəzinin üzvü Ruhulla Axundov göstərmişdir ki, Abdulla Şərifov əksinqilabi burjua-millətçi təşkilatın üzvüdür. Onun həbs olunub Azərbaycan SSR CM-nin 64, 69, 70, 73-cü maddələri üzrə məsuliyyətə cəlb edilməsini zəruri sayıram».

Başqaları kimi Abdulla Şərifov da həbs olunmuş həmkarlarının taleyindən xəbərdar idi. Buna görə də hər şeyi «səmimi etiraf etməyi» qərara almışdı.

1938-ci il yanvarın 5-də birinci istintaqda müstəntiq ənənəvi sualla müttəhimə müraciət etmişdir: «Yaxın tanışlarınızın adlarını söyləyin». Şərifov Çobanzadənin, Qubaydullinin, Tağızadənin, Zeynallının, Qulam Bağırovun, İdris Həsənovun, Davud Quliyevin. Xocayevin, Zifeldin, Zinət Zakirovun adlarını çəkmişdir,

1938-ci il 13-14 yanvar, ikinci istintaq. Müstəntiq: «Siz nə vaxt, harada və kim tərəfindən əksinqilabi pantürkist təşkilata üzv kimi cəlb edilmisiniz?» Cavab: «Məni əksinqilabi pantürkist təşkilata 1928-ci il sentyabrın axırlarında SSRİ EA-nın Azərbaycan filialının keçmiş əməkdaşı, professor Qubaydullin cəlb etmişdir. Mən əksinqilabi işi ancaq Qubaydullinin göstərişi ilə aparırdım. Onun tapşırığı ilə Azərbaycan dilinin qrammatikasında kobud qüsurlara yol verir, dilimizə yad ərəb, fars terminləri gətirirdim. Bu ziyankarlıq işi əsasən 1934-1936-cı illərə aiddir. Şəxsən mənim iştirakım ilə bilərəkdən Azərbaycan dilində xarici sözlər lüğətinin nəşri saxlanmışdır. Halbuki o illərdə bu kitaba tələbat daha çox idi. Lüğət isə 1935-ci ildən nəşrə hazır idi.

SSRİ EA-nın Azərbaycan filialının işçiləri M.Həsənov, Tağızadə və Babazadə tərəfindən hazırlanmış «Azərbaycan dilinin orfoqrafiya lüğəti» əsasən ziyankar pantürkist mövqedən işlənmişdir.

Ruhulla Axundov həbs olunandan sonra elmi cəbhədə ziyankarlıq işi Vəlibəyovun rəhbərliyi altında davam etdirilirdi. SSRİ EA-nın Azərbaycan filialının direktor müavini vəzifəsində çalışan Vəlibəyov bura elmi işə yad olan əməkdaşlar götürmüş, onların fikir və ideyalarını əksinqilabi məqsədlərə yönəltmişdir.

1934-1936-cı illərdə mən əksinqilabi pantürkist təşkilata yeni-yeni üzvlər cəlb etməklə məşğul olurdum. Bu dövrdə əksinqilabi millətçi təşkilata aşağıdakı şəxsləri cəlb etmişdim: 1933-cü ilin aprelində tarix, dilçilik və ədəbiyyat institutunun direktor vəzifəsini yerinə yetirən İdris Həsənov və 1934-cü ildə SSRİ EA-nın Azərbaycan filialının aspirantı Ələkbər Babazadə. Onların üzərinə aşağıdakı əksinqilabi vəzifələr düşürdü:

1. Özlərinin elmi-nəzəri və praktiki işlərində, əsərlərində və dərsliklərdə pantürkist və millətçi ideyaları yaymaq;

2. Tələbə-gənclər arasında burjua millətçi ədəbiyyatı genişləndirərək onları pantürkist və Sovet hökumətinə qarşı düşmənçi ruhda tərbiyə etmək».

1938-ci il yanvarın 18-də üçüncü istintaqda A.M.Şərifov əksinqilabi pantürkist təşkilata yeni üzvlərin cəlb edilməsi işi ilə bağlı ifadələr vermişdir.

1938-ci il yanvarın 19-da dördüncü istintaqda A.M.Şərifov etiraf etmişdir ki:

1. 1918-ci ildən həbs olunan günədək (1938-ci ilədək) əksinqilabi millətçi pantürkist mövqedə durmuşdur;

2. 1920-ci ildən başlayaraq 1938-ci ilədək ÜİK(b)P sıralarında ikən riyakarlıq edib, öz əksinqilabi görüşlərini partiyadan gizlətmişdir;

3. 1928-ci ilin sentyabrında pantürkist millətçi təşkilat mərkəzinin üzvü Qubaydullin ilə sıx əksinqilabi əlaqədə olmuşdur;

4. Sovet hökumətinə qarşı silahlı üsyan hazırlamaq və ziyankarlıq işi aparmaq yolu ilə vahid türk-tatar dövlətinin yaradılmasında əksinqilabi pantürkist təşkilatın ideyalarına tam şərik idi;

5. 1930-cu ildən başlayaraq Qubaydullinin göstərişi üzrə ali məktəb tələbələri və SSRİ EA-nın Azərbaycan filialının elmi əməkdaşları arasında əksinqilabi pantürkist təbliğatı genişləndirmiş və elmi cəbhədə ziyankarlıq işi aparmışdır;

6. 1933-34-cü illərdə əksinqilabi təşkilata yeni üzvlər cəlb etmişdir Onların arasında İdris Həsənov və Ələkbər Babazadə də var idi;

7. 1932-ci ildən həbs olunan günədək Azərbaycan XDİK-in müvəkkili kimi fəaliyyət göstərə-göstərə əksinqilabi pantürkist təşkilata da daxil olmuşdur. Bunu XDİK orqanlarından gizlətməklə riyakarlıq və satqınlıq etmişdir.

Oxucu görür ki, A.M.Şərifovun etirafları necə uydurma və yalanla doludur. İstintaqın qalaq-qalaq yığılmış nailiyyətlərini şərh etmək artıqdır. Axı, müstəntiqlər bunlara Azərbaycanda milli elmi kadrları aradan götürən, var qüvvə ilə işləyən qəssabxana maşınlarının sahibləri Beriya və Sumbatov-Topuridzenin istintaq aparatının xidməti sayəsində nail olmuşdular.

1938-ci il martın 8-də beşinci, axırıncı istintaqda, yəni təxminən 4-cü istintaqdan 2 ay sonra, istintaq işin hələ qurtarmadığını xatırladı və A.M.Şərifovu yenidən ittiham edərək onu casusluqda təqsirləndirdi. Lakin Şərifov bu ittihamı tamamilə rədd etdi.

1938-ci il martın 9-da A.M.Şərifovun işi üzrə istintaqın başa çatması haqqında protokol tərtib olunmuşdur. Martın 15-də XDİK müavini Borşov A.M.Şərifovun Azərbaycan SSR CM-nin 64, 69, 70 və 73-cü maddələrində nəzərdə tutulan cinayətlərdə ittiham olunması haqqında çıxarılan qərarı təsdiq etmişdir.

İttiham qərarının preambulası standart idi: «1937-ci ilin axırlarında Azərbaycan SSR XDİK orqanları tərəfindən əksinqilabi pantürkist təşkilat aşkar edilib dağıdılmışdır. Təşkilatın əsas vəzifəsi milli respublikaları SSRİ-dən ayırmaq, silahlı üsyan, ziyankarlıq, təxribatçılıq, casusluq, ÜİK(b)P və Sovet hökuməti rəhbərlərinə qarşı terror tətbiq etmək yolu ilə vahid türk-tatar dövləti yaratmaqdır.

Azərbaycan əksinqilabi pantürkist təşkilatı özünün əksinqilabi fəaliyyətində Ümumittifaq pantürkist mərkəzlə əlaqəli idi. İlk növbədə SSRİ-nin digər respublikalarındakı sağların əksinqilabi və millətçi təşkilatları, habelə kapitalist dövlətlərinin kəşfiyyat idarələrinin əməkdaşları ilə sıx əlaqə saxlayırdı.

1893-cü il təvəllüdlü, həbsdən əvvəl SSRİ EA-nın Azərbaycan filialının əməkdaşı, APİ-nin dil və ədəbiyyat kafedrasının müdiri vəzifəsində çalışmış A.M.Şərifov ittiham edilir ondan ötrü ki:

1. Milli respublikaları SSRİ-dən ayırmaq və vahid türk-tatar dövləti yaratmaq məqsədilə silahlı üsyan hazırlayan əksinqilabi pantürkist təşkilatın üzvü idi;

2. Elmi cəbhədə əksinqilabi pantürkist təbliğat aparır və ziyankarlıq işi ilə məşğul olurdu;

3. Əksinqilabi pantürkist təşkilata yeni üzvlər cəlb etməkdə fəallıq göstərmiş, 2 nəfəri şəxsən özü təşkilata üzv etmişdir;

4. Sovet hökumətinə qarşı silahlı üsyan haqqında əksinqilabi təşkilatın göstərişinə tam şərik idi;

5. Azərbaycan SSR XDİK-in müvəkkili ola-ola əksinqilabi pantürkist təşkilatın üzvü idi. Yəni Azərbaycan SSR CM-nin 64, 69, 70 və 73-cü maddələrində nəzərdə tutulan cinayətlərlə təqsirləndirilir.

A.M.Şərifov özünü tam günahkar bilmişdir».

4 aydan sonra, 1938-ci il iyulun 2-də SSRİ Ali Soveti hərbi Kollegiyasının (Matuleviç, Kolpakov, Kulik) hazırlıq iclasının protokolu tərtib olundu: «Abdulla Məhəmməd oğlu Şərifovun işi Azərbaycan SSR CM-nin 64, 69, 70 və 73-cü maddələri üzrə məhkəməyə verilsin. İşə 01.12.34-cü il qanununa müvafiq bağlı məhkəmə iclasında müdafiəçisiz, ittihamçısız və şahidlərsiz baxılsın».

1938-ci il iyulun 3-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının bağlı məhkəmə iclası keçirilmişdir. İclas saat 18:15 dəqiqədə açılmışdır.

A.M.Şərifov özünü tam günahkar bilmişdir. Son sözdə 22 dərsliyin müəllifi olduğunu nəzərə alıb, günahının yüngülləşdirilməsini xahiş etmişdir. İclas saat 18.25 dəqiqədə (10 dəqiqə ərzində alimin taleyi həll olunmuşdu) bağlanmışdır.

1938-ci il iyulun 3-də Abdulla Şərifov ən ağır cəzaya – güllələnməyə məhkum olunmuşdur. Hökm dərhal yerinə yetirilmişdir. İşdə A.M.Şərifovun güllələnmə hökmünün Bakı şəhərində, 1938-ci il iyulun 3-də yerinə yetirilməsi haqqında arayış vardır.

1955-ci il oktyabrın 18-də A.M.Şərifovun həyat yoldaşı Fatma Zinnur qızı Şərifova SSRİ baş prokuroru Rudenkonun adına ərizə yazaraq işə yenidən baxılması xahişi ilə müraciət etmişdir. F.Şərifova vətən xaininin ailə üzvü kimi neçə il həbs düşərgəsində olmuşdur. 1956-cı il iyulun 27-də və oktyabrın 31-də A.M.Şərifovun işinə yenidən baxılması ilə əlaqədar qərar tərtib olunmuşdur.

1957-ci il mayın 30-da SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının qərarına görə, 1938-ci il iyulun 3-də A.M.Şərifovun işi ilə bağlı çıxarılan hökm ləğv edilmiş, cinayət tərkibi olmadığı üçün iş xətm olunmuşdur.

## AĞAMİR SADIQ OĞLU MƏMMƏDOV
İstintaq işi № 12493

30-cu illərin repressiya qurbanlarından biri də SSRİ Elmlər Akademiyası Azərbaycan filialının baş elmi əməkdaşı, ADU-nun Əsaslı kitabxanasının direktoru Ağamir Sadıq oğlu Məmmədov olmuşdur. O, 1900-cü ildə Gəncə şəhərində doğulmuşdur, ixtisasca tarixçi idi. A.Məmmədov da 221-ci nömrə ilə 12493 nömrəli istintaq işi üzrə mühakimə edilmişdir.

«Azərbaycan SSR-də qeyri-leqal əksinqilabi təşkilatların üzvləri Salamzadə, Həsənbəyov, Çobanzadə, Xuluflu, Bukşpan, Tixomirov və Biləndərlinin» verdiyi ifadələr əsasında Ağamir Məmmədov 1937-ci il oktyabrın 7-də həbs edilmiş və «əksinqilabi təşkilatın fəal üzvü» kimi Azərbaycan SSR CM-nin 73 və 72-ci maddələri üzrə cinayət məsuliyyətinə cəlb olunmuşdur.

1937-ci il oktyabrın 7-də birinci istintaqda müstəntiq A.S.Məmmədova belə bir sualla müraciət edir: «Azərbaycan əksinqilabi millətçi təşkilatın üzvü olduğunuzu etiraf edirsinizmi?» Cavab: «Rədd edirəm. Mən əksinqilabi millətçi təşkilatın üzvü olmamışam və belə bir təşkilatın fəaliyyəti haqqında heç bir məlumatım yoxdur».

İstintaqda fasilədən sonra 12493 nömrəli istintaq işi üzrə ittiham edilmiş Q.S.Qubaydullinlə A.S.Məmmədov üzləşdirilmişdir. Q.S.Qubaydullinə verilən sual: «A.S.Məmmədovun əksinqilabi fəaliyyəti haqqında sizə nə məlumdur?» Cavab: «Ağamir Məmmədovu bu işə mən, yəni Qubaydullin, 1927-ci ildən pantürkist ruhda hazırlamış və əksinqilabi millətçi təşkilata cəlb etmişəm. O, mənim göstərişimlə əksinqilabi iş aparırdı». 1937-ci il iyulun 19-da həmin iş üzrə ittiham olunan digər müttəhim V.Xuluflu da ifadəsində göstərmişdir: «Ağamir Məmmədovu əksinqilabi millətçi təşkilata mən cəlb etmişəm». (Bax belə! – Z.B.)

A.S.Məmmədovun cavabı: «Q.S.Qubaydullinin ifadəsini qəti rədd edirəm, ona görə ki, dedikləri həqiqətə uyğun gəlmir. Mən heç vaxt pantürkist olmamışam və Sovet hökumətinin siyasəti əleyhinə heç bir əksinqilabi iş aparmamışam. Qubaydullin öz vəziyyətini yüngülləşdirmək məqsədilə mənim barəmdə yalan ifadələr verir. Qubaydullinlə heç bir düşmənçiliyim və şəxsi-qərəzliyim yoxdur.

B.Çobanzadə ilə üzləşdirilərkən Ağamir Məmmədov yenə də onun ünvanına deyilənləri rədd etmiş və bildirmişdir: «Mən heç vaxt pantürkist

olmamışam». B.N.Tixomirovla üzləşdirilərkən A.Məmmədov demişdir: «Üzləşərkən mənim haqqımda verilən ifadələr yalandır. Mən heç vaxt əksinqilabçı olmadığımı yenə də təsdiq edirəm».

İşin 10-cu səhifəsinə 1937-ci il oktyabrın 14-də yazılmış imzasız məktub tikilmişdir. Burada ölkənin rəhbərlərinin ünvanına mədhiyyələr deyildikdən sonra göstərilmişdir (imzasız məktub yazanın üslubu olduğu kimi saxlanılır – Z.B.): «Xalqların öz vətənlərinə ziyan vuran çoxlu ziyankarları və düşmənləri var. Mən əsl bir müsavatçı haqqında sizə məlumat verməyi özümün vətəndaşlıq borcum hesab edirəm: məsələn, SSRİ EA-nın Azərbaycan filialının elmi işçisi, ADU və APİ-nin müəllimi, xalq düşməni, professor Həsənbəyovun sağ əli, Kirovabad şəhərində anadan olmuş, Bakıda çoxdan yaşayan vətəndaş Ağamir Məmmədov, onun atası, əmisi, əmisi oğlanları... bir sözlə, bütün Məmmədovlar ailəsi müsavat partiyasının üzvüdürlər, Həsənbəyovun bütün sirlərini Ağamir Məmmədovdan öyrənmək olar. O, habelə ziyankarlardan professor Xuluflu və SSRİ EA-nın Azərbaycan filialının elmi işçisi Həsən İmanovla əlaqə saxlayır. Bir sözlə, sizi əmin edirəm ki, ondan professor Həsənbəyov, professor Xuluflu və çoxlu müsavatçılar haqqında xeyli şey öyrənmək olar».

1937-ci il oktyabrın 19-da ikinci istintaqda A.S.Məmmədov belə cavab verir: «Mən əksinqilabi iş aparmamışam və heç vaxt əksinqilabi təşkilatın üzvü olmamışam».

Üçüncü istintaq (22 noyabr 1937-ci il). Müstəntiq: «Əksinqilabi təşkilatın üzvü olduğunuzu etiraf edirsinizmi?» A.S.Məmmədov: «Xeyr, etiraf etmirəm!» Müstəntiq: «Əksinqilabi millətçilərdən və trotskiçilərdən şəxsən kimləri tanıyırsınız və sizin onlarla əlaqənizin xarakteri nədən ibarət idi?» Cavab: «Mən trotskiçilərdən və əksinqilabçı millətçilərdən heç kəsi tanımıram və onlarla heç bir əlaqəm olmayıb».

Dördüncü, beşinci və altıncı dindirmələrdə A.Məmmədov istintaqın bütün ittihamlarını rədd edir.

İstintaqlararası fasilələrdə Ağamir Məmmədovu bu iş üzrə ittiham olunmuş digər müttəhimlərin ifadələri ilə tanış edirlər.

Belə ki, 1936-cı il dekabrın 19-da B.N.Tixomirovun verdiyi ifadələrdən öyrənirik ki, A.S.Məmmədov «bəhai» idi, 1937-ci il martın 16-da H.Biləndərlinin ifadəsindən «aydın olur» ki, A.S.Məmmədovun yazdığı «Bəhaizm», «İslam, yaxud panislamizm» kitablarında onun «əksinqilabi millətçi görüşləri daha açıq göstərilir». 1937-ci il mayın 10-da V.Xuluflu demiş-

dir: «Ağamir Məmmədov özünün «Azərbaycanda kəndli üsyanı» broşürasında çarizmə qarşı mübarizə aparan kəndlilərlə yanaşı bəy və xanları da mübariz kimi idealllaşdırmışdır». 1937-ci il fevralın 7-də A.S.Bukşpan göstərmişdir: «Ağamir Məmmədov özünün «Çarizm dövründə Azərbaycanda təhkimçilik münasibətlərinin qanunilaşdirilməsi» əsərində çarizmin Azərbaycanda yeritdiyi təhkimçilik qaydalarının təkrar olunduğunu iddia edən görüşlər təbliğ edirdi».

(Beləliklə, biz ancaq istintaq işindən öyrənə bilirik ki, Ağamir Məmmədov necə bir tədqiqatçı olmuş və nə cür ciddi əsərlər yaratmışdır. Lakin çox təəssüf ki, onun heç bir əsəri qorunub saxlanmamışdır. Milli kadr-ları məhv edən qəssabxana maşını necə də xüsusi zəriflik və eyni zamanda son dərəcə dəqiqliklə işləmişdir. Ləyaqətli milli təfəkkür xadimlərinin məhv edilməsi bəs deyilmiş kimi, əlavə onların yaratdıqları, xalq üçün qoyub getdikləri incilər də yox edilmişdir. Bütün bunlar elmə gələn gələcək nəslin boş yerdən başlaması üçün görülürdü).

İşə 1937-ci il oktyabrın 10-da yazılmış bir akt tikilmişdir. Burada deyilirdi: «Qubaydullin və Tixomirovla üzləşdirilərkən Ağamir Məmmədov israr etmişdir ki, ona «böhtan atırlar». Göstərilən səbəbə görə Məmmədov üzləşmə zamanı yazılan protokolu imzalamaqdan imtina etmişdir».

1937-ci il dekabrın 1-də Ağamir Məmmədov ittiham olunmuşdur ondan ötrü ki, «Azərbaycan əksinqilabi millətçi təşkilatın üzvü olmuş, ÜİK(b)P və Sovet hökumətinə qarşı mübarizə metodlarından biri kimi fərdi terrorun tətbiq edilməsi mövqeyində dayanmış, habelə kapitalist dövlətlərinin nümayəndələri ilə əksinqilabi əlaqə saxlamış, onları Azərbaycan SSR-dəki vəziyyətlə bağlı xəbərlərlə məlumatlandırmışdır».

A.S.Məmmədova Azərbaycan SSR CM-nin 17'70-ci, 65-ci maddələri üzrə əlavə ittihamlar da verilmişdir. 1937-ci il dekabrın 4-də kapitan Avanesov tərəfindən sonuncu ittiham qərarı tərt.b olunmuşdur. Qərarda yazılmışdır: «1) A.S.Məmmədov Azərbaycanın SSRİ-dən silahlı yolla ayrılmasını, partiya və hökumət rəhbərlərinə qarşı terror aktları tətbiq etməyi qarşısına məqsəd qoyan, əksinqilabi trotskiçi terrorist mərkəz və sağların əksinqilabi təşkilatları ilə əlaqədə olan Azərbaycan əksinqilabi millətçi təşkilat blokunda fəaliyyət göstərən əksinqilabi terrorist-pantürkist təşkilatın üzvü idi;

2) Trotskiçi təşkilatla əksinqilabi əlaqə saxlamış, partiya və hökumət rəhbərlərinə qarşı fərdi terrorun tətbiq edilməsi mövqeyində durmuşdur;

3) Praktiki əksinqilabi iş aparmışdır. Burada pantürkist təbliğat, elmi əsərlərində və mühazirələrdə əksinqilabi millətçi görüşlər geniş əksini tapmışdır, habelə Türkiyə konsulu ilə əksinqilabi əlaqədə olmuş, onun vasitəsilə Azərbaycan SSR-də əksinqilabi işin vaziyyəti haqqında xaricə məlumatlar vermişdir.

Özünü günahkar hesab etməmişdir».

1938-ci il yanvarın 4-də SSRİ Ali Məhkəməsi hərbi Kollegiyasının (Nikitenko, İyevlev, İşenko) hazırlıq iclasının protokolu tərtib olunmuşdur: Ağamir Sadıq oğlu Məmmədov 1 dekabr 1934-cü il Qanununa uyğun olaraq Azərbaycan SSR CM-nin 73, 70-ci maddələri üzrə məhkəməyə verilməli. İşə bağlı məhkəmə iclasında, şahidlərsiz, ittihamçısız və müdafiəçisiz baxılmalı».

1938-ci il yanvarın 5-də SSRİ Ali Məhkəməsi hərbi Kollegiyasının bağlı məhkəmə iclasında «müttəhim A.S.Məmmədov özünü günahkar bilməmişdir. Əksinqilabi təşkilatın üzvü olmamışdır; nə üçün ona böhtan atdıqlarını izah edə bilməmişdir, heç kəslə pis münasibətdə olmamışdır. Müttəhim son sözündə xahiş etmişdir ki, ona böhtan atıldığına inansınlar».

İclas saat 11-də açılmış, saat 11:20 dəqiqədə isə hökm verilmişdir.

1938-ci il yanvarın 5-də SSRİ Ali Məhkəməsi hərbi Kollegiyası Ağamir Sadıq oğlu Məmmədovu ən ağır cəzaya – güllələnməyə məhkum etdi. Hökm qətidir və o, SSRİ MİK-in 1 dekabr 1934-cü il Qərarına əsasən dərhal yerinə yetirilməlidir.

İşin 59-cu səhifəsində hökmün 1938-ci il yanvarın 6-da yerinə yetirilməsi haqqında arayış vardır. Lakin işin 68-ci səhifəsindəki arayışda isə A.S.Məmmədovun güllələnməsi haqqında hökmün 1938-ci il yanvarın 5-də Bakıda yerinə yetirildiyi bildirilir.

Hökmün yerinə yetirilməsi haqqında akt SSRİ XDİK-in I Xüsusi şöbəsinin Xüsusi arxivində (V c., səh.40) saxlanılır.

Beləliklə, tarixçi-alim Ağamir Sadıq oğlu Məmmədov üç aylıq (7.10.37-05.01.38) qərəzli istintaqda uydurulmuş və süni surətdə düzəldilmiş cinayətlərdə günahlandırıldı və qəti şəkildə heç bir şeyi boynuna almadığına baxmayaraq, cismən məhv edildi, milli kadrları – alimləri, yazıçıları, mədəniyyət və incəsənət xadimlərini qırmağa yönəldilən Stalin-Bağırov özbaşınalığı qurbanlarının uzun siyahısına onun da adı əlavə olundu.

1955-ci il aprelin 18-də Ağamir Məmmədovun qardaşı Kamal ailələrinin rüsvayçı ləkədən təmizlənməsi və qardaşının bəraət alması xahişi ilə müraciət etmişdir.

1956-cı il iyunun 15-də A.S.Məmmədovun işi ilə əlaqədar SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının 1938-ci il yanvarın 10-da çıxardığı hökmün ləğv və işin xətm edilməsi haqqında qərar tərtib olunur.

A.S.Məmmədovun həyat yoldaşı Neymə Rəşid qızı (yazıçı, maarifçi, pedaqoq Rəşid bəy Əfəndiyevin qızı idi – Z.B.) xalq düşməninin ailə üzvü kimi 1938-ci il aprelin 10-da həbs edilmiş və həmin ilin mayında 8 il müddətinə azadlıqdan məhrum olunaraq həbs düşərgəsinə göndərilmişdir. 1956-cı il noyabrın 17-də Neymə Rəşid qızı özünün və ərinin bəraət almasını xahiş etmişdir. Vəziyyətlə bağlı A.S.Məmmədovun işinə yenidən baxılmış və SSRİ Ali Məhkəməsi hərbi Kollegiyasının 21 noyabr 1956-cı il qərarına görə SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının 1938-ci il yanvarın 5-də çıxardığı hökm ləğv edilmiş və cinayət tərkibi olmadığına görə işə xitam verilmişdir.

## İDRİS MƏŞƏDİ ZAMAN OĞLU HƏSƏNOV

İstintaq işi № 10497 (25440)

12493 nömrəli istintaq işi üzrə ittiham olunanlardan B.Çobanzadə, V.Xuluflu, A.Şərifov öz ifadələrində demişlər: B.Çobanzadə – 1930-cu ildə mən İdris Həsənovla əksinqilabi əlaqə yaratmışdım və əlaqəmiz həbs olunan müddətədək davam etmişdir; V.Xuluflu – əksinqilabi millətçi təşkilata azərbaycanlılardan İdris Həsənov da daxil idi (19.07.1937); A.Şərifov – Tarix, Ədəbiyyat və Dilçilik İnstitutunun direktor əvəzi İdris Həsənovu əksinqilabi pantürkist təşkilata mən 1933-cü ilin aprelində cəlb etmişəm (14.01.1938).

1938-ci il martın 3-də, 1897-ci ildə Gəncə şəhərində anadan olmuş SSRİ EA-nın Azərbaycan filialının Tarix, Ədəbiyyat və Dilçilik İnstitutunun direktor müavini İdris Həsənovun həbs olunması haqqında qərar çıxarıldı. O, Azərbaycan SSR CM-nin 72, 73-cü maddələri üzrə ittiham edilirdi. Həbs haqqında qərar 1938-ci il aprelin 5-də İ.Həsənova elan olundu.

Elə həmin gün SSRİ EA-nın Azərbaycan filialının rəyasət heyəti İdris Həsənovu «ifşa olunmuş xalq düşməni kimi» Tarix, Ədəbiyyat və Dilçilik İnstitutunun direktor müavinliyindən və rəyasət heyəti üzvlüyündən xaric edilməsi barədə qərar qəbul etdi. 16.04.1938-ci ildə verilən əmrdə isə deyilirdi: «İdris Həsənov direktor müavini vəzifəsindən azad edilsin və ifşa

olunmuş xalq düşməni kimi 1938-ci il aprelin 4-dən institutun əməkdaşlarının siyahısından çıxarılsın».

İdris Həsənovun istintaq işində institutun direktoru A.Klimov və dilçilik şöbəsinin müdiri D.Quliyevin imzası ilə Elmlər Akademiyasının partiya təşkilatının ünvanına yazılan arayış da var idi. Burada deyilir: «İnstitutun keçmiş direktor müavini İdris Həsənov haqqında sorğunuza belə cavab veririk: İdris Həsənov Azərbaycan dilçiliyi sahəsində uzun müddət pantürkist təbliğat və ziyankarlıq işi aparmışdır. O, 1926-cı ildə çapdan çıxmış «Gəncə əhalisinin dialektində mənsubiyyət şəkilçisiz isimlərin hallanması» adlı ilk əsərində elə birinci sətirdən özünün pantürkist təbliğatını yaymağa başlayır. Onun bütün fikir və mülahizələri «vahid qədim türk dillərinin varisi olan türk dili haqqında pantürkist müsavatçı ideyaların davamıdır. Pantürkist ideyaya sadiq olan İ.Həsənov Azərbaycan dilinin qrammatikasına Osmanlı formalarını tətbiq etmək fikrində olduğunu söyləmişdir (məsələn, «almamış», «gəlməmiş» – «almadan», «gəlmədən» və s.). Bundan əlavə, Azərbaycan dilində o, rus və beynəlmiləl sözləri varvarizm və «yad» sözlər adlandırmışdır. «Azərbaycan zəhmətkeşlərinin İ.V.Stalinə məktubu» mətnindən sitat gətirən İ.Həsənov qeyd edir ki, «Azərbaycan dili, Azərbaycan məktəblərindən az qala qovulmuşdur. Bunu kobudcasına təhrif hesab etmək olmaz. Bu, əksinqilabi fitnəkarlıq və böhtandır. (Qrammatika I bölmə. Morfologiya. Bakı, 1937, səh.38). Azərbaycan dilinin orfoqrafiyası işlənib hazırlanarkən İ.Həsənov digər vətən xainləri ilə (Çobanzadə, Tağızadə və b.) birlikdə Azərbaycan dilini ərəb, fars, Osmanlı sözləri ilə doldurmağa çalışmış və Qərb, kapitalist ölkələrinin mədəniyyətini təbliğ etmişdir. APİ üçün müəllim kadrlarının hazırlanması işində də ziyankarlıq mövqeyindən fəaliyyət göstərmişdir».

Arayışın mətnini ixtisar etsək də, nümunə kimi misal gətirilən parçadan oxucu çox gözəl başa düşür ki, həmkarları tərəfindən verilən belə «akademik» tərcümeyi-haldan sonra İ.Həsənovun taleyi necə nəticələnə bilərdi.

5 aprel 1938-ci il. Birinci istintaq. Müstəntiq: «Siz fəaliyyətdə olan əksinqilabi millətçi təşkilatın üzvüsünüz. Bunu etiraf edirsinizmi? Cavab «Xeyr, etiraf etmirəm». Müstəntiq: «Adını çəkdiyimiz təşkilatın üzvü olduğunuz bizə dəqiq məlumdur. Ona görə də müqavimətiniz ağılsızlıqdır. Düz danışmağı sizə məsləhət görürük». Cavab: «Mən əksinqilabi təşkilatın üzvü olmadığımı artıq öz ifadəmdə göstərmişəm».

İkinci istintaq təxminən 6 aydan sonra – sentyabrın 28-də keçirilmişdir. Qeyd etmək istəyirik ki, İ.Həsənovun işində ancaq iki istintaqın materialları var idi. Guya sonrakı istintaqın protokolu yoxdur. Lakin bizə işin gedişindən aydın olur ki (İ.Həsənovun Beriyanın adına 09.04.1939-cu ildə yazdığı ərizəyə görə), üçüncü istintaq da olmuşdur. Bu istintaqın gedişi ilə tanış olaq. Müstəntiq: «İstintaq müqavimətü dayandırmağı və əksinqilabi fəaliyyətiniz haqqında ətraflı danışmağı sizdən tələb edir». Cavab: «Mən əksinqilabi fəaliyyətlə məşğul olmamışam və olmuram». Müstəntiq: «Bakıda siz kimlərlə əksinqilabi əlaqə saxlamısınız?» Cavab: «Heç kəslə». Müstəntiq: «Tağızadəni tanıyırsınız?» Cavab: «Bəli, tanıyıram». Müstəntiq: «Siz onunla əksinqilabi əlaqədə olmamısınız?» Cavab: «Xeyr». Müstəntiq: «Yenə də düz danışmırsınız. Sizi ifşa etmək üçün B.Çobanzadənin ifadəsindəki bir cümləni oxuyuruq: «O (yəni Tağızadə), Bakıda İdris Həsənovla sıx əlaqə saxlayırdı». Bunu etiraf edirsinizmi?». Cavab: «Xeyr, etiraf etmirəm». Müstəntiq: «Bəkir Çobanzadə ilə əksinqilabi əlaqədə olduğunuzu boynunuza alırsınızmı?» Cavab: «Xeyr, almıram».

Sonra müstəntiq İdris Həsənova 1938-ci il yanvarın 13-14-də A.Şərifovun, 3937-ci il fevralın 16-da B.Çobanzadənin, 1937-ci il iyulun 19-da V.Xuluflunun verdikləri ifadələri oxuyur. İdris Həsənov göstərilən ifadələri də və özünün əksinqilabi millətçi təşkilata məxsusluğunu da qəti rədd edir.

1938-ci il iyunun 29-da A.Şərifovla keçirilən üzləşmədə İ.Həsənov Şərifovun ifadələrini yenə də rədd edir və özünün hansısa bir təşkilatda fəaliyyət göstərdiyini boynuna almır.

İ.Həsənovun əleyhinə şahid sifəti ilə A.Klimov (Həsənov institutun maliyyə planını pozmuşdu və s.), SSRİ EA-nın Azərbaycan filialının sədr əvəzi Y.Kozin (Həsənovun vaxtında institutda heç bir inkişaf olmamışdır) ifadələr vermişlər. Lakin Həsənov bu ifadələri də qəti rədd etmişdir.

1938-ci il sentyabrın 30-da İdris Həsənovun işi üzrə istintaqın başa çatması haqqında protokol tərtib olunur: «Müttəhimin daha heç bir əlavəsi yoxdur».

1938-ci il dekabrın 26-da istintaqın başa çatması haqqında ikinci dəfə protokol tərtib olundu: «Müttəhim İdris Həsənov özünün millətçi təşkilata məxsusluğunu qəti rədd edir, SSRİ EA-nın Azərbaycan filialındakı ziyankarlıq işi ilə bağlı şahidlərin verdikləri ifadələri təsdiq etmir».

1939-cu il martın 15-də DTK-nın serjantı Drenişnikov leytenant Q. B Mustafayev və serjant Q B.Babayevin iştirakı ilə aşağıdakı məzmunda akt tərtib edir: «1939-cu il martın 15-də mənim tərəfimdən Bakı istintaq həbsxanasından istintaqın başa çatmasını elan etmək məqsədilə çağırılan müttəhim İdris Məşədi Zaman oğlu Həsənov ona təqdim olunan istintaq işi ilə tanışlıqdan imtina etmiş, protokolu imzalamamışdır».

1939-cu il martın 29-da İdris Həsənovun işi üzrə materiallar 10497 nömrəli istintaq işindən ayrılmış və müstəqil iş kimi ayrıca nömrə ilə aparılması qərara alınmışdır (25440).

1939-cu il martın 29-da İdris Həsənovun Azərbaycan SSR CM-nin 72, 73-cü maddələrində nəzərdə tutulan cinayətlərdə ittiham olunması haqqında qərar tərtib olunmuşdur: «1936-cı ilin sonlarında Bakı şəhərində Azərbaycan SSR XDİK tərəfindən silahlı üsyan yolu ilə Azərbaycanın SSRİ-dən ayrılması vəzifəsini qarşıya qoyan əksinqilabi millətçi təşkilat aşkar edilmiş və dağıdılmışdır.

İstintaq tərəfindən müəyyən olunmuşdur ki, İdris Məşədi Zaman oğlu Həsənov bu təşkilata onun fəal üzvü Abdulla Şərifov tərəfindən cəlb edilmişdir. 29.05.1938-ci ildə Həsənovla keçirilən üzləşmədə Şərifov bunu tam təsdiq etmişdir.

Əksinqilabi təşkilatın fəal üzvü kimi İdris Həsənov özünün elmi- nəzəri, praktiki işlərində, əsərlərində və dərsliklərində pantürkist və millətçilik ideyalarını təbliğ etmişdir. Gənclər arasında burjua-millətçi ədəbiyyatı yaymış, onları pantürkist və Sovet hökumətinə qarşı düşmən ruhda tərbiyələndirmişdir. 1935-ci ildə orfoqrafiyanın ziyanlı təşkilində fəallıq göstərmişdir. Yuxarıda deyilənlərə əsasən, İdris Məşədi Zaman oğlu Həsənov ittiham edilir, ondan ötrü ki:

1. Azərbaycanın SSRİ-dən ayrılması vəzifəsini qarşısına məqsəd qoyan əksinqilabi pantürkist millətçi təşkilatın üzvü olmuşdur, buraya 1933-cü ildə SSRİ EA-nın Azərbaycan filialının elmi əməkdaşı Abdulla Şərifov tərəfindən cəlb edilmişdir;

2. Əksinqilabi təşkilatın üzvü kimi bu sahədə fəaliyyət göstərən bir çox şəxslərlə əlaqə saxlamışdır. Aparılan bütün əksinqilabi işlərdə praktiki cəhətdən yaxından iştirak etmişdir.

Özünü günahkar bilməmişdir».

1939-cu il martın 30-da Azərbaycan SSR-in xüsusi işlər üzrə prokuror müavini Seliverstov İdris Həsənovun işini SSRİ XDİK yanında Xüsusi

Müşavirəyə baxılmağa vermək üçün qərar tərtib edir. Xüsusi Müşavirə iclasının gündəliyi Azərbaycan SSR XDİK müavini Kərimov tərəfindən imzalanmışdır.

1939-cu il aprelin 9-da İdris Həsənov SSRİ XDİK komissarı Beriyanın adına ərizə yazır. Burada o, əksinqilabi təşkilatın fəaliyyəti haqqında məlumatı və onun üzvü olmadığını göstərir. Birinci istintaqdan (05.04.1938-ci il) sonra 85 gün, daha sonra isə 4 ay 16 gün istintaqa çağırılmamışdır. İdris Həsənov əleyhinə verilən bütün ittihamları qəti rədd etmişdir. (Əlbəttə, Beriya Həsənovun ərizəsini, çox güman ki, heç vaxt görməmişdir).

1939-cu il iyunun 2-də Moskva prokuroru Leontyev İdris Həsənovun işinə aşağıdakıları da əlavə edir: «İdris Həsənovun cinayətləri sübut olunmuşdur. Əksinqilabi fəaliyyətinə görə müttəhim ən ağır cəzaya məhkum edilməlidir. (Güllələnməyə – Z.B.). İşə SSRİ XDİK yanında Xüsusi müşavirədə baxılmalıdır. Onu, cəzasını islah əmək düşərgəsində çəkməklə 8 il müddətinə azadlıqdan məhrum olunmasını təklif edirəm».

1939-cu il SSRİ XDİK yanında Xüsusi Müşavirənin 14 nömrəli protokolunda qiyabi olaraq İdris Həsənovun da mühakimə edildiyi göstərilmişdir: «Dinləmişlər № 20, istintaq işi № 25440. Qərara alınışlar: İdris Məşədi Zaman oğlu Həsənov antisovet təşkilatında iştirakına görə 8 il müddətinə islah-əmək düşərgəsinə göndərilsin». Protokolu Xüsusi Müşavirə katibliyinin rəisi Markeyev imzalamışdır.

SSRİ Daxili İşlər Nazirliyinin Şimal-Şərq düşərgəsində 8 illik həbs cəzasından sonra İdris Həsənov vətənə qayıtmışdır. Bakıda yaşamağa ona icazə verməmişlər. Ona görə də Gəncəyə getmiş, professor ola-ola 5 və 6 nömrəli məktəblərdə sıravi müəllim işləmişdir.

1949-cu il sentyabrın 25-də o, Kirovabaddan SSRİ Nazirlər Sovetinin sədri Stalinin adına, SSRİ Ali Soveti Rəyasət heyətinə və Azərbaycan SSR DTN-yə ərizə ilə müraciət edib. Ərizəsində Bakıya qayıtmağı, əvvəlki elmi işinə bərpa olunmağı xahiş edirdi. Yuxarılara göndərilən ərizə İ.Həsənova nəinki kömək etmədi, əksinə, onun yenidən ittiham olunmasına gətirib çıxartdı.

1949-cu il dekabrın 11-də Azərbaycan SSR Kirovabad Rayon DT Şöbəsinin rəisi Məmmədov aşağıdakı göstərişi aldı: «Həsənovu tapın və onu nəzarət altına alın» (təhlükəli şəxs kimi – Z.B.).

1949-cu il dekabrın 21-də İdris Həsənov yenidən həbs olundu və Bakıya gətirildi.

1950-ci il yanvarın 17-də 811 nömrəli istintaq işi üzrə ittiham qərarı tərtib edildi. Burada müttəhim İdris Məşədi Zaman oğlu Həsənov Azərbaycan SSR CM-nin 72/1 hissə və 73-cü maddələri üzrə cinayətlərdə təqsirləndirilirdi:

«Antisovet millətçi fəaliyyətinə görə mühakimə edilmiş İ.Həsənov islah-əmək düşərgəsində həbs cəzasını başa çatdırdıqdan sonra Azərbaycana qayıtmış və Kirovabad şəhərində yaşamışdır. İdris Həsənovun azadlıqda qalması təhlükəli olduğu üçün o, 1949-cu il dekabrın 21-də həbs edilmişdir. İslah-əmək düşərgəsindən qayıtdıqdan sonra işinə yenidən baxılması ilə əlaqədar 6 ərizə vermiş, amma ərizələrinə cavab almamışdır. hazırda özünün günahkar olduğunu boynuna almır.

Təklif edirik ki, təhlükəli element kimi mühakimə olunmuş İdris Həsənov Sovet İttifaqının ən uzaq rayonlarından birinə sürgün edilsin».

İşdə olan sənədlərə görə İdris Həsənovun hara sürgün edildiyi məlum deyil. Onun sürgündən qayıtması, sağ qalması hələ də qaranlıqdır.

1957-ci il iyulun 29-da Azərbaycan SSR prokuroru Polyanski İdris Həsənovun işinə yenidən baxılması üçün protest vermişdir. Bu işdə İ.Həsənovun qızı Ulduz Həsənovanın çox böyük zəhməti olmuşdur.

1957-ci il sentyabrın 27-də İdris Həsənovun işi ilə bağlı çıxarılan hökm ləğv edilmiş, cinayət tərkibi olmadığı üçün iş xətm olunmuşdur.

## TAĞI ABBAS OĞLU ŞAHBAZİ
İstintaq işi № 12493-153

1937-ci il noyabrın 2-də Azərbaycan SSR XDİK İdarəsi rəisi Sumbatova aşağıdakı məzmunda arayış təqdim edilmişdi: «1892-ci ildə anadan olmuş, fiziologiya institutunun assistenti Tağı Şahbazi 1922-ci ildə Zaqafqaziya federasiyasının yaradılması ilə əlaqədar antipartiya milli-təmayülçülər qrupuna qoşulmuş və Zaqafqaziya federasiyası məsələsi və onun yaradılması ilə bağlı partiyanın yeritdiyi siyasət əleyhinə fəal mübarizə aparmışdır.

1923-cü ildə Tağı Şahbazi keçmiş milli-təmayülçü, hazırda Müsavatın 4-cü gizli Mərkəzi Komitəsinin işi üzrə həbs edilmiş Əbdül Bağı Məmmədzadə, ittihadçı M.Məlikov, K.Fətəliyev və müsavatçı Kərbəlayi Vəli Mikayılovla Əbdül Bağının evində Türkiyə konsulu M.Şövkət bəyin şərəfinə təşkil olunmuş qonaqlıqda iştirak etmişdir.

Göstərilən qonaqlıqda onlar ÜİK(b)P-nin milli siyasətini əksinqilabi böhtançı ruhda tənqid etmişlər.

Müsavatın Xarici bürosu Azərbaycan SSR-də milli-təmayülçülərin fəaliyyəti haqqında Bakıdan Müsavatın 2-ci gizli MK-sından məlumat aldıqdan sonra MK-ya aşağıdakı göstərişləri vermişdi: «Sağ bolşeviklərlə əlaqə saxlayın, aşağıda adları göstərilən «kommunistlər»lə əlaqəyə girin: İsrafilbəyov, Muxtar Hacıyev, Xanbudaqov, Kazımov, Zeynallı, Əsəd Axundov, Tağı Şahbazi, Əhməd Əhmədov. Siz hətta doktor Nərimanova da yanaşa bilərsiniz».

Bizim tərəfimizdən aşkar edilən əksinqilabi burjua-millətçi təşkilatın işi üzrə aparılan istintaqdan məlum edilmişdir ki, Tağı Şahbazi hələ də əksinqilabi millətçi mövqedə durur və əksinqilabi millətçi mövqeli təşkilatın tərkibinə daxildir. (Ruhulla Axundovun 09.04.37-ci il; V.Xuluflunun 29.01.37-ci il; Əli Kərimovun 2-4.03.37-ci il; A.Qubaydullinin 19-20.04.37-ci il; Eminbəylinin 27-28.02.37-ci ildə verdikləri ifadələrə əsasən).

Yuxarıda göstərilənlərə əsasən hesab edirəm ki, Tağı Şahbazinin Azərbaycan SSR CM-nin 72/73-cü maddələri üzrə məsuliyyətə cəlb edilib həbs olunması zəruridir».

Arayışı müstəntiq L.A.Sinman tərtib etmişdir. Sonradan o, trotskist kimi mühakimə edilib ən ağır cəzaya məhkum olunmuşdur. Lakin cəza 20 illik həbslə əvəz edilmişdir).

1937-ci il iyulun 11-də Tağı Abbas oğlu Şahbazi həbs olundu. O vaxta qədər isə – 1937-ci il martın 4-də Tağı Şahbazi «gizli milli-təmayülçülər qrupuna məxsusluğuna, əksinqilabi millətçi çıxışlarına və ikiüzlülüyünə görə» partiya sıralarından xaric edilmişdi.

Tağı Şahbazi ilə birinci istintaq 1937-ci il iyulun 13-də olmuşdur. Müstəntiq: «İstintaq tərəfindən aydın olmuşdur ki, siz əksinqilabi millətçi təşkilatın üzvüsünüz. Bunu etiraf edirsinizmi?» Cavab: «Rədd edirəm!» Müstəntiq: «Siz düz danışmırsınız. Əksinqilabi millətçilərdən sizə kimlər məlumdur?» Cavab: «Rəsmi mənbələrdən, (yığıncaqdan, mətbuatdan) mənə aşağıdakı əksinqilabı millətçilər məlumdur: şairlərdən Hüseyn Cavid, Əhməd Cavad, Müşfiq və yazıçı Sanılı. Şair Səməd Vurğunda mən bəzi əksinqilabi təzahürlər müşahidə etmişdim. Talıblı mənə mətbuatdan bəllidir. Ağababa Musaxanlı əksinqilabi fəaliyyətinə görə sürgün edilmişdir. Keçmiş milli-təmayülçülərdən S.M.Əfəndiyevi, M.Qədirlini, M.Hacı-

yevi, D.Bünyadzadəni və E.Xanbudaqovu tanıyıram. Onların millətçi kimi aşkar olunmasından isə xəbərim yoxdur». Müstəntiq: «Siz yenə də tanıdığınız şəxslərin öz əksinqilabi görüşləri haqqında danışmamalarını təsdiq etməklə düzgün ifadə vermirsiniz. Bununla da özünüzün əksinqilabi millətçi mövqelərinizi gizlətməyə çalışırsınız. Siz həbs olunan dəqiqəyədək əksinqilabi millətçi mövqedə durduğunuzu da rədd etmək fikrindəsiniz?» Cavab: «Mən həbs olunan dəqiqəyədək əksinqilabi millətçi mövqedə durmamışam. Boynuma alıram ki, 1921-1922-ci illərdə mənim milli-təmayülçü «nərimanovçular» cərəyanına rəğbətim olub. Habelə əlavə edirəm ki, «nərimanovçulara» rəğbət bəsləməyim onunla əlaqədar idi ki, mən Zaqfederasiyanın yaradılması və Azərbaycanın ora daxil olması məsələsinə münasibətdə onlarla razılaşırdım».

1937-ci il noyabrın əvvəllərində Tağı Şahbazi dindirilməmişdir. ADU-nun keçmiş rektorunu necə dindirmək olardı, bir halda ki dindirən adamın özü ondan bir neçə dəfə aşağı idi? İstintaq Tağı Şahbazinin üzləşmələrini «gözləməyi» qərara almışdı.

1937-ci il oktyabrın 3-də Əli Kərimovla Tağı Şahbazi üzləşdirildi. Əli Kərimova verilən sual: «Tağı Şahbazinin Azərbaycan əksinqilabi millətçi üsyançı təşkilata məxsusluğu haqqında sizə nə məlumdur?». Cavab: «Tağı Şahbazi hələ 1921-ci ildə Nərimanovun millətçi qrupuna daxil olmuşdu. Şahbazi bu qrupdan formal olaraq uzaqlaşaraq aşkar edilməmiş milli-təmayülçü kimi qalmışdır. 1934-cü ildə əksinqilabi milli təşkilatın rəhbəri Ruhulla Axundov əksinqilabi millətçi təşkilata daxil olan bir sıra şəxslərin familiyalarını mənə deyərkən Tağı Şahbazinin də adını çəkmişdi və göstərmişdir ki, T.Şahbazi Yazıçılar İttifaqında əksinqilabi iş aparır və əksinqilabi qrupa rəhbərlik edir. Elə 1934-cü ildəcə mən onunla əksinqilabi təşkilati əlaqə yaratdım. O, Azərbaycanın SSRİ-dən ayrılması haqqında əksinqilabi söhbətlər aparırdı. Tağı Şahbazi dəfələrlə kəskin formada ÜİK(b)P-nin milli siyasətinə və Sovet hökumətinə böhtanlar atmışdı». Tağı Şahbaziyə verilən sual: «Ə.Kərimovun ifadələrini təsdiq edirsinizmi?» Cavab: «Rədd edirəm!»

1937-ci il oktyabrın 4-də T.Şahbazi A.Qubaydullinlə üzləşdirildi. Qubaydullin: «T.Şahbazinin əksinqilabi işdə iştirakını mən ilk dəfə 1926-cı ildə Əhməd Pepinovdan eşitmişdim. O vaxt 1927-ci ildə Tağı Şahbazi ilə əksinqilabi əlaqəyə girdim. 1927-ci ildə o, Azərbaycan Dövlət Universitetinin rektoru təyin edildi. Pantürkist təşkilatın iştirakçısı kimi məni Şərq

fakültəsinin dekanı vəzifəsinə irəli çəkdi və bir sıra əksinqilabı göstərişlər verdi. Xüsusilə 1927-1928-ci illərdə deyirdi ki, türk Nazim Hikmətə professor adının verilməsi məsələsini irəli sürüm, halbuki Tağı Şahbazı bilirdi ki, Hikmət əksinqilabi iş aparır və buna görə də SSRİ-dən kənara çıxarılır. 1930-cu ilədək Tağı Şahbazi ilə əksinqilabi əlaqə saxladım. Nəhayət, 1936-cı ildə Azərbaycandakı əksinqilabi millətçi təşkilatın fəal üzvlərindən biri (kim? – Z.B.) dedi ki, bu təşkilat əksinqilabı üsyançı iş aparır. O, əksinqilabi millətçi təşkilatın üzvləri içərisində Tağı Şahbazinin də adını söyləmişdi». T.Şahbaziyə verilən sual: «Qubaydullinin ifadəsini təsdiq edirsinizmi?» Cavab: «Rədd edirəm».

1937-ci il oktyabrın 5-də T.Şahbazi İ.Eminbəyli ilə üzləşdirildi. Eminbəyli: «1917-ci ildə Şahbazi «hümmət» təşkilatında milli-təmayülçü qrupa meyl edirdi. 1921-ci ildə o, Nərimanovun millətçi qrupuna yaxınlaşdı. 1926-cı ildə Tağı Şahbazi Yazıçılar Cəmiyyətinin sədri idi. Müavini millətçi Talıblı, katib isə tanınmış müsavatçı Əhməd Cavad idi». Şahbazi: «İfadələri rədd edirəm».

1937-ci il oktyabrın 6-da T.Şahbazi Bağı Cəfəri ilə üzləşdirildi. Cəfəriyə verilən sual: «Tağı Şahbazinin əksinqilabi millətçi təşkilata məxsusluğu ilə əlaqədar sizə nə məlumdur?» Cavab: «T.Şahbazi Azərbaycan əksinqilabi millətçi təşkilatın üzvüdür. Onu 1920-ci ildən tanıyıram. 1935-ci ilin ortalarında şəxsən mən onu əksinqilabi təşkilata cəlb etmişəm və əksinqilabi əlaqə saxlamışam». T.Şahbaziyə verilən sual: «Cəfərinin ifadələrini təsdiq edirsinizmi?» Cavab: «Xeyr, rədd edirəm!»

Tağı Şahbazinin işində 12493 nömrəli istintaq işi üzrə ittiham olunmuş müttəhimlərdən Bağı Cəfərinin, Həmid Sultanovun, Qulam Səfərovun, Mirzədavud Hüseynovun, Dadaş Bünyadzadənin, Ə Qubaydullinin, Bəkir Çobanzadənin, Əhməd Cavad Axundovun, Hənəfi Zeynallının, Böyükağa Talıblının və İbrahim Eminbəylinin onun əksinqilabı fəaliyyətini təsdiq edən ifadələri vardır.

Tağı Şahbazinin inadkarlığı və «düzgün, səmimi» ifadələrdən qaçması nəticəsində ona istintaqın üç nömrəli metodu tətbiq edildi.

Nəhayət, 1937-ci il noyabrın 2-də Tağı Şahbazı müstəntiqin diktəsilə Xalq Komissarı Sumbatov-Topuridzeyə ərizə yazır: «Bununla bildirirəm ki, bu günədək mən istintaqa ifadələr verməmişəm. Susmağın və istintaqdan öz cinayətlərimi gizlətməyimin mənasız olduğunu başa düşdüm. Hər şeyi səmimi şəkildə boynuma almaq qərarına gəldim. Mən burjua-millətçi

quruluş yaratmaq məqsədilə Azərbaycan SSR-də çevriliş hazırlayan avantüra xarakterli əksinqilabi təşkilata ürəkdən inanmışdım.

Əksinqilabi təşkilata 1935-ci ildə Həmid Sultanov və Bağı Cəfəri tərəfindən cəlb edilmişdim. Onlarla da, Ruhulla Axundovla da əlaqə saxlayırdım.

Müəllim Ələsgər Əliyevi, şair Sanılını və tələbə – tibb işçisi Lətifi isə əksinqilabi təşkilata mən cəlb etmişdim.

Sovet hökuməti əleyhinə silahlı üsyana hazırlıq haqqında və əksinqilabi təşkilatın AK(b)P-nin rəhbərlərinə qarşı terror tətbiq etmək haqqındakı niyyətlərindən xəbərdar idim».

1937-ci il noyabrın 9-da Tağı Şahbazi ilə ikinci və axırıncı istintaq keçirildi. Müstəntiq: «Üzləşmələr sizi əksinqilabi millətçi terrorist təşkilatın fəal üzvü kimi də ifşa edir. Azərbaycan SSR Xalq Daxili İşlər Komissarının adına yazdığınız ərizədə əksinqilabi təşkilatda iştirakınızı və praktiki olaraq şəxsən özünüz apardığınız işləri boynunuza almısınız». Cavab: «Bəli, mən 1937-ci il noyabrın 2-də yazdığım ərizədə olduğu kimi, özümün əksinqilabi millətçi təşkilatda iştirakımı tamamilə etiraf edirəm». Müstəntiq: «Sizi əksinqilabi millətçi təşkilata kim və nə vaxt cəlb edib? Cavab: «Mən təşkilata 1935-ci ilin payızında Həmid Sultanov və Bağı Cəfəri tərəfindən cəlb edilmişəm». Sonra Tağı Şahbazi müstəntiqin bütün suallarına cavablarını aşağıdakı sözlərlə başlayırdı: «Həmid Sultanov və Bağı Cəfəri mənə deyirdilər...», «Həmid Sultanovun sözlərindən mən bilirdim ki...» və s. və i.a. Tağı Şahbazinin istintaq işini oxuyanlara aydın olur ki, ona qarşı çevrilən bütün ittihamlar uydurma və qondarmadır, o, heç bir cinayət etməmişdir.

1937-ci il noyabrın 13-də istintaqın başa çatması haqqında protokol tərtib edildi. Tağı Şahbazi özünün günahkar olduğunu boynuna aldı və ifadələrinin səmimiliyini nəzərə almağı xahiş etdi. Elə həmin gün ittiham qərarı tərtib olundu, Tağı Abbas oğlu Şahbazi Azərbaycan SSR CM-nin 64, 70, 73-cü maddələrində nəzərdə tutulan cinayətlərdə ittiham olundu.

1937-ci il dekabrın 31-də Qroznı şəhərində (Bakıdakı üçlük Matuleviç, Zaryanov, Jiqur ölüm hökmlərinə möhür vurmağı belə çatdıra bilmirdilər və ona görə də istintaq işlərinin bir hissəsi iş az olan yerlərə göndərilirdi) SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası (Nikitçenko, İyevlev, İşenko) Səyyar sessiyasının iclası keçirildi. Burada T.A.Şahbazinin işi üzrə ittiham qərarı təsdiq edildi.

1938-ci il yanvarın 1-də Tağı Şahbazı ittiham qərarının bir surətini aldı.

1938-ci il yanvarın 2-də hərbi Kollegiyanın bağlı məhkəmə iclası keçirildi. İclas saat 15:30 dəqiqədə açıldı. «Müttəhim T.Şahbazi özünü günahkar bilmişdir. Son sözdə demişdir ki, əksinqilabi millətçi təşkilatın avantürist xarakter daşıdığına inanmış, peşman olmuş və öldürülməməsini xahiş etmişdir». İclas saat 15:45 dəqiqədə bağlanmışdır.

1938-ci il yanvarın 2-də hərbi Kollegiya Tağı Abbas oğlu Şahbazini ən ağır cəzaya – güllələnməyə məhkum etdi. Hökm dərhal yerinə yetirilmişdir. İşdə Tağı Abbas oğlu Şahbazinin ölüm hökmünün Bakı şəhərində 1938-ci il yanvarın 2-də yerinə yetirildiyi haqqında arayış vardır. Hökmün icra edilməsi haqqında akt SSRİ XDİK-in I Xüsusi şöbəsinin Xüsusi arxivində saxlanılır.

1954-cü il iyulun 29-da T.Şahbazinin həyat yoldaşı M.K.Şahbazi-Paşina ərinin işinə yenidən baxılması xahişilə N.S.Xruşşovun adına ərizə ilə müraciət etmişdi (O, özü «vətən xaininin ailə üzvü kimi» səkkiz illik həbs cəzası çəkmişdi).

1955-ci il oktyabrın 16-da Mariya Kirillovna Şahbazi ərinin işinə yenidən baxılıb bəraət verilməsi ilə əlaqədar ikinci məktub yazır.

1956-cı il sentyabrın 25-də M. K. Şahbazi-Paşina SSRİ Ali Məhkəməsi hərbi Kollegiyasından həyat yoldaşı Tağı Abbas oğlu Şahbaziyə bəraət verilməsi haqqında arayış aldı.

## QUBAYDULLİN QAZİS SALİHOVİÇ
## (QUBAYDULLİN ƏZİZ)

İstintaq işi № 12493

1937-ci ildə repressiyaya məruz qalmış və həbs olunmuş Azərbaycan SSR EA-nın, demək olar ki, bütün alimləri 12493 nömrəli istintaq işi üzrə ittiham edilmişlər. Onlar 1937-ci il oktyabrın 12-də güllələnməyə məhkum olunmuş, oktyabrın 13-də isə güllələnmişlər.

Sual olunur: Axı bu adamları haradasa dəfn ediblər? Bəs məhz harada? Bulla adasındakı suları akvatoriya adlandırırlar. Adada bərk fırtınalı havalarda ləpələr sahilə çoxlu insan kəllələri və sümükləri çıxarır. Bəlkə də onlar repressiya qurbanlarının cəsədləridir? Bu, mütləq yoxlanmalı və müəyyən edilməlidir. Yalnız aparılan tədqiqatlardan sonra Stalin repressi-

yası qurbanları üçün həmin yerdə abidə ucaltmaq haqqında fikir yürütmək olar.

1937-ci il oktyabrın 13-də edam olunan Azərbaycan SSR EA-nın növbəti əməkdaşı tarixçi-professor Qubaydullin Qazis (Əziz) Salihoviç idi. O, 1887-ci ildə anadan olmuşdur.

1937-ci il martın 17-də professor Q.S.Qubaydullin EA-nın əvvəlcədən həbs olunmuş əməkdaşlarından Tixomirov, Xuluflu, Bukşpan və Çobanzadənin verdikləri ifadələr əsasında Azərbaycan SSR CM-nin 72/73-cü maddələri üzrə cinayət məsuliyyətinə cəlb edilmiş və «Bakı şəhərində əksinqilabi iş aparan görkəmli əksinqilabçı-millətçi xadim kimi» həbs olunmuşdur.

Q.S.Qubaydullin 1915-ci ildə Kazan Universitetinin tarix-filologiya fakültəsini bitirmişdir. Onun çapdan çıxmış ən böyük əsəri «Marko Polo monqol tarixinin tarixçisi kimi» mövzusunda yazdığı diplom işi idi. Qubaydullin qısa müddətdə görkəmli tarixçi kimi şöhrət qazanmışdır. O, rus, tatar, Azərbaycan və özbək dillərində yazıb-yaratmış, 100-dən çox əsərin, kitab və məqalələrin müəllifi olmuşdur.

1925-ci ildə Q.S.Qubaydullin Azərbaycan Dövlət Universitetinin dosenti seçilmişdir. 1928-ci ildə o, Şərq tarixi kafedrasının, 1930-cu ildə isə Moskva Universitetinin professoru təyin edilmişdir. Q.S.Qubaydullin bir çox Azərbaycan tarixçilərinin ilk müəllimi olmuşdur.

1937-ci il martın 22-də aparılan ilk istintaqda Q.S.Qubaydullin etiraf etmişdir ki, həbs olunan dəqiqəyədək «əksinqilabi pantürkist mövqedə durmuşdur». «Siz kimlərlə əksinqilabi əlaqə saxlayırdınız?» sualına cavab vermişdi: «Mən Çobanzadə və başqaları ilə əksinqilabi əlaqə saxlayırdım». Sonra istintaq müttəhimin xahişi ilə dayandırılmışdır.

İkinci istintaq isə fasiləsiz on iki gün (1937-ci il 9-20 aprel) çəkmişdir. Q.S.Qubaydullin bu istintaqda 1925-ci ildən Bakıda özünün əksinqilabi əlaqələri barədə ifadə vermişdi: «Əksinqilabi millətçi təşkilat SSRİ-dən ayrılmaq şərti ilə, İngiltərənin protektoratlığı altında» (əsarətdə saxlamaq üsullarından biri – Z.B.) türk-tatar xalqlarından ibarət «müstəqil» dövlət yaratmaq vəzifəsini qarşısına qoymuşdur. Bu dövlətin tərkibinə Özbəkistan, Qırğızıstan, Türkmənistan, Azərbaycan, Tatarıstan, Başqırdıstan və Dağıstan kumıkları daxil olmalı idilər. Məqsədimizi həyata keçirmək üçün biz «Azərbaycanı öyrənən cəmiyyət»in üzvlərindən geniş istifadə edirdik. X.S.Xocayev, A.R.Haqverdiyev, T.Şahbazi, A.Ələkbərov, M.Q.Baharlı və

b. Cəmiyyətdə əksinqilabi işi açıq şəkildə aparırdıq. Cəmiyyətin xətti ilə bir sıra əksinqilabi əsərlər çapdan çıxmışdı: 1) B.V.Çobanzadənin «Türk-tatar dialektologiyası»; 2) X.S.Xocayevin «Türk dillərinin müqayisəli qrammatikası»; 3) M.Baharlının «Azərbaycanın tarixi-iqtisadi icmalı»; 4) Q.S.Qubaydullinin «Xəzərlərin mənşəyi məsələsinə dair» və b. (gözəl əksinqilabi əsərlərdir! – Z.B.).

Təşkilatın üzvlərinin praktik əksinqilabi fəaliyyəti aşağıdakı göstərişlərdən ibarət idi: 1) Leqal imkanlardan, yəni dil-ədəbiyyat və mədəniyyət tarixi üzrə məruzə, mühazirə və disputlardan istifadə yolu ilə pantürkizmin təbliği; 2) tələbələr arasında pantürkist ədəbiyyatın yayılması, pantürkizm və millətçilik baxımından tədris planlarının tərtib edilməsi; 3) əksinqilabi əhval-ruhiyyəli tələbələrdən və Bakı şəhəri ali məktəblərinin akademik tərkibindən əksinqilabi millətçi təşkilata yeni üzvlərin toplanması və cəlb edilməsi; 4) əksinqilabi millətçi təşkilatın təsiri altında ali məktəblərin partiya-ictimai təşkilatlarının rəhbərlərinin ələ alınması, əksinqilabi millətçi təşkilatın üzvlərinin bu təşkilatların rəhbərliyinə salınması; 5) kənddə işləməyə gedən əksinqilabi millətçi təşkilatın (ƏİMT) üzvü olan tələbələrin gələcəkdə kənddə təşkilatın özəyini yaratmaq məqsədi ilə təlimatlandırılması.

Üçüncü istintaqda (1937-ci il aprelin 23-30-da) müttəhim demişdi ki, «SSRİ-də pantürkist ƏİMT-ın rəhbər özəyi 1925-ci ildə Səmərqənddə təşkil olunmuşdur». «Bakıdakı əksinqilabi pantürkist fəaliyyətiniz haqqında ətraflı danışın» sualına Q.S.Qubaydullin cavab vermişdir ki, 1926-cı ildən 1933-cü ilədək, 1935-ci il-dən 1937-ci ilədək 24 nəfəri pantürkist istiqamətə yönəltmişdir.

Dördüncü istintaqda (1937-ci il, mayın 19-23-də) müttəhim Türkiyə və Almaniya mühacirləri ilə olan əksinqilabi əlaqələri barədə «xatırlamışdı». Beşinci istintaqda (1937-ci il, iyunun 1-7-də) alman kəşfiyyatı ilə əlaqələri barədə ifadə vermişdir.

1937-ci il iyunun 6-da «pantürkizm ideoloqu» (belə! – Z.B.) Q.S.Qubaydullin cavab vermişdi: «Soltan Məcid Əfəndiyevi 1909-cu ildən tanıyıram. Kazan Universitetində onunla bir vaxtda təhsil almışam. O, panislamist görüşlərin qızğın ifadəçisi olduğu üçün «Məcid Müsəlmanski» ləqəbini almışdı».

1937-ci il iyunun 16-da Q.S.Qubaydullin «inqilabdan əvvəlki dövrdə, 1918-ci ildən 1925-ci ilədək Tatarıstanın görkəmli millətçi xadimi – Sol-

tan Qaliyevskinin əksinqilabi təşkilatının üzvü, həbsdən qabaq – SSRİ-də pantürkizmin ideoloqlarından biri kimi» dindirilir.

«Pantürkizmin ideoloqlarından biri olan» Q.S.Qubaydullin iyulun 4-də və 5-də Pepinov və millətçi kommunistlər (nərimanovçular) bloku, müsavatçılar və neonasionalistlərlə olan əlaqələrini açıb söyləmişdi.

Millətçi kommunistlər blokuna aşağıdakı şəxslər daxil idi: S.M.Əfəndiyev, D.Bünyadzadə, B.Talıblı, Qədirli, T.Şahbazi, P.Qasımov, C.Məmmədzadə, M.Quliyev, H.Cəbiyev.

Müsavatçılar: M.Baharlı, Ə.Əhmədov, Ə.Axundov, Sübhanverdibəyov, İ.Axundov, N.Şahsuvarov.

Neonasionalistlər: Ə.Pepinov, F.Ordubadski, S.Kazımov, Şabanov, Məlikaslanov, Xudatov və b.

Sonra müttəhim göstərmişdir: «1936-cı ilin noyabrında ƏİMT-ın rəhbəri Ruhulla Axundov öz kabinetində mənə bildirdi ki, onun rəhbərlik etdiyi ƏİMT öz qarşısına Azərbaycan SSR-nin SSRİ-dən silahlı yolla ayrılması, İran Azərbaycanının ərazisinin işğal edilməsi və bu ərazidə (millətçilər başda olmaqla) İngiltərə və Türkiyə ilə ittifaqda burjua-demokratik dövləti yaradılması vəzifəsini qoymuşdur».

İyulun 13-də müttəhim «pantürkist» akademik A.N.Samoyloviç, 1937-ci il avqustun 2-də «Türkiyə kəşfiyyatının casusu», Leninqrad limanının əməkdaşı K.Satov, avqustun 5-də «əksinqilabi daşnak mövqeyində duran» Qurken Apressov haqqında ifadə verir: «Apressov mənə bildirmişdi ki, Ermənistan millətçiləri Ermənistanın SSRİ-dən ayrılması istiqamətində artıq fəal iş aparırlar. Apressov bizim adam idi və məndən heç nə gizlətmirdi».

1937-ci il avqustun 7-də müttəhim «ittihadçı» Soltan Məcid Qənizadə haqqında danışır. İttihadçılar qrupu – buraya Həmidbəy Şahtaxtinski, Cahanbaxş, Muğanlinski, Nurməmməd Şahsuvarov, Ağa Axundov, Səməd Acalov, Rəşidbəy Əfəndiyev və Qəniyev özü daxil idilər – «Azərbaycanda Sovet hökumətinə qarşı silahlı üsyan hazırlamaq, Azərbaycanı SSRİ-dən ayırmaq və Azərbaycanı xilafətə tabe etmək vəzifəsini irəli sürmüşlər».

1937-ci il avqustun 16-17-də müttəhim «SSRİ-də RSFSR XKŞ-in sədr müavini Rıskulovun rəhbərlik etdiyi Ümumittifaq pantürkist mərkəz haqqında» istintaq edilir.

1937-ci il avqustun 27-28-də «Bakıda çalışan rus professor heyətinin və elmi işçilərinin əksinqilabi təşkilatları barədə» dindirilir. Professor İ.İ Şirokoqorovun rəhbərlik etdiyi qrup «Sovet hökumətini devirmək və kons-

titusiyalı monarxiya yaratmaq» tərəfdarı idi. Bu qrupun tərkibinə professor Şirokoqorov, Uar-Uar, Belyayev, Oşman, Lapuxin, İovlev, Juze, Aşmarin, Pisarevski, Yevlaxov, Paxomov və Boqaçov daxil idilər. Professor İşkov Baqriyin qrupu isə «kapitalizmi bərpa etmək və SSRİ-nin ərazisində burjua-demokratik dövləti yaratmaq məqsədini» irəli sürürdü. Bu qrupa isə İşkov, Baqriy, Baybakov, Zummer, Kovapko, Yelpatyevski, Lukov, Xatuntsep, Komarovski, Yelyaşeviç, Makovelski, Qulyayev, Fridolin, Selixonoviç, Lipin, Trivus, Berker daxil idilər.

Hər iki qrup «trotskçilər, pantürkistlər, ittihadçılar, müsavatçılar, gürcü menşevikləri və ukraynalı millətçilərlə sıx əlaqə saxlayırdı».

1937-ci il avqustun 29-da müstəntiq «Azərbaycan əksinqilabi millətçi təşkilatın üzvü», Azərbaycan SSR-in keçmiş xalq maarif komissarı Müseyib Şahbazovla bağlı istintaq aparmışdır.

1937-ci il sentyabrın 3-də «Ümumittifaq pantürkist təşkilatın üzvü» Q.S.Qubaydullin Bibiheybət və Lenin rayonları üzrə əksinqilabi təxribatçı özəyin rəhbərləri, xüsusilə Alim Sakitovun əksinqilabi pantürkist təşkilatının təxribatçılıq qrupunun rəhbərləri ilə əlaqədar dindirilmişdir.

1937-ci il sentyabrın 4-də Q.S.Qubaydullin SSRİ-də silahlı üsyana hazırlıq, hökumətə qarşı üsyançı fəaliyyət, təxribatçılıq və casusluq işi ilə əlaqədar, yəni Azərbaycan SSR CM-nin 21/64, 68, 69-cu maddələri üzrə ittiham olunur.

Sentyabrın 7-də Q.S.Qubaydullin pantürkist fəaliyyətə 1910-cu ildən başladığını, Türkiyə, Almaniya və Yaponiyanın xeyrinə kəşfiyyat işi apardığını etiraf etmişdir. Q.S.Qubaydullinin işinə Bukşpanın, Çobanzadənin, A.Mahmudzadənin, Tixomirovun, Xuluflunun, Zeynallının, Biləndərlinin, Xalfinin, Xocayevin, Sakitovun, Novruzinin, Səfərovun və Altunbayovun «Qubaydullini ifşa edən» ifadələri tikilmişdir.

Sentyabrın 7-də Q.S.Qubaydullinin işi üzrə istintaq başa çatmışdı. 1937-ci il sentyabrın 16-da Q.S.Qubaydullin Azərbaycan SSR CM-nin 73, 64, 63-1, 69 və 70-ci maddələrində nəzərdə tutulan cinayətlərdə iştirakına, yəni:

1. Milli respublikaların SSRİ-dən silahlı yolla ayrılmasına hazırlaşan və vahid türk-tatar dövlətinin yaradılmasına çalışan Ümumittifaq əksinqilabi pantürkist təşkilat mərkəzinin üzvü olduğuna;

2. Pantürkist təşkilatda bilavasitə fəal iş apardığına və Tatarıstan, Özbəkistan, Krım və Azərbaycanda təşkilata yeni-yeni üzvlər cəlb etdiyinə;

3. Ziyanverici-təxribatçılıq qrupu yaratdığına və Azərneftkombinatın mədənlərində bir sıra ziyanverici aktlar təşkil etdiyinə;

4. Türk, alman və yapon kəşfiyyatlarının casusu kimi fəal iş apardığına görə təqsirləndirilmiş və ittiham qərarı tərtib edilmişdir.

1937-ci il oktyabrın 11-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası Səyyar sessiyasının (Matuleviç, Zaryanov, Jiqur) hazırlıq iclasının protokolu tərtib edilmişdir. Burada müəyyən olunmuşdur:

1) ittiham qərarı razılaşdırılsın və işə 1 dekabr 1934-cü il qərarına müvafiq qaydada SSRİ Ali Məhkəməsi hərbi Kollegiyasında baxılsın.

2) Qazis Salihoviç Qubaydullinin işi Azərbaycan SSR CM-nin 73, 64, 63-1, 69 və 70-ci maddələri üzrə məhkəməyə verilsin.

3) İşə bağlı məhkəmə iclasında müdafiəçisiz, ittihamçısız və şahidlərsiz baxılsın.

1937-ci il oktyabrın 12-də SSRİ Ali Məhkəməsi hərbi Kollegiyası Səyyar sessiyasının bağlı məhkəmə iclası oldu. İclas saat 11:40 dəqiqədə açıldı.

«Müttəhim Q.S.Qubaydullin özünün günahkar olduğunu etiraf etdi. İlkin istintaqda verdiyi ifadələri tam təsdiq etdi, məhkəmə istintaqına heç bir əlavəsi olmayacağını bildirdi».

Sədr müttəhimə son söz verdi və məhkəmə iclasını bağlı elan etdi. Burada müttəhim bütün cinayətlərinin üstünün tam açıldığını göstərdi və günahının yüngülləşdirilməsini xahiş etdi.

Hökm oxundu: Qazis Salihoviç Qubaydullin şəxsi əşyaları müsadirə edilməklə yanaşı, ən ağır cəzaya – güllələnməyə məhkum olunsun. Hökm qətidir, şikayət qəbul edilmir və 1 dekabr 1934-cü il SSRİ MİK-in qərarına müvafiq hökm dərhal yerinə yetirilməlidir».

İclas saat 12:00 dəqiqədə qurtardı.

Güllələnmə hökmü 1937-ci il oktyabrın 13-də icra edilmişdir. Qazis Salihoviç Qubaydullinin işinə bu barədə arayış tikilmişdir.

1955-ci il iyulun 16-da Q.S.Qubaydullinin həyat yoldaşı Rəfiqə Şakirovna SSRİ Ali Soveti Rəyasət heyətinin sədri Voroşilovun ünvanına ərinin işinə yenidən baxılması və bəraət alması, tatar xalqının ilk tarixçisi olmuş Qubaydullinə sovet alimi adının qaytarılması ilə əlaqədar məktubla müraciət edir.

SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının 16 mart 1957-ci il qərarına görə Q.S.Qubaydullinin işi ilə əlaqədar 1937-ci il oktyabrın 12-də SSRİ

Ali Məhkəməsi hərbi Kollegiyasının hökmünə yenidən baxılmış və cinayət tərkibi olmadığı üçün iş xətm edilmişdir.

## VƏZİROV YUSİF MİRBABA OĞLU (YUSİF VƏZİR ÇƏMƏNZƏMİNLİ)

İstintaq işi № 169

1937-1938-ci illərdə repressiyaya məruz qalan Azərbaycanın bir qrup elm və mədəniyyət xadimlərinin verdikləri ifadələr əsasında 1940-cı il yanvarın 25-də Vəzirov Yusif Mirbaba oğlunun həbs olunması haqqında qərar çıxarılmışdır.

Qərarda deyilirdi: «1929-cu ildə Bakıda «müsavatçılarla milli-təmayülçülərin antisovet bloku» yaradılmışdır. Y.Vəzirov bu antisovet blokun rəhbər heyətinə məxsus idi. İstanbulda müsavat hökumətinin konsulu olan Y.Vəzirov ingilis-fransız və Türkiyə kəşfiyyatları ilə əlaqədə olmuşdur. Y.Vəzirov öz həmfikirləri arasında müntəzəm olaraq əksinqilabi görüşlər təbliğ etmişdir. 1931-ci ildə Y.Vəzirov Azərbaycanın əksinqilabi millətçi təşkilatına cəlb olunmuşdur.

Yusif Vəzirov 1940-cı il yanvarın 27-də Özbəkistan SSR-in Urgənc şəhərindəki pedaqoji institutda müəllim işlədiyi vaxt həbs olunmuş və Bakıya gətirilmişdir.

1940-cı il fevralın 13-də Y.Vəzirov birinci dəfə istintaq edilmişdir. Burada müttəhimin 1937-ci ilədək olan tərcümeyi-halı dəqiq və ətraflı təhlil olunmuşdur. O vaxt Y.Vəzirov «Studentlər» romanına görə Azərbaycan Yazıçılar İttifaqından çıxarılmış, bütün vəzifələrdən götürülmüş və işsiz qaldığına görə Urgəncə getmişdi.

Fevralın 14 və 15-də aparılan istintaqda təsdiq etmişdir ki, 1917-ci ildə Kiyevdə oxuyarkən müsavat partiyasına daxil olmuş və müsavatın Kiyevdəki təşkilatının rəhbəri seçilmişdir. Həmin təşkilata tələbələrdən Cəlil Məmmədzadə – xalq maarif komissarının müavini, Rüstəm Əliyev – həkim, Şamil Mahmudbəyov – Azərkinonun direktoru, Məmmədhəsən Vəliyev – ADU-nun müəllimi və Qasımov daxil idilər. Fevralın 16-da Y.Vəzirov demişdir ki, onu İstanbulda səlahiyyətli nümayəndə vəzifəsinə 1919-cu ilin yayında hökumət başçısı Usubbəyov təklif etmişdir. O, habelə

daxili işlər nazirinin müavini Rüstəmbəyov, yol-nəqliyyat naziri Məlikaslanov və xarici işlər naziri Cəfərovla şəxsən tanış idi.

Fevralın 24-də Vəzirov bildirmişdir ki, İstanbulda o, aşağıdakı əsərləri çap etdirmişdir: «Azərbaycan ədəbiyyatına bir nəzər» (1922) və «Azərbaycanın tarixi-coğrafi və iqtisadi icmalı» (1922). Parisdə o, Azərbaycan səfirliyi tərəfindən buraxılan «Paris xəbərləri»ndə əməkdaşlıq etmişdir.

«Hansı əsərlərin müəllifisiniz?» sualına Y.Vəzirov belə cavab vermişdir: «Məlikməmməd (nağıl) – 1911-ci il, «Ağ buxaqda qara xal» (nağıl) 1911-ci il, «Divanə» (hekayələr məcmuəsi) – 1912-ci il, «Ağsaqqal» (hekayələr məcmuəsi) – 1912-ci il, «Ömür səhifələri» (hekayələr məcmuəsi) – 1913-cü il, «Cənnətin qəbzi» (hekayə) – 1913-cü il, «Azərbaycanlı müsəlman qadınların əsl vəziyyəti» – 1913-cü il, «Qanlı göz yaşları» (Azərbaycan qadınlarının həyatından) – 1913-cü il, «Azərbaycana muxtariyyət» – 1917-ci il, «Biz kimik və nə istəyirik?» – 1919-cu il, «Keçmiş səhifələr» (hekayələr məcmuəsi), «Yaramaz» (hekayələr məcmuəsi), «Qaynananın kələkləri» (hekayələr məcmuəsi), «Qızlar bulağı» (roman), «Studentlər» (roman) – 1917-ci il».

Fevralın 25-də müttəhim verilən sualların cavabında demişdir ki, özünün «Bolşevik təhlükəsi» və «Studentlər» əsərlərini millətçi, daha doğrusu, mütərəddid əsərlər hesab edir.

Y.Vəzirov əksinqilabi millətçi təşkilata məxsusluğunu və öz həmfikirləri arasında əksinqilabi millətçi görüşləri təbliğ etdiyini boynuna almamışdır. Fevralın 27-də Y.Vəzirov «Sizi müsavata kim cəlb etmişdir?» sualına cavab vermişdir ki, 1917-ci ildə Kiyevdə tələbələrin türk federalist «Müsavat» komitəsi yaradılmış və o, komitənin sədri seçilmişdir.

1940-cı il fevralın 26-da Yusif Vəzirovun ittiham edilməsi barədə qərar çıxarılmışdır. Günahlandırılmışdır ondan ötrü ki:

1. 1919-cu ildə müsavat hökumətinin konsulu vəzifəsində işləyərkən ingilis-fransız və Türkiyə təşkilatları ilə əlaqədə olmuşdur;

2. Fəal, peşəkar müsavatçı kimin qeyri-leqal müsavat təşkilatının rəhbər özəyinə məxsus olmuş və 1927-ci ildə müsavatçılarla milli təmayülçülərin yaratdıqları antisovet blokuna keçmişdir;

3. Öz həmfikirləri arasında müntəzəm olaraq əksinqilabi görüşləri təbliğ etmiş və 1931-ci ildə Azərbaycanın əksinqilabi millətçi təşkilatının tərkibinə daxil olmuş, yəni Azərbaycan SSR-in CM-nin 72,73-cü maddələrində nəzərdə tutulan cinayətlər üzrə ittiham olunur.

Bu qərarla tanış olduqdan sonra Y.Vəzirov aşağıdan öz əli ilə yazmışdır: «Mənə verilən üç maddədən ibarət ittihamlar ağ yalandır. Mən özümü günahkar hesab etmirəm». Bu sözləri yazıb imzasını qoymuşdur.

Martın 7, 13, 17 və 19-da keçirilən istintaq zamanı da Y.Vəzirov əksinqilabi fəaliyyət və təbliğat apardığını, habelə əksinqilabi təşkilatın üzvü olduğunu təkrar-təkrar qəti şəkildə rədd etmişdir.

İşdə Y.Vəzirovun əksinqilabi təşkilata məxsusluğu barədə professor B.Çobanzadənin ifadəsi (1937) vardır. Yusif Vəzirov bu ittihamı da qəti rədd edir. 1938-ci ildə neft institutunun dosenti N.M.Şahsuvarov öz ifadəsində göstərmişdir ki, Y.Vəzirov əksinqilabçı-millətçi təşkilatın (partiyalar bloku) rəhbər heyətinə daxil olmuşdur. Həmin heyətə aşağıdakı şəxslər də daxil idilər:

1. Şahsuvarov Nurməmməd – ittihadçı
2. Sultanov Rüstəmbəy – bitərəf, millətçi
3. Musaxanlı Atababa – müsavatçı
4. Axundov Əhməd Cavad – müsavatçı
5. Vəkilov Rahim – müsavatçı
6. Baharlı Məmmədhəsən – müsavatçı
7. Axundzadə İdris – müsavatçı
8. Qasımov Pənah – milli-təmayülçü
9. Rzabəyli Fətullabəy – ittihadçı
10. Talıblı Böyükağa – milli-təmayülçü.

Buraya 1931-ci və ya 1932-ci illərdə cəlb olunmuş Y.Vəzirov da daxil idi.

Vəzirov bu ittihamı da rədd edir. 1937-ci ildə Hacıağa Nəzərli öz ifadəsində göstərmişdir ki, Cəbiyev, Ruhulla Axundov və Ə.Qarayev burjua millətçi-müsavatçı Əhməd Cavadın, Hüseyn Cavidin və Yusif Vəzirovun güclü təsiri altında idilər.

Y.Vəzirov bu ittihamı da rədd edir.

1937-ci ildə Bəkir Çobanzadə müsavatçılar arasında Əhməd Pepinov, Şamo Naxçıvanski, Əliağa Şıxlınski, Cavad Axundov, Atababa Musaxanlı, Hüseyn Cavid, Ağa Axundov, Abdulla Şaiq, Yusif Vəzirov, Cabbar Məmmədzadə, Mikayıl Müşfiq, Zəki Pepinov və Hüseyn Rəhmanovun adlarını çəkmiş və Vəzirovun İngiltərə, Fransa, Türkiyə və Almaniya təşkilatları ilə olan əlaqələrindən danışmışdır.

Y.Vəzirov bu ittihamı da qəti şəkildə rədd etmişdir.

1940-cı il aprelin 3-də Y.Vəzirov aşağıdakı ərizə ilə müstəntiqə müraciət edir: «Xahiş edirəm mənim əmanət kitabçamın həyat yoldaşıma çatdırılmasına icazə verəsiniz. Çünki ailəm iki aydan çoxdur ki, kənardan heç bir maddi kömək almır».

Əmanət kitabçasında 4 min manat pul var idi və bu vəsait müttəhimin ailəsinə verildi.

1940-cı il aprelin 16-da Y.Vəzirovun işi üzrə ittiham qərarı çıxarıldı. O, günahlandırılırdı ondan ötrü ki:

a) peşəkar müsavatçı kimi 1931-ci ildə Azərbaycanda fəaliyyət göstərən əksinqilabi millətçi-müsavatçı təşkilatına daxil olmuşdur;

b) əksinqilabi millətçi-müsavatçı təşkilatın üzvü idi, öz ətrafındakılar arasında pantürkist, millətçi-trotskiçi müsavat təbliğatı aparmışdır.

Yəni Azərbaycan SSR-in Cinayət Məcəlləsinin 72 və 73-cü maddələrində nəzərdə tutulan cinayətlər üzrə günahlandırılır.

1940-cı il aprelin 19-da ittihamnamə SSRİ Xalq Daxili İşlər Komissarlığı yanında Xüsusi müşavirədə baxılmaq üçün verildi.

1940-cı il iyunun 11-də Xüsusi müşavirə Vəzirov Yusif Mirbaba oğlunu antisovet fəaliyyətinə görə 1940-cı il yanvarın 27-dən 8 il müddətinə islah-əmək düşərgəsində həbs cəzasına məhkum etdi.

1956-cı il fevralın 7-də Azərbaycan SSR prokuroru Y.M.Vəzirovun işi üzrə protest təqdim etdi. 1956-cı il fevralın 28-də onun işi üzrə hökm ləğv edildi və ittiham sübuta yetmədiyi üçün işə xitam verildi.

Yusif Vəzirovun istintaq işinə aşağıdakı şəxslərə verilən hökmlər barədə arayışlar tikilmişdir:

1. Vəzirov Cəmil İsmayıl oğlu – 28.12.1939-cu il. 10 il müddətinə məhkum edilmişdir.

2. Hüseyn Cavid - 9.06.39-cu il. 8 il müddətinə məhkum edilmiş və Vladivostoka sürgün olunmuşdur.

3. Pepinov Əhmədbəy Öməroviç – güllələnmiş, 3.07.38-ci il.

4. Axundov Əsəd Nəsir oğlu – güllələnmiş 19.04.39-cu il.

5. Axundov Ağa Əbdülxalıq oğlu – 16.04.39-cu il, 15 il müddətinə məhkum edilmişdir.

6. İsmayılzadə Mikayıl Müşfiq – güllələnmiş 05.01. 38-ci il.

7. Şahsuvarov Nurməmməd Adilxan oğlu – 09.02.40-cı il. 5 il müddətinə məhkum edilmiş və Krasnodara sürgün olunmuşdur.

8. Axundov Ruhulla – güllələnmiş 21.04.38.

9. Tağıyev Zeynal Sadıqoviç – güllələnmiş 28.12.39-cu il.
10. Talıblı Böyükağa Mirqasım oğlu – güllələnmiş 12.10.37-ci il.
11. Sanıyev (Sanılı) Hacıkərim – vəfat etmiş 16.09.37-ci il.
12.Ələkbərli Məmmədkazım Ələkbəroviç – güllələnmiş 12.10.37-ci il.
13. Məmmədov Cabir Abbas oğlu – güllələnmiş 02.01.38-ci il.

P.S.: J.M.Vəzirovun istintaq işində fotoşəkli yox idi. Burada onun ancaq barmaq izləri vardır.

## MƏMMƏD HACI MİRZƏ BABA OĞLU ORXANBƏYLİ

İstintaq işi № 14046

1937-ci il avqustun 17-də Azərbaycan XDİK DTİ-nin 3-cü şöbəsi I bölməsinin rəisi Qasımov tərəfindən aşağıdakı məzmunda arayış tərtib edilmişdir:

«1893-cü ildə anadan olmuş, terapevt-həkim Məmməd hacı Mirzəbaba oğlu Orxanbəyli (o həm də Əliyevdir) I imperialist müharibəsinədək təhsilini Türkiyədə almışdır. Bu ünvanda: Bakı 6-cı Kommunist döngəsi, ev 4-də yaşayır.

DTİ-nin 3-cü şöbəsində olan materiallara görə Orxanbəyli Bakı üzrə antisovet əhval-ruhiyyəli azərbaycanlı ziyalılarla geniş əlaqə saxlayır, partiya siyasətinə və hökumətə qarşı çirkin böhtanlar ataraq müntəzəm surətdə əksinqilabi faşist təbliğatı aparır.

Orxanbəylinin keçmişdə əksinqilabi müsavat partiyasının üzvü olan bir neçə qohumu İranda yaşayır. O, qohumları ilə İran konsulluğu vasitəsilə əlaqə saxlayır.

Keçmişdə, yəni 1916-cı ildən 1920-ci ilədək Orxanbəyli Türk ordusu sıralarında kapitan rütbəsində xidmət etmiş, Fələstin cəbhəsində ingilislərə əsir düşmüş və 1920-ci ilədək orada qalmışdır. Göstərilənlərə əsasən Məmməd Orxanbəyli Azərbaycan SSR CM-nin 72 və 73-cü maddələrinə görə məsuliyyətə cəlb olunmalı və həbs edilməlidir.

Arayış DTİ-nin 3-cü şöbəsinin rəisi mayor Borşçev tərəfindən təsdiqlənmişdir. (1937-1938-ci illərdə repressiyaya məruz qalan azərbaycanlı ziyalıların və intellektualların sayı o qədər çox idi ki, cəza orqanları rəhbərlərinin arayışlara dərkənar qoymağa belə vaxtları çatmırdı və bunu hətta şöbə rəislərinə də tapşırırdılar).

1937-ci il avqustun 19-da Orxanbəylinin həbsi haqqında qərar tərtib edildi: O: «müntəzəm surətdə əksinqilabi faşist təbliğatı apardığı və xaricdə əksinqilabi müsavat dairələrilə əlaqə saxladığı barədə kifayət qədər materiallarla ifşa olunur».

Elə həmin gün Orxanbəyli DTİ-nin 123 nömrəli orderi üzrə həbs edildi. həbs olunanın anketi üzrə arvadı – Fəribə 38 yaşında, oğlu Orxan – 23 yaşında və qızı Turfan – 8 yaşında idi.

Məmməd Orxanbəyli özü 1893-cü ildə Rəştdə tacir ailəsində anadan olmuşdur. 1908-ci ildə o, Bakıda keçmiş «İttihad» fars məktəbində oxumuşdur. Məktəbi bitirməmiş İstanbula, anasının qohumu Sərvər paşanın yanına getmişdir. 1908-ci ildə İstanbuldakı «Sultaniyyə» məktəbinə daxil olmuş və oranı bitirdikdən sonra universitetin tibb fakültəsinə qəbul olunmuşdur. 1911-ci ildə universiteti qurtardıqdan sonra hərbi Tibb Akademiyasına daxil olmuş və 1914-cü ildə hərbi həkim rütbəsi almışdır. Sonra o, Sultan ordusuna səfərbər olunmuş və 7-ci diviziyanın 21-ci polkunun batalyon həkimi təyin edilmişdir. 1918-ci ildə Fələstin cəbhəsində ingilislərə əsir düşmüş və İskəndəriyyəyə (Misir) göndərilmişdir, orada 1920-ci ildəki barışığadək qalmışdır. Sonra İstanbula qayıtmış, Azərbaycana gəlmək üçün buraxılış vərəqi almış və 1920-ci il mayın 2-də Bakıya gəlmişdir. Bakıda o, XI Ordunun sanitar hissəsində xidmət etmişdir. 1921-ci ilin sonlarında tərxis olunmuş və 1928-ci ilədək köçürülmüş hərbi məktəbdə həkim, sonra Ağamalıoğlu adına texnikumda və digər tədris müəssisələrində işləmişdir. Həbs olunan günədək Bakıda Voroşilov rayon səhiyyə şöbəsində çalışmışdır.

1933-cü ilin martında Orxanbəyli cəza orqanı tərəfindən həbs edilmiş və 78 gün dustaqda qalmışdır. Həbs edilməsinə səbəb qardaşı Məmmədbağır Əliyevin müsavat partiyasına məxsusluğu olmuşdur. O, İranın gələcək şahı Rza xanla yaxın idi və 1923-cü ildə Orxanbəyli İranda olarkən qardaşı onu çox dilə tutdu ki, burada qalsın. Lakin o, bu təklifi rədd etdi və Bakıya qayıtdı. Elə həmin gün birinci dəfə həbs edildi.

1937-ci ildə Orxanbəylinin həbsinədək qohumlarından İsrafilovlar Əbdül Xalıq, Nəsrulla, Süleyman, Məmmədəli Salayev və bir neçə tanışı (hamısı müsavatçı idi) repressiyaya məruz qalmış və həbs düşərgələrinə göndərilmişdilər.

1937-ci il sentyabrın 10 və 13-də, oktyabrın 5-də keçirilən istintaqlarda Orxanbəyli SSRİ-də, Türkiyədə və İranda, habelə Bakıdakı İran konsulxa-

nasının əməkdaşları arasında olan qohum və tanışları barədə dindirilmişdir. Ancaq beşinci istintaqda – 1937-ci il dekabrın 23-də mahiyyətcə ona verilən ittihamla əlaqədar dindirilmişdir. Müstəntiq: «1923-cü ildə İrandan SSRİ-yə gələrkən müsavatçılar tərəfindən sizə nə kimi tapşırıqlar verilmişdir?». Cavab: «İranda olarkən mən heç bir müsavatçı ilə görüşməmişəm, onlardan heç bir tapşırıq almamışam, ümumiyyətlə müsavatçılar Azərbaycanda məndən istifadə etmək məqsədilə heç bir cəhd göstərməmişlər». Müstəntiq: «Siz düz danışmırsınız. İrandan gələrkən siz müsavatçılardan əksinqilabi iş üzrə bir sıra tapşırıqlar almısınız. Düzgün ifadə verin!» Cavab: «İrandan heç bir tapşırıq almamışam». Müstəntiq: «İstintaqa müqavimət göstərməyin və düzgün ifadə verin».

1937-ci il dekabrın 27-də keçirilən altıncı istintaqda müstəntiq Orxanbəyliyə təzyiq göstərməkdə davam edir: «İstintaq müəyyənləşdirmişdir ki, siz xarici kəşfiyyatın casususuz. Casusluq fəaliyyətiniz haqqında ifadə verin». Orxanbəyli: «Mən heç vaxt xarici kəşfiyyatın casusu olmamışam». Müstəntiq: «Siz Türkiyə kəşfiyyatının casususunuz. İstintaqla mübarizənizi dayandırın və casusluq fəaliyyətiniz haqqında düzgün ifadələr verin». Cavab: «Heç vaxt Türkiyə kəşfiyyatının casusu olmamışam. Casusluq işi aparmamışam».

Həyasız, qarayaxa müstəntiqin əlindən təngə kələn Orxanbəyli 1937-ci il dekabrın 28-də «Siz əksinqilabi müsavat təşkilatının üzvüsünüz, praktiki əksinqilabi iş aparmısız. Bunu etiraf edirsinizmi?» sualına belə cavab vermişdi:

«Mən rəsmi olaraq müsavat təşkilatının üzvü deyildim, lakin müsavatçılarla həmrəy idim. Boynuma alıram ki, həbs olunan gündən mən Sovet hökumətinə qarşı zidd əhval-ruhiyyədə idim. Yoldaşlarımın arasında açıqca Sovet hökumətindən narazılığımı bildirir, Kommunist partiyası və Sovet dövlətinin keçirdiyi ayrı-ayrı tədbirləri tənqid edirdim. Türkofil olduğum üçün Sovet hökumətinə zidd əhval-ruhiyyədə idim, məni əhatə edən şəxslər arasında antisovet söhbətlər aparır, əksinqilabi lətifələr danışırdım və s. və i.a. Mən türk mədəniyyətini təbliğ edirdim, pantürkist Hüseyn Cavidin pyeslərinin Azərbaycan Dram Teatrının repertuarından çıxarılmasının əleyhinə idim. Bu məsələ ilə əlaqədar dəfələrlə yoldaşlarımın yanında millətçi və əksinqilabi görüşlərim barədə danışmışdım. Yeni Azərbaycan əlifbasına keçməyin əleyhinə idim, Azərbaycan dilinin osmanlılaşdırılmasını təbliğ edirdim. Bəzi ərzaq məhsullarının çatışmaması ilə əlaqədar çə-

tinliklərlə qarşılaşırdım. Buna görə də antisovet söhbətlərə yol verirdim. Bütün bunları müsavatçılarla həmrəy olduğuma görə edirdim. Mən türkofil idim, Sovet hökumətinə qarşı zidd mövqedə dururdum.

Protokolda yazılanlar doğrudur, oxuyub imza edirəm:

Orxanbəyli»

1937-ci il dekabrın 26-28-də müstəntiq Tevosyan tərəfindən keçirilən istintaqda şahid sifətilə Mahmud Bərbərzadə (23 nömrəli məktəbin müəllimi), Yusif Mirzəzadə (hərbi tərcüməçilər kursunun müəllimi) və Ağakərim Şərifov (teatr muzeyinin direktoru) öz ifadələrilə Orxanbəylinin dediklərini təsdiq etmişlər.

Orxanbəylinin açıq və kəskin şəkildə verdiyi ifadələr çox güman ki, müstəntiqləri sevindirmişdir, çünki onlar artıq üç nömrəli metoda müraciət etməli olmayacaqdılar. Mən çoxlu istintaq işi oxumuşam, ancaq Orxanbəylinin verdiyi ifadələrə heç bir işdə rast gəlməmişəm. Bu adamda paxıllıq ediləcək dərəcədə cəsarət var idi. Ancaq onun yaşamasına çox az vaxt qalırdı: cəmi bir gün!

1937-ci il dekabrın 29-da Tevosyan və Markaryan Məmməd Hacı Mirzə Baba oğlu Orxanbəylinin işi üzrə ittiham qərarı tərtib etdilər. Qərarda oxuyuruq: O, «əksinqilabi millətçi təşkilata məxsusluğuna, müntəzəm olaraq əksinqilabi təbliğat apardığına görə, yəni Azərbaycan SSR CM-nin 72 və 73-cü maddələrində nəzərdə tutulan cinayətlərdə ittiham olunurdu.

Özünü təqsirkar bilmişdir, Şərifovun, Mirzəzadənin və Bərbərzadənin ifadələrilə ifşa edilir».

Orxanbəylinin işi baxılmaq üçün Azərbaycan SSR XDİK yanında Xüsusi Üçlüyə göndərildi. 1937-ci il dekabrın 29-da Xüsusi Üçlük qərara aldı: «1893-cü ildə anadan olmuş Məmməd hacı Mirzə Baba oğlu Orxanbəyli güllələnsin, əmlakı müsadirə edilsin. Üçlüyün katibi – Koqan».

İşdə 1937-ci il dekabrın 29-da Azərbaycan SSR XDİK-in Xüsusi Üçlüyünün Məmməd hacı Mirzə Baba oğlu Orxanbəyli haqqında çıxardığı güllələnmə hökmünün elə dekabrın 29-da gecə saat 01:50 dəqiqədə yerinə yetirilməsi barədə akt vardır.

Aktı DTİ-nin 10-cu şöbəsinin rəisi baş leytenant Suxanov və DTİ-nin bölmə rəisi leytenant Koqan imzalamışdılar.

1955-ci il avqustun 25-də Orxanbəylinin qızı – Turfan Məmməd qızı (Bakı, Ketsxoveli küçəsi, ev 21) Zaqafqaziya Hərbi Dairəsinin hərbi prokurorunun adına ərizə ilə müraciət etmişdi: «Nəzərinizə çatdırıram ki, atam

Məmməd Orxanbəyli 1937-ci il avqustun 19-da həbs olunmuş və əmlakı müsadirə edilmişdir. Hazırda mən bilmək istərdim: atam düşməndir, ya yox? Onu həbs edəndə mənim doqquz yaşım var idi. Atam ölüb, ya sağdır? Xahiş edirəm, bu barədə mənə məlumat verəsiniz».

1957-ci il fevralın 25-də Azərbaycan SSR-in prokuror müavini Melkumyan yenidən Yusif Mirzəzadəni dindirmiş və o, 1937-ci il dekabrın 27-də verdiyi ifadələri təsdiq etmişdir. Digər şahid Mahmud Bərbərzadə isə 1940-cı il oktyabrın 5-də həbs olunmuş və 8 il müddətinə azadlıqdan məhrum edilmişdir. Təkrar istintaqda – 1956-cı il noyabrın 27-də o, yenə də 1937-ci il dekabrın 26-da verdiyi ifadələri təsdiqləmişdi. Orxanbəylinin işi üzrə şahid sifətilə 1956-cı il iyulun 19-da və avqustun 1-də dindirilmiş Əhmədağa Məmmədrza oğlu Bakıxanov və İbrahim Əbdül Kərim oğlu Əfəndizadə müttəhim haqqında demişlər ki, «onu yaxşı həkim kimi tanıyırıq, ondan heç bir pislik görməmişik, antisovet xarakterli meyllər hiss etməmişik, siyasətlə maraqlanan deyildi. Orxanbəyli yaxşı işçi, pedaqoq, həkimlik sənətinin gözəl bilicisi idi».

1956-cı il dekabrın 13-də müstəntiq Cənibəyov Məmməd Orxanbəylinin işi üzrə qərar tərtib etdi. Qərarın axırıncı cümləsi belə idi: «1937-ci il dekabrın 29-da Azərbaycan XDİK üçlüyünün Orxanbəylinin işi ilə əlaqədar çıxardığı hökmü düzgün hesab edərdim». Bu qərar 1956-cı il dekabrın 21-də DTK-nın sədr müavini Zamanov tərəfindən təsdiq olunmuşdur.

1960-cı il oktyabrın 18-də Azərbaycan SSR Prokuroru Əkbərov Məmməd Orxanbəylinin işi ilə əlaqədar Azərbaycan SSR Ali Sovetinin cinayət işləri üzrə Məhkəmə kollegiyasına nəzarət qaydasıyla protest vermiş və Azərbaycan SSR XDİK Üçlüyünün 1937-ci il dekabrın 29-da çıxardığı qərarın ləğvini və faktlar sübuta yetmədiyi üçün işin xətm olunmasını xahiş etmişdir.

1961-ci il fevralın 23-də məhkəmə kollegiyası müəyyən etmişdir: «Azərbaycan SSR XDİK Üçlüyünün 1937-ci il dekabrın 29-da Orxanbəylinin işilə bağlı çıxartdığı qərar ləğv edilsin və faktlar sübuta yetmədiyi üçün iş xətm olunsun, ölümündən sonra ona bəraət verilsin».

1961-ci il fevralın 27-də Məmməd Orxanbəylinin qohumları ona bəraət verilməsi haqqında arayış almışdılar.

## TEYMUR HEYDƏR OĞLU SALAHOV

İstintaq işi № 12493-152 (10493)

1937-ci il yanvarın 10-da Bakı Şəhər Partiya Komitəsinin bürosunda 1896-cı ildə anadan olmuş, 1919-cu ilin iyulundan ÜİK(b)P üzvü Teymur Heydər oğlu Salahovun işi geniş müzakirə olunmuşdur: «Partiya komitəsində olan istintaq materiallarına əsasən T.H.Salahov hazırda Azərbaycan XDİK orqanları tərəfindən tutulub mühakimə edilmiş, əksinqilabçı trotskiçilərdən Məmmədlinski və Abdullayevlə əlaqədə olmuş və bu əlaqələrini partiyadan gizlətmişdir. Qərara alınır: əksinqilabçı trotskiçilərdən Məmmədlinski və Abdullayevlə əlaqə saxladığına görə T.H.Salahov partiya sıralarından xaric edilsin».

Partiya sıralarından çıxarılmış AK(b)P Laçın RK-nın keçmiş katibi T.H.Salahov həbs olunan günə – 1937-ci ilin iyulunadək Azərbaycan Meyvə-Tərəvəz Ticarəti Təşkilatının direktoru vəzifəsində çalışmışdır.

1937-ci il iyulun sonlarında Azərbaycan XDİK DTİ-nin IV şöbəsinin rəisi L.A.Sinman Salahovun işilə bağlı aşağıdakı məzmunda arayış tərtib etmişdir: «Azərbaycan SSR-də əksinqilabi burjua millətçi təşkilatının üzvlərindən Heydər Vəzirov (Azərbaycan SSR xalq torpaq komissarı) və Həsən Səfərov (AK(b)P MK-nın kənd təsərrüfatı şöbəsinin müdiri) öz ifadələrində göstərmişlər ki, Teymur Salahov əksinqilabi təşkilat mərkəzinin üzvüdür. Deyilənlərə əsasən T.Salahovun Azərbaycan SSR CM-nin 72, 73-cü maddələri üzrə məsuliyyətə cəlb edilib həbs olunmasını zəruri hesab edirəm».

1937-ci il iyulun 31-də T.H.Salahov «əksinqilabi burjua millətçi təşkilatının üzvü» kimi həbsə alınmışdır.

T.Salahov köhnə partiya işçisi idi. Buna görə də ölkədə və respublikada nə baş verdiyini çox gözəl başa düşürdü. «Xalq düşmənləri»nə qarşı mübarizə ilə əlaqədar ÜİK(b)P MK-nın direktivlərilə yaxından tanış idi. Həbs olunan intellektualların necə «etiraf ifadələri» verdiklərini təsəvvür edirdi. Buna görə də o, nə ifadə verməkdən boyun qaçırdı, nə də istintaqa müqavimət göstərdi. Çünki belə hərəkət heç kəsin davam gətirmədiyi istintaqın digər metodunun tətbiqinə gətirib çıxaracaqdı.

Beləliklə də, müstəntiq iki gün çəkən – 1937-ci il oktyabrın 7 və 8-də keçirilən birinci istintaqda müttəhimə ənənəvi sualla müraciət edir: «Sizə verilən ittihamlarda özünüzü günahkar bilirsinizmi? Yəni Azərbaycan ək-

sinqilabi millətçi təşkilatın mərkəzinin üzvüsünüzmü?». Cavab: «Mənə verilən ittihamlarda özümü günahkar bilirəm. Mən T.Salahov həqiqətən Azərbaycan əksinqilabi millətçi təşkilatın üzvüyəm». Müstəntiq: «Bu əksinqilabi təşkilata nə vaxt və kim tərəfindən cəlb edilmisiniz?» Cavab: «Bu təşkilata 1935-ci il mayın sonlarında Dadaş Bünyadzadə tərəfindən cəlb olunmuşam». Müstəntiq: «1935-ci ildə harada və hansı vəzifədə işləmisiniz?» Cavab: «1935-ci ildə Azərbaycan SSR-in Laçın rayon partiya komitəsinin katibi vəzifəsində işləmişəm». Müstəntiq: «Azərbaycan əksinqilabi millətçi təşkilatın məqsədi nə idi?» Cavab: «Bizim əksinqilabi millətçi təşkilatın məqsədi Azərbaycanda Sovet hakimiyyətini devirmək, onu SSRİ-dən ayırmaq və müstəqil Azərbaycan Burjua Demokratik Respublikası yaratmaq idi». Müstəntiq: «Bunlar sizə haradan məlumdur?» Cavab: «Əksinqilabi millətçi təşkilatın məqsədi haqqında mənə Dadaş Bünyadzadə danışmışdı». Müstəntiq: «Azərbaycan əksinqilabi millətçi təşkilat bu məqsədə hansı yolla nail olmaq istəyirdi?» Cavab: «Təşkilat Sovet hökumətinə qarşı aşağıdakı mübarizə metodlarını nəzərdə tuturdu: 1) Kapitalist dövlətləri tərəfindən SSRİ-yə qarşı müdaxilə zamanı silahlı üsyan. 2) Azərbaycanın xalq təsərrüfatında ziyankarlıq işi aparmaq». Müstəntiq: «Bu barədə sizə kim danışmışdır?» Cavab: «Sovet hökumətinə qarşı mübarizə metodları haqqında mənə Dadaş Bünyadzadə və Heydər Vəzirov məlumat vermişlər». Müstəntiq: «Azərbaycan əksinqilabi millətçi təşkilatın sizə məlum olan üzvlərinin adlarını söyləyin». Cavab: «Əksinqilabi millətçi təşkilatın aşağıdakı üzvlərini tanıyıram: Ruhulla Axundov, Hüseynbala Ağaverdiyev, Əsgər Eyvazov, Bahadur Vəlibəyov, Həmid Sultanov, Heydər Vəzirov, Qəzənfər Musabəyov, Dadaş Bünyadzadə, Soltanməcid Əfəndiyev, Həsən Səfərov, Qədirli, Mikayıl Hüseynov. Onlar haqqında mənə Dadaş Bünyadzadə və Heydər Vəzirov danışmışlar. Əksinqilabi təşkilata şəxsən mən Laçın rayonu üzrə aşağıdakı şəxsləri cəlb etmişəm: Süleyman Rəhimov – Laçın RK-ın keçmiş katib müavini, Həsənəli Baxışzadə – Laçın rayonu torpaq şöbəsinin keçmiş müdiri, Yusif Baharov – Laçın RİK-in sədri, Müseyib Axundov – Kürd Pedaqoji Texnikumunun direktoru, Hüseyn Hüseynov – «Kürdüstan» sovxozunun direktoru».

İkinci istintaq 4 gün – 1937-ci il oktyabrın 25-dən 28-dək davam etmişdir. Müstəntiq: «Praktiki olaraq əksinqilabi işiniz haqqında ətraflı danışın». Cavab: «Mən Laçın rayonu üzrə əksinqilabi millətçi təşkilatın rəhbəri kimi aşağıdakı istiqamətdə əksinqilabi iş aparırdım:

a) əksinqilabi təşkilatın tərkibinin artırılması məqsədilə ora yeni üzvlər cəlb edirdim;

b) kənd təsərrüfatı – heyvandarlıq və kolxoz quruculuğu sahəsində ziyankarlıq işini təşkil edirdim;

c) kolxozçu kütlələr arasında narazılıq üçün şərait yaradırdım;

ç) Sovet hökumətinə qarşı silahlı üsyanla bağlı hazırlıq işləri aparırdım».

Müstəntiq: «Söylədiyiniz əksinqilabi işlərin aparılması üçün kimlərdən və nə vaxt göstərişlər alırdınız?» Cavab: «Göstərişi mən 1935-ci ildə Dadaş Bünyadzadə və Heydər Vəzirovdan alırdım». Müstəntiq: «Kənd təsərrüfatında, yəni heyvandarlıq və kolxoz quruculuğu sahəsində praktiki olaraq nə kimi ziyankarlıq işi aparırdınız?» Cavab: «Qaramalın tələf edilməsi və kolxozçular tərəfindən narazılığın artırılması, xüsusilə heyvandarların narazı salınması üçün:

1. 1935-ci ildən başlayaraq 1937-ci ilədək müntəzəm olaraq ildən-ilə tövlələrin tikintisi pozulurdu. Bilərəkdən layihələşdirilmiş 18 tövlə tikilməmişdir;

2. 1936-cı ildə sürü yemlə təmin olunmayan otlaqların dəyişməz hissəsinə buraxılırdı, nəticədə də Qoçaz kəndinin kolxozunda 60 başdan artıq, digər kənddə isə 300 baş qaramal ölmüşdür;

3. 1935-1936-cı illərdə qış dövrü üçün yem hazırlığı pozulmuşdur;

4. 1935-1936-cı illərdə sürünün məlazləşdirilməsi işi pozulmuşdur;

5.1935-1936-cı illər üçün nəzərdə tutulmuş heyvandarlığın inkişaf planı pozulmuşdur».

Müstəntiq: «Sovet İttifaqına qarşı silahlı üsyana hazırlıqla bağlı gördüyünüz işlər barədə ətraflı danışın». Cavab: «Sovet hökumətinə qarşı silahlı üsyana hazırlığın zəruriliyi haqqında göstərişi mən 1935-ci ildə Dadaş Bünyadzadə və Heydər Vəzirovdan almışam. Bununla əlaqədar aşağıdakı işləri aparmışam:

1) Silahlı üsyan üçün hər şeydən əvvəl təşkilata yeni üzvlər toplamaq və təşkilatın özəyini yaratmaq lazım idi. Belə bir özək yaradıldı və mənim rəhbərliyim altında bu istiqamətdə xeyli iş görüldü.

2) İlk növbədə Laçın rayonunda üsyançı dəstələr yaratmaq məqsədilə hazırlıq işləri aparılırdı.

3) Üsyançıların silahla təmin edilməsinə çalışırdıq».

1937-ci il oktyabrın 31-də Teymur Heydər oğlu Salahova Azərbaycan SSR CM-nin 64, 69 və 70-ci maddələri üzrə əlavə ittihamlar verildi.

1937-ci il noyabrın 6-da Teymur Salahovun işi üzrə istintaqın başa çatması haqqında protokol tərtib edildi.

İttiham verilənə və məhkəmə başlayanadək T.H.Salahov həbsxanada 88/5 nömrəli kamerada saxlanırdı. Kamerada onunla birlikdə müttəhimlərdən Kazım Əliyev, Nikolay Boqaçov və Lazar Vartanov da qalırdı. Sonralar bu müttəhimlər Salahovun kamerada apardığı söhbətlər barədə ifadələr vermişlər. Onlar göstərmişlər ki, Salahov istintaqın aparılmasından narazı qaldığını söyləmiş və s. və i.a. Lakin Salahov 1937-ci ilin noyabr-dekabr aylarında kamera yoldaşları ilə üzləşərkən onların ifadələrini tamamilə rədd etmişdir.

1938-ci il aprelin sonlarınadək T.H.Salahov 88/5 nömrəli kamerada qalmış və dindirilməyə çağırılmamışdır.

1938-ci il aprelin 25-də Salahov istintaqa çağırılmasını xahiş etmişdir. Orada demişdir:

«Bildirirəm ki, İbrahim Səmədovun, Süleyman Rəhimovun və ifadələrimdə adları çəkilən digər şəxslərin əksinqilabi millətçi təşkilata məxsusluğu haqqında mənim əvvəllər verdiyim cavablar həqiqətə uyğun deyildir. Səmədov və Rəhimov millətçi təşkilatın üzvü olmamışlar. Qalan şəxslərin də əksinqilabi millətçi təşkilatla heç bir əlaqəsi olmamışdır. Verdiyim ifadələr tamamilə uydurmadır».

1938-ci il mayın 3-də T.Salahov axırıncı istintaqa çağırılmışdır. Müstəntiq: «1938-ci il aprelin 25-də verdiyiniz ifadələrdə bildirirsiniz ki, əvvəllər adlarını çəkdiyiniz şəxslərin əksinqilabi millətçi təşkilatda heç bir iştirakları olmamışdır. Bu ifadəni bir daha təsdiq edirsinizmi?». Salahov: «Bəli, təsdiq edirəm». Müstəntiq: «Şəxsən siz özünüz əksinqilabi millətçi təşkilata məxsusluğunuzu etiraf edirsinizmi?» Salahov: «Xeyr, təsdiq etmirəm! Mən əksinqilabi millətçi təşkilatın üzvü olmamışam». Müstəntiq: «Necə üzvü olmamısınız ki, əvvəllər bu suala siz daha ətraflı cavab vermisiniz?» Salahov: «Bu sualla əlaqədar əvvəllər verdiyim ifadələr həqiqətə uyğun deyildir. Mən özümə böhtan atmışam». Müstəntiq: «Nə üçün özünüzə böhtan atmısınız?» Salahov: «İstintaq tərəfindən cəzaya məruz qalacağımdan qorxduğuma görə». Müstəntiq: «Deməli, siz millətçi təşkilata məxsusluğunuzu qəti rədd edirsiniz?». Salahov: «Bəli, rədd edirəm!»

1938-ci ilin martında müttəhim Teymur Heydər oğlu Salahovun işi üzrə ittiham qərarı tərtib edildi. T.H.Salahov Azərbaycan SSR CM-nin 64, 69, 70 və 73-cü maddələrində nəzərdə tutulan cinayətlərdə ittiham olunurdu.

İttiham qərarı XDİ Komissarının müavini Borşov tərəfindən, 1938-ci il martın 15-də Baş hərbi prokuror köməkçisi Şults tərəfindən isə 1938-ci il iyulun 2-də təsdiq edilmişdir. İttihamnamədə deyilirdi:

«1936-cı ilin sonlarında Azərbaycan SSR XDİK Bakı şəhərində əksinqilabi millətçi terrorist təşkilat aşkar etmiş və dağıtmışdır. Təşkilatın məqsədi silahlı üsyan yolu ilə Azərbaycanı SSRİ-dən ayırmaq, ziyankarlıq və casusluq işi aparmaq, partiya və hökumət rəhbərlərinə qarşı terror tətbiq etmək idi.

Təşkilat özünün əksinqilabi millətçilik fəaliyyətində trotskiçi-zinovyevçi terrorist mərkəz və sağların əksinqilabi mərkəzilə əlaqəli idi.

Adı çəkilən əksinqilabi təşkilatın üzvü kimi Teymur Heydər oğlu Salahov məsuliyyətə cəlb edilmişdir.

1935-ci ilin mayında T.Salahov əksinqilabi təşkilat mərkəzinin üzvü Dadaş Bünyadzadə ilə əlaqəyə girmiş və həmin ildən əksinqilabi təşkilatın tərkibinə daxil olmuşdur.

Sonra əksinqilabi millətçi təşkilatın tərkibi, məqsəd və vəzifələrilə tanış olmuş, təşkilatın Sovet hökumətinə qarşı mübarizə metodlarına tamamilə şərik olduğunu bildirmişdir. T.Salahov yuxarıda adı çəkilən təşkilatın Azərbaycan SSR Laçın rayonu üzrə rəhbəri kimi fəal əksinqilabi iş aparmışdır.

Sovet hökumətinə qarşı silahlı üsyana hazırlıq məqsədilə Salahov əksinqilabi millətçi təşkilatın tərkibinə yeni üzvlər cəlb edilməsi yolu ilə üsyançı dəstələrin yaradılmasına və onların silahla təchiz edilməsinə çalışmışdır.

Bundan başqa, T.Salahov 1935-1936-cı illər ərzində kənd təsərrüfatı üzrə ziyankarlıq işini həyata keçirmişdir».

1938-ci il iyulun 2-də SSRİ Ali Məhkəməsi hərbi Kollegiyası (Matulleviç, Kolpakov, Kulik) Səyyar sessiyasının hazırlıq iclası keçirilmişdir. İclas qərara almışdır ki, T.H.Salahovun işi Azərbaycan SSR CM-nin 64, 69, 70 və 73-cü maddələri üzrə məhkəməyə verilsin. İşə bağlı məhkəmə iclasında ittihamçısız, müdafiəçisiz və şahidlərsiz baxılsın.

1938-ci il iyulun 3-də hərbi Kollegiyanın bağlı məhkəmə iclası keçirildi. İclas saat 22:25 dəqiqədə açıldı. Məhkəmədə T.H.Salahov özünü günahkar bilməmişdir və ilkin istintaqda verdiyi ifadələri təsdiq etmə-

mişdir. Son sözdə müttəhim bildirmişdir ki, o, kənd təsərrüfatı sahəsində və kollektivləşmə dövründə namus və vicdanla işləmişdir. Buna görə də məhkəmədən ona bəraət qazandırmasını xahiş etmişdir. İclas saat 22:40 dəqiqədə bağlanmışdır.

1938-ci il iyulun 3-də hərbi kollegiya Teymur Heydər oğlu Salahovu ən ağır cəzaya – güllələnməyə məhkum etmişdir. Hökm dərhal yerinə yetirilmişdir.

İşdə T.H.Salahovun 1938-ci il iyulun 3-də Bakı şəhərində güllələnməsi haqqında arayış vardır. Hökmün yerinə yetirilməsi haqqında akt SSRİ XDİK-in birinci Xüsusi şöbəsinin Xüsusi arxivində (VIII cild, səh.44) saxlanılır.

1955-ci il martın 2-də T.Salahovun həyat yoldaşı Sona Dərya qızı Salahova DTK-nın sədri Quskovun adına ərizə yazıb həyat yoldaşının işinə yenidən baxılmasını və onun həqiqətən günahkar olub-olmamasının müəyyənləşdirilməsini xahiş etmişdir.

Aparılan tədqiqat və araşdırmalardan sonra 1956-cı il iyulun 14-də SSRİ Ali Məhkəməsi hərbi Kollegiyasının qərarına görə 1938-ci il iyulun 3-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının T.H.Salahovun istintaq işi üzrə çıxardığı hökm dəyişdirildi, cinayət tərkibi olmadığı üçün iş xətm edildi.

# ACI TALELƏR

## ABBAS MİRZƏ RƏSUL OĞLU ŞƏRİFZADƏ

30-cu illərin minlərlə qurbanları siyahısında incəsənət xadimlərimizin də adları var. Bu yazımda onlardan biri haqqında, xalqımızın sevimlisi, böyük teatr ustadı Abbas Mirzənin həyatının son günlərindən bəhs edəcəyəm

1937-ci il iyulun 22-də Azərb. XDİK-nın müavini Gerasimov tərəfindən şöbə müdiri Sinmanın ünvanına belə dərkənar yazılır:

*«Yoldaş Sinman! Yadımdadır ki, Əli Kərimovun ifadələrində Şərifovun və Ülvinin adları çəkilir. Onlar təxirə salınmadan həbs edilməli və istintaqa cəlb olunmalıdırlar.*

*Gerasimov».*

1937-ci il dekabrın 3-də Azərb. SSR XDİK Dövlət Təhlükəsizliyi İdarəsi 3-cü bölməsinin rəis müavini baş leytenant Borisov bu məzmunda arayış tərtib edir:

«Şərifov Abbas Mirzə Rəsul oğlu, 1891-ci ildə anadan olub, azərbaycanlıdır. Azərbaycan Dövlət Dram Teatrının artistidir. Əldə edilmiş məlumatlara görə Şərifov Abbas Mirzə Rəsul oğlu bir xarici dövlətin xeyrinə casusluqda ifşa olunur.

Qeyd olunanlara əsasən Şərifov Abbas Mirzə Rəsul oğlu həbsə salınıb Azərb. SSR CM-nin 68-ci maddəsi ilə məsuliyyətə cəlb edilməlidir».

Həmin «əldə edilmiş məlumatlar» artıq güllələnmiş Ruhulla Axundovun ifadələri idi. 1937-ci il iyulun 24-də, (əlbəttə, işgəncələrdən sonra), verdiyi ifadəsində o demişdir: «Şəxsən mən hesab edirdim ki, hər bir işi kadrların hazırlanmasından, yəni adamların cəlb edilməsindən başlamalıyıq. Təşkilata cəlb olunan şəxslər, öz növbələrində, bura digər şəxsləri cəlb etməlidirlər. Mənim tərəfimdən cəlb olunmuş Əli Kərimov (Azdramanın müdiri), öz növbəsində, Abbas Mirzə Şərifovu və Mirzə Ağa Əliyevi təşkilata cəlb etmişdi».

Lakin Abbas Mirzənin «cinayət işi»ndə Əli Kərimovun ifadələri yoxdur. Əksinə, 1937-ci il fevralın 19-21-də (üç gün dalbadal) dindirilmiş Əli Kərimov göstərmişdi ki, o, əksinqilabi millətçi təşkilata Triniç tərəfindən

qoşulmuşdur. Görünür, dindirənlərin bir hissəsi digər müstəntiqlərin işlərindən xəbərsiz olub. Onlar isə yalnız bir məqsəd üçün çalışırdılar: «sübut etmək» və güllələmək!

1937-ci il iyulun 23-26-da dindirilən Azdramanın müdiri Əli Kərimov müstəntiqin: «Artist Abbas Mirzə Şərifov əksinqilabi təşkilata daxil idimi?» sualına belə cavab verdi: «Bunu rədd edirəm! Bir daha təkidlə deyirəm ki, Şərifov əksinqilabi millətçi təşkilata daxil olmayıb» (Əli Kərimov 1937-ci il oktyabrın 13-də güllələnib).

1937-ci il oktyabrın 11-də dindirilən Ruhulla Axundov göstərdi: «Bakıdakı antisovet müsavat təşkilatının rəhbər üzvləri aşağıdakılar idi: Dövlət dumasının sabiq üzvü Məmməd Yusif Cəfərov, Yazıçılar ittifaqının üzvü Hüseyn Sadıq, şair Əhməd Cavad, yazıçı, müsavatın İstanbuldakı konsulu Yusif Vəzirov, məşhur pantürkist şair Hüseyn Cavid. 1926-cı ildə şəxsən mənim təşəbbüsümlə Mirzoyan və Qarayev onu xaricə müalicəyə göndərmişdilər; bədii texnikumdan Rəfibəyov, Novruz Ağayev, Əbdürrəhim Əşrəfov, Oruc Orucov, İsabəy Aşurbəyov, yazıçılar ittifaqından Atababa Musaxanlı; bəstəkar Üzeyir Hacıbəyov; xalq artistləri Mirzə Ağa Əliyev və Abbas Mirzə Şərifzadə».

Lakin Abbas Mirzənin işində yuxarıda adları çəkilən antisovet müsavat təşkilatının rəhbər üzvlərindən heç birinin ifadəsi yoxdur.

1937-ci il dekabrın 3-də Abbas Mirzə Şərifovun məsuliyyətə cəlb edilməsi haqda qərar çıxarılır:

«Mən, Azərb. SSR XDİK DTİ-nin 3-cü şöbəsinin müvəkkili leytenant Kovrijenko vətəndaş Şərifov Abbas Mirzənin bir xarici dövlətin xeyrinə casusluq işilə əlaqədar kifayət qədər ifşa olunduğunu nəzərə alaraq qərara gəldim: «Abbas Mirzə Rəsul oğlu Şərifov Azərb. SSR CM-nin 68-ci maddəsi üzrə müttəhim sifətilə məsuliyyətə cəlb edilib həbsə alınsın». Qərar Az. SSR XDİ komissarı Sumbatov tərəfindən təsdiq edilmişdir».

1937-ci il dekabrın 4-də 3240 №-li orderə əsasən Abbas Mirzə öz evində həbs olunmuşdur. (Çadrovaya, 115). Axtarış zamanı evində bir teatr qılıncı və iki teatr tapançası müsadirə edilmişdir.

1937-ci il dekabrın 9-da XDİK DTİ-nin 3-cü şöbəsi, 2-ci bölməsinin rəisi V.A.May 1908-ci ildən səhnə ustası olan Abbas Mirzəni dindirməyə başladı: Sual: «Sizin qohumlarınızdan xaricdə kim var?» Cavab: «Qardaşım Qulam Rza Şərifov Tehrandadır. O, 1921-ci ildə mühacirət edib». Sual: «Son illərdə siz Azərb. SSR-də olan xarici konsulxanalara getmisinizmi?»

Cavab: «1932-ci ildə mən Gəncədə olan İran konsulluğuna iki, ya üç dəfə getmişəm. O vaxt konsul Vafi idi. O, demək olar ki, hər axşam bizim teatra gəlirdi, sonra isə artistləri qonaq çağırırdı. Bunların içində mən də var idim». Sual: «Vafi Bakıya köçəndən sonra siz onunla görüşmüsünüzmü?». Cavab: «Bir dəfə mən ona küçədə rast gəldim. İkinci dəfə o, mənə telefonla dedi ki, onun yanına qonaqlar gələcək və xahiş etdi ki, mən də gəlim. Mən razılıq verməədim. Bundan sonra daha onu görmədim və konsulluq məmurlarından heç kəsi tanımıram». Sual: «Bakıdakı türk konsulluğu məmurları ilə sizin münasibətiniz necə idi?» Cavab: «Onlardan heç kəsi tanımıram. Nə indi, nə də keçmişdə». Sual: «İfşa olunmuş xalq düşmənlərindən sizin kim ilə yaxınlığınız var idi?». Cavab: «Heç birisi ilə yaxınlığım yox idi, amma bəzilərini tanıyırdım». Sual: «Əliheydər Qarayevlə münasibətləriniz necə idi?» Cavab: «Qarayevi mən hələ müsavat dövründən tanıyıram, çünki o, mənim qonşum idi. 1921, 1922 və 1923-cü illərdə onunla Quba, Tovuz və başqa rayonlarda gəzib tamaşalar təşkil edirdim. 1923-cü ildən sonra mənim onunla əlaqəm olmayıb və cəmiyyətdə də onu görməmişəm».

1937-ci il dekabrın 17-də Abbas Mirzə ikinci dəfə dindirildi. Sual: «Sizə Azərb. SSR CM-nın 68-ci maddəsilə məsuliyyətə cəlb olunmanız haqda qərar elan edilib. Özünüzü bu işdə müqəssir bilirsinizmi?» Cavab: «Mən özümü yalnız Gəncədə İran konsulu Vafinin yanına getməkdə müqəssir hesab edirəm. Daha heç bir şey deyə bilmərəm». Sual: «Sizə ikinci dəfə sual verilir – ifşa olunmuş xalq düşmənlərindən kim ilə yaxınlığınız var idi?» Cavab: «heç biri ilə yaxınlığım olmayıb». Sual: «Müsavatçılar Azərbaycanda ağalıq edəndə siz onlara qoşulmuşdunuzmu?» Cavab: «Xeyr! Mən müsavat partiyasının üzvü deyildim, onların mövqelərilə şərik olmamışam. Ümumiyyətlə, mən teatrdan başqa bir şey bilmirdim». Sual: «Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra indiki dövrə qədər sizdə əksinqilabi millətçi xarakterli tərəddüdlər var idimi?» Cavab: «Xeyr, heç bir zaman!» Sual: «İstintaq sizə təklif edir ki, özünüzün siyasi görüşləriniz haqda bütün həqiqəti danışasınız». Cavab: «Mən tamamilə Sovet hökumətinin və kommunist partiyasının tərəfdarıyam. Onların tapşırıqları mənim üçün qanundur».

1937-ci il dekabrın 25-də Abbas Mirzənin üçüncü dəfə dindirilməsindən: Sual: «Son illərdə sizin müsavatçı və pantürkistlərdən kim ilə yaxınlığınız var idi?». Cavab: «Yaxınlığım heç biri ilə olmayıb, amma işimlə əlaqədar Hüseyn Cavidi, Cavad Axundzadəni, Müşfiqi, Seyid Hüseyni ta-

nıyıram». Sual: «İşinizlə əlaqədar yox, şəxsi əlaqəniz var idimi?» Cavab: «Cavidin evində olmuşam. Başqalarının yox». Sual: «Sizə haradan məlumdur ki, bu şəxslər öz siyasi əqidələrinə görə müsavatçıdırlar?» Cavab: «Hüseyn Cavidin millətçi-osmançı əqidəli olmağını mən onun pyeslərindən bilirəm. Cavad Axundzadənin bütün şerlərində millətçi ruha rast gəlirsən. Müşfiqin millətçi əqidəli olmağını mən onun yazıçılar ittifaqında ifşa olunmasından bilirəm». Sual: «Bununla iş bitmir, aranızda nə kimi millətçi ruhda söhbətlər olurdu?» Cavab: «Bu ruhda aramızda heç vaxt və heç bir söhbət olmayıb». Sual: «Nə üçün siz, bu şəxslərin pantürkist əhval-ruhiyyəli olduqlarını və əsərlərində spesifik meylləri bilə-bilə onların əsərlərini təbliğ edirdiniz?» Cavab: «Mən teatrda işləyirdim və əgər mənə bir rol tapşırılırdısa, mən bu rolu oynamalıydım». Sual: «İndiyə qədər verdiyiniz cavablarda olduğu kimi siz bu cavabınızda da səmimi deyilsiniz. Siz yaxşı artist olmağınızdan istifadə edərək Cavid, Cavad və Müşfiq kimi burjua antisovet yazıçılarını tərənnüm edib onların pantürkist xəttini həyata keçirirdiniz. Nə üçün siz konsertlərdə və radioda repertuarınıza Müşfiqin, Hüseyn Cavidin və Əhməd Cavadın əsərlərini salırdınız?» Cavab: «Mənim bütün konsert proqramlarım İncəsənət komitəsi tərəfindən təsdiq edilmişdir və onun icazəsi olmadan mən heç bir şeylə çıxış etmirdim». Sual: «Siz boynunuza alırsınızmı ki, Azərbaycan dilinin osmanlılaşdırılması ilə siz gənc artistləri də yoluxdurmuşunuz?» Cavab: «Bunu boynuma alıram. Mən pantürkist yazıçıların əsərlərinin tərcümələrindən istifadə etmişəm və istər-istəməz onların gətirdiyi osmanlı terminologiyasını Azərbaycan dilinə daxil edirdim». Sual: «İstintaq tələb edir ki, siz Azərbaycanda fəaliyyət göstərən gizli müsavat təşkilatına daxil olmağınız haqda ifadələr verəsiniz. Sizi bu təşkilata kim cəlb edib? Cavab: «Məni heç kəs heç bir təşkilata cəlb etməyib və belə təşkilatın olması haqda mənə heç bir şey bəlli deyil».

1937-ci il dekabrın 31-də Abbas Mirzənin dördüncü dindirilməsindən. Sual: «Müsavatçı və burjua-millətçi Ülvi Rəcəb, Hacıağa Abbasov, Mirzə Ağa Əliyev, Əhməd Cavad, Hüseyn Cavid və başqa bu kimi şəxslər sizə necə siyasi təsir göstərirdilər?» Cavab: «heç bir təsir göstərmirdilər». Sual: «İfşa olunmuş xalq düşməni Ruhulla Axundovla münasibətiniz necə idi?» Cavab: «Aramızda heç bir münasibət yox idi». Sual: «Əli Kərimovla münasibətiniz necə idi?» Cavab: «Mənim onunla bircə dəfə ciddi söhbətim olub, o da Mövsüm Sənaninin teatrdakı mövqeyi haqqında idi. Həm də bu söhbət partkom Abdullayevin iştirakı ilə olub». Sual: «Hacıağa Abbasovla

münasibətləriniz necə idi?» Cavab: «Onun teatr məktəbindəki hərəkətlərini tənqid etdiyim üçün 1929-cu ildən aramız yox idi».

1938-ci il yanvarın 8-də Abbas Mirzənin beşinci dindirilməsindən. Müstəntiq: «Bəsdir istintaqa müqavimət göstərdiniz! Müsavatçı fəaliyyətiniz haqda ifadə verin». Cavab: «Mən heç vaxt Sovet hakimiyyəti əleyhinə işləməmişəm və əgər bir şey etsəydim, bu barədə xəbər verərdim. Mən nəinki müsavatçı işlərlə məşğul olmamışam, hətta bu haqda belə düşünməmişəm də». Müstəntiq: «Siz başqa şəxslərin ifadələri ilə ifşa olunana qədər istintaq səmimi ifadə verməyinizi tələb edir». Cavab: «Bundan artıq heç bir şey deyə bilmərəm; çünki konsulxanaya getməyimdən başqa mənim heç bir günahım yoxdur». Sual: «Məgər siz görmürsünüz ki, konsulxanaya getməyiniz sizin əsl siyasi əqidəniz üçün sübutdur?» Cavab: «Mən bu səhvimi boynuma alıram. Gərək konsulun yanına getməyəydim. Lakin bu Gəncədə olub. Bakıda isə o, məni dəvət edəndə getmədim». Sual: «Siz İran konsulluğu ilə əlaqəniz barədə hər şeyi dediniz?» Cavab: «Bəli, hər şeyi» Sual: «Bu doğru deyil. Siz ifadə verdiniz ki, konsulluğa iki dəfə artistlərlə birlikdə getmisiniz. Həqiqətdə isə siz konsulluqda öz həyat yoldaşınız Sara xanımla birlikdə olmusunuz». Cavab: «O da başqa artist və rejissorlarla birgə getmişdi». Sual: «Elə hallar olubmu ki, siz İran konsulundan hədiyyə alasınız?» Cavab: «Xeyr, belə hallar heç vaxt olmayıb». Müstəntiq: «Sizə bir daha təklif edilir ki, özünüzün antisovet fəaliyyətiniz haqda hər şeyi danışasınız». Cavab: «Mənim deməyə heç bir sözüm yoxdur. Mən heç bir antisovet iş görməmişəm».

1938-ci il yanvarın 9-da Abbas Mirzənin altıncı dindirilməsindən. Sual «Şıxzamanovu tanıyırsınızmı?» Cavab: «Mən eşitmişəm ki, Gəncədə belə bir mülk sahibi var. Mən onu kinofilmə çəkmək istəyirdim. Lakin onu tanımırdım». Sual: «Müsavat dövründə əkskəşfiyyat idarəsinin başçısı kim idi?» (Suala bir bax! – Z.B.). Cavab: «Bilmirəm». Sual: «Sizin müsavatın əkskəşfiyyat idarəsilə nə münasibətiniz var idi?» Cavab: «Heç bir münasibətim olmayıb». Sual: «Müsavat əkskəşfiyyat idarəsinin hansı məmuru ilə tanış idiniz?» Cavab: «Mən orada heç kimi tanımırdım».

Bundan sonra 6453 №-li iş üzrə aşağıdakı qərar çıxarılır:

«1938-ci il yanvarın 9-da mən, Azərb. SSR XDİK DTİ-nin 3-cü şöbəsinin 2-ci bölmə rəisi baş leytenant V.A.May 1937-ci il dekabrın 4-də Azərb SSR CM-nin 68-ci maddəsi ilə məsuliyyətə cəlb olunmuş Şərifov Abbas Mirzənin 6453 №-li istintaq işinə baxıb aşağıdakıları müəyyən etdim:

Şərifovu Azərb. SSR CM-nin 68-ci maddəsi ilə məsuliyyətə cəlb etmək üçün istintaq tərəfindən material əldə edilməyib. Lakin istintaqın sərəncamına Azərb. SSR XDİK-nın 1937-ci ildə ifşa olunub dağıdılmış Azərbaycan ərazisində gizli fəaliyyətdə olan müsavatçı təşkilatına Şərifovun daxil olması haqda şahidlərin ifadələri daxil olmuşdur. Bu təşkilatın başqa üzvləri haqda olan istintaqı Azərb. SSR XDİK DTİ-nin 4-çü şöbəsi apardığı üçün həmin şöbədə Şərifovun da haqqında müəyyən ifadələr mövcuddur. Buna əsasən qərara aldım:

Şərifov Abbas Mirzə haqqında olan 6453 №-li istintaq işi axtarışın nəticələri və şəxsi sənədlərlə birlikdə 8-ci şöbə vasitəsilə gələcək istintaq üçün Azərb. SSR XDİK-nın 4-cü şöbəsinə göndərilsin».

1938-ci il yanvarın 10-da bu qərar Azərb. SSR XDİK-nin komissar müavini Borşov tərəfindən təsdiq edilmişdir.

1938-ci il fevralın 8-də Şərifov Abbas Mirzənin işi haqqında daha bir qərar çıxarılır:

«Mən – Az. SSR XDİK DTİ-nin 4-cü şöbə 2-ci bölməsinin müvəkkili N.Petrunin Azərb. SSR CM-nin 68-ci maddəsi ilə məsuliyyətə cəlb olunan Şərifov Abbas Mirzə Rəsul oğlunun 6453 №-li cinayət işinə baxıb müəyyən etdim:

İstintaq materiallarından göründüyü kimi (heç bir şey görünmür! – Z.B.), müttəhim Şərifov Abbas Mirzə əksinqilabi burjua-millətçi təşkilatının üzvüdür və buna görə də qərara gəldim:

Müttəhim Şərifov Abbas Mirzə Rəsul oğlunun istintaq işi 10497 №-li ümumi işin tərkibinə daxil olunsun və bu barədə DTİ-nin 8-ci şöbəsinə xəbər verilsin».

Bu qərar DTİ-nin 4-cü şöbəsi 6-cı bölməsinin rəisi kiçik leytenant M. Mustafayev və 4-cü şöbə rəisinin müavini baş leytenant Atakişiyev tərəfindən təsdiq edilmişdir.

(Buna baxmayaraq Şərifov Abbas Mirzə dəstə tərkibində deyil, təklikdə ittiham olunur. – Z.B.).

1938-ci il fevralın 16-da Abbas Mirzəyə yeni ittiham təqdim edilir; bu dəfə o, əksinqilabi burjua-millətçi təşkilatın üzvü kimi məsuliyyətə cəlb edilir.

1938-ci il aprelin 28-də Şərifov Abbas Mirzə və Mahmudov Mahmud Balaəmi oğlu (Baş repertuar komissiyasının rəhbəri) arasında üzləşmə keçirildi:

Müttəhim Mahmudova sual: «Şərifov Abbas Mirzənin əksinqilabı fəaliyyəti haqda sizə nə məlumdur?» Cavab: «Şərifov Abbas Mirzə məni Sovet İttifaqı ərazisində İran kəşfiyyat orqanları xeyrinə casusluq etməyə cəlb etmişdir». Müttəhim Şərifova sual: «Siz Mahmudovun ifadəsini təsdiq edirsinizmi?» Cavab: «Bəli, təsdiq edirəm. Mən Mahmudov Mahmudu İran kəşfiyyatı xeyrinə casusluğa cəlb etmişəm».

Lakin bu üzləşmə protokolu başdan ayağa uydurmadır, çünki üzləşməni kimin apardığı məlum deyil. Bundan başqa, bu ifadəni Abbas Mirzə güllələnməyə məhkum olunandan sonra (!) verib.

1938-ci il iyunun 11-də Şərifov Abbas Mirzə və Əli Həsən Abbas oğlu (qəzetsatan) arasında üzləşmə keçirildi.

Müttəhim Əli Həsən Abbas oğluna sual: «Siz Şərifov Abbas Mirzə haqqında nə bilirsiniz?» Cavab: «Keçmişdə artist olan Şərifov Abbas Mirzəni mən 1928-29-cu illərdən tanıyıram. Abbas Mirzə mənimlə söhbətlərində açıq-aydın əksinqilabi görüşlərini ifadə edirdi. Söhbətlərimiz qəzet satıcısı işlədiyim qəzet köşkünün qabağında olurdu».

1936-cı ildə Şərifov Abbas Mirzə mənə xəbər verdi ki, Bakıdakı İran konsulu ondan, yəni Şərifovdan xahiş edib ki, onun üçün Ruhulla Axundovun redaktəsi ilə nəşr olunan ikicildlik «Rus-Azərbaycan lüğəti»ni tapsın Şərifov məndən xahiş etdi ki, mən bu lüğəti bukinistlərdən tapıb şəxsən konsula verim. Mən Şərifovun xahişini yerinə yetirdim, kitabı tapıb şəxsən İran konsuluna verdim və buna görə konsuldan bir hədiyyə də aldım. Konsulun yanına mən tez-tez gedirdim. Mən ondan dörd nüsxə «Setare İran» qəzetini və bağlı məktublar alırdım. Həmin qəzet və məktubları konsulun xahişi ilə artist Şərifova verirdim, çünki konsulun dediyi kimi Şərifov işin içindədir və İran qəzetləri və məktubları almaq üçün mənim köşkümə gələcək. Bu qəzet və məktubları mən qəzet köşkündə Şərifova verirdim. 1936-1937-ci illər ərzində mən vaxtaşırı (təxminən 12-15 dəfə) İran konsulunun yanına gedib şəxsən ondan «Setare İran» qəzetini və məktubları alır və bunları Şərifov Abbas Mirzəyə ötürürdüm».

Müttəhim Abbas Mirzəyə sual: «Siz Əli Həsən Abbas oğlunun ifadəsini təsdiq edirsinizmi?» Cavab: «Xeyr, təsdiq etmirəm».

1938-ci il iyunun 29-da kiçik leytenant B.İ.Perelman «həbsinə qədər Azərb. SSR xalq artisti, 1891-ci ildə anadan olan, Azdram teatrının artisti, şamaxılı Abbas Mirzə Rəsul oğlu Şərifovun işi üzrə ittihamnamə tərtib edir.

Şərifov Abbas Mirzə Rəsul oğlu İran kəşfiyyat orqanlarının xeyrinə Mahmudov Mahmud Balaəmi oğlunu casusluğa cəlb etməkdə özünü müqəssir bildi. İran casusu Mahmudov Mahmudun ifadəsinə və onunla keçirilən üzləşməsinə görə Şərifov Abbas Mirzə Mahmudovu İran kəşfiyyatının xeyrinə casusluğa cəlb etməsində ifşa olunur.

İran casusu, İran təbəəsi Əli Həsən Abbas oğlunun ifadələri və onunla keçirilən üzləşməsinə görə Şərifov Bakıdakı İran konsulu Pirnəzərlə əksinqilabi rabitədə ifşa olunur. Şərifov Əli Həsən Abbas oğlunun vasitəçiliyi ilə Pirnəzərdən gizli olaraq İrandan gətirilən xarici qəzet və məktub alırdı.

İran kəşfiyyatçısı, Bakıdakı İran konsulluğunun keçmiş məsul işçisi Ərşadinin ifadələri ilə Şərifov Abbas Mirzə İstanbula mühacirət etmiş keçmişi müsavat lideri olan öz qardaşı Şərifzadə Qulam Mirzə ilə və Bakıdakı İran konsulluğunun keçmiş konsul müavini Mövsüm xan Vafi ilə antisovet əlaqələri saxlayan əksinqilabçı millətçi kimi ifşa olunur.

Azərb. SSR-də olan millətçi antisovet təşkilatının rəhbəri olan Ruhulla Axundovun ifadələri ilə Şərifov Bakıdakı müsavat təşkilatının rəhbəri kimi ifşa edilir.

Agentlərin verdiyi xəbərlərə görə Abbas Mirzənin qardaşı, xaricdə olan müsavatçıların rəhbərlərindən biri olan Qulam Mirzə Şərifzadə indi İranda, SSRİ-nin sərhədi yaxınlığında olub, müsavatçı üsyançı dəstələri təşkil edir.

Deyilənlərə əsasən Şərifov Abbas Mirzə Rəsul oğlunu ittiham edən istintaq işi SSRİ XDİK-nin 00485 №-li əmrinə uyqun olaraq Üçlüyün baxılmasına təqdim olunsun».

Dərkənarlar: «Razıyam» – Az.SSR XDİK DTİ İstintaq qrupunun rəisi leytenant V.A.Şneyder.

«Təsdiq edirəm» – Az.SSR XDİK-nin komissarı baş mayor Rayev.

İşin 50-ci vərəqi:

«Az.SSR XDİK Xüsusi Üçlüyün 1938-ci il oktyabrın 19-da keçirilən iclasının protokolundan çıxarış:

Eşidildi: «1891-ci ildə anadan olmuş, bitərəf Şərifov Abbas Mirzə Rəsul oğlu haqqında olan 10497 №-li istintaq işi.

Qərara alındı: «Şərifov Abbas Mirzə Rəsul oğlu – casusluq fəaliyyətinə görə güllələnsin, əmlakı müsadirə olunsun» (görəsən, əmlakın buraya nə dəxli var idi? – Z.B.).

Az. SSR XDİK DTİ I Xüsusi şöbəni rəisi leytenant Savçenko».

İşin 51-ci vərəqəsi: «Aktdan çıxarış. Azərb. SSR XDİK Xüsusi Üçlü-yün Şərifov Abbas Mirzə Rəsul oğlunun güllələnməsi haqda 19 oktyabr 1938-ci il tarixli qərarı 1938-ci il noyabrın 16-da yerinə yetirilib». Yenə də leytenant Savçenko qol çəkib. Görəsən bu Savçenko indi harada ola bilər? Bu məlun bizim günahsız adamlarımızın hamısının güllələnməsində fəal iştirak edib.

Beləliklə, 1938-ci il oktyabrın 19-da güllələnməyə məhkum edilən Abbas Mirzə noyabrın 16-da güllələnib. Görəsən bir aya qədər Üçlüyün qərarı nə üçün yerinə yetirilmirdi? Axı o zamankı cəlladlar belə qərarları təxirə salmadan yerinə yetirirdilər.

Oxuculara demək istəyirəm ki, oktyabrın 19-dan noyabrın 16-dək artıq güllələnməyə məhkum olunmuş Abbas Mirzəyə, əgər lazımi ifadələr versə onu güllələməyəcəkləri vədini verib, bu yazıqdan istədiklərini alıb onun adından saxta ifadələr düzəltdilər.

1955-ci il avqustun 27-də Baş hərbi Prokurorluğun prokuroru B. Plexanov Şərifov Abbas Mirzənin işi üzrə saxtakarlar haqda arayış tərtib edir.

1. Şneyder Vladimir Aleksandroviç – Azərb. XDİK DTİ-nin istintaq qrupunun keçmiş rəisi – istintaq işlərinin saxtalaşdırılmasına və həbs olunan adamlara fiziki təsir göstərməyinə görə 1941-ci ildə beş il müddətinə azadlıqdan məhrum olunub.

2. Perelman Boris İosifoviç – həmin istintaq qrupunun fəal müstəntiqi – həbs olunanlara fiziki təsir göstərməyinə görə (yəni döymək, işgəncə vermək və s.) – 1941-ci ildə iki il müddətinə azadlıqdan məhrum olunub (İlahi! vəhşi cəlladlara beş il, iki il?! – Z.B.).

3. Qrekin Qriqori İsayeviç – həmin istintaq qrupunun müstəntiqi – həbs olunanlara fiziki təsir göstərməyinə görə 1939-cu ildə iki il müddətinə azadlıqdan məhrum edilib, özü də şərti!

4. Borisov-Pavlov Kalinik İosifoviç. Bu, o qədər günahsızları ölümcül hala salıb ki, o zamankı XDİK işçiləri də onun yanında bəzən «utanırdılar». Bundan başqa, bu adam çoxlu sirlər aça bilərdi. Ona görə də 1938-ci il aprelin 22-də «əksinqilabi təşkilatın üzvü kimi» güllələndi.

Müttəhim B.İ.Perelmanın 1939-cu il iyunun 7-də verdiyi izahatdan: «Roqov və Larionov (müstəntiqlər – Z.B.) kimi Abdullayev Yaqub da kameralarda dustaqlar arasında agent saxlamaq işini tərifləyir və bunun səmərəsindən qidalanırdılar. Məsələn, Abdullayevin sərəncamında məhbus artist Abbas Mirzə Şərifov var idi. Bir aydan çox o, Abbas Mirzəni in-

etdi, amma heç bir nəticə ala bilmədi. Həbsxanada müstəntiq Kuşmanyan həbs olunmuş qəzet köşkündə işləyən iranlı Əli Həsəndən Şərifovun İran kəşfiyyatçısı olmağı haqda ifadə aldı. Sonra Əli Həsən daxili həbsxanaya köçürülüb. Orada Abdullayev və Kuşmanyan özləri keçirdikləri üzləşmədə Əli Həsənə Şərifovun ifşa olunmasında kömək etdilər».

1955-ci il avqustun 19-da dindirilən V.A.Şneyder göstərdi ki, Ərşadi XDİK-nin gizli əməkdaşı idi. O, imtiyazlı mövqe tutub XDİK binasına xüsusi buraxılışa malik idi. XDİK rəhbərliyi Ərşadiyə qiymətli hədiyyələr də verirdi. O, müntəzəm olaraq pul vəsaiti də alırdı. Lakin Ərşadi XDİK ilə işlədiyi dövrdə XDİK-ə heç bir material verməyib. Mən belə bir fikir irəli sürdüm ki, Ərşadi riyakardır və təkid etdim ki, onu həbsə alıb məhkum etsinlər.

Şneyderə sual: «Sizə Mahmudov Mahmudun ittiham işini təqdim edirik. Necə oldu ki, bu iş üzrə ittihamnaməyə müstəntiq Qrekin qol çəkib, sizinlə razılaşdırılıb və Rzayev tərəfindən təsdiq olunub, amma Mahmudovun özü isə heç həbsə də alınmamışdı?».

Şneyderin cavabı: «Bunun necə olduğunu mən izah edə bilmərəm».

1939-cu il oktyabrın 19-da Mahmudov Mahmud Xüsusi Üçlüyün qərarı ilə güllələnməyə məhkum edilib. İlkin istintaqda Mahmudov bir-birinə zidd ifadələr vermişdi. Hələ birinci dindirmədən qabaq, həbs edilən günü (28.04.1938) Mahmudov ərizə yazdı ki, İran kəşfiyyatı xeyrinə casusluq işinə onu Abbas Mirzə Şərifov cəlb edib. 1938-ci il iyunun 20-də Mahmudov öz ifadələrindən imtina etdi.

1955-ci il avqustun 25-də SSRİ Baş Prokurorunun müavini Y.Barskoy Şərifov Abbas Mirzənin işi üzrə SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasına etirazını təqdim etdi:

«Azərb. SSR XDİK Xüsusi Üçlüyün Şərifov Abbas Mirzə haqqında çıxardığı qərar aşağıdakı əsaslara görə ləğv edilməlidir:

Əli Həsən Abbas oğlu provokator olub, Az. SSR XDİK-nın sabiq əməkdaşları Qrekin, Perelman və Şneyder tərəfindən Abbas Mirzə Şərifovun istintaq işini saxtalaşdırmaqda istifadə olunurdu. İşin sənədləri və əlavə istintaq sübut edir ki, Şərifov Abbas Mirzənin həbs olunması və güllələnməsi əsassız olub».

1955-ci il sentyabrın 17-də SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası SSRİ Baş Prokurorunun etirazı üzrə, casusluq fəaliyyətinə görə güllələnməyə məhkum edilmiş 1891-ci ildə anadan olan şamaxılı Şərifov Abbas

Mirzə Rəsul oğlunun işi ilə tanış oldu. Baş Prokurorun etirazında göstərilir ki, Şərifov İran kəşfiyyatı ilə əlaqəsinə və Bakıda olan əksinqilabçı müsavatçılar təşkilatının üzvü olmasına görə məhkum olunub. Etirazda göstərilir ki, Şərifovun ittihamı onun etiraflı ifadələri ilə şahidlər Ruhulla Axundov, Həsən Ərşadi, Mahmudov Mahmud və Əli Həsən Abbas oğlunun ifadələrinə əsaslanır.

Etirazda göstərilir ki, ifadələr Şərifovdan fitnə yolu ilə alınıb və onun güllələnməsindən sonra işinə əlavə edilib. Şərifovun bu ifadələri həqiqətə uyğun deyil, çünki onun bu ifadələri işdə olan materiallarla təsdiq olunmur.

Şahid Ruhulla Axundov Şərifov Abbas Mirzə əleyhinə ifadələrini dəhşətli döyülməsindən sonra verib. Əli Həsən Abbas oğlu provokator idi və istintaq tərəfindən cinayət işlərinin saxtalaşdırılması üçün istifadə olunurdu. Şahid Həsən Ərşadi Şərifovun əleyhinə verdiyi ifadələrindən imtina etdi və göstərdi ki, o, çoxlu günahsız adamlara böhtan atmışdır. Mahmudov Mahmudun işi tərkibində cinayət olmadığı üçün xətm olunub.

Bütün bunları nəzərdən keçirib və Baş Prokurorun etirazı ilə razılaşaraq Hərbi Kollegiya qərara alır:

1938-ci il oktyabrın 19-da Azərb. SSR XDİK Xüsusi Üçlüyün Şərifov Abbas Mirzə Rəsul oğlu haqda çıxardığı qərar ləğv edilib, onun işi xətm olunmalıdır».

1955-ci il oktyabrın 15-də Şərifov Abbas Mirzənin qızı Firəngiz Azərb. SSR NS nəzdindəki DTK-nın ünvanına aşağıdakı ərizəni göndərir:

«Mənim atam, 1891-ci ildə anadan olmuş Azərb. SSR xalq artisti Şərifov Abbas Mirzə həbsinə qədər Azərb. Dövlət Dram teatrında çalışırdı. 1937-ci ilin sentyabrında o, Azərb. SSR XDİK tərəfindən həbs edilib və o vaxtdan onun taleyi mənə bəlli deyil. Xahiş edirəm, aşağıdakı suallarıma cavab verəsiniz:

1. Atam sağdırmı?
2. O haradadır?
3. Onun təqsirinin olub-olmamasını müəyyən etmək üçün işi yoxlamılırmı?».

1955-ci il noyabrın 19-da Abbas Mirzənin qızına xəbər verilib ki, atası 1941-ci il noyabrın 1-də infarktdan vəfat edib (Əhsən bu xəbəri verənə! – Z.B.).

1955-ci il oktyabrın 19-da Abbas Mirzənin oğlu Qarataya xəbər verilib ki, onun atası Şərifov Abbas Mirzənin 1955-ci il sentyabrın 17-də hüququ özünə qaytarılıb və işi də cinayət tərkibi olmadığı üçün xətm olunub.

1957-ci il oktyabrın 9-da Bakı şəhər maliyyə şöbəsinin müdiri A.M. Zülfüqarov Azərb. SSR NS nəzdindəki DQİ-nin sədr müavini Zamanova xəbər verir ki, «hüququ özünə qaytarılmış Abbas Mirzə Şərifovun müsadirə edilmiş mülkünün qiyməti – 720 manat sıfır-sıfır qəpik büdcə hesabına Şərifova Fatmaya 1957-ci il sentyabrın 31-də verilmişdir» (Maşallah bizim hökumətimizə ki, 720 manat sıfır-sıfır qəpiyi Abbas Mirzənin uşaqlarından əsirgəməyib! – Z.B.).

Bəlkə aidiyyəti olan təşkilatlar bu acı yazını oxuyandan sonra rəhmətlik Abbas Mirzənin anadan olmasının 100 illiyi haqda fikirləşərlər.

## ÜLVİ RƏCƏB ŞAŞIQZADƏ

İstintaq işi № 12493/169

1937-ci il iyulun 22-də Azərb. SSR XDİK-nın komissar müavini XDİK DTİ-nin 4-cü şöbəsinin müdiri Sinmana belə bir dərkənar göndərir:

«Yoldaş Sinman! Yadımdadır ki, Əli Kərimovun ifadələrində Şərifovun və Ülvinin adları çəkilir. Onlar təxirə salınmadan həbs edilməli və istintaqa cəlb olunmalıdırlar. Gerasımov».

Bu dərkənara əsasən Sinman belə bir arayış tərtib edir:

«Şaşıqzadə Ülvi Rəcəb Molla oğlu, 1901-ci ildə Batumda anadan olmuş, Azərbaycan SSR vətəndaşı, Azərbaycan Dram teatrının artisti.

İdarəmiz tərəfindən həbs olunmuş əksinqilabi burjua-millətçi təşkilatın üzvü Əli Kərimov göstərdi ki, Şaşıqzadə Ülvi Rəcəb əksinqilabi burjua-millətçi təşkilatın üzvüdür.

İzah edilənə əsasən Şaşıqzadə Rəcəbin həbs olunub Azərb. SSR CM-nin 72 və 73-cü maddələri ilə məsuliyyətə cəlb edilməsini zəruri hesab edirəm.

Sinmanın bu haqda qərarı 1937-ci il sentyabrın 15-də XDİK-nın komissar əvəzi Borşov tərəfindən təsdiq edilir.

Həmin qərar Ülvi Rəcəbə 1937-ci il sentyabrın 21-də elan olunur amma özünü 1425 №-li orderlə sentyabrın 15-də həbs edirlər. Həbs ediləndə Ülvidən 150 manat pul müsadirə edilir.

1937-ci il sentyabrın 20-də müstəntiq Petrunin Ülvi Rəcəbə aşağıdakı sualı verir: «Siz əksinqilabi burjua-millətçi təşkilatın üzvü olmağınızı boynunuza alırsınızmı?» Ülvi Rəcəbin cavabı: «Xeyr, bunu təsdiq etmirəm».

1937-ci il oktyabrın 4-də müttəhim Əli Xasbulat oğlu Kərimovla Şaşıqzadə Ülvi Rəcəbin üzləşdirilməsi keçirildi. Əli Kərimovun ifadəsindən sonra müstəntiq Zenkov Ülvi Rəcəbə belə sual verdi: «Siz Əli Kərimovun göstərdiyi ifadəni, yəni 1935-ci ildən onun əksinqilabi burjua-millətçi qrupuna daxil olmağınızı, Azərbaycanda əksinqilabi burjua-millətçi təşkilatın olmasını, bu təşkilatın məqsəd və hədəflərini, Azərbaycan K(b)P MK katibi yoldaş Bağırovun əleyhinə sui-qəsd hazırlanmasını və Azərbaycan Dövlət Dram teatrının əməkdaşları arasında əksinqilabi millətçi fəaliyyətinizi təsdiq edirsinizmi?» Cavab: «Əli Kərimovun ifadələrini qətiyyətlə rədd edirəm. Bunlar yalandır».

1937-ci il noyabrın 1-i və 2-də (fasiləsiz iki gün) müstəntiqlər Zıkov, Petrunin, Babayev və Oqanezov tərəfindən keçirilən dindirmədə Ülvi Rəcəb boynuna alır ki, onu təşkilata 1935-ci ildə Əli Kərimov cəlb edib.

Bundan sonra müstəntiqlər belə bir sual verdilər: «Əli Kərimov sizin qarşınıza nə kimi vəzifələr qoydu?»

Ülvinin cavabı: «Məni əksinqilabi millətçi təşkilata cəlb edəndən sonra Əli Kərimov qarşımda aşağıdakı vəzifələri qoydu:

1. Azərbaycan Dövlət Dram teatrının əməkdaşları arasında əksinqilabi millətçi təbliğat aparmaq;

2. Əksinqilabi burjua-millətçi təşkilata yeni üzvlər cəlb etmək;

3. Teatrın repertuarına ideoloji cəhətdən səbatsız və ziyanlı əsərləri yeritməyə imkan yaratmaq;

4. Ruhulla Axundovu Azərbaycan xalqının rəhbəri kimi şöhrətləndirmək».

Sual: «Əksinqilabi burjua-millətçi təşkilatın terrorçu göstərişləri haqqında sizə Əli Kərimov nə demişdi?». Cavab: «1936-cı ilin qışında Əli Kərimov mənə xəbər verdi ki, əksinqilabi burjua-millətçi təşkilatı Az. K(b) P MK katibi M.C.Bağırovun əleyhinə sui-qəsd hazırlayıb».

(M.C.Bağırov məhkəməsində ifadə verib ki, Azərbaycanda onun əleyhinə heç vaxt sui-qəsd hazırlanmayıb və bu ola da bilməzdi. Bu haqda yalançı uydurmalar Beriya, Mikoyan və Sumbatov-Topuridze tərəfindən yayılırdı – Z.B).

1937-ci il noyabrın 3-də Şaşıqzadə Ülvi Rəcəbin işi üzrə yeni bir qərar tərtib olunur:

«Mən, XDİK DTİ-nin I bölmə rəisi S.Zıkov Azərb. SSR CM-nin 72 və 73-cü mmaddələri ilə ittiham edilən Şaşıqzadə Ülvi Rəcəbin haqqında olan 12493 №-li istintaq işini nəzərdən keçirərək müəyyən etdim:

Müqəssir Şaşıqzadə Ülvi Rəcəb əksinqilabi burjua-millətçi təşkilatın üzvü olaraq Sovet hakimiyyəti əleyhinə silahlı üsyan mövqeyində dayanaraq, 1936-cı ildə Azərb. K(b)P MK katibi yoldaş Bağırovun əleyhinə hazırlanan sui-qəsd haqda xəbərdar idi; yəni o, Azərb. SSR CM–nin 73, 21 (64, 21) ,70-ci maddələri ilə təqsirləndirilən cinayətlər etmişdir.

Qərara aldım:

Müqəssir Şaşıqzadə Ülvi Rəcəbə Azərb. SSR CM-nin 72 və 73-cü maddələri ilə isnad edilən məsuliyyəti dəyişdirilib CM-nin 73, 21/64 və 21/70 –ci maddələrilə əvəz edilsin.

«Razıyam» – Sinman

«Təsdiq edirəm» – Borşov».

1937-ci il noyabrın 15-də keçirilən dindirmədə müstəntiq Ülvi Rəcəbə dedi: «Öz ifadələrinizi yekunlaşdırın». Ülvi Rəcəbin cavabı: «Mən boynuma alıram ki:

1. Mən əksinqilabi burjua-millətçi təşkilatın üzvü idim və bu təşkilata məni 1935-ci ildə onun fəal üzvü Əli Kərimov cəlb etmişdi.

2. Əksinqilabi burjua-millətçi təşkilatın Azərbaycanda burjua-millətçi dövlətin yaradılması üçün respublikada Sovet hakimiyyəti əleyhinə silahlı üsyan qaldırılması qərarı ilə tamamilə razı idim.

3. 1936-cı ildə Azərb. K(b)P MK katibi M.C.Bağırovun əleyhinə hazırlanan sui-qəsd haqda bilirdim.

4. Azərbaycan Dövlət Dram teatrında əksinqilabi burjua-millətçi təşkilatın üzvlərindən dörd nəfərdən ibarət əksinqilabi millətçi dəstənin olmağından xəbərdar idim.

5. Əli Kərimovun tapşırığı ilə 1935-1937-ci illərdə dram teatrının əməkdaşları arasında əksinqilabi millətçi təşviqat aparırdım.

6. 1935-ci ildə Bakıya qastrola gələn gürcü terrorçular Xorava və Vasadze ilə əksinqilabi əlaqə yaratdım. Bunlar Tiflisdə partiya və hökumət rəhbərlərinin əleyhinə sui-qəsd hazırlamaları haqda mənə xəbər verib, mənimlə Bakıdakı aktyorlar arasında terrorçuluq əhval-ruhiyyəsini yaymaq haqda sözləşdilər. Mən buna öz razılığımı verdim».

1937-ci il noyabrın 15-də Sinman Ülvi Rəcəbin işi üzrə ittihamnamə tərtib edir.

İttihamnamə XDİK komissarı Sumbatov tərəfindən təsdiq edilib.

1938-ci il yanvarın 2-də Bakıda SSRİ Ali Məhkəməsinin hərbi Kollegiyasının bağlı iclası keçirildi (sədr – Nikitçenko, üzvlər – İyevlev və Işenko). İclas saat 17:40 dəqiqədə açıldı.

"Özünüzü müqəssir hesab edirsinizmi" sualına Ülvi Rəcəb cavab verdi ki, o, özünü müqəssir hesab etmir. İbtidai istintaqda o, özünü qəfildən həbs olunmasının təsiri altında müqəssir bilib. O, həbsxanada qalmağı özünə mənasız hesab edib, ona görə də özünü etmədiyi cinayətdə müqəssir bildi. Müttəhimə son söz verildi, lakin o, heç bir şey demədi.

Hökm saat 18-də çıxarıldı (deməli, «məhkəmə» iclası cəmi 20 dəqiqə çəkdi! – Z.B.).

Hərbi Kollegiya Şaşıqzadə Ülvi Rəcəbi cinayət cəzasının ən yüksək dərəcəsinə – güllələnməyə məhkum etdi.

İşin 54-cü vərəqində olan arayışda deyilir ki, Şaşıqzadə Ülvi Rəcəbə təyin edilmiş hökm – güllələnmə Bakı şəhərində 1938-ci il yanvarın 2-də yerinə yetirilib. Hökmün yerinə yetirilməsi haqda akt SSRİ XDİK I Xüsusi şöbənin Xüsusi arxivində saxlanılır (8-ci cild, vərəqə 37).

1955-ci ildə Ülvi Rəcəbin bacıları – Altun və Nevrestan SSRİ Baş prokuroru Rudenkonun adına ərizə yazıb qardaşlarının taleyi haqda xəbər verməyi xahiş edirlər.

1955-ci ilin avqust ayında Azərbaycan Dövlət Dram teatrının direktoru Adil İsgəndərov Baş hərbi prokurorluğa Ülvi Rəcəb haqqında müsbət xasiyyətnamə göndərdi. Bundan başqa Ülvi Rəcəb haqqında həmin ünvana müsbət xasiyyətnamələrini xalq artistləri Mustafa Mərdanov, İsmayıl Dağıstanlı, Barat Şəkinskaya, Tağızadə və Mərziyə Davudova da göndərdilər.

1955-ci il oktyabrın 29-da Baş hərbi prokurorun müavini D.Terexov SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasına Ülvi Rəcəbin işi üzrə öz qərarını göndərdi.

Qərarda deyilir ki, Şaşıqzadə Ülvi Rəcəb haqqında çıxarılan hökm ləğv edilib onun işi xitam olunmalıdır.

1955-ci il noyabrın 19-da SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası özünün ÇN-013674 №-li qərarı ilə Hərbi Kollegiyanın 1938-ci il 2 yanvar tarixli Şaşıqzadə Ülvi Rəcəbin haqqındakı hökmünü ləğv edib işi xitam etdi.

1956-cı il iyunun 7-də Davudova Mərziyyə xanım Yusif qızına xəbər verilib ki, SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının 1955-ci il noyabrın 19-da çıxan qərarı ilə Şaşıqzadə Ülvi Rəcəbin hüququ özünə qaytarılmışdır.

## Hökm: "Cəmiyyətdən çıxarılmalı şəxslər"
## REPRESSİYA QURBANLARINDAN BİRİ, YAXUD BALASADIQ HÜRMÜZ OĞLU ZEYNALOVUN GÜNAHI NƏ İDİ?

1937-ci il dekabrın 5-də başlanan və həmin ayın 10-da bitən 8882 nömrəli cinayət işi üzrə istintaq sənədlərinin məzmunu belədir: «Üçüncü dərəcəli DT komissarı Sumbatov tərəfindən təsdiq olunmuş cəmiyyətdən kənar ediləsi şəxslərin siyahısından çıxarış:

Zeynalov Balasadıq Hürmüz oğlu: 50 yaşlı, keçmiş neft sənayesi sahibi, SSRİ vətəndaşı, bitərəf, müəyyən peşəsi olmayan, Balaxanı kənd sakini, 1927-ci ildə əksinqilabi müsavatçı fəaliyyətinə görə 8 il müddətinə konslagerdə qalmağa məhkum edilmişdir.

Müsavat Partiyasının üzvü olaraq Sovet hakimiyyəti əleyhinə fəal mübarizə aparıb və buna görə də 8 il müddətinə məhkum edilmişdir. Əhali arasında antisovet təşviqatı ilə məşğul olur, SSRİ-də fəhlə və kəndlilərin maddi-məişət vəziyyətinə və Sovet hakimiyyətinə əksinqilabi böhtanlar atır.

Düzdür: DTİ-nin 3-cü şöbəsi 7-ci bölməsinin rəisi, DT baş leytenantı Markaryan».

1937-ci il dekabrın 5-də 3181 nömrəli ordcrə əsasən Balasadıq Hümrüz oğlu Zeynalov həbs edilmişdir. Onun himayəsində arvadı Səfagül Xəlifəli qızı – 40 yaşlı və üç oğlu – 12 yaşlı Kərim, 4 yaşlı Fuad və 2 yaşlı Xalıq var idi. Anketdən məlum olur ki, Balasadıq dəmirçi olub, atası isə daş karxanasında işləyib.

İşin 5-ci vərəqi Balaxanı kəndinin müvəkkili adından verilən tarixsiz arayışdır. Arayışda yazılmışdır: «Balaxanı qəsəbəsinin sakini Zeynalov Balasadıq neft quyularının sahibi idi. Bundan başqa, fəal müsavatçıdır».

1937-ci il dekabrın 6-da şahid sifəti ilə dindirilmiş Balaxanı kənd sakini Novruzovun ifadələrindən:

Müstəntiq: «Balaxanı kənd sakini Zeynalov Balasadığın keçmişi haqda nə deyə bilərsiniz?». Cavab: «Zeynalov Balasadığı mən uşaqlıqdan tanıyıram. Keçmişdə o, neft sənayesi sahibi, istismarçı olub, səsi alınmışdı. Müsavat Partiyasının üzvü olaraq Sovet hakimiyyəti əleyhinə fəaliyyət göstərib və buna görə də 1927-ci ildə 8 il müddətinə məhkum olunub. Konslagerdən 1932-ci ildə qayıdıb». Sual: «Zeynalov Balasadığın antisovet fəaliyyəti haqda sizə nə məlumdur?». Cavab: «Konslagerdən qayıdıq-

dan sonra Zeynalov Balasadıq əhali arasında yenə də antisovet təşviqatı ilə məşğul idi. O, böhtan ataraq deyirdi ki, guya keçmişdə fəhlə və kəndlilər daha yaxşı yaşayırdılar. O, Stalin Konstitusiyasına böhtan atırdı, şayiələr yayırdı ki, guya Sovet hakimiyyəti tezliklə yıxılacaq. İndi də əhali arasında əksinqilabi millətçi təşviqat apararaq Türkiyə ilə İranı tərifləyir».

Yenə dekabrın 6-da Balaxanı kənd sakini Əliyev şahid kimi dindirilib ifadə vermişdir:

Sual: «Zeynalov Balasadıq Hürmüz oğlunu nə vaxtdan tanıyırsınız?». Cavab: «Mən onu 1919-cu ildən tanıyıram. Keçmişdə o, Müsavat Partiyasının üzvü olub. Sovet hakimiyyəti əleyhinə fəal işləyirdi və buna görə də 1927-ci ildə 8 il konslagerdə həbsdə idi. Əhali arasında antisovet təşviqatı ilə məşğul olub deyir ki, guya fəhlə və kəndlilər müsavat dövründə indikindən daha yaxşı yaşayırdılar. Kənddə o, antisovet ünsürləri ilə sıx təmasdadır, özü isə Sovet hakimiyyətinin qəddar düşmənidir».

Yenə dekabrın 6-da dindirilən Balaxanı kənd sakini Məmmədov göstərdi: «Zeynalov Balasadıq Hürmüz oğlu keçmişdə müsavatçı olub, onun neft quyuları var idi. O, parlamentin üzvü idi, Sovet hökuməti əleyhinə fəal mübarizə edirdi. O deyirdi ki, Sovet hökuməti tezliklə yıxılacaq faşistləri tərifləyirdi. Deyirdi ki, Stalin Konstitusiyası başdan-ayağa yalandır, boş-boş vədlərdir. O, partiya və dövlət rəhbərlərinə böhtan atırdı».

İnsanı məhv etmək üçün müstəntiqə bu üç «şahidin» ifadələrindən artıq daha nə lazım idi? Buna görə 1937-ci il dekabr ayının 8-də Zeynalovun birinci və sonuncu dindirilməsi belə keçdi:

Müstəntiq: «İstintaq müəyyən edib ki, siz keçmişdə neft sənayesi sahibi, istismarçı olmusunuz. Bunu boynunuza alırsınız?» Cavab: «Bu düz deyil. Mənim heç vaxt neft mədənim olmayıb və istismarçı da olmamışam. Mən həmişə dəmirçi olmuşam». Müstəntiq: «İstintaq dəqiq müəyyən edib ki, siz Müsavat Partiyasının üzvü olub, Sovet Hakimiyyətinin əleyhinə fəal mübarizə aparırdınız. Bunu boynunuza alırsınız?» Cavab: «Bəli, mən 1919-cu ildən 1927-ci ilədək Müsavat Partiyasının üzvü olub, Sovet hakimiyyətinin əleyhinə fəal mübarizə aparırdım». Sual: «İstintaq müəyyən edib ki, siz daim antisovet təşviqatı ilə məşğul idiniz. Bunu boynunuza alırsınız?» Cavab: «Xeyr, bu düz deyil. Doğrudur, 1927-ci ilə qədər mən antisovet təşviqatı ilə məşğul idim, amma konslagerdən qayıtdıqdan sonra mən tamamilə düzəlmişəm və antisovet təşviqatı ilə məşğul olmamışam». Müstəntiq: «İstintaq müəyyən edib ki, siz müsavatçı və istismarçı kimi sosi-

nizdən məhrum olunmusunuz. Bunu boynunuza alırsınız?» Cavab: «Xeyr, bu düz deyil, mənim heç vaxt səsim alınmayıb». Sual: «İstintaq müəyyən edib ki, konslagerdən Balaxanı kəndinə qayıtdıqdan sonra siz yenə də əhali arasında antisovet təşviqatı ilə məşğul idiniz. Bunu boynunuza alırsınız?» Cavab: «Xeyr, mən bunu inkar edirəm». Sual: «Siz yalan danışırsınız. Sizə şahidlər Məmmədovun və Novruzovun ifadələrini təqdim edirik, onlar isə təsdiq edirlər ki, siz daim əhali arasında antisovet təşviqatı ilə məşğul idiniz. Bu faktı təsdiq edirsiniz?» Cavab: «Mən bunları inkar edirəm. Bu iki nəfər mənə böhtan atır». Sual: «İstintaq müəyyən edib ki, siz parlamentin üzvü idiniz və parlamentdə Kommunist Partiyasının və Sovet hakimiyyətinin əleyhinə mübarizə aparırdınız. Bunu boynunuza alırsınız?» Cavab: «Bu düz deyil. Mən heç vaxt parlament üzvü olmamışam».

1937-ci il dekabrın 8-də və 9-da şahidlər Məmmədov və Novruzov ilə üzləşdiriləndə Balasadıq Zeynalov yenə də onun əleyhinə deyilənləri rədd etmişdir.

1937-ci il dekabrın 10-da Markaryan Zeynalovun istintaqını bitirib 8882 nömrəli işini Azərbaycan SSR XDİK Xüsusi Üçlüyünə təqdim edir.

Balasadıq Zeynalov özünü heç bir şeydə müqəssir bilməsə də, dekabrın 12-də Azərbaycan SSR XDİK Xüsusi Üçlüyü onun işi üzrə aşağıdakı qərarı çıxarır:

«Zeynalov Balasadıq Hürmüz oğlu – güllələnsin. Üçlüyün katibi – Koqan».

1937-ci il dekabrın 15-dən 16-na keçən gecə Balasadıq Zeynalov güllələnir (bu barədə işin 19-cu vərəqini təşkil edən güllələnmə aktından çıxarışda bəhs olunur).

1956-cı il iyul ayının 20-də Balasadıq Zeynalovun həyat yoldaşı Səfagül Məşədi Xəlifəli qızı ərizə yazıb xahiş edir ki, ərinin taleyi haqda xəbər versinlər.

Cavab verilir ki, onun əri Balasadıq Hürmüz oğlu Zeynalov 1937-ci ildə 10 il müddətinə həbsə məhkum olunub və 1939-cu il oktyabr ayının 15-də yatalaq xəstəliyindən vəfat edib.

1957-ci il oktyabrın 15-də Azərbaycan SSR prokurorluğunda Balasadıq Hürmüz oğlu Zeynalovun cinayət işinə yenidən baxılır.

1989-cu il avqustun 31-də Azərbaycan SSR Prokurorluğu SSRİ Ali Soveti Rəyasət heyətinin 16 yanvar 1989-cu il tarixli fərmanının birinci maddəsinə əsasən Balasadıq Hürmüz oğlu Zeynalova bəraət verilir və onun cinayət işi xətm olunur.

## XANIŞ RÜSTƏM OĞLU RÜSTƏMOV

1937-ci il sentyabrın 9-da başlanan və həmin ayın 20-də bitən 5959 nömrəli cinayət işinin birinci vərəqinin məzmunu belədir:

«Üçüncü dərəcəli komissar Sumbatov tərəfindən təsdiq edilmiş və cəmiyyətdən kənar ediləsi qolçomaqlar siyahısından

Çıxarış

Rüstəmov Xanış Rüstəm oğlu, 1892-ci ildə anadan olmuş, qolçomaq, Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndindən, 1930-cu ildə əksinqilabı fəaliyyətinə görə üç il müddətinə konslagerə sürgün edilmiş, 1934-cu ildə sürgündən qayıtmışdır. Onun haqqında

Xasiyyətnamə

1929-cu ilədək onun qolçomaq maldarlıq təsərrüfatı var idi və o, muzdurları istismar edirdi. Əksinqilabi müsavat təşkilatının üzvü idi. Mil düzündə üsyançı hərəkatın inkişafına kömək edirdi. Sürgündən qayıdıb Aşağı Maralyan kəndinin ittihadçıları Hacı Məhərrəm oğlu, Allahverdi və başqaları ilə sıx əlaqə yaratmışdır. Antisovet meyli var. 1936-cı ildə kolxozun hesabdarı olduğu vaxt kolxozun tövləsini yandırmaqda ondan şübhələnmişlər. 1936-cı ildə Böyük Mərcanlı kəndində kolxoz yaradılan zaman kolxoz əleyhinə təbliğat ilə məşğul idi.

Baş müvəkkil Valuyev».

1937-ci il sentyabrın 9-da həbs edilən Rüstəmov Xanışın həbs olunması haqda 36 nömrəli order sentyabrın 11-də verilmişdir. Ayın 15-də Rüstəmovun evində axtarış aparılan zaman orada heç bir şey tapılmamışdır.

Rüstəmovun həbs anketindən çıxarış: 1930-cu il fevralın 5-də «kolxoz əleyhinə təbliğata görə» həbs edilmiş və 1932-ci il fevralın 20-də Azərbaycan Dövlət Siyasi İdarəsinin (QPU) Kollegiyası tərəfindən Azərbaycan SSR CM-nin 72 və 73-cü maddələri ilə üç il azadlıqdan məhrum edilib konslagerə göndərilmişdir. 1932-ci il noyabrın 12-də həbsdən azad olunub. 100 yaşlı atası Rüstəm, 80 yaşlı anası Gülxanım, iki arvadı – Tutu Atakişi qızı və Bilqeyis Zalı qızı, yeddi oğlu və iki qızı var. İki inəyi, bir atı, bir öküzü və bir hektar torpağı var.

1937-ci il sentyabrın 16-da dindirilmiş, Böyük Mərcanlı kənd Sovetinin katibi Məmmədov Uğurlu Nəsir oğlunun ifadəsindən (anketə görə o, kasıb kəndli hesab olunur və himayəsində atası, anası, arvadı və bir qızı var. Təsərrüfatında iki inək, bir atı, bir öküzü və on beş qoyunu var).

Müstəntiq: «Vətəndaş Məmmədov, siz Xanış Rüstəm oğlunun əksinqilabi fəaliyyəti haqda nə deyə bilərsiniz? Bu barədə sizə məlum olan faktları deyin. Uğurlu: 1920-ci ildən 1936-cı ilədək Xanış Müsavat partiyasının üzvü idi. Bunu mən 1926-cı ildə bilmişəm. O vaxt İrandan Məşədi Qasım Məmmədqulu oğlu adlı bir molla gəldi və Xanışın qohumuna bir siyahı verdi ki, orada Xanışın adı da var idi. Qız bisavad olduğu üçün həmin siyahını Mərcanlı kənd Sovetinin sədri Əmirova verdi, o da onu Karyagin rayonuna DSİ-nə apardı. 1927-ci ildən 1930-cu ilədək Xanış Rüstəm oğlu Mərcanlı quldur dəstəsinin fəal üzvü idi, qarət və qətllərdə iştirak edirdi. Məsələn, bu dəstə 1935-ci ildə Əhmədli kəndinə basqın edərək kooperativi qarət etdi. Elə orada da atışma oldu, ancaq kim öldü, kim yaralandı, deyə bilmərəm. Yadımdadır, bir at vuruldu, birini də apardılar. Yenə də 1930-cu il, təxminən sentyabr ayında bu quldur dəstəsi Xanışla birlikdə milislə atışdı, milis rəisi Əli Əliyev öldürüldü. Milis nəfəri Qardaşxan isə yaralandı. Sual: Deyin görək, Xanış Rüstəm oğlu Sovet hökumətinin və kolxozların əleyhinə konkret olaraq nə deyirdi? Cavab: 1937-ci ildə Xanış iclasda, traktorla torpağı şumlama məsələsinin müzakirəsində bunun əleyhinə çıxış etdi: «Mən deyirəm ki, bizə traktor lazım deyil. Onların istifadəsi üçün pul verməliyik, onlara yanacaq lazımdır və biz də taxıl verməliyik» və təklif etdi ki, şumlama kəl və öküzlə aparılsın. Belə bir hadisə də olub: kolxozda yanğın baş verdi, tövlə yandı və dörd baş kolxoz malı tələf oldu. Bu malı həmin tövləyə Xanış saldırmışdı. 1937-ci ildə Xanış kolxozda süd ferması təşkil olunanda bunun əleyhinə çıxdı və dedi ki, bu ferma bütün mal-qaramızı alacaq, bizi südsüz qoyacaqlar və indi heç bir alver yoxdur və heç bir şey ala bilmirsən. Sual: Deyin görək, Xanış Rüstəmovun ictimai vəziyyəti necədir və onun təsərrüfatında nəyi var idi? Cavab: O, həmişə qolçomaq olub, onun təsərrüfatında daim muzdurlar işləyib və o, çoxlu vergi verirdi».

1937-ci il sentyabrın 15-də və 17-də şahid sifətilə dindirilən Mərcanlı kənd Sovetinin sədri Əlikərəmov Mamed Şahkərim oğlu və Böyük Mərcanlı kolxozunun briqadiri Əliyev Kəray (işdə Karay kimi gedir Z.B.) Təhməz oğlunun ifadələri də Məmmədov Uğurlunun dediklərinə uyğundur.

1937-ci il sentyabrın 17-də Xanış Rüstəm oğlunun dindirilməsi:

Sual: «Vətəndaş Rüstəmov, deyin görək, siz müsavat firqəsinə üzv olmusunuzmu? İrandan gələn Molla Məşədi kim idi? Bu əhvalat 1926-cı ildə olub. O, bir siyahı da gətirib sizin qız qohumunuza vermişdi. Cavab: Mənim heç bir qız qohumum yoxdur, mən heç bir molla tanımıram və

Müsavat firqəsində olmamışam. Sual: Deyin, vətəndaş Rüstəmov, 1930-cu ildə siz Mərcanlı quldur dəstəsi ilə birlikdə kooperativin qarətində iştirak edib nə aparmısınız və sizinlə birlikdə bu qarətdə kim iştirak edib? Cavab: Mən quldur dəstəsində heç vaxt olmamışam və qarətdə iştirak etməmişəm. Mərcanlıda isə mənim həbsimə qədər heç bir quldur dəstəsi olmayıb. Sual: Siz Xıdırı tanıyırsınızmı və onunla neçə vaxt bir yerdə olmusunuz? Cavab: Mən Xıdırı tanımıram və heç vaxt tanımamışam. Sual: Cəbrayıl rayonunun milis rəisi Əli Əliyevi kim və nə zaman öldürüb, milis nəfəri Qardaşxanı kim yaralayıb və sizin bu işdə nə kimi iştirakınız olub? Cavab: Mən bu adda milis rəisi tanımıram. Qardaşxanı tanımıram və onun öldürülməsi haqda heç bir şey deyə bilmərəm. Sual: Deyin görək, siz kolxoz iclasında traktorların əleyhinə çıxış edib onlar üçün çoxlu pul vermək haqda danışmısızmı? Cavab: Belə bir iclas ki, orada traktorların cəlb edilməsi məsələsi müzakirə edilsin, bizim kolxozda olmayıb. Sual: Sizə verdiyim suallarda deyilənlərin hansında özünüzü müqəssir bilirsiniz? Yoxsa siz ümumiyyətlə, özünüzü müqəssir hesab etmirsiniz? Cavab: Mən heç bir şeydə özümü müqəssir saymıram. Sual: Deyin görək, sizin təsərrüfatınız qolçomaq təsərrüfatıydımı və sizi muzdurları istismar edən qolçomaq kimi səsdən nə vaxt məhrum ediblər? Cavab: Mənim heç vaxt muzdurum olmayıb, təsərrüfatım qolçomaq təsərrüfatı deyildi və səsdən də məhrum olunmamışdım».

Bütün bunlara baxmayaraq mən belə fikirdəyəm ki, Xanış Rüstəm oğlu ilə kimsə Böyük Mərcanlı kəndində haqq-hesab çürütmək istəyirdi. Çünki işin 6-cı vərəqində Mərcanlı kənd Sovetinin 18 sentyabr 1937-ci il tarixli, 146-18 nömrəli arayışı var. Orada deyilir:

«Verilir ondan ötrü ki, Cəbrayıl rayonu Böyük Mərcanlı kənd sakini Xanış Rüstəm oğlu ictimai vəziyyətinə görə qolçomaqdır və 1928-ci ildən 1933-cü ilədək, yəni həbsdən azad olunmasınadək seçki hüququndan məhrum olunub. 1933-cü ildən öz fərdi təsərrüfatında çalışmış, 1936-cı ildə kolxoza daxil olmuşdur.

Mərcanlı kənd Sovetinin sədri Əmirov Nəcəfqulu;

K/s katibi Məmmədov Uğurlu».

1937-ci il, sentyabrın 20-də:

«1930-cu ildə Azərbaycan SSR CM-nin 72 və 73-cü maddələri ilə üç il müddətinə məhkum olunmuş Xanış Rüstəm oğlu Rüstəmovun işi üzrə ittihamnamə:

Nəzərə alaraq ki, Xanış Rüstəm oğlu 1933-cü ildə konslagerdən qayıdaraq Sovet hakimiyyəti və kolxoz quruculuğuna qarşı düşmən mövqeyində qalıb, əvvəlki kimi antisovet fəaliyyəti ilə məşğuldur, yəni:

a) 1937-ci ildə kolxozçular iclasında şumlamaya traktorları cəlbetmə məsələsi müzakirə ediləndə o dedi: «Bizə traktor lazım deyil, onlar üçün çoxlu pul verməк gərəkdir, onlara yanacaq lazımdır. Öküzlərlə şumlasaq, daha yaxşı olar». Bununla o, kolxozun məhsuldarlığını sarsıtmaq istəyirdi;

b) kolxozda süd fermasının təşkilinin əleyhinə idi və deyirdi: «Bütün mal-qaramızı alıb, kəndliləri malsız qoyacaqlar»;

c)1927-ci ildən 1930-cu ildə həbsə alınana qədər quldur dəstəsinin fəal üzvü olub, dəfələrlə milislə atışmalarda və dinc əhalinin qarətində iştirak edib. Atışmaların birində milis rəisi Əli Əliyev öldürülmüşdür

Xanış Rüstəmovun cinayəti sübut olunur. Müttəhim özünü müqəssir bilmədi.

Xanış Rüstəmovun 5959 nömrəli cinayət işi Azərbaycan SSR DİK Fövqəladə Üçlüyün sərəncamına verilsin.

Müvəkkil – Zaxarov.

«Razıyam» – müvəkkillər qrupunun rəisi – Lisin».

İşin 24-cü vərəqində olan Azərbaycan SSR DİK Fövqəladə Üçlüyünün 1937-ci il 22 sentyabr tarixli 16 nömrəli protokolundan çıxarış:

«Qərara gəldik: Rüstəmov Xanış Rüstəm oğlunu islah əmək düşərgəsinə on il müddətinə həbs və siyasi hüquqdan beş il müddətinə məhrum etmək.

Üçlüyün katibi – Koqan».

1938-ci il yanvarın 24-də Seqeja düşərgəsində olan məhbus Rüstəmov Xanış SSRİ Xalq Daxili İşlər komissarı Yejova şikayət yazır və göstərir ki, ona isnad olunan cinayətlərin heç birində onun təqsiri yoxdur. Martın 31-də Seqeja konslagerinin rəisi Yejovun adına Xanış Rüstəmov haqda təqdim etdiyi xasiyyətnamədə yazır ki, o yerqazandır, normasını yerinə yetirmir, özünü pis aparır, mədəni dərnəklərdə iştirak etmir

1940-cı il aprelin 13-də Xanış Rüstəmovun şikayətinə əsasən işinə yenidən baxılması Azərbaycan xalqının cəlladlarından birinə, serjant A.Avanesova tapşırılır. Kənddən tələb etdiyi arayışda aşağıdakılar yazılıb (vərəqə 31):

«Arayış Mərcanlı kənd Soveti tərəfindən verildi. Böyük Mərcanlı kənd sakini Rüstəmov Xanış Rüstəm oğluna və ondan ötrü ki, səsi alınmış, bir

neçə dəfə həbs olunmuş, hal-hazırda sürgündədir (1937-ci ildən). Ona görə arayış verilib təsdiq olundu.

Mərcanlı kənd 3. d. s. sədri – Mamedov.

Katib – Süleymanov.

30 aprel 1940, № 50».

Avanesov 1940-cı il iyunun 5-də şahid sifətilə Mamedov Uğurlu və Əliyev Karayı yenidən dindirir və hər ikisi özlərinin birinci ifadələrini təsdiq edirlər. İyunun 7-də Avanesov belə qərar çıxarır: «Rüstəmov Xanış Rüstəm oğlunun məhkum edilməsini düzgün hesab edirəm. Onun əksinqilabi və antisovet fəaliyyəti təsdiq olunur. Milis rəisinin öldürülməsində isə o iştirak etməyib. Onun bəraət şikayəti rədd edilsin».

1940-cı il iyunun 25-də Azərbaycan SSR Xalq Daxili İşlər Komissarı Yemelyanov həmin qərarı təsdiq edir və iyulun 16-da Altay konslagerlərinin rəisinə xəbər verilir ki, Xanış Rüstəmovun şikayəti rədd edilir.

1958-ci il oktyabrın 8-də Xanış Rüstəmovun oğlu İsmətin ərizəsi əsasında Cəbrayıl rayonu DTK müvəkkili Ələkbərov Mamedov Uğurlu Nəsir oğlunu yenidən dindirir. Uğurlu Nəsir oğlu göstərdi: «Mən yalnız Xanışın traktorlar haqda dediyi sözlərini təsdiq edirəm. Onun quldur dəstəsinin üzvü olması haqda mənə heç bir şey məlum deyil, eləcə də onun antisovet və antikolxoz təbliğatı haqda. Mən rus dilini bilmirəm və Avanesov məni aldadıb qol çəkdirib. Buna görə ifadələrimin çoxundan imtina edirəm».

Oktyabrın 24-də dindirilən Böyük Mərcanlı kənd sakini Quliyev Naib Əli Cəfərqulu oğlu göstərdi ki, həbsdə olan Xanış Rüstəm oğlu quldur dəstəsində ola bilməzdi. Rüstəmovun heç vaxt muzdurları olmayıb və öz təsərrüfatında o, özü işləyirdi. Rüstəmov Xanışdan o, heç vaxt antisovet və antikolxoz söhbətləri eşitməmişdir. Həmin gün kəndin sakini Nurməmmədov Pirməmməd Eyvaz oğlu da eyni cür ifadə verdi. Keçmiş milis nəfəri Mustafayev Qardaşxan Cəlal oğlu göstərdi ki, yara aldığım atışmada mən Xanış Rüstəmovu görməmişdim və onun bu atışmada iştirakı haqda eşitməmişəm.

1958-ci il dekabrın 20-də Azərbaycan SSR prokurorunun müavini Qasımbəyov Xanış Rüstəm oğlunun işinə yenidən baxıb Azərbaycan SSR Ali Məhkəməsinə aşağıdakı etirazını bildirir:

«Xahiş edirəm Rüstəmov Xanış Rüstəm oğlu haqda 1937-ci il sentyabrın 22-də Fövqəladə Üçlüyün qərarını ləğv edib, onun işinə xitam verəsiniz, çünki ittihamı sübut olunmayıb».

1959-cu il iyunun 26-da Azərbaycan SSR Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyası qərara gəldi: Azərbaycan SSR DİK Fövqəladə Üçlüyünün Rüstəmov Xanış Rüstəm oğlu haqda 1937-ci il sentyabrın 22-də qəbul etdiyi qərarı ləğv edilib, onun cinayət işi isə xətm olunsun».

Oxucular özləri nəticə çıxara bilərlər ki, Xanış Rüstəm oğlu Rüstəmovun istintaq işi başdan-başa uydurmadır, qərəzlidir. Əbəs yerə Xanış Rüstəm oğlunun ömrü həbs düşərgələrində çürüyüb getdi. Allah ona rəhmət eləsin!

## YOLÇU ŞÜKÜRƏLİ OĞLU FƏRZƏLİYEV

1937-ci il sentyabrın 9-da başlanan və həmin ayın 20-də bitən 5961 nömrəli cinayət işinin birinci vərəqinin məzmunu belədir:

«Üçüncü dərəcəli komissar Sumbatovun tərəfindən təsdiq edilmiş və cəmiyyətdən kənar ediləsi qolçomaqlar siyahısından

Çıxarış

Yolçu Şükürəli oğlu: 46 yaşlı, keçmiş qolçomaq. bitərəf. tək təsərrüfatçı maldar, 1930-cu ildə üsyanda iştirakına görə beş il müddətinə mühakimə olunmuş, sürgündən 1934-cü ildə qayıtmış, haqqında

Xasiyyətnamə

Keçmişdə qolçomaq olub, 1929-cu ildə qolçomaqlıqdan salınıb. Əksinqilabi Müsavat təşkilatının üzvü olub. 1930-cu ilin üsyanında iştirak edib. Vuruşmada sol ayağından yaralanıb. 1936-cı ildə Böyük Mərcanlı kəndində kolxoz təşkilinin əleyhinə çıxış edib. Kolxoza zidd fəaliyyətlə məşğuldur».

Yolçu Fərzəliyev 1937-ci il avqustun 8-də XDİK-nın 38 №-li orderinə əsasən həbs olunub. Sentyabrın 2-də milis nəfəri Məmmədəli Əliyev və sentyabrın 6-da ikinci dəfə milis nəfəri Murtuza Yaqub oğlu tərəfindən Yolçunun evində axtarış aparılıb. Birinci dəfə «heç bir şey müsadirə olunmadı», ikinci dəfə isə «axtarış zamanı bir cib bıçağı və bir toqqa tapılır».

Yolçunun himayəsində 60 yaşlı Fərhi Qarahəsən qızı adlı arvadı, 12 yaşlı oğlu Malçı, 7 yaşlı qızı Vəzifə, 5 yaşlı qızı Şəfiqə, 1 yaşlı qızı Gözəl, qardaşı Qara və əmisi oğlu Baba var idi.

İşin 6-cı vərəqi 13.09.37-ci il tarixli və 141/18 №-li Böyük Mərcanlı kənd sovetinin arayışıdır: «Verilir həmin arayış Böyük Mərcanlı kənd

soveti tərəfindən ondan ötrü ki, Böyük Mərcanlı kənd sakini Yolçu Şükür oğlu həqiqətən qolçomaq olub, səsindən məhrum edilmişdir və siyasi məhbus olub. İndiki zamanda fərdi təsərrüfatçıdır.

Kənd sovetinin sədri – Məmmədov

K/s katibi – Məmmədov»

İşin 7-ci vərəqi; «Zaqafqaziya Dövlət Siyasi İdarəsinin 1930-cu il 22 iyul tarixli məhkəmə iclasının protokolundan

Çıxarış

Eşidildi: Yolçu Şükürəli oğlu, 57 yaşlı, Böyük Mərcanlı kənd sakini, bisavad, bitərəf, kəndli, qolçomağın Azərb. SSR CM-nin 73 və 79-cu maddələri ilə 9592 №-li cinayət işi. Azərb. DSİ Kollegiyasının qərarı ilə 5 il həbs düşərgəsində saxlanılmağa məhkum edilib. Həbs müddəti 1930-cu il fevralın 20-dən hesab olunsun. 1930-cu il 13 aprel tarixli Azərb. MİK-in əfvi tətbiq olunmasın. Əmlakı müsadirə edilsin.

Qərara alındı: Yolçu Şükürəli oğlu beş il müddətinə həbs düşərgəsinə göndərilsin. Əfv tətbiq olunmasın»

1937-ci il sentyabrın 10-da Yolçu Şükürəli oğlunun işi üzrə şahid sifətilə Böyük Mərcanlı kənd sakinləri – Uğurlu Nəsir oğlu Məmmədov (k/s katibi), Soltan Hüseyn oğlu Niftəliyev (kolxoz sədri) və Məmməd Şahkərim Əlikərimov (k/s sədri) dindirilmişlər. Hər üçü göstərdi ki, onlar Yolçu Şükürəli oğlu Fərzəliyevi yaxşı tanıyırlar. O, antisovet ruhlu olub, Sovet hakimiyyətindən narazı idi. Keçmişdə qolçomaq olub muzdur saxlayırdı və 1930-cu ilə qədər özgə əməyini istismar edirdi. O, sərhədçilərlə döyüşdə iştirak edib, sol ayağından yaralanmışdı. Həbsini çəkəndən sonra evə qayıdır və yenidən kolxoz əleyhinə təşviqat apararaq deyirdi ki, kolxozda heç bir fayda yoxdur və fərdi təsərrüfatçı kimi yaşamaq daha yaxşıdır. Onun təşviqinə görə kəndlilər kolxoza girmirdilər. O deyirdi ki, istiqraz aldatmadır, çünki pulun yerinə camaata boş kağız verirlər.

1937-ci il sentyabrın 12-də Yolçu Şükürəli oğlu Fərzəliyev haqda müstəntiqin yazdığı anketdən: Yolçu Şükürəli oğlu, 60 yaşlı, Böyük Mərcanlı kənd sakini, bisavad, sol ayağı kəsilib, kəndli, bir evi, 7 qoyunu, bir atı və bir inəyi var idi. Quldur dəstələrində olmayıb.

Müstəntiq: «Vətəndaş Yolçu, söyləyin görək siz Azərbaycanın sovetləşməsindən əvvəl və sonra nə kimi təsərrüfata malik idiniz?». Yolçu: «Azərbaycanın sovetləşməsindən əvvəl mənim təsərrüfatımda 60 qoyun, bir at, bir inək və bir eşşək var idi. Sovetləşmədən sonra yüz qoyunum, bir

davam, bir inayim, bir öküzüm, bir atım va bir eşşayim var idi». Müstantiq: «1930-cu ilda Az. DSİ kollegiyası sizi naya göra beş il müddətinə məhkum edib?» Yolçu: «1930-cu ilda man Mil düzünda köçdə idim. Mənimlə birlikdə həmkəndlilərim Azad Fərəc oğlu (hazırda sürgündədir) və Xıdır Qolay oğlu (1934-cü ildə sürgündə vəfat edib) da var idilər. Bizim köçün yanından sərhədçilər keçirdi və Azadla Xıdır onlara atəş açdılar. Sərhədçilər onların hər ikisini əllərində silah tutdular. Bundan sonra bir sərhədçi gəlib məni də tutdu ki, guya mən də atışmada iştirak etmişəm. Məni Bakıya aparıb beş il müddətinə məhkum etdilər». Müstəntiq: «Yolçu, danışın görək, siz sürgündən qayıdarkən kolxoza daxil olubsunuzmu və əgər yox, deyin: nə üçün?» Yolçu: «Mən 1935-ci ildə sürgündən Mərcanlıya qayıtdım. Kolxoza ona görə girmədim ki, mən əlil kimi işləyə bilmirdim. İndi mənim təsərrüfatımda 30 qoyun, bir dəvə, bir inək, bir at və bir eşşək var. Daha heç bir şeyim yoxdur». Müstəntiq: «Deyin görək, siz 1935-ci ildə Böyük Mərcanlı kənd sakinləri arasında kolxoz quruculuğu haqda nə kimi söhbətlər aparırdınız?» Yolçu: «1935-ci ildə mən Böyük Mərcanlı kəndinin kolxozçuları ilə heç bir danışıq aparmamışam». Müstəntiq: «Siz Böyük Mərcanlı kənd sakinləri arasında demişsiniz ki, kolxozda heç bir şey yoxdur və fərdi təsərrüfatçı kimi yaşamaq daha yaxşıdır. Bunun nəticəsində 1935-36-cı illərdə kolxozdan 8 təsərrüfat çıxmışdır». Cavab: «Mən heç kəsə bir söz deməmişəm və bu təsərrüfatlar haqda da bir şey bilmirəm». Müstəntiq: «Deyiniz görək, siz 1937-ci ildə «Vətən müdafiəsini möhkəmlətmə» istiqrazına neçə manatlığa yazılmısınız? Cavab: «Mən 240 manata yazılmışam». Müstəntiq: «Bu istiqraza yazılış kampaniyası zamanı siz Bazarçay ətrafındakı yaylaqda demisiniz ki, biz hər il istiqraza yazılırıq. Sovet hökuməti kəndlilərdən pul yığır, əvəzinə də heç bir qiyməti olmayan boş kağız verir». Cavab: «Mən bunu deməmişəm». Müstəntiq: «Söyləyiniz, sizin əvvəllər neçə muzdurunuz olub?» Cavab: «Mənim heç vaxt muzdurum olmayıb».

Bununla da Yolçu Şükürəli oğlunun dindirilməsi bitdi. Üç rəsmi şəxsin Yolçu haqda verdikləri ifadələr əsasında 1937-ci il sentyabrın 24-də leytenant Səfərov aşağıdakı qərarı çıxarır:

«Fərzəliyev Yolçu Şükürəli oğlu: 60 yaşlı, sabiq qolçomaq quldur, hal-hazırda fərdi təsərrüfatçı, əlil, bisavad, 1930-cu ildə quldurluq fəaliyyətinə görə mühakimə olunub.

Yolçu Şükürəli oğlu Fərzəliyev 1935-ci ildə sürgündən qayıdıb Sovet hökumətinə və kolxoz quruculuğuna qarşı düşmən ünsürü olub, əvvəlki kimi kolxozlara zidd təşviqat aparır və bu da aşağıdakılardan müəyyən edilir:

a) 1937-ci ildə «Vətən müdafiəsini möhkəmlətmə» istiqrazına yazılış kampaniyası vaxtında kəndlilər arasında yaylaqda deyib: «Dövlət kəndlilərdən pul alır, kəndlilərə isə qiyməti olmayan kağız verir və bunlarla kəndlilər heç vaxt bir şey udmayır» ki, bununla da siyasi kampaniyanın gedişatına mane olurdu;

b) 1936-cı ildə bir qrup kəndlilər arasında deyib: «Fərdi təsərrüfatçı kimi yaşamaq daha yaxşıdır, nəinki kolxozda, çünki tək olanda azadsan hara istəyirsən, oraya da gedirsən». Onun bu təşviqinə görə kolxozdan 8 təsərrüfat çıxmışdır.

Yazılanlara və üç şahidin ifadələrinə əsasən Yolçu Şükürəli oğlu Fərzəliyev özünü müqəssir bilmədi».

Vəssalam! Fərzəliyevin bircə dəfə (!) dindirilməsi və Böyük Mərcanlı kəndinin vəzifəli şəxslərinin ifadələri Yolçunun müqəddəratını həll etmək üçün kifayət imiş!

İşin 23-cü vərəqi: Azərbaycan XDİK Xüsusi Üçlüyünün 1937-ci il 23 sentyabr tarixli protokolundan çıxarış:

Eşidildi: 5961 nömrəli istintaq işi. Yolçu Şükürəli oğlu Fərzəliyev, keçmişdə qolçomaq, təqsirləndirilir ondan ötrü ki, o, SSRİ Müdafiə istiqrazının əleyhinə əksinqilabi təşviqat aparıb, kəndlilərin kolxozlara daxil olmasının və onların kolxozlardan çıxması üçün təşviqat aparıb ki, bunun nəticəsində kəndlilər kolxozlardan çıxırdılar.

Qərara alındı: Yolçu Şükürəli oğlu Fərzəliyev, 60 yaşlı – güllələnsin, mülkü müsadirə olunsun. Üçlüyün katibi – Koqan».

1956-cı il fevralın 29-da Fərzəliyev Yolçunun oğlu Malçı Yolçu oğlu Həsənov Azərb. SSR prokuroru Babayevə ərizə yazır və xahiş edir ki, atası haqqında geniş tədqiqat aparılsın, çünki atası nahaq tutulub və bu, sübut olunacaq.

1957-ci il mayın 16-da Karyagin r-n prokurorunun əvəzi N.Əhmədov Böyük Mərcanlı kənd sakinlərinin bir neçəsini dindirdi və onlar Yolçu haqda belə göstərdilər:

1) Rəhimov Qara Həsən oğlu: «Yolçu heç zaman kolxozu pisləməmiş və onun nökərləri olmayıb».

2) Yaqubov Şahhüseyn Yusif oğlu: «Yolçu Sovet quruluşuna qarşı təbliğat apara bilməzdi. O, pis adam olmamışdı, öz əlinin əməyi ilə məşğul olmuşdur».

3) Xəlilov Osman Məhəmməd oğlu: «Sovet hakimiyyəti əleyhinə təbliğat aparmasını görməmişəm. Başqalarının kolxoza daxil olmasına mane olmasını görməmişəm».

4) Məmmədov Uğurlu Nəsir oğlu: «10 sentyabr 1937-ci ildə verdiyim ifadəmi təsdiq etmirəm. Oradakı sözləri mən deməmişəm, imza da mənim deyildir. Yolçunun üç qardaşı var idi, onları da o saxlayırdı. Sovet quruluşu və kolxoz əleyhinə danışmağını eşitməmişəm. Həsrət və Baba Yolçunun əmisi oğlanları olub, nökərləri yox. Yolçunun səsi alınmamışdır, kulak olmamışdır»...

Yalnız Niftəliyev Soltan Hüseyn oğlu öz ifadələrini təsdiq etdi: «1937-ci il sentyabrın 10-da verdiyim ifadəmi və üzləşməmi təsdiq edirəm. Həsrət Yolçunun qoyunotaranı olub. Yolçunun səsi alınmışdı: Həsrəti muzdur tutduğuna görə; həm də Yolçu kulak idi».

1957-ci il mayın 20-də prokuror İ.Əhmədovun rəyindən çıxarış: «Dindirilmiş şahidlərdən yalnız Niftəliyev Soltan 10.09.1937-ci il tarixli ifadəsini təsdiq etmişdir və yalnız onun ifadəsinə inanmaq olmaz. Fərzəliyev Yolçu Şükürəli oğlu əsassız həbs edilərək, qanunsuz olaraq güllələnməyə məhkum edilmişdir».

1957-ci il sentyabrın 28-də Az. SSR Ali məhkəməsinin Cinayət üzrə məhkəmə kollegiyası qərara alır:

«Azərb. SSR XDİK-nın nəzdindəki Üçlüyün 22 sentyabr 1937-ci il tarixli Fərzəliyev Yolçu Şükürəli oğlu haqqında olan qərarı ləğv edilib, işin icrasına sübuta yetmədiyinə görə xitam verilsin».

Beləliklə, kiminsə fitvasına və ölkədə (xüsusən Azərbaycanda) uzun illər qanunsuz fəaliyyətdə olan uç nəfərin (Üçlüyün) özbaşınalığına görə minlərlə heç bir təqsiri olmayan vətəndaşların arasında Yolçu Şükürəli oğlu Fərzəliyev də güllələnib məhv edilmişdir. Yolçunun yaxın adamları 40 il gözləməli oldular və nəhayət həqiqət üzə çıxdı. Əfsus ki, Yolçunun işində onun heç şəkli də tapılmadı ki, oxucular onun üzünü görəydi. Allah ona da rəhmət eləsin!

## BABA CAVAD OĞLU İBRAHİMOV

Babanın «cinayət» işinin birinci vərəqinin məzmunu: «(Sərhəd) dəstəsinə aid olan sərhədboyu sahədən çıxarılması vacib olan əksinqilabi qolçomaq ünsürlərin siyahısından çıxarış:

İbrahimov Baba Cavad oğlu, 43 yaşlı, səsdən məhrum olunmuş keçmiş qolçomaq, kolxozçu, Cəbrayıl rayonunun Böyük Mərcanlı kənd sakini. 1933-cü ildə bir il müddətinə həbs olunub.

Quldurların fəal köməkçisi, 1928-ci ildən 1934-cü ilədək Əhmədovlar quldur dəstəsi üzvlərinin gizlədilməsi ilə məşğul olmuş və onlara (İrandan) Sovet tərəfinə keçib quldurluqla məşğul olduqları zaman kömək etmişdir. Onun doğma qardaşı Davud Cavad oğlu silahlı üsyan qaldırdığına görə 1921-ci ildə güllələnib. İkinci qardaşı Heydər Cavad oğlu əksinqilabi fəaliyyətinə görə 1932-ci ildə Azərbaycan DSİ (QPU) tərəfindən cəmiyyətdən kənar edilib məhkum olunmuşdur.

İbrahimov Baba Cavad oğlu hazırda kolxozun dağılması və keçirilən tədbirlərin pozulması üçün kolxozda antisovet təşviqatı ilə məşğuldur.

Dəstənin rəisi-katibi – Qrednev

Qərargah rəisi-katibi – Madera

Siyahı Azərb. SSR XDİK tərəfindən təsdiq olunub» (görəsən, Sumbatovun təsdiq etdiyi və cəmiyyətdən kənar ediləsi «qolçomaqlar siyahısını» kim hazırlayıb və bu siyahıda nə qədər vətəndaşlarımızın adı var? – Z.B.)

1938-ci il martın birində 32 №-li order əsasında İbrahimov Baba həbs olundu. Bundan qabaq, fevralın 28-də Niftəliyev Abbasqulunun iştirakıyla aparılan axtarışda «İbrahimov Babanın evində heç bir şey tapılmadı».

İbrahimov Babanın anketindən çıxarış: 1893-cü ildə Böyük Mərcanlı kəndində anadan olub, kəndli, qolçomaq. Həyat yoldaşı Allahyetər Bayram qızıdır, 15 yaşlı oğlu İsmayıl, 9 yaşlı oğlu İbrahim və 6 yaşlı oğlu Musa vardır.

İşin 7-ci vərəqi: 17/18 nömrəli 2 mart 1938-ci il tarixli Böyük Mərcanlı kənd sovetinin arayışından:

«Cəbrayıl rayonunun Böyük Mərcanlı kənd sakini İbrahimov Baba Cavad oğlu kəndli qolçomaq ailəsindəndir. Özü keçmişdə qolçomaq olub. 1929-cu ildən 1934-cü ilədək səsindən məhrum edilmişdir. Üzərinə 12 mindən 15 minədək vergi qoyulmuşdu. 1921-ci ildə onun qardaşı Davud Cavad oğlu Sovet hökumətinin əleyhinə müsavat dəstəsinin təşkilinə görə

güllələnmişdir. İkinci qardaşı Heydər Cavad oğlu müsavatçı kimi 1932-ci ildə həbs edilib və indiyə qədər qayıtmamışdır. Üçüncü qardaşı İbad Cavad oğlu 1930-cu ildən 1934-cü ilədək bandanın üzvü idi, sonra aşkara çıxdı və 1934-cü ildə vəfat etdi. Baba Cavad oğlunun özü 1918-ci ildən 1932-ci ilədək muzdur əməyindən istifadə edirdi. 1932-ci ildən onun təsərrüfatında 130 baş qoyunu, 12 dəvəsi, 8 atı, 8 eşşəyi və 15 baş inəyi var idi. 1934-cü ildə qolçomaqlıqdan salınıb.

B.Mərcanlı k/s sədri – Məmmədov

K/s katibi – Məmmədov R.».

(Maşallah, Cavad oğlu Baba! Allah sənə rəhmət eləsin! İndi kinostudiyada bir qatarın (15 baş) düzələ bilməsi üçün dəvə nəinki Cəbrayılda, hətta bu boyda respublikada da tapılmır. Heç eşşək qalıb ki, atlardan söhbət açaq? İndiki bolluğumuz da elə o zamankı «qolçomaqlıqdan salınmış»ların yer üzündən yox edilməsindən gəlir! Bəs bu barədə onlarca «İşıqlıdır lampələri kolxozun», «Yaraşıqlı, gur işıqlı kəndimiz» və s. ünvanlı dissertasiyalar yazan, məqalə və kitablar nəşr etdirənlər nə deyə bilərlər? Yazıq bizim kəndlilərimiz!)

Yenə də martın 2-də Böyük Mərcanlı kolxozunun verdiyi ikinci arayış:

«Cəbrayıl r.-nun Böyük Mərcanlı kənd sakini Baba Cavad oğlu İbrahimov kəndli qolçomaq ailəsindəndir. 1929-cu ildən 1934-cü ilədək səsindən məhrum edilmişdir. Hazırda qolçomaqdır. Kolxozda passiv işləyir, kolxoz quruculugunun əleyhinə təşviqat aparır, kolxoz işini həmişə pozur, ona tapşırılan işi keyfiyyətsiz icra edir. 1937-ci ilin oktyabr ayında kolxoz taxılının daşınması zamanı yüz kiloqram buğda gizlətmiş, sonra da qaytarmışdı. Həmin ilin may ayından sentyabr ayınadək kolxozun icazəsi olmadan yaylağa gedib, 4-5 ay kolxozda işləməmişdir.

1937-ci ilin fevral ayında dövlətə təhvil vermək üçün ona 450 kq biyan kökünün yığılması tapşırılmışdır, amma o qulaq asmadı, boyun qaçıraraq tapşırığı yerinə yetirmədi (haradadır indi o biyan kökü? – Z.B.).

Həmin ilin mart ayının 12-də ona Bağırov arxının 15 metrlik sahəsinin təmizlənməsi tapşırılmışdı. O, yenə də işdən boyun qaçırıb, ona verilən tapşırığı yerinə yetirmədi.

1938-ci ilin yanvar ayında onu kəndə kəhriz çəkilməsi işinə göndərdilər. O isə bunun əleyhinə təşviqat aparıb işin gedişatını pozmuşdur və buna görə də beş nəfər işləmək istəməmişdir.

1938-ci ilin fevral ayında onu Horadiz stansiyasından mineral gübrə gətirməyə göndərmişdilər. O, gübrəni alıb gətirdi, ancaq onun yüz kiloqramını palçığa töküb zay etmişdi.

Bundan başqa, 1921-ci ildə onun Davud adlı qardaşı müsavat təşkilatının təşkilatçısı kimi güllələnmişdir. O, Sovet hökumətinin əleyhinə bir dəstə hazırlamışdı. İkinci qardaşı Heydər 1932-ci ildə müsavatçı kimi həbs edilmişdi. Üçüncü qardaşı İbad 1930-cu ildən 1934-cü ilədək bandanın üzvü idi, sonra özü təslim oldu və vəfat etdi.

1932-ci ilədək Baba Cavad oğlu muzdur əməyindən istifadə edirdi. Böyük Mərcanlı kənd sakinləri Məstan oğlu Hümbət, Fərhad oğlu Bəhlul, Əmrah oğlu Eyvaz və İbad oğlu Sədir onun muzdurları idilər. 1937-ci ildə onun 109 əməkgünü var idi.

Kolxoz sədri – Soltan Niftəliyev Möhür».

Mənə elə gəlir ki, bu iki arayışın və sərhəd dəstəsi rəisinin verdiyi üçüncü sənədin məzmunları Baba Cavad oğlunun yox olması üçün o zamankı ədliyyəni idarə edən quldurlara artıqlaması ilə kifayət idi. Və bundan başqa nəyə görə o zaman Böyük Mərcanlıda təşkil olunan (və ya olunmuş) kolxozun sədri Soltan Niftəliyev öz həmkəndlilərilə belə yaramaz işlərə əl atıb camaatı güllə altına atırdı – mənə aydın deyil. Elə çıxır ki, Böyük Mərcanlı camaatının əksəriyyəti qolçomaq olub, o isə tək-tənha onların əleyhinə mübariz olub. Nə isə...

1938-ci il martın 3-də «inqilabdan (hansı inqilabdan? – Z.B.) qabaq» və inqilabdan sonra 1935-ci ilədək kəndli-qolçomaq, 1937-ci ildən kolxozçu Baba Cavad oğlu İbrahimovun dindirilməsi. Müstəntiq: «İstintaq müəyyən edib ki, siz 1934-cü ilədək Xanəlinin başçılıq etdiyi Əhmədovlar bandası ilə əlaqə saxlayırdınız və sizin qardaşınız İbad da bu dəstənin üzvü idi». Babanın cavabı: «Mənim doğma qardaşım İbad heç vaxt hər hansı bir bandada olmayıb və mənim də banditlərlə heç bir əlaqəm olmayıb. Qardaşım İbad 1935-ci ildə Böyük Mərcanlı kəndində vəfat edib». Müstəntiq: «İstintaq müəyyən edib ki, sizin qardaşınız Davud 1921-ci ildə Sovet hakimiyyəti əleyhinə bir silahlı dəstə qurub və buna görə də o, 1921-ci ildə güllələnib». Cavab: «Qardaşım Davud 1921-ci ildə silah gizlətməyə görə güllələnib. Başqa qardaşım Bayram 1932-ci ildə DSİ tərəfindən müsavatçı kimi həbs edilib və indiyə qədər qayıtmayıb». Müstəntiq: «İstintaq müəyyən edib ki, siz kolxozda çox passiv çalışmısınız, kolxoz quruculuğunun əleyhinə təşviqat aparmış və demisiniz ki, bizə kolxoz lazım deyil, bizə

fərdi maldarlıq təsərrüfatı lazımdır». Cavab: «heç bir antisovet və kolxoza zidd təşviqat aparmamışam. Mən kolxozda fəal işləyib briqadir və kolxoz sədrinin mənə tapşırdıqları işləri yerinə yetirmişəm». Müstəntiq: «İstintaq müəyyən edib ki, siz buğdanı əkin üçün daşıyanda yüz bir kq buğda oğurlamısınız». Cavab: «Mən kolxoz buğdasını heç vaxt daşımamışam və buğda da oğurlamamışam». Müstəntiq: «İstintaq müəyyən edib ki, siz 1937-ci ildə biyan kökünün yığımından vaz keçmisiniz və sizə tapşırılan Bağırov arxının təmizlənməsindən boyun qaçırmısınız». Cavab: «1937-ci ildə mənə tapşırılmış on metr kanalı təmizləyib tapşırığı yerinə yetirmişəm. Biyan kökünü mən yığa bilmədim, çünki o ayda mən atdan yıxılıb əzilmişdim və işləyə bilmirdim». Müstəntiq: «Siz kolxoz sədrinin icazəsi olmadan yaylağa gedib, 1937-ci ilin mayından sentyabrına qədər kolxozda işləməmisiniz». Cavab: «Kolxoz sədri Soltan Niftəliyev mənə icazə verdi və mən də yaylağa getdim». Müstəntiq: «İstintaq müəyyən edib ki, siz 1938-ci ilin fevralında Horadiz stansiyasından mineral gübrə gətirərkən onu palçığa boşaldıb zay etmisiniz». Cavab: «1938-ci ilin fevralında mən gübrə üçün Horadiz stansiyasına getməmişdim və buna görə də gübrəni palçığa tökə bilməzdim». Müstəntiq: «İstintaq müəyyən edib ki, siz 1938-ci ilin yanvarında kəhriz qazılmasına təyin olunmuşsunuz. Lakin özünüz işləməyib təşviqat aparmısınız ki, başqaları da işləməsin və demisiniz ki, bu kəhriz bizə lazım deyil». Cavab: «Mən kəhrizdə bir gün işləmişəm, sonra işləyə bilməmişəm, çünki qolum ağrıyırdı. Kəhriz çəkilməsi əleyhinə mən heç bir təşviqat aparmamışam». Müstəntiq: «İstintaq müəyyən edib ki, siz qolçomaq kimi 1929-cu ildən 1935-ci ilədək səsdən məhrum edilmisiniz». Cavab: «Düzdür. Mən 1931-ci ildən 1934-cü ilədək səsdən məhrum edilmişəm. 1932-ci ildə mən qolçomaqlıqdan salınmışam». Müstəntiq: «101 kiloqram kolxoz buğdasının oğurlanmasında və 100 kiloqram gübrənin zay edilməsində özünüzü müqəssir bilirsinizmi?» Cavab: «Mən nə buğda oğurlamışam, nə də gübrə daşımışam. Nə üçün kolxoz sədrinin məndən akt bağladığını bilmirəm».

1938-ci il martın 5-də keçirilən dindirmədə İbrahimov Baba yenə də, demək olar ki, eyni suallara mənfi cavablar verib.

Martın 2-də şahid sifətilə dindirilən kolxoz sədri Niftəliyev Soltanın ifadəsi. Müstəntiq: «Sizə Böyük Mərcanlı kənd sakini İbrahimov Babanın bandit fəaliyyəti məlumdurmu?» Cavab: «Mənə məlumdur ki, İbrahimov Babanın Böyük Mərcanlı kənd sakini olan bandit Rüstəm oğlu Xanışla

əlaqəsi var idi. 1928-ci ildə Baba bir ay ərzində Xanışı öz evində «Cul üzü» yaylağında gizlədirdi. Babanın qardaşı Davud 1931-ci ildə Sovet hakimiyyətinin əleyhinə müsavat dəstəsi təşkil etmişdi. Elə o ildə də güllələnmişdi. İkinci qardaşı Heydər müsavatçı kimi 1932-ci ildə həbs edilib və indiyə qədər qayıtmayıb. Üçüncü qardaşı İbad 1930-cu ildən 1934-cü ilədək banda üzvü idi». Sonrakı ifadələri özünün verdiyi arayışında olanların təkrarıdır.

İş üzrə dindirilən Böyük Mərcanlı kənd sakinləri Əzizov Qürbət Ağa Mamed oğlu, Əliyev Mehdiqulu Behbud oğlu və Niftəliyev Abbasqulu Şəmil oğlu 1938-ci il martın 3-də şahid sifətilə dindirilən zaman kolxoz sədri Niftəliyev Soltanın dediyi sözləri təkrar etdilər.

1938-ci il martın 6-da XDİK-nın Cəbrayıl Sərhəd dəstəsi qərargahının rəis müavini leytenant Ağayev Baba Cavad oğlu İbrahimovun işi üzrə aşağıdakı ittihamnaməni tərtib edir: «İbrahimov Baba Cavad oğlu Sovet hökuməti əleyhinə düşmən olaraq antisovet və əksinqilabi fəaliyyətlə məşğul olub, bu da aşağıdakılardan ibarətdir:

a) 1928-ci ildən 1934-cü ilədək o, bandalara kömək etməklə məşğul olub. Öz evində Əhmədovlar banda dəstəsinin üzvlərini Sovet hakimiyyəti tərəfinə keçən vaxt gizlədib, onların bandit fəaliyyətlərinə yardım göstərirdi. Həmin bandanın tərkibində iki qardaş var idi və onlardan biri güllələnib

b) 1934-cü ildən 1937-ci ilədək kolxozun dağılması üçün antisovet təşviqatı aparırdı, kəndlilərə sübut etməyə çalışırdı ki, «kolxoz quruculuğu sərfəli deyil və fərdi təsərrüfatçılıq daha əlverişlidir».

c) 1934-cü ildə kolxoz əmlakını mənimsəyib mineral gübrəni zay etmişdir.

İttiham şahidlərin ifadələri ilə təsdiq olunur.

Göstərilənlərə əsasən Baba Cavad oğlu İbrahimova isnad edilən ittiham sübut olunur. İbrahimov Babanın 6034 №-li cinayət işi aidiyyatı üzrə Azərb. SSR XDİK Fövqəladə Üçlüyün sərəncamına göndərilsin».

1938-ci il martın 11-də Azərb. SSR XDİK-nın Üçlüyü belə qərar çıxarır:

«Baba Cavad oğlu İbrahimov, 43 yaşlı: xarici banditlərlə əlaqəsinə və antisovet təşviqatına görə güllələnsin, mülkü müsadirə edilsin.

Üçlüyün katibi Savçenko».

İşin 36-cı vərəqində deyilir ki, Baba Cavad oğlu İbrahimov 1938-ci il mart ayının 25-dən 26-na keçən gecə güllələnib.

1957-ci ildə Baba Cavad oğlu İbrahimovun oğlu İsmayıl Baba oğlu Cavadovun şikayəti əsasında atasının cinayət işi Azərb. SSR prokurorluğu tərəfindən yenidən yoxlanılıb.

1958-ci il martın 25-də və aprelin 4-də Böyük Mərcanlı kənd sakinləri Əzizov Qürbət Ağa Məmməd oğlu, Əliyev Mehdiqulu Behbud oğlu, Niftəliyev Soltan Hüseyn oğlu, Niftəliyev Abbasqulu Şəmi oğlu, Abbasov Misir Mehdi oğlu və Ağamirzəyev Kosa Mənsum oğlu yenidən din-dirilmişlər.

Əzizov Qürbət: «1938-ci ildə mən keçmiş Böyük Mərcanlı kənd sakini Baba Cavad oğlu İbrahimovun işi üzrə dindirilmişəm. İşdə olan ifadələr mənim adımdan yazılıb. İbrahimov Babanın antisovet və kolxoza zidd fəaliyyəti haqda mənə heç bir şey məlum deyil. Onun banditlik fəaliyyəti haqda mənə heç bir şey məlum deyil və xaricdən gələn banditlərlə əlaqəsi haqda heç bir şey bilmirəm».

Əliyev Mehdiqulu: «İbrahimov Baba heç zaman bandit fəaliyyəti ilə məşğul olmayıb. Əgər mənim 3 mart 1938-ci ildəki ifadəmdə onun banditlərlə əlaqəsi haqda bir şey yazılıbsa, bunu mənim adımdan yazıblar. Babanın antisovet və kolxoz əleyhinə olan fəaliyyəti haqda mənə heç bir şey bəlli deyildir. O, belə işlərlə məşğul olmayıb».

Niftəliyev Soltan: «İbrahimov Babanın heç vaxt muzduru olmayıb. Onun antisovet fəaliyyəti haqda mən heç bir şey bilmirəm; banditlərlə əlaqəsi haqda mən heç bir şey bilmirəm. Kolxozçuları kolxozdan çıxmağa təhrik etməyib».

Niftəliyev Abbasqulu: «İbrahimovun özü banditlik etməyib və banditlərlə əlaqə saxlamırdı. Onun antisovet və kolxoz əleyhinə fəaliyyəti haqda mənə heç bir şey məlum deyil».

Abbasov Misir: «Keçmişdə İbrahimov Babanın varlı təsərrüfatı var idi, lakın onun muzdurları olmayıb və təsərrüfatında özü və qardaşları işləyirdilər. İbrahimov özü bandit olmayıb və onun xaricdən gələn banditlərlə əlaqəsindən mənə heç bir şey məlum deyil. Antisovet və kolxoz əleyhinə fəaliyyəti haqda mənə heç bir şey məlum deyil».

Ağamirzəyev Kosa: «İbrahimov Babanın antisovet və kolxoz əleyhinə fəaliyyəti haqda mənə heç bir şey məlum deyil.

1958-ci il aprelin 22-də Azərb. SSR Prokurorunun müavini Azərbaycan SSR Ali Məhkəməsinə İbrahimov Baba Cavad oğlunun işi üzrə etiraz yazaraq xahiş etdi ki, onun haqqında 1938-ci il martın 11-də XDİK Üçlüyün qərarı ləğv edilsin.

1958-ci il mayın 5-də Azərb. SSR Ali Məhkəməsinin Cinayət üzrə məhkəmə kollegiyası qərara aldı: «Azərb. SSR XDİK Üçlüyünün 11 mart 1938-ci il tarixli Baba Cavad oğlu İbrahimovun işi sübuta yetmədiyindən ləğv olunsun. İbrahimov Baba Cavad oğluna ölümündən sonra bəraət verilsin».

1958-ci ilin may ayında Baba Cavad oğlu İbrahimovun oğlu İsmayıl Baba oğlu Cavadov atasının bəraəti haqda arayış almışdır.

Oxucuları təkcə Böyük Mərcanlı kəndinin üç sakininin – Rüstəmov Xanış Rüstəm oğlunun, Fərzəliyev Yolçu Şükürəli oğlunun və İbrahimov Baba Cavad oğlunun faciələri ilə tanış etdik. Amma belə günahsız qurbanların sayını kim deyə bilər?

## EYVAZOV KƏRİM MƏHƏMMƏD OĞLU, ALXANOV MƏŞƏDİ ƏHMƏD MƏHƏRRƏM OĞLU, MİRZADƏ SEYİD MÜSEYİB SEYİD HÜSEYN OĞLU, HÜMBƏTOV ƏBDÜLƏLİ SÜLEYMAN OĞLU, ABBASOV SADIQ ABBAS OĞLU

1937-ci il avqustun 4-də 1 №-li siyahıya və 1 №-li kateqoriyaya əsasən XDİK-nin 39 nömrəli orderi ilə Zorkeşiş kənd sakini, «35 yaşlı, keçmişdə qolçomaq, quldur dəstəsi və əksinqilabi təşkilatı ilə əlaqədə olan, 1936-cı ildə sürgündən qayıtmış və 1937-ci ildə Eyvazovun əksinqilabi dəstəsinə daxil olmuş» Hümbətov Əbdüləli Süleyman oğlu həbs olunur.

40 №-li orderə əsasən Zorkeşiş kənd sakini «50 yaşlı, keçmişdə iri qolçomaq, kəndin mötəbər adamı, 1933-cü ildə sürgün edilmiş, 1935-ci ildə Laçına qayıtmış və Eyvazovun əksinqilabi dəstəsinə daxil olmuş» Abbasov Sadıq Abbas oğlu həbs edilir.

1937-ci il avqustun 5-də 1 №-li siyahıya, 1 №-li kateqoriyaya və 29 nömrəli orderə əsasən Zorkeşiş kənd sakini «55 yaşlı, keçmiş qolçomaq, 1927-ci ildə əksinqilabçı ittihadçı fəaliyyətinə görə sürgün edilmiş və 1931-ci ildə qayıtmış, keçmişdə «İttihad» partiyasının fəalı olmuş və indiki dövrdə əksinqilabi partiyanın üzvləri olan keçmiş qolçomaqlardan dəstə düzəldib kənddə antisovet əksinqilabi təbliğat aparan» Eyvazov Kərim Məhəmməd oğlu həbsə alınır.

Həmin siyahıya, kateqoriyaya və 30 №-li orderə əsasən Zorkeşiş kənd sakini, «50 yaşlı keçmiş qolçomaq, 1930-cu ildə quldur dəstəsinə kömək

etdiyinə görə sürgün edilmiş və 1934-cü ildə qayıtmış, sürgündən qayıdıb Eyvazovun əksinqilabi dəstəsinə daxil olub antisovet əksinqilabı təbliğat aparan» Alxanov Məşədi Əhməd Məhərrəm oğlu həbs edilir.

4 №-li siyahıya, 2 №-li kateqoriyaya və 33 №-li orderə əsasən Seyidlər kənd sakini «1885-ci ildə anadan olan, varlı, 1931-ci ildə ittihadçı olduğuna görə sürgün edilən və 1934-cü ildə qayıdan, keçmişdə əksinqilabi «İttihad» partiyasının təşkilatçılarından olan, ifşa olunmuş siyasi quldur Seyid Həmidin qardaşı olan, 1937-ci ildə Laçın rayonuna gəlib Eyvazovun dəstəsinə daxil olub əksinqilabi təbliğat aparan» Mirzadə Seyid Müseyib Seyid Hüseyn oğlu həbs olunur.

Hər beşinin evində axtarış aparılıb və «heç bir şey tapılmayıb»

1937-ci il avqustun 16-da 6-cı Stepanakert əməliyyat dəstəsinin əməliyyat müvəkkili serjant M.Popov həbs olunan beş «keçmiş qolçomaq»ı dindirdi.

1. Eyvazova sual: «İstintaqın sərəncamında olan şahidlərin ifadələrində göstərilir ki, siz ətrafınıza sürgündən qayıtmış keçmiş qolçomaqlardan dəstə toplayıb, müntəzəm olaraq kəndlilər arasında antisovet təbliğatı ilə məşğul olaraq Sovet hökumətinə qarşı narazılıq edir, müharibə haqda və Sovet hakimiyyətinin tezliklə yıxılması barəsində böhtançı şayiələr yayırsınız. Bunlarda özünüzü müqəssir bilirsinizmi?» Cavab: «Mənə isnad olunan ittihamda özümü təqsirkar bilmirəm». Popov: «Sizə antisovet fəaliyyətiniz haqda şahid Zülfi Əhmədovun ifadələri oxunur». Cavab: «Şahid Zülfi Əhmədov yalan deyir». Popov: «Antisovet fəaliyyətiniz haqda sizə ikinci şahid Həsən Hümbətovun ifadələri oxunur. Nə üçün siz düzgün ifadələrdən boyun qaçırırsınız? Doğru danışın!» Cavab: «Şahid Həsən Hümbətov yalan deyir». Popov: «Siz Məşədi Əhmədlə birlikdə kəndlilər arasında müharibə barəsində və Sovet hakimiyyətinin tezliklə yıxılacağı haqqında şayiələr yayırsınız. Bunu boynunuza alırsınız?» Cavab: «Mən bunu rədd edirəm. Mən heç vaxt müharibə və Sovet hakimiyyətinin yıxılması haqda şayiələr yaymamışam».

2. Alxanova sual: «İstintaqın sərəncamında olan şahidlərin ifadələrində göstərilir ki, siz sistematik olaraq kəndlilər arasında antisovet təbliğatı ilə məşğul olur, Sovet hökumətinin əleyhinə düşmənçilik edir, kolxoz əleyhinə təxribatçılıqla məşğul olur, kolxozçuları işə çıxmamağa çağırırsınız. Bunlarda özünüzü müqəssir bilirsinizmi?» Cavab: «Mənə isnad olunan ittihamlarda özümü müqəssir bilmirəm». Sual: «İyun ayında siz kolxozçu-

lar arasında antisovet söhbətləri ilə məşğul idiniz; deyirdiniz ki, kolxozda işləmək ac qalmaq deməkdir. Bunu boynunuza alırsınızmı?» Cavab: «Mən belə danışıqları heç yerdə, heç vaxt aparmamışam». Sual: "Siz kəndlilər arasında müharibə haqda və Sovet hakimiyyətinin tezliklə devrilməsi haqda fitnəkar şayiələr yayırdınız. Bunları boynunuza alırsınızmı?» Cavab: «Özümü müqəssir bilmirəm və fitnəkar şayiələr yaymamışam». Sual: «İstintaqın sərəncamında olan şahidlərin ifadələrində göstərilir ki, siz təbliğat yolu ilə kolxoz işlərini dağıtmaq və kəndlilər arasında müharibə və Sovet hakimiyyətinin tezliklə devrilməsi haqda şayiələr yayan Eyvazovun əksinqilabi dəstəsinin fəal üzvüsünüz». Cavab: «Mən bunu inkar edirəm Eyvazovun dəstəsinə daxil deyiləm və onun dəstəsində kimlərin olduğu mənə məlum deyil». Sual: «Sizə antisovet fəaliyyətiniz haqda Həsən Hümbətovun ifadələri oxunur». Cavab: «Şahid Hümbətov yalan deyir». Sual: «Antisovet fəaliyyətiniz haqda sizə ikinci şahid Didan Hüseynovun ifadələri oxunur». Cavab: «Şahid Hüseynov yalan deyir». Sual: «Antisovet fəaliyyətiniz haqda sizə üçüncü şahid Əbdüləli Hümbətovun ifadələri oxunur». Cavab: «Şahid Hümbətovun ifadələri yalandır».

3. Mirzadəyə sual: «İstintaqın sərəncamında olan şahidlərin ifadələrində göstərilir ki, siz qarşısına kolxozları dağıtmaq məqsədini qoyan və əhali arasında sistematik olaraq antisovet təbliğatı aparan Eyvazovun əksinqilabi dəstəsinə daxilsiniz. İstintaq sizə xəbərdarlıq edib, sizdən doğru ifadələr tələb edir». Cavab: «Mən Eyvazovun dəstəsinə daxil deyiləm və antisovet təbliğatı ilə məşğul olmamışam». Popov bu sualı təkrar edir və Mirzadə göstərir ki, ona isnad olunan ittihamda özünü müqəssir bilmir.

4. Hümbətov Əbdüləliyə sual: «İstintaqın sərəncamında olan şahidlərin ifadələrində göstərilir ki, siz Laçına qayıtdıqdan sonra Eyvazovun dəstəsinə daxil olmusunuz. Eyvazovun əksinqilabi dəstəsi isə kəndlilər arasında mütəmadi antisovet təbliğatı aparıb müharibə və Sovet hakimiyyətinin tezliklə devrilməsi haqda şayiələr yayırdı. İstintaq sizdən doğru ifadələr tələb edir. Açıq deyiniz – Eyvazovun dəstəsinə kimlər daxildir?». Cavab: «Mən Eyvazovun dəstəsinə daxil deyiləm və kəndlilər arasında antisovet təbliğatı ilə məşğul olmuram. Eyvazovun dəstəsinə kimlərin daxil olduğu mənə məlum deyil». Sual: «Haşım Allahverdiyevlə söhbətdə siz demisiniz ki, Sovet hakimiyyəti möhkəm deyil və tezliklə devriləcək. Bunu boynunuza alırsınızmı?» Cavab: «Allahverdiyevlə heç vaxt belə söhbət aparmamışam» Sual: «İstintaqın sərəncamında olan şahidlərin ifadələrində göstərilir ki,

siz Eyvazovun əksinqilabi dəstəsinin yığıncağında iştirak etmisiniz. Bunu boynunuza alırsınız?» Cavab: «Mən heç vaxt Eyvazovun dəstəsinin yığıncağında olmamışam». Sual: «Şahidlərin ifadələri ilə siz kifayət qədər ifşa olunursunuz. Siz Eyvazovla, Məşədi Əhmədlə və Mirzədə Seyid Müseyiblə sıx əlaqədə olub, onlarla birlikdə Sovet hakimiyyətinə qarşı narazılıq edirsiniz. Bunlarda özünüzü müqəssir bilirsinizmi?» Cavab: «Mən heç bir şeydə özümü müqəssir bilmirəm və göstərilən şəxslərlə əlaqəm yoxdur».

5. Abbasova sual: «İstintaqın sərəncamında olan şahidlərin ifadələrində göstərilir ki, siz kolxozun işlərini pozmaq üçün kolxozçular arasında təbliğat aparırdınız ki, onlar işə çıxmasınlar. Bunu boynunuza alırsınızmı?» Cavab: «Xeyr, mən özümü deyilənlərdə müqəssir bilmirəm, çünki mən kolxozçuları işdən ayırmaq üçün onların arasında təbliğat aparmırdım». Sual: «İstintaq sərəncamında olan şahidlərin ifadələrində göstərilir ki, siz kəndlilər arasında mütəmadi antisovet təbliğatı aparıb Sovet hakimiyyətinin tezliklə yıxılacağı və müharibə haqqında şayiələr yayan Eyvazovun dəstəsinə daxil idiniz. Buna nə deyə bilərsiniz?» Cavab: «Mən Eyvazovun dəstəsinə daxil deyiləm və onun dəstəsinə kimlərin daxil olduğunu bilmirəm». Sual: «İstintaqın sərəncamında olan şahidlərin ifadələrində göstərilir ki, siz kənddə sistematik olaraq antisovet təbliğatı aparıb Sovet hökuməti əleyhinə narazılıq göstərirdiniz. Bunda özünüzü müqəssir bilirsinizmi?» Cavab: «Mənə isnad olunan ittihamda özümü müqəssir bilmirəm». Sual: «Antisovet fəaliyyətiniz haqda sizə şahid Dilan Hüseynovun ifadəsi oxunur». Cavab: «Şahid Hüseynov yalan danışır».

Adları çəkilən şahidlərlə üzləşmələrdə beş nəfərin heç biri özünü müqəssir bilmədi.

1937-ci il avqustun 24-də serjant M.Popov aşağıdakı ittihamnaməni tərtib edir:

«Eyvazov Kərim Məhəmməd oğlu, Alxanov Məşədi Əhməd Məhərrəm oğlu, Mirzədə Seyid Müseyib Seyid Hüseyn oğlu, Hümbətov Əbdüləli Süleyman oğlu və Abbasov Sadıq Abbas oğlunun müxtəlif vaxtlarda həbs düşərgəsindən qayıdıb bir əksinqilabi təşkilatda toplaşıb Sovet hakimiyyəti əleyhinə düşmənçilik ruhunda əksinqilabi fəaliyyətdə olmalarını nəzərə alaraq aşağıdakıları müəyyən etdim:

Adları çəkilənlər sistematik olaraq Sovet hakimiyyətinin tezliklə yıxılacağı haqda əksinqilabi təbliğat aparır, kolxozlara zidd mövqe tutaraq Sovet

hökumətinin ünvanına şayiələr yayır və mövcud olan quruluşun ünvanına böhtanlar atırdılar.

Müqəssirlərin təqsiri şahid ifadələri ilə sübut olunur.

Müqəssirlər cinayətlərini boyunlarına almadılar.

İzah olunanlara əsasən Eyvazov Kərim Məhəmməd oğluna, Alxanov Məşədi Əhməd Məhərrəm oğluna, Mirzədə Seyid Müseyib Seyid Hüseyn oğluna, Hümbətov Əbdüləli Süleyman oğluna və Abbasov Sadıq Abbas oğluna isnad edilən cinayətlər sübut olunduğuna görə Azərb. SSR CM ... maddəsi ilə (göstərilməyib – Z.B.) təqsirləndirilib 4277 №-li cinayət işləri Azərb. SSR XDİK Fövqəladə Üçlüyün baxılmasına göndərilsin».

İttihamnaməni Stepanakert əməliyyat dəstəsinin rəisi Sayadyan təsdiq edib.

1937-ci il 26 sentyabr tarixli 18 №-li Azərb. SSR XDİK Fövqəladə Üçlüyün iclasının protokolundan çıxarışlar:

1. Eşidildi: «Eyvazov Kərim Məhəmməd oğlu, 37 yaşlı, Laçın rayonu Zorkeşiş kəndində anadan olmuş, keçmişdə qolçomaq, indiki dövrdə kolxozçu (əcəb! – Z.B.).

1930-cu ildə əksinqilabi fəaliyyətinə və «İttihad» partiyasının üzvü olduğuna görə məhkum olunmuşdur. Müqəssir hesab olunur ondan ötrü ki, o, qolçomaqlar Alxanov, Hümbətov və başqaları ilə əlbir olub, Sovet hakimiyyəti ilə düşmənçilik edib əhali arasında mütəmadi surətdə Sovet hakimiyyətinin tezliklə yıxılacağı haqqında, kolxozlar əleyhinə əksinqilabi təbliğat aparmış, Sovet hökuməti və mövcud olan quruluşun ünvanlarına çirkin böhtanlar atmışdır.

Qərara alındı: Eyvazov Kərim Məhəmməd oğlu on il müddətinə islah-əmək düşərgəsində cəzasını çəkmək üçün həbs edilsin.

2. Eşidildi; Abbasov Sadıq Abbas oğlu, 50 yaşlı, Laçın rayonu Zorkeşiş kəndində anadan olmuş, keçmişdə qolçomaq, indiki dövrdə – kolxozçu; 1932-ci ildə məhsul tədarükünü pozduğuna görə iki il müddətinə azadlıqdan məhrum edilmiş. Müqəssir hesab edilir ondan ötrü ki, o, Hümbətov, Alxanov və başqa qolçomaqlar dəstəsində olub, mütəmadi surətdə mövcud quruluşun əleyhinə təbliğat aparmış, Sovet hökuməti və kolxozlar haqqında, hökumətin tezliklə yıxılacağı haqda şayiələr yaymış və Sovet hakimiyyətinə böhtanlar atmışdır.

Qərara alındı: Abbasov Sadıq Abbas oğlu səkkiz il müddətinə islah-əmək düşərgəsində cəzasını çəkmək üçün həbs edilsin.

3. Eşidildi: Hümbətov Əbdüləli Süleyman oğlu, 35 yaşında; Laçın rayonu Zorkeşiş kəndində anadan olmuş, keçmişdə qolçomaq, indiki dövrdə kolxozçu. 1930-cu ildə əksinqilabi «İttihad» partiyasının üzvü olduğuna görə 8 ay həbsdə olub, 1933-cü ildə dövlət planlarının yerinə yetirilmədiyinə görə 2 il azadlıqdan məhrum edilmiş. Müqəssir hesab edilir ondan ötrü ki, Zorkeşiş kəndinin qolçomaq dəstəsinin üzvü olmaqla qolçomaqlar Alxanov, Eyvazov və başqaları ilə əlbir olub, mövcud olan quruluşun əleyhinə təbliğat aparmış, Sovet hakimiyyətinin ünvanına böhtan atmış, müharibə və Sovet hakimiyyətinin yıxılacağı, kolxozların dağılacağı haqda şayiələr yaymışdır.

Qərara alındı: Hümbətov Əbdüləli Süleyman oğlu on il müddətinə islah-əmək düşərgəsində cəzasını çəkmək üçün həbs edilsin.

4. Eşidildi: Mirzadə Seyid Müseyib Seyid Hüseyn oğlu, 50 yaşlı, Laçın rayonu Seyidlər kəndində anadan olmuş, keçmişdə – ruhani, 1930-cu ildə əksinqilabi «İttihad» partiyasının üzvü olduğuna görə məhkum olunub. Müqəssir olunur ondan ötrü ki, 1934-cü ildə ifşa olunmuş quldur Seyid Hüseyn qardaşı kimi quldurlar köməkçisi olmuş, Zorkeşiş kəndinin qolçomaqları Hümbətov, Alxanov, Eyvazov və başqaları ilə sıx əlaqədə olub mütəmadi surətdə mövcud olan quruluşun əleyhinə antisovet təbliğatı aparmış, Sovet hökuməti ilə yaxınlarda başlanacaq müharibə haqda şayiələr yaymış, hökumət və kolxozlara böhtanlar atmışdır.

Qərara alındı: «Mirzadə Seyid Müseyib Seyid Hüseyn oğlu səkkiz il müddətinə islah-əmək düşərgəsində cəzasını çəkmək üçün həbs edilsin.

5. Eşidildi: Alxanov Məşədi Əhməd Məhərrəm oğlu, 80 yaşlı (!), Laçın rayonu Zorkeşiş kəndində anadan olmuş, keçmişdə iri qolçomaq, indiki dövrdə kolxozçu, 1932-ci ildə planları yerinə yetirmədiyinə görə iki il azadlıqdan məhrum edilmiş. Ondan ötrü müqəssir hesab edilir ki, o, qolçomaqlar Eyvazov, Hümbətov, Abbasov və başqaları ilə sıx əlaqədə olub, onlarla əlbir olaraq əhali arasında mövcud olan hakimiyyətin əleyhinə murdar şayiələr yaymış, antisovet və kolxozlara zidd təbliğat aparmış və Sovet hökumətinə və kolxozlara böhtan atmışdır.

Qərara alındı: Alxanpv Məşədi Əhməd Məhərrəm oğlu güllələnsin.

Üçlüyün katibi – Koqan

1937-ci il oktyabrın 5-də saat 2:40 dəqiqədə Alxanov Məşədi Əhməd güllələndi.

Oxucu özü azərbaycanlı kəndliləri haqqında bu Fövqəladə Üçlüyün çıxardığı ədalətsiz qərara qiymət verməlidir.

1939-cu il oktyabrın 19-da güllələnmiş, heç bir günahı olmayan Alxanov Məşədi Əhməd Məhərrəm oğlunun qızı Məhərrəmova Səkinə Azərbaycan SSR prokuroruna aşağıdakı ərizəni yazır:

«Yazıb sizə məlum edirəm ki, mənim atam Alxanov Əhməd Məhərrəm oğlu Laçın rayonunun Zorkeşiş kəndində anadan olmuşdur. İnqilabdan əvvəl və sonra çox çalışqan, öz əlinin zəhməti ilə dolanan bir adam idi. Buna baxmayaraq, 1937-ci ilin avqust ayında böhtançılar tərəfindən haqsız olaraq siyasi adla məhbus edilmişdir. Qalan ailəsi çöllərə dağılıb başqa rayonlarda ağır vəziyyətdə dolanırlar. Atamın sağ olub-olmamasından heç bir xəbərim yoxdur. Odur ki, sizdən xahiş edirəm atamın haqsız məhbus olması haqda və sağ olub-olmaması barədə mənə məlumat verəsiniz. Dəxi göz yaşlarımı ilə sizdən xahiş edib səbirsizliklə cavab gözləyirəm».

Səkinə xanımın ərizəsi əsasında Azərb. SSR prokurorunu əvəz edən A.Ələkbərov 1960-cı il martın 18-də Azərb. SSR Ali Məhkəməsinə Alxanov Məşədi Əhməd Məhərrəm oğlu və başqalarının cinayət işi üzrə aşağıdakı etirazını göndərir.

«Azərb. SSR XDİK Üçlüyünün 1937-ci il 26 sentyabr tarixli qərarına əsasən 1857-ci ildə Laçın rayonu Zorkeşiş kəndində anadan olmuş Alxanov Məşədi Əhməd Məhərrəm oğlu güllələnmişdir.

Həmin qərarla:

Eyvazov Kərim Məhəmməd oğlu – 10 il müddətinə, Mirzədə Seyid Müseyib Seyid Hüseyn oğlu – 8 il müddətinə, Hümbətov Əbdüləli Süleyman oğlu – 10 il müddətinə, Abbasov Sadıq Abbas oğlu – 8 il müddətinə islah-əmək düşərgəsinə göndərilmişlər.

Məhkum olunanların taleyi məlum deyil.

Alxanovun qızı Məhərrəmova Səkinə Əhməd qızı atasının işinə yenidən baxılmasını xahiş edir.

Azərb. SSR XDİK Fəvqəladə Üçlüyün qərarı aşağıdakı əsaslara görə ləğv olunmalıdır:

1. Yuxarıda adları çəkilən şəxslər prokurorun sanksiyası olmadan XDİK tərəfindən təsdiq edilmiş antisovet ünsürlərinin siyahısından çıxarışlara əsasən həbs edilmişdir. Bu siyahıya onlar əvvəllər ittihadçı və müsavatçı fəaliyyətlərinə görə, qolçomaqlıqdan salınmışlar və antisovet təbliğatı ilə məşğul olanlar məhkum olunmuşlar kimi daxil edilmişlər.

Şahidlər göstərdilər ki, onlardan bəziləri varlı olub, lakin nə muzdur saxlayıb, nə də özgə əməyindən istifadə ediblər. Onlar heç bir partiyaya daxil deyildirlər. Həbs olunanların hamısı antisovet fəaliyyəti inkar edib, şahidlərlə üzləşmələrdə onların ifadələrini təsdiq etməmişdirlər;

2. Müttəhimlərin dördü Zorkeşiş kəndindəndir, amma bu kənddən şahid sifətilə yalnız bir nəfər – Mehdiyev Həmzəli İmamqulu oğlu dindirilib. Öldüyünə görə onu ikinci dəfə dindirmək mümkün olmadı. Qalan doqquz şahid Laçın rayonunun başqa kəndlərindəndir və bunların çoxu kolxoz sədrləri və ya kənd sovetləri əməkdaşlarıdır. Onların hamısı da ittiham olunanların antisovet fəaliyyətləri haqda konkret olmayan ifadələr verib, dediklərinə heç bir fakt əlavə etməyiblər. Bəziləri başqalarına isnad etdilər. lakin həmin başqaları isə heç dindirilməmişlər.

1937-ci ildə dindirilənlərin ifadələri həqiqətdən uzaqdır və şübhə oyadır, çünki ifadə verənlərin hamısı birdən Zorkeşiş kəndində ola bilməzdilər və ittiham olunanların gah birinin, gah da o birisinin evində yığışıb antisovet söhbətlərinə şahid ola bilməzdilər. Bundan başqa, dindirmə protokollarının hamısı eyni tiplidir, rus dilini bilməyən azsavadlı adamları tərcüməsiz dindiriblər. Şahidlərin dindirmə protokollarının əvvəlcədən tərtib olunması aşkardır;

3. İşin istintaqı vaxtı sovet qanunlarının kobudcasına pozulmasına yol verilib: həbslər prokurorun sanksiyası olmadan keçirilib, işdəki ittihamnamədə qətilik yoxdur və müttəhimlərə ittihamnamə təqdim olunmayıb.

Müttəhimlərin heç birinin ayrı-ayrılıqda təqsirləri müəyyən edilməyib.

Onlardan kimin nə kimi cinayət törətdikləri və ayrı-ayrılıqda onların cinayətlərinin nə ilə sübut olunduğu nə ittihamnamədən, nə də Üçlüyün qərarından görünür.

1937-ci il 26 sentyabr tarixli Azərb. SSR XDİK Üçlüyünün Alxanov, Eyvazov, Mirzadə, Hümbətov və Abbasov haqqında qərarını ləğv edib onların cinayətləri sübuta yetmədiyinə görə işlərinin xətm olunmasını xahiş edirəm».

1960-cı il iyunun 14-də Azərb. SSR Ali Məhkəməsi qərara aldı

«Azərb. SSR XDİK Üçlüyünün Alxanov Məşədi Əhməd Məhərrəm oğlu, Eyvazov Kərim Məhəmməd oğlu, Mirzadə Seyid Müseyib Seyid Hüseyn oğlu, Hümbətov Əbdüləli Süleyman oğlu və Abbasov Sadıq Abbas oğlu haqqında 1937-ci il sentyabrın 26-sı tarixli qərarı ləğv edilib, işləri isə sübuta yetmədiyinə görə xətm olunsun».

Təqsirləndirilib: "Hərbi-faşist qəsdində"

KAPİTAN SANİYEV KƏBİ MURAD OĞLU

İstintaq işi №13896

1937-ci ilin çoxsaylı qurbanları arasında Azərbaycan milli 77-ci Atıcı diviziyasının zabitləri də var idi. Başda diviziya komandiri Qambay Vəzirov olmaqla diviziyanın, demək olar ki, bütün zabitləri Azərbaycanı SSRİ-dən ayırmaq üçün «hərbi-faşist qəsdində» təqsirləndirilib güllələnmişlər.

Diviziyanın 230-cu alayının zabitlərindən biri, rota komandiri kapitan Saniyev Kəbi Murad oğlunun «cinayət işi» ilə oxucuları tanış etməklə DTK-da fəaliyyətdə olan erməni məmurları tərəfindən düzəldilmiş azərbaycanlı zabitlərin qəddarcasına məhvedilmə proqramlarının bir qaranlıq səhifəsini açmaq istəyirəm.

1937-ci ilin avqust ayında Azərb. SSR XDİK Dövlət Təhlükəsizlik İdarəsi 5-ci şöbəsinin rəisi Avanesyan aşağıdakı məzmunda arayış tərtib edir:

«Saniyev Kəbi Murad oğlu, 1902-ci ildə anadan olmuş, keçmiş mülkədarın oğlu, 77-ci diviziyanın 230-cu alayının rota komandiri, kapitan, bitərəf.

Azərb. SSR XDİK orqanları tərəfindən aşkara çıxarılmış «Azərbaycan Milli partiyası» deyilən partiyaya daxil olan hərbi-qəsdçi əksinqilabi millətçi təşkilatın üzvüdür.

Saniyevin hərbi əksinqilabi millətçi təşkilatına cəlb edilməsi haqqında bu təşkilat mərkəzinin üzvləri belə ifadə verirlər:

«1936-cı il ərzində 230-cu alayda mən aşağıdakıları cəlb etmişəm... rota komandiri kapitan Saniyev Kəbi» (Müttəhim İbrahimov Mürsəlin 8 avqust 1937-ci il tarixli ifadəsindən).

«Ruhulla Axundovun göstərişi əsasında mən əksinqilabi millətçi təşkilatına 77-ci Azərbaycan diviziyasının 230-cu alayının aşağıdakı komandirlərini cəlb etmişəm:...

Saniyev Kəbi – baş leytenant, alay qərargahı rəisinin müavini».

(Müttəhim Məlikov Abdullanın 22 avqust 1937-ci il tarixli ifadəsindən).

Yuxarıdakılara əsasən lazım bilirəm ki, Saniyev həbs olunsun və Azərb. SSR CM-nin 72 və 73-cü maddələri ilə müttəhim sifətilə istintaqa cəlb edilsin»,

Arayışda XDİK-nın komissarı Sumbatovun «həbs edilməsilə razıyam» dərkənarı var.

1937-ci il avqustun 13-də 1069 №-li orderə əsasən Saniyev Kəbi həbs edildi.

1937-ci il avqustun 14-də Saniyevin birinci dindirilməsində müstəntiq ona bircə sual verdi: «İstintaqa məlumdur ki, siz əksinqilabi millətçi təşkilatın tərkibinə daxil idiniz. Deyin görək, sizi bu təşkilata nə vaxt və kim cəlb edib?» Saniyev: «Mən əksinqilabi millətçi təşkilatda olmamışam».

Başqa repressiya qurbanları haqqında yazarkən oxucuların diqqətini cəlb etmişdim ki, günahsız müttəhimlər birinci dindirmədə, elə birinci verilən suala «xeyr, olmamışam» cavabı verəndə onlara dindirmənin üçüncü üsulunu, yəni işgəncə və döyməyi tətbiq edirdilər. Saniyevə də bu üsulu tətbiq ediblər, çünki ikinci və üçüncü dindirmələrində o, hər şeyi «boynuna alır».

İkinci dindirmə 1937-ci il avqustun 26-da keçirilib. Müstəntiq: «İstintaq sizə təklif edir ki, müqaviməti kənara atıb öz əksinqilabi millətçi fəaliyyətiniz haqda hərtərəfli ifadə verəsiniz». Saniyev: «Mən qərara gəldim ki, bundan sonra müqavimət göstərməyim və öz əksinqilabi millətçi fəaliyyətim haqda səmimi ifadələr verim. Məni əksinqilabi ruhda dilə tutan indi XDİK tərəfindən həbs edilən Azərbaycan diviziyası 230-cu alayın hərbi komissarı Məlikov Abdulla olmuşdur. Uzun illər boyu mən orduda vzvod komandiri vəzifəsində idim. On ildən yuxarı məni bir vəzifədə saxlayır. irəli çəkilməyimə mane olurdular, bu da məndə böyük narazılıq yaradırdı. Məlikovla söhbətlərimdə ona deyirdim ki, mənim irəliləməməyimin səbəbi rus dilini bilməməyimdir və ondan kömək istədim. Kömək etmək əvəzinə Məlikov məni inandırırdı ki, iş rus dilində deyil, iş ondadır ki, Azərbaycan Rusiyanın hakimiyyəti altındadır və buna görə də azərbaycanlılar ağır həyat sürürlər. Sonrakı söhbətlərimizdə Məlikov deyirdi ki, Azərbaycanın sərvətləri Rusiyaya gedir, Azərbaycanın özündə isə heç adi lampa nefti də çatışmır. Öz əksinqilabi böhtançı fikirlərini davam etdirərək Məlikov deyirdi ki, Azərbaycanın hesabına başqa yerlər çiçəklənir, azərbaycanlılar isə ehtiyac içindədirlər. Məlikovun bu söhbətləri nəticəsində mənim şəxsi vəziyyətimə görə narazılığım mövcud olan sosialist quruluşunun əleyhinə düşmənçiliyə çevrildi. Axırda mən Məlikovla razılaşdım və öz növbəmdə ona əksinqilabi ruhda çatdırdım ki, guya kolxozçular əziyyət içindədir və

onlar ac qarına işə cəlb olunur; keçmişdə onlar indikindən daha yaxşı dolanırdılar və s.

1936-cı ildə bir söhbət vaxtında Məlikov dedi ki, Azərbaycan xalqının vəziyyəti yalnız o vaxt yaxşılaşa bilər ki, Azərbaycan SSRİ-dən çıxıb müstəqil dövlət olsun. Sonra başqa bir söhbətdə Məlikov mənə dedi ki, Azərbaycan o vaxt müstəqil dövlət ola bilər ki, onun mövcud sovet hakimiyyəti əleyhinə mübarizə edən təşkilatı olsun. Məlikovun bu dediklərı ilə mən tamamilə razı olurdum». Sual: «Sovet hakimiyyəti əleyhinə mübarizə aparan əksinqilabi təşkilat haqda Məlikov sizə nə dedi?» Cavab: «Bu barədə mənə heç bir şey demədi. Bunu, məni əksinqilabi təşkilata cəlb edərkən, indi XDİK tərəfindən həbs edilən 230-cu alayın keçmiş komandiri İbrahimov Mürsəl mənə dedi». Sual: «Məlikov sizə nə kimi əksinqilabi tapşırıqlar verirdi?» Cavab: «Məlikov mənə dedi ki, əksinqilabi millətçi kadrlar hazırlamaq lazımdır ki, bunlar Sovet hakimiyyəti əleyhinə və Azərbaycanın SSRİ-dən çıxması uğrunda mübarizəyə girişə bilsinlər. Bununla əlaqədar Məlikov mənə göstəriş verdi ki, mən əksinqilabi millətçi ruhunda olan komandirlərdən baş leytenant Rzayev Poladla, kapitan Ağayev Mikayılla və baş leytenant Əhmədov Yaqubla əlaqə saxlayım». Sual: «Siz Məlikovun bu göstərişlərini yerinə yetirirdinizmi?» Cavab: «Bəli, mən Ağayev, Rzayev və Əhmədovla görüşüb onlarla əksinqilabi millətçi danışıqlar aparırdım, onlarda nifrət oyadırdım və onların narazılığını mövcud olan quruluşun əleyhinə döndərdim. Məlikovdan başqa tapşırıqlar almamışam». Sual: «İndi göstərin sizi İbrahimov əksinqilabi təşkilata necə cəlb etdi?» Cavab: «1935-ci ildə İbrahimov mənimlə söhbətlərində Azərbaycanda siyasi vəziyyətin öz əksinqilabi baxışlarını mənə izah edib deyirdi ki, Azərbaycanı SSRİ-dən qoparıb müstəqil, sovet yox, burjua-demokratik dövlətini yaratmaq və Sovet hakimiyyətinin əleyhinə mübarizə etmək üçün mütəşəkkil olmaq lazımdır. Söhbətlərin birində İbrahimov mənə xəbər verdi ki, Azərbaycan diviziyasında artıq hərbçilər təşkilatı vardır; hərbçilər mübarizədədir və təklif etdi ki, mən də bu təşkilata daxil olum. Mən bu təşkilata daxil olmağım haqda İbrahimova öz razılığımı bildirdim». Sual: «Bu təşkilatın üzvlərindən İbrahimov kimin adını çəkdi?» Cavab: «heç kəsin adını çəkmədi». Sual: «Əksinqilabi təşkilatda siz nə iş görürdünüz?» Cavab: «İbrahimov mənə heç bir konkret tapşırıq verməyib və əksinqilabi hərbçilər təşkilatının üzvü kimi mən heç bir işlə məşğul olmadım». Müstəntiq: «Siz doğru danışmırsınız. Siz iki il ərzində əksinqilabi

millətçi təşkilata daxil idiniz. İstintaqa məlumdur ki, siz əksinqilabi təşkilatın tapşırığı ilə əksinqilabi işlə məşğul idiniz. İstintaq bu məsələyə bir də qayıdacaq. İndi isə sizə xəbərdarlıq edirəm ki, siz ifşa olunmusunuz və öz əksinqilabi fəaliyyətinizi gizlətməkdənsə, sizin üçün tamamilə tərksilah olmaq vacibdir».

Üçüncü və axırıncı dəfə Saniyev bir aydan sonra – 1937-ci il sentyabrın 27-də dindirildi. Müstəntiq: «İstintaq bir daha sizin əksinqilabi millətçi hərbi təşkilatda olan əməli fəaliyyətinizə qayıdır. Deyiniz görək, siz İbrahimov Mürsəldən nə kimi konkret əksinqilabi tapşırıqlar alırdınız?» Cavab: «Əvvəlcə dediyim kimi mən İbrahimovdan heç bir konkret əksinqilabi tapşırıqlar almamışam». Sual: «Avqustun 26-da keçirilən dindirmədə siz göstərdiniz ki, Məlikov və İbrahimov sizi əksinqilabi millətçi ruhunda dilə tutanda sizə Azərbaycanı SSRİ-dən qoparıb müstəqil Azərbaycan dövlətinin yaranması haqda danışırdılar. Onlar Azərbaycanın SSRİ-dən hansı yolla qoparılması haqda sizə deyiblərmi?» Cavab: «Azərbaycanın SSRİ-dən hansı yolla qoparılması haqda onlar mənə heç bir şey deməyiblər». Sual: «Məlikov və İbrahimovla sıx əlaqədə olan 230-cu alayda olan əksinqilabi millətçi ruhlu komandirlərin adlarını deyin». Cavab: «Mən bir neçə komandirlər tanıyıram ki, onların Məlikov və İbrahimovla sıx əlaqələri var, lakin onların əksinqilabi millətçi olmaları mənə qətiyyən məlum deyil».

Bununla kapitan Saniyev Kəbinin dindirilməsi bitir. Oxucu özü görür ki, Saniyevin müqəddəratı 77-ci Azərbaycan atıcı diviziyasının başqa azərbaycanlı komandirlərinin müqəddəratı kimi erməni Avanesyan və milləti naməlum, zatı isə qırıq Sumbatov tərəfindən qabaqcadan hazırlanmış qəsd idi və azərbaycanlı zabitlərinin planlaşdırılmış məhvetmə məramnaməsindən başqa bir şey deyildi.

1934-cü il oktyabrın 4-də Avanesyan 13896 №-li istintaq işi üzrə ittihamnamə tərtib edir.

«Azərb. SSR XDİK DT İdarəsi tərəfindən qarşısına silahlı üsyan hazırlayıb, ziyankarlıq və casusluqla məşğul olub, partiya və hökumət rəhbərləri əleyhinə terror tətbiq etməyi və burjua-demokratik cümhuriyyətinin təşkilini məqsəd qoyan əksinqilabi trotskiçi-millətçi Azərbaycan təşkilatı («Azərbaycan milli partiyası») ifşa olunub ləğv edilmişdir.

Öz əksinqilabi fəaliyyətində bu təşkilat trotskist-zinovyevçi terrorçu mərkəzlə və sağların əksinqilabi mərkəzi təşkilatı ilə bağlı idi.

Yuxarıda qeyd olunan əksinqilabi millətçi təşkilatın bir qolunu Azərbaycan Diviziyasında olan əksinqilabi millətçi hərbçi qəsdçilər təşkil edirdi. Buraya əsasən Azərbaycan diviziyasının komandirləri və Bakı qarnizonunun başqa hərbi hissələrinin bir sıra komandirləri daxil idi.

Hərbi qəsdin məqsədi silahlı üsyan qaldırıb Sovet hakimiyyətinin devrilməsinin labüdlüyü naminə fəal əksinqilabi millətçi təbliğatla, Azərbaycan Diviziyasında, rayon hərbi komissarlıqlarında və Osoaviaximdə müntəzəm olaraq kadrların cəlb edilməsi, Azərbaycan diviziyasının əksinqilabi millətçi kadrlar ilə doldurulması və başqa tədbirlər vasitəsilə elə şərait yaradıla bilsin ki, silahlı üsyan başlanan kimi Azərbaycan Diviziyası da Sovet hakimiyyəti əleyhinə qalxmış ümumi üsyanda hərbi hissə kimi istifadə oluna bilinsin.

İstintaq müəyyən edib ki, Saniyev Kəbi 1935-ci ildə yuxarıda göstərilən təşkilata hərbi qəsdin üzvü olan, 77-ci Azərbaycan Diviziyasının keçmiş qərargah rəisi İbrahimov Mürsəl tərəfindən (hal-hazırda həbs edilib) cəlb edilmişdir.

«...Saniyev millətçi əhval-ruhiyyəli şəxs olduğu üçün – buna da mən onunla söhbətlərdən sonra inandım – mənim Azərbaycanı SSRİ-dən ayırma fikrimlə tamamilə razı idi. Beləliklə, Saniyevin cəlb olunmasına inanaraq, mən ona xəbər verdim ki, bu məqsədin yerinə yetirilməsi üçün Diviziya komandiri Qambay Vəzirovun tərəfindən lazımi işlər artıq aparılır və lazım olan vaxtda Diviziya da cəlb olunacaq. Bundan sonra mən Saniyevin qarşısında onun bu işdə iştirakı haqda məsələ qoydum. Saniyev öz razılığını verdi» (Müttəhim İbrahimov Mürsəlin 22-26 avqust 1937-ci il tarixli ifadələrindən).

İbrahimovdan başqa Saniyev hərbi qəsdin başqa üzvü Məlikov Abdulla tərəfindən (hal-hazırda həbs edilib) də əksinqilabi millətçi ruhunda dilə tutulurdu. Məlikovun tapşırığı ilə Saniyev başqa əksinqilabi millətçi meylli komandirlərlə – Əhmədov, Ağayev və başqaları ilə əlaqə saxlayır, onlarla söhbətlərdə əksinqilabi millətçi mövqedən ÜİK(b) Partiyasına və Sovet hökumətinə böhtan atırdı.

«Mülkədar oğlu Saniyev Kəbi öz siyasi əhval-ruhiyyəsinə görə əksinqilabi millətçi təşkilata cəlb olunmaq üçün yararlı namizəd idi. Mənimlə söhbətlərdə o, kolxozların əleyhinə danışıb deyirdi: «Kəndliləri vergilərlə və tapşırıqlarla boğurlar» və s. Saniyev qatı millətçi idi və hesab edirdi

ki, milli kadrlar hazırlanmır və s." (müttəhim Məlikov Abdullanın 22 iyul 1937-ci il tarixli ifadəsindən).

Yuxarıdakılara əsasən ittiham olunur: Saniyev Kəbi Murad oğlu, 1902-ci ildə anadan olan, azərbaycanlı, Azərbaycan Diviziyası 230-cu alayın keçmiş rota komandiri, bəy mənşəli, bitərəf, keçmişdə məhkum olunmuş - ondan ötrü ki, o:

1. Qarşısına Azərbaycanı terror, casusluq, ziyankarlıq və silahlı üsyan vasitəsilə SSRİ-dən zorla ayırmaq məqsədini qoyan trotskiçi-zinovyevçi terrorist mərkəzi və sağların əksinqilabi mərkəzi ilə bağlı və Azərbaycandakı əksinqilabi millətçi təşkilata daxil olan hərbi qəsdin iştirakçısı idi;

2. Komandirlər arasında əksinqilabi millətçi təbliğat aparırdı, yəni Azərb. SSR CM-nin 64, 70 və 73-cü maddələri ilə nəzərdə tutulmuş cinayətlərdə təqsirləndirilir. Müttəhim Saniyev özünü müqəssir bildi.

Müqəssirlər İbrahimov Mürsəlin və Məlikov Abdullanın ifadələri ilə ifşa olunur.

Həmin iş baxılmaq üçün 1 dekabr 1934-cü il tarixli Qanuna əsasən SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasına göndərilsin.

Bu ittihamnamə Bakı şəhərində 1937-ci il oktyabrın 4-də tərtib olunub.

Azərb. XDİK DTİ -nin 5-ci şöbəsinin rəisi Avanesyan».

1937-ci il oktyabrın 5-də ittihamnamə Sumbatov tərəfindən təsdiq edilib.

1937-ci il oktyabrın 13-də SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının (Matuleviç, Zaryanov, Jiqur) bağlı iclası keçirildi. İclas saat 22:05 dəqiqədə açıldı. Saat 22:20 dəqiqədə iclas bağlandı.

Matuleviçin çıxardığı hökmdə Avanesyanın ittihamnaməsində deyilən cəfəng, uydurma söz və cümlələrə aşağıdakı cümlə əlavə edilmişdir: «Müttəhim Saniyev Azərbaycanda fəaliyyətdə olan hərbi-faşist qəsdinin iştirakçılarından biri idi». Məlun Matuleviç özü və rəhbərləri qırmızı faşist ola-ola xalqımıza görün necə böhtan atırlar! Azərbaycan xalqının cəlladlarından biri – Vışinskinin birinci müavini Matuleviç hər bir «xalq düşməninin» işinin baxılmasına 15 dəqiqə ayırırdı. Deməli, saatda dörd nəfər. Tənəffüssüz işlədikləri üçün sutkada 96 nəfərin müqəddəratını həll edirdilər. İndi oxucu özü saysın: təkcə 1937-1938-ci illərdə nə qədər ziyalılarımızı məhv edib Matuleviç kimilər. 70 mindən çox! Bu hələ hərbi tribunalın çıxardığı hökmlərdir. Bəs məşhur «Fövqəladə üçlüklərin» fəaliyyəti?

1937-ci il oktyabrın 23-də kapitan Saniyev Kəbi Murad oğlu güllələnməyə məhkum olunur və işin 45-ci vərəqini təşkil edən arayışda deyilir:

«Saniyev Kəbi Murad oğlunun güllələnməsi haqda hökm Bakıda, 1937-ci il oktyabrın 13-də yerinə yetirilib. Güllələnmə haqda tərtib edilmiş akt SSRİ XDİK-in 1-ci Xüsusi şöbəsinin Xüsusi arxivində saxlanılır (8-ci cild, 34-cü vərəq)».

Aktı SSRİ XDİK-i 1-ci Xüsusi şöbəsinin 12-ci bölməsinin rəisi leytenant Şevelev imzalayıb.

Oxucuların nəzərinə çatdırmaq istəyirəm ki, bu 8-ci cilddə (bəlkə başqalarında da, hələlik rast gəlməmişəm) minlərcə güllələnmiş Azərbaycan xalqının günahsız oğullarının adları var. Bu cilddə olan aktlarda güllələyənlərin adları (imzaları) var. Nə olaydı, heç olmasa, bu 8-ci cild əlimizə düşəydi (əgər məhv olunmayıbsa!); heç olmasa,12493 və 13896 №-li işlərlə güllələnənlərin adlarını bilərdik.

Həmin 1937-ci il oktyabrın 13-də iyulun 15-də həbs edilmiş İbrahimov Mürsəl Məmməd oğlu, Məlikov Abdulla Hüseyn oğlu və 77-ci Azərbaycan Diviziyasının komandiri Vəzirov Qambay Məmməd oğlu da güllələnmişlər.

1955-ci il martın 28-də Saniyev Kəbinin oğlu Eldar Azərb. SSR Prokurorluğuna ərizə ilə müraciət edib:

«Ərizə ilə sizdən xahiş edirəm ki, mənim atam Saniyev Kəbi Hacı Murad oğlu 1937-ci il avqust ayında Kirovabad şəhərində həbs edilmişdir. 1937-ci ildən hal-hazıra kimi atamdan heç bir məktub almamışam. Xahiş edirəm, indi onun nə səbəbə tutulması və sağ olub-olmaması barədə mənə məlumat verəsiniz».

Bu ərizəni icazəsiz nəşr etdiyim üçün Eldar məni bağışlasın. Əlavə etməliyəm ki, Saniyev Kəbinin həyat yoldaşı Hənifə xanım 8 il Vorkutada «Vətən xainlərinin ailə üzvləri» üçün həbs düşərgəsində dustaq olmuşdur.

1955-ci il sentyabrın 2-də SSRİ Baş Prokurorluğunun prokuroru B.Plexanov Azərb. SSR XDİK DTİ-nin 5-ci şöbəsinin rəisi olan Medvedyev Vladimir Petroviçi dindirdi.

Sual: «Söyləyin görək, sizin Azərb. SSR XDİK-də işlədiyiniz dövrdə məhbuslara qarşı cəza tədbirləri tətbiq olunurdumu?» Cavab: «Məhbuslara cəza tədbirləri (repressiya) mənim rəhbər olduğum şöbədə tətbiq olunurdu, amma konkret olaraq kimə – indi deməyə çətinlik çəkirəm. Amma yadımdadır ki, Azərbaycan Diviziyasının Siyasi şöbə rəisi Əliyev Cabiri döyürdülər. Başqa familiyalar yadımda deyil. Əliyevi ondan ötrü döyüb əzişdirirdilər ki, o, istintaqa lazım olan ifadələri versin; yəni Vəzirov, Axundov və başqaları tərəfindən idarə edilən «əksinqilabi mərkəz» haqqında ifa-

dələr olsun». Sual: «Siz şəxsən məhbuslara işgəncə verirdinizmi?» Cavab: «Bəli, verirdim, amma konkret olaraq kimə – yadımda deyil. İşgəncələr məhbuslara Sumbatovun və Borşovun sərəncamı ilə tətbiq olunurdu ki, məhbuslar lazımi ifadələr versinlər. Bir daha deyirəm ki, şəxsən mən kimlərə işgəncə tətbiq etmişəm – yadımda deyil.

İşgəncələr darısqal kameralara (karser) salmaqdan, şöbədə olan qayış şallaqla məhbusları döyməkdən ibarət idi. Mən də döyürdüm. Ola bilsin mən məhbusları əlimlə də döyürdüm. Məndən başqa məhbusları XDİK-nin bütün məmurları döyürdü. Azərbaycan XDİK-də döymə işgəncə xarakteri daşıyırdı».

Sual: «Qambay Vəzirovu tanıyırsınızmı?» Cavab: «Tanıyıram. O, Azərbaycan Diviziyasının komandiri idi. O, bizim şöbə tərəfindən həbs edilmişdi. Onun işini şəxsən 5-ci şöbənin keçmiş rəisi Avanesyan aparırdı. Qambay Vəzirovu dindirmələr zamanı bərk döyürdülər. Onu Avanesyan şəxsən mənim və şöbənin başqa əməkdaşlarının yanında döyürdü. Avanesyan Qambayı şallaqla döyüb tələb edirdi ki, o, özünün əksinqilabi millətçi mərkəzində iştirakı haqqında ifadə versin. Qambay əvvəlcə özünü müqəssir bilmədi, döyüləndən sonra isə hər şeyi boynuna alıb lazımi ifadələr verdi. Mən Vəzirov Qambayı döyməmişəm, amma bir daha deyirəm ki, Avanesyanın onu döyməsinin şahidiyəm». Sual: «Vəzirov Qambayın həbs edilməsi və məhkum olunması əsaslı idimi?» Cavab: «O zamankı, mən bildiyim işlərin arasında heç bir diqqətəlayiq iş yox idi. O işlərin hamısı məhbuslara zor və işgəncələrin tətbiq olunması ilə quraşdırılıb və o işlərin hamısı qeyri-obyektiv idi. O cümlədən Vəzirov Qambayın işi də ondan və başqa həbs edilmiş adamlardan zorla və işgəncələrlə alınmış yalan ifadələr üzərində quraşdırılıb. İstintaq zamanı məhbuslar dəfələrlə bu ifadələri rədd edirdilər, amma onların bu ifadələri işlərinə tikilmir, məhv olunurdu. İşlərə yalnız o ifadələr tikilirdi ki, onlar istintaq üçün faydalı idilər. Həbs edilənlərin başqa ərizələri və rədd cavabları heç vaxt işlərinə tikilmirdi».

Dəhşət! Allah sənə – Medvedyev və sənin kimilərə lənət etsin!

1956-cı il sentyabrın 7-də prokuror B.Plexanov Saniyev Kəbi Murad oğlunun işi üzrə aşağıdakı nəticəyə gəlir:

«Saniyev Azərbaycan Diviziyasında guya mövcud olan hərbi-faşist qəsdinin iştirakçısı kimi məhkum olunub. Saniyevin ittihamı onun təqsiri boynuna almasına və ondan qabaq həbs edilmiş Məlikovun və İbrahimo-

vun ifadələrinə əsaslanır. Aşağıdakı əsaslara görə Saniyev haqda çıxarılan hökm ləğv olunub işinə isə xətm verilməlidir.

Saniyevin həmçinin Məlikovun və İbrahimovun onların guya 77-ci Azərbaycan Diviziyasının hissələrində mövcud olan hərbi-faşist qəsdi adlanan təşkilata daxil olmaları haqda ifadələri həqiqətə uyğun deyil.

Həqiqət belədir ki, Qambay Vəzirovun komandir olduğu 77-ci Azərbaycan Diviziyasında əksinqilabi təşkilat olmayıb. Diviziya komandiri Vəzirovun ölümündən sonra SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının 28 iyul 1956-cı il tarixli qərarı ilə onun hüquqları özünə qaytarılmışdır. Məlikovun və İbrahimovun (Saniyevi «cəlb edənlərin») və 77-ci Azərbaycan Diviziyasının həmin iş üzrə məhkum edilmiş başqa hərbi qulluqçularının (20-dən yuxarı olan) işləri yenidən baxılıb ləğv edilmək üçün Baş hərbi Prokurorluğuna göndərilmişdir (Artıq bu işdə məhkum olunanların hamısına bəraət verilmişdir).

Müəyyən olunmuşdur ki, Diviziyanın keçmiş hərbi qulluqçularına istintaq zamanı istintaqa lazım olan yalan ifadələr almaq üçün döymə və işgəncələr tətbiq olunurdu».

Saniyevin işi SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasına göndərilib, 1937-ci il 13 oktyabr tarixli Hərbi Kollegiyanın hökmü ləğv olunsun və işə xitam verilsin.

1957-ci il iyunun 25-də SSRİ Ali Məhkəməsi hərbi Kollegiyası qərar çıxardı ki, SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının Saniyev Kəbi Murad oğlu barəsində 1937-ci il 13 oktyabr tarixli hökmü ləğv olunsun, işinə isə tərkibində cinayət əlamətləri olmadığına görə xitam verilsin.

Əlavə: 13896 №-li istintaq işi ilə bağlı məhkum olunanların siyahısı:

1. Paşayev Sultan Həmid oğlu – hərbi nazir,
2. Məmmədov Nəsir – baş leytenant,
3. Tağıyev Bayram Əli oğlu – siyasi rəhbər,
4. İsmayılov Ağa Həmid oğlu – batalyon komissarı,
5. Hüseynov Mustafa Əliqulu oğlu – kapitan,
6. Sultanov Əli Sultan oğlu – mayor,
7. Vəzirov Qambay Məmməd Əli oğlu – diviziya komandiri,
8. Əliyev Cabir Əmirulla oğlu – briqada komissarı,
9. Quliyev Tahir Naib oğlu – alay komissarı,
10. Veysov Məmməd Kərim Əli oğlu – polkovnik,
11. Fətəliyev Həmid Əhməd oğlu – baş leytenant,

12. Əliyev Əli Məşədi Əli oğlu – batalyon komissarı,
13. Zülfüqarov Məmməd İsazadə – hərbi komissar,
14. Zülqədərov İsgəndər Əli oğlu – 2-ci dərəcəli intendantı,
15. Babayev Fərhad Məmməd Əli oğlu – alay komissarı,
16. Məhərrəmov Manaf Murad oğlu – polkovnik,
17. Mehdiyev Seyfulla Rüstəm oğlu – polkovnik,
18. Cəfərov Əliyusif Əbutalib oğlu – alay komissarı,
19. Səfiyev Əhməd Səfərəli oğlu – 2-ci dərəcəli intendantı,
20. Abdullayev Abdulla Teymur oğlu – 2-ci dərəcəli intendantı,
21. Mustafayev Əli Həsən oğlu – kapitan,
22. Sofiyev Bəhmən Əli oğlu – kapitan,
23. İbrahimov Mürsəl Məmməd oğlu – mayor,
24. Mollayev Abdul Əzim oğlu – 2-ci dərəcəli intendantı,
25. Tağıyev İsmayıl Əhməd oğlu – hərbi tribunalın sədri,
26. Məlikov Abdulla Hüseyn oğlu – 77-ci Diviziyanın komissarı,
27. Saniyev Kəbi Murad oğlu – kapitan,
28. Məmmədov Cəlil Mustafa oğlu – 2-ci dərəcəli intendantı,
29. Qoşqarov Ağamirzə Məmməd İbrahim oğlu – kapitan,
30. Süleymanov Nəriman Həsən oğlu – baş siyasi rəhbər,
31. Kərimov İbrahim Abduləli oğlu – kapitan (?),
32. Kərimov Rəşid Tağı oğlu – kapitan,
33. Qasımov Ağarza Fərman oğlu – siyasi rəhbər.

Qoy oxucular adları çəkilən azərbaycanlı zabitlərimizi yaddan çıxarmasınlar.

## Din xadimi-alim
## QAZI MİR MƏMMƏDKƏRİM AĞA

15030 nömrəli «cinayət işi»nin birinci vərəqinin məzmunu:

Tarixi olmayan «Qala – Maştağa rayonu üzrə fəal antisovet ünsürlərin cəmiyyətdən kənar edilib ləğv olunası şəxslərin siyahısından» çıxarış:

"...18-ci. Mir Məmmədkərim Mir Cəfər oğlu, 83 yaşlı, keçmişdə qazı, səsindən məhrum olunmuş, bitərəf, müəyyən peşəsi olmayan Mərdəkan kənd sakini, keçmiş Zaqafqaziya qazısı. Dinin gizli yayılması ilə məşğul olub, çadraların götürülməsi əleyhinə təbliğat aparır».

Siyahıya Azərbaycan SSR XDİK-nın komissar müavini Borşov qol çəkib 1938-ci il fevralın 13-də XDİK 203 nömrəli orderi ilə qazı Mir Məmmədkərim Mərdəkandakı evində (indi Dənizçilərin istirahət evidir – Z.B.) həbs olunur. Axtarış zamanı evindən «39 ədəd müxtəlif antisovet Quran» kitabı müsadirə edilib.

İşin 6-cı vərəqində o zamankı Mərdəkan kənd Sovetinin qazı haqqında verdiyi xasiyyətnamə var. Bu «sənəd»i mən olduğu kimi oxuculara təqdim edirəm:

*«Xarakteriza*

Mərdəkan kənd sakini qazı Mir Məmmədkərim Mir Cəfər oğlu 1920-ci ildən Mərdəkan kəndində yaşayaraq həmin vaxtdan indiyə qədər daim kənd təsərrüfatı ilə məşğul olmuşdur. 1929-cu ildə qazının səsi kənddə din mövhumatını canlandıran bir şəxs kimi alınıb. Ondan sonra qazı kənddə din mövhumatı ilə məşğul olaraq daima camaatı dini mövhumata çəkməkdən başqa sənəti olmamışdır. Digər tərəfdən qazının sənəti həmişə mövhumata xidmət ətrafında dolanmaqdır. Qazının həmişə oturub-durduğu adamlar Şəkərəli Abbasov, Qasım Nağıyev, Rəhman Əliyev və Qədim Aslanov olublar.

*Mərdəkan kənd soveti (imza)*

*Kənd profkomu (imza)».*

1938-ci il fevralın 13-də Azərbaycan XDİK Maştağa rayon şöbəsinin əməliyyat müvəkkili köməkçisi Yaroşkeviç Qazı Mir Məmmədkərim ağanı dindirdi.

Sual: «Ən yüksək dini rütbə olan qazı rütbəsini siz hansı ildən hansı ilədək daşıyırdınız?» Cavab: «1904-cü ildən 1918-ci ilədək. Eyni zamanda, mən Bakı qubemiya məclisinin sədri idim». Sual: «Müsavat hökuməti nəzdində sizin nə kimi vəzifəniz var idi?». Cavab: «O zaman mənim heç bir vəzifəm yox idi, çünki Müsavat hökuməti işə gələndən mən istefa verib qazılığımdan da kənara çəkildim». Sual: «Siz əksinqilabi Müsavat təşkilatının üzvü olmusunuzmu?» Cavab: «Əksinqilabi Müsavat təşkilatına mən heç vaxt daxil olmamışam». Sual: «Siz hansı ildə seçki hüququndan məhrum edilib qolçomaqlıqdan salınmısınız?» Cavab: Seçki hüququndan mən Azərbaycanın sovetləşmə günündən məhrum olmuşam. Bu hüququ məndən din xadimi olduğum üçün alıblar». Sual: «Sizin qohumlarınızdan xaricdə kim vardır?» Cavab: «Heç kəs yoxdur». Sual: «Sizin qohumlarınızdan əksinqilabi fəaliyyətinə görə kim tutulub?» Cavab: «Mənim ögey

qardaşımın oğlu Mir Əbülhəsən tutulub, amma nəyə görə tutulduğunu deyə bilmərəm». Sual: «Öz kəndinizin sakinlərindən kiminlə əlaqəniz var?». Cavab: «Heç kəslə əlaqə saxlamıram, amma əhali arasında hörmətim var». Sual: «Sizin həmyerlilərinizdən hansısa biri ilə şəxsi-qərəzliyiniz və ya düşmənçiliyiniz var?». Cavab: «Mənimlə heç kəsin nə şəxsi-qərəzliyi, nə də düşmənçiliyi var». Sual: «Siz ondan ötrü təqsirləndirilirsiniz ki, kolxozçular və fərdi əməkçilər» arasında mövcud olan quruluşun əleyhinə əksinqilabi təbliğat aparırsınız. Bunu boynunuza alırsınız?» Cavab: «Xeyr, boynuma almıram».

Elə həmin gün, fevralın 13-də Yaroşkeviç Mərdəkan kənd sakini, Bakı süd zavodunda süd qəbul edən Aşur Cavadəli oğlu Əlizadəni şahid sifətilə dindirdi:

Yaroşkeviç: «Mərdəkan kənd sakini Mir Məmmədkərim Mir Cəfər oğlunun əksinqilabi söhbətləri haqda sizə nə məlumdur?» Cavab: «Məmmədkərim Mir Cəfər oğlu tanınmış din xadimi, qazıdır. O, mövcud olan quruluşun əleyhinə düşmənçilik əhval-ruhiyyəsində olaraq kənd əhalisi arasında daim dini təbliğat aparır. Məsələn, 3-4 ay bundan qabaq Mir Məmmədkərim dəfndə iştirak edib Əlabbas Əliyevin, Cəlal Əlibala oğlunun və başqalarının yanında deyirdi ki, qadın heç vaxt kişi ilə bərabər ola bilməz. Bu düz deyil, çünki qadında kişi əlamətləri yoxdur, qadının nə gücü var, nə də hünəri. Bundan əlavə, iki ay bundan qabaq başqa bir dəfndə iştirak edən Mir Məmmədkərim dəfn mərasiminin yeni qaydayla – mollanın iştirakı olmadan keçirildiyi üçün dedi: «Gör Şura hökuməti Azərbaycan xalqını nə günə salıb ki, o öz ölülərini şəriətdə göstərildiyi kimi dəfn edə bilmir. Şura hökuməti bizim bütün dinimizi, imanımızı məhv edib».

Yenə fevralın 13-də Yaroşkeviç ikinci şahidi: mərdəkanlı, neft bazasının müdiri Nəcəf Əlican oğlu Quliyevi dindirdi.

Yaroşkeviç: «Sizə Mir Məmmədkərim Mir Cəfər oğlunun əksinqilabi fəaliyyəti haqda nə məlumdur?» Cavab: «Məmmədkərim Mir Cəfər oğlu tanınmış din xadimi, qazıdır. O, daim əhali arasında dini təbliğat və bununla bərabər mövcud olan quruluşun əleyhinə əksinqilabi təşviqat aparır. 1937-ci ilin sentyabr-oktyabr aylarında Məmmədkərim dəfn vaxtı mənim dəfndə iştirak edən Həci Dadaşın və başqalarının yanında dedi: «Allahı unutmaq olmaz, çünki sizin bütün bəlalarınız Allah-taalanın cəzasıdır. Cürbəcür təbliğata uymaq olmaz, gələcək haqda fikirləşmək lazımdır. Bu-

dur, sizi seçkilərdə iştirak etməyə çağırırlar, lakin bu seçki yox, xalqı aldadıb incitməkdir.

Onsuz da aydındır ki, xalq heç kəsi seçmir və onu hökumət tərəfindən təyin olunmuş adamların adları altından qol çəkməyə məcbur edirlər. Buna görə Allahı unutmayın». Bu barədə mən kəndin partkomu Əliyevə xəbər verdim».

Həmin gün, fevralın 13-də Yaroşkeviç qazının əleyhinə üçüncü şahidi dindirdi. Bu da çörəkxana müdiri Balaxanov Əli idi.

Yaroşkeviç: «Siz Mir Məmmədkərim Mir Cəfər oğlunun əksinqilabi fəaliyyəti haqda nə deyə bilərsiniz?» Cavab: «Məmmədkərim Sovet hökuməti ilə düşmənçilik edən bir şəxsdir. O, əhali arasında daim dinin təbliği ilə məşğuldur. Bununla bərabər, o, mövcud quruluşun əleyhinə əksinqilabi təbliğat aparır. Məsələn, 1936-cı ildə mən Mərdəkan kənd Sovetinin sədri olduğum vaxt Məmmədkərimi çağırıb ona dedim ki, o kənddə dinin təbliğindən əl çəksin. Mənim bu sözlərimə Məmmədkərim belə cavab verdi: «Mən sənə məsləhət görürəm ki, camaatı qorxutma. Bu sizə baha olacaq. Gələcək haqda fikirləşin». Bundan başqa, 1937-ci il dekabrın 12-də Məmmədkərim seçki məntəqəsinə gedərkən mənə dedi: «Heç bilmirəm nə üçün camaatı incidib bülletenlərə qol çəkdirirlər. Axı deputat artıq sizin tərəfdən təyin edilib və xalq da onu seçməyib». Bütün bunlar haqda mən kəndin partiya təşkilatı katibinə xəbər verdim».

1938-ci il fevralın 17-də qazı Məmmədkərim ikinci və axırıncı dəfə dindirildi.

Yaroşkeviç: «1938-ci il fevralın 13-də keçirilən dindirmədə siz kənddə əksinqilabi təhrikedici şayiələrin yayılmasında özünüzü müqəssir bilmədiniz. İstintaq sizdən tələb edir ki, siz mənasız müqavimətə son qoyub səmimi ifadələr verəsiniz» Cavab: «Xeyr, mən əksinqilabi şayiələr yaymamışam və bunu qətiyyətlə inkar edirəm». Sual: «Sizə şahid Quliyev Nəcəf Əlican oğlunun sizin antisovet fəaliyyətiniz haqqında 13 fevral 1938-ci il tarixli ifadəsi oxunur. Bunu boynunuza alırsınız?» Cavab: «Xeyr, mən bunu rədd edirəm». Sual: «İstintaq sizə ikinci şahid Balaxanov Əlinin 13 fevral 1938-ci il tarixli ifadəsini təqdim edir. Buna siz nə deyə bilərsiniz?» Cavab: «Mən bunların heç birini deməmişəm. Şahid mənə böhtan atır və yalan deyir». Sual: «İzah edin görək, nə üçün sizin antisovet fəaliyyətinizi ifşa edən şahidlər sizə böhtan atırlar?» Cavab: «Mən bunu bilmirəm». Sual: «Demək, siz əksinqilabi fəaliyyətinizi qətiyyətlə inkar edirsiniz?»

Cavab: «Bəli, mən bunu qətiyyətlə inkar edirəm». Sual: «Siz istintaqa nə əlavə edə bilərsiniz? Cavab: «Mənim heç bir əlavəm yoxdur».

1938-ci il fevralın 23-də Yaroşkeviç belə bir ittihamnamə tərtib etdi:

«Vətəndaş Mir Cəfərov Mir Məmmədkərim Mir Cəfər oğlu – 83 yaşlı, ali ərəb dini təhsilli, qazı, məhkum olunmamış, səsindən məhrum olunmuş, kənd təsərrüfatı ilə məşğul olanın 15030 №-li cinayət işinə baxıb müəyyən etdim:

Mir Cəfərov Mir Məmmədkərim Mir Cəfər oğlu keçmişdə Bakı quberniyasının qazısı olub, son vaxtlarda artıq ifşa olunub məhkum edilən xalq düşmənləri – Qasım Nağıyev, Rəhman Əliyev, Qədim Aslanov və başqaları ilə əlaqəyə girib, mövcud quruluşa düşmənçilik edərək öz dini ayinlərindən antisovet təbliğatı üçün istifadə edirdi. O, Sovet hökumətinə böhtan atır, kəndliləri seçkilərdə iştirak etməməyə çağırır, qadınların ictimai-siyasi həyatda iştirak etmələrinin əleyhinə idi. Əhali arasında «qadınların kişilərlə bərabər olmaları mümkün deyil» deyə təbliğat aparıb buna sübut kimi şəriətin ehkamlarını nümunə gətirirdi.

Müttəhim özünü müqəssir bilmədi, lakin şahid Əlizadə Aşurun, Quliyev Nəcəfin və Balaxanov Əlinin ifadələri ilə ifşa olunur.

İzah olunanlara əsasən Mir Cəfərov Mir Məmmədkərim Mir Cəfər oğluna isnad olunanların sübuta yetməsini nəzərə alaraq Mir Cəfərovun 15030 nömrəli cinayət işi baxılmaq üçün Azərbaycan SSR Fövqəladə Üçlüyünün sərəncamına göndərilsin»,

İttihamnaməni XDİK-nın Qala – Maştağa rayon şöbəsinin rəisi Avanesov təsdiq etmişdir.

AZ. SSR XDİK Fövqəladə Üçlüyünün 1938-ci il mayın 2-də keçirilən iclasının işin 18-ci vərəqində olan protokolundan çıxarışda deyilir:

«Eşidildi: Mir Cəfərov Mir Məmmədkərim Mir Cəfər oğlunun 15030 nömrəli istintaq işi.

Qərara alındı: 83 yaşlı Mir Cəfərov Mir Məmmədkərim Mir Cəfər oğlu əksinqilabi fəaliyyətinə görə güllələnsin.

Üçlüyün katibi Savçenko».

Heç bir təqsiri olmayan xeyirxah qazı Mir Məmmədkərim ağa – yüksək mədəniyyətə malik olan vətəndaşımız, Qurani-Kərimin, Curci Zeydanın «Ərmənusa əlmisriyyə», «Kərbəla yanğını», «On yeddi ramazan», «Əzrai-Qureyş» adlı tarixi əsərlərinin Azərbaycan dilinə tərcüməçisi, «Səlib müharibələri» adlı kitabın (I cild) müəllifi xaincəsinə güllələndi.

1956-cı il avqustun 31-də rəhmətliyin oğlu Mir Cəfər SSRİ Baş prokuroru Rudenkonun adına ərizə yazıb «atamın tapılması üçün mənə kömək edib, onun təqsirinin dərəcəsinin müəyyən edilməsinə sərəncam verməyi» xahiş etmişdir.

1956-cı il oktyabrın 20-də Mir Məmmədkərimin oğlu Mir Cəfərə xəbər verdilər ki, atası 1940-cı il oktyabrın 14-də beyninə qan sızmasından vəfat etmişdir.

Bundan sonra istintaq orqanlarına göstəriş verildi ki, qazı Mir Məmmədkərimin işini yenidən yoxlamaqla müəyyən edilsin ki, onun təqsiri və cinayəti nədən ibarət idi.

1958-ci il fevralın 13-də şahid sifətilə dindirilmiş Quliyev Nəcəf Əlican oğlu 1959-cu il oktyabrın 23-də yenidən dindirildi. Bu səfər o, belə ifadə verdi: «Mən qəti surətdə və bütün məsuliyyətimlə, kommunist kimi göstərirəm ki, qazı Mir Məmmədkərim antisovet fəaliyyətdə olmayıb. Əksinə deyən ona böhtan atır. Mən belə ifadə verməmişəm və müstəntiq o vaxt nə yazıb, mən bilmirdim».

1960-cı il martın 7-də Əliyev Cəlal Əlibala oğlu göstərdi: «Üç il bundan əvvəl vəfat etmiş Əlizadə Aşurun ifadələrini mən təsdiq etmirəm, çünki bunlar həqiqətə uyğun deyildir. Qazı Mir Məmmədkərim mənim yanımda heç bir antisovet söhbət aparmayıb».

1960-cı il martın 7-də dindirilən Ağayev Ələkbər Əyyub oğlu göstərdi ki, Qazı Mir Məmmədkərimin antisovet fəaliyyəti haqda ona heç bir şey məlum deyil.

İşin 33-cü vərəqi. Azərbaycan SSR Daxili İşlər Nazirliyi Mərkəzi Dövlət Tarixi Arxivinin 1959-cu il 27 iyun tarixli arayışı:

«Zaqafqaziya şiə din idarəsinin sənəd fondunda 1907-1916-cı illərə aid Bakı Məclisinin sədri Axund Mir Məmmədkərim Hacı Mir Cəfərzadənin imzaladığı sənədlər var.

1910-cu ilin noyabrında Qafqaz Canişini Bakı qazısı Axund Mir Məmmədkərim Mir Cəfərzadənin Zaqafqaziya şiə dini idarəsinin üzvlüyünə qəbul edilməsinə zəmanət verir».

1960-cı il martın 21-də DTİ-nin istintaq şöbəsi Azərbaycan SSR XDİK Fövqəladə Üçlüyünün qazı Mir Məmmədkərim haqqında çıxardığı 1938-ci il 2 mart tarixli qərarın ləğv olunması və onun işinə xitam verilməsi haqda təqdimat verir.

1960-cı il mayın 4-də Azərbaycan SSR Prokurorluğu Azərbaycan SSR Ali Məhkəməsinə qazı Mir Məmmədkərimin işi üzrə etirazını göndərir

«Azərbaycan SSR XDİK Fövqəladə Üçlüyünün Mir Cəfərov Mir Məmmədkərim Mir Cəfər oğlu haqqında 1938-ci il 2 mart tarixli qərarı aşağıdakı əsaslara görə ləğv edilməlidir:

İşdən görünür ki, Mir Məmmədkərim Mir Cəfərov şahidlərin dindirilməsindən qabaq Az. SSR XDİK-nın komissarının keçmiş müavini Borşovun təsdiq etdiyi siyahıya əsasən həbs edilmişdir. Mir Cəfərovun əleyhinə material yalnız bundan sonra toplanmağa başlandı.

1959-cu ildə aparılan əlavə yoxlama zamanı şahid Quliyev Nəcəf Əlican oğlu yenidən dindirilərkən göstərdi ki, o, 1938-ci ildə dindirilərkən Mir Cəfərovun antisovet fəaliyyəti haqqında ifadə verməmişdir. Buna görə də ona isnad olunan ifadəni o təsdiq etmir. Dindirilən başqa şahidlər də göstərirlər ki, onlar Mir Cəfərovun antisovet fəaliyyəti ilə məşğul olması haqda heç bir şey eşitməyiblər».

1960-cı il iyulun 15-də Azərbaycan SSR Ali Məhkəməsi qərar çıxarır ki, Azərbaycan SSR XDİK Fövqəladə Üçlüyünün Mir Cəfərov Mir Məmmədkərim Mir Cəfər oğlu haqqında 2 mart 1938-ci il tarixli qərarı ləğv edilsin, onun işi sübuta yetmədiyindən xətm olunsun, özünə isə ölümündən sonra bəraət verilsin.

Allah qazı Mir Məmmədkərimə rəhmət eləsin!

## İTTİHAM

Nəsibə xanıma

### 50 İL ƏVVƏL 4438 NÖMRƏLİ İŞ ÜZRƏ CƏZA ALANLAR VƏ CƏZA VERƏNLƏR

Dirçəl, daha dirçəl, uyumaq artıq əbəsdir!
Ya öl bu vuruşda, ya da zənciri kəsdir.
Azada sevir qollarını doğduğun övlad,
Bəsdir sinən üstə yaşadı hər cürə cəllad.
Qaldır başını, bağrına bax qan göyə vurmuş,
Əfsus ki, o cəllad şişərək hey ki, oturmuş,
O şişir gözləri qan çaylağı insan cəsədindən,
Azmış, bağırır, əmri budur: «Hey! Kəs ətindən!
Ver, ver ki, yeyim zülmümə qüvvət gələ bəlkə,

Sən, ey nökərim, əmrimə müti olan ölkə!»
Söylə, yaraşırmı adına böylə həqarət?
Qeyrət yeridir, sevgili yurdum, yenə qeyrət!
Söylə ,nə üçün müti nökər gənc adın olsun,
Coşqun qara neftin, taxılın həm yadın olsun,
Taxıl becərən qəhrəman əllər, dilə darı,
Körpə çocuğun süd diləyir ah ilə zarı,
Ana ürəyin parçalanmazmı, ana yurdum?
Ah, ah, nə üçün döndü ürəyin qana, yurdum?
Söylə, köməyin yox ki, sənin haqqını alsın,
Yadlar quşunun şəhpərini torpağa salsın?!
Göylərdə uçan, nəğmə deyən oğluna fəryad,
Ki, onun pəncəsinə dözməyə hər cür dəli cəllad.
Babək daha dursun, yerisin düşmənin üstə,
Babəkləri sən, sevgili yurdum, özün istə!
Yalçın qayalardan, təpələrdən və dənizdən
Çiynində əsarət çanağı aç gələ bizdən.

Bu şeri Rzayev Məmmədhüseyn kiçik leytenant Aruşanov tərəfindən həbs edilməsindən on üç ay və güllələnməsindən il yarım qabaq – 1941-ci il iyun ayının 2-də yazıb.

«İldırım» adlı məqaləmdə yazmışdım ki, 1948-ci ildə məhkum edilən səkkiz gəncin istintaqında iki ad çəkilmişdi: Süleyman və Şükür. Bunların kimliyi məlum deyildi. Bir gün Nəsibə xanım Əlizadə yanıma gəldi və mənə 1940-cı ildə onunla birlikdə Bakının 1 nömrəli beynəlmiləl məktəbini bitirmiş bir gəncin fotoşəklini göstərərək dedi: «Adını çəkdiyiniz Süleyman budur. O, məktəbi mənimlə birlikdə qurtarıb. Əlaçı idi. Onların təşkilatında mən də var idim və çox fəal işləyirdim. Amma mənim yoldaşlarım nə istintaqda, nə də məhkəmədə adımı belə çəkmədilər, yoxsa məni də onlarla birlikdə məhkum edəcəkdilər».

Haqqında söz açacağımız təşkilata «İldırım»da olan kimi, səkkiz nəfər daxil idi:

1. İsgəndərli (İsgəndərov) Süleyman Əli Abbas oğlu: 1922-ci ildə Bakıda anadan olmuş, Azərbaycan Sənaye İnstitutunun (ASİ-nin) II kurs tələbəsi idi; 1942-ci il avqust ayının 22-də həbs edilmişdir.

2. Tağıyev Ələsgər Səttar oğlu, 1921-ci ildə Bakıda anadan olmuş, elektrik montyoru idi; 1942-ci il fevral ayının 28-də həbs edilmişdir.

3. Mustafayev Çingiz Seyfulla oğlu, 1923-cü ildə Bakıda anadan olmuş, Bakı dəmiryolu texnikumunun tələbəsi idi, 1942-ci il iyul ayının 7-də həbs edilmişdir.

4. Rzayev Məmmədhüseyn Həbib oğlu – 1921-ci ildə Göyçayda anadan olmuş, ADU-nun III kurs tələbəsi idi; 1942-ci il iyul ayının 8-də həbs edilmişdir.

5. Ağayev Hüseynağa Mirhaşım oğlu – 1921-ci ildə Bakıda anadan olmuş, ASİ-nin tələbəsi idi; 1942-ci il iyul ayının 7-də həbs edilmişdir.

6. Məmmədov Ağa Ələsgər Rza oğlu, 1921-ci ildə Bakıda anadan olmuş, ADU-kun IV kurs tələbəsi idi, 1942-ci il avqust ayının 31-də həbs edilmişdir.

7. Rzayev Saleh Əbdülhüseyn oğlu, 1921-ci ildə Bakıda anadan olmuş, ADU-nun IV kurs tələbəsi idi, 1942-ci il sentyabr ayının 5-də həbs edilmişdir.

8. Mehdiyev Zaman Zeynal oğlu, 1923-cü ildə Bəkıda anadan olmuş, ASİ-nin II kurs tələbəsi idi, 1942-ci il sentyabr ayının 18-də həbs edilmişdir.

(Oxucudan xahiş olunur ki, nəticələri bu yazını axıra qədər oxuduqdan sonra çıxarsın).

1942-ci il iyunun 29-da kiçik leytenant K.B.Aruşanovun Rzayev Məmmədhüseynin həbs olunması haqqında çıxarılan qərarında deyilirdi: «Rzayev – Türkiyəyə meyli olan və Azərbaycanın SSRİ-dən zorla ayrılmasını nəzərdə tutan antisovet millətçi gənclər təşkilatının fəal üzvüdür. O, yeni şəxsləri öz təsiri altına alıb onları təşkilatlarına cəlb edir, əksinqilabi vərəqələrin çapına və yayılmasına hazırlaşırdı. M.Rzayev Azərbaycan SSR Cinayət məcəlləsinin 72-ci maddəsinin II-ci hissəsi və 73-cü maddəsi ilə məsuliyyət daşıyır.

Aruşanov Rzayevi 1942-ci il iyulun 7-də 745 nömrəli orderlə ASİ-nin yataqxanasında həbs edir.

İyulun 8-də keçirilən birinci dindirmə: Aruşanov Rzayevi qohum-qardaşları, yaxınları və dostları haqqında sorğu-sual edir.

İyulun 10-da ikinci dindirmə: Aruşanov: «Siz antisovet cinayətlərinizə görə həbs edilmisiniz. Siz öz antisovet cinayətləriniz haqqında müfəssəl ifadələr verməlisiniz». Rzayev: «1942-ci ilin mart-aprel aylarında uzun sürən təsirli söhbətlərdən sonra məni ASİ-nin II kurs tələbəsi İsgəndərov

Süleyman və dəmiryolu texnikumunun tələbəsi Mustafayev Çingiz antisovet millətçi təşkilata cəlb etdilər. Həmin təşkilatın üzvləri qarşılarına əksinqilabi vərəqələrin yayılması yolu ilə Azərbaycanda Sovet hakimiyyətini yıxmaq və Türkiyə ilə birləşmək məqsədini qoymuşdular. Bunun üçün təşkilat öz sıralarını artırmağı, vərəqələrin nəşri üçün şrift tapmağı, radioqəbuledici almağı və xarici verilişlərə qulaq asmaqdan ötrü xüsusi otaq tapmağı nəzərdə tuturdu. Qrupumuzun bütün üzvləri sistematik olaraq antisovet və millətçi təbliğat aparırdı».

1942-ci il iyulun 15-də keçirilən üçüncü dindirmə: Aruşanov: «Qrupunuzun bütün iştirakçılarının adlarını deyin». Cavab: «Qrupumuza İsgəndərov Süleyman, Mustafayev Çingiz, Tağıyev Ələsgər və mən – Rzayev Məmmədhüseyn daxil idik. Şəxsən mən bizim antisovet millətçi gənclər qrupuna Tibb institutunun II kurs tələbəsi Nuriyev Camalı və ADU-nun filologiya fakültəsinin II kurs tələbələri – Nəsibov Məstini və Həbibzadə Şükürü cəlb edirdim». Sual: «Sizi antisovet millətçi qrupuna kim, nə zaman və hansı şəraitdə cəlb etmişdi?» Cavab: «1942-ci ilin aprelində mən «Parapet» bağında təsadüfən Süleymana rast gəldim. Süleyman müharibədən danışaraq belə dedi: «Müharibə uzanır. Cəbhələrdə camaat əbəs yerə qırılır. Müharibədə olan əsgərlərin ailələri və başqaları da acından qırılır. Qızıl Ordu alman qoşunlarının hücumu nəticəsində gündən-günə geriyə çəkilir. Bu dözülməz faktlara biz təlaşsız yanaşa bilmərik. Biz də bu məsələyə qarışmalı, öz millətimizin azad olmasına və bu üsul-idarənin yıxılmasına kömək etməliyik. Gəl bir qrup yaradaq və vaxt itirmədən işə başlayaq". Biz qarşımıza belə məsələlər qoyduq: qrupumuzun sayını on nəfərə, sonralar isə yüz nəfərə çatdırmaq. Qrupumuza daxil olanlardan üzvlük haqqı yığıb, hər birimizin təşəbbüsü ilə şrift, kağız və s. material alaraq əksinqilabi vərəqələr nəşr edib əhali arasında yaymalı idik. Biz hesab edirdik ki, azərbaycanlılar öz milli dövlətini öz əllərinə almalıdırlar və bunun üçün də sovet quruluşunu devirməlidirlər. Biz Azərbaycanda müstəqil dövlət yaradılmasını zəruri hesab edirdik. Türkiyədəki kimi». Sual: «Sizin antisovet millətçi qrupunuzun praktiki fəaliyyəti nədən ibarət idi?» Cavab: «Bizim qrup antisovet yığıncaqlar təşkil edir və bu yığıncaqlarda ÜİK(b)P-nin və Sovet hökumətinin milli siyasəti tənqid edilir, cürbəcür təşkilati məsələlər həll olunurdu».

1942-ci il iyulun 20-də Aruşanov və Qriqoryan Rzayev Məmmədhüseynə onun Azərbaycan SSR CM-nin 72-ci maddəsinin 11-ci hissəsi və 73-cü maddəsi ilə məsuliyyətə cəlb olunması haqqında qərarı təqdim edirlər.

Avqust ayının 14-də keçirilən əlavə dindirmədə Rzayev Məmmədhüseyn göstərdi: «Bizim qrupun təşkilatçısı İsgəndərov Süleyman idi və praktiki əməliyyat üçün bütün göstərişləri biz ondan alırdıq. Sonralar mən ondan ayrılıb müstəqil işləyirdim». Aruşanov: «Siz İsgəndərov, Mustafayev və Tağıyevdən nə vaxt və nə səbəbə görə ayrıldınız?» Rzayev: «Mən onlardan 1942-ci ilin mayında ayrıldım. Mən dəstəmizin iştirakçılarının sayının artırılması haqqında məsələ qoydum, lakin onlar mənimlə razı olmadılar. Buna görə mən özüm Sovet hakimiyyəti əleyhinə işləmək üçün yeni qrup təşkilinə girişdim. Bu yeni təşkil olunan qrupa mən ADU-nun tələbələri Nəsibov Məstini, Həbibzadə Şükürü və ASİ-nin tələbəsi Ağayev Hüseynağanı cəlb etdim. Mən onlara belə bir nağıl söylədim ki, guya mən antisovet təşkilatında yeddi yaşımdan fəaliyyət göstərirəm; guya mənim həmin təşkilata daxil olan tanış prokurorum var və mən onun vasitəsilə onların üçünü də təşkilata qəbul etdirərəm. Lakin bunların üçü də mənimlə işləmək istəmədilər».

1942-ci il iyunun 29-da həmin Aruşanovun Bakıda yaşayan Ağayev Hüseynağanın həbs edilməsi haqqında qərarında deyilirdi: «Ağayev Hüseynağa Türkiyəyə meyli olan və Azərbaycanın SSRİ-dən zorla ayrılmasını nəzərdə tutan antisovet millətçi gənclər təşkilatının fəal üzvüdür. Təşkilatın yığıncaqlarında iştirak edib, oraya yeni şəxslərin cəlb olunması haqda məsələnin müzakirəsində fəallıq göstərir. Buna görə o, Azərbaycan SSR CM-nin 72-ci maddəsinin II hissəsi və 73-cü maddəsi ilə məsuliyyət daşıyır».

Aruşanov Ağayevi iyulun 7-də 747 nömrəli orderlə Ostrovski adına küçənin 1 nömrəli evində həbs edir.

1942-ci il iyulun 8-9-da keçirilən birinci dindirmə: Aruşanov: «Siz antisovet cinayətlərinizə görə həbs edilmisiniz. İstintaq təklif edir ki, siz müfəssəl və doğru ifadə verəsiniz». Ağayev: «Niyə həbs olunmuşam, bunu özüm də hiss edirəm. Buna görə də elə birinci dindirmədə mən öz antisovet cinayətlərim haqqında danışacağam. 1941-ci ildə mən öz məktəb yoldaşım İsgəndərov Süleymanla tez-tez görüşürdüm. Hər dəfə Süleyman ÜİK(b) P-nin və Sovet hökumətinin ayrı-ayrı tədbirlərini tənqid edirdi. 1941-ci ilin axırından İsgəndərov öz antisovet əhval-ruhiyyəsini daha da gücləndirmişdi və məni gənclər arasında antisovet millətçi təşkilatın yaranmasının vacib olduğuna inandırmağa çalışırdı. 1942-ci ilin yanvar və ya fevralında İsgəndərov, Mustafayev və Tağıyev evimizə gəldilər və biz dördümüz razılığa

gəldik ki, Sovet hökuməti əleyhinə fəal mütəşəkkil iş üçün Azərbaycan gəncləri arasında antisovet millətçi təşkilat yaratmaq lazımdır. Əvvəllər bu qrupa biz dördümüz daxil idik. Rzayev Məmmədhüseyn bizim qrupa sonradan daxil edildi».

1942-ci il iyulun 22-dəki ikinci dindirmə: Müstəntiq: «Sizin antisovet millətçi qrupunuza kimlər daxil idi?» Cavab: «Mən, İsgəndərov, Mustafayev, Tağıyev və Rzayev Məmmədhüseyn». Sual: «Sizin antisovet millətçi qrupunuz necə və nə vaxt təsis olunub formalaşdı?» Cavab: «Bizim antisovet millətçi qrupumuz 1941-ci ilin dekabrında təsis olunub formalaşdı»

1942-ci il iyulun 20-də Aruşanov və Qriqoryan Ağayev Hüseynağaya onun Azərbaycan SSR CM-nin 72-ci maddəsinin 11-ci hissəsi və 73-cü maddəsi ilə məsuliyyətə cəlb olunması haqda qərarı təqdim etdilər.

1942-ci il avqustun 11-dəki üçüncü dindirmə: Aruşanov: «1942-ci ilin mart ayından başlayaraq antisovet millətçi qrupunuza daxil olanların əksinqilabi fəaliyyətindən danışın». Ağayev: «1942-ci ilin martından bizim qrup öz praktiki antisovet fəaliyyətini fəallaşdırdı. Qrupumuza Rzayev Məmmədhüseyn qəbul edildi. Onu qrupumuza İsgəndərov cəlb etdi. Biz müzakirəyə bəzi təşkilat məsələlərini qoyduq. Təşkilatımızın üzvlərinin sayının artırılması, əksinqilabi vərəqələrin çapı və yayılması haqda məsələləri müzakirə və ÜİK(b)P-nin milli siyasətini tənqid edirdik. İsgəndərov bizim hamımızı mövcud quruluşun əleyhinə aktiv fəaliyyətə keçməyə çağırırdı. O deyirdi ki, biz hamımız Azərbaycan xalqının vətənpərvərləri kimi yorulmadan çalışmalıyıq ki, Azərbaycan xalqı diktatorluq və zalımlıqdan azad olunsun. Azərbaycan SSRİ-dən ayrılsın və burada Türkiyədəki kimi milli respublika təşkil edilsin. Biz hamımız İsgəndərovla razılaşdıq, qərara gəldik ki, hər birimiz yazılı and içək və İsgəndərov bu andı elə orada tərtib etdi. Həmin yığıncaqda İsgəndərov və Mustafayev qrupumuzun proqramı və nizamnaməsini tərtib etdilər və biz də razı olduq. Lakin sonra təşkilat məsələlərində ixtilaflar üzündən bizim dəstə parçalandı. İsgəndərovla işləmək istəmədiyinə görə Rzayev Məmmədhüseyn ayrıldı və yeni antisovet qrupunun təşkili ilə məşğul oldu».

İsgəndərov Süleymanın tərtib etdiyi andın mətni:

«Mən... məsləyimə and içirəm: vətənimin azadlığı uğrunda öz həyatımı, əmlakımı əsirgəməyəcəyəm. Mən ana vətənə and içirəm: yüksək idealın – millətimin şərəfi uğrunda, onun xoşbəxtliyi uğrunda, onun şərəfinə və namusuna toxunmağa cəhd edən düşmənlərə qarşı son damla qanımadək

vətən qəhrəmanlarının sırasında olacaq və lazım gələrsə öz həyatımı bu yüksək milli idealın həyata keçməsi işinə həsr edəcəyəm.

Mənim idealım millətimi əsirlik zülmündən xilas etməkdir. Mənim məsləyim milli-sosialist, milli xoşbəxtlik cəmiyyətinin yaradılması üçün yeganə vasitə olan kəmalizmdir. Yaşasın kəmalizm!

Mən and içirəm ki, firqə tapşırıqlarını sözsüz yerinə yetirərək , bu işdə ən dəhşətli ölüm olsa belə, əlim titrəməyəcək, könlüm əsməyəcəkdir. Mən millətimin xoşbəxtliyinə zərər verəsi hərəkət etməyə cəhd edərəmsə, qoy tarix və onu yaradan parlaq qüvvələr məni lənətləsin, "xain" deyə damğalasın, ən şiddətli cəzaya məhkum etsin. Mən xain çıxaramsa, qoy məzarımı qanqallıqlarla örtülü olsun!»

1942-ci il avqustun 17-də keçirilən dördüncü dindirmədə Ağayev Hüseynağa Məmmədov Ağa Ələsgər və Rzayev Saleh haqqında ifadə verirdi.

Avqustun 23-də keçirilən beşinci dindirmə: Arışanov: «Sizin antisovet millətçi bölmənizin adı nə idi – qrup, yoxsa təşkilat?» Cavab: «Qrup və ya dəstə». (Andda «firqə» adlanır. – Z.B.). Sual: «Sizin əksinqilabi dəstənin üzvləri necə şrift tapmalı və əksinqilabi vərəqələri necə çap etməli idi?» Cavab: «Dəstəmiz məni mətbəəyə işə düzəldəcəkdi və mən oradan şrift götürməliydim». Sual: «Sizin əksinqilabi dəstəniz haradan və şəxsən kimdən praktiki rəhbərlik və göstərişlər alırdı?» Cavab: «Bizim əksinqilabi dəstəmizin təşkilinin əsas təşəbbüskarı İsgəndərov Süleyman idi və ayrı-ayrı məsələlər üzrə göstərişlər ondan gəlirdi». Sual: « O, sizin əksinqilabi dəstəniz qarşısında nə kimi məsələlər qoyurdu?» Cavab: «Dəstəmiz qarşısında o, təşkilata yeni üzvlərin qəbul olunması məsələsini qoyurdu və biz hesab edirdik ki, Azərbaycanda Türkiyədəki kimi milli müstəqil hökumət təşkil olunmalıdır».

1942-ci il sentyabrın 4-dəki altıncı dindirmədə Arışanov yenə də təşkilatın tərkibi haqqında sorğu-sual edir. Ağayev Hüseynağa göstərir ki, dəstələrinə Mehdiyev Zaman, Rüstəmov Ramiz, Bağırov Şüca və Bağırov Həsən də daxil idilər.

1942-ci il iyunun 29-da Arışanov Bakıda yaşayan və dəmiryolu texnikumunda oxuyan Mustafayev Çingizin həbs edilməsi və Azərbaycan SSR CM-nin 72-ci maddəsinin 11-ci hissəsi və 73-cü maddəsi ilə məsuliyyətə cəlb olunması haqqında qərar çıxarır.

İyulun 7-də 748 nömrəli orderlə Aruşanov Mustafayevi Poluxin küçəsindəki 23 nömrəli evdə həbs edir. (Bu səkkiz nəfərdən ən çox – 15 dəfə dindirilən təkcə Mustafayev olub. Onun mərdliyinə və iki müstəntiqin Aruşanovla Arustamovun basqılarına dözməsinə heyran qalırsan. – Z.B.).

1942-ci il iyulun 8-də keçirilən birinci dindirmə: Müstəntiqlər: «Siz əksinqilabi fəaliyyətinizə görə həbs edilmisiniz. İstintaq əvvəldən sizə təklif edir ki, hər şeyi doğruluqla boynunuza alıb, öz əksinqilabi işiniz haqqında danışasınız». Mustafayev: «Mən doğruluqla və səmimiyyətlə istintaqa deyirəm ki, əksinqilabi fəaliyyətlə məşğul olmamışam».

İkinci dindirmə iyulun 10-da saat 22:30 dəqiqədən iyulun 11-də gecə saat 02:45 dəqiqəyədək, yəni 4 saat 15 dəqiqə davam etmişdir. Müstəntiqlər bircə sual verdilər. «İyulun 8-də istintaq ona görə dayandırılmışdır ki, siz Sovet hökumətinin əleyhinə törətdiyiniz cinayətlər haqqında fikirləşib, bu cinayətləri gələcəkdə əbəs yerə inkar etməyinizi dərk edərək səmimi olaraq bunları boynunuza alasınız». Mustafayev: «Mən Sovet hökumətinin əleyhinə heç bir cinayət etməmişəm və mənə isnad olunan ittihamı düzgün hesab etmirəm».

1942-ci il iyulun 11-də keçirilən üçüncü dindirmə: Müstəntiq: «Siz öz əksinqilabi fəaliyyətiniz haqqında ifadə vermək barəsində fikirləşirsiniz. ya yox? İstintaq bir daha sizə xəbərdarlıq edir ki, inadınız əbəsdir və təklif edirik ki, hər şeyi boynunuza alasınız». Cavab: «Mənim heç bir əksinqilabi fəaliyyətim olmayıb və ola da bilməzdi». Sual: «Bəs onda sizin müttəhimlər skamyasına düşməyinizi nə ilə izah etmək olar?» Cavab: «Deyə bilmərəm». Sual: «İstintaq sizi bir daha xəbərdar edir ki, Sovet hakimiyyəti qarşısında siyasi cinayət törətdiyinizə görə həbs edilmisiniz və buna görə də özünüzü sadəlövh adam kimi göstərməyib danışasınız». Cavab: «Mən Sovet hakimiyyəti qarşısında heç bir siyasi cinayət etməmişəm və buna görə də heç bir sözüm yoxdur». Sual: «Beləliklə, siz inad göstərmək fikrindəsiniz?» Cavab: «Yox, mən inad göstərmirəm, ancaq həqiqəti deyirəm. Sovet hakimiyyəti qarşısında mənim heç bir cinayətim olmayıb». 1942-ci il iyulun 13-də keçirilən dördüncü dindirmə: (üç saat 40 dəqiqə). Müstəntiqlər: «İstintaq sizə bir daha xəbərdarlıq edir ki, öz inadınızla öz cəzanızı yüngülləşdirə bilməyəcəksiniz. Bununla siz yalnız Sovet hakimiyyətinə düşmən simanızı daha parlaq tanıtdırarsınız. Mənasız hərəkətinizi kənara atıb, antisovet fəaliyyətiniz haqqında ifadə verməyə başlayın». Cavab: «Mən Mustafayev, heç bir antisovet iş görməmişəm və ifadə verməyim

üçün heç bir şey yoxdur». Müstəntiqlər: «Biz yenə bildiririk ki, siz Mustafayev azadlıqda olanda antisovet işlərlə məşğul idiniz. Buna görə də işin mahiyyəti üzrə ifadə verməyinizi təklif edirik». Cavab: «Azadlıqda olanda mən heç bir antisovet iş aparmamışam». Müstəntiqlər: «Siz hələ də istintaqda özünüzü qeyri-səmimi aparırsınız. Öz antisovet fəaliyyətiniz haqqında ifadə vermək fikrindəsiniz, ya yox?» Cavab: «Mən istintaqda özümü səmimi aparıram. Antisovet işlərlə məşğul olmamışam».

1942-ci il iyulun 21-də keçirilən altıncı dindirmədə müstəntiqlər Mustafayev Çingizə onun Azərbaycan SSR CM-nin 72-ci maddəsinin, II hissəsi və 73-cü maddəsi ilə məsuliyyətə cəlb olunması haqqında qərarı təqdim edirlər. Bundan sonrakı sual: «Siz ifadə vermək fikrindəsiniz, yoxsa mənasız və lüzumsuz tərslik göstərməkdə davam edəcəksiniz?» Cavab: «Mənə təqdim olunan ittihamla tanış olduqdan sonra bildirirəm ki, mən antisovet millətçi gənclər dəstəsinin üzvü olmamışam. Mənə təqdim edilən ittihamı düzgün hesab etmirəm». Müstəntiqlər: «Sizin etirazınız heç bir şeylə əsaslanmır. Sizə ittihamı təqdim etdikdə, istintaq tamamilə inandırıcı materiallara əsaslanırdı. Buna görə də düzgün ifadə verməyin vaxtı gəlib çatıb». Cavab: «Mən doğru danışıram. Mən antisovet dəstənin üzvü deyiləm». Müstəntiqlər: «Hələ azad gəzərkən və düşmən ruhlu olarkən siz, Mustafayev, antisovet dəstəsinə daxil idiniz və buna görə də təklif edirik ki, siz öz antisovet günahlarınız haqda doğru ifadə verəsiniz». Cavab: «Bildirirəm ki, mən Sovet hökumətinə düşmənçilik bəsləmirdim və heç bir antisovet dəstəsinə daxil olmamışam».

1942-ci il iyulun 22-də keçirilən yeddinci dindirmə: (beş saat!). Müstəntiqlər: «Sizə təqdim olunan ittihamdan sonra istintaq təklif edir ki, siz öz antisovet işiniz və gənclər dəstəsinə daxil olan məsləkdaşlarınızın fəaliyyəti haqqında izahlı ifadə verəsiniz». Cavab: «Bildirirəm ki, mən gənclər dəstəsinin üzvü olmamışam və buna görə də mən heç bir şeydən ifadə verən deyiləm. Öz yaxın yoldaşlarım haqqında mən heç bir mənfi söz deyə bilmərəm, çünki onların hamısının haqqında mən yalnız müsbət söz deyə bilərəm. Mən onların tərəfindən heç bir antisovet hərəkət görməmişəm» Müstəntiqlər: «Xəbərdarlıq edirik ki, bu cür hərəkətinizə görə istintaq sizi ifşa etməyə məcburdur. Buna görə də təklif edirik ki, özünüz öz antisovet fəaliyyətiniz haqqında ifadə verməyə başlayasınız». Cavab: «Mənim antisovet fəaliyyətim olmayıb».

Bundan sonra Arustamov və Aruşanov Mustafayevə əlavə 10 sual verib, o biri müttəhimlərin də ifadələrini oxudular. Lakin Mustafayev antisovet gənclər təşkilatına mənsub olmasını qətiyyətlə inkar etdi.

1942-ci il iyulun 28-dəki səkkizinci dindirmə altı saat çəkdi. Bu dindirmədə Mustafayev hər şeyi boynuna alıb etiraf etdi ki, onu antisovet gənclər dəstəsinə İsgəndərov Süleyman cəlb etmişdir.

1942-ci il iyulun 29-da keçirilən doqquzuncu dindirmədə Mustafayev təşkilatın yığıncaqları barədə ifadə verirdi.

29-30 iyulda keçirilən onuncu dindirmədə Mustafayev təşkilatın fəaliyyətindən və vəzifələrindən bəhs edirdi.

İyulun 30-da keçirilən on birinci dindirmədə söhbət təşkilatın nizamnaməsindən, şriftin axtarılmasından və ayda 10-15 manatdan yığılan üzvlük haqqından gedirdi.

1942-ci il avqustun 19-da keçən on ikinci dindirmədə Mustafayev təşkilatın üzvlərindən danışırdı.

Avqustun 20-dəki on üçüncü dindirmə. Müstəntiqlər: «Sizin yığıncaqlar harada keçirilirdi?» Cavab: «Ağayevin evindən başqa bizim təşkilatın üzvləri mənim evimdə və İsgəndərovun qohumunun evində də yığışırdılar». Sual: «Sizin yığıncaqlar necə keçirdi?» Cavab: «Təşkilati məsələlər müzakirə olunurdu; şriftin axtarılması, kağızın alınması, vəsaitin toplanması və yeni üzvlərin cəlb olunması məsələlərinə baxılırdı. Sonuncu məsələ ilə İsgəndərovla Rzayev Məmmədhüseyn məşğul idilər».

1942-ci il sentyabrın 3-də keçirilən on dördüncü dindirmə. Müstəntiqlər: «İstintaqın əlində məlumat var ki, Almaniya ilə müharibə başlanandan sonra siz və antisovet dəstənizin başqa üzvləri birlikdə, 1941-ci ilin iyul-avqust aylarında millətçi təşkilat yaratmaq fikrindəydiniz. Bunu təsdiq edirsinizmi?» Cavab: «Bəli. Mən və dəstənin başqa üzvləri 1941-ci ilin axırında millətçi təşkilat yaratmaq fikrində idik».

Sentyabrın 7-də keçirilən on beşinci dindirmədə Mustafayev öz şəxsi fəaliyyəti haqqında ifadə verirdi.

1942-ci il iyulun 14-də Aruşanov Bakıda yaşayan Tağıyev Əli Səttarın həbsi və Azərbaycan SSR CM-nin 72-ci maddəsinin, 11-ci hissəsi və 73-cü maddəsi ilə məsuliyyət daşıması haqda qərar çıxarır.

İyulun 7-də 828 №-li orderlə Aruşanov Tağıyevi Zamkovski döngəsindəki 60 nömrəli evdə həbs edir.

1942-ci il iyulun 29-da keçirilən birinci dindirmə: Müstəntiq: «Siz əksinqilabi fəaliyyətinizə görə həbs olunmusunuz. İstintaq tələb edir ki,

doğru ifadə verəsiniz». Cavab: «Mənim antisovet cinayətlərim aşağıdakılardan ibarətdir: 1941-ci ilin sonunda məni əksinqilabi fəaliyyətə məktəb yoldaşım İsgəndərov Süleyman cəlb etmişdir. O, məni antisovet millətçi təşkilatına qəbul etdirib və bu təşkilata yeni şəxsləri cəlb edərək öz sıralarını artırır və Sovet hökumətinin əleyhinə fəal işə keçmək fikrində idi. Bu təşkilata İsgəndərov Süleyman, Mustafayev Çingiz, Məmmədov Ağa Ələsgər, Rzayev Saleh, Ağayev Hüseynağa, mən və Rzayev Məmmədhüseyn daxil idik. Biz əksinqilabi vərəqələrin çapına və yayılmasına hazırlaşır, antisovet yığıncaqlar təşkil edir, təşkilatın ehtiyacları üçün pul yığır və sistematik olaraq antisovet millətçi söhbətlər keçirirdik».

1942-ci il avqust ayının 1 və 2-də keçirilən ikinci dindirmədə Tağıyev Ələsgər göstərirdi ki, o, 1940-cı ilin dekabrından etibarən Azərbaycan gənclərindən ibarət olan antisovet millətçi təşkilatın üzvüdür. Müstəntiqin sualı: «Sizin antisovet birliyiniz necə adlanırdı – dəstə, yoxsa təşkilat?» Cavab: «Bizim antisovet birliyi təşkilat adlanırdı».

1942-ci il avqust ayının 5-də və 6-da keçirilən üçüncü dindirmə: Tağıyev Ələsgər təşkilatın fəaliyyətindən ifadə verib deyirdi ki, təşkilatın rəhbəri olan Süleyman İsgəndərov göstərişləri «yuxarıda» olan vəzifəli şəxslərdən aldığını söyləyirdi, ancaq onların haqqında bizə heç bir şey demirdi.

Avqust ayının 7-də keçirilən dördüncü dindirmə. Müstəntiq: «Sizin antisovet əksinqilabi millətçi təşkilatınız qarşısına nə kimi məqsədlər qoyurdu?» Cavab: «1. Antisovet ruhlu gənc azərbaycanlıları antisovet millətçi təşkilatına cəlb edərək təşkilat üzvlərinin sayını artırmaq; 2. Şrift, kağız və sairə materialları əldə edib antisovet vərəqə və proklamasiyaları çap edərək əhali arasında yaymaq; 3. Kamalist Türkiyəsini nümunə götürərək Azərbaycanda müstəqil dövlət yaratmaq; 4. Xaricdə cərəyan edən hadisələri bilmək üçün radioqəbuledici alıb, ayrıca otaq taparaq orada verilişləri dinləmək; 5.Bizim bütün işimiz Sovet hakimiyyətini yıxıb Azərbaycanda müstəqil dövlət qurmağa istiqamətlənirdi». Sual: «Sizin antisovet təşkilatınızın praktiki fəaliyyəti nədən ibarət idi?» Cavab: «1940-cı il dekabr ayından 1942-ci ilin mayınadək biz təxminən 10 yığıncaq keçirdik. Yığıncaqlarda biz təşkilatı məsələləri, təşkilatımıza cəlb olunan yeni şəxslərin namizədliyini, təşkilatımızın üzvləri üçün andın hazırlanmasını, nizamnamənin yazılmasını və şriftin əldə edilməsini müzakirə edirdik. Üzvlük haqqını toplamaq üçün Mustafayev Çingizi seçdik. Ayda 20 manat yığırdıq. Şəxsən mən iki dəfə pul vermişəm».

1942-ci il avqustun 18-də keçirilən beşinci dindirmədə müstəntiq Tağıyevə digər məhbusları tanımaq üçün onların fotoşəkillərini göstərdi.

Sentyabrın 4-də keçirilən altıncı dindirmə: Müstəntiq: «Siz antisovet millətçi təşkilatınızın başqa üzvlərinin adlarını çəkmədiniz». Cavab: «Bizim təşkilata Rüstəmov Ramiz, Bağırov Həsən, Bağırov Şüca və Mehdiyev Zaman da daxil idilər».

1942-ci il sentyabrın 8-də keçirilən yeddinci dindirmədə müstəntiq Aruşanov Tağıyev Ələsgəri Azərbaycan SSR CM-nin 72-ci maddəsinin 11-ci hissəsi və 73-cü maddəsi ilə məsuliyyətə cəlb olunması haqda qərarla tanış edir.

1942-ci il avqust ayının 21-də Aruşanov Bakıda yaşayan ADU-nun filologiya fakültəsinin III kurs tələbəsi Məmmədov Ağa Ələsgər Rza oğlunun həbs olunması haqda qərar çıxarır.

1942-ci il avqustun 23-də 961 №-li orderlə Məmmədov Ağa Ələsgər Ostrovski adına küçənin 5-ci dalanındakı 4 nömrəli evində həbs edildi.

1942-ci il sentyabr ayının 12-də beş saat sürən birinci dindirmə. Aruşanov: «Siz Azərbaycan gənclərinin əksinqilabçı millətçi təşkilatının üzvü kimi həbs olunmusunuz. Bu işdə özünüzü müqəssir bilirsinizmi?» Cavab. «Bəli, bu işdə mən özümü müqəssir bilirəm, həmin təşkilata məni 1941-ci il iyul ayında İsgəndərov Süleyman cəlb etdi. Bu belə olmuşdur: Məktəbi bitirdikdən sonra mən dostum Rzayev Salehlə birlikdə «Ölülər xəyanəti» adlı bir pyes yazdıq. 1940-cı ilin sonunda pyesimizi apardıq ədəbiyyat üzrə müəllimimiz olan Qarabağlı Əliyarın yanına. Evində İsgəndərov Süleymana rast gəldik və o, Sovet hökumətinin əleyhinə mübarizə və müstəqil Azərbaycan dövlətinin yaranması haqqında ortaya məsələ qoydu».

1942-ci il sentyabrın 11-də keçirilən ikinci dindirmə. Aruşanov: «Siz Azərbaycan SSR CM-nin 72-ci maddəsinin 11-ci hissəsi və 73-cü maddəsi ilə təqsirləndirilirsiniz və bu haqda sizə qərar təqdim olunur. İşin mahiyyəti üzrə nə deyə bilərsiniz?» Cavab: «Bu qərarı mən tamamilə təsdiq edirəm. Həqiqətən mən 1942-ci ilin iyul ayında İsgəndərov Süleyman tərəfindən əksinqilabi antisovet millətçi təşkilatına cəlb edilmişəm. Yığıncaqların birində iştirak etmişəm və orada Sovet hökumətinin əleyhinə mütəşəkkil mübarizə aparılması, bunun üçün əksinqilabi millətçi təşviqatın genişlənməsi, əksinqilabi vərəqələrin çapı və yayılması kimi məsələlər müzakirə olunurdu. Həmin yığıncaqda mənimlə birlikdə təşkilata Rzayev Saleh də qəbul olunmuşdu».

1942-ci il sentyabr ayının 4-də müstəntiq Aruşanov Bakı milis məktəbinin kursantı Rzayev Saleh Əbdülhüseyn oğlunun həbs olunması haqqında qərar çıxarır.

1942-ci il sentyabrın 4-də 1014 nömrəli orderlə Rzayev Saleh Şors küçəsindəki 49 nömrəli evdə həbs olunur. 1942-ci il sentyabrın 6-da keçirilən birinci dindirmə. Müstəntiq: «Siz əksinqilabi fəaliyyətinizə görə həbs olunmusunuz. Özünüzü bu işdə müqəssir bilirsinizmi?» Cavab: «Mən heç vaxt əksinqilabi fəaliyyətlə məşğul olmamışam və mənə isnad edilən cinayətdə özümü müqəssir hesab etmirəm».

Sentyabrın 8-də keçirilən ikinci dindirmədə Rzayev Saleh göstərir: «Bəli, mən Rzayev Saleh, 1941-ci ilin iyulunda tərkibinə daxil olduğum Azərbaycan gənclərindən ibarət əksinqilabi millətçi təşkilatın üzvü idim». Sual: «Sizdən başqa bu təşkilata kimlər daxil idi?» Cavab: «Məndən başqa təşkilata İsgəndərov, Məmmədov, Tağıyev, Ağayev və Mustafayev daxil idilər. Təşkilat Azərbaycan xalqının azadlığı və vahid, müstəqil milli dövlət yaratmaq uğrunda çalışırdı».

Sentyabrın 10-da keçirilən üçüncü dindirmədə Rzayev Saleh təşkilatın gördüyü işlər haqqında ifadə verirdi.

Sentyabrın 15-də müstəntiq Rzayev Salehi Azərbaycan SSR CM-nin 72-ci maddəsinin 11-ci hissəsi və 73-cü maddəsi ilə məsuliyyətə cəlb olunması haqda qərarla tanış edir.

Sentyabrın 16-da keçirilən dördüncü dindirmədə Rzayev Saleh ifadəsində göstərdi ki, o və Məmmədov Ağa Ələsgər təşkilatın iclaslarında iştirak etməmək qərarına gəlib həmin təşkilatdan çıxdılar.

Sentyabrın 30-da keçirilən beşinci dindirmə. Aruşanov: «Əksinqilabi millətçi gənclər təşkilatının üzvlərinin adlarını deyin». Cavab: «İsgəndərov Süleyman, Mustafayev Çingiz, Tağıyev Ələsgər, Məmmədov Ağa Ələsgər, Ağayev Hüseynağa, Bağırov Şüca, mən və Rzayev Saleh». Sual: «Evlərində antisovet söhbətləri aparan adamların yığıncaqları haqqında İsgəndərovun valideynlərinin xəbərləri var idimi?» Cavab: «Məncə yox». Sual: «Şəxsən siz yaşlı adamlara bu millətçi təşkilat haqqında danışmısınızmı?» Cavab: «Bu barədə mən heç kəsə bir söz deməmişəm».

1942-ci il iyunun 29-da Aruşanov Bakıda gizli yaşayan İsgəndərov Süleyman Əli Abbas oğlunun həbs olunması haqqında qərar çıxarır.

1942-ci il iyulun 3-də 746 nömrəli orderlə İsgəndərov Süleyman həbs edildi. 1942-ci il avqustun 30-da keçirilən birinci dindirmə. Aruşanov: «İs-

tintaqın əlində məlumat var ki, siz gənclər arasında əksinqilabi millətçi təşkilatın yaranmasının təşəbbüsçüsü idiniz. Mahiyyəti üzrə müfəssəl məlumat verin». Cavab: «Bəli, etiraf edirəm ki, mən, İsgəndərov Süleyman, gənclər arasında fəaliyyət göstərən əksinqilabi millətçi təşkilatın rəhbər üzvü idim» Sual: «Sizin əksinqilabi millətçi təşkilatınızın tərkibini göstərin». Cavab: «Mustafayev, Tağıyev, Ağayev, Rzayev Saleh, Məmmədov, Rüstəmov, Mehdiyev, Bağırov Həsən və Rzayev Məmmədhüseyn».

1942-ci il sentyabrın 3-də keçirilən ikinci dindirmə. Aruşanov: «Sizin əksinqilabi təşkilatınız nə zaman və necə meydana gəlib?» Cavab: «Bizim əksinqilabi antisovet təşkilatımız 1941-ci ilin iyul ayında ardıcıl əksinqilabi millətçi söhbətlərindən sonra təsis olundu. Biz antisovet mövqeyindən ÜİK(b)P və Sovet hökumətinin tədbirlərini pisləyir, partiyanın milli siyasətini ciddi tənqid edib israr edirdik ki, Azərbaycan suveren milli dövlət kimi formal həyat sürür və xəyalımızda həqiqi müstəqil Azərbaycanı görürdük. Biz Sovet hökumətinin əleyhinə mütəşəkkil mübarizəni özümüzə yeganə vasitə və silah seçmişdik. Biz, yəni mən, Tağıyev və Mustafayev razılığa gəldik ki, Azərbaycan gəncləri arasında əksinqilabi təşkilat yaradaq. Beləliklə, bizim rəhbər üçlüyümüz təşkil olundu və biz öz təşkilatımıza gəncləri cəlb etməyə başladıq. Qısa bir vaxt ərzində təşkilatımızın üzvlərinin sayı on nəfərə çatdı. Biz Ağayev Hüseyni, Tağıyev Şücanı, Bağırov Həsəni, Rüstəmov Ramizi, Mehdiyev Zamanı, Rzayev Salehi və Məmmədov Ağa Ələsgəri təşkilatımıza cəlb etdik.

Biz sistematik olaraq evlərimizdə antisovet yığıncaqları təşkil edərək, ÜİK(b)P və Sovet hökumətinin bütün tədbirlərini əksinqilabi yöndən tənqid edirdik. (Kommunist Partiyasının milli məsələlər üzrə siyasətini xüsusilə pisləyirdik. Biz azərbaycanlıların özlərinin milli dövlətlərini yaratmalarının zəruriliyi haqqında söhbət edirdik. Biz ÜİK(b)P-nin bütün tədbirlərini deyil, yalnız milli siyasətini tənqid edirdik. Biz vərəqələr vasitəsilə Azərbaycan xalqını elə hazırlamaq istəyirdik ki, alman qoşunları Azərbaycanın sərhədinə yaxınlaşanda onları öz silahlı qüvvələrimizlə dəf edək və sonra da burada müstəqil milli dövlət elan edək. Çünki başqa cür Azərbaycanı SSRİ-dən ayırmaq mümkün olmazdı».

1942-ci il sentyabrın 6-da keçirilən üçüncü dindirmə. Aruşanov: «Siz əksinqilabi təşkilata daxil olanların hamısının adını çəkmədiniz. İstintaq tələb edir ki, əksinqilabi təşkilatın tam tərkibini göstərəsiniz». Cavab: «Saydıqlarımdan başqa təşkilatda ayrı adam yox idi». Müstəntiq: «Bəs

Qüdrət adlı tələbə?» Cavab: «Xeyr, Qüdrət bizim təşkilata daxil deyildi. Rzayev Sabir və Şükür haqda danışırdı, amma o, nədənsə onları cəlb etmədi. Rzayevin dediyinə görə Şükür təşkilatımıza daxil olmaqdan imtina edib».

Sentyabrın 7-də keçirilən dördüncü dindirmə. Sual: «Siz hamısının adlarını çəkmədiniz». Cavab: «Bir də ASİ-nin energetika fakültəsinin tələbəsi Tofiq Mirzəcamalov var idi. Onu təşkilatımıza Mustafayev Çingiz cəlb etmişdi».

Sentyabrın 9-da keçirilən beşinci dindirmə. Aruşanov: «Şəxsən siz əksinqilabi təşkilata kimləri cəlb etmisiniz?» Cavab: «Bağırov Həsəni, Rzayev Salehi və Məmmədov Ağa Ələsgəri. 1941-ci ildə mən ADU-nun filologiya fakültəsinin tələbəsi Rzayev Məmmədhüseyni cəlb etməyə çalışdım, lakin o zaman o, razılıq vermədi. Amma 1942-ci ildə bizim təşkilatın işini Ağayev Hüseynağadan öyrənərək özü yanıma gəldi və təşkilata daxil olmağa razılıq verdi». Sual: «Siz əksinqilabi təşkilatın əsl rəhbərlərini istintaqdan gizlədirsiniz. Tələb edirik ki, doğru ifadə verəsiniz». Cavab: «Qətiyyətlə deyirəm ki, əksinqilabi təşkilatın rəhbərləri biz idik: mən, İsgəndərov, Tağıyev və Mustafayev. Biz özümüzü kifayət qədər hərtərəfli inkişaf etmiş və düşüncəli adam hesab edirdik və buna görə də hesab edirdik ki, kənardan heç bir kömək olmadan qarşımıza qoyduğumuz məsələləri özümüz həll edərik».

1942-ci il sentyabrın 10-da İsgəndərova onun Azərbaycan SSR CM-nın 72-ci maddəsinin 11-ci hissəsi və 73-cü maddəsi ilə məsuliyyətə cəlb olunması haqqında qərar təqdim olunur. Həmin gün keçirilən altıncı dindirmə. Müstəntiq: «Sizə cinayət etməyinizə görə CM-nin 72-ci maddəsinin 11-ci hissəsi və 73-cü maddəsi ilə məsuliyyətə cəlb olunmağınız haqqında qərar təqdim olunub. Bu barədə necə ifadə verə bilərsiniz?». Cavab: «Mənə isnad edilən cinayəti boynuma alıram. Həqiqətən mən gənclər arasında əksinqilabi millətçi təşkilatın əsas təşəbbüskarı idim. Bu təşkilat antisovet vərəqələrin çapı və yayılması, təşkilata yeni üzvlərin cəlb edilməsi vasitəsilə Sovet hökuməti əleyhinə fəal mübarizə aparılmasını öz qarşısına məqsəd qoymuşdu. Mən təsdiq edirəm ki, əksinqilabi təşkilatın üzvləri üçün andın mətnini tərtib etmişəm. Mən təsdiq edirəm ki, Mustafayev və Tağıyevlə birlikdə təşkilatımızın məramnaməsinin tərtibində fəal iştirak etmişəm. Bu proqramı biz üçümüz təşkilat üzvlərinin müzakirəsinə qoyduq və proqram qəbul edildi. Proqram yazılı deyildi, biz onu şifahi mü-

zakirə etdik». Sual: «Siz gizli fəaliyyətə nə vaxt keçdiniz və harada gizlənirdiniz?» Cavab: «Mən bilirdim ki, məni həbs edəcəklər və buna görə də 1942-ci ilin mayında gizlənməyə başladım. Qohumlarımın və tanışlarımın evlərində gizlənirdim».

1942-ci il sentyabrın 13-də keçirilən yeddinci dindirmədə İsgəndərov Süleyman gizli fəaliyyəti haqqında ifadə verirdi.

Sentyabrın 27-də keçirilən səkkizinci dindirmədə o, təşkilatın işindən danışırdı.

1942-ci il oktyabrın 1-də keçirilən doqquzuncu dindirmədə İsgəndərov müstəntiqə silahları olub və ya olmadığı haqda ifadə verirdi.

1942-ci il sentyabrın 10-da Aruşanov Bakıda yaşayan Mehdiyev Zaman Zeynal oğlunun həbs olunması haqqında qərar çıxarır.

1942-ci il sentyabrın 11-də 1042 nömrəli orderlə Mehdiyev Kamenisti küçəsindəki 138-ci evin 14-cü mənzilində həbs olundu.

1942-ci il sentyabrın 18-də keçirilən birinci dindirmə. Aruşanov: «Siz əksinqilabi millətçi təşkilatın üzvü olduğunuza görə həbs edilmisiniz. Mahiyyəti üzrə hərtərəfli ifadə veriniz». Mehdiyev: «Mən əksinqilabi millətçi təşkilatda üzv olmağımı təsdiq edirəm».

Sentyabrın 19-dakı ikinci dindirmədə Mehdiyev göstərdi: «Mən, Mehdiyev Zaman, özümü Azərbaycan gəncləri arasında təşkil olunmuş əksinqilabi millətçi təşkilatın üzvlüyündə müqəssir bilirəm. Bizim təşkilat qarşısına belə məsələlər qoyurdu: şifahi və nəşr edilmiş vərəqələr vasitəsilə geniş azərbaycanlı kütlələr arasında Sovet quruluşu əleyhinə aktiv mübarizə aparmaq və Azərbaycanda müstəqil milli dövlət yaratmaq». Aruşanov: «Əksinqilabi millətçi təşkilatın tərkibindən danışın». Cavab: «Təşkilata İsgəndərov, Tağıyev, Mustafayev, Ağayev, Bağırov Həsən, Bağırov Şüca, Rüstəmov Ramiz, Məmmədov, Rzayev Saleh, Mirzəcamalov Tofiq və mən Mehdiyev daxil idik». Sual: «Sizin əksinqilabi millətçi təşkilatınız nə zaman yarandı?» Cavab: «Hələ 1940-cı ildə».

Sentyabrın 22-də keçirilən üçüncü dindirmə. Aruşanov: «Sizi əksinqilabi millətçi təşkilata kim cəlb etdi?» Cavab: «Təşkilatın rəhbərləri İsgəndərov, Tağıyev və Mustafayev. İsgəndərov sədr, Tağıyev Ələsgər və Mustafayev Çingiz onun köməkçiləri seçilmişdilər. İsgəndərov əsas rəhbər idi».

Sentyabrın 29-dakı beşinci dindirmə. Aruşanov: «Sizə Azərbaycan SSR CM-nin 72-ci maddəsinin 11-ci hissəsi və 73-cü maddəsi ilə müqəssir sifətilə işə cəlb olunmağınız haqqında qərar təqdim olunur. Bu barədə nə deyə bilərsiniz?» Cavab: «Mənə isnad olunan ittihamı boynuma alıram».

İş üzrə Aruşanov müqəssirlər arasında 10 dəfə üzləşmə aparıb.

1942-ci il oktyabrın 5-də Aruşanov Bağırov Həsən, Bağırov Şüca, Mirzəcamalov Tofiq, Rüstəmov Ramiz, Nəsibov Məsti, Nuriyev Cəlal və Həbibzadə Şükür haqqında istintaq materiallarını 4438 nömrəli işdən ayırıb, adı çəkilənlərin işlərinin ayrıca baxılması haqqında qərar qəbul edir.

Oktyabrın 5-də Aruşanov, Arustamov və Qriqoryan istintaqın qurtarması haqqında protokol tərtib edirlər. Həmin protokolla tanış olandan sonra müttəhimlərə aşağıdakı sözləri yazdırdılar:

Ağayev Hüseynağa – «Mənim bu işə heç bir əlavəm yoxdur. Xahiş edirəm, mənə cəza təyin edildikdə gəncliyimi nəzərə alıb məni cəbhəyə göndərəsiniz və orada öz cəzamı qanımla silməyə söz verirəm».

Tağıyev Ələsgər – «Boynuma alıram ki, mən çox ağır cinayət etmişəm və Sovet hökuməti qarşısında günahkaram. Buna görə hansı cəza olsa, çəkəcəyəm. Ancaq işimə baxanda mənim istintaqdakı səmimiyyətimi nəzərə almağı xahiş edirəm».

Məmmədov Ağa Ələsgər – «Boynuma alıram ki, mən Sovet hökuməti qarşısında ağır cinayət etmişəm. Xahiş edirəm ki, mənə cəza təyin etdikdə istintaqda səmimi olmağım və gəncliyim nəzərə alınsın. Əgər mümkünsə, xahiş edirəm, məni cəbhəyə göndərsinlər ki, orada cəzamı öz qanımla yuyum».

Rzayev Məmməd Hüseyn – «Boynuma alıram ki, Sovet hökumətinin qarşısında ağır cinayət etmişəm. Mənə cəza veriləndə xahiş edirəm istintaq qarşısında səmimi olmağım və gəncliyim nəzərə alınsın. Əgər mümkünsə, xahiş edirəm, məni cəbhəyə göndərsinlər. Əmin edirəm ki, orada mən öz cəzamı qanımla yuyacağam».

Mehdiyev Zaman – «Boynuma alıram ki, Sovet hökumətinin qarşısında ağır cinayət etmişəm. Hökm çıxaranda xahiş edirəm mənim səmimi olmağım və gəncliyim nəzərə alınsın. Əgər mümkünsə, məni cəbhəyə göndərsinlər. Söz verirəm ki, orada mən öz təqsirimi təmizləyəcəyəm».

Rzayev Saleh – «Mümkünsə, xahiş edirəm, məni cəbhəyə göndərsinlər. Söz verirəm ki, orada cinayətimi qanımla yuyacağam».

Mustafayev Çingiz – «Mən boynuma alıram ki, Sovet hökumətinin qarşısında cinayətim ağırdır. Mənə cəza tətbiq olunarkən, xahiş edirəm, gəncliyim nəzərə alınıb məni cəbhəyə göndərsinlər ki, orada mən öz təqsirimi qanımla yuyum».

İsgəndərov Süleyman – «Boynuma alıram ki, Sovet hökuməti qarşısında ağır cinayət etmişəm və cəzamı çəkməyə hazıram. Əgər mümkünsə, mənə icazə verilsin ki, öz cəzamı cəbhədə qanımla yuyum».

1942-ci il oktyabrın 10-da istintaqın xətmi haqqında protokol tərtib olunur. Oktyabrın 14-də 4438 nömrəli istintaq işi üzrə ittihamnamə tərtib olundu.

«1942-ci ilin may ayında Azərbaycan SSR XDİK-in məxfi-siyasi şöbəsinə Bakıda Türkiyəyə meyli olan və ali məktəb tələbələri arasında Sovet hökuməti əleyhinə fəal mübarizə aparmağı qarşısına məqsəd qoyan əksinqilabi millətçi təşkilat haqda məlumatlar daxil oldu. Bu iş üzrə istintaq aparılarkən müəyyən olundu ki, adı çəkilən əksinqilabi təşkilatın üzvləri, həmin iş üzrə təqsirləndirilən İsgəndərov, Tağıyev və Mustafayev hələ məktəbdə sıx dostluq şəraitində Sovet hökumətinə düşmən münasibət bəsləmiş, hələ 1940-cı ildə öz evlərində yığışaraq sistematik surətdə əksinqilabi millətçi söhbətlər etmiş, sovet həyat tərzinə böhtan atmış, ÜİK(b)P-nin milli siyasətini pisləmiş və Azərbaycanı SSRİ-dən ayıraraq, müstəqil milli dövlətə çevirmək haqqında fikirlər söyləmişlər.

İttiham edilirlər:

1. İsgəndərov (İsgəndərli) Süleyman
2. Tağıyev Ələsgər
3. Mustafayev Çingiz.

ondan ötrü ki,

a) müharibə başlanandan sonra, yəni 1941-ci ildə onlar Sovet hakimiyyəti əleyhinə mütəşəkkil mübarizə aparmaq üçün gənclər arasında əksinqilabı millətçi təşkilat yaratmışlar;

b) əksinqilabi təşkilata yeni üzvlər cəlb etmişlər;

c) öz evlərində əksinqilabi yığıncaqlar təşkil edib, orada əksinqilabi təşkilatın təcrübi fəaliyyətini müzakirə edirdilər;

ç) təşkilat üzvləri üçün nizamnamə, məramnamə və andın mətnini tərtib etdilər. Mətbəə şriftini tapmaq, radioqəbuledici almaq və əksinqilabi təşkilatları üçün otaq tapmaq imkanı axtarırdılar;

e) ÜİK(b)P-nin milli siyasətini əksinqilabi mövqedən tənqid edir, Sovet həyat tərzinə cürbəcür böhtanlar atır, millətçi ideyalarını təbliğ edir və məğlubiyyətçilik şayiələri yayırdılar, yəni Azərbaycan SSR CM-nin 72-ci maddəsinin II-ci hissəsi və 73-cü maddəsi, ilə nəzərdə tutulan cinayətlərdə;

4. Rzayev Məmmədhüseyn
5. Ağayev Hüseynağa

6. Məmmədov Ağa Ələsgər

7. Rzayev Saleh

8. Mehdiyev Zaman

ondan ötrü ki:

a) müttəhim Rzayev Məmmədhüseyn 1941-ci, Hüseyn isə 1942-ci ildən Bakıda gənclər arasında əksinqilabi millətçi təşkilatın üzvləri idilər;

b) əksinqilabi təşkilatın yığıncaqlarında fəal iştirak edərək müxtəlif məsələləri müzakirə edirdilər;

c) antisovet millətçi və məğlubiyyətçilik təbliğatı aparırdılar, yəni Azərbaycan SSR CM-nin 72-ci maddəsinin 11-ci hissəsi və 73-cü maddəsi ilə nəzərdə tutulan cinayətlərdə».

1942-ci il oktyabrın 21-də 4438 nömrəli istintaq işi baxılmaq üçün Azərbaycan SSR XDİK qoşunlarının hərbi tribunalına göndərilmişdir.

Oktyabrın 23-də Mamayevin sədrliyi altında hərbi tribunalın hazırlıq iclasının protokolu tərtib olunur:

a) işin icrası məhkəmənin sərəncamına götürülsün;

b) ittihamnamə təsdiq edilsin;

c) İsgəndərov və başqa 7 nəfər Azərbaycan SSR CM-nin 72-ci maddəsinin 11-ci hissəsi və 73-cü maddəsi ilə məhkəməyə verilsin;

q) işə qapalı məhkəmə iclasında baxılsın, tərəflərin iştirakı olmasın və şahidlər çağırılmasın».

Oktyabrın 30-da müttəhimlər ittihamnamənin surətini aldılar.

1942-ci il oktyabrın 31-də saat 11-də Daxili işlər komissarlığı qoşunlarının hərbi tribunalının iclası açılmışdır. Saat 12:55 dəqiqədə məhkəmə müşavirə otağına keçir, saat 13:40 dəqiqədə məhkəmə hökmünü çıxarır və saat 13:50 dəqiqədə məhkəmə iclasını bağlı elan edir.

«...Məhkəmə hökm çıxardı:

1. İsgəndərov Süleyman Əli Abbas oğlu,

2. Tağıyev Ələsgər Əli Səttar oğlu,

3. Rzayev Məmmədhüseyn həbib oğlu –

Azərbaycan SSR CM-nin 72-ci maddəsinin 11-ci hissəsi əsasında ən ağır cəzaya – güllələnməyə məhkum olunsunlar;

4. Mustafayev Çingiz Seyfulla oğlu,

5. Ağayev Hüseyn Ağa Mirhaşım oğlu,

6. Məmmədov Ağa Ələsgər Rza oğlu,

7. Rzayev Saleh Əbdülhüseyn oğlu,

8. Mehdiyev Zaman Zeynal oğlu –

Azərbaycan SSR CM-nin 72-ci maddəsinin 11-ci hissəsi əsasında 10 (on) il azadlıqdan məhrum olunsunlar.

Hökm qətidir».

1942-ci il noyabrın 12-də Azərbaycan SSR Daxili işlər komissarlığı qoşunlarının hərbi tribunalının sədri Mamayev Zaqafqaziya cəbhəsinin hərbi tribunalının sədri Matuleviçə İsgəndərovun, Tağıyevin və Rzayev Məmmədhüseynin güllələnməsi haqqında hökmünü göndərir. Bir neçə gündən sonra Matuleviç Bakıya Mamayevin adına 2640 nömrəli teleqram göndərir: «Məhkum olunmuş İsgəndərov Süleyman, Tağıyev Ələsgər və Rzayev Məmmədhüseyn haqqında çıxarılmış hökmü icra edin. Hökmün icrasını bizə bildirin». (Bu həmin Matuleviçdir ki, 1937-1938-ci illərdə Azərbaycan ziyalılarının qatili olub. – Z.B.).

1942-ci il dekabrın 16-da Mamayev Azərbaycan SSR Daxili işlər komissarı Yaqubovun ünvanına aşağıdakı məktubu göndərir:

«Azərbaycan SSR Daxili işlər komissarlığı hərbi tribunalının İsgəndərov S, Tağıyev Ə. və Rzayev M.H. haqqında çıxardığı hökmün – güllələnmənin yerinə yetirilməsi haqqında sərəncam verməyinizi xahiş edirəm. İsgəndərov S, Tağıyev Ə. və Rzayev M.H. Azərbaycan SSR CM-nin 72-ci maddəsinin 11-ci hissəsi ilə 1942-ci il oktyabrın 31-də məhkum olunmuşlar.

Hökmün icrası haqqında tribunala xəbər verin».

1942-ci il dekabrın 28-də Azərbaycan SSR Daxili işlər komissarı Yaqubov Mamayevə xəbər verir ki, hərbi tribunalın İsgəndərov (İsgəndərli) Süleyman Abbas oğlu, Tağıyev Ələsgər Əli Səttar oğlu və Rzayev Məmməd Hüseyn Həbib oğlu haqqında çıxardıgı hökm – güllələnmə 1942-ci il dekabrın 24-də yerinə yetirilmişdir.

1943-cü il yanvarın 5-də Mamayev Matuleviçə xəbər verir ki, İsgəndərov Süleyman, Tağıyev Ələsgər və Rzayev Məmmədhüseyn 1942-ci il dekabrın 24-də güllələniblər.

1959-cu il oktyabrın 11-də Zaqafqaziya hərbi dairəsinin hərbi prokuroru 4438 nömrəli iş üzrə qərar çıxarır: «Müstəntiq Aruşanov və Arustamov Qriqoryanla birlikdə 1942-ci ildə məhkum olunmuş İsgəndərov, Tağıyev və başqaları haqqında istintaq aparanda murdar və fitnəkar üsullara əl atırdılar. İşin yoxlanılması nəticəsində yeni faktlar müəyyən olundu ki, bunlar İsgəndərov, Tağıyev və digərlərinin məhkum olunmalarının əsassız olduğunu sübut edir.

Buna görə də Azərbaycan SSR Daxili işlər komissarlığı qoşunları hərbi tribunalının1942-ci il oktyabr ayının 31-də çıxarılan hökmü ləğv olunmalı və İsgəndərov və başqaları haqqında iş xətm edilməlidir».

1959-cu il dekabrın 11-də SSRİ Baş hərbi prokuroru Tağıyev və başqalarının işi haqqında etiraz yazmış və aşağıdakı səbəblərə görə hökmün ləğvini və işin tərkibində cinayət olmadığı üçün xətm edilməsini tələb etmişdir:

«İsgəndərov, Tağıyev və başqalarının ittihamı yalnız onların özlərinin istintaqda və məhkəmədə etdikləri etiraf üzərində qurulmuşdur. Başqa sübutlar yoxdur. Müttəhimlər müstəntiqlərin hədələməlari və onların güllələnmə ilə qorxutmaları nəticəsində özlərinə və bir-birinə böhtan atırdılar. Buna görə həmin iş üzrə çıxarılmış hökm ləğv olunmalı və cinayət tərkibi sübut olunmadığına görə işin özü xətm edilməlidir.

1960-cı il yanvarın 5-də Zaqafqaziya hərbi dairəsinin hərbi tribunalı 227 nömrəli qərar çıxarır. Hərbi tribunal müəyyən etdi: «İsgəndərov, Tağıyev, Rzayev Məmmədhüseyn, Mustafayev, Ağayev, Məmmədov, Rzayev Saleh və Mehdiyev ondan ötrü təqsirləndiriliblər ki, onlar Bakıda mövcud olan və İsgəndərovun, Tağıyevin və Mustafayevin təşəbbüsü ilə yaranan əksinqilabi millətçi təşkilatın üzvləri idilər. İş üzrə materiallardan görünür ki, yuxarıda adları çəkilənlərin ittihamı yalnız onların özlərinin təqsiri boyunlarına almaq etirafları üzərində qurulub. Onların antisovet təşkilatına üzvlüyünü təsdiq edən ayrı sübutlar işin içində yoxdur. Beləliklə, məhkum olunanların istintaqda və məhkəmədə verilən ifadələri heç bir obyektiv materiallarla təsdiq olunmayıb və bunların doğruluğu yoxlanılmayıb. Amma əlavə yoxlanılma müəyyən edib ki, məhkum olunanların ifadələri həqiqətə uyğun gəlmir və onların özlərinə və bir-birinə böhtan atmalarından ibarətdir. Bu da onlara istintaqda qeyri-qanuni üsulların tətbiqi nəticəsində olub.

Məsələn, məhkum Ağayev əlavə dindirilməsində göstərdi ki, birinci dəfə ona isnad olunan ittihamları rədd edib. Amma müstəntiq Aruşanov ondan başqa həbs olunanların ifadələrinin təsdiqini tələb edəndə və əvəzində onun özünün həbsdən azad edilməsini vəd verəndə o, ağciyərlik edib, müstəntiqin hazırladığı uydurma sənədlərin hamısına qol çəkib. Məhkəmədə Ağayev dindirilərkən yazılan ifadələrini təsdiq edib, çünki müstəntiq inandırıb ki, onu məhkəmədən sonra azad edəcəklər.

Mehdiyev də təsdiq edib ki, müstəntiq Aruşanov onu dilə tutub, gəncliyindən və təcrübəsizliyindən istifadə edib, özü tərtib etdiyi dindirmə protokolunu imzalatdırıb.

Rzayev Saleh müstəntiq Aruşanovun onu güllələnmə ilə hədələməsi nəticəsində öz-özünə və heç bir təqsiri olmayan başqa yoldaşlarına böhtan atmışdır. Aruşanovun təzyiqi və həbslə hədələməyi nəticəsində Məmmədov da dindirmə protokollarını imzalayaraq öz-özünə və başqalarına böhtan ataraq etmədiyi dövləti cinayətləri boynuna almışdır. Məmmədovun ifadələrindən görünür ki, o, bu haqda məhkəmədə demişdir, lakin məhkəmə onun bu sözlərinə əhəmiyyət verməmişdir.

Müstəntiq Aruşanov haqqında Azərbaycan SSR Ali Məhkəməsinin xüsusi qərarı çıxarılıb və orada Aruşanovun qanuna zidd üsulla apardığı istintaqa görə məhkəməyə cəlb olunması tələb olunur.

O ki qaldı «And»ın mətni məsələsi, göstərilməlidir ki, bu andın işin tərkibinə necə daxil olunduğu işin materiallarından bəlli deyildir və bu andın tərtibçisinin kimliyi də bilinmir. Aruşanov tərəfindən işə əlavə edilmiş «and»ın mətninin özü belə onun həqiqi olmasına şübhə doğurur.

SSRİ Ali Soveti Rəyasət heyətinin 14.08.1954-cü il tarixli fərmanını əsas tutaraq hərbi tribunal qərar çıxardı:

İsgəndərov Süleyman Əli Abbas oğlu, Tağıyev Ələsgər Əli Səttar oğlu, Mustafayev Çingiz Seyfulla oğlu, Rzayev Məmmədhüseyn Həbib oğlu, Ağayev Hüseyn Ağa Mirhaşım oğlu, Məmmədov Ağa Ələsgər Rza oğlu, Rzayev Saleh Əbdülhüseyn oğlu və Mehdiyev Zaman Zeynal oğlu haqqında Azərbaycan SSR Daxili işlər qoşunları hərbi tribunalının 1942-ci il oktyabrın 31-də çıxarılan hökmü ləğv olunsun və onların haqqındakı iş ittihamın sübut olunmadığına görə xətm olunsun».

Azərbaycan Ali məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyası 1956-cı il noyabrın 10-da belə bir xüsusi qərar çıxarmışdır: «Azərbaycan SSR Daxili işlər komissarlığının sabiq işçisi olan K.B.Aruşanovun fəaliyyətində əxlaqsız və fitnəkar iş üsulunun müşahidə edildiyi və bu üsulla sosialist qanunçuluğunun kobudcasına pozulmasına yol verdiyi üçün cinayət işləri üzrə məhkəmə kollegiyası qərara aldı:

Aruşanov haqqında əldə edilən materiallar aidiyyatı üzrə müvafiq təşkilata çatdırılsın».

Burada deməliyik ki, Aruşanovun qanunları kobudcasına pozması haqda məlumatlar onun rəisi, xalqımızın ən mötəbər oğullarının cəlladı Qriqoryana çoxdan bəlli idi və həmin Qriqoryan Aruşanovu aradan çıxarıb Kişinyov şəhərinə qaçırdır. 1959-cu il dekabrın 8-də Kişinyovda həmin

4438 nömrəli iş üzrə dindirilərkən murdar Aruşanov ifadəsində: «İş çoxdan, 17 il bundan əvvəl olub, hadisələr daha yadıma gəlmir» – demişdir.

Həmin işdə adı çəkilən Rüstəmov Ramiz 6617 nömrəli iş üzrə 1942-ci il dekabrın 13-də güllələnməyə məhkum olunmuş, sonradan, 1943-cü il fevralın 7-də həmin cəza onun üçün 10 il azadlıqdan məhrum edilməklə əvəz edilmişdir. Bu işin istintaqını Aruşanov və Qriqoryan aparmışlar.

Yenə bu işdə adı çəkilən Həbibzadə Şükür PS-1296 nömrəli iş üzrə 1942-ci il noyabrın 1-də 8 il azadlıqdan məhrum edilmişdir. Bu işin icraçısı yenə Aruşanov olmuşdur.

Beləliklə, oxucularımız 38 il bundan əvvəl Bakıda cərəyan edən qəribə və ibrətamiz hadisə ilə tanış oldular. Onların gözləri önündən səkkiz azərbaycanlı gəncinin həyatlarının bir hissəsi keçdi. Onlardan sağ qalanlarının artıq 70-ə yaxın yaşı var.

Süleymana, Ələsgərə və Məmmədhüseynə Allah rəhmət eləsin!

Söhbətimi yenə Rzayev Məmmədhüseynin ölüm astanasında yazdığı şerlə bitirmək istəyirəm:

Gəl, gəl, daha tez gəl köməyim sevgili qardaş,
Tez gəl ki, məşəqqətlər olur qəlbimə sirdaş.
Düşmən sinəmə yarə vurur, qanımı sorsun,
Qaldırmış əlin istəyir o, bir daha vursun.
Zindanlar içindən ona qarşı dura bilməm,
Zəncirli əlimlə onu tək mən vura bilməm!

# DOSTUM HACI ZEYNALOVUN ƏZİZ XATİRƏSİNƏ

*Bu yazı «İldırım» adlı «antisovet aksinqilabi millətçi» tələbə-gənclər təşkilatının 1948-ci ildə «ifşa olunmasına» həsr edilmişdir*

Böyük Vətən müharibəsi illərində ölkənin gəncləri arasında azadfikirlilik meyilləri tədricən artmaqda idi. Bu meyillər rəhbər dairələri və xüsusən dövlət təhlükəsizliyi orqanlarını narahat edirdi. Gənclərin əhval-ruhiyyəsi Stalini də ciddi surətdə düşündürməyə başlayır. O, bir dəfə Dövlət Təhlükəsizlik Komitəsinin (DTK) rəhbəri Abakumova belə göstəriş verir: «Tələbələrin əhval-ruhiyyəsinə nəzarəti gücləndirmək lazımdır. Onları tək-tək yox, dəstələrlə kökündən çıxartmaq vacibdir. Və qanunun bizə verdiyi ən yüksək ölçüyə keçmək lazımdır – iyirmi beş il vermək, on il yox. On il zindan deyil, məktəbdir. On il məktəblilərə vermək olar, təzə bığ salanlara isə – iyirmi beş il. Cavandırlar. Sağ qalarlar. Ölməzlər».

Azərbaycan tələbələri arasında hələlik bizə təsadüfən bəlli olan birinci «antisovet» təşkilatlar Daxili İşlər Nazirliyi tərəfindən 1941-1942-ci illərdə ləğv olunmuşdur.

Bunlar isə yuxarıda adını çəkdiyimiz «təşkilatın» üzvləridir:

1. Ələsgərov Azər Abdulxalıq oğlu,
2. Vahidov Aydın Məcid oğlu,
3. Əliyev Kamal Əlibaxış oğlu,
4. Zeynalov Hacı Həbib oğlu,
5. Abdullayev Gülhüseyn Hüseyn oğlu,
6. Rəhimov İsmixan Məmməd oğlu,
7. Abdullayev Musa Mirməmməd oğlu,
8. Rzayev Kamil Əbdülbağı oğlu.

Söhbət bunlardan gedəcək.

*Məxfi... məktub*

«Hörmətli Səməd Vurğun! Bu məktub sizə Azərbaycanın azadlıq və istiqlaliyyətini, sərbəst inkişafını düşünən, arzulayan və öz həyatını bu yolda qurban verməyə hazır olan gənclərin adından yazılır.

Hörmətli Səməd, bu məktubu yazan bizlər – zəncirlənmiş Azərbaycan xalqının vətənpərvər gəncləri çox şadıq ki, bizim bu cür ağır şəraitdə olsa belə, böyük sənətkar şairimiz vardır. Biz sizinlə, sizin sənətiniz və tutduğunuz müqəddəs amalla fəxr edirik.

Bu sonsuz fəxr ilə yanaşı, bizim həm də böyük kədərimiz, həyəcanımız, təşvişimiz vardır: bütün dünya ədəbiyyatında özünə mühüm yerlərdən birini tuta biləcək Azərbaycan dahilərinin, yüksək sənət ustalarımızın əlimizdən alındığı yadımıza düşərkən biz həyəcanlanır və qorxuruq ki, sənətə və ədəbiyyata mane olan, onun çiçəklənməsinin qarşısına sədd çəkən indiki həyasız qanunlar sizin də qaynar istedadınızı çərçivə içərisinə ala bilər.

Biz qızıl qəfəs içində süni mahnılar oxuyan bülbülü yox, gözəl bahar bağında əlvan çiçəklər içində incə, zərif rübailər tərənnüm edən bülbülü dinləmək istəyirik.

Hörmətli Səməd, nə üçün vaxtilə bütün dünyada dahi şairləri ilə tanınmış Azərbaycan indi, sovet cümhuriyyəti qurulduğu bir dövrdə 60 üzvü olan bir yazıçılar ittifaqına malik olsun? Nə üçün öz Vətənində əsarət və ehtiyac içərisində yaşayan azərbaycanlı öz milli hüquqlarından istifadə etməsin? Buna səbəb azərbaycanlıların özləridirmi?

Əcnəbi balaların təhsil almağa hər cür imkanları olduğu halda, böyük zəkaya, zehnə malik azərbaycanlı uşaqların səhərdən axşama kimi bir parça çörək üçün avara qalmalarına səbəb nədir?

Azərbaycanın institutlarında tədris edilən elmi kitabların dilimizə tərcümə edilməməsinə səbəb nədir?

Azərbaycanlıları daim ruslardan asılı etməkdirmi?

Cəbhədə ruslarla birlikdə çarpışan azərbaycanlıların milli dövlət dilinə malik olmamasına səbəb nədir?

Ədəbiyyatımızın süniləşdirilməsinə və çərçivə içərisinə alınmasına səbəb nədir?

Bunlar bizi daim düşündürən məsələlərin cüzi bir hissəsidir!

Əziz Səməd! Biz Sizə edəcəyimiz mübarizənin məqsəd və yollarının hamısını şərh etmək fikrində deyilik. Lakin sizə çatdırmaq istəyirik ki, qolları bağlı Azərbaycan xalqının istiqlaliyyəti uğrunda son ana qədər mübarizə edəcəyimizə and içmişik. Bizim sayımız sonsuzdur: bir sıra qab dibi yalayanlardan başqa hamı bizimlədir!

Hörmətli dramaturqumuz Cəfər Cabbarlının aşağıdakı misraları isə bu gün bizim şüarımızdır:

Döndər günəşin atəşə,
saç qərbə, şimala.
Topla nə gücün varsa,
giriş qəti cidalə.
Ya haqqını al, ya əbədi ol
laməhalə.
Qoy gülləri ya qan
sulasın, yaxud ədalət.
Qoy ya bəşəriyyət yaşasın,
yaxud əsarət.

Bizim bu məktubu yazmağımıza əsas səbəb sizin son çıxışınız oldu. Həmin çıxışınız bizə Namiq Kamalın bu sözlərini xatırlatdı: «Ədəbiyyatsız bir xalq dilsiz insana bənzər». Dil kəsənlər isə cəlladlardır.

Siz heç bir şeydən çəkinməyin. Bütün xalq sizinlədir! Biz gənclər isə siz ziyalılardan dərs almaq istərdik. Əfsus ki, sizinlə danışmağa ümumi «dilimiz» yoxdur.

Hörmətli Səməd! Əgər siz, heç olmazsa, bizim bu fikirlərimizin biri ilə razılaşırsınızsa, o zaman bunu bizə bildirmək məqsədilə Azərbaycan şərəfinə «Vətən ulduzları» adlı bir şer yazın. Biz yalnız o zaman fəxr ilə əmin ola bilərik ki, müasir şerimizin atası bizim səsimizə səs verdi.

11 may 1944-cü il».

Dönməzlər

Bu adsız (imzasız – red.) məktub hansı yollarlasa dörd il beş aydan sonra Dövlət Təhlükəsizlik Komitəsinin əməkdaşlarının əlinə düşür və 1948-ci il sentyabrın 22-də DTK beşinci şöbəsinin dördüncü bölməsinin rəisi, mayor İsmayılov qərar çıxarır:

«1944-cü ilin mayında Azərbaycan Yazıçılar İttifaqının sədri şair Səməd Vurğunun adına açıq antisovet məzmunlu məktub gəlmişdir. Həmin məktubun müəllifi partiya və hökumətin milli siyasətinə əksinqilabi böhtan ataraq, Səməd Vurğunu Sovet hökumətilə mütəşəkkil mübarizəyə girişən «həmfikirlərə» qoşulmağa çağırırdı.

1945-ci ilin yanvarında ekspertlər müəyyən etmişlər ki, həmin məktubun müəllifi APİ-nin aspirantı İsmixan Məmməd oğlu Rəhimovdur.

Azərbaycan SSR DTK-də olan materiallar izah edir ki, Rəhimov İsmixan praktiki antisovet fəaliyyəti ilə məşğul olurmuş.

Bundan sonra Rəhimovun azad gəzməsini ictimaiyyətə təhlükəli hesab edərək, qərara alıram: «İ.M.Rəhimov həbs edilsin».

Beşinci şöbənin rəisi podpolkovnik Lavruxin yazır: «Razıyam». DTK Naziri Yemelyanov: «Təsdiq edirəm». Azərbaycan SSR prokuroru Əliyev: «Sanksiya verirəm».

1948-ci il sentyabrın 26-da İ.M.Rəhimovun həbs edilməsinə 247 nömrəli order verilir. Orderə Azərbaycan SSR DTK sədrinin müavini Atakişiyev qol çəkir. Orderin arxasında «26.09.1948-ci il. Tanış oldum. Rəhimov» yazılmışdır.

1948-ci il sentyabrın 27-si, birinci dindirmədə. Müstəntiq: «Siz antisovet fəaliyyətinizə görə həbs edilmisiniz. İşin mahiyyəti üzrə ifadə verin». Rəhimovun cavabı: «Mən antisovet fəaliyyəti ilə məşğul olmamışam və bu barədə deməyə sözüm yoxdur».

1948-ci il sentyabrın 27 və 28-i, ikinci dindirmədə. Müstəntiq: «Siz ifadə verdiniz ki, antisovet fəaliyyəti ilə məşğul olmamısınız. Lakin istintaqın əlində sizin antisovet fəaliyyətiniz haqqında danılmaz faktlar var. Sizdən gerçək ifadə tələb olunur». Cavab: «Mən həmişə dövlətimiz, partiyamız tərəfindən qayğı görmüşəm. Odur ki, mənim şüurumda heç bir yaramaz fikirlər doğa bilməzdi. Bir dəfə mənə ADU-nun filologiya fakültəsində oxuyan Elman Əliyev Azərbaycanın əsl demokratik qanunları olmadığı üçün əsl Demokratik Kommunist Partiyasının yaradılmasını təklif etdi ki, bu da gələcəkdə bütün Şərqi bürüyəsi idi. Elman öldü və fikir də yox olub getdi. 1944-cü ildə ADU-nun filologiya fakültəsində, mənimlə oxumuş Gülhüseyn Abdullayev bir təşkilat düzəltməyi təklif etdi. Bu da elə bir təşkilat olmalıydı ki, Azərbaycanın tam müstəqil bir respublika olması haqqında çalışsın. Baxmayaraq ki bizim indiki Azərbaycan Sovet Respublikasının Konstitusiyasında azəri dilinin dövlət dili olduğu qeyd olunmuşdur, əsl həqiqətdə bütün idarələrdə rəsmi dil rus dilidir, burada dövlət aparatında işləyənlərin əksəriyyəti ruslar olur. Odur ki, çoxlu azərbaycanlı kadrlar yetişə bilmir. Biz elə bir Azərbaycan kommunist respublikası nəzərdə tuturduq ki, orada bu kəsir olmasın, bütün idarələr azərbaycanca işləsin, vəsiqələr, arayışlar belə azərbaycanca verilsin. Bütün dünya mədəniyyətinin ən yaxşı nailiyyətlərinə öz ana dilimizdə nail olmaq istəyirdik. Biz bunlara nail olacaq bir respublika düzəlməsini nəzərdə tuturduq. Bu təşkilata sonra Hacı Zeynalov, Aydın Vahidov, Kamal Əliyev, Musa Abdullayev də üzv oldu».

1948-ci il sentyabrın 28-i, üçüncü dindirmədə. Müstəntiq: «İstintaq tələb edir ki, siz hər cür inaddan əl çəkib antisovet fəaliyyətiniz haqqında doğru ifadələr verəsiniz». Rəhimovun cavabı: «Mən antisovet fəaliyyətlə məşğul olmamışam və bu barədə heç bir ifadə verə bilmərəm». Müstəntiq «Siz yalan danışırsınız. İstintaqın sərəncamında olan danılmaz sübutlar göstərir ki, siz Sovet hökumətinin əleyhinə düşmən əhval-ruhiyyəli şəxs olduğunuz üçün antisovet fəaliyyəti ilə məşğul idiniz». Cavab: «Yox, mən bunu etiraf etmirəm». Müstəntiq: «Sizə antisovet millətçi ruhunda yazılmış anonim məktubun mətni oxunur. Bu məktubu siz 1944-ci il mayın 11-də Səməd Vurğunun adına yazmısınız. Məktubun sizin əlinizlə yazılmasını təsdiq edirsinizmi?» Cavab: «Bəli, bu məktub mənə tanışdır. Onu mən yoldaşım Gülhüseyn Abdullayevlə birlikdə onun evində yazmışam». Müstəntiq: «Sizdən başqa antisovet meylli gənclər dəstəsinə daxil olan bir sıra şəxslər var ki, onlar da Sovet hökumətinin əleyhinə işləyirlər. Müfəssəl danışın, bunlar kimlərdir». Cavab: «1944-cü ilin əvvəlində mən və Abdullayev Gülhüseyn Bakının ali məktəb tələbələri arasında antisovet millətçi gənclər təşkilatını yaratdıq. Həmin təşkilat müstəqil Azərbaycan milli respublikasını qurmaq niyyətində idi. Bu təşkilata mən – Rəhimov İsmixan, Abdullayev Gülhüseyn, Zeynalov Hacı, Abdullayev Musa, Vahidov Aydın, Əliyev Kamal və Ələsgərov Azər daxil idik».

Müstəntiq: «Sizi kim yuxarıda adı çəkilmiş antisovet millətçi gənclər təşkilatına cəlb edib – bu barədə müfəssəl danışın». Cavab: «Məni həmin təşkilata Abdullayev Gülhüseyn cəlb etmişdi. Zeynalovu, Ələsgərov Azəri, Abdullayev Musanı təşkilata şəxsən mən cəlb etmişəm». Müstəntiq: «İstintaqa sizin təşkilatın praktiki fəaliyyəti haqqında izahat verin». Cavab «Bizim təşkilat 1943-cü ilin axırından 1946-cı ilədək fəaliyyətdə idi. 9 və ya 10 yığıncağımız oldu. Biz təşkilatın nizamnaməsini və proqramını yaratmaq niyyətində idik, lakin fikir birliyimiz olmadığı üçün bu iş başa çatmadı. Nizamnamənin və proqramın layihələrinin tərtibi mənə tapşırılmışdı, lakin mən bu işi yerinə yetirmədim. Aramızda fikir birliyi olmadığı üçün təşkilatımız 1946-cı ildə dağıldı».

1948-ci il sentyabrın 30-da keçirilən dördüncü dindirmədə Rəhimov İsmixan göstərdi: «Abdullayev Gülhüseyn məni özünə həmfikir görərək, 1943-44-cü tədris ilində məni millətçi gənclər təşkilatını qurmağa dəvət etdi. Bu təşkilat müstəqil milli Azərbaycan respublikasının yaradılması uğrunda mübarizə etməli idi. Bu respublika o biri respublikalardan ayrılmalı idi».

1948-ci il oktyabr ayının 5-də keçirilən beşinci dindirmə. Müstəntiq: «1944-cü il may ayının on birində siz şair Səməd Vurğuna antisovet millətçi məzmunda məktub yazmısınız. Bu məktubu yazmaqla siz qarşınıza nə məqsəd qoyurdunuz?» İ.Rəhimovun cavabı: «Bu məktub Səməd Vurğuna 1944-cü ilin may ayında Yazıçılar İttifaqındakı çıxışından sonra Abdullayev Gülhüseyn və mənim tərəfimdən yazılmışdır. O zaman bizim təşkilat yaranmışdı. Onu bilirəm ki, S.Vurğunun çıxışında bizi ona məktub yazmağa sövq edən əhval-ruhiyyə var idi. Onu bilirəm ki, öz çıxışında Səməd Vurğun ədəbiyyatımızın lazımi səviyyədə inkişaf etmədiyini qeyd etmişdi ki, biz də bu çıxışdan sonra Səmədin simasında öz həmfikirimizi gördük. Bu məktubla biz Səməd Vurğundan təşkilatımıza rəhbərlik edəcəyini ümidlə gözləyirdik. Lakin bu barədə Səməd Vurğun bizə bir cavab vermədi».

1948-ci il oktyabr ayının 6-da keçirilən altıncı dindirmədən. Müstəntiq: «Danışın görək, öz iclaslarınız və yığıncaqlarınızda nə kimi məsələləri müzakirə edirdiniz?» Cavab: «Birinci iclaslarda belə qərara gəldik ki, təşkilatımızın nizamnaməsini və proqramını tərtib etmək vacibdir. Sonra qərara gəldik ki, təşkilatın xərcləri üçün üzvlük haqqı toplamaq lazımdır və hər adamdan ayda 50 manat götürülməli idi. Üzvlük haqqını Hacı Zeynalov yığırdı».

1948-ci il oktyabrın 11-də keçirilən yeddinci dindirmədə Rəhimov İsmixan – təşkilatın rəhbəri, Abdullayev Gülhüseyn və xəzinədarı Zeynalov Hacının fəaliyyəti «işıqlandırılır».

1948-ci il noyabrın 3-də keçirilən səkkizinci dindirmədən. Müstəntiq: «Sizin antisovet millətçi gənclər təşkilatınızın adı nə idi?» Rəhimovun cavabı: «İldırım». Müstəntiq: «Siz antisovet millətçi gənclər təşkilatınızın hansı yığıncağında and qəbul etmisiniz?» Cavab: «Andımızı 1944-cü ilin əvvəlində təşkilatımızın üzvü Vahidov Aydının evində keçirilən yığıncağımızda qəbul etmişik». Müstəntiq: «Andın mətnini kim tərtib etmişdir?» Cavab: «Andın mətnini mən tərtib etmişəm, düzəlişlərini Abdullayev Gülhüseyn aparıb». Müstəntiq: «Andın mətnini izah edin». Cavab: «Duz-çörəyə and içirəm ki,– duz-çörək Şərqdə dostluğun rəmzidir – Anamın qanına, ana torpağa and içirəm ki, xalqımın tam istiqlaliyyəti uğrunda mübarizədə öz yoldaşlarıma ömrümün sonunadək sadiq qalacağam. Əgər mən bu andı pozsam, onda öz cəzamı almalıyam». Yığıncağımızın bütün iştirakçıları andın mətnini bəyənib, onu qəbul etdilər».

1948-ci il noyabrın 4-də keçirilən doqquzuncu dindirmədə Rəhimov İsmixan yenə də and içmələri haqqında ifadə verib.

İstintaqın gedişində müəyyən olundu ki, 40-cı illərin əvvəlində ayrı bir «antisovet» təşkilat da mövcud imiş. Və 1948-ci il noyabrın 17-də keçirilən onuncu dindirmədə müstəntiq, Rəhimov İsmixana belə bir sual verir «Daxili işlər komissarlığı tərəfindən ləğv edilmiş antisovet təşkilat haqqında siz nə vaxt bildiniz və bu haqda sizə kim məlumat verib?». Cavab: «Bu haqda mən 1942-ci ildə bilmişəm». Sual: «Tutulanların adlarını deyin» Cavab: «Süleymandan və Şükürdən başqasını bilmirəm».

1948-ci il noyabrın 27-də keçirilən on birinci dindirmədən. Müstəntiq. «Nə üçün antisovet məzmunlu məktubu siz Səməd Vurğunun ünvanına göndərdiniz?» Rəhimovun cavabı: «1944-cü il mayın 10-da Azərbaycan Yazıçılar İttifaqının plenumunda Səməd Vurğun müasir Azərbaycan ədəbiyyatının səviyyəsinin aşağı olmasından narazılıqla dolu məruzə ilə çıxış etdi. Həmin plenumda Səməd Vurğun Azərbaycan Yazıçılar İttifaqı sədrliyindən kənar edildi. Bu barədə bir gün sonra mənə Abdullayev Gülhüseyn danışdı və Səmədə bizim antisovet təşkilata rəhbərlik etmək çağırışı ilə bir anonim məktub yazmağı təklif etdi. Biz onun həmin plenumdan narazı olmağını nəzərdə tuturduq. Səmədi bizə rəhbər olmağa dəvət etdikdə biz ona «Vətən ulduzları» adlı şer dərc etdirməyi təklif etdik».

1948-ci il noyabrın 29-da keçirilən on ikinci dindirmədən. Müstəntiq: «Siz öz antisovet təşkilatınızın qarşısında rəhbər vəzifələri tutmaq və xarici dövlətin köməyi ilə çevrilişi yuxarıdan başlamaq haqqında məsələ qoymuşdunuz. Müqavimət göstərməyin və deyin – kimə arxalanırdınız?» Cavab: «Bu belədir, ancaq mən heç bir vaxt bu məsələdə bizə hansısa xarici dövlət tərəfindən kömək haqda bir şey deməmişəm». Müstəntiq: «Müqavimət göstərməyin! İstintaqa bəllidir ki, siz Türkiyəni tərifləyib deyirdiniz ki, «mən Türkiyə hökumətinin, Şərqdə olan ən güclü dövlətin siyasətilə fərəhlənirəm». Bu belədirmi?» Cavab: «Xeyr».

1948-ci il dekabrın 1-də keçirilən on üçüncü dindirmədən. Müstəntiq: «Siz öz antisovet fəaliyyətinizi nə zaman dayandırdınız və bu nə ilə bağlı idi?» Cavab: «Bizim antisovet gənclər təşkilatımız öz antisovet fəaliyyətini 1945-ci ilin sonunda dayandırdı və bu ona görə oldu ki, təşkilatımızın üzvləri arasında hərc-mərclik əmələ gəldi».

1949-cu il fevralın 4-də istintaqın bitməsi haqqında qərar qəbul olundu. Qərarda deyilirdi: «1943-cü ildə antisovet millətçi gənclər təşkilatı təşkil

olunub və onun üzvü olan Rəhimov İsmixan fəal antisovet millətçi iş apararaq bu təşkilata yeni üzvlər cəlb edib, təşkilatın andını və proqramını tərtib edib. Həmin təşkilat Azərbaycanı Sovet hökumətinin tərkibindən çıxarmağa və müstəqil milli respublika yaratmağa çalışırdı». Rəhimov İsmixan Azərbaycan SSR CM-nin 21-64, 72-2 və 73-cü maddələri ilə təqsirləndirildi.

Zeynalov Hacı Həbib oğlunun 1948-ci il oktyabrın 1-də həbsə alınması barəsində qərar yazıldı: «Zeynalov Hacı antisovet millətçi gənclər təşkilatının ən fəal üzvlərindən biridir. Bu təşkilatın üzvləri müstəqil milli Azərbaycan respublikası yaranması uğrunda mübarizəni özləri üçün əsas məqsəd hesab edirlər. Hacı Zeynalov ADU-nun Şərq fakültəsinin tələbəsi Azər Ələsgərovu təşkilata cəlb etmişdir.

Oktyabrın 3-də 287 nömrəli order əsasında ADU-nun Şərq fakültəsinin V kurs tələbəsi Hacı Həbib oğlu Zeynalov həbs edilmişdir.

Həmin gün, birinci dindirmədə müstəntiqin birinci sualı: «Siz antisovet və millətçilik fəaliyyətinizə görə həbsə alınmısınız. Bu iş üzrə dürüst ifadə verin». H.Zeynalovun cavabı: «Mən antisovet və millətçi fəaliyyətlə məşğul olmamışam və bu barədə heç bir ifadə verə bilmərəm».

1948-ci il oktyabrın 4-də, ikinci dindirmədə və oktyabrın 6-da, üçüncü dindirmədə Hacı Zeynalov yenə də heç bir şey bilmədiyini söyləmişdir.

1948-ci il oktyabrın 15-də Hacı Zeynalova təqsirnamə təqdim olunur: «Hacı Həbib oğlu Zeynalov aşağıdakılarla ifşa olunur: Sovet hökumətinin əleyhinə düşmən mövqe tutaraq, antisovet təşkilatın üzvü kimi mütəşəkkil antisovet millətçi aparıb, Sovet hökumətinin əleyhinə fəaliyyətdə olub. Buna görə də o, Azərbaycan SSR CM 72-2 və 73-cü maddələri ilə işə müttəhim kimi cəlb olunsun». Hacı Zeynalov həmin təqsirnaməni rədd edir və özünü günahkar hesab etmir.

Həmin gün Hacı Zeynalov İsmixan Rəhimovla üzləşdirilir və bundan sonra göstərir: «Məni ilk dəfə 1943-cü ildə Abdullayev Gülhüseyn antisovet ruhunda dilə tutmağa çalışmışdır. Mənimlə söhbətdə o, öz millətçi görüşləri haqqında danışaraq məni də bu işə cəlb etdi. Elə o vaxtdan mən onunla həmfikir antisovet gənclər təşkilatının üzvü oldum».

1948-ci il oktyabrın 18-də dördüncü dindirmə. Müstəntiq: «Deyin, hansı şəraitdə Abdullayev Gülhüseyn sizi əksinqilabi millətçi gənclər təşkilatının qalan üzvləri ilə tanış etdi?» Cavab: «Təqribən 1943-cü ilin oktyabr ayında Abdullayev Gülhüseyn, Rəhimov İsmixan, Əliyev Kamal və Va-

hidov Aydın mənim evimə gəldilər. Gülhüseyn dedi ki, bunların hamısı təşkilatın üzvləridir. Əliyev Kamal dedi: «Burada olanların hamısı bizim təşkilatın üzvləridir və biz hamımız ciddi nizam-intizama tabe olmalıyıq».

Beşinci dindirmə – 19 oktyabr 1948-ci il. Müstəntiq: «Nə üçün 1943-44-cü illərdə sizdə və sizin həmfikirlərinizdə antisovet millətçi görüşlər əmələ gəldi?» H.Zeynalovun cavabı: «Abdullayev Gülhüseyn deyirdi: «Ermənilərin erməni əlifbası qalıb, gürcülərin gürcü əlifbası qalıb. Necə razı olmaq olar ki, bizim Azərbaycana rus əlifbasını sırıyıblar? Bir cəsur kişi tapılmadı ki, öz Azərbaycan millətinin mənafeyini müdafiə etsin? Azərbaycan orfoqrafiyasını dəyişirlər, amma heç kəs dinmir». Müstəntiq: «Antisovet təşkilatınızın hansı yığıncağında siz andınızı qəbul etdiniz, nə vaxt və harada?» H.Zeynalovun cavabı: «Bizim antisovet təşkilatımıza sadiq olmaq andını mən 1943-cü ilin oktyabr-noyabrında qəbul etmişəm. Bu da mənim evimdə, gizli yığıncaqda olub».

Altıncı (23 dekabr 1948-ci il) və yeddinci (24 dekabr 1948-ci il) dindirmələrdə müstəntiq Oqtay Əfəndiyevin təşkilata cəlb olunub-olunmaması haqqında sorğu-sual aparılıb.

1949-cu il fevralın 4-də Hacı Zeynalov əlavə olaraq Azərbaycan SSR CM-nin 21-64-cü maddəsi ilə ittiham edildi: «İstintaq zamanı müəyyən olundu ki, Hacı Zeynalov öz antisovet əhval-ruhiyyə bünövrəsi üzərində duraraq, antisovet millətçi təşkilatına cəlb olunub. Bu təşkilat Azərbaycanı Sovet İttifaqının tərkibindən çıxarıb, müstəqil milli respublika təşkil etmək niyyətində idi. Hacı Zeynalov həmin təşkilatın fəaliyyətində aktiv iştirak edirdi».

Hacı Zeynalov həmin ittihamnaməni 1948-ci il fevralın 7-də aldı.

1948-ci il. Oktyabr ayının 21-də ADU-nun aspirantı Abdullayev Gülhüseyn Hüseyn oğlunun həbs olunması haqqında (Azərbaycan SSR CM-nin 72 və 73-cü maddələrilə ittiham olunurdu) qərar qəbul edilir və o, oktyabrın 23-də 339 nömrəli order əsasında həbs olunur.

1948-ci il oktyabrın 23-də keçirilən birinci dindirmədə müstəntiq: «Siz antisovet fəaliyyətinizə görə həbs edilmisiniz. Mahiyyəti üzrə ifadə verin». K.Abdullayevin cavabı: «Qətiyyətlə deyirəm ki, mən antisovet işlərlə məşğul olmamışam».

Oktyabrın 25-dəki ikinci dindirmədə Abdullayev Gülhüseyn yenə də cavab verir ki, o, heç vaxt antisovet-millətçi fəaliyyətdə olmayıb. Müstəntiq bu barədə beş dəfə soruşub, beş dəfə də «xeyr, yox» cavabını alıb.

Oktyabrın 26-da keçirilən üçüncü dindirmədə Gülhüseyn birinci dörd suala yenə də rədd cavabları verib. Müstəntiqin beşinci sualı: «Gəlin müqavimət göstərməyin. İstintaqın kifayət qədər məlumatı var ki, siz antisovet millətçi fəaliyyətlə məşğul olmusunuz. Bir də soruşuram: siz antisovet fəaliyyətiniz haqqında doğru ifadə verəcəksiniz, ya yox?» Cavab: «Mən qərara gəldim ki, müqaviməti atıb bütün məsələ haqqında doğru ifadə verim. 1944-cü ilin yazında Rəhimov İsmixan mənə antisovet-millətçi qrup yaratmağı təklif etdi. Bu qrupa antisovet millətçi ruhlu ali məktəb tələbələri daxil olmalı idilər. Mən buna razılıq verdim». Sual: «Bu yığıncaqda sədr kim seçilmişdir?» Cavab: «Rəhimov İsmixan. O dedi ki, bizim təşkilatın məqsədi müstəqil Azərbaycan respublikası uğrunda mübarizədir».

Oktyabrın 27-də keçirilən dördüncü dindirmədən. Gülhüseyn: «Rəhimov İsmixanın bizə oxuduğu andın mətni belə idi: «Mən bu antisovet millətçi gənclər təşkilatına daxil oluram və təşkilatın bütün tapşırıqlarını namusla, tərəddüdsüz yerinə yetirməyi öhdəmə götürürəm. Lazım olsa, həyatımdan da keçərəm». Biz hamımız yekdilliklə bu andı qəbul etdik. Təşkilata «İldırım» adını 1944-cü ildə vermişik. Təşkilatımızın əsas məqsədi müstəqil Azərbaycan respublikasının yaranması, onun Sovet İttifaqından çıxması uğrunda mübarizəsi idi. Təşkilatımızın fəaliyyəti təqribən 1944-cü il fevral ayının axırından başlandı».

1948-ci il noyabr ayının 4-də Abdullayev Gülhüseynə elan olundu ki, o, Sovet hökumətinə düşmənçiliyinə, antisovet təşkilatın üzvü olmağına və Sovet hökumətinin əleyhinə antisovet millətçi işinə görə Azərbaycan SSR CM-nin 72-ci maddəsinin 2-ci hissəsi və 73-cü maddəsi ilə müqəssir hesab edilir.

1948-ci il noyabrın 23-də keçirilən dindirmədə Abdullayev Gülhüseyn göstərdi ki, təşkilatın sədri Rəhimov İsmixan və katibi Vahidov Aydın idilər. Təşkilat gizli şifrli əlifba düzəltmək istəyirdi və adsız sənədlərin nəşri üçün mətbəə axtarırdı.

1949-cu il fevralın 4-də Abdullayev Gülhüseyni əlavə olaraq CM-nin 21-64-cü maddəsilə təqsirləndirdilər.

1948-ci il noyabrın 5-də Azərbaycan Sənaye İnstitutunun V kurs tələbəsi Əliyev Kamal Əlibaxış oğlunun həbsi haqqında qərar qəbul edildi.

Həmin gün o, 398 nömrəli orderə əsasən həbs olundu.

1948-ci il noyabrın 6-da keçirilən dindirmədə Əliyev Kamal antisovet millətçi fəaliyyətlə məşğul olmadığı haqqında ifadə verdi. 1948-ci il no-

yabrın 7-dəki dindirmədə Kamalın ifadəsi: «Mən qərara gəldim ki, öz antisovet fəaliyyətim haqqında doğru ifadə verim. Abdullayev deyirdi: «Hər bir azərbaycanlı öz xalqını sevməlidir. Yaxşı olardı ki, Azərbaycan respublikası müstəqil yaşayaydı və tam müstəqil olaydı. Bizim Azərbaycanımız SSRİ-dən tamamilə ayrı dolana bilər. Abdullayev Gülhüseyndən mən öyrəndim ki, bizim təşkilat «Vətən azadlığı» adlanır».

1949-cu il fevralın 4-də Əliyev Kamala elan edildi ki, o, Azərbaycan SSR CM-nin 72-ci maddəsinin 2-ci hissəsi, 73 və 21-64-cü maddələri ilə ittiham olunur.

1948-ci il noyabrın 5-də Azərbaycan Sənaye İnstitutunun tələbəsi Vahidov Aydın Məcid oğlunun həbsi haqqında qərar qəbul edilir. Ayın 6-da o, 399 nömrəli orderə əsasən həbs olunur.

1948-ci il noyabrın 6-da keçirilən birinci dindirmədə Vahidov Aydın ona isnad olunan antisovet millətçi fəaliyyətini inkar edir. Ayın 7-dəki ikinci dindirmədə Vahidov göstərir ki, onu antisovet millətçi təşkilata Əliyev cəlb etmişdi və onların bu təşkilatı «İldırım» adlanırdı. Noyabrın 17-də keçirilən dindirmədə Vahidov qəbul etdikləri andın mətni haqqında dedi: «And belə idi: «Yoldaşlarıma and içirəm ki, axıra qədər xalqımın istiqlaliyyəti uğrunda mübarizəyə sadiq qalacağam». Andı biz 1943-cü və ya 1944-cü ildə qəbul etdik».

1948-ci il noyabrın 17-də Vahidov Aydına bildirildi ki, o, Azərbaycan SSR CM-nin 72-ci maddəsinin 2-ci hissəsi və 73-cü maddə ilə ittiham edilir. 1949-cu il fevralın 5-də o, əlavə olaraq CM-nin 21/64-cü maddəsi ilə də ittihamlandı.

1948-ci il noyabrın 5-də ADU-nun aspirantı Ələsgərov Azər Əbdülxalıq oğlunun «antisovet fəaliyyətinə» görə həbs olunması haqqında qərar çıxarıldı və noyabrın 7-də 401 nömrəli orderə əsasən, o həbs edildi.

1948-ci il noyabrın 7-dəki dindirmədə müstəntiq Ələsgərova dedi: «Siz antisovet millətçi fəaliyyətiniz haqqında müfəssəl ifadə verin». Cavab: «Mən antisovet millətçi ruhunda düşünməyə birinci dəfə Zeynalov Hacı tərəfindən sövq edilmişəm. Bu da 1943-44-cü tədris ilində olub». Müstəntiq: «Siz antisovet gənclər təşkilatının üzvü olmağınızı boynunuza alırsınız?» Cavab: «Bəli, mən bunda özümü müqəssir bilirəm».

Noyabrın 15-dəki dindirmədə Ələsgərov göstərir: «Mən bizim antisovet gənclər təşkilatının altı gizli yığıncağında olmuşam. Bizim antisovet təşkilatın xəzinədarı Zeynalov Hacı idi. O, təxminən 1.000 və ya 1.100

manat üzvlük haqqı yığmışdı. Təşkilatımızın hər üzvü ayda 50 manat verirdi. Təşkilatımız «İldırım» adlanırdı və rəhbərimiz Rəhimov İsmixan idi».

1948-ci il noyabrın 18-də Ələsgərov Azərə deyildi ki, o, Azərbaycan SSR CM-nin 72-ci maddəsinin 12-ci hissəsi və 73-cü maddəsi ilə ittiham olunur. 1949-cu il fevralın 4-də o, CM-nin 21/64-cü maddəsi ilə də ittiham edildi.

1948-ci il noyabrın 5-də APİ-nin aspirantı Abdullayev Musa Mirməmməd oğlunun həbs edilməsi haqqında qərar çıxarıldı və noyabrın 11-də o, 402 nömrəli orderə əsasən həbs olundu.

Abdullayev Musa izahat verdi ki, o, antisovet təşkilatına Rəhimov İsmixan tərəfindən cəlb edilib. «Təşkilatın yığıncaqları Zeynalovun, Ələsgərovun və mənim evimdə keçirilirdi. Təşkilata mən 1944-cü ildə daxil oldum».

1948-ci il noyabrın 25-də Abdullayev Musaya izah olundu ki, o, uzun müddət antisovet millətçi fəaliyyətinə görə Azərbaycan SSR CM-nin 72-ci maddəsinin 2-ci hissəsi və 73-cü maddəsi ilə ittiham olunur. 1949-cu il fevralın 4-də o, əlavə olaraq, CM-nin 21/64-cü maddəsi ilə də ittiham edildi.

1948-ci il yanvarın 13-də xalq təsərrüfatı institutunun tələbəsi Rzayev Kamil Əbdülbağı oğlunun həbs edilməsi haqqında qərar çıxarıldı və yanvarın 14-də o, 41 nömrəli orderə əsasən həbs olundu.

Yanvarın 14, 17 və 18-də keçirilən dindirmələrdə Rzayev Kamil ona isnad olunan antisovet fəaliyyəti boynuna almadı.

1949-cu il yanvarın 20-dəki dindirmədə o, hər şeyi boynuna aldı. Müstəntiq soruşdu: «Sizin «İldırım» adlı antisovet təşkilatın məqsədi nə idi?» Cavab: «Biz AK(b)P katibinə məktub yazmaq və o məktubda soruşmaq istəyirdik ki, Azərbaycan dili nə üçün dövlət dili kimi işlənmir? Lakin bu məktubu biz yazmadıq. Məni bu antisovet təşkilata Abdullayev Gülhüseyn cəlb etdi».

1949-cu il yanvarın 27-də Rzayev Kamili Azərbaycan SSR CM-nin 72-ci maddəsinin 2-ci hissəsi və 73-cü maddəsi ilə məhkəmə məsuliyyətinə cəlb etdilər.

1949-cu il fevralın 9-da müttəhimlərin hər birinə istintaqın bitməsi haqqında protokol təqdim edildi.

1949-cu il fevralın 15-də DTK daxili xəstəxanasının həkimi hər iki müqəssir haqqında arayış verir. Arayışda yazılır ki, müttəhimlərin səhhəti onlara şimal iqlimində fiziki əməklə məşğul olmağa imkan verir.

1949-cu il fevralın 21-də 283 nömrəli istintaq işi üzrə ittihamnamə tərtib olunur. Fevralın 24-də ittihamnaməni DT naziri Yemelyanov təsdiq edir. 1949-cu il martın 17-də müttəhimlər ittihamnamə ilə tanış edilirlər.

Məhkəmə iclası 1949-cu il martın 21 və 22-də keçirildi. İclasın sədri Muradov, prokuror Ramazanov, vəkillər Hacıyev, Davidov və Həsənov idilər.

Məhkəmə iclasının protokolu işin 458-477-ci vərəqlərini tutur. Prokuror Ramazanovun çıxışı: «Müqəssirlərə isnad edilən cinayəti kafi dərəcədə sübuta yetirilmiş hesab edirəm. Ona görə xahiş edirəm onları müqəssir bilib: «Rəhimov İsmixanı – 25 il, Abdullayev Gülhüseyni – 25 il, Zeynalov Hacını – 25 il, Əliyev Kamalı – 10 il, Vahidov Aydını – 10 il, Ələsgərov Azəri – 10 il və Abdullayev Musanı – 10 il müddətinə azadlıqdan məhrum etməklə, hər birinin 5 il seçki hüquqlarını almaq və əmlaklarını 100 faiz müsadirə etmək. Rzayev Kamili – 8 il müddətinə azadlıqdan və 3 il müddətinə seçki hüququndan məhrum etməklə əmlakını 100 faiz müsadirə etmək».

Müdafiəçilər xahiş etdilər ki, müqəssirlərə yüngül cəza təyin edilsin.

Müqəssirlərə son söz verilir:

1) Rəhimov İsmixan – rəhm olunmasını xahiş edir;

2) Abdullayev Gülhüseyn – xahiş edirəm, cavan olmağımı nəzərə alıb mənə yüngül cəza təyin edəsiniz;

3) Zeynalov Hacı – xahiş edirəm mənə rəhm edəsiniz;

4) Əliyev Kamal – xahiş edirəm yüngül cəza təyin edəsiniz;

5) Vahidov Aydın – xahiş edirəm mənim gəncliyimi nəzərə alasınız;

6) Ələsgərov Azər – xahiş edirəm gəncliyimi nəzərə alıb mənə yüngül cəza verəsiniz;

7) Abdullayev Musa – yüngül cəza təyin edilməsini xahiş etdi;

8) Rzayev Kamal – xahiş edirəm, gənc olmağımı və Vətən müharibəsində iştirak etməyimi nəzərə alıb mənə yüngül cəza təyin edəsiniz.

# HÖKM

(ixtisarla)

«Azərbaycan SSR adından 21-22 mart 1949-cu il Azərbaycan SSR Ali Məhkəməsinin Cinayət işləri üzrə məhkəmə kollegiyası Bakı şəhərində Muradovun sədrliyi, xalq iclasçıları Ramazanova və Paşayev, prokuror Ramazanov, müdafiəçi Hacıyev, Həsənov və Davidov, Zülfüqarovanın katibliyi ilə bağlı məhkəmə iclasında işə baxaraq... müəyyən etdi:

Abdullayev Gülhüseyn Sovet dövlətinə qarşı düşmənçilik, 1942-ci ildə özü, Zeynalov Hacı və Rzayev Kamildən ibarət antisovet, millətçi dəstəsi təşkil edib və həmin dəstənin adını «İldırım» adlandırmaqla öz aralarında Sovet dövlətinin, ÜİK(b)P-nin apardığı siyasətə qarşı böhtançı və yalançı şayiələr danışmaqla məşğul olmuşlar.

Rzayev Kamil Sovet ordusu sıralarına getdiyi üçün bu dəstənin fəaliyyəti dayanır, lakin onun üzvlərindən Abdullayev Gülhüseyn və Zeynalov Hacı öz antisovet fəaliyyətlərindən əl çəkmirlər.

1943-cü ildə Abdullayev Dövlət Darülfünunda oxuyarkən həmin Darülfünunun tələbəsi Rəhimov İsmixan ilə tanış olur və çox keçmədən Abdullayev Rəhimovun da antisovet millətçi ruhunda olduğunu bilir, hər ikisi gizli antisovet, millətçi, üsyançı təşkilatı yaratmağı qərarlaşdırırlar. Onun üçün Rəhimov və Abdullayev Gülhüseyn öz ətraflarına antisovet, millətçi ruhlu gəncləri cəlb etməyə başlayırlar. Beləliklə, Abdullayev Gülhüseyn və Rəhimov hələ keçmişdə «İldırım» dəstəsində iştirak edən Zeynalov Hacını, Əliyev Kamalı, Vahidovu, Ələsgərovu və Abdullayev Musanı öz antisovet təşkilatlarına cəlb etməyə müvəffəq olurlar.

Antisovet «İldırım» təşkilatının üzvləri sistematik olaraq növbə ilə, hər dəfə birinin evində yığıncaqlar təşkil edir və həmin yığıncaqlarda Sovet dövlətinə, xalqına qarşı cürbəcür əksinqilabi fəaliyyətdə olurlar. Yığıncaqların birində Rəhimov tərəfindən tərtib edilmiş andın mətni oxunur və təsdiq edilməklə, tədriclə bütün antisovet təşkilatın üzvləri öz məqsədlərinə çatmağa, «mübarizə»lərini axıra kimi davam etdirəcəklərinə və bir-birinə sadiq qalacaqlarına and içirlər. Yığıncaqlarda antisovet təşkilatın nizamnamə və məramnaməsini tərtib etmək qərara alınmış və bunu həyata keçirmək Rəhimova və Zeynalov Hacıya tapşırılmış, həmçinin gizli yazışma üçün xüsusi şrift hazırlamaq nəzərdə tutulmuşdu. Antisovet, millətçi

təşkilatın məqsədi Sovet Azərbaycanını SSRİ-dən ayırmaq və ali məktəb tələbələrindən antisovet və millətçi ruhda olanları tapıb təşkilata cəlb etmək olmuşdur.

Rəhimov və Abdullayev Gülhüseyn 1944-cü ilin may ayında Azərbaycan şairlərindən birinin adına imzasız məktub göndərərək həmin məktubda sovet quruluşuna və Sovet hökumətinin milli siyasətinə qarşı ən alçaq və kinli böhtanlar ataraq, məktubda həmin şairi öz antisovet təşkilatlarına başçılıq etməyə çağırmışlar.

1) Rəhimov antisovet təşkilatın 1943-cü ildən 1944-cü ilin əvvəlinədək sistematik yığıncaqlarını təşkil edib, həmin yığıncaqlarda aktiv iştirak edərək Sovet dövlətinə və ÜİK(b)P siyasətinə qarşı çıxmış, Sovet hökumətinin milli siyasətini pisləmiş, «İldırım» adlı antisovet təşkilatlarına sadiq qalacaqlarına and içmiş, antisovet təşkilatın nizamnamə və məramnaməsini tərtib etməyi öz öhdəsinə almış, gizli mətbəə və gizli şrift düzəltməyə çalışmış, Abdullayev Gülhüseyn ilə birlikdə Azərbaycanın görkəmli şairlərindən birinə antisovet və millətçi məzmunlu məktub göndərmişdir. Rəhimovun əsas məqsədi Sovet Azərbaycanını SSRİ-dən ayırmaq və Azərbaycanda «burjua-millətçi respublika» yaratmaq olmuşdur;

2) Abdullayev Gülhüseyn 1942-1945-ci illərdə antisovet təşkilatın başçılarından və aktiv iştirakçılarından olmaqla Zeynalov Hacını və Rzayev Kamili təşkilata cəlb etmiş, yığıncaqlarda iştirak etməklə antisovet millətçi təbliğatı aparmış, həmin təşkilata özünün 1942-ci ildə təşkil etdiyi «İldırım» dəstəsinin adının verilməsinə nail olmuş, Sovet dövlətinə və ÜİK(b) P siyasətinə qarşı çıxmış, cürbəcür iftira və böhtanlar yaymışdır. Azərbaycanın görkəmli şairlərindən birinə antisovet, millətçi məzmunlu məktubun yazılmasında aktiv iştirak etmiş və gizli mətbəə düzəltməyi öhdəsinə götürmüşdür. Abdullayevin məqsədi Sovet Azərbaycanını SSRİ-dən ayırmaq və Azərbaycanda «burjua milli respublikası» yaratmaq olmuşdur;

3) Zeynalov Hacı antisovet millətçi təşkilatın xəzinədarı və aktiv iştirakçılarından olmaqla üzvlük haqlarını toplamış, 1942-ci ilin əvvəlinə kimi təşkilat üzvləri arasında və kənarda Sovet dövləti quruluşuna qarşı əksinqilabi təbliğat aparmış, antisovet təşkilatın məramnaməsinin tərtibində iştirak etmiş və Ələsgərov Azəri antisovet təşkilatına cəlb etmişdir;

4) Əliyev Kamal 1943-cü ildə antisovet fəaliyyətdə olmuş, «İldırım» adlı antisovet təşkilatın aktiv iştirakçılarından olmaqla, yığıncaqlarda iş-

tirak etmiş, təşkilata, yoldaşlarına sadiq olacağına and içmiş və Vahidov Aydını təşkilata cəlb etmişdir;

5) Vahidov Aydın Sovet quruluşuna qarşı düşmənçilik bəsləyərək, «İldırım» adlı təşkilatın aktiv iştirakçısı və katibi olmuş, gizli yığıncaqlarda iştirak etməklə antisovet fəaliyyətdə olmuş, təşkilata və yoldaşlarına axıra qədər sadiq qalacağına and içmişdir;

6) Ələsgərov Azər «İldırım» adlı antisovet təşkilatın aktiv üzvlərindən olmaqla gizli yığıncaqlarda iştirak etmiş və bu yığıncaqları keçirmək üçün öz mənzilini seçmiş, Sovet dövlətinə qarşı axıradək mübarizə aparacağına and içmişdir;

7) Abdullayev Musa antisovet, üsyançı təşkilatın aktiv üzvlərindən olmaqla Rəhimov tərəfindən həmin təşkilata cəlb edilərək, gizli yığıncaqlarda iştirak etmiş və bir dəfə yığıncağın öz evində çağırılmasına icazə vermiş, təşkilata sadiq qalacağına and içmiş, üç gənci antisovet təşkilata cəlb etməyə səy etmişdir. Rəhimov, Abdullayev Gülhüseyn və Zeynalov Hacı kimi Əliyevin, Vahidovun, Ələsgərovun və Abdullayev Musanın məqsədləri Sovet Azərbaycanını SSRİ-dən ayırmaq və Azərbaycanda «burjua milli respublikası» qurmaq olmuşdur;

8) Rzayev Kamil antisovet ruhlu olmaqla 1942-ci ildə G.Abdullayevin təşkil etdiyi «İldırım» dəstəsinin üzvü olub, Vətən müharibəsi dövründə sovet quruluşuna və dövlətinə qarşı əksinqilabi təbliğat aparıb və bu dəstənin gizli yığıncaqlarında iştirak edib. 1942-ci ilin sentyabr ayında Sovet ordusu sırasına getməsi münasibətilə antisovet təşkilatdan uzaqlaşıb.

Yuxarıda qeyd olunanlara əsasən Məhkəmə Kollegiyası Rəhimova, Abdullayev Gülhüseynə, Zeynalova, Əliyevə, Vahidova, Ələsgərova və Abdullayev Musaya Azərbaycan SSR CM-nin 21-64, 74-cü maddənin 2-ci hissəsi və 73-cü maddəsi ilə, Rzayev Kamilə isə CM-nin 72-ci maddəsinin 2-ci hissəsi və 73-cü maddəsi ilə isnad edilmiş cinayətləri kafi dərəcədə sübuta yetirilmiş hesab edir. Və bunu rəhbər tutaraq Azərbaycan SSR CM-nin 316 və 317-ci maddələri ilə Məhkəmə Kollegiyası hökm verdi:

1. Rəhimov İsmixan Məmməd oğlu, 2. Abdullayev Gülhüseyn Hüseyn oğlu, 3. Zeynalov Hacı Həbib oğlu CM-nin 21 – 64, 72-ci maddənin 2-ci hissəsi , 73-cü maddəsi və CM-nin 64-cü maddəsinin sanksiyasına əsasən 283 nömrəli işdə Azərbaycan SSR DT naziri Yemelyanovun imzası ilə təsdiq edilmiş 1949-cu il 21 fevral tarixli qərarla «SSRİ DİN xüsusi dustaq düşərgələrinin birinə göndərilsinlər» («məhkumlar ictimaiyyət üçün

təhlükəli şəxslər» imiş). Üçü də 25 illik konslagerə göndərildi. Qalan beş nəfər isə 10 illik həbsə məhkum olundu.

Beləliklə, məhkumlar ən uzaq və sərt iqlimli dustaq düşərgələrində öz günlərini saymağa başladılar.

1953-cü il martın 27-də SSRİ Ali Sovetinin «Amnistiya haqqında» fərmanı dərc olundu. 1955-ci ilin əvvəlində məhkumların qohumları yuxarı təşkilatlara göndərdikləri şikayətlərdə yazırdılar ki, onların məhkum olunan qohumlarının heç bir təqsiri yoxdur və onların məhkum edilmələri indi (yəni 1955-ci ildə – red.) respublikanın ifşa olunan keçmiş rəhbərlərinin fitnəsi idi. Buna görə məhkumların əfv olunmasını xahiş edirlər.

1955-ci il fevralın 14-də Azərbaycan SSR-in xüsusi işlər üzrə prokurorunun müavini belə bir qərar çıxarmışdı: «İstintaq və məhkəmə materiallarına əsasən hesab edirəm ki, müttəhimlərin təqsiri sübut olunub və onlar düzgün məhkum olunmuşlar. Lakin həmin iş üzrə məhkum olunanlar «İldırım» adlı antisovet millətçi təşkilatını təsis edib heç bir praktiki iş aparmayıblar, öz antisovet fəaliyyətləri üçün heç bir proqram tərtib etməyiblər və bunların fəaliyyəti söz-söhbətdən başqa heç bir şey olmayıb; məhkumların gəncliyini nəzərə alaraq hesab edirəm:

1. Rəhimovun, Abdullayev Gülhüseynin və Zeynalovun cəzası on il müddətinə endirilsin;

2. Əliyevin, Vahidovun, Ələsgərovun, Abdullayev Musanın və Rzayevin cəzaları beş il müddətinə endirilsin və 1953-cü il 27 mart tarixli «Amnistiya haqqında» fərmana əsasən bunlar həbsdən azad edilsinlər. Bunların seçki hüquqları bərpa edilsin və məhkum adları üzərlərindən götürülsün.

1955-ci il fevralın 24-də Azərbaycan SSR üzrə əksinqilabi fəaliyyətə görə məhkum olunanların işlərinə yenidən baxan komissiya 21 nömrəli qərarla prokurorun 1955-ci il 14 fevral tarixli qərarını təsdiq etdi.

1955-ci il aprelin 9-da Azərbaycan SSR Ali Məhkəməsinin Rəyasət heyəti bütün məhkumların cəzasını beş ilə endirmək haqqında qərar qəbul etdi; «Amnistiya haqqında» fərmana əsasən onları həbs yerlərindən azad edib, üzərlərindən məhkum adını götürdü.

1955-ci ilin may ayında bütün məhkumlar həbs yerlərindən azad olundular.

1956-cı il iyulun 22-də SSRİ Ali Məhkəməsinin Cinayət işləri üzrə məhkəmə kollegiyası Rəhimov İsmixanın, Abdullayev Gülhüseynin, Zeynalov Hacının, Vahidov Aydının, Ələsgərov Azərin, Abdullayev Musanın,

Əliyev Kamalın və Rzayev Kamilin işlərində cinayət tərkibi olmadığı üçün Azərbaycan SSR Ali Məhkəməsinin 1949-cu il 21-22 mart tarixli hökmünü və həmin Ali Məhkəmənin 1955-ci il 9 aprel tarixli qərarını da ləğv etdi və onlar haqqında cinayət işi xətm olundu.

1956-cı ilin iyul və avqust aylarında «İldırım» adlı «antisovet millətçi gənclər təşkilatının» «üzvləri» bütün hüquqlarının bərpa edilməsi haqqında arayışlar almışlar.

Beləliklə, bu da tarixin daha bir ibrət dərsidir. Gənclərimiz gərək bu dərsi də unutmasınlar.

## SÜLEYMANOV FİRUZ ƏLƏSGƏR OĞLU

Kirov öldürüldükdən sonra Stalinin əlaltıları ölkədə «xalq düşmənlərinin» ifşa edilməsi bəhanəsiylə birinci növbədə öz məhvedici zərbələrini ziyalılara endirdilər. Leninin və Trotskinin təşəbbüsü ilə ölkənin ən sərt iqlimli yerlərində qurulmuş düşərgələrə qısa müddət içərisində on minlərlə bolşeviklərin fikirlərinə zidd olan ziyalılar sürgün olundu. Bəxtəvər dünyanın təşkilinə şübhəli yanaşan, bərabərlik barədə suallar verən hər bir ağıllı və savadlı şəxs "Kommunizm" deyilən gələcəyin düşməni hesab olunub, düzəlməsi üçün islah-əmək düşərgələrinə göndərilirdi.

Azərbaycan xalqının tarixində 1937-38-ci illər ən qəmli səhifələri təşkil edirlər. Bu iki dəhşətli ildə xalqımızın taleyini və müqəddəratını həll edən fırıldaqçı bolşevik güruhu ÇK, QPU və KQB adlanan bandit təşkilatlarının vasitəsiylə müxtəlif uydurma və cəfəng ittihamlarla Azərbaycan ziyalılarının demək olar ki, bütün qabaqcıl nümayəndələrini məhv etmişdir.

Beriyanın Bakıya göndərilən xüsusi əlaltısı Matuleviç Sumbatovun, Qriqoryanın, Markaryanın və onlarca digər həmdəmlərinin ən fəal köməyi ilə iki il ərzində 70 minə qədər ziyalılarımızı – alim, müəllim, hərbçi, həkim, yazıçı, şair, mühəndis... xülasə, bilginlərimizin ən tanınmış və görkəmlilərini güllələmişdir. Məhkəmə iclasları və hökmün oxunması cəmi 15 dəqiqə çəkirdi. Deməli, saatda dörd nəfər, 24 saatda 96 nəfər, ayda 2880 nəfər və i. a. (qeyd etmək lazımdır ki, xüsusi üçlüklər və Matuleviçin dəstəsi tənəffüssüz və istirahətsiz işləyirdi). Ölümə və sürgünə məhkum edilən bütün ziyalılarımız antisovet, əksinqilabi üsyançılıqda, Azərbaycanı SSRİ-dən qoparıb müstəqil ölkəyə çevirməkdə, Beriya, Bağırovun və partiya və hökumət üzvlərinin əleyhinə sui-qəsd hazırlamaqda təqsirləndirilirdilər.

Cəlladlar Azərbaycanın sənaye və texniki ziyalıları barəsində xüsusi «qayğı» göstərirdilər. Hər bir yüksək ixtisaslı azərbaycanlı mühəndis, neftçi, inşaatçının simasında xalqımızın cəlladları düşmən görür, onları zavod, fabrik, müəssisə, mədən, tikinti və qurğunun partladılmasında, sıradan çıxarılmasında, cihazların xarab edilməsində təqsirləndirib məhkum edirdilər.

1938-ci ildə günahsız və əsassız məhkum olunanlardan, Azərbaycanın texniki ziyalılarından biri də Gəncə Toxucu kombinatının baş mexaniki Süleymanov Firuz Ələsgər oğlu idi.

1938-ci il martın 2-də Dövlət Təhlükəsizliyinin Gəncə şəhər şöbə rəisi Qamrekeli aşağıdakı arayışı tərtib edir:

«Süleymanov Firuz Ələsgər oğlu – 1905-ci ildə

Sabirabad rayonu Qalağayın kəndində anadan olub, bitərəf, Kirovabad Toxucu kombinatının baş mexaniki;

Ailəsi: anası – Sənəm Kərim qızı, 55 yaşlı;

qardaşı – Surxay, 38 yaşlı; bacısı – Ərəstə, 35 yaşlı.

Bizim tərəfimizdən həbs edilmiş əksinqilabi, millətçi, üsyançı təşkilatın üzvü olan, keçmiş Kirovabad toxuculuq kombinatının keçmiş direktoru Rəfiyev İnayətin ifadələrindən görünür ki, 1936-cı ilin iyun ayında o, Süleymanov Firuzu əksinqilabi millətçi üsyançı təşkilata cəlb etmiş və bu əksinqilabi təşkilatın tapşırığı ilə Süleymanov əksinqilabi təxribatçı ziyankarlıq işləri görürdü.

İzah olunanlara əsasən Süleymanov Firuzun həbs edib Azərb. Respublikası Cinayət Məcəlləsinin 64, 69, 70, 72 və 73-cü maddələri ilə məsuliyyətə cəlb edilməsini lazım bilirəm.

DT Kirovabad şəhər şöbəsinin rəisi

DT baş leytenantı Qamrekeli».

1938-ci il martın 2-də DT 195 nömrəli orderinə əsasən Süleymanov Firuz həbs edildi.

Elə martın 2-də onun birinci dindirilməsi keçirildi.

Müstəntiq Lixaçov: «İstintaqa məlumdur ki, siz Kirovabad şəhərində fəaliyyətdə olan əksinqilabi millətçi, üsyançı təşkilatının üzvü olub, əksinqilabi işlər görürdünüz. Bunları boynunuza alırsınızmı?»

Süleymanov: «Xeyr, boynuma almıram. Mən əksinqilabi millətçi, üsyançı təşkilatda olmamışam».

Lixaçov: «Siz yalan deyirsiniz. İstintaq dəqiq bilir ki, siz əksinqilabi millətçi, üsyançı təşkilatın üzvü idiniz. İstintaq sizə inad göstərməməyi

və sizin bu əksinqilabi təşkilatda iştirakınız haqda doğru ifadə verməyi məsləhət görün».

Süleymanov: «Mən doğru danışıram və bir daha da deyirəm ki, əksinqilabi millətçi, üsyançı təşkilatda heç vaxt iştirak etməmişəm».

Lixaçov: «Sizin bu ifadələriniz yalandır. Siz həmin əksinqilabi təşkilatın üzvləri olan şəriklərinizin ifadələri ilə ifşa olunursunuz və onlar sübut edirlər ki, siz bu əksinqilabi millətçi üsyançı təşkilatın üzvü idiniz».

Süleymanov: «Mən qətiyyətlə təsdiq edirəm ki, əksinqilabi millətçi üsyançı təşkilatın üzvü deyildim, məni bu təşkilata heç kəs cəlb etməyib və belə bir təşkilatın olmağı haqda mən heç bir şey bilmirdim».

Bugünkü oxucular bilməlidirlər ki, 1936-cı ildə DTK-nin sədri Beriyanın rəsmi sərəncamı ilə dustaqlardan istintaqa lazım olan ifadələri almaq üçün onları vəhşicəsinə döymək, istintaq məngənəsinə salıb işgəncələrin müxtəlif üsullarına («üçüncü üsul») əl atmağa icazə verilirdi. Bu illərdə DTK-nın rəhbərləri Stalinə lazım olan «ölkədə geniş miqyasda yayılmış antisovet əksinqilabi-terrorçu, trotskist-zinovyevçi, millətçi» və başqa buna bənzər təşkilatların mövcud olmasını sübut etməyə çalışırdılar.

Azərbaycanda belə millətçi əksinqilabi, üsyançı təşkilat «ifşa olunandan» sonra yerli DTK-nın ermənilərdən ibarət olan rəhbərləri «müəyyən» etdilər ki, bu təşkilatın başçıları R.Axundov, Ə.Qarayev, Q.Musabəyov, M.D.Hüseynov, H.Sultanov və başqaları idilər. Bunlar öz növbəsində respublikada mövcud olan nazirliklərin rəhbərlərini, MK-nın məsul işçilərini, bunlar da onlara tabe olan müəssisə, zavod, fabrik, mədən və s. müdir və ya rəhbərlərini həmin ümumrespublika əksinqilabi millətçi təşkilatına cəlb edib antisovet üsyanını qaldırmalı, Bağırovu öldürməli və Azərbaycanı SSRİ-nin tərkibindən çıxarmalı idilər.

Gələcək Azərbaycan burjua-demokratik respublikasının prezidenti Ruhulla Axundov olmalı idi.

Stalin Zinovyevlə Kamenevə demişdi ki, siz heç nədən qorxmayıb təşkilatınıza daxil olanların adlarını deyiniz, əvəzində nə sizə, nə də sizin ailələrinizə toxunmayacağıq. Eləcə də Azərbaycanda Mir Cəfər Bağırov Ruhulla Axundova və Mustafa Quliyevə bu şərtləri bildirib onları həbsdən azad edəcəyini vəd etdi. Və bu iki nəfər yadlarına kim düşübsə, hamısını verdilər güdaza. «Fəxri dustaq» kimi, bu iki nəfər ayrıca, hər şeylə təmin olunmuş kameralarda qalırdılar və bunlar yeyib-içib, növbəti «yox» və «xeyr» deyənin yanına gətirilərək «sübut edirdilər» ki, filankəsi mən özüm, şəxsən «bizim təşkilata» cəlb edib filan tapşırıqları vermişəm

Respublika ziyalılarının əksəriyyəti bu iki nəfərin ifadələri əsasında tutulub məhv edilmişdir. Əgər «verilən məlumata» əsasən filankəs etirazında axıracan dururdusa, onda əksər hallarda hər şeyi döyülmələr və işgəncələr həll edirdi.

Bütün tanınmış alim, yazıçı, şair, nazir, mühəndis, həkimlərimizin 1937-38-ci illərdə qətli əsasən Ruhulla Axundovun və Mustafa Quliyevin boynundadır (o biri keçmiş nomenklaturamızın 1937-ci ilə qədərki fəaliyyəti haqqında, vaxt gələr, söhbət edərik).

Deməli, R.Axundov Gəncə Toxuculuq kombinatının direktoru Rəfiyev İnayəti rəhbərlik etdiyi əksinqilabi antisovet millətçi təşkilatına cəlb edir və tapşırır ki, o, öz növbəsində Gəncədəki təşkilata ayrı-ayrı inanılmış adamları cəlb etsin. Rəfiyev İnayət də işə başlayıb Gəncə fəallarından bir neçəsini bu təşkilata cəlb edir; o cümlədən də Süleymanov Firuzu. Rəfiyev -lazım olan ifadələri verdikdən sonra cəzasını alır, amma ifadələri əsasında Süleymanov həbs edilir.

Süleymanov Firuzun 10936 №-li cinayət işi dörd clddən ibarət olub, həcmi 1200 səhifədən artıqdır. Onu əksinqilabi millətçi, üsyançı təşkilatın Gəncə bölməsini yaratmaqda, bu təşkilata başqa inanmış adamları cəlb etməkdə və Toxuculuq kombinatında təxribat işlərinin görülməsində təqsirləndirirdilər. Kombinatın işinin hərtərəfli yoxlanılması üçün 10-dan çox müxtəlif yoxlayıcı ekspert komissiyalar işləyirdi və bu yoxlamalar da il yarım vaxt apardı. Süleymanov isə həbsdə qalırdı və yeddi dəfə Gəncədə dindiriləndən sonra 38-ci il aprelin 8-də Bakıya – DTK-nın 3-cü şöbəsinin sərəncamına göndərilir. Bakıda əlavə beş dəfə dindirilib.

Uzun-uzadı təftiş, ekspert və yoxlamalar Süleymanovun baş mexanik işlədiyi toxuculuq kombinatında təxribatlar və ya ziyankarlıq baş verdiyini sübut etmədi və bununla ona Azərb. SSR CM-nin 69, 70 və 72-ci maddələri ilə isnad edilən cinayətlər üzərindən götürüldü. Toxuculuq kombinatının dindirilən onlarla işçisinin, demək olar ki, hamısı ifadələrində Süleymanovun yüksək bilikli mütəxəssis olduğunu və canla-başla kombinata xidmət etdiyini göstərdilər.

Birinci dindirmədə hər şeyi inkar edən və müstəntiqin suallarını rədd edən Süleymanova yuxarıda dediyimiz üçüncü üsul dindirməsini tətbiq etdilər. Vəhşicəsinə döyülməsi nəticəsində o, tab gətirməyib ikinci dindirilməsində «hər şeyi» boynuna alır:

Lixaçov: «İstintaq bir daha sizə əksinqilabi millətçi, üsyançı təşkilatda iştirak etməyiniz haqda ifadə verməyi məsləhət görür».

Süleymanov: «Birinci dindirmədə mən yalan demişəm. Boynuma alıram ki, mən – Süleymanov Firuz, Kirovabadda olan əksinqilabi millətçi üsyançı təşkilatın üzvü idim».

Lixaçov: «Sizi əksinqilabi millətçi üsyançı təşkilata kim və nə vaxt cəlb edib?»

Süleymanov: «Əksinqilabi millətçi üsyançı təşkilata məni 1936-cı ilin iyun ayında Kirovabaddakı Toxuculuq kombinatının keçmiş direktoru Rəfiyev İnayət cəlb edib. O, mənə aşağıdakı tapşırıqları verib:

1. İstehsalatın planlaşma və fəhlə qüvvəsinin istifadə sahəsində ziyankarlığı həyata keçirib qeyri-real planları tərtib etmək;

2. Əhali arasında Sovet hakimiyyəti əleyhinə narazılıq yaratmaq məqsədi ilə ətrafımda olanların arasında antisovet əksinqilabi millətçi təbliğat aparmaq;

3. Antisovet əhval-ruhiyyəli şəxsləri müəyyən edib, onları əksinqilabı millətçi istiqamətdə dilə tutmaq və etibar edib, bel bağladığım adamları bizim əksinqilabi millətçi üsyançı təşkilatımıza cəlb etmək.

Lixaçov: «Təşkilatınıza kimi cəlb etmisiniz?»

Süleymanov: «Baş mexanik müavini Əlizadə Əsgəri, elektrik təsərrüfatı istifadə bölməsinin məsul icraçıları Rəcəbov Hacıbalanı, Əsgərov Cəlalı, Cabbarov Mamedi və Hüseynov Qəzənfəri».

Haqsız həbs edilən Süleymanov Firuza birinci ittihamnaməni 1939-cu il mayın 3-də elan etdilər. Lakin iş məhkəməyə gedib çatmadı, çünki onu həbs edənlər özləri görürdülər ki, iş başdan-başa fırıldaqdır, əsassızdır. Süleymanov isə 1938-ci il martın 2-dən həbsdədir! Ha qurdaladılar, ha axtardılar, amma sanballı bir şey tapılmadı ki, tapılmadı.

1939-cu il iyulun 31-də Süleymanov Firuz DTK-nin rəhbərliyinə şikayət yazır:

«Mən qəti surətdə bildirmişəm və yenə də bildirirəm ki, heç bir əksinqilabi təşkilata üzv olmamışam və Rəcəbovu, Əlizadəni və başqalarını bu təşkilata cəlb etməmişəm. Kombinatın keçmiş direktoru Rəfiyevin haqqımda yazdıqları yalan və böhtandır.

Özüm haqda və başqaları haqqında böhtan dolu ifadələri verməyə məni məcbur ediblər. Bu barədə mən üç ərizəmlə Zaqafqaziya hərbi prokurorluğuna və Azərb. SSR prokurorluğuna müraciət etmişəm.

DTK-nın Kirovabad şəhər şöbəsinin keçmiş rəis müavini olan Lixaçovun mənə qarşı tətbiq etdiyi amansız fiziki repressiyaları və zorakılıq məni yalan və böhtanlı ifadələr verməyə məcbur etdi. İndi, halımın normal vəziyyətində doğru ifadə və izahat verməyə imkanım var və mən bütün səmimiyyətimlə bəyan edirəm ki, mən heç bir əksinqilabi təşkilatda olmamışam və bu haqda heç xəbərim də olmayıb. Mən böhtan qurbanı olmamalıyam!»

1939-cu il sentyabrın 23-də ikinci ittihamnamə tərtib olundu:

«Süleymanov Firuz Ələsgər oğlu Azərb. SSR CM-nin 72 və 73-cü maddələri ilə təqsirləndirilir ondan ötrü ki:

1. O, Azərbaycanda fəaliyyət göstərən əksinqilabi millətçi üsyançı təşkilatın üzvü idi;

2. O, Azərbaycandakı Sovet hakimiyyətinin zorla devrilməsi üçün əksinqilabi təşkilatın hazırladığı silahlı üsyan haqqında xəbərdar idi;

3. O, əksinqilabi təşkilata 5 nəfəri: Rəcəbov Hacıbalanı, Əlizadə Əsgəri, Əsgərov Cəlalı, Cabbarov Mamedi və Hüseynov Qəzənfəri cəlb edib, onların əksinqilabi fəaliyyətinə başçılıq edirdi».

1939-cu il oktyabrın 2-də Süleymanovun «cinayət işi» DTK-nın Xüsusi müşavirəsinə (üçlüyə) verilir. 1940-cı il fevralın 9-da (həbs olunandan iki il sonra!) DTK-nın Xüsusi müşavirəsinin 10 nömrəli protokoluna əsasən «antisovet millətçi təşkilatda iştirakına görə» Süleymanov Firuz Ələsgər oğlu beş il müddətinə islah-əmək düşərgəsinə göndərilməklə azadlıqdan məhrum edildi.

1940-cı il fevralın 10-da Süleymanov Firuz «Şimal-Şərq düşərgəsinə» (Sevvostlaq) sürgün edildi. Orada da (Yakutiyada) bu fani dünyanı tərk etdi (Allah ona rəhmət etsin!)

1956-cı il avqustun 4-də Azərb. SSR Ali Məhkəməsinin qərarı ilə DTK-nın Xüsusi Müşavirəsinin 1940-cı il 9 fevral tarixli qərarı ləğv edildi və Süleymanov Firuz Ələsgər oğlunun hərəkətində cinayət tərkibi olmadığı üçün işinə xitam verildi.

## MÜNDƏRİCAT

ÖN SÖZ .......... 5

ƏSL QIRIM ƏRƏFƏSİNDƏ .......... 8

1930-CU İLİN FACİƏSİ .......... 24

QADINLARIMIZ – QURBANLARIMIZ .......... 59

ACI TALELƏR .......... 200

DOSTUM HACI ZEYNALOVUN ƏZİZ XATİRƏSİNƏ .......... 280

HÖKM .......... 293



Az 2017
841

Əsasən 1937-1939-cu illərdə xalqımızın bir çox görkəmli elm, incəsənət və mədəniyyət xadimləri stalinizmin amansız repressiyalarının qurbanı olmuşlar. Görkəmli tarixçi-alim, Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadov «Qırmızı terror» kitabında bu şəxsiyyətlərin hər birinin uydurma «cinayət işi» barədə ayrıca oçerk yazmışdır. Kitabda Y.V.Çəmənzəminli, B.Çobanzadə, A.Şərifzadə, H.Zeynallı, M.Cuvarlinski, T.Şahbazi və b. yaradıcı ziyalıların saxta dəlillər əsasında məhkum olunduğu inandırıcı surətdə açılıb göstərilir.

ISBN 978-9952-36-325-8

9 789952 363258

www.qanun.az

7.99 ₼

QANUN NƏŞRİYYATI
kitab sifarişi (012) 431-16-62
və www.qanun.az saytında
www.fb.com/qanunpublishing